AYDIN PAŞAYEV

“XƏMSƏ”DƏ İŞLƏNƏN XÜSUSİ ADLARIN İZAHLI LÜĞƏTİ

(Poetik onomastikon)

Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 12 aprel 2013-cü il tarixli iclasının (protokol №4) qərarı ilə çapa məsləhət görülmüşdür.

BAKI – 2013

Elmi redaktoru: **Qara MƏŞƏDİYEV**
Filologiya elmləri doktoru, professor

Rəyçilər: **İsmayıl MƏMMƏDOV**
Filologiya elmləri doktoru, professor;
Əzizxan TANRIVERDİ
Filologiya elmləri doktoru, professor;
Rübabə ƏLİYEVA
dosent

Aydın Paşayev. "Xəmsə"də işlənən xüsusi adların izahlı lüğəti (Poetik onomastikon), Bakı, 2013.

Oxuculara təqdim olunan bu onomastikonda (xüsusi adlar lüğətində) Azərbaycan intibahının ən qüdrətli və ensiklopedik biliyə malik olan görkəmli şairi Nizami Gəncəvinin poemalarında istifadə olunan bütün xüsusi adlar(antroponim, toponim, kosmonim, teonim, etnonim, mifonim, ideonim, ktematonim, xrononim, zoonim, fitonim və s.) və obraz adı kimi işlənən bir çox apelyativlər dilçilik (leksik, etimoloji, üslubi), ədəbiyyatşünaslıq, tarixilik və s. aspektdən izah olunmuş və onların poetik-üslubi xüsusiyyətləri aydınlaşdırılmışdır.

P $\frac{3202050000}{098 - 2013}$ qrifli nəşr

© Aydın Paşayev, 2013.

Nizami Gəncəvinin anadan olmasının
870 illik yubileyinə həsr olunur.

ÖN SÖZ

Onomastikon – xüsusi adlar lüğəti deməkdir. Onun toponimikon (toponimlərdən düzəlmiş lüğət), antroponimikon (əsl adlar, soy adları və ya təxəllüslərdən və s. ibarət lüğət), kosmonimikon (səma cisimlərinin adlarından ibarət lüğət), zoonimikon (heyvan və quş adlarından ibarət lüğət), fitonimikon (bitki, meyvə və tərəvəz adlarından ibarət lüğət) və s. kimi növləri vardır.

Adi lüğətlər kimi onların da izahlısı və ya izahsızı (sadəcə olaraq, müəyyən növ onimin sıra ilə düzülüşü), yəni orfoqrafiki olur.

"Xəmsə"də işlənən xüsusi adların izahlı lüğəti (Poetik onomastikon") dedikdə isə "Xəmsə"də olan bütün xüsusi adların (antroponim, toponim, agionim, kosmonim, mifonim, ideonim, zoonim, fitonim və s.) əlifba sırası ilə ümumi izahlı lüğətini nəzərdə tutmaq lazımdır. Yəni xüsusi ad kateqoriyaları ayrı-ayrılıqda yox, qarışıq şəkildə onomastikona daxil edilmişdir.

Burada onomastikanın müxtəlif sahələrinə aid olan onimlər əsasən leksik mənaları və etimoloji xüsusiyyətlərinə görə izah olunmuşdur. Bəzi adlar isə ənənəvi şəkildə ərəb və fars dili baxımından deyil, Azərbaycan dilinin öz imkanları nöqteyi-nəzərindən araşdırılmışdır.

Bədii əsərlərdə xüsusi adlar, adlandırma funksiyasından əlavə, müəyyən poetik səciyyə də daşıyır. Ad özü haqqında izahedici məlumat verir. Sanki ad danışır və özünün məna və funksiyasından, əsərdə daşıdığı vəzifədən, obrazın xarakter və xarici görünüşündən, taleyindən xəbər verir. Bunlardan əlavə, "Xəmsə"də zəngin məcazi məna daşıyan adlar da çoxdur. Və yaxud obraz adı kimi işlənən Nuşirəvan, Xosrov, Nüşabə, İsgəndər və b. şəxs adları çox yerdə məcazi ad funksiyasında işlədilir. Coğrafi obyekt adları da şairin məqsədindən asıli olaraq bir yerdə həqiqi, başqa bir yerdə isə məcazi ad kimi təqdim olunur.

"Xəmsə"də ən çox məcazi antroponim (Musa, Yunis, Yusif, Vis, Vamiq, Əzra, Samiri, İbrahim, İsmayıl, Əfrasiyab, Sam, Zal, Rüstəm və b.), məcazi toponim (Nil, Şimal, Cənub, Şərq, Qərb, Hind, Çin,

Həbəş və s.) kimi işlənən adlar da çoxdur. Bunlardan əlavə, şair eyni əsər daxilində anaforik (İskəndər-İskəndərus, Rum-Rus, Yunis-Yusif, Zeyd-Zeynəb və s.), epiforik (Musa-İsa, Amiri-Samiri, Məhəmməd-Əhməd, Mikayıl-Cəbrayıl, Harut-Marut, Qıntal-Kupal, Yəcuc-Məcuc və s.), antonim (Xeyir-Şər, Çin-Həbəşistan – ağ və qara mənasında, Şimal-Cənub, İran-Turan və s.), sinonim (Şirin-Şəkər, Əsəd-Şir, Sur-Öküz bürcləri, Tərəzi-Mizan və s.), omonim (Bəhram şəxs adı və Mars planetinin adı; Nərsi-Bəhram Gurun qardaşı və onun Rast-Rövşəndən əvvəlki vəzirinin adı, Münzir-baba və nəvə adı və s.) kimi işlənən adlar da onomastikonda bu və ya digər şəkildə izah olunmuş, xüsusi adın ümimi, ümumi adın xüsusiyə bənzədilməsi öz əksini tapmışdır. Onomastikon sırf poetik xüsusiyyətə malik olduğu üçün "poetik onomastikon" adlandırılmışdır.

Rus onomastikasında XX əsrin 80-ci illərində A.S.Puşkinin və M.Qorkinin əsərlərində işlənən xüsusi adların lüğətinin hazırlanması sahəsində ilk addımlar atılmışdır, lakin tamamlanmamışdır. Azərbaycan poetik onomastikasında isə bu lüğət ilk nümunədir.

"Xəmsə"də istifadə olunan antroponimlərin hamısı, toponim, mifonim, zoonim, fitonim və b. onimlərin isə əksəriyyəti Şərq ədəbiyyatında müəyyən simvolik mənalara malik olduqları üçün lüğət rus dilində yaranan belə onomastikonlardan həm məzmun, həm də forma cəhətcə fərqlənəcəkdir.

Onomastikon "Xəmsə"də istifadə olunan bütün onimləri (eyni adların təkrarları, təkrar bənzətmələr müstəsna olmaqla) əhatə edir. Ayrı-ayrı əsərlərdə müxtəlif variantlarda yazılan (Firudin-Firidun, Mənzər-Münzir, Simurq-Simruğ, Sövr-Sovr-Sur, Elburus-Əlbürz, Fur-Fovr, Xülləx-Xəllux və s.) adlar da onomastikona daxil edilmiş və izahı verilmişdir.

Onomastik birləşmələr, adətən öz məna və formalarına görə iki cür olur: sabit (məs.; Bakı soveti, Xəzər dənizi, Masallı rayonu, Talış dağları, Səməd Vurğun, "Yeddi gözəl", "Yeraltı çaylar dənizə axır", "Qarabağ şikəstəsi" və s.) və sərbəst onomastik birləşmələr. Sabit onomastik birləşmələr dilimizdə artıq xüsusi ad birləşməsi kimi formalaşmış və onların komponentlərinin yeri sabitdir.

"Xəmsə"də birinci komponenti sabit (və xüsusi ad), ikinci komponenti isə sərbəst (və ümumi) olan minlərlə xüsusi ad vardır.

Məs. Məcnunun zənciri, Məcnunun səsi, Məcnunun bağrı, Məcnunun qəlbi, Məcnunun ahı, Məcnunun dərdi, Məcnunun ürəyi, Məcnunun üzü, Leylinin xəyalı, Leylinin saçları, Leylinin yurdu, İran əsgəri, Kəyan rəsmi, Günəş xəzinəsi, Nilin mənbəyi, Kəyan ovlağı, Ərəb başları, Kəbənin qapıları, Kəbə halqası, Firudin şənliyi, İskəndər eşqi, Nüşabə eşqi və s.

"Xəmsə"də olan bu kimi sərbəst onomastik birləşmələr də onomastikona daxil edilməmişdir.

Folklorda olduğu kimi "Xəmsə"də də bir çox alleqorik və digər apelyativ obraz adlarından geniş istifadə olunmuşdur. Lakin onların hamısı ümumi adlar kimi kiçik hərflərlə yazılmışdır. Onların obraz adı kimi işlənməsini nəzərə alaraq, bu cür adlar (Məs. Qarı, Dəllək, Vəzir, Ox, Tülkü, Qoca Çoban, Cavan, Əkinçi və s.) xüsusi adlar kimi böyük hərflərlə yazılmış, həmin adların əsərlərdən gətirilən nümunələrdəki şəkli saxlanmışdır.

Onomastikonun tərtibi zamanı "Xəmsə"nin müxtəlif illərdə nəşr olunmuş ayrı-ayrı əsərlərində və onların filoloji tərcümələrində olan "İzahlar"ından, Xaqani Şirvani, Fəxri Gürgani, Əmir Xosrov Dəhləvi və digər klassik sənətkarların əsərlərinə yazılmış "İzahlar"dan, digər müvafiq əsərlərdən və lüğətlərdən geniş istifadə olunmuşdur.

Biz "Xəmsə"də işlənən poetik xüsusi adların izahlı lüğətini hazırlamaq fikrinə 1981-ci ildə dahi şairimiz Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyi keçirilərkən gəldik. Məqsəd ölməz sənətkarın 850 illik yubileyinə qədər bu lüğəti ərsəyə gətirmək idi. Lüğət 1987-ci ildə hazır olsa da, "Yazıçı" nəşriyyatında plana salınsa da, ildən-ilə keçirildi və bunun da taleyi "Nizami Gəncəvinin poetik adlar aləmi (Poetik antroponimika)" kitabı kimi (Bu kitabı ancaq 2010-cu ildə nəşr etdirə bildik) uğursuz oldu...

Nəhayət, lüğətin üzərində yenidən işləyib nəşrə hazırladıq. Bu zaman bir çox məsələlərə yenidən baxıldı, bəzi adlar haqqındakı fikirlər dəqiqləşdirildi, bəzi adların iahı isə zənginləşdirildi. Əgər qadir Allah möhlət və imkan versə, poetik onomastikaya aid olan bu ilk lüğəti də nəşr etdirərik, inşallah!

Onomastikon Azərbaycan lüğətçiliyində ayrı-ayrı sənətkarların əsərlərində istifadə olunan adların toplanıb izahlı lüğət şəklində tərtib edilməsi sahəsində ilk təcrübə olduğu üçün, bu sahədə gələcəkdə gö-

rüləcək işlərin başlanğıcı kimi qiymətləndirilməlidir. İkincisi, bəzi alimlər deyə bilərlər ki, belə bir lüğət nizamişünaslar tərəfindən yazılsaydı, daha uğurlu olardı. Elə biz də bu fikirdəyik. Lakin unutmaq olmaz ki, "Xəmsə"dəki adların hərtərəfli izahı üçün təkcə nizamişünas alim olmaq kifayət deyildir. Çünki bu adlar onlara tarixilik, ədəbiyyatşünaslıq və dilçilik nöqteyi-nəzərdən əlavə, əsasən onomastik cəhətdən yanaşmağı tələb edir. Onomastik vahidlər, əsasən mənsub olduğu xalqın adət-ənənəsi və ad sistemi ilə əlaqədar olub, xalqımızın həyatı, məişəti, elmi və dini dünyagörüşü, doğma torpağa və millətə bağlılığı, igidliyi, qəhrəmanlığı, peşə və məşğuliyyəti və s. ilə bağlıdır. Onomastik vahidlər xalqın milli möhürüdür. Adlar özü hansı millətə mənsub olması haqqında müəyyən məlumat verir. Zənnimizcə, "Xəmsə"də işlənən onomastik vahidlər haqqında ancaq adlara hərtərəfli yanaşmağı bacaran onomoloqlar daha düzgün fikirlər söyləyə bilərlər.

Nizamişünas olmasaq da, bu qüdrətli söz ustadının yaradıcılığının vurğunu kimi onun əsərlərindəki onomastik vahidlərin poetik izahlı lüğətini hazırladıq və bununla da Azərbaycan, o cümlədən digər dünya şərqşünaslarının diqqətini bu zəngin xəzinəyə yönəltmək istədik. Amma çox təəssüf ki, o vaxt ancaq professor Əkbər Ağayevdən (Allah onun ruhunu şad etsin!) başqa, heç kim bu əsərə əhəmiyyət vermədi. Ə.Ağayev o dövrdə yazılmış "Nizami Gəncəvinin poetik adlar aləmi" adlı kıtabımıza yazdığı rəydə (Bu görkəmli alim həmin rəyin əlyazmasının üstünü yazıb yadigar kimi bizə bağışlamışdır. Biz bu rəyi ən qiymətli hədiyyə kimi qoruyub saxlayırıq) əsəri yüksək qiymətləndirmiş və indiyə qədər tədqiqata cəlb olunmadığı üçün bu sahədə araşdırmaları genişləndirməyi məsləhət görmüşdü. Lakin bu əsərin çapı ilə daha şox əlaqədar olan bəzi alimlər isə dildə əsəri yüksək qiymətləndirib, arxada nəyə görəsə onun çapının qarşısını almağa nail oldular.

Azərbaycan leksikoqrafiyasında ilk poetik onomastik lüğət olduğu üçün əsər nöqsansız da deyildir. Öz təklif və qeydlərini müəllifə bildirən yoldaşlara əvvəlcədən öz dərin minnətdarlığımızı bildiririk.

Aydın PAŞAYEV

İXTİSARLAR

1. ag. – agionim
2. an. – antroponim
3. ana. – anaforik
4. ant. –antonim
5. ap. – apelyativ
6. ep. – epiforik
7. er. – erqonim
8. et. – etnonim
9. fit. – fitonim
10. hid. – hidronim
11. xat. – xatırlama
12. xron. – xrononim
13. id. - ideonim
14. kos. – kosmonim
15. ktem. – ktematonim
16. məc. – məcazi
17. mif. - mifonim
18. müq. – müqayisə
19. növ. – növ adı
20. om. – omonim
21. on. – onim; onomastik
22. sin. – sinonim
23. teon. – teonim
24. top. – toponim
25. zo. – zoonim

SX - Nizami Gəncəvi. “Sirlər xəzinəsi”. Bakı, 1981.
XŞ - Nizami Gəncəvi. “Xosrov və Şirin”. Bakı, 1982.
LM- Nizami Gəncəvi. “Leyli və Məcnun”. Bakı, 1982.
YG - Nizami Gəncəvi. “Yeddi gözəl”. Bakı, 1983.
İ - Nizami Gəncəvi. “İskəndərnamə”. Bakı, 1982.

Azərbaycan əlifbası

A, B, C, Ç, D, E, Ə, F, G, Ğ, H, X, I, İ, J, K,
Q, L, M, N, O, Ö, P, R, S, Ş, T, U, Ü, V, Y, Z

- A -

Abbas (ag.) – Məhəmməd peyğəmbərin əmisidir. Abbasilər sülaləsinin adı onun adı ilə bağlıdır. Bax: Abbasilər.

Tapdı Harun dövründə növrağını xilafət,
Uca tutdu **Abbasın** bayrağını xilafət (SX-147).

Abbasilər (məc. et.) – Ərəb xəlifələrinin sülaləsidir. Əbu Müslümün üsyanı nəticəsində 750-ci ildə hakimiyyətə gəlmişlər.

Əbu Müslüm isə Əməvilər hakimiyyətinə son qoyan üsyanın başçısıdır. O, müxtəlif təbəqələrin Əməvilərə olan narazılığından istifadə edərək 747-ci ildə Mərvdə (İndi Türkmənistan R. - dadır) üsyan qaldırmış, uzun vuruşmalardan sonra, 750-ci ildə Xəlifə qoşunlarını darmadağın edərək onların hakimiyyətini devirmişdir. Bundan sonra Abbasilər hakimiyyətə keçmiş, Əbu Müslüm isə Xorasana hakim təyin edilmişdir. Lakin Xəlifə Mənsur onun nüfuzundan qorxaraq, Əbu Müslümü 755-ci ildə öldürmüşdür.

Abbasilər sülaləsinin əsasını Əbül-Abbas əs-Səffaf qoymuşdur. Bu sülalənin hakimiyyəti Çingiz xanın sərkərdələrindən Hülaku xan tərəfindən 1258-ci ildə dağıdılır. Onlar Bağdadı buraxaraq Afrikaya qaçmış və Misirdə öz hakimiyyətlərini yenidən quraraq, 1260-cı ildən 1518-ci ilədək burada hökmdarlıq etmişlər. Abbasilərin Misirdəki xilafəti Osmanlı(Türkiyə) dövləti ilə müharibədəki məğlubiyyətdən sonra məhv edilmişdir.

Abbasilər sülaləsinin şüarı qara rəng olmuşdur. Onların bayraqları da, geyimləri də qara rəngdə olardı. Elə buna görə də Nizami Bəhram Gurun qara geyinməsini Abbasilərə bənzətmişdir.

Şəmmas məbədindən çıxıb kənara,
Abbasilər kimi geyinib qara... (YG-134).

Abxaz (top.) – Abxaziya deməkdir. Abxaziyanın bir hissəsi XII əsrdə Bəhram şahın hökmranlıq etdiyi Ərzincan vilayətinə tabe idi. Abxaziya Qara dəniz sahilində yerləşən və Qafqaz xalqlarından olan abxazların yaşadıqları ölkədir.

Xilafət taxtı kimi şahlıq taxtı ucaldı,
Abxazda, Rum elində şanlı qələbə çaldı (SX-41).

Burada Bəhram şahın Abxaziyanı vuruşla almasına işarə olunur və onun taxtı xilafət taxtına bənzədilir.

Ovlağı **Abxazda** və Dərbənddədir (XŞ-38).

Burada isə söhbət Atabəy Əbu Cəfər Məhəmməd Eldəgizdən gedir.

Abxazlar (xat. et.) – Abxaziyada yaşayan xalqın adı. 1139-cu ilin sentyabr ayında Gəncədə baş vermiş fəlakətli zəlzələdən sonra Gürcüstan çarı Gəncəyə hücum çəkərək şəhəri qarət etmişdi. Gürcüstan çarı Gəncəyə hücum etməzdən əvvəl abxazları da qarət etdiyindən şair abxaz və gəncəlilərin bu qətl və qarətə məruz qalmalarını xatırladır.

Yetimlərin malını talamaqdır işin də,
Abxazları soymusan, şirə qalıb dişində (SX-86).

Abxaz. Abxazlar (top. et.) – Abxaz yer, abxazlar isə orada yaşayan xalqın adı. Nizamının təsvirinə görə, İskəndər İranı fəth etdikdən sonra Ərəbistanı, Yəməni, İraqı, Ermənistanı zəbt edir və oradan da Abxaza gəlir.

Oradan da tez hücum etdi **Abxaza,**
Açdı **abxazlara** kindən darvaza (İ-201).

Kindən darvaza açmaq deməklə şair İskəndərin Abxaza hücumla girməsinə işarə edir.

Abi-həyat (məc. mif.) – Dirilik suyu. Guya insanların gözündən iraq yerdə - Zülmətdə (bax) imiş, ondan içənlər daimi yaşayarmış. Ancaq Xızır (bax) bu sudan içərək, ölməzlər cərgəsinə daxil olmuşdur. Şair Şirini Abi-həyata bənzədir.

Pis gözdən gizlənən **abi-həyattək**
Məndən yayınmısan, bu nəyə gərək (XŞ-299).

Ad (et.) – Din tarixinə görə, tayfa adıdır.

Orda **Ad** nəslindən bir pəhləvan var.
Qüdrəti Rüstəmin gücünə çatar (İ-300).

Burada söhbət Abxaz hökmdarı Dəvalidən (bax) gedir.

Ad din tarixində Nuh oğlu Samın nəvəsi Hovsun oğlu və Ərəbistanın Yəmən vilayətindəki Ad tayfasının ulu babasıdır. Şəddad və Şədid Adın oğulları olmuşlar. Yəmən tərəflərdə indi də mövcud olan şəhər, qəsəbə və su yollarının xarabalarından anlaşılır ki, Adın qövmü böyük bir mədəniyyət sahibi imiş. Əf-

sanəyə görə, Hud peyğəmbərin dinini qəbul etmədiyi üçün Ad tayfası şiddətli külək və qasırğada məhv olmuşlar.

Uçarmış Arəşin oxu, deyirlər,
Ad qəbiləsinin nizəsi qədər (LM-53).

Burada Arəşin atdığı ox uçmaqda Ad qəbiləsinin nizəsi ilə müqayisə olunur.

Ad, Şəddad (xat. ep. on.) – İskəndər öz vəsiyyətində keçmiş qəhrəmanlıqlarını xatırlarkən Ad və Şəddad (bax) adlarını da yada salır.

Yıxdım daxmasını – evini **Adın,**
Qəsrini hünərlə açdım **Şəddadın** (İ-584).

Adəm (ag.) – Dini təsəvvürlərə görə, guya bəşəriyyətin atası və dünyada ilk yaradılmış insan və ilk peyğəmbərdir. Allah hər cins torpaqdan bir az qarışdıraraq Adəmi yaratmış və sonra onun böyründən Həvvanı çıxarmışdır. Bunlar Cənnətdə yaşamışlar. Onlara buğda ("Bibliya"ya görə isə alma) yemək qadağan edilmişdir. Bir gün Şeytan onları aldadıb buğda yedirmiş, bu səbəbdən hər ikisi Cənnətdən dünyaya qovulmuşlar.

Şair "Adəmin xilqəti" hekayəsində onun obrazını da yaratmışdır.

Yoxluğa bəxtiyarlıq işığı saçdı **Adəm,**
Varlığın qapısını üzünə açdı **Adəm** (SX-61).
Tökdü yerin saçların cahanın qucağına,
Asilik xalı qoydu **Adəmin** yanağına (SX-23).

Asilik (əsa) "Quran"ın "Taha" surəsinin 119-cu ayəsinə işarədir. Həmin ayədə Adəmin Cənnətdən qovulması şərh olunur: "Adəm öz tanrısına asi olub (qulaq asmayıb) yolundan azdı". Şair "Xəmsə"də dəfələrlə onu tamahkarlığa görə Cənnətdən dünyaya atılmasına işarə edir. Lakin o, dünyanı abad eləyən ilk peyğəmbər kimi də xatırlanır.

Elə başdan-binadan xarabaydı bu aləm,
Onu abad eləyən bir sənsən, bir də **Adəm.**
Bu dünya sarayının qoyulanda təməli,
Suya da, kərpicə də möhtac imiş, deməli (SX-38).

Dini əsatirə görə, Adəm peygəmbər Allahın tikdiyi bu cavan, təzəcə bəzənmiş dünya evi divarının birinci layı, Məhəmməd peyğəmbər isə axırıncı kərpici və bəzəyidir. Beytlərin məzmunu Məhəmmədin hədisindən alınmişdır: "Mənimlə məndən əvvəlki peyğəmbərlərin məsəli ona bənzəyir ki, bir kişi ev tikir, onu bitirir, bəzəyir, lakin birçə daşının tağından (frontonundan) başqa. Mən peyğəmbərlərin sonu olaraq haman damın tağıyam".

Cənnətdən dünyaya atıldıqdan sonra, Adəm öz günahını başa düşdü və günahını etiraf edərək bağışlanmaq üçün Allaha yalvardı. Allah tərəfindən bağışlandıqdan sonra o, peyğəmbər də oldu.

"Günahkaram" deyənin nə qorxusu, nə dərdi?!
Etirafı **Adəmi** peyğəmbərə döndərdi (SX-70).

Adəm, Adəm (tək. ag.) – Şair Adəm peyğəmbər haqqındakı fikirlərini daha da təsirli etmək üçün onun adını təkrar edir.

Cansız buğda nəydi ki, elə alçaldı **Adəm,**
Buğdanın sinəsitək lüt-üryan qaldı **Adəm** (SX-70).

Burada Adəm peyğəmbərin buğda yeyəndən sonra Cənnətdən çıxarılması və Yer kürəsinə düşdükdən sonra buğda kimi çılpaq qalmasına işarə olunur.

Şair insanlara da məsləhət görür ki, tamahkarlıqda Adəmə oxşamasınlar.

Adəm tamah saldığı buğdaya göz dikmə sən (SX-70).

Adəmin asqırığı (xat. on. birləşmə) – Adəm peyğəmbərin asqırığı ilə İsa peyğəmbərin dünyaya gəlməsinə işarə olunur.

Şaha xütbə oxumaq natiqlərə nəsibdir,
Adəm İsa xətrinə **asqırığı** kəsibdir (SX-132).

Dövlət başçısına xeyir-dua deyib xütbə oxumaq yalnız dili qılınc kimi iti və fəsahətli olan şəxsə həvalə olunur. Adəm asqırığı isə İsa peyğəmbərə nəsib olur. Dini əsatirə görə, Adəmin birinci asqırığını Cəbrail (bax) gizlədərək onu Məryəmin (bax) libasının qoluna üfürüb və bunun da nəticəsində Məryəmdən İsayi-Məsih dünyaya gəlib.

Adəmin can kimiyasi (məc. on. birləşmə) – Məhəmməd peyğəmbər Adəmin can kimiyasına bənzədilir.

Mənada **Adəmin can kimiyası**
Surətdə aləmin göz tutiyası (XŞ-29).

Yəni hələ Adəm peyğəmbər dünyaya gəlməmişdən qabaq Məhəmməd peyğəmbər mövcud olmuşdur. Adəmin can kimiyası Məhəmməd tərəfindən yoğrulmuşdur.

Adəm, Qüds, Kəbə (xat. on.) – Ölüm ayağında olan İskəndər keçmiş igidliklərini xatırlayarkən Adəm kimi Qüdsü (bax) və Kəbəni (bax) ələ almasını da yada salır, özünü Adəmə bənzədir.

Adəmtək Qüdsdə elədim məskən,
Kəbə həlqəsinə əl yetirdim mən (İ-584).

Adəm, Məhəmməd (müq. ag.) – Şair Adəmi Məhəmməd peyğəmbərlə müqayisə edir və üstünlüyü Məhəmmədə verir.

İlk zərbəni vurmağa **Adəm** çıxdı irəli,
Qələbə əzmi ilə əsdi çövkənli əli.
Sünbülü görən kimi, atı üstünə cumdu,
Topu ala bilmədi, ah, bu necə hücumdu? (SX-39).

Yəni: Adəm Allahın sözünə qulaq asmayıb buğda yediyi üçün ilk anda peyğəmbərlik topunu ala bilmədi. Məhəmməd isə belə səhvlərə yol vermədi.

Cənnətdən torpağa gəldisə **Adəm,**
O qoydu torpaqdan cənnətə qədəm (İ-414).

Yəni: Məhəmməd Adəm peyğəmbərdən də yüksəkdir. Adəm Cənnətdən çıxarılıb Yerə qovulduğu halda, Məhəmməd peyğəmbər Yerdən Cənnətə getmişdir. Burada Məhəmməd peyğəmbərin Behişti görməsinə işarə olunur.

Adəm, Nuh (müq. ag.) – Həm Adəm, həm də Nuh peyğəmbər insanların ulu babaları hesab olunur. Guya Adəm peyğəmbərdən meydana gələn insanlar Nuh tufanı zamanı məhv olmuşdur. İndiki insanların ulu babası ona görə Huh peyğəmbər hesab olunur ki, guya onlar Nuhun xilas etdiyi ən yaxın qohum-qardaşlarından törəmişlər. Adəm və Nuh adlarının yanaşı işlənməsinin əsas səbəbi də məhz bindan ibarətdir. Şair buna görə də Məhəmməd peyğəmbəri eyni zamanda onların ikisi ilə də müqayisə edir.

Adəmin də, Nuhun da kələfləri dolaşdı,
O dolaşıq düyünü sənin əllərin açdı (SX-38).

Dini əsatirə görə, Adəm Cənnətdən buğda yeyib günaha batdıqdan sonra onun tövbəsi yalnız Məhəmmədin şəfaəti nəticəsində qəbul olmuşdur.

Adil (an.) – Ərəbcə ədalətli, insaflı, düz iş görən mənasında işlənən bu söz Nuşirəvanın (bax) ləqəbidir.

Ülviyyət aləmində yenə də şahdır özü,
Şan-şöhrət sikkəsinə yazıldı "**adil**" sözü (SX-78).

Afaq (an.) – Nizami Gəncəvinin həyat yoldaşı. Onu Dərbənd şahı Nizamiyə töhfə göndərmişdi. Şairin Afaqla keçirdiyi illər həyatının ən xoşbəxt çağları olmuşdur. Afaq sonralar Şirin obrazının yaranmasında mühüm rol oynadı.

Qıpçaq bütüm təki ox kimi süzdü,
Afaq sevgilimin sanki özüydü (XŞ-343).

Afitab (məc. kos.) – Farsca Günəş deməkdir. Məhin Banu öz əsil-nəsəbini Afitaba bənzədir.

Əgər o aydırsa, biz **afitabıq** (XŞ-119).

Axsitan (an.) – Şirvanşah III Mənuçöhrün oğlu Axsitan Şirvanın 19-cu şahı olmuşdur. Onun hakimyyəti (1160-1203) illərində Şirvan İraq Səlcuqilərindən asılı vəziyyətdə olsa da, Axsitan ölkənin istiqlaliyyəti uğrunda bir sıra müharibələr aparmış və qələbələr çalmışdır. Ölkənin siyasi, iqtisadi və mədəni həyatında müəyyən dəyişikliklər yaratmışdır. Nizami Gəncəvi "Leyli və Məcnun" poemasını onun sifarişi ilə yazmışdır (11-154-156; 4-135-144).

Adın **Axsitandır,** özün söz bilən,
Göydəki günəşin ağasısan sən (LM-51).

Ağ bağ (top.) – Bərdədə şah bağı. "Böyük bağ" deməkdir.

Sübh açıldı, Xosrov qalxdı ayağa,
Oradan yollandı birbaş **Ağ bağa** (XŞ-100).

Türk xalqlarında, o cümlədən azərbaycanlılarda ağ rəng ta qədim zamanlardan xoşbəxtlik, işıqlıq, azadlıq, yaxşı gün, səadət mənalarında işlənmişdir. Rəng adı bildirməkdən əlavə, "ağ" həm də böyük, nəhəng, igid, qoçaq, qorxmaz, cəsarətli və s. kimi mənalarını da bildirmişdir. Elə buna görə də türk xalqlarında ağ komponentli xüsusi adlar daha çoxdur.

“Ağ”ın rəng bildirməsindən başqa, bir çox məna və funksiyaları vardır. Bu münasibətlə tarixçi Əbülfəz Əliyev “Tarixin dərin qatlarına doğru” adlı məqaləsində yazır: “Zaman-zaman şaman türklər “ağ” işığı ata, al rəngi günəşə aid etmişlər. Müxtəlif türk tayfaları 99 müqəddəs tanrını müxtəlif rənglərlə rəmzləşdirmiş, öz adlarını gah bu, gah da başqa müqəddəs yaradıcı, yaxud ruhlarla bağlı dəyişdirmişlər. Şərqdə olanlara ağ, Qərbdə olanlara qara, ya da müəyyən böyük bir bölgüdə Şimalda olana qara, Cənubda olana ağ rəngini bağlamışlar. Beləliklə, yüzlərlə çayın, bulağın adı “Ağ su” və “Qara su”, Ağ dəniz, Qara dəniz, Ağdağ, Aladağ, Qaradağ və s. yaranmışdır. Lap qədim çağlarda türklər dünyanın ancaq bütöv olduğunu, ağla-qaranın çuğlaşdığını qəbul edir, sonra ağın qaradan ayrıldığını, onlar arasında sərhəd yarandığını düşünmüş, dünya ikiyə ayrılmış, qara ağdan çox sayılmış, “Qara” böyük mənasında, “ağ” – kiçik mənasında işlənmiş, sonra bu ikisinin ortağı “ala” yaranmış və s. Türklər Qara dəniz sahillərinə qədər özləri ilə şamançılıq dünyagörüşündən doğan inanclar, onqonlar, tanrı adları, çay adları, yer adları daşıyıb yaymışlar. Onlara görə, Ay, ulduz, Günəş, ağac, su, işıq, ruh, insan – nə varsa hamısı bir vəhdətdədir. Hamısı canlıdır, hamısının əsası ölməz ruhlardır” (“Azərbaycan” jur.№ 10, 1989. səh. 130) (bax: Qara, Alan).

“Ağ” və ”qara” rənglər üzərində aparılan müşahidələr bir daha göstərir ki, onlar rəng bildirməkdən əlavə, hər ikisi böyük, nəhəng, igid, qoçaq, qorxmaz və s. kimi mənalarda işlənmişdir. Lakin onlar eyni mənada əks qütbdə dayanmış və antonim çalara malikdir. Zənnimizcə, onların böyüklük və kiçikliyi gecə və gündüzün bir-biri ilə münasibətinə bərabərdir .

Ağ div (mif.) – “Böyük div” deməkdir. Bax: Div.

Ağ div olsa belə, onun oxundan
Söyüd yarpağı tək əsərdi inan (XŞ-56).

Ağ günbəd (top.) – “İşıqlı”, ”parlaq” günbəd deməkdir.

Şah da ağ geyinib yola düzəldi,
Həmən **Ağ günbədin** üstünə gəldi.
Onda ki, şux etmiş göyun Zöhrəsi,
Ağdı Zöhrə kimi onun çöhrəsi (YG-254).

Qədim astroloji anlayışa əsasən ağ rəng və cümə gününü ifadə edən Zöhrə (Venera) planetinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bu günbəddə yeddinci iqlim padşahının qızı yaşayır.

Burada Ağ günbəd Zöhrə planetinə bənzədilmişdir.

Ağsunqur (an.) – Ağsunqar və Ağ şunqar da adlanan Əhmədili Ağsunqar (1131-1134) Marağa və Ruyindiz (Ruyin-Dej) qalasından ibarət olan vilayət hökmdarlığının banisidir.

Ondan **Ağsunqurun** nəsli güc aldı,
Əcdadı kamala yetdi, ucaldı (YG-34).

Burada söhbət Marağa hakimi Körpə Aslan şahdan gedir.

Ağsunqur "Böyük sunqur" deməkdir. Sunqur (sunqar) və ya şunqar şahinlər fəsiləsinə aid quşdur. İriliyi ilə seçilir. Əlçatmaz qayalarda yuva salır. Qədimlərdə ov quşu kimi məşhur olmuşdur. Ağ şunqar quşları xüsusilə daha yüksək qiymətləndirilmişdir. Təsadüfi deyildir ki, XII-XIII yüzilliklərdə Marağa hakimləri tanınmış ağsonqurilərin adı da şunqar, məhz ağ şunqarla bağlı olmuşdur. XII yüzillikdə Gəncə əmiri Qarasonqurun da adı eyni mənşəlidir. Şübhəsiz ki, Azərbaycan ərazisində şunqar (sonqur) adlı tayfa mövcud imiş. Bu tayfanın adı Qaradağ rayonundakı Şonqar qəsəbəsinin və Qutqaşen (indiki Qəbələ - A.P.) ərazisində Şonqar bulağın adında əks olunmuşdur ("Elm və həyat", № 8, 1986 . səh. 23-24).

Alan (top.) – Əsasən Terek çayından başlayaraq Şimali Qafqaz və Don ilə Volqa boyu ərazilərini əhatə edən dövlətin adı . O ərazidə yaşayan xalqın adı ilə əlaqədardır. Alan dövləti o dövrdə öz keçələri ilə məşhur olmuşlar.

Kəyan çadırının dörd yanı bu gün
Alan keçəsi ilə əlvandı bütün (XŞ-101).

"Xəmsə"nin "İzahlar"ında Alan "qədim rus vilayətlərindən biri" kimi izah olunmuşdur. Son dövrlərdə isə bəzi rus onomoloqları "Alan" toponimini rus toponimi kimi yox, fars toponimi kimi izah edir və sübut etməyə çalışırlar ki, alanlar fars dilli xalqlar olmuşlar, halbuki "Alan" toponiminin etimologiyası özü bu problemi həll edir. "Alan" toponimi "al" və "an" hissələrindən ibarətdir. "Al" və bu kökdən düzələn "ala" sözləri həm

qədim türk dillərində, həm də müasir Azərbaycan dilində rəng adı bildirməkdən əlavə, "böyük", "geniş" mənalarını da ifadə edir (Müasir dövrdə "ala göz" dedikdə "iri və parlaq göz" nəzərdə tutulur.) "An" isə qədim dövrlərdən çöxluq və ya məkan anlayışı bildirən bir ünsür kimi türk dillərində mövcud olmuşdur.

Muğan düzünün şimal hissəsinin qədim adı da "Alan düzü" adlanmışdır ki, bu da alanların adı ilə əlaqədardır. Qafqazın Terek (bizcə, bu toponim də "türk" sözündən yaranmışdır) çayı vadisindəki Dəryal dərəsinin qədim adı da "Alan qapısı" adlanmışdır. Bu da orta əsrlərdə Baş Qafqaz silsiləsindən keçən mühüm dağ yoluna sahib olan alanların adı ilə əlaqələndirilir (ASE, I. səh. 212).

Son illərdə o ərazidə yaşayanlar Kutlar toponimini Kurtlaq (Qurdluq mənasında), Ortalan (və ya Artalan) toponimini isə Orta-Alan ("srednyaya polyana") kimi bərpa etmişlər. Lakin rus toponimistləri buna etiraz edirlər. ("Теория и методика ономастических исследований". "Наука". М. 1986. стр.50).

Əgər o ərazidə "Orta Alan" toponimi varsa, demək, Aşağı və Yuxarı Alan da olmalıdır... Bütün faktlar bir daha sübut edir ki, "Alan" türk sözüdür və qədim türk xalqlarının yaşadığı ərazinin adıdır.

Alan, Ərk rusları edərək axın
Yağmur tək ölkəyə etmişdir basqın (İ-312).

Bu da tarixi həqiqətdir ki, qədim Kiyev-Rus dövləti, Dağıstan və Azərbaycan xalqları köçəri rusların yox, poleves, peçeneq, xəzər, qıpçaq və digər türk xalqlarının basqınlarına məruz qalmışlar.

Mirzə Bala "Azərbaycan tarixində türk Albaniya" əsərində Abbasqulu ağa Bakıxanovun dediklərini təsdiq edərək göstərir ki, "Albaniya" ilə "Alan" adlarının bir-birindən alınması ehtimalı vardır ("Azərbaycan" jurnalı, №10, 1989. səh. 127).

L.N. Qumilevin "Otkrıtie Xazarii" kitabında eramızın 80-cı ilinə aid bir xəritə də vardır. Bu xəritədə Alan dövləti Xəzər dənizinin şimalında, dənizin şimal hissəsinin şərqində və qərbində yerləşir. 370-ci ildə Hunlar Alanı işğal etdi (Göstərilən əsər. "Nauka". M., 1966. səh. 91, 99).

S.A.Pletnevanın “Xazarı” kitabında VIII-IX əsrlərə aid xəritədə isə Alanların əvvəlki əraziləri yerində Peçeneqlərin dövləti yerləşir. Alanlar isə Qafqaz dağlarına sıxışdırılmışdır (Göstərilən əsər. “Nauka”. M.,1986. səh. 47).

Bizə elə gəlir ki, Alan dövləti Xəzərin şimalında yerləşsə də, yerli əhalinin çoxunu peçeneqlər, xəzərlər və digər türk xalqları təşkil etmişlər. Elə buna görə də Hunların gəlişi ilə peçeneqlər öz dövlətini, Xəzərlər isə Qafqazın şimalında öz qüvvətli imperiyalarını yaratmışlar.

Bax: Rus, Ağ bağ.

Al geyimli şah (ap. an.) – “Yeddi gözəl” poemasında epizodik obraz adı. Slavyan qızının söylədiyi nağılda Qala gözəlinin (bax) tilsimlərini açan və axırda onunla evlənən Şahzadəyə verilən ad.

Geyindi qırmızı, yaşadı gümrah,
Ona ad verdilər: **Al geyimli şah** (YG-208).

Çox maraqlıdır ki, bu gənc nağılın sonuna qədər Şahzadə adlanır. İgidlik göstərib, tilsimləri sındırıb, suallara cavab verəndən sonra Qala gözəli ilə evlənir, şah olur və bu adı alır. Bu ad vermə “Dədə Qorqud” dastanlarında qəhrəmanlara ad verilməsi ənənəsi ilə bağlı olub, qədim türk ad sistemini əks etdirir.

Allah (teon.) – İslam dininin tək, vahid və hər şeyə qadir Allahıdır. Müsəlmanların təsəvvürünə görə, dünyanı, torpağı, bitkiləri, heyvanları və insanı Allah yaratmışdır. Dünyanın axırı çatanda, Qiyamət günü Allah bütün ölüləri dirildəcək və əməllərinə görə mühakimə edəcəkdir, bəzilərini Cənnətə, bəzilərini isə Cəhənnəmə göndərəcəkdir. İslam dininin Allahı yəhudilərin və xristianların ibadət etdikləri Allahın özüdür. Allah vaxtaşırı peyğəmbərləri adamlar içinə göndərmişdir ki, onlar adamları möminliyə, düzgün yola dəvət etsinlər. Məsələn, Musa (Moisey) və İsa (İsus) belə peyğəmbərlər olmuşlar. Lakin onların davamçıları Allahın əmrlərini, əhdlərini və simasını təhrif etmişlər. Məhəmməd peyğəmbər Allahın adamlar içinə göndərdiyi sonuncu elçidir.

İslama qədərki Ərəbistanda, xüsusən Məkkədə hələ Məhəmməddən də qabaq Allah (Əl-Lat) adında bir məbuda, bütpərəstlərin ən qadir allahlarından birinə sitayiş edirdilər. İslam da

məhz onu yeganə və hər şeyə qadir Allaha çevirmişdir (İslam. Bakı, 1985, səh.32).

Fitrətin səkli göydə yaratsa əks-səda,
Səndən başqa kim deyər: "**Allah** mənəm" dünyada (SX-25).

Alp Arslan (an. birləşmə) – Əzud-əd-Din Əbu-Şüca (1063-1072) Səlcuqilər sülaləsinin ən məşhur və qüdrətli sultanlarından biri, Məlik şahın (1072-1096) atasıdır. O, Vizantiya imperatoru Roman Dioqeni məğlub edib indiki Türkiyənin bir hissəsini tutdu və sonralar Osmanlı Türkiyəsi adı ilə məşhur olan dövlətin əsasını qoydu.

"Alp Arslan" antroponimik birləşməsindəki birinci komponent titul (alp-qədim türk dillərində igid, qəhrəman, qoçaq deməkdir), ikinci komponent isə əsl adıdır və şir, aslan deməkdir.

Ölkələr fatehi Körpə Arslan şah
Alp Arslandan yüksək, olduqca gümrah (YG-34).

Şair Körpə Arslan şahla Alp Arslanı müqayisə edir və üstünlüyü Körpə Arslana verir.

Mirzə Bala "Azərbaycan tarixində türk Albaniya" adlı əsərində türk dillərində geniş yayılmış "Alb", "Alp" və s. formada olan "Alp" sözünün mənaları haqqında yazır: "Romalılar "Ağsu" mənasında Albis, Albios və Alba kəlmələrini işlədirlər. Latıncada "Albos" həm "adlıq" və həm də "işıq" mənasını ifadə edirdi. Ağ şəhər mənasında Alba və Albisin sözlərinə, "Ağ məmləkət" və "Ağ torpaq" mənasında "Albion" kəlmələrinə rast gəlinməkdədir. Bu sonuncu təbir Böyük Britaniyanın da adıdır. Və bu da sahildəki tabaşir qayalarından alınmışdır.

Klassik qərb dillərində "cəsur və qəhrəman" sözləri də "alb" kökündən alınmışdır. Əski qreklərdə "Albion" bu mənada işlənmişdir. Diqqətəlayiqdir ki, Oğuz xanın babası Qara xan zamanında yaşamış bir türk qəhrəmanının da adı "Alban"idi.

Qalcada "dağ və yüksək" mənalarında, uyğurlarda olduğu kimi alp və ya alb, "dağ silsiləsi" və ya "ada dağ" mənasında albanun kəlməsi işlənirdi. Latınlar Alp dağlarının adına Alpas deyirdilər" ("Azərbaycan", № 10, 1989, səh. 128). Bax: Elbrus, Elburus dağı.

Altıncı məzlum (ap. an.) – “Yeddi gözəl” poemasında epizodik obraz adı. Əvvəllər ordu təşkil edən əsgərlərdən biri olub, sonralar Rastü-Rövşən tər əfindən var-dövləti, vəzifəsi əlindən alınan və haqsız olaraq zindana salınan məhbuslardan biri.

Altıncı məzluma növbət ki çatdı,
Öz xumar bəxtini o da oyatdı (YG-291).

Amil (top.) – Xorasan vilayətində Amu-Dəryanın sahilində Mərvdən Buxaraya gedən yolun üstündə yerləşən bir şəhərdir. Vaxtilə ticarət mərkəzi olmuş bu şəhər monqolların hücumu zamanı dağıdılmışdı. “Amili” təxəllüsü ilə tanınan bir çox alim və şairin vətənidir.

Xarəzm çölünü ölçərək biçdi,
Ceyhuna gələrək, **Amildən** keçdi(I-315).

Burada söhbət İskəndərdən gedir.

Amiri (et.) – Məcnunun atası və tayfasının mənsub olduğu qəbilənin adı. “Amiri” ərəbcə “amir” sözündən olub buyuran, əmr edən; başçı; böyük deməkdir.

O imiş başçısı **Amirilərin,**
Abadmış torpağı olduğu yerin (LM-76).

Söhbət Məcnunun atasından gedir.

Məcnunun dayısı Səlim də həmin qəbilədəndir. O, özünü Məcnuna tanıtdıranda “Amiriyəm” deyir. Demək, ərəblərdə də qədim türklərdə olduğu kimi qəbilə (və ya tayfa) adı əsl adı əvəz edərmiş.

Osa cavab verdi:

“**Amiri**yəm mən”... (LM-205).

Amiri, Samiri (ep. an.) – Şair Məcnunun dayısı Səlim Amirini Samiriyə (bax) bənzədir.

Ona deyirdilər Səlim **Amiri,**
Samiri kimiydi ağlı, tədbiri (LM-205).

Amül (top.) – İranın şimalında Mazandaran vilayətində bir şəhərdir. Qədim tarixə malik olan bu şəhər vaxtilə Təbəristanın paytaxtı idi. Bir neçə tarixi qalalara və atəşgahlara malikdir.

Bəhram-Gur yeddi günbəd tikən Şidəyə (bax) bu şəhəri bağışlamışdı.

Bəhram, razı qalsın qoy Şidə, deyə,
Amül şəhərini verdi hədiyyə (YG-132).

“Arami-dil” (id.) – Nəğmə adı olub, “ürək rahatlığı” deməkdir.

İrəm “**Arami-dil**” söyləyir ona (YG-145).

Səmada yerləşən əfsanəvi bağ o qədər gözəl idi ki, hətta əfsanəvi Cənnət bağı – İrəm ona “Arami-dil” deyirdi. Belə halda məna bir az dəyişir: İrəm bağının gözəlliyinə vurulub ona “Ürək rahatlığı” nəğməsini oxuyurdu.

“Arayişi-xurşid” (id.) – Orta əsr Şərq musiqi havalarından birinin adı.

“**Arayişi-xurşid**” salarkən haray
Getməzdi günəşin bəzəyi bir ay (XŞ-168).

Araz (top.) – Kür çayının ən böyük qolu. Bir çox mənada – şumercə “dağıdan çay”, ərəbcə “axan”, ”qaçan”, yunanca “səsküylü” olması güman edilir. Bir sıra mülahizələrə görə, Araz “Ər-Ras” sözündən olub eramızdan əvvəl yaşayan bir padşahın adının təhrif edilmiş formasıdır.

Yenə bu dərgahda torpağı öpər,
Çöldə aşıb-daşsa **Araz** nə qədər (XŞ-43).

Arəş, Ariş (an.) – Rəvayətə görə, qədim İranın əfsanəvi oxatanı olmuşdur. Güya oxu çox uzaq məsafəyə atmaq qüdrətinə malik imiş. Turan hökmdarı Əfrasiyab iranlılara qalib gəldikdən sonra Cəmşid nəslindən olan Mənuçöhr adlı sərkərdəni Təbəristanda həbs edir. Mənuçöhr xahiş edir ki, heç olmasa Ariya torpağından bir ox məsafəsi qədər ona torpaq verilsin. Əfrasiyab bu fikirlə razılaşır. İskəndər adlı bir mələk onun köməyinə gəlir və Mənuçöhrə bildirir ki, ox atmağı Arəşə tapşırsın. O, oxu Arəşə verir. Dəmavənd dağının zirvəsinə çıxaraq Arəşin var qüvvə ilə atdığı ox Təbəristan dağından süzərək Təbəristandan keçib Xorasanda Ceyhun çayının kənarında nəhəng gövdəli bir qoz ağacına sancılır. Bu mahir ox atanın qolu bədənindən ayrılır, özü isə həlak olur. Arəşin sürətli oxu Amul ilə Mərv arasındakı məsafəni qət etdiyinə görə, həmin ox məsafəsini əhatə edən ərazi Mənuçöhrin ixtiyarına keçir. Belə bir uğurlu hadisə mü-

nasibəti ilə Mənuçöhr böyük bayram mərasimi düzəldir və həmin günü "Cəşni-tirkan" (Oxatanlar bayramı) adlandırır. Bu bayram qədimdən İran Günəş ayının 13-də (21-22 iyun – 21-22 iyul) ənənəvi bayram kimi qeyd olunur. Maraqlıdır ki, Arəşin adına "Avesta"da Erexş şəklində təsadüf olunur. Müasir İran şairi Səyavuş Kəsran "Arəşi kamangir" ("Oxatan Arəş") adlı bədii cəhətdən çox qüvvətli bir poema da yazmışdır.

Uçarmış **Arəşin** oxu, deyirlər,
Ad qəbiləsinin nizəsi qədər.
O ox şahımızla yarışsa əgər,
Kamandan çıxmamış torpağa düşər (LM-53).

Burada Şirvanşah Axsitan Arəşin oxu ilə müqayisə olunur.

Bəhram Gurun bəzi əmirləri də özlərini Arəşə bənzədirlər.

"**Arəşi güclüyəm**" deyir digəri (YG-120).

Şair İskəndərin oxluğunu da Arəşin oxluğuna bənzətmişdir.

Oxu məgər **Arış** oxluğundandır
Ki, daşlarda dərin yara ondandır (İ-275).

Arran (top.) – Qafqaz Albaniyası ərazisinin qədim adıdır. Kür və Araz çayları arasındakı ərazini – indiki Mil düzünü, Bərdə, Gəncə və Beyləqan (Örənqala) şəhərlərini əhatə edirdi. İndi Azərbaycanın düzənlik hissəsinə də Aran deyilir.

Arrandan başlamış Ərmənə qədər
Onun fərmanına boyun əyirlər (XŞ-63).

Burada söhbət Məhin Banudan gedir.

Mirzə Bala "Azərbaycan tarixində türk Albaniya" əsərində yazır: "Ağvanlar tarixində Arandan (Ağvanlarda ilk hökmdar) sonra gələn on Arsaklı hökmdarların adları çəkilir. Yafəsdən sonra "Böyük Arsaklar" sülaləsinə qədər 47 hökmdar adı qeyd olunur. Yafəsdən sonra 11-ci hökmdar olan Aran zamanında həzrəti İbrahimin, 12-ci hökmdar olan "Gözəl Aray" zamanında İshaq peyğəmbərin, 32-ci hökmdar Pərç zamanında isə Davud peyğəmbərin gəldiyini söyləyir" ("Azərbaycan" jur., №-10.1989, səh. 126).

Arslan şah (an. birləşmə) – Səlcuq hökmdarı Sultan Məsudun (1135-1152-ci illər) qardaşı II Toğrulun oğludur. II Toğrul öləndən sonra Sultan Məsud Eldəgizi (bax) II Toğrulun az

yaşlı oğlu Arslan şahın atabəyi təyin edir və onu Arrana hakim göndərir. Sonralar Atabəy Eldəgiz Arslan şahın İraqda sultan olmasında həlledici rol oynadı.

Şahların şahıdır, vüqarlı, adil
Adı Toğrul şahdır, özü rəhmdil.
Təxtü-taca çatdı, səltənət qurdu,
Arslan şah yerinə təxtə oturdu (XŞ-33).

Arşimides (an.) – "İqbalnamə"də obraz adı.

Vardı **Arşimides** adlı bir həkim,
Padşaha ən yaxın olan bu nədim... (İ-444).

Arşimides və ya Arşimed (e.ə.282-212) qədim yunan mexaniki və riyaziyyatçısıdır. O, gənc ikən təhsil üçün İskəndəriyyəyə getmiş, o vaxtdan ixtiralara başlamış, Misirin bir neçə bataqlığını qurutmuş və Nil çayına sədlər çəkdirmişdir. Geriyə qayıtdıqda vətəni romalılar tərəfindən mühasirədə idi. Bütün məharət və gücünü vətəninin müdafiəsinə sərf edərək mühasirənin iki il (214-212) uzanmasına nail olmuşdur. Romalılar şəhərə girdikdə Arşimed bir riyazi məsələnin həlli ilə məşğul imiş. Onu həbs etməyə gələn əsgərə: "Gözlə, məsələni həll edim, sonra..." demiş, əsgər isə səbr etməyib Arşimedi öldürmüşdür.

Arşimedin əsərləri bir çox dillərə, o cümlədən, ərəbcəyə tərcümə edilmiş, onlara Şərq alimləri tərəfindən şərhlər yazılmışdır. "İskəndərnamə"dən göründüyü kimi, Nizami bu əsərlərlə yaxından tanış imiş.

Aslan (kos.) – Ərəbcə Əsəd, farsca Şir bürcünün adı.

Səyyaf duman rəngli qılıncla durmuş,
Qılıncı **Aslanın** boynunu vurmuş (LM-186).

Şair Aslan bürcündən məcazi ad kimi istifadə etmiş, onu aslana (zoonimə) bənzətmişdir.

Günəşi göylərdə dolaşan zaman
Sancıb saraltmadı əqrəbtək xəzan.
Tüstülənən bir teşt vardı əlində,
Gəzib od saçırdı o, Zəngdə, Çində.
Yatırdı **Aslantək** iti dırnağı
Gah öküz sarğısı, gah gur dırnağı (İ-568).

“Aslan” sözü Aslan bürcünü bildirir. Günəş bu bürcə daxil olanda havalar çox isti olur. Zəng və Çin sözləri burada ekvatora yaxın isti ölkələri bildirir.

Parçanın mənası: Yay fəsli idi. Günəş çox yandırıcı idi. Hər çıxanda yerə od saçırdı, hərarəti ilə öküzlərin sağrısını və dağ eşşəyinin (gurun) dırnaqlarını yandırırdı.

Atabəy (an.) – Səlcuq sultanları vəliəhdlərinin tərbiyəçisi, vəzifə. Səlcuqilər dövründə meydana çıxmışdır. Atabəy adını daşıyan ilk şəxs sultan Alp Arslanın vəziri Nizamülmülk olmuşdur. Alp Arslan onu oğlu Məlikşaha tərbiyəçi təyin etmiş, iliq, ata, xoca və atabəy adlandırmışdır. Məlikşah sultan olduqdan sonra Nizamülmülkə rəsmi olaraq “atabəy” adı vermişdir (1073). Səlcuqilər dövründə “Atabəy” yüksək vəzifə və titul idi. Atabəylər əmirlər arasından seçilirdi ... Orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində azyaşlı şahzadələrin Atabəyləri tədricən hakimiyyəti əllərinə alırdılar. Atabəy vəzifəsi getdikcə irsi olurdu... (ASE.İ).

Desin – Ey **Atabəy**, sən ey cahangir!
Axı, Nizamiylə bu rəftar nədir? (XŞ-34).
Dövranın hakimi **Atabəy** bütün
Kəsmişdir dünyadan kökünü zülmün (XŞ-36).

Burada “Atabəy” dedikdə Əbu Cəfər Məhəmməd nəzərdə tutulur. Bax: Atabəy Eldəgiz.

Atabəy Eldəgiz (an. birləşmə) – Atabəy Əbu Cəfər Məhəmməd Eldəgiz. İlk Azərbaycan Atabəyi Şəmsəddin Eldəgiz (1136-1174) olmuşdur. Səlcuq hökmdarı Sultan Məsud (1135-1152) qardaşı II Toğrul öləndən sonra Eldəgizi onun (II Toğrulun) azyaşlı oğlu Arslan şahın atabəyi təyin edir və qardaşının dul qalmış qadını Möminə xatunu da Eldəgizə ərə verir. Eldəgizin isə Möminə xatundan iki oğlu olur: Əbu Cəfər Məhəmməd Cahan Pəhləvan (1174-1186) və Müzəffərəddin Osman Qızıl Arslan (1186-1191).

Atabəy Eldəgiz “Əlvida” deyə
Dörd təkbir söylədi yeddi ölkəyə (XŞ-38).

Burada Atabəy Eldəgizin ölümünə işarə olunur. “O, İraqın, Azərbaycanın, Arranın, əl-Cibəlin, Reyin, İsfahanın, Həmədanın və başqa vilayətlərin hakimi idi. O, xoş xasiyyətli insan, ədalətli,

müdrik və səbirli hakim idi. Onun hakimiyyəti günlərində (tabeliyində olan) ölkələr əmin-amanlıq, təbəələri isə dinclik şəraitində yaşayırdılar. Başqa bir mənbə Atabəyin hədsiz qəddarlığını qeyd edir. Eyni zamanda məlumdur ki, o, misilsiz miras qoymuşdur: onun 5000-dən artıq şəxsi məmlükü və on min atı , qatırı və dəvəsi var idi.” (11, 74-75).

“Avest”, “Zənd” (sin. id.) – Bax: “**Avəst**” , “**Zənd**”.

And olsun atəşə, **“Avest”**ə, **“Zənd”**ə (İ-132).

Daranın (bax) İskəndərə (bax) yazdığı məktubdan gətirilən bu nümunədə “Avest” və “Zənd” məzmunca eyni mənaya malik olsalar da, formaca müxtəlifdir.

“Avəst” (məc. id.) – Zərdüştilərin müqəddəs kitabıdır. “Avəst” və ya “Avesta”nın ən qədim variantının müəllifi Zərdüşt (bax) hesab olunur. Bu kitabın yaranması tarixi eramızdan VII-VIII əsr əvvələ təsadüf edir. Rəvayətə görə, Cəmşidin abad etdirdiyi İstəxr qalasında qədim Ariya dövlətinin beşinci hökmdarı Gəştasib öz müasiri Zərdüştün dinini qəbul etdikdən sonra “Avesta”nı inək dərisi üzərində zərlə yazdıraraq həmin qalada mühafizə etdirmişdi. Eramızdan əvvəl IV əsrdə Makedoniyalı İskəndər (bax) İranı istila zamanı, İstəxr şəhərinin bir hissəsini yandırmış, 12 min inək dərisinə yazılmış “Avesta”nı məhv etmişdi. Bu kitab müqəddəs sayıldığından Zərdüşt kahinləri onun ehkamlarını öz hafizəsində yaşatmışdır. Sasanilər (226-651) dövründə “Avesta”nın 350000 sözü əhatə edən mətni 21 kitabdan ibarət dini məcəllə şəklində tərtib olunmuşdu. Bunun yalnız 83000 sözdən ibarət bir hissəsi hazırda elm aləminə məlumdur. Sasani hökmdarı Ərdəşir Babəkan zamanında yenidən bərpa olunmuş “Avesta” orta fars (pəhləvi) dilinə tərcümə edilərək bir sıra şərhlərlə pəhləvi əlifbasına köçürülmüşdü. Zərdüşt dini kahinlərinin hafizəsində yaşayan ayinləri yazıya köçürülərək şərh edilmiş variantı “Zənd Avesta” adlandırılmışdı. “Avesta”nın bir sıra ayinləri hazırda İrandakı kəbrlər və Hindistandakı parslar tərəfindən icra olunur. “Avesta” Yaxın və Orta Şərq xalqlarının dini etiqadları və folkloru ilə əlaqədar olduğuna görə onların qədim müştərək tarixi abidəsi sayılır.

Kömür –hindistanlı bir atəşpərəst,
O da Zərdüşt kimi oxuyur "**Avəst**" (XŞ-102).

Burada kömürün qara rəngi qara mənası verən "hindu" sözü ilə ifadə edilmişdir. Onun od yaratması isə atəşpərəstlərə bənzədilmişdir. Yanan kömür eyni zamanda Zərdüştə, kömür alışarkən çıxardığı səs isə Zərdüştün oxuduğu "Avəst"ə bənzədilmişdir.

Ay (kos.) – Ay planeti.

Üzüqara deyildi yer üzündə **Ay** hələ,
Təşt döyüb etməmişdin sən onu rüsvay hələ (SX-101).

Şair burada Ayla əlaqədar başqa bir hadisəyə işarə etmişdir. Qədim zamanlarda Ay tutulanda teşt və ləyən döyüb səs salardılar. Yəni o zamanlar ki, sən yox idin, Ay tutulanda onun üzü sənin teşt döyərək hay-həşir salmağından da biabır və qara olmurdu.

Ay (məc.kos.) – Ay planeti metaforik şəkildə saqiyə bənzədilir.

Nur camından nur içər gecənin saqisi **Ay**,
Səhərin qumruları damında salar haray (SX-25).

Ay dünyanı öz qaşı ilə işıqlandıran üzüyə bənzədilir.

Ay – zəbərcəd üzükdür, nurlandırır dağ-daşı,
Məhəmməd möhürüylə parlayır onun qaşı (SX-28).

O üzüyə isə parlaqlığı Məhəmmədin möhürü verir.

Gah oldu gül-çiçəyi **Ay** əyninin qumaşı.
Gah Zöhrənin dəfinə dirhəmlərdir şabaşı (SX-53).

Gül və dirhəm ulduzların məcazlarındandır. Burada Ay və Zöhrənin başqa ulduzlarla qarşılaşmasına işarə edilir. Aşağıda Ay metaforik şəkildə insana bənzədilir.

Gecəylə vidalaşıb yatmağa tələsən **Ay,**
Sübhəcən süzdü bizi batmağa tələsən **Ay** (SX-66).

Yəni Ay məclisi görüb gecəni unutmuşdu və bütün günü məclisə tamaşa edirdi.

Fələyin xəzinəsinə inci düzür gecə **Ay,**
O gecənin dərdindən üzülüb gör necə **Ay** (SX-67).

Şair burada da Ayı gecənin dərdindən üzülən şəxsə bənzədir. Aşağıda isə Ay planeti gümüşü ləyənə bənzədilir.

Buludlar-paltar yuyan, **Ay**-gümüşü ləyəndir (SX-89).

Ay çırağa bənzədilir.

Varlığıyla göylərin çırağına dönər **Ay**,
Yağ almasa günəşdən, öz-özünə sönər **Ay** (SX-110).

Şair göstərir ki, Ay öz energiyasını (yağını) Günəşdən alır. Ay dilbərə, İbrahimin (bax) sevdiyi pəriyə bənzədilir.

Göy çadırda **Ay** göyün dilbəridir, dilbəri,
İbrahimin sevdiyi bir pəridir, bir pəri (SX-119).

Təzə Ay gərili yaya bənzədilir.

Bir hilaldır təzə **Ay**- gərili bir yaydır o,
Yetkinliyə çatanda- bədirli bir **Aydır** o (SX-189).

Yəni cavana cavan de, qocaya da qoca. Bədri günahlandırma, o bir müddət cavan və hilal olubdur.

Şair özünü Aya bənzədir.

Şeir-sənət göyündə bədirlənmiş **Ayam** mən,
Bulud nədir, qoymaya öz nurumu yayam mən?! (SX-150).

Atabəy Əbu Cəfər Məhəmməd Eldəgiz (bax) Aya bənzədilir.

Bu **Ayın** üzündən işıq getməsin (XŞ-38).

Yetmiş nəfər qız eyni vaxtda Aya bənzədilir.

Aytək kübar qızlar - düz yetmiş nəfər
Ona gecə-gündüz xidmət edirlər (XŞ-65).

Məcnun (bax) qəbirdə tək qalan Leylini (bax) qəriblik rəmzi hesab edilən Aya bənzədir.

Qismətin **Ay** kimi qəribliksə, bil,
Ayın qəribliyi qəribə deyil (LM-270).

Qədim astrologiyada Ayın hər ayda bir bürcdən və hər gün bir cüt dişciyindən çıxması rəvayət olunurdu. Beləliklə də, iki gün bir yerdə dayanmayan Ay qəriblik timsalı kimi tərənnüm edilmişdir.

Şair eyni zamanda şahzadə Bəhramı Aya, Nemanın qoynunu isə kəcavəyə bənzətmişdir.

Neman şahzadəni apardı, getdi,
Aya öz qoynunu kəcavə etdi (YG-57).

İki şir arasından tac götürən Bəhram Gur iki topa qara bulud arasından görünən Aya bənzədilir.

Arasında o tac qara şirlərin
Bir **Aydı** ağzında iki əjdərin (YG-92).

Qədim təsəvvürə görə, Ay tutulanda guya onu əjdaha udurmuş, odur ki, əjdahanı qorxudub Ayı onun ağzından çıxarmaq üçün mis teşti, ləyəni döyərək səs-küy salardılar.

Şair Ayın quyu suyunda əks olunan şəklini fətirə, Məlik Nüsrətəddinin çöhrəsini isə həmin şəklə oxşadır: Şaha təmənna ilə yanaşanlar Ayın quyudakı şəklini fətir bilib ona can atanlar kimi özlərini fəlakətə salırlar.

Ayı göydə fətir eləyib güman
Çoxları quyuya düşüblər, inan (İ-426).

Şair metaforik şəkildə Ayı İskəndərin mindiyi ata bənzədir.

Ayı yəhərləyən həmin İskəndər
Ölüm yatağına baş qoyub inlər (İ-580).

"Ayı yəhərləyən" ifadəsi "şöhrəti göylərdə gəzən" deməkdir. Yəni: şan-şövkəti bütün dünyaya yayılmış İskəndər başını yerə qoyub ölüm yatağında can verirdi.

Şair ölməkdə olan İskəndəri ayın sonunda görünməz olan Aya bənzədir.

Sanki ərimişdi şah səhərədək
İyirmi yeddinci gecəki **aytək**(İ-589).

Hicri tarixdə ayın iyirmi yeddisində Ay qaralmağa və görünməməyə başlayır. Nizami burada İskəndərin ölümünün sonunu yavaş-yavaş incələn və sönən Ayla müqayisə edir.

Şair əfsanəvi şəbçırağı Aya bənzədir.

Gecə otlağından, sərxoş olaraq
Ay kimi gəlmişdi əldə şəbçıraq (İ-25).

Əfsanələrə görə, şəbçıraq elə bir gövhərdir ki, dəniz atı sahilə otlamağa çıxarkən onu özü ilə çıxarır, işığında otlayır, doyub məst olandan sonra yenə o gövhəri özü ilə dənizə aparır. Nizami burada Büraqı həmin əfsanəvi dəniz atına, Məhəmmədı də həmin nurlu gövhərə bənzədir: at, gövhəri (şəbçırağı) dənizə apardığı kimi, Büraq da Məhəmmədi göylər dənizinə, asimana aparmışdır.

Ay (xat. kos.) – Şair Ayı xatırlamaqla Məhəmməd peyğəmbərin möcüzələrindən birinə işarə edir. Dini etiqadlara görə, Məhəmməd peyğəmbərin möcüzələrindən biri də Ayı barmağı ilə ikiyə bölməsidir. Guya qüreyşilərin rəislərindən Əbu-Sufyan

və Əbu-Cəhl bir dəfə Məkkədə Məhəmməddən, doğrudan da, peyğəmbər olduğunu isbat etmək üçün Ayı barmağı ilə ikiyə bölməyi tələb etmişlər. Məhəmməd peyğəmbər də barmağı ilə Aya işarə etmiş və Ay iki parça olmuşdur. Sonra yenə də barmağını Aya doğru uzatmış, Ay parçaları yenidən birləşmişdir.

Odur öz ağlına eləyən təkyə,
Ayı barmağıyla bölən ikiyə (İ-23).

Ay, Afitab (qoşa məc. kos.) – Afitab (bax) farsca Günəş deməkdir. Şair Ay və Afitabı metaforik şəkildə Məlik Nüsrətəddinin (bax) ovlaya biləcəyi quşa bənzədir.

Fəzada uçarsa əgər üqabı,
Ya **Ayı** ovlayar, ya **Afitabı** (İ-426).

Yəni Məlik Nüsrətəddinin bəxti gətirərsə, ya Ayı, ya da Günəşi ovlayar.

Ay, Afitab, Key Xosrov, Əfrasiyab (qrup məc. on.) – Eyni vaxtda Xosrov (bax) Ay və Keyxosrova (bax), Məhin Banu (bax) və Şirin (bax) isə Afitaba və Əfrasiyaba (bax) bənzədilir.

Məhin Banu Şirinə öyüd verərkən Xosrovu özləri ilə belə müqayisə edir:

Əgər o **aydırsa**, biz **afitabıq,**
O, **Keyxosrov**, biz isə **Əfrasiyabıq** (XŞ-119).

Ay, **Ay** (təkrar kos.) – Şair Ayla bağlı fikirlərini daha dəqiq vermək, onun haqqında yeni söz demək və bu fikirlərinin daha təsirli olması üçün bir beytdə Ay adını iki dəfə təkrar edir.

Gecəylə vidalaşıb yatmağa tələsən **Ay**,
Sübhəcən süzdü bizi batmağa tələsən **Ay** (SX-67).

Ayla bağlı iki hadisəyə - Ayın göyləri işıqlandırmasına və onun Günəşdən qidalanmasına işarə olunur.

Varlığıyla göylərin çırağına dönər **Ay**,
Yağ almasa günəşdən, öz-özünə sönər **Ay** (SX-110).

Ay kosmonimi həm təzə Ay, həm də bədirlənmiş Ay mənasında işlənmişdir.

Bir hilaldır təzə **Ay** – gərili bir yaydır o,
Yetkinliyə çatanda bədirlənmiş **Aydır** o (SX-129).

Ayaz (məc. an.) – Əbülnəcm Oymaq Ayaz. O, Qəznəvilər sülaləsinin yaradicisi Sultan Mahmudun (bax) sevimli qulamı olmuşdur. Sultan Mahmud öləndən sonra Əmir Məhəmmədin sarayından qaçıb Sultan Məsud Qəznəvinin sarayına gəlir. 1105-ci ildə vəfat etmişdir. Ağıllı və cəsarətli olan bu qul ilə Sultan Mahmud arasında olan səmimiyyət və macəralar haqqında "Mahmud və Ayaz" adlı bir sıra mənzumələr yazılmışdır.

Təsadüfi deyildir ki, şair Məhəmməd peyğəmbəri Ayaza bənzətmişdir. Nəinki "Xəmsə"də, hətta klassik ədəbiyyatda Mahmud və Ayazın adı yanaşı işlədilir ki, bu da dostluq və sədaqət rəmzi kimi səslənir.

O bütün xaslardan xas bir **Ayazdır**,
Məsuddan Mahmuda çatmış bir xasdır (XŞ-30).

Ay, Əjdaha (qoşa məc. on.) – Şair eyni vaxtda Fitnəni (bax) Aya, ölümü isə əjdahaya bənzədir.

Bir gün sərhəng şahın imarətinə
Getdi. Şah sordu ki; - Nə oldu Fitnə?
Söylədi ki: - **Ayı** uddu **əjdaha** (YG-105).

Ay, Gün (qoşa məc. kos.) – Kainatı gecə Ay, gündüz isə Gün(Günəş) işıqlandırır. Ay və Gün adlarının bir yerdə işlənməsi "əbədi işıq saçmaq" məfhumunu ifadə edir.

Göylər tac düzəltdirib **Aydan**, **Gündən** adına (SX-01).
Dözümlü insanlar eyni vaxtda Aya, Günə bənzədilir.
Pərdə yırtmaq fələyin, **Ayın**, **Günün** işidir,
Hər əzaba qatlaşmaq dözümlünün işidir (SX-138).

Ay və Gün səmada olarkən guya insanların tənəsinə qulaq asırlar.

Onlar "vəfa" sözünü buza yazan olubdur,
Ay da, **Gün** də tənəyə qulaq asan olubdur (SX-150).

Ayın görünmədiyi gecə, yəni tamam qaranlıq olan gecə el arasında qədimdən bəri qaranlıq quyuya bənzədilir, guya Ay və Günəş bu quyuya düşmüşdür.

Gecə gecə deyil, dibsiz bir quyu,
Ayı da, **Günü** də udmuşdu suyu (İ-417).

Şair “İqbalnamə”əsəri ilə oğlu Məhəmmədi Ay və Günə bənzədir.

Birinin çöhrəsi **Aytək** münəvvər,
Birinin ürəyi **güntək** nur çilər (İ-610).

Ay, Gün, Zöhrə, Ütarid (qrup məc. kos.) – Ay və Gün “Slavyan qızının nağıl”ında təsvir olunan gözəli doğan anaya, Zöhrə və Ütarid isə ana südünə bənzədilir.

Ayla Gündən doğub o şux dilfərib,
Zöhrə və **Ütariddən** ona süd verib (YG-193).

Dilfərib-könül aldadan, məftun edən, cazibədar gözəl deməkdir.

Ay, Günəş (qoşa məc. kos.) – Sarayda olan qızlar Aya, Günəş isə Şirinin kənizinə bənzədilir.

Bir nar məməli qız gələrsə bura,
Saxlayın, qonaqdır, mənə əzizdir.
Siz **Aysınız**, **günəş** ona kənizdir (XŞ-89).

Şirin (bax) Aya, Xosrov (bax) isə Günəşə bənzədilir.

Ay və **günəş** ova hazırlaşdılar,
Şəbdizə, Gülgünə oldular süvar(XŞ-133).

Leyli (bax) özünü Aya, Məcnunu (bax) isə Günəşə bənzədir.

Mən **Ayam**, sən də bir **Günəşsən**, inan,
Mən səndən alıram işığı hər an (LM-196).

Ay və Günəş planetləri çörəyə bənzədilir.

Geniş süfrəsinə göyün yaxşı bax,
İkicə çörəkdir var-yoxu ancaq (YG-38) və s.

Ay, Günəş, Zöhrə (qrup məc. kos.) – Şair eyni vaxtda Leylini Aya, Məcnunu Günəşə və onların arasında qasidlik edən Zeydi Zöhrə ulduzuna bənzədir.

Ay ilə **Günəşin** arasında tək
Qasidlik edərdi o da **Zöhrətək** (LM-239).

Ay, Müqənnə (qoşa məc. on.) – Şapur (bax) tərəfindən çəkilmiş Xosrovun şəkli “Nəxşəb” (bax) Ayına, Şapurun özü isə Müqənnəyə (bax) bənzədilir.

Səhərlər çeşməyə necə gedərdi,
Ayı Müqənnətək necə göstərdi (XŞ-104).

Ay, Müştəri (qoşa məc. kos.) – Şair İskəndərin bəxtini Aya və Müştəriyə bənzədir.

Aytək, **Müştəritək** gecə nur saçan
Parlaq bəxtilə sən bir şəbçıraqsan (İ-505).

Ay, Ülkər (qoşa məc. kos.) – Səmada ulduzlar içərisində Ay çox parlaq görünür və diqqəti daha tez cəlb edir. Buna görə də şair Şirini (bax) Aya, onun rəfiqələrini isə Ülkərə (ulduza) bənzədir.

Şirin də o şirin ləblər içində
Aya bənzəyirdi **Ülkər** içində (XŞ-71).

Ay, Zöhrə (qoşa kos.) – Zöhrə (bax) ulduzu çox parlaq olduğu üçün şair tez-tez onu Ay planeti ilə yanaşı işlədir.

Gah oldu gül-çiçəyi **Ay** əyninin qumaşı,
Gah **Zöhrənin** dəfinə dirhəmlərdir şabaşı (SX-53).

Ay, Zöhrə (qoşa məc. kos.) – Məhəmməd peyğəmbər (bax) Ay və Zöhrənin məşəlinə bənzədilir.

Fələk kəcavəsinə göz olmuşdu gözüylə,
Ay, **Zöhrə** məşəlinə gəzdirirdi özüylə (SX-29).

Azərbaycan (top.) – Dünyanın ən qədim və zəngin ölkələrindən biri. Azərbaycanın elmə məlum olan adlarının ən qədimi Atropatendir. Bu ad yunan mənbələrində göstərilmişdir. Sonralar onun şəkli dəyişərək iranlılarda “Adərbadaqan”, ermənilərdə “Atər-padaqan” və “Atrpataqan”, ərəblərdə “Adərbaycan” və “Azərbaycan” formalarını almışdır. Həmin sözlər “Odlar ölkəsi” deməkdir ki, bu da ölkədə atəşpərəstliyin geniş surətdə yayılması ilə əlaqədardır (Azərbaycan tarixi. İ c., Bakı,1961 .s.58).

Yüz hiyləylə qaçıb o yan-bu yana,
Yetirdi özünü **Azərbaycana** (XŞ-115).

Burada söhbət atasının qəzəbindən xilas olmağa çalışan Xosrov Pərvizdən gedir.

Son tədqiqatlarda “Azərbaycan” haqqında daha maraqlı fikirlər söylənilir. Məsələn: istedadlı alim-şair və jurnalist Sabir Rüstəmxanlı yazır: “Azərbaycan” sözünün kökünü Atropatanna ilə bağlamaq ağlıma batmır. Çünkü Atropatdan neçə yüz il öncə Zərdüşt “mənim müridlərim-od qoruyanlarım-azərbanlarım hər yana yayılıb, yurdumuz Azərbaqana dönüb” demişdi. Əksinə, tarixi

şəxsiyyət olan Atropatın adı da yəqin elə həmin köklə, odla bağlıdır. Bugünki dilimizdə ilkin mənalarını qoruyan Az-ər-bay-can tərkibləri də göstərir ki, bu söz Atropatandan çox-çox qədimdir...

"Cəmi ət-Təvarix" əsərinin müəllifi Rəşidəddin XIV yüz ildə və Məhəmmədhüseyn ibn Xələfi Təbrizi isə XVII yüz ildə yanlış ənənələri qıraraq Azərbaycan sözünün mənasını sözün özündə axtarmışlar. Adını sonuncu çəkdiyimiz alim qeyd edirdi ki, azər türkcə uca, baycan isə böyük, əsl-nəcabətli adamlar mənasını verir. Bu sözün Atar-od yozumunda od başlanğıcına üstünlük verilir və ata sözü də bu köklə bağlıdır. Azərbaycan alimlərinin sonuncu araşdırmalarında haqlı olaraq bu sözün kökü öz doğma dilimizdə axtarılır. Biz sonuncuların tərəfindəyik...

Azərbaycan – yəni azər xalqının tanındığı və sitayiş etdiyi yer!.. Azər od sözündən yaranmayıb-öz xalqının adıdır! Lakin onlar bu odlu torpağa tapınıblar, bu torpağın üstündə yaşayıblar. Təsadüfi deyil ki, bədii ədəbiyyatımızda, klassiklərimizin əsərlərində Azər baba elin atası, kökü, ağsaqqalı, soyun başlanğıcı hesab edilir, azərbaycanlılar da Azər babanın törəmələri sayılır. Bu fikri Azərbaycan sözünün geniş yayılmış Azərstan variantı da təsdiq edir. Bu yozum sayı təxminən iyirmi milyondan çox bir xalq üçün əziz olan sözün 4000-5000 il irəlidəki köklərinə aparıb çıxarda bilir! ("Azərbaycan", №8, 1986.s.152-153).

Aqillər məsləhət gördülər ona:
Oradan tərpənsin **Azərbaycana** (İ-174).

Burada isə söhbət İskəndərdən gedir.

"Azərbaycan" sözünün qədimliyini hazırda Amerikanın Metropoliten muzeyində saxlanılan "Şərqin ən qədim xəritəsi"indən də bilmək olur... Xəritədə tarixi çox qədimə gedib çıxan Şumer, Misir, Urartu, Assuriya, Suriya kimi ölkələrlə yanaşı, Azərbaycanın da adı, onun yeri qeyd olunub. Bu xəritə bir daha sübut edir ki, "Azərbaycan" sözü heç də güman edildiyi kimi yaxın dövrlərin "tapıntısı" deyil, əksinə çox-çox qədimlərdən mövcuddur" (Əjdər Fərzəli. "Azərbaycan" sözünün işığında", "Elm və həyat", №8,1986. s.20).

Göründüyü kimi Azərbaycan sözünün etimologiyası haqqında çoxlu müxtəlif fikirlər vardır. Görkəmli türk tarixçisi Rza

Nur bu sözü Xəzər tayfasının adı ilə bağlayır. Onun dediyi kimi, eramızdan əvvəl ölkəmizin ərazisində haqqında məlumat verilən ilk türk tayfası xəzərlərdir. Rza Nura görə, bu söz xəzər-xazər və həzər-hazər şəkillərində olub; sonralar ilk samit -x və ya -h düşmüş, azər forması alınmışdır...

Son məlumatlara görə, hal-hazırda dünyada 50 milyondan çox azərbaycanlı mövcuddur. İranda 36, Azərbaycanda 9, Türkiyədə 3, Rusiyada 3, ABŞ-da 1,5, İraqda 1,5 milyondan çox və başqa ölkələrdə azərbaycanlı yaşayır.

Azərgüşəsb (top.) – İranın qədim padşahlarından sayılan Güştasbın tikdirdiyi məşhur bir atəşkədədir. Iskəndər onu dağıdıb, içindəki xəzinələri və nəfis şeyləri ələ keçirmişdir.

Qızıldan nal vurmuş möbidin atı,
"**Azərgüşəsb**" idi o yerin adı (İ-258).

Demək, "Azərgüşəsb" adı "Azər" (Günəş və od mələyinin adı) və "Güştasb" adının fonetik cəhətcə dəyişməsindən və mürəkkəb söz halında birləşməsindən yaranmışdır.

Azər Humayun (mif.) – Mifoloji obraz adı. İsfahan şəhərində məşhur bir atəşgədəni dağılmaqdan qoruyan mələk.

O cadunun adı **Azər Humayun**,
Sam nəslindən idi nəsəbi onun (İ-175).

Azər – qədim İran atəşpərəstlərinin etiqadınca, Günəş və od vəkili olan bir mələkdir. Oda və payızın üçüncü ayına da azər deyilir. Humayun isə farsca uğurlu, səadətli, mübarək; padşaha məxsus deməkdir. Azərbaycan klassik muğamlarından birinin adı da "Hümayun" adlanır.

"Azər Humayun" – "uğurlu, səadətli Azər" deməkdir. Bu ad həmin obrazı da düzgün xarakterizə edir.

Azəryun (an.) – "Yeddi gözəl" poemasında Xəvərnəq (bax) sarayında şəkli çəkilən gözəllərdən biri və obraz adı. O, Məğrib padşahının qızıdır.

Məğrib padşahının **Azəryun** qızı,
Nura qərq eyləyən günü, ulduzu (YG-75).

Bizə elə gəlir ki, "Azəryun" adı "Azər Humayun" (bax) adının qısaldılmış formasıdır.

- B -

Babil (məc. top) – Babil (Vavilon) qədim Babilistanın (bax) paytaxtı idi. Yüksək mədəniyyəti ilə tarixdə şöhrət qazanmış Babilistanın və qiymətli sənət abidələri bu şəhərdə mərkəzləşmişdi. İndi tamamilə məhv olmuş bu şəhər haqqında qədim Şərq ədəbiyyatında, dini əfsanələrlə əlaqədar bir çox rəvayətlər mövcuddur.

Gəncə-Harut sehrli **Babil** deyil, bəs nədir?
Ürəyim ulduzlara nur saçan bir Zöhrədir (SX-52).

Babilin Harut sehrli olması haqqında bax: Harut. Burada Gəncə Harut sehrli Babilə bənzədilir.

Babil dağları (məc. top.) – Şirin Pəriyə, Şirinin vətəni isə Pərilər məskəni olan Babil dağlarına bənzədilir.

Var burda bir afət, gözəl, füsunkar,
Babil dağlarından gəlib son vaxtlar (XŞ-98).

Babil Harutu (məc. mif.**)** – Şapur Şirini Babil Harutuna bənzədir. "Babil Harutu" isə çox vaxt öz gözəlliyi ilə insanı əfsunlayan qadın və ya qız mənasında da işlənir.

Babil Harutusa onun camalı,
Hindu cadugərsə o qara xalı (XŞ-278).

Babil quyusu (məc. mif.**)** – Nizami Gəncəvi öz şairlik təxəyyülünü Babil quyusuna, şeir və əsərlərini isə Harut və Maruta (bax) bənzədir.

Bilmirəm bir belə füsunkar sözlər
Babil Quyusundan çıxır nə təhər? (İ-419).

Əsatirə görə, qədim Babil şəhərində dərin bir quyu var imiş ki, oradan asılmış Harut və Marut adında sehrbaz mələklər də quyudan çıxa bilməzlərmiş. Nizami burada öz şeirlərinin o quyudan çıxa biləcək dərəcədə qüvvətli caduya, yəni təsirə malik olduğunu söyləyir.

Babil mələyi (məc. mif.**)** –Məşuqə Babil mələyinə bənzədilir.

Can - **Babil mələyi,** keşikçisi – hindular (SX-64).

Burada "Babil mələyi" dedikdə Babil quyusuna salınan Harut və Marut nəzərdə tutulur.

Babil tilsimi (məc. on.**)** – "Xeyir ilə Şər hekayəsi"ndə Kürd qızı (bax) öz gözəllik və xasiyyətinə görə Babil tilsimi ilə müqayisə olunur. "Babil tilsimi" isə Harut – Maruta işarədir.

Babil tilsiminə bağlamışdı bel,
Sehrinə bənd olmuş, vurulmuşdi el (YG-239).

Babil, Zöhrə (qoşa məc. on.) – Şair Gəncə şəhərini Harut sehrli Babilə, öz ürəyini isə Zöhrə planetinə bənzədir.

Gəncə - Harut sehrli **Babil** deyil, bəs nədir?
Ürəyim ulduzlara nur saçan bir **Zöhrədir** (SX-52).

Babildəkilər (məc. et.) – Şirin "Babildəkilər" deyəndə, Babil quyusuna salınmış Harut və Marut adlı mələkləri nəzərdə tutur.

Məni çox tədbirsiz bilməyin, yetər,
Mən biləni bilmir **Babildəkilər** (XŞ-176).

Babilistan (məc. top.) – Indiki İraq Ərəb Respublikasının ərazisində - Dəclə və Fərat çaylarının aşağı hissəsində yerləşirdi. Babilistan haqqında eramızdan 2400 il əvvəlki mənbələrdə məlumatlar vardır. Babil Qədim Babilistanın paytaxtı olmuşdur. Babil Xammurapinin hökmdarlığı dövründə (e.ə. 1792-1750) siyasi, iqtisadi və mədəni cəhətdən böyük mərkəzə çevrilir. Həmin şəhər sonralar bir sıra şahlar tərəfindən istila edilmiş, dağıntılara məruz qalmış, ara-sıra yenə də yüksəlmiş və nəhayət, İskəndərin sərkərdələrindən biri olan Selevku tərəfindən (e.ə. 312) zəbt edilərək əhalisinin əksəriyyəti başqa yerə köçürülmüşdür. Bundan sonra şəhər öz əhəmiyyətini itirməyə başlamış, eramızın ikinci əsrində isə tarixdən tamamilə silinmişdir. Hazırda şəhərin qalıqları mövcuddur və aparılan qazıntılar nəticəsində burada yüksək mədəniyyətin olması aşkar edilmişdir.

Qədim Şərq ədəbiyyatında və dini əfsanələrdə bu şəhər haqqında bir çox rəvayətlər mövcuddur (10-106).

Qəmzəyə, qara xala hamı heyran, hamı mat
Babilistan, Hindistan timsalıdır kainat (SX-65).

Kainat öz gözəlliyi və cazibədarlığına görə, zəngin və mürəkkəb tarixi keçmişə malik olan Babilistan və Hindistana bənzədilmişdir. Eyni zamanda bu toponimlər epiforik xüsusiyyətə malikdirlər.

“Bacubərsəm” (id.) – Zərdüştilərin dini qaydalarından biri. Onlar yemək vaxtı süfrə başında sükut edib dua oxuyardılar.

Yemək vaxtı Xosrov möbidə dedi,
“Bacubərsəm” rəsmin icra eylədi (XŞ-106).

Xosrov möbidə yemək vaxtı sükutla dua oxumasını tapşırdı.

Badam, Şəkər, Göyərçin, Şahin (qrup məc. ap.) – Şair eyni zamanda metaforik şəkildə Xosrovu badama və şahinə, Şirin və onun rəfiqələrini isə şəkərə və göyərçinə bənzətmişdir.

Badam azdı, lakin saysızdır **şəkər**,
Göyərçin hədsizdir, **şahin** bir nəfər (XŞ-133).

Bağdad (top.) – Asiya qitəsinin ən qədim şəhərlərindən biridir. Hazırda İraq Ərəb Respublikasının paytaxtıdır. Dəclə çayının hər iki sahilində yerləşən bu şəhər vaxtilə islam mədəniyyətinin beşiyi sayılırdı. Onun əfsanəvi gözəlliyə malik təbiəti, cəlalı və həşəməti “Min bir gecə” nağıllarında, Şərq ədəbiyyatında öz əksini tapmışdı. Bu şəhərdə “Bağdadi” nisbəsi ilə yazıb yaratmış bir sıra görkəmli alimlər, şairlər yetişmişdir. Onun bütün Şərqdə tanınan məşhur “Nizamiyyə” mədrəsəsində islam mədəniyyətinin bir sıra parlaq simaları, o cümlədən Azərbaycanın ensiklopedik alimi Xətib Təbrizi müəllimlik etmişdi. Böyük lirik M.Füzuli öz parlaq sənət incilərini burada yaratmışdır.

Bağdad şəhərinin əsası Abbasilər dövründə, 752-ci ildə qoyulmuşdur. O vaxt “Mədinə-əs-Salam”, yəni “sülh şəhəri”, “salamat” adlanırdı. Məşhur Azərbaycan səyyahı və coğrafiyaşünası H.Z.Şirvaninin fikrincə, şəhərin adı Ənuşirəvan tərəfindən salınmış bağla əlaqədardır. Rəvayətə görə, Dad müqəddəs şəxs imiş. Bu fikrə əsasən Bağdadın mənası “Dad bağı” deməkdir. Bağdad sözünün qədim fars dilinə görə “Allahverdi”, “Allahın hədiyyəsi” mənasında olması fikri də söylənilir (10-106; 19-27). Lakin “Bağdad” adının “bağ” ilə əlaqələndirilməsi həqiqətə daha uyğundur.

Olmasın **Bağdadda** bir köhnə zənbil (XŞ-218).

Şair “Bağdad” toponimindən məcazi ad kimi də istifadə etmişdir. Bəhram Gur İkinci məzlumun şikayətini dinlədikdən sonra Rastü-Rövşən tərəfindən alınmış tarla, bağ və otağını ona qaytarır. Nizami Rastü-Rövşən tərəfindən abadlaşdırılmış həmin

bağı Bağdada bənzətmişdir. Bu bənzətmə “Bağdad” və “bağ” sözlərinin həm forma, həm də məzmunca yaxın və eyni olmasına əsaslı sübutdur.

Şah qaytardı ona tarlanı, bağı,
Bağdada dönmüşdü bağı, otağı (YG-288).

Bağdad ellərinin qanunu (məc. ktem.) – Qanun Bağdad musiqiçiləri tərəfindən çalınan musiqi alətinin adıdır. Məcnun bu çalğı alətinə bənzədilmişdir.

Fəryada, naləyə, bəlaya məftun,
Bağdad ellərinin qanunu -Məcnun (LM-83).

Yəni: Məcnun qanun kimi daima səslənməkdə, sızıldamaqdadır.

Bağdad, Misir (qoşa məc. top.) – Şair yeni salınmış İskəndəriyyə şəhərini eyni vaxtda Bağdada və Misirə bərabər tutur.

Şah bina etdiyi bu gözəl şəhər
Bağdada bərabər, **Misrə** bərabər (İ-99).

Baği-İrəm (məc. mif.) – Bihuşlar şəhəri (bax) əfsanəvi Baği-İrəmə bənzədilir.

Şəhər gözəllikdə bir **Baği-İrəm** (YG-139).

“Baği-İrəm”- İrəm bağı deməkdir. Əfsanəvi müstəbid padşah Şəddad özünü Allah elan etmişdi, yer üzündə Cənnət və Cəhənnəm yaratmaq istəmişdi. İrəm bağını saldırmış, lakin həmin bağa daxil olmaq istərkən ölmüşdür. İrəm bağının təsviri Quranda (Surə 89, Ayə 6) verilmişdir. Şəddad və İrəm bağı haqqındakı əfsanəni Nizami “İskəndərnamə” əsərində şərh etmişdir. “İrəm” deyərkən şair adətən, Cənnət bağını nəzərdə tutmuşdur.

“Baği-Şirin” (id.) – Orta əsr Şərq musiqi havalarından birinin adı. “Şirin bağı” deməkdir.

Səslənən zamanda o **“Baği-Şirin”**
Acı meyvələr də olurdu şirin (XŞ-169).

Baxərzan (top.) – Ehtimal ki, bu yaşayış məskəni Bərdənin yaxınlığında yerləşirmiş.

Ordan birbaş gəlib çıxdı Muğana,
Muğandan da keçdi düz **Baxərzana** (XŞ-99).

Burada söhbət Xosrovdan gedir.

Baxt (ap. an.) – "Hekayə"də Xacənin bağında kef məclisində iştirak edən gözəllərdən birinin adı, Xacəni əyləndirən qız.

Dedi: - Adın nədir? Dedi ki: - **Baxt**dır (YG-262).

Balıq, **Ay** (qoşa mif., kos.) – Dini təsəvvürlərə görə, Yer planeti nəhəng bir balıq üzərində dayanmışdır. Şair həmin balıqdan (Yerin altından) Aya qədər olan məsafəni nəzərdə tutur.

Balıqdan Ayadək nə varsa əyan
Allah xəznəsinə tilsimdir, inan (XŞ-25).

Balıqdan Ayadək bu yer bu yana... (XŞ-77).

Balıq, Balıq bürcü (kos.) – Ərəb dilində ona Hut bürcü deyilir. Bu bürc yağmurluq və su bürcü sayılır.

Ay yüksələn zaman **Balıq bürcündən**
Pərviz Şah bürcündə salmışdı məskən (XŞ-150).

Şair bu kosmonimdən məcazi ad kimi də istifadə etmiş, Baliq bürcünü balığa bənşətmişdir.

Qəlbi Yunis qəlbitək **Balıq** qarnında vurdu (SX-30).

Dini rəvayətlərə görə, Yunisi səfər zamanı dənizin dalğalarına atmışlar, onu balıq udmuşdur. Bir neçə müddət balığın qarnında qaldıqdan sonra kənara çıxmışdır.

Burada merac zamanı Məhəmməd peyğəmbərin Balıq bürcünün – Balınanın Yunisi olmasına işarə edilir.

Banu (an.) – Fars sözüdür və xanım: keçmişdə padşah arvadlarına verilən ad deməkdir.

Banuya söylədi Şirin: "Cahangir...
Banuya baş əydi yeri öpərək... (XŞ-82,83).

Burada söhbət Məhin Banudan (bax) gedir.

Barbəd (an.) – "Xosrov və Şirin" poemasında obraz adı. Sasanilər dövründə Barbət adlı ən qədim simli musiqi alətini məharətlə çalan məşhur sənətkar olmuşdur. O, eyni zamanda 130-dan çox muğam və nəğmənin müəlifidir. Xosrov Pərvizin saray xanəndəsi və sazəndəsi olan bu sənətkar onun şərəfinə hər gün yeni bir mahnı bəstələyib oxuyarmış.

Sənə **Barbəd** adlı çalan verərlər,
Dönər məclisində şərbətə zəhər (XŞ-61).

Yəqin ki, “Barbəd” antroponimi “Bərbət” adlı musiqi alətinin adından (ktematonimdən) yaranmışdır.

Həmişə sənət və sənətkarı yüksək qiymətləndirən Nizami Gəncəvi “Barbəd”dən xatırlama ad kimi istifadə etmiş, “Leyli və Məcnun” poemasında təbii qanunlardan bəhs edərkən onu xatırlamışdır.

Çalıb oxumaqda **Barbəd** olsan da,
Pərdəsiz bu saza toxunma əsla (LM-43).

1990-cı ilin mayında Tacikistanın paytaxtı Düşənbə şəhərində qədim dövrün bir çox mənbələrində, xüsusən Firdovsi və Nizaminin əsərlərində xatırlanan qüdrətli obrazı yaradılan və bütün Şərqdə adı dillər əzbəri olan Barbüdün anadan olmasının 1400 illik yubileyi təntənə ilə qeyd edilmişdir. (“Kommunist” qəz. 10 may 1990-cı il). Demək, bu hesabla Barbüd 590-cı ildə anadan olmuşdur.

Barbəd, Nikisa (qoşa məc. an.) – Bu adların qoşa işlədilməsinin əsas səbəbi onların hər ikisinin qüdrətli sənətkar, hünər və qabiliyyətdə bir-birinə bərabər olmalarıdır. Təsadüfi deyildir ki, şair Barbədi bülbülə, Nikisanı isə eyni vaxtda gülə bənzətmişdir.

Bir tərəfdə **Barbəd**, sərxoş bir bülbül,
Nikisa əldə cəng, olmuşdu bir gül (XŞ-287).

Aşagıdakı beytlərdə isə onların növbə ilə çalıb-oxumaları təsvir olunur.

Bitdi **Nikisanın** cənglə nəğməsi,
Barbədin setarı qaldırdı səsi (XŞ-290).
Barbəd nəğməsini bitirdi, durdu,
Nikisa mizrabı tellərə vurdu (XŞ-292).
Nikisa oxuyur, **Barbəd** çalırdı,
Zöhrə bu səslərdən ləzzət alırdı (XŞ-310).

Bayquş (zo.) – “Nuşirəvanla vəziri və bayquşların söhbəti” hekayəsində alleqorik obraz adı. Əsərin özündə danışdırılan bayquşlar “quş” kimi yazılmışdır.

Elçi gələn **quş** deyir: “Şərikəm hər sözünə”
Şahın zülmkarlığı bəllidir yer üzünə (SX-77).

Behişt (mif. top.) – “Cənnət” sözünün sinonimidir.

Behişt öz nəfəsilə süsləyibdir bu yeri (SX-58).

Beşinci məzlum (ap. an.) – "Yeddi gözəl" poemasında epizodik obraz adı. Rastü-Rövşən tərəfindən (keçmişdə saray rəislərindən biri olub) var-yoxu, vəzifəsi əlindən alınan, haqsız olaraq zindana salınan məhbuslardan biri.

Beşinci söylədi: "Ulu tacidar",
Ey evi fələkə olan barabar... (YG-290).

Beşinci ölkə (top.) – Qədim şərq coğrafiyasında Türküstan və Azərbaycan Beşinci ölkə sayılırdı.

Yeddi göy altında, ey dünya şahı,
Beşinci ölkənin sənsən pənahı (İ-52).

Atabəy Nüsrətəddin Əbubəkrə xitabən deyilən bu beytdə şair demək istəyir ki, Türküstan və Azərbaycanın şahı sənsən.

Beş yüz doxsan üç (xron.) – Hicri-Qəməri təqviminin 593-cü il Ramazan ayının on dördü bizim indiki təqvimin 1197-ci il 31 iyuluna müvafiqdir. "Yeddi gözəl" poemasının yazılıb tamamlandığı il.

Beş yüz doxsan üçdə qalxıb ər kimi,
Yazdım bu əsəri igidlər kimi.
Ramazan ayının on dördü vardı,
Gün dörd saat qalxıb batmış olardı (YG-310).

Demək, şair "Yeddi gözəl" əsərini 1197-ci il iyulun otuz biri gecə saat 12-də bitirmişdir.

Beş yüz yetmiş ikinci il (xron.) – "Sirlər xəzinəsi" əsərinin tamamlandığı il.

Sanma hicri tarixi yaddan itən olubdur,
Beş yüz yetmiş ikinci ildə bitən olubdur (SX-53).

Payızın iyirmi dördüncü günü isə təxminən oktyabr ayının 14-nə düşür.

Demək, əsər 1177-ci ilin oktyabrın 14-də tamamlanmışdır.

Beyti-əqsa (mif. top.) – 1) Ən uzaqda, ən kənarda olan ev: burada məcazi olaraq Kəbədən ən uzaqda olan məscid mənasında işlədilmişdir. 2) Qüds şəhərində bir məscid. Şair isə Beyti-əqsa dedikdə Allahın göyün doqquzuncu mərtəbəsində olan taxtının yerləşdiyi evi nəzərdə tutmuşdur.

Müşkünü saçaraq **"Beyti-əqsayə"** (İ-24).

Burada Məhəmməd peyğəmbərin meraca getməsindən söhbət gedir.

Beytülmüqəddəs (ag. top.) – Qüds (Yerusəlim) şəhərində (Fələstindədir) bir məbədin adıdır. Lüğəti mənası "Müqəddəs ev" deməkdir. Yəhudilər, xristianlar və müsəlmanlar oranı müqəddəs hesab edirlər (10-107). Bax: Məqdəs.

Çəkim bu dünyadan öz yükümü düz,
Beytülmüqəddəsə çevirim qoy üz (YG-179).

Bəhmən (an.) – Qədim İran şahlarındandır. Eramızdan əvvəl 474-cü ildə taxta oturmuşdur. Əsl adı Ərdəşirdir. Babası Koştasb onun təbiətindəki böyüklüyü görüb adını Bəhmən qoymuşdu (Bəhmən zərdüştilərin etiqadına görə, bir mələyin adıdır ki, hirs və qəzəbi söndürüb sakitləşdirmək vəzifəsi daşıyırmış). Rəvayətə görə, o, öz qızı Humay ilə zina etmiş və sonra onunla evlənmişdir. Firdovsi "Şahnamə"də Bəhmənə xüsusi yer vermişdir (10-12).

Əjdahayla dostluq olmaz bu qədər,
Bəhmən kimi burda yaşadın yetər(XŞ-345).

"Bəhmən" fars sözüdür, doğru danışan, doğru adam kimi mənaları vardır. Eyni zamanda Bəhmən İran təqvimində on birinci ayın adıdır (19 yanvar-19 fevral).

Dara (bax.) İskəndərə (bax.) yazdığı məktubda özünü Bəhmənə bənzədir.

Məndədir **Bəhmənin** aslan ürəyi,
Həm İsfəndiyarın polad biləyi (İ-134).

İskəndər isə ona cavab məktubunda özünü əjdahaya bənzədir və bununla da Bəhmənin əjdaha tərəfindən udulması hadisəsini xatırlayır.

Məni öz daşınla gəl çəkmə daha,
Bəhməni bununçün vurdu əjdaha (İ-140).

İskəndər özünü əjdahaya bənzətməklə Daraya başa salmaq istəyir ki, sən özünü mənimlə müqayisə etmə, sən mənə bərabər deyilsən; mən sənin nəzərində kiçiyəmsə də, sən belə imtahana girmə, çünki Bəhmən belə imtahanda əjdaha tərəfindən uduldu. Bu, ehtimal ki, Bəhmən Ərdəşir ilə yeznəsi və sərkərdəsi Me-

kabizin əhvalatına işarədir. Qüdrət və əzəmətinə güvənən Bəhmən ona qarşı üsyan edən Mekabizin əlində aciz qalmışdır.

Bəhmən, İsfəndiyar (qoşa məc. an.) – Öz sərkərdələri tərəfindən vurulan və ayaqlar altında can verən Daranı şair həm Bəhmənə, həm də İsfəndiyara bənzədir.

Bəhmənin qoluna sarılmış ilan,
Düşmüş **İsfəndiyar** tunc çardağından (İ-153).

Yəni Bəhmənin uzun və qüvvətli qoluna əcəl ilanı sarılmış, İsfəndiyar tunc qalasından düşüb həlak olmuşdur.

Nizami bu adlardan xatırlama adlar kimi də istifadə etmişdir.

Bəhmənə söyləmiş həm **İsfəndiyar**:
- Qəlbini qırmayan bir ordu qırar (İ-166).

Təcrübəli pəhləvan Fəribərz (bax) İskəndərin suallarına cavab verərkən Bəhmən və İsfəndiyarı bu cür xatırlayır.

Bəhram (kos.) – Fars dilində Mərrix planetinin adıdır. Mərrix isə ərəb sözüdür, Mars planeti deməkdir. Məcazi mənası: qan kimi qırmızı görünən Mərrix (Mars) qədim zamanlarda "müharibə ilahəsi" kimi ilahiləşdirilmişdir. Bəhram yunan əsatirində müharibə allahı sayılan Zevsin oğlu Areyin Şərqdəki prototipidir. Arey əsatirə görə, eyni zamanda amazonların qəbilə başçısı sayılır.

Qüdrətini göylərin öz **Bəhramında** ara (SX-41).

Burada "göylərin Bəhramı" dedikdə buna işarə edilir ki, Bəhram şah (Ərzincan hakimi) cəngavərlikdə Bəhram ulduzuna–vuruş və müharibə ilahəsinə bənzədilir.

Astroloqlar Mərrixi (Bəhramı) vuruş və müharibə ilahəsi hesab etdikləri üçün ona cəngavər ləqəbini vermişlər.

Yaşıl geydiyiçin xəlifeyi-şam
Geyinsin söylədi qırmızı, **Bəhram** (YG-27).

Şair göstərir ki, Ay (Ay metaforik şəkildə xəlifə şamına bənzədilmişdir) yaşıl geydiyi (gecə olduğu) üçün Məhəmməd peyğəmbər Bəhrama (Mərrix- Mars) qırmızı geyməyi tapşırdı.

İslam rəvayətinə görə, guya Məhəmməd peyğəmbər merac gecəsi bütün planetlərə rəng vermişdir.

Bəhram (an.) – Qəznə hakimi Bəhram şah.

İki söz cəngavəri yaratdı iki əsər
İki **Bəhram** adıyla adları dildə gəzər (SX-45).

Nizami burada iki kitaba və iki Bəhram şaha işarə edir. Birinci kitab "Hədiqətül-həqayiq" poemasıdır. Onu məşhur İran şairi Sənayi 1140-cı ildə yazıb, Qəznə hakimi Yəmin əd-Dövlə Bəhram şaha (1118-1157) həsr etmişdir. Nizami isə "Sirlər xəzinəsi"ni Kiçik Asiyada Ərzincan vilayəti hakimi Fəxrəddin Bəhram şaha (1166-1225) göndərmişdir.

Bəhram (an.) – Sasanilər sülaləsinin 14-cü padşahı olub. Yəzdigirdin oğludur. Rəvayətə görə, o, çox şücaətli, hünərli, idmanı sevən və misilsiz səxavət sahibi imiş. Bəhram Rumdan sənətkarlar, Hindistan və Əfqanıstandan sazəndə və xanəndələr gətirdərək, həyatının xeyli hissəsini eyş-işrətdə keçirtmişdir. O, ömrünün çoxunu ovda, səyahətdə keçirdiyi və gur (çöl eşşəyi, buna bəzən də cüyür deyilir) ovladığı, yaxud daima at üstündə gəzdiyi üçün (çünki "gur" dördayaqlı mənasında da işlədilir) ona Bəhram Gur adı verilmişdir. Iranın qədim padşahları arasında Bəhram adı ilə 6 padşah olmuşdur. Bəhram Gur isə öz adaşları arasında ən məşhurudur. Rəvayətə görə, Bəhram eyni zamanda şair olmuşdur. Farslarda ilk şeir söyləyən Bəhram hesab edilir.

Nizami "Yeddi gözəl" poemasında onu ədalətli, xalqın qayğısına qalan bir hökmdar kimi təsvir etmiş, poemasının baş qəhrəmanı etmişdir. Bax: Yəzdigird.

Gövhərlə daşdakı nisbətə misal
Olmuş Yəzdigirdlə **Bəhramdakı** hal (YG-56).

Bəhram (an.) – Bax: Bəhram Çubin.

Zəmanə Xosrova olmadı pənah,
Bəhram qarşısında məğlub oldu şah (XŞ-115).

Bəhram (om. on.) – Bəhram Gur. Şair bir beytdə Bəhram adını həm yeni doğulan uşağın adı, həm də subh vaxtı qaranlıq gecəyə işıq saçan Mərrix ulduzunun adı mənalarında işlətmişdir.

O gün ki, **Bəhramın** sübhü açıldı,
Qaranlıq gecəyə işıq saçıldı (YG-56).

"Qaranlıq gecə" ifadəsi də həm həqiqi mənada, həm də Yəzdigird və onun səltənəti mənasında işlədilmişdir.

Aşağıdakı beytdə isə şair bir beytdə Bəhram adını üç mənada işlətmişdir: Seşənbə günü, Mərrix ulduzu və şəxs adı (Bəhram Gur) mənasında.

Bəhram günü, Bəhram rənginə yoldaş,
Bəhram şah da oldu onlarla adaş (YG-191).

Nizamı "Bəhram" adından da məcazi ad kimi geniş istifadə etmişdir. O, bütün insanları ölmüş Bəhram Çubinə bənzətmişdir.

Xosrov dedi: "Dünya fanidir, fani,
Bəhram edəcəkdir hər bir insanı "(XŞ-163).

Şair Şirvanşah Axsitanı (bax) Bəhram Gura bənzədir.

Bu Bəhram nəsəbli ülkər üzlü sən
Məlik Mənuçöhrin sədəf dürrüsən (LM-51).

Burada "Bəhram" antroponimi həm həqiqi, həm də məcazi – Mərrix ulduzu mənalarında işlədilmişdir.

Şair Şahzadə Bəhramı gura, aslana bənzədir.

Dolandı dörd bahar, ötdü dörd xəzan,
Bəhram dönüb oldu bir gur, bir aslan (YG-57).

Çin xaqanı ilə vuruşan Bəhram Gur müharibə ilahəsi hesab edilən Bəhram (Mərrix) planetinə bənzədilir.

Xaqanla **Bəhramtək** vuruşdu Bəhram (YG-116).

İskəndər Bəhram Gura bənzədilir.

Qururla atını sürdü qabağa,
Sanki **Bəhram** getdi gur ovlamağa (İ-543).

Bəhram, Bəhram Gur (qoşa məc. on.) – Bu müxtəlif mənalı adların fonetik cəhətcə eyni olmasına görə, şair Fəxrəddin Bəhram şahın adını və özünü onlarla müqayisə edir.

Qüdrətini göylərin öz **Bəhraminda** ara,
Bəhram Gurla vürüşsə gömər onu məzara (SX-41).

Şair bütün insanların Bəhram Çubin və Bəhram Gur kimi ölümə məhkum olmalarına işarə edir.

Bir bu **Bəhram** deyil, olsa **Bəhram Gur,**
Dünyada nəsibi olacaqdır gor.
Bəhram Gur əgər tərk etdi toru,
Yüz **Bəhramın** vardır dünyada goru (XŞ-163).

Birinci müsradakı Bəhram – Bəhram Çubindir.

Bəhram Çubin (an.) – "Xosrov və Şirin" poemasında obraz adı. Əsərdə mənfi obraz kimi təsvir edilməsinə baxmayaraq, şair onun ağıl və bacarığını yüksək qiymətləndirmişdir. O, Hürmüz və Xosrov arasında yaranan münaqişədən bacarıqla istifadə edərək üsyana qalxmış və Hürmüzü taxtdan salaraq özünü şah elan etmişdi.

"Bəhram" onun əsl adı, "Çubin" isə farsca "qarğa" mənasında olan ləqəbidir. Bu ləqəbi ona qarğa kimi taxta asanlıqla qonduğu üçün Hürmüzün tərəfdarları vermişdi.

Bəhrami-Çubinlə düz gəlmədi baxt,
Xosrov Pərviz şaha qaldı qılınc-taxt (XŞ-150).

Bəhram Gur (an.) – Ov zamanı çoxlu gur ovladığı üçün Sasani hökmdarı Bəhram şaha "Gur" ləqəbi verilmiş və o , tarixdə "Bəhram Gur" adı ilə şöhrətlənmişdir.

Dedilər: Canında aslan gücü var,
Odur ki, **Bəhram Gur** adlandırdılar (YG-69).

Nizami bu addan xatırlama ad kimi də istifadə etmişdir. "Sirlər xəzinəsi" əsərinin "Dünyanın axırı" adlanan 10-cu söhbətdə ölümün labüdlüyü haqqında söhbət açmış və Bəhram Gurun mağarada yoxa çıxması hadisəsini xatırlamışdır.

Göylərə ucalsa da zərlə zora **Bəhram Gur**,
Gur dalınca gedəndə, girdi gora **Bəhram Gur** (SX-109).

Şair Bəhram Gur adından məcazi ad kimi də istifadə etmişdir. O, Ərzincan hakimi Fəxrəddin Bəhram şahı Bəhram Gurla müqayisə etmişdir.

Bəhram Gurla vuruşsa, gömər onu məzara (SX-41).

Aşağıda isə Bəhram Çubin Bəhram Gura bənzədilmişdir.

Bəhrami Gur kimi Bəhramı zaman
Şirlikdən çıxartdı saldı zorundan (XŞ-149).

Yəni zəmanə Bəhram Çubini Bəhram Gur kimi zorundan saldı, o məğlub oldu.

Şair Atabəy Nüsrətəddin Əbubəkrin ovçuluq məharətini göstərmək üçün onu gur ovlamaqda məşhur olan Bəhram Gurla müqayisə edir. Bəhram Gur gur ovlamaqda nə qədər mahirdirsə, Nüsrətəddin ondan da mahirdir.

Şir, gur ovlayanda sən olsan orda,
Nə ki şir, ovlarsan **Bəhram Guru** da (İ-50).

Burada Bəhram Gur metaforik şəkildə şir və gura bənzədilməklə yanaşı, Nüsrətəddinin Bəhram Guru da ovlaya bilən mahir bir ovçu olması göstərilir.

Bəhram Gur, Bəhram Gur (təkrar an.) – Şair "Bəhram Gur" adını müxtəlif məqamlarla əlaqədar olaraq bir beytdə təkrar etmişdir.

Göylərə ucalsa da zərlə zora **Bəhram Gur**,
Gur dalınca gedəndə, girdi gora **Bəhram Gur** (SX-109).

Birinci öz zoru və hökmü ilə göylərə yüksələn hökmdar Bəhram Gur, ikinci ov zamanı mağarada yoxa çıxan Bəhram Gurdan söhbət gedir.

Bəhram mağarası (top.) – Bəhram Gurun yoxa çıxdığı mağaraya sonradan verilən ad.

Ellər zaman-zaman gəlib edir yad,
Bəhram mağarası ona vermiş ad (YG-301).

Bəhram şah (an.) – Ərzincan hakimi Məlik Fəxrəddinin əsl adı və titulundan ibarət antroponimik birləşmə.

Dönübdür bu aləmin dostuna, sirdaşına,
Doqquz fələk dolanar **Bəhram şahın** başına (SX-41).

Bəhram şahənşah (an.) – Bəhram Gura işarədir. Birinci növ təyini söz birləşməsi formasında olan bu antroponimik birləşmədə birinci komponent əsl ad, ikincisi isə tituldur. Bax: Şahənşah.

Belə bir zamanda **Bəhram şahənşah**
Öz keyf məclisini düzəltdi gümrah (YG-275).

Bəhri-Qülzüm (top.) – Qırmızı Dəniz. Bax: Qülzüm.

Zəhərli qılıncla tufan edib mən
Tozlar qaldırmışam **Bəhri-Qülzümdən** (İ-583).

Burada söhbət İskəndərdən gedir.

Bəxti (zo.) – At cinsinin adı.

Atlardan "ərəbi", **"bəxti",** "təkavər"... (lM-151).

Bəxtiyşu (məc. an.) – VIII əsrdə Abbasilər xilafətinin məşhur saray həkimi olmuşdur. Şair Körpə Arslan şahı Bəxtiyşuya bənzətmişdir.

Üsul, firu ilə oldu aşina
Bəxtiyşu rəyinə, **İyşu** baxtına (YG-307).

İyşu isə İsa peyğəmbərin adlarından biridir.

Beytin mənası: Körpə Arslan şah dinin ehkamlarını, şəriətin qanunlarını dəqiq yerinə yetirdiyi üçün İsanın xoşbəxtliyi və Bəxtiyşunun fikir dühası ona nəsib olmuşdur.

Bəl (kos.) – İyirmi səkkiz Ay mənzillərindən biridir.

Yemək iştahında olmasaydı **Bəl,**
Duaya açmazdı səhər vaxtı əl (LM-185).

Bəldə (kos.) – İyirmi səkkiz Ay mənzillərindən biridir.

Nəayim xərcini öyrənsin deyə,
Bəldə çalışırdı iki-üç əllə (LM-185).

Bəlx (top.) – Asiyanın ən qədim və məşhur şəhərlərindəndir. Əfqanıstanın şimalında Kabul ilə Buxara arasında yerləşmişdir. Rəvayətə görə, Kəyumərs və ya Keykavus tərəfindən tikilmişdir. Sonralar XIII-XIV əsrlərdə Çingiz xan və Teymurləng tərəfindən dağıdılmışdır. Bir rəvayətə görə, Zərdüşt bu şəhərdə zühur etmiş və buradan da zərdüştilik İranın və Hindistanın başqa yerlərinə yayılmışdır. Hazırda bu şəhər qəsəbə halında Əfqanıstanın şimalında yerləşir (10-107).

Şadlıq təntənəsi, sevincli səslər
Yayıldı Mərvdən ta **Bəlxə** qədər (XŞ-151).

Söhbət Xosrovun taxta çıxmasından gedir.

“İskəndərnamə” əsərində Bəlx xalqının üsyana qalxmasından və ətraf vilayətlərin də bu üsyana qoşulmaları haqqında məlumat verilir.

Bəlx ilə Nişabur boyu hər yerdə
İştirak edirlər bu şurişlərdə (İ-254).

Burada “şuriş” dedikdə həmin üsyan nəzərədə tutulur.

Bəlinas (an.) – Bəlinas və ya Pliniy məşhur Roma naturalisti, alim və yazıçısıdır (Eramızdan 23 il əvvəl doğulmuş və eramızın 79-cu ilində vəfat etmişdir). Təbiyyat tarixinin banisi sayılır. 79-cu ildə bir vulkanı yaxından görmək istəmiş, çox yaxın gəldiyi üçün qazdan boğulmuşdur. Botanika, geologiya, mineralogiya, astrono-

miya, coğrafiya, fizika, kimya kimi elmlərə dair 37 kitabı vardır. Tarix, ədəbiyyat, rəsm, heykəltəraşlıq haqqında da əsərlər yazmışdır.

F.Engeles "Təbiətin dialektikası" əsərində onu bir sıra məsələlərdə Ərəstu ilə yan-yana qoyur. Bəlinasın ən məşhur əsəri "Təbiyyat tarixi"dir ki, bir çox dillərə tərcümə edilmişdir. Ərəblər arasında Bəlinas tilsim sahibi kimi məşhurdur. Nizami də ona ən çox bu cəhətdən yanaşmışdır.

İskəndərlə müxtəlif dövrdə yaşamasına baxmayaraq, şair öz məqsədindən asılı olaraq onu İskəndərin müasiri kimi təsvir etmiş və orijinal obraz yaratmışdır.

Nizami Gəncəvinin üslub xüsusiyyətlərini səciyyələndirən əsas amillərdən biri də müxtəlif dövrlərdə yaşayan tarixi şəxsiyyətləri müasirləşdirməsidir.

Bu gizli əsrarı **Bəlinas** bilir,
Tilsimə tanışdır tökər bir tədbir (İ-175).
Əjdaha görüncə gəlir **Bəlinas**,
Bildi ki, şüşəni qıracaq almas (İ-176).

Burada sonuncu misrada cadugər qız şüşəyə, Bəlinas isə almaza bənzədilmişdir. Almazın xassəsi şüşəni kəsməkdir. Yəni o əjdaha kimi görünən qız Bəlinası gördükdə bildi ki, sehrinin şüşəsinə doğru almaz gəlir. Demək, Bəlinas ona qalib gələcəkdir.

Şair "Bəlinas"dan məcazı ad kimi də çox yerdə istifadə etmişdir. Məsələn, o, məşhur Rumlu memar Simnarı (bax) Bəlinasa bənzətmişdir.

Rumlu **Bəlinastək** hünərlər saçar,
Rəsədxana tikər, tilsimlər açar (YG-59).

Bəlinas-cadu (an.) – Bax: Bəlinas. Azər Humayunla (bax.) evlənəndən sonra Bəlinas ondan şox cadular öyrəndi və nəhayət , xalq tərəfindən bu adı aldı.

O qızdan çox cadu öyrənmişdi bu,
Onunçün deyildi **"Bəlinas cadu"** (İ-177).

Bənatinnəş (kos.) – Böyük Ayı bürcündə bir-birindən asılı olan yeddi sabit ulduza deyilir. Məcazi mənası rühani qızlar deməkdir.

Şirinə üz tutdu kənizlər yeyin,
Bənatinnəş ikən oldular Pərvin (XŞ-82).

Bənatinnəş, Pərvin (ant. məc. kos.) – Bənatinnəş – Böyük Ayı bürcündə bir-birindən asılı olan sabit ulduza, Pərvin (bax.) isə bir-birinə yaxın olan Ülkər ulduzlarına deyilir. Şirinin rəfiqələri ardıcıllıqla əvvəl Bənatinnəşə, sonra isə Pərvinə bənzədilir.

Şirinə üz tutdu kənizlər yeyin,
Bənatinnəş ikən oldular **Pərvin** (XŞ-82).

Beytin mənası: qızlar dağılmış (səpələnmiş) halda, birdən Şirinə tərəf qaçdılar, Pərvin kimi toplaşdırlar.

Bəni-Əsəd (et.) – İbn-Səlamın (bax.) mənsub olduğu qəbilənin adı.

Yolda **Bəni-Əsəd** qəbiləsindən
Bir nəfər Leyliyə rast gəldi birdən (LM-117).

Bəni-Səd (et.) – Ərəb qəbilələrindən birinin adıdır.

Bəni-Səd adlanan yad bir tayfadan,
Bir nəfər Məcnuna rast gəldi bu an (LM-101).

"Bəni" ərəbcə "ibn" (oğlu və ya qızı) sözünün cəmidir. "Bəni Səd" – hərfən "Sədin övladları" deməkdir.

"Bənna" (id.) – "Quran"da olan hədislərdən biridir. Şair öz əsərini bu hədisə bənzədir.

"Bənna" hədisinə bənzər hekayəm (XŞ-371).

Bərbər (et.) – Şimali Afrikada yaşayan ən qədim tayfalardandır. Misrin Cənubundan başlayaraq Qırmızı dəniz ilə Ədən körfəzinə qədər olan sahənin qədim sakinləri olmuşlar. Həbəşistanın şərqində və cənubunda yerləşən tayfaların adı ilə orda "Bərbərə" adlı bir yer də mövcuddur. Bəzi tarixçilərin fikrinə görə, onlar yunan mənşəli tayfalardır. Ərəblər qədimdə onları ərəb mənşəli olmayan tayfalar hesab etmişlər. XI əsrə qədər bərbərlər Afrikanın Misir sərhəddindən qərb hissəsinə qədər olan ərazisində hakim mövqe tutmuşlar. Ərəblər Məğribi işğal etdikdən sonra güclü assimiliasiyaya uğramışlar. Dağlara, səhralara çəkilmiş, tədricən islam dinini qəbul etmişlər. Afrikanın ən gözəl yerlərində sakin olan bərbərlərin yaşadıqları əraziyə, ümumiyyətlə Bərbəristan da deyilir. Bərbəristan şimalda Ağ dəniz və cənubda isə Səhrayi-Kəbirlə əhatə olunmuşdur.

1959-cu ilin statistikasına əsasən bərbərlərin işlətdikləri dialektdə beş milyon əhali danışıb.

Cəbhənin qəlbində durmuş zəncilər,
Sağında həbəşlər, solunda **bərbər** (İ-89).

Bərciz (məc. kos.) - Bax: Bürcis.

Kim mənə kin etsə düşmən olaraq,
Bərciztək oxum var, ataram ancaq (İ-38).

Bu ulduz Qövs (Kaman) bürcündə olduğu üçün ondan ox atarmış. Nizami anlatmaq istəyir ki, düşmənlərlə və paxıllarla mübarizəyə mənim də Müştəri (Bürcis) ulduzu kimi silahım, sözdən, şeirdən oxlarım var, istəsəm vuraram. Demək, şair öz şeirlərini Bərcis ulduzuna bənzətmişdir.

Bərdə (top.) – Azərbaycanın ən qədim şəhərlərindən biridir. Rəvayətə görə, eramızdan neçə yüz il əvvəl Nüşabə (bax.) adlı yerli hökmdar tərəfindən salınmış bu şəhərə Bərdə adını Makedoniya sərkərdəsi Aleksandr (İskəndər) vermişdir. Bir zaman Qafqaz Albaniyasının paytaxtı olmuşdur. VIII əsrdə Ərəblər tərəfindən işğal edilmiş bu şəhər orta əsrlərdə karvan yoluna yaxın olduğundan, böyük ticarət və peşəkarlıq mərkəzi sayılırdı. Örtülü bazarları, müdafiə hasarları, yeraltı mühafizə yolları, daş körpüləri və s. varmış. XII əsrdə mədəni mərkəzlərdən olmuşdur. Nizaminin yazdığına görə, "Xosrov və Şirin" haqqında ilk mənbələrdən biri həmin şəhərin saray kitabxanasında mövcud imiş. O, bu şəhərin gözəlliyini böyük vətənpərvərlik duyğuları ilə tərənnüm etmişdir.

Bərdənin havası çox mötədildir,
Hər il qış zamanı o bura gəlir (XŞ-63).

Burada söhbət Məhin Banudan (bax) gedir.

Şair "İskəndərnamə" əsərində isə Bərdəni böyük ilhamla vəsv etmişdir.

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir... (İ-203).

Şairin təsvirinə görə, Bərdənin əvvəlki adı Hərum olmuş, sonradan Bərdə adlanmışdır.

Hərum adlanırdı bu yurd hər yerdə,
İndisə adına deyirlər Bərdə (İ-204).

Ağamusa Axundovun fikrincə, Bərdə türk dillərində "qab, piyalə, kuzə" mənasında olan "bart" sözündəndir. Demək, Azərbaycana gələn digər türk tayfaları qədim Hərum (Horum) şəhərini piyalələrlə, saxsı qablarla, kuzələrlə zəngin olduğunu görüb onu "piyaləli", "kuzəli" mənasını bildirən Bərdə sözü ilə adlandırmışlar. Sonralar bu ad köhnə yer adını sıxışdırıb aradan çıxarmışdır ("Torpağın köksündə tarixin izləri". Bakı, 1983. s. 96-101).

Q.Qeybullayev Bərdə oykoniminin eramızdan əvvəl cənubda mövcud olmuş İran mənşəli Parda toponimi ilə əlaqələndirir. Lakin belə halda məşhur Hərum adının nə üçün V əsrdə Bərdəyə çevrildiyi naməlum qalır.

Qədim Bərdə nahiyyələri əhalisinin toxuculuğundakı məharətinin ənənəvi olmasını həmin sözün leksik mənası da təsdiq edir. "Qədim türk lüğəti"ndə "berdi" sözünün "iplik sap" mənası var. Orta Asiyadakı türk dilləri ilə müqayisədə Azərbaycan dilində açıq saitli sözlərin işlədilməsi üstün olduğuna görə "berdi" sözü dilimizdə Bərdə formasında təzahür etmişdir. Ümumiyyətlə, qədim türkcədə bar-ber kökü toxuculuqla əlaqədar bir neçə sözün əsasında dayanır: barçın – ipək parça, bertü-ködəkcə. Barama sözündə də həmin bar kökünü görmək mümkündür. Beləliklə, Bərdə coğrafi adının "iplik sap" mənasında olan "berdi" sözündən götürüldüyünü söyləmək olar.

Tarixi-coğrafi məlumat və çoxlu söz üzərindəki müşahidələr belə qənaət yaradır ki, Hərum yun parça, yun məmulat istehsalı ilə, Bərdə toponimi isə ipəkçilik və pambıqçılıqla əlaqədar yaranmışdır. Qədim Hərumun sonradan Bərdə kimi məşhurlaşması burada ipəkçilik və pambıqçılığın sürətli inkişafı ilə bağlı olmuşdur ("Elm və həyat", № 6, 1987. s. 17-18). Bax: Hərum

"Bərdə" adını fars dilində "qul yeri", "qadına sitayiş kultu" və s. ilə əlaqələndirənlər də vardır. E.İ.Əzimov "Bərdə toponimi" məqaləsində göstərir ki, Perm vilayətində Bərdə adlı üç çay (Silva çayının sağ qolu) və bir yaşayış məntəqəsi, Qərbi Sibirdə Bərdə adlı çay var. Dağlıq Altayda Köhnə Bərdə, Böyük Bərdə və Kiçik Bərdə adlı yaşayış məntəqələri olmuşdur və öz adlarını çay adlarından almışdır. Çay adı kimi Bərdə sözü "qol, ensiz çay,

sapabənzər çay, tel” mənasını verir. Berdi sözünün “nazik, uzun” mənası Azərbaycan dilindəki pərdi (damın üstünə qoyulan) sözündə də saxlanılmışdır (Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları. Bakı, 1986. səh-150).

“Bərdə” toponiminin sözaçımı haqqında müxtəlif fikirlər söylənmişdir. Bunların hər birində müəyyən həqiqət də vardır. Lakin müəlliflər onun ən qədim forması olan “Partov” formasını izah etsəydilər , daha uğurlu alınardı.

E.Əzimov “Bərdə”ni “qol, ensiz çay, tel” kimi izah etsə də, bu adın vaxtilə mürəkkəb ad olmasına toxunmamışdır. Zənnimizcə, “Partov” üç komponentdən ibarətdir: par-t-ov. “Par” vaxtilə müstəqil söz kimi sarı, parıltılı, işıq, əsas olmayan, bütövün bir hissəsi mənalarında işlənmiş və indi də parla(maq), parlaq, parıltı, parılda (maq) və s. sözlərdə geniş işlənir. Fars sözü olan “para” sözü ilə türk sözü olan par-par və ya “parlamaq” sözlərindəki “par” eyni mənaya malik olub “bütövün bir hissəsi” mənasında işlənir: Günəşin, Ayın, ulduzun, odun parıltısı, çayın qolu, ağacın budağı və s. “T” samiti isə dilimizdə elə öz-özlüyündə “səs-küy” mənasını bildirir: şiddət, gurultu, sürət, partıltı, parlamaq, top, tüfəng və s.

Üstündə Bərdə şəhəri yerləşən Tərtər çayı isə, doğrudan da, hay-küylü, gurultulu, sürətlə axan çaydır və 2 “t” samiti vardır. “Ov” isə qədim türk dillərində elə su mənasında (ab, av, ov və s. formada işlənən bu ad həm də çox mənalı sözdür) işlənmişdir. Demək, “Partov” – sürətlə axan çay deməkdir. Bu baxımdan Altaydakı “Bərdə” sözünün mənası ilə “Tərtər” sözünün mənası üst-üstə düşür. Çox maraqlıdır ki, pərt, pərtlik sözü Azərbaycan “pərtöv” sözü isə fars mənşəli hesab olunur. “Pərtov” isə “işıq, nur, ziya, şüa, parlaqlıq” və “səliqəsiz, nizamsız, narahat” mənalarında işlənir (Azərbaycan dilinin izahlı lüğəti . III c. Bakı, 2006. s.567).

Yuxarıda deyildiyi kimi, “par”- od, “part” –yanan, şiddətli od mənalarını bildirir. “Partov”- sürətli od və ya sadəcə olaraq alov mənasında da işlənir. “Bərdə” adının həm su, həm də odla əlaqədar olaması qədim Zərdüşt fəlsəfəsi ilə də səsləşir.

Bərdi-əcuz (on.) – Qışın axır ayındakı şiddətli şaxta. Boz ay şaxtası.

Həməl bürcü etdi günəşimi şad,
Bərdi-əcuzi de, necə edim yad (YG-176).

Günəş Həməl bürcündə bahar fəslində qərar tutur. Yəni, indi mənim Günəşim sənin vüsalinin Həməl bürcündə-bahar fəslində şadlanan bir zamanda qışın şaxtasından nə qorxum ola bilər?

Bərişad (an.) – İskəndərin pəhləvanlarından birinin adı.

Bərişad Ərməndən, bu ittifaqdan... (İ-324).

Bərtas (top.) – Volqaboyunda yaşayan qədim türk xalqlarının vətəni.

Bərtasdan bir samur kükrəmiş yenə... (İ-224).

Bərtas (və ya Burtas, Bürtas) toponiminin etimologiyası haqqında yüz ildən çoxdur ki, alimlər arasında mübahisələr gedir və bu mübahisələr indi də davam etməkdədir. Onu gah rus, gah da fars və ya türk mənşəli toponim kimi izah edirlər.

Bizə elə gəlir ki, bu adın "Burtas" forması daha düzgün hesab olunmalıdır. Uzun müqayisələr nəticəsində belə qərara gəlmək olar ki, bu toponim "buri" totemi ilə əlaqədardır. "Buri" isə qurd deməkdir. "Qurd türk xalqlarının totemi hesab olunur. Totem olduğu üçündür ki, onun adı tabu sayılmışdır. Odur ki, tabu sözünün əvəzinə, türk dillərinin bəzilərində bori(buri,böri) sözü işlənir... Bir çox türk dillərində bu sözlə əlaqədar şəxs adları yaranmışdır. Buri, Buriboy, ("Dədə Qorqud" dastanlarında Baybura), Burixan, Burikül, Buridaş, Burnisə və s." (M.Adilov. "Niyə belə deyirik". Bakı. 1982. səh. 119).

Ş.Z.Baxtıyev "Burtası i çuvaşi" adlı tədqiqatında bu etnonim haqqında müxtəlif fikirlər söyləyən alimlərin mülahizələrini ümumiləşdirmiş və sübut etmişdir ki, "burtas" qədim türk tayfalarından biridir və müasir çuvaşlar qədim burtasların varisləridir. O müəyyənləşdirir ki, "burtas" sözündəki "as" (müxtəlif mənbələrdə bu ad az, yas, xas, xaz və s. şəklində də işlənir). Çuvaş sözündəki "aş" sözü eyni kökdür. Müəllif çuvaş və Azərbaycan dillərinə məxsus bir sıra sözləri də müqayisə etmişdir. ("Sovetskaya tyurkologiya". № 2. 1990. səh. 61-74).

Hal-hazırda çuvaşlarda (Volqaboyunda) Burtas adı ilə əlaqədar kənd, dağ, çay və s. adlarına təsadüf olunmaqdadır. "Xəm-

sə”nin “İzahlar”ında “Bərtas”ın qədim rus vilayəti kimi izah olunmasının heç bir elmi əsası yoxdur. Bax: Rus.

Söz yox ki, X əsrdən başlayaraq peçeneq, poleves və digər türk xalqları tədricən Kiyev-Rus dövlətinin tərkibinə birləşdirilirdi. Lakin X-XII əsrə qədər Bərtas, Alan və digər türk əyalətlərinin qədim rus əyalətləri kimi qiymətləndirilməsi heç məntiqi cəhətdən də düzgün deyildir. Həmin xalqların yaşadıqları ərazilərin rus əyalətləri olması isə XII əsrdən sonrakı dövrün məhsuludur.

Bərtas (an.) – Qıntalın (bax) pəhləvanlarından birinin adı. Bu pəhləvan Bərtas vilayətindən olduğu üçün şair onu vətəninin adı ilə Bərtas adlandırmışdır.

Acıqlı **Bərtasın** son qılıncından
Torpağa sərildi rumlu pəhləvan (İ-329).

Bərtas, Alan (qoşa məc. top.) – Şair bu toponimləri şəxs kimi təsvir etmişdir. Onlar eyni zamanda harın atlara bənzədilmişdir.

O yanda rus ilə **Bərtas və Alan**
Harın atlar kimi coşurdu hər an (İ-345).

Bəsrə (top.) – İraqi-Ərəbdə indi də Bəsrə adlanan vilayətin mərkəzi şəhəridir. Bir tərəfdən Hindistan, İran və Ərəbistanı, ikinci tərəfində Bağdad, Mosul və başqa yerləri gəmilər və karvanlarla bağlayan ticarət mərkəzi olmuşdur.

Dəryaya dürr saçsın qətrə buradan,
Qoy xurma daşısın **Bəsrə** buradan (İ-419).

Məlumdur ki, qətrə dəryada sədəfin ağzına düşüb dürr olar. Nizami deyir ki, qətrələr məndən dəryalara dürr saça bilər, yəni mən o sözlərdən dürr yaradan bir şairəm.

İkinci misra Bəsrənin bol və əla xurma yeri olduğuna işarədir. Şair sözünü Bəsrə xurmasından da şirin və bol sözlər yaratdığını söyləyir.

Bəsti ənciri (məc. fit.) – Şair sağlam qarğa üçün olan dəni Bəsti əncirinə bənzədir.

Saz olsa qarğanın əgər bədəni,
O, **Bəsti ənciri** bilər hər dəni (İ-612).

Bəsti – Xorasan vilayətində bir şəhərdir ki, gözəl ənciri ilə məşhurdur. Bu fitonim (əncir növünün adı) yetişdiyi şəhərin adı

ilə adlanmış (Quba alması, Göyçay narı, Zirə qarpızı və s. kimi) və topofitonim hesab edilməlidir. Qarğa isə çox əncir yeyən olur.

Beytin mənası: Qarğanın canı sağlam olsa, hər əlinə düşən dən ona Bəsti ənciri kimi dadlı gələr. Səhhətin möhkəmliyi insanı bir çox qayğıdan azad edər.

Bətnülhəməl (kos.) – Qədim Şərq astronomiyasında üçbücaq təsvir olunan bir ulduzdur. Həməl bürcünün altında yerləşdiyinə görə ona "Bətnül-həməl" (Həməlin qarnı) adı verilmişdir.

Bax **Bətnülhəməlin** dörd ayağına,
Bağlanmış havanın üçbücağına (LM-185).

Bihuşlar şəhəri (top.) – Birinci iqlim padşahı qızının söylədiyi nağılda qara geyənlərin yaşadığı şəhərin adı.

"Bihuşlar şəhəri"dir adı o yerin,
Yas evidir qara geyinənlərin(YG-138).

Bihuşlar şəhəri eyni zamanda yas evinə bənzədilir.

Bilqeys (an.) – "Kəniz satan padşahın hekayəsi"ndə obraz adı.

Bilqeys sual etdi: - Ey rəsul, ey şah,
Bizim hər ikimiz gümrahıq, gümrah (YG-69).

Yəmən ölkəsinin qədim Səba şəhərində vaxtilə hökmdar olmuş bu qadın Süleyman peyğəmbərin (bax) şan-şöhrətini eşidərək onu ziyarət etmək məqsədilə Fələstinə gəlmiş, Süleymanın müdrikliyini, cəlalını görərək ona aşiq olmuş, nəhayət, məsləkini öz eşqinə qurban verərək peyğəmbərə iman gətirmişdi. Bilqeysin Səba şəhərində möhtəşəm qəsrlər, Süleymana olan atəşin sevgisi haqqında maraqlı rəvayətlər vardır. Onun Süleymanla sevişməsi və izdivacı maraqlı hekayət kimi "Tövrat" əfsanələri vasitəsilə Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatlarına daxil olmuşdur. Bilqeys adı odlu ürəklə sevən aşiq və sədaqətli qadın rəmzi kimi poetik obraza çevrilmişdir. Elə buna görə də şair onun adından məcazi ad kimi də istifadə etmişdir.

Gülsün qoy Süleyman mülkündə bəxti,
Nurlansın **Bilqeysin** uğurlu təxti (YG-38).

Burada Körpə Aslan şah (bax) Süleymana (bax), onun hərəmi isə metaforik şəkildə Bilqeysə bənzədilmişdir. Bilqeys və Süleyman (ər-arvad) adlarının qoşa işlənməsi məhəbbət və xoş-

bəxtlik rəmzi daşıyır. Buna görə də şair çox vaxt bu adları qoşa işlətmişdir.

Dedi: "Təsdis idi Zöhrəyə məkan,
Evdə oturmuşdu **Bilqeys, Süleyman** (YG-169).

Təsdis – altı bucaq deməkdir. Zöhrənin Təsdisdə - yəni altı planetin ortasında oturması məhəbbət və xoşbəxtlik rəmzidir. Beytin mənası: Məhəbbətlə əhatə olunmuş Zöhrə altı planetin arasında oturan kimi Bilqeys Süleymanla oturmuşdu.

Şair bu adlardan məcazi ad kimi də istifadə etmiş, "Yeddi gözəl" əsərində Qara geyənlərin şahını (bax) Süleymana, Türkünazı (bax) isə Bilqeysə bənzətmişdir.

De, **Bilqeys** taxtı hara, mən hara?
Səltənət yaraşır **Süleymanlara** (YG-148).

"Xosrov və Şirin" poemasında da Şirin Bilqeysə, Xosrov isə Süleymana bənzədilmişdir.

Bir neçə qarınca söylədi pünhan:
"Biri Bilqeysdir, biri Süleyman... (XŞ-117).

Bir qədəh mey (məc. ap.) – Şair "İqbalnamə" əsərini metaforik şəkildə bir qədəh meyə bənzədir.

Bir qədəh mey verir sənə Nizami,
Gərək nuş edəsən Keykavus kimi (İ-428).

Bir, iki, üç (qrup məc. xron.) – Dini rəvayətlərə görə, bu rəqəmlərin hər biri müəyyən rəmzi mənaya malikdir.

Bir sapın ucundan tut kişilərtək,
İkini at, **üçü** bir etmək gərək (YG-54).

Bir – yəni vahid Allah.

İki (ikilik) – dualizm – atəşpərəstliyin əsasını iki tanrı – işıq, nur tanrısı Ahura-Mayda (Hörmüzd) və qaranlıq və fəsadın tanrısı Anqru-Manyu(Əhrimən) təşkil edir.

Üç (üçlük) – xristianlıq, onun əsasını üç ilahi təşkil edir – ata Tanrı, oğul Tanrı (İsus Xristos) və ana (Məryəm). Bu sözlərlə şair demək istəyir ki, Allah bir olan kimi kişinin də dostu bir olmalıdır.

Birinci adam (ap.) – "Yeddi gözəl" poemasında obraz adı. Rastü-Rövşən tərəfindən qardaşının və özünün var-yoxu əlindən

çıxan, qardaşı öldürülən və haqsız olaraq zindana salınan məhbuslardan biri.

Söylədi Bəhrama **birinci adam:**

"Sənin düşmənindən düşmən alsın kam"(YG-286).

Bisütun (top.) – İranda Kirmanşah şəhərinin 20 kilometrliyində yüksək bir dağdır. Fərhad (bax) Şirinin eşqi ilə bu dağı çapmaq istəmişdir. "Bisütun" sözü məcazi olaraq göy, səma mənasında da işlənir. Məkkə yolu onun ətrafından keçir. İranın qədim padşahı Birinci Daranın (e.ə. 522-486) hərbi yürüşləri mixi əlifba ilə bu dağın qayalarına həkk olunmuşdur. Rəvayətə görə, Fərhad Şirinin sifarişi ilə həmin dağdan süd arxı çəkmişdir. Bisütunda sevdiyi Şirinin surətini tişə ilə canlandırmışdır. Dağın bir tərəfində kaha vardır və bulaq çağlayır. Bisütunda əli şəmşirli, başı taclı bir hökmdar rəsmi və onun qarşısında isə qadın surəti vardır ki, bu da ehtimala görə Xosrov və Şirinin əksidir. Bu dağın min beş yüz arşınlıq uca bir yerinə fransız səyyahları böyük çətinliklə çıxaraq oradakı mixi yazıların və rəsmlərin əksini götürmüşlər. Orada əlləri zəncirlə arxadan bağlı doqquz nəfər məhbusun daş üzərində rəsmi vardır. Bax: Fərhad.

Xosrov nişan verdi ona uzağı,

İndi adlanır o **Bisütun dağı** (XŞ-195).

"Sütunsuz dağ" kimi izah olunan Bisütun "Baqestan" sözünün fonetik cəhətcə dəyişilməsindən yaranmış və Allahlar məkanı deməkdir."Baqestan" isə türk mənşəli sözdür.

Nizami bu addan məcazi ad kimi də geniş istifadə etmişdir.

Bir dağ çapmadınsa bu "kaf" ilə "nun",

Göy adlı bir böyük **Bisütun** qurdun (LM-28).

Burada "Bisütun" iki mənada işlənmişdir: I. Göylərin sütunsuz dayanması: II. Bisütun dağı.

"Kaf" (k) və "nun" (n) birləşməsindən ərəbcə "kun"(ol!) kəlməsi əmələ gəlir. Beytin mənası: Sən (Allah) bir dəfə "ol!" deməklə dağ çapmadan fələk kimi bir Bisütun qurdun.

Şidənin (bax) tikdiyi yeddi günbəz Bisütun dağına bənzədilir.

Yerdən bir **Bisütun** ucaldı göyə,

Fərhadın etdiyi döndü kölgəyə (YG-133).

İskəndərin qoşunu ilə üz-üzə dayanmış Zəngibar şahın ordusu Bisütuna bənzədilmişdir.

Qarşıda zəncilər kin ilə durdu,
Çıxardı **Bisütun** kimi bir ordu (İ-84).

İskəndərin ordusunun bayraqları Bisütun dağına bənzədilir.

Aydan da yuxarı ucaldı bayraq,
Bisutun kimi bir sütun vuraraq (İ-255).

Bisütun, Fərhad (qoşa məc. on.) – "Yeddi gözəl" poemasında Xacənin (bax) bağında kef məclisi təşkil edən gözəllərin boyu Bisütuna, Xacə isə Fərhada bənzədilmişdir.

Bisütunlar sütun qaldırmışdılar,
Fərhadı baltayla öldürmüşdülər (YG-260).

Yəni hovuzda çimən Bisütun boylu gözəllər Xacəni elə bil baltayla öldürürdülər.

Bişkin(an.) – Atabəy Nüsrətəddin Əbubəkr ibn Məhəmmədin ləqəblərindən biridir.

Düşmən son düşünən, ürəyində kin,
İstiqbal görəndir, ləqəbi **Bişkin** (İ-48).

Yəni düşmən işə keçəndən sonra o, iş haqqında düşünür. Bişkin isə qabağı görmək istedadına malik olduğu üçün, hadisə baş verməmişdən qabaq onun çarəsini tapır.

Şair bu ləqəbin Atabəy Nüsrətəddinə düzgün verilməməsi haqqında yazır:

Neçün **Bişkin** demiş ona bu dövran?
O ki mehribandır bütün şahlardan.
Bişkin kəlməsini düzgün yazsalar,
Ona layiq bir ad Keypişin olar (İ-426).

Bişkin sözünün lüğəti mənası çox kinli deməkdir. Nizami bu ləqəbin Atabəy Nüsrətəddinin xasiyyətinə uyğun olmadığını bildirir və deyir ki, onun kini deyil, əksinə mehribanlığı bütün şahlardan artıqdır. Buna görə də şair Bişkin (yaxud Pişkin) sözünün hərflərini dəyişməklə onu Keypişin şəklinə salır və bu adı şaha daha layiq bilir; çünki Keypişin İranın əfsanəvi padşahı və Keylər sülaləsinin birinci şahı olan Keyqubadın oğlu Keykavusun adıdır.

Bişkin (Bu ləqəb Pişkin şəklində yazılsa,daha düzgün olar) ləqəbi çox maraqlı etimologiyaya malik olub, Azərbaycanın qədim ad sistemi ilə əlaqədardır.

Z.Bünyadov Nüsrətəddin Əbubəkrin "Nüsrətəddin Piş-Təkin" adlanmasını da qeyd edir (11-226). "Təkin" (müxtəlif mənbələrdə teqin, tekin, tegin kimi də yazılır. Bizcə, bu titul "təkin" – sənin təkin, sənin bircən mənasında olub (İfadə etdiyi mənaya uyğun gəldiyi üçün, elə bu formada da yazılsa, daha düzgün olar) qədim türk ad sistemində titul olmuşdur. Lakin bu tituldan orta əsrlərdə nəinki təkcə türk, o cümlədən bir çox Şərq hökmdarları da istfadə etmişlər. Şahzadə, bəyzadə titullarının ifadə etdiyi mənaya malik olan "təkin" türklərdə hökmdardan sonra taxt-taca sahib olacaq varisə verilərdi. Hökmdarın on oğlu olsaydı da, təkcə biri "təkin" olardı. O biri oğlanları isə "şad" titulu daşıyardılar. Şadların varisliyə hüquqları olmazdı. Onlar gənclikdə şad, yaşa dolduqca, vəzifələri dəyişdikcə xan, vəzir, vəkil və başqa titullar alar, əyalət hakimləri, ordu başçıları və ya sarayda vəzir və digər ən yüksək vəzifələrdə işləyərdilər. Azərbaycan dilində mövcud olan "Şadlığına şitlik etmə" atalar sözü də məhz bununla əlaqədar olaraq yaranmışdır.

"Piş-Təkin" adındakı "piş" isə fars sözü olub, ən irəli, qabaq mənalarında işlənir və "ilk təkin", "baş təkin" deməkdir. Yəqin ki, bu da "təkin" titulunun fars variantıdır. Görünür, Nüsrətəddin Əbubəkr gəncliyndə bu titula malik olmuşdur. Bizə elə gəlir ki, "Bişkin" ləqəbi Əbubəkrin "Piş – Təkin" titulunun komponentlərinin sadə söz kimi birləşməsindən və səs düşümü hadisəsi nəticəsində əmələ gəlmişdir. Yəqin ki, bu da Əbubəkrin kinli olması ilə əlaqədar olmuşdur. Bu, Miran şahın cəllad və qaniçənliyinə, ədalətsizliyinə görə xalq arasında " Maranşah" (ilan şah) adlanması ilə müqayisə oluna bilər.

Bişr (an.) – "Bişrin hekayəsi və onun aşiq olması" hekayəsində obraz adı.

Xalq bilir ismini, düşməzdi dildən,
Almışdı pəhrizkar **Bişr** adı eldən(YG-178).

Budüləf (an.) – XI əsrdə Naxçıvan hakimi Əbu Düləf adının sadə söz halında birləşməsi və səs düşümü hadisəsi nəticəsində yaranmışdır. Əsədi (bax) əsərlərinin coxunu ona həsr etmişdir. Nizami Əbu Düləfin Əsədiyə göstərdiyi qayğıya işarə edir.

Əsədi, **Budüləf** bəxtiyar oldu,
Çünki taleləri güldü, yar oldu (YG- 32).

Buğra (top.) – Düzənlik adı. ”Buğra” buğur, buğra sözündən olub, ”erkək dəvə” deməkdir. Bəlkə də, Azərbaycanda hər hansı bir çölün (mikrotoponimin) yerli dildə adıdır.

Cörrum dağlarından **Buğra** çölünə
Hər tərəf batmışdı bahar gülünə (XŞ-68).

Buxara (top.) – Asiyanın ən mühüm və böyük şəhərlərindən olmuşdur. Qədim Türküstan vilayətlərinin mərkəzi idi. XII-XIII əsrlərdə islam şərqinin məşhur elmi mərkəzlərindən birinə çevrilmişdir. Hazırda Özbəkistanda Buxara vilayətinin mərkəzidir.

Daşqın sel gəlirkən ağıllı kəslər
Reydən **Buxaraya** eyləməz səfər (İ-39).

Buxara atı (zo.) – Buxarada bəslənən xüsusi at cinsi.

Buxara atında qızmış fil kimi,
Atıldı irəli daşqın Nil kimi (İ-330).

Buxara, Gəncə (qoşa məc. top.) – Nizami “İskəndərnamə” əsərində özünü sərrafa, onun əsərlərini oğurlayanları isə yoxsula bənzədir. Lakin şair əmindir ki, onun şeirlərini kim oğurlasa, hamı onun Nizaminin olmasını təsdiqləyəcəkdir. Bu münasibətlə də şair Buxara və Gəncə astionimlərinin adını çəkir. Eyni zamanda bu şəhər adları da məcazi mənalara malikdir. Buxara – şeir oğrularını, Gəncə isə şairin özünü təmsil edir.

Fikrimi qapırlar, könlüm əmindir,
Buxaraya getsə, o, **Gəncə**nindir. (İ-32).

Buxaralı (et.) – Buxara şəhərində yaşayanların ümumi adı.

Buxaralı, gilək, kürd və xəzərli
Bir parça çörəyi tutmuş dörd əlli (İ-44).

Buxari (an.) – Əbu Əbdullah Məhəmməd ibn İsmayıl ibn İbrahim Səmərqəndi (810-870) məşhur alim, hədis toplayan, “Səhih əl-Buxari” və “ət-Tarix” əsərlərinin müəllifidir. Görünür,

alim əsl adı ilə yox, nisbəsi (doğulduğu və ya yaşadığı şəhər, kənd və qəsəbənin adı) ilə tanınmışdır. Alim ya Səmərqənddə doğulub, Buxarada yaşayıb-yaratmış, ya da əksinə. Nizami də bu alimin adını Buxari kimi göstərmiş və "Yeddi Gözəl" əsərini yazarkən onun da kitablarından bəhrələnmişdir.

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ.
Ərəbcə, dəricə, yeri düşərkən,
Buxari, Təbəri əsərlərindən... (YG-31).

Buqubeys (məc. top.) – Məkkə şəhərinin yaxınlığında yerləşən bir dağın adıdır. Şair Buqubeys dağını Ruyindiz (bax) qalasının kəmər papağına bənzədir.

Bağlar **Buqubeysdən** kəmər papağı (YG-310).

Bulqar (top.) – Volqa-Kama Bulqarıstanın paytaxtı. Xarabalığı Tatarıstanın Kuybışev rayonunda, Bolqar kəndinin yaxınlığındadır. Bulqarın adı Şərq məxəzlərində X əsrdən çəkilir. X-XII əsrdə Bulqar tərəqqi etmiş, XIII əsrin II yarısında Qızıl Ordanın sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdir. 1361-ci ildə Qızıl Orda xanı Bulak Timur Bulqar şəhərini dağıtmış, XV əsrin əvvəllərində isə tamamilə tənəzzül etmişdir (ACE.II).

Bir həbəş mirzəsi getmiş **Bulqara,**
Qırmızı qələmlə yazırdı qara (XŞ-102).

İskəndər Zülmətə (bax) gedəndə əsbab-əsləhəsini və qoşununu bir mağarada qoyub getmiş, sonra o mağaranın yerində bir şəhər tikdirmiş, adını Büni-qar qoymuş və bu ad tədricən Bulqar şəklinə düşmüşdür. Büni-qar isə "mağaranın dibi" deməkdir.

Bulqar şəhrini o, etdi bərqərar,
O şəhrin adıdır əslində Bün-qar (İ-56).

Bulqarların xələfləri olan balkarlar indi əsasən Kabardin Balkar Respublikasında yaşayırlar.

S.A.Pletnevanın "Xazarı" adlı kitabında VI-VII əsrlərin xəritəsində Bulqar dövləti Azov dənizindən şərqdə Don çayı ilə Kuban çayının aşağı sahili arasında yerləşirdi. 370-ci ildə Hunlar qərbə yürüş etdikdən və qüdrətli Xəzər dövləti yarandiqdan sonra Bulqar dövlətinin də sərhədi dəyişilmişdir. VIII-IX əsrlərin

xəritəsində isə Bulqarların dövləti artiq Volqaboyunda yaşayan Burtaslardan şimalda yerləşirdi (Göstərilən əsər. "Nauka", M.,1986, səh .16 və 47).

Bulqar quzusu (zo.) – Bulqarlar əsasən heyvandarlıqla məşğul olurdular və öz cins qoyun sürüləri və at ilxıları ilə məşhur idilər. Görünür, Nizami Gəncəvinin dövründə də bulqarların cins quzuları daha məşhur imiş. Şair məhz buna işarə edir.

Tər **bulqar quzusu,** toyuq, yaş balıq... (YG -227).

Buraq (mif.) - İslam əsatirinə görə, Məhəmməd peyğəmbərin merac gecəsi mindiyi adam başlı, it bədənli və əfsanəvi heyvanın adi. Məhəmməd bu heyvanın belində Məkkədən Qüdsə, oradan da Allahın göydəki məskəninə səyahət etmişdir.

Bu merac gecəsində qatı zülmət hec nədi,
Buraqın ayağından şimşək öpmək istədi (SX-31).

Guya bu atı Məhəmməd peyğəmbərə Cəbrail göydən gətirmişdi.

Özünü Cəbrail göydən yetirdi,
İldırım tək nurdan **Buraq** gətirdi (XŞ-357).

Bizcə, Buraq (Büraq) adı "buri" (boz qurd) və " ağ" sözlərindən düzəlmişdir. "Buri" türk xalqlarının ən qədim totemidir. "Ağ" isə böyük mənasındadır. Beləliklə, "Burak" – "Böyük boz qurd" deməkdir.

Məhəmməd peyğəmbərin türk xalqlarının totemi olan Buraqla – Boz qurdla ("İvan və Boz qurd" adlı rus xalq nağılında da buna oxşar hadisələr mövcuddur) meraca getmişdir. Bəlkə də, bu, bir növ türk xalqlarının toteminin nüfuzunun islamın qarşısında aşağı salmaq məqsədi güdür. Halbuki (dini səciyyə daşısa da) bu, həqiqətdir ki, Məhəmməd peyğəmbərin meraca getməsi ancaq türk xalqlarının totemi olan Buraqla mümkün olmuşdur. Əlbətki bu da türk xalqlarının zəngin tarixi keçmişə malik olmaları və o dövrdə Şərq xalqları aləmində oynadığı mühüm və həlledici rol ilə əlaqədardır.

Fəzlullah Rəşidəddin "Oğuznamə"də qeyd edir ki, Oğuz xan iki dəfə İt-barak qəbiləsi ilə vuruşmuşdur. Onların xanı İt-barak-xan adlanır. "İt-barak" şamanların göyə qalxdıqları uzun tüklü it

deməkdir. Kitabın şərhində göstərilir ki, guya okeanda bir yer var, orada insanların sifəti it üzünə oxşayır. Guya onlar maraldan da bərk qaçırlar. Fəzlullaha görə, onların kişiləri qara dərilidir, üzləri isə itə oxşayır, qadınları isə ağ dərili və qəşəngdirlər (Həmin əsər. səh. 34-104).

Burtas (top.) – Bax: Bərtas.

Qara samur ilə qaranlıq gecə
Burtas pərdəsini örtdü gizlicə (YG-265).

Bərtaslar əsasən ovçuluq və heyvandarlıqla məşğul olmuşlar. Nizaminin vaxtında xəzi Azərbaycan bazarlarına əsasən bərtaslar və ruslar gətirərmişlər. Bərtasların yorğanları parlaq ağ qaqum və dələ dərisindən olduğu üçün gündüzün işığını şair onunla müqayisə etmişdir.

Busəhaq (top.) – İranın Nişabur şəhərindəki firuzə mədənlərindən birinin adıdır ki, ondan çıxan firuzəyə Busəhaq deyirlər.

Gecə al günəşdən düyümü dəldi,
Şəfəqin əlinə bir əqiq gəldi.
Onu da uddu **Busəhaq** firuzə
Busəhaqlara bax, ilişdi sözə (İ-182).

Əqiq – burada qırmızı deməkdir, axşam şəfəqinə işarə olunur. Günəş qırmızı qızıldan düyümlənmiş böyük bir düyüm kimi alınır: gecə bu düyümü açır, açıldıqca ondan şəfəq doğur, sonra gecə şəfəqin qırmızılığını Busəhaq firuzənin köy rəngi ilə dəyişdirir, yəni şəfəq də çəkilir, o səma göy olur.

Burada günəş düyümünün açılması, şəfəq əqiqinin görünməsi, sonra qırmızının göylə örtülməsi – İskəndərlə Rövşənəyin zifaf gecəsindəki vəziyyətini təsvir edir.

Bülbül (zo.) – "Bülbül ilə qızılquşun hekayəti"ndə alleqorik obraz adı.

Qızılquşa söylədi şeyda **bülbül** bağında:
"Cəh-cəhi var hər quşun, çıxarmırsan səs niyə,
Niyə üstün olmusan sən quşlardan bəs niyə," (CX-151)

Şair Bülbül dedikdə özü kimi şairləri, Qızılquş dedikdə isə hökmdarları nəzərdə tutmuşdur.

Bünğar (top.) – Bax: Bulqar.

Çölbəyi o yerə ad verdi: **Bünğar**,
Get-gedə o şəhər adlandı Bulqar (İ-376).

Büraq (mif.) – Bax: Buraq.

Cəbrayıl gətirdi **Büraq:** - Qalx, - deyə,
Bu alçaq torpaqdan o yüksək göyə (İ-25).

Bürcis (kos.) – Müştəri (Yupiter). Bu səyyarə Hermes də adlanır. "Fələyin katibi" kimi də məşhurdur. Qədim nücum elminə görə, böyük səadət ulduzudur. Sitarələr içində ən işıqlı və böyük olduğuna görə gözəllik rəmzi kimi işlədilir. Bu səyyarə əvvəlcə irəliyə, sonra isə geriyə hərəkət edir. Yunan əsatirində Zevs ilə ilahiləşdirilmiş göy allahlarından biridir. Yağış ilahəsi sayılır. Şimşək onun iradəsi ilə çaxır. Buna görə də ildırım vurmuş yerlər bir zamanlar müqəddəs hesab olunurmuş. Günəş sistemindəki ən böyük səyyarələrdəndir. Onun Aydan da böyük bir neçə peyki vardır. 1610 – cu ildə Qaliley bu planetin dörd peykini kəşf etmişdir. Hazırda elm aləmində onun on bir peyki məlumdur.

Günəş ordusunun ilk kəşfiyyatı
Bürcislə Zöhrəyə nizələr atdı (XŞ-120).

Şair eyni vaxtda burada Bürcis və Zöhrəni metaforik şəkildə insana bənzətmişdir. Birinci misra Günəşin şüalarını göstirir. Səmada ən parlaq səyyarələrdən biri olan Zöhrə (Venera) və Bürcis (Yupiter) belə bu şüaların təsiri ilə görünməz oldu. Yəni gecə keçdi, səhər açıldı.

Büzürk (an.) – Xosrov Pərvizin müəllimi və vəziri Büzürkümid (bax) adının ixtisar forması. Fars dilində "bozorq" olub "böyük" deməkdir.

Büzürk cavab verdi: "Uzağa getmə!..." (XŞ-231).

Büzürgimehr (xat. an.) – Sasani şahlarından Nuşirəvanın (bax) vəziri olmuşdur. O, Büzürgimehr və Zərcmehr də adlanır. Öz ağlı və hikməti ilə məşhur olmaqla bərabər Hindistandan bir sıra qiymətli əsərlər əldə edərək, onların pəhləvi dilinə (orta fars dili) tərcümə etdirmişdir. Rəvayətə görə, nərd oyununu da icad edən Büzürgimehr olmuşdur. Miladi tarixin 580-ci illərində ölmüşdür.

Nizami hökmdarların fəaliyyətində ağıllı və bacarıqlı vəzirlərin oynadığı rolu sadalayanda onun da adını xatırlayır.

Nuşirəvan bəzmi bəzədi yeri,
Çünki vəziriydi **Büzürgimehri** (YG-40).

Büzürgümid (an.) – "Xosrov və Şirin" poemasında obraz adı. Hürmüz və Xosrovun müasiri kimi təsvir olunan Büzürgümidin tarixi şəxsiyyət olması hələ qeyri-məlumdur. Bizə elə gəlir ki, Büzürgümid Nuşirəvanın vəziri Büzürgmehr deyildir. Çünki o, Xosrov taxta çıxandan on il qabaq (580-ci ildə) vəfat etmişdir. Demək, şair bu obrazı yaradarkən, tarixi şəxsiyyət olan Büzürgmehrdən geniş istifadə etmişdir.

Müxtəlif dövrlərdə, müxtəlif ölkələrdə yaşayan tarixi şəxsiyyətləri bir yerə toplayıb müasirləşdirmək Nizami yaradıcılığına xas olan xüsusiyyətdir. Şair həmin obrazın adında müəyyən dəyişiklik etmişdir. Adın ikinci komponentini ("mehr" sözünü) Azərbaycan sözü olan "ümid" sözü ilə əvəz etmişdir.

Büzürgümid adlı bir alim vardı,
Ağlı, istedadı güntək parlardı (XŞ-56).

Şair Büzürgümidi görkəmli alim, ulduzlar aləminə yaxından bələd olan bir şəxsiyyət kimi təsvir etmişdir.

Büzürgümid durub filin yanından
Əlində üstürlab baxırdı hər an.
Çalışırdı təyin eləsin nə vaxt
Düşməndən üzünü döndərəcək baxt (XŞ-148).

- C -

Cahan Pəhləvan (an.) – Azərbaycanda hakimiyyət sürmüş Səlcuq atabəylərinin ikincisi, Şəmsəddin Eldəgizin oğlu Atabəy Əbu Cəfər Məhəmməd Eldəgizin ləqəbi. Qızıl Arslanın böyük qardaşı. O, 1172-ci ildə hakimiyyətə gəlmiş, 1185-ci ilə qədər hakim olmuşdur.

Qardaşım cahana olmuş hökmran,
Onunçun deyilmiş: **Cahan pəhləvan** (XŞ-370).

Cahan Pəhləvan (məc. an.) – Şair Nüsrətəddin Əbubəkr ibn Məhəmmədi Cahan Pəhləvana bənzədir:

Cahan pəhləvandır, Nüsrətəddindir,

Hökmü düşmənlərə qılınc təkindir (İ-48).

Şair yenə də Atabəy Nüsrətəddini Cahan Pəhləvana bənzıdır.

Damağın çağ olsun, bəxtin də Cavan,
Cahanda olasan **Cahan pəhləvan** (İ-429).

Şair Məlik İzzəddini Cahan Pəhləvana bənzədir.

Kimdə var bu məclis padişahlardan,
O həm şahdır, həm də **Cahanpəhləvan** (İ-609).

Cahanbanu (an.) – İskəndərə ərə getdikdən sonra Rövşənəyə (bax) verilən yeni ad.

"Cahanbanu" deyə, yeni ad taxtı,
Bütün ixtiyarı ona buraxdi (İ-185).

"Cahanbanu" farsca iki sözdən – cahan və "xanım" mənasında olan banu sözlərindən ibarətdir. Bu ad keçmişdə padşah arvadlarına verilərdi. Bütün Şərq ölkələrində mövcud olan bu advermə ənənəsi qədim türk xalqlarına məxsusdur.

"Cahanmədxəl" (id.) – Ərəstunun (bax) əsərinin adıdır.

Yazdım bildiyimi **"Cahanmədxəl"ə**
Bəzədim, süslədim onu elm ilə (İ-601).

Calinus (xat. an.) – Yunanlılara məxsus bu alimin adı, II əsrin əvvəllərində yaşayan görkəmli yunan alimi, həkimi, riyaziyyatşünas və ulduzşünası Bətlimusun müəllimi.

Səndə **Calinusun** elmi də olsa,
Ölürkən dönərsən bir **Calinusa** (XŞ-361).

Calinus adı 2 mənada işlənmişdir. Birinci misrada söhbət elmli, canlı, ikinci misrada isə ələndən sonra torpağa dönən Calinusdan gedir. Yəni Calinus kimi elmli olsan da, Calinus kimi torpağa dönəcəksən.

Cami-Cəm (məc.ktem.) – Bax: Cəmşid camı.

Qaşını çatmışdı onun qüssə, qəm,
Gözündə deyildi əsla **cami – Cəm** (İ-439) .

Beytdə deyilir: İskəndər qəm içində qaşqabaqlı oturmuşdu; üzündə şadlıq, sevinc əlaməti yox idi.

Can Yusifi (məc.on.) – İtin canının çıxması Yusifin dolça üstündə quyudan çıxmasına bənzədilir.

Qurda bənzər köpəyi düşən gördü yol üstə,
Can Yusifi çıxmışdı dar quyudan dol üstə (CX-111)

Can, Ciyərparə (məc.ap.) – Şair "İqbalnamə"ni (bax) öz canına, oğlu Məhəmmədi (bax) isə ciyərinin parasına bənzədir.

Canımı yollayıb bir peşkəş kimi,
Qoşmuşam mən ona **ciyərparəmi** (İ-610) .

Cavan (ap.an.) – "Kərpickəsən qocanın bir cavanla hekayəti"ndə obraz adı.

Birdən – birə göründü gözə bir **cavan oğlan** ,
Başladı məzəmmətlə sözə bir **cavan oğlan** (SX-90).

Ceyhun (top.) – Asiya qitəsinin ən böyük çaylarından biridir. Vaxtilə kənarında mövcud olmuş Ceyhan şəhərinin adı ilə əlaqədar Ceyhun adı almışdı. Hindistanın şimalındakı Pamir dağından axan bir sıra çayların qovuşmasından əmələ gələn və Aral gölünə tökülən bu çay Buxara və Mərv şəhərləri arasından öz məcrasını aldığı hissədə yerləşən Amu səhrasının adı ilə əlaqədar olaraq hazırda Amu-Dərya adlanır. Kaşqar tərəfdən axan Ağsu, Fərqanədən gələn Qızılsu, Zərəfşan dağından enən Sürxab, Səmərqənd və Buxaranın yanından keçən Zərəfşan çayı güclü yağışlar zamanı Ceyhuna qarışır. Bu çayın böyüklüyünü, gəmiçilik və suvarma əhəmiyyətini nəzərə alaraq onu bəzən Asiyanın Reyn çayı adlandırırlar. Ərəblər bu çayın şimalında olan yerləri Mavəraünnəhr adlandırmışlar.

Onun böyüklüyü göylərə çatsın,
Atını **Ceyhundan** özü sıçratsın (XŞ-34) .

Burada söhbət Arslan şahdan (bax) gedir.

Yetişib **Ceyhuna** düşərgə qurdu (YG-275) .

Söhbət İrana hücum edən Çin xaqanından gedir.

O dünya dolaşan atını sürdü,
Qoşunla **Ceyhuna** doğru yüyürdü (İ-310) .

Burada isə söhbət İskəndərdən gedir.

"Ceyrangöz" (məc. növ.) – Bir növ ipək parça adıdır; üstündə ceyran gözü kimi naxışlar olduğu üçün belə adlanır.

Atlar dırnağından ipək çöl, çəmən
"Ceyrangöz" olmuşdu ceyran gözündən (İ-273) .

Beytin mənası: o qədər ceyran ovlanmış ki, yer "Ceyrangöz" parçası şəklində idi.

Cəbə (kos.) – Ulduz adı.

Göydə qovmaq üçün şeytanları da
Cəbədən o bir ox verdi Cövzaya (XŞ-357).

Söhbət Məhəmməd peyğəmbərin meracından gedir.

Cəbhə (kos.) – İyirmi səkkiz Ay mənzillərindən biri.

Asimanın alnından gecənin tozunu al,
Ucalmağa tapmasın **Cəbhə**, Əxbiyə macal (SX-25).

Burada söhbət Məhəmməd peyğəmbərin merac gecəsi səmaya səfərindən gedir.

Cəbhə budaqları yanırdı düm ağ,
Şölə saçmadaydı ondan yüz çıraq (LM-185).

Cəbrayıl (mif.) – "Kəniz satan padşahın hekayəsi"ndə obraz adı.

Şahın sevincindın gözləri doldu,
Hər gün **Cəbrayıla** müntəzir oldu (YG-169).

Cəbrayıl – Dini etiqada görə, Allahın dörd yaxın mələyindən birinin adıdır. O, guya Allahla Məhəmməd peyğəmbər arasında qasidlik edərmiş. "Xəmsə"nin müxtəlif əsərlərində bu ad gah Cəbrayıl, gah da Cəbrail kimi yazılmışdır. Lakin onun "Cəbrayıl" forması daha düzgündür.

Cəbrail keçərək yeddi fələyi... (XŞ-357).
Cəbrayıl sənlnlə gedə bilmədi (LM-37).
O yolda qol- qanad tökdü **Cəbrail** (İ-26).

Cəbrayıl (məc. mif.) – Şair öz ilham atını Cəbrayıla bənzədir.

Cəbrayıl qanadlıdır şairin ilham atı,
Əlinin yelpiyidir İsrafilin qanadı (SX-51).

Cəbrayıl (məc. mif.) – Cəbrayılın şəhpəri könülün qanadına bənzədilir.

Könülün qanadıdır **Cəbrayılın** şəhpəri (SX-53).

Bəhram Gur özünü metaforik şəkildə Cəbrayıla, filə, öz düşmənlərini isə qarışqa və ağcaqanada bənzədir.

Həmcinsmi qarışqa de, **Cəbrailə**?
Ağcaqanad hərif olarmı filə? (YG-88).

Şair öz təbini, ilhamını Cəbrayıla bənzədir.

Bu **Cəbrayıl** təbim cin qələmimlə
Çəkər səhifəyə cizgilər belə (YG-32).

Qədim ərəb şairləri ən zərif və gözəl şeirlərini, nadir bədii obrazlarını cinlərin müdaxiləsinə mənsub edərdilər. Ən nəfis şeirə cinyazan şeir deyərdilər. Həmin təsəvvürü Nizami burada şairanə qələmə almışdır.

Şair gurlayan təbili göydə qanad çalan Cəbrayıla bənzədir.

Elə bir dəhşətlə gurladı təbil,
Sanki qanad çaldı göydə **Cəbrail** (İ-561) .

Sokrat özünü Cəbrail ilə müqayisə edib. Cəbrail kimi hər kiçik iş üçün yerindən tərpənməməyi, ağır oturub- durmağı özünə layiq bilir.

Getməmək üçün də vardır çox dəlil,
Hara oynamağa gedib **Cəbrail**? (İ-478) .

Cəbrayıl, İsrafil (ep.mif.) – Allaha ən yaxın olan iki mələyin adıdır.

Cəbrayıl qanadlıdır şairin ilham atı,
Əlinin yelpiyidir **İsrafilin** qanadı (SX-51).

Söhbət Məhəmməd peyğəmbərdən gedir. Şair Məhəmməd peyğəmbərin meraca getməsini təsvir edərkən sonu fonetik cəhətcə eyni səslənən bu mələk adlarını yanaşı işlətməklə öz fikrini daha da axıcı etmişdir:

O yolda qol-qanad tökdü **Cəbrail,**
Qorxudan durmayıb qaçdı **İsrafil** (İ-26).

Söhbət Məhəmməd peyğəmbərin meracından gedir.

Cəbrail, Mikayıl, İsrafil (qrup ep. xat. mif.) – Şair bu mələkləri xatırlamaqla göstərmək istəyir ki, merac zamanı Məhəmməd peyğəmbər bu mələklərin olduğu yerləri də ötüb keçdi.

O gəlib çatınca uzaq mənzilə,
Gördü bağlanmışdır yol **Cəbrailə.**
Keçdi **Mikayılın** taxtından haman
Suri-İsrafilin rəsədgahından... (YG-27).

Dini etiqada görə, Allahın dörd yaxın mələyi vardır: Cəbrail – Allahın sözlərini peyğəmbərlərə çatdırır, Mikayıl – Allahın

bəndələrinə ruzi paylayır, İsrafil – Qiyamət günü sur- şeypur çalıb ölüləri qəbirdən qaldiracaqdır. Ona Suri-İsrafil də deyilir. Əzrail isə insanların canını alan mələkdir ki, ona bəzən Mələkülmövt də deyilir. "Xəmsə"də bunlar həm ayrılıqda, həm də çox vaxt yanaşı işlədilir.

Arxada qoyaraq **Cəbraili** də,
At sürüb keçmişdi **Mikayili** də.
İsrafil qanadı üstünə aldı (XŞ-358).

Cəbrayıl rütbəsi (məc. on.) – Şair qabiliyyət və bacarığı olmayan şəxslərə verilən xəzinə və vəzifəni "Cəbrayıl rütbəsi"nə bənzədir.

Qarışqa yemiylə fili yemləyə,
Cəbrayıl rütbəsi verə milçəyə (İ-424).

Cədi (kos.) – On iki bürcün biridir ki, ona Oğlaq bürcü də deyilir.

Cədi baş kəsməyin sirrin bilərək,
Başını kəsmişdi keçi başıtək (LM-185).

Cəfər (məc. an.) – Məşhur ərəb xəlifəsi Harun ər-Rəşidin (783-809) vəziri Cəfər Bərməki. Onun əmri ilə saf, yüzə-yüz təmiz qızıla sikkə vurmağa başlayıblar.

Cəfər kimi şam olsun sarı gülün qəlbinə,
Çıraq kimi nur saçsın barı gülün qəlbinə (SX-120).

Cəmin novruzu (xron.) – Bax: Cəmşid və Novruz.

Firidun şənliyi, **Cəmin novruzu**
Üzlərdən silmişdi kədəri, tozu (İ-222).

Burada söhbət İskəndərlə Nüşabənin məclisdə oturmasından gedir.

Cəmşid (an.) – "Cəmşidlə cavan yavərinin hekayəti"ndə obraz adı.

Sarayında **Cəmşidin** vardı yaxın yavəri,
Ay – Günəşin yavəri , o da şahın yavəri (SX-141).

Tarixi əfsanələrə görə, ən qədim İranda Pişdadyan sülaləsinin IV şahı olmuşdur. Guya onun taxtını divlər gəzdirərmişlər. Bir gün divlər onun taxtını Azərbaycanda bir dağın üstünə qoyurlar. Guya Cəmin paltarları və taxtı qızıldan olduğu üçün Günəşin

işığından parıldayırmış. Həmin vaxt isə ilin 1-ci günü olduğundan və Günəş şüalarının təsiri ilə 2-ci "Günəş" əmələ gəldiyindən bu günə "Novruz" – "Yeni il" deyildi. Bu gündən Cəmin özünə də Cəmşid dedilər. Şid – Günəşin telləri, Cəmşid isə Günəşin telləri ilə birləşən cəm deməkdir. Guya "Novruz" bayramı bu hadisənin il dönümüdür. Rəvayətə görə, şərab onun zamanında kəşf edilmişdir. Guya Cəmşid 700 il yaşamış, Novruzu ilin əvvəli və bayram elan etmiş, şadlıq və kefcilliyə əsaslanan bir məslək yaratmışdır. Cəmşid adı və Cami-Cəm (Cəmşidin Camı) deyilən qədəh Şərq ədəbiyyatında şadlıq kimi işlənir.

Cəmşid (məc. an.) – Ərzincan hakimi Bəhram şah (bax) Cəmşidə bənzədilir.

Camın bənzər **Cəmşidin**, Keyxosrovun camına,
Günəş bir pərvanədir camalının şamına (SX-43).

Səadətlə yaşayan insanlar Cəmşidə bənzədilmişdir.

Cəmşidtək səadətlə keçsə dövranın sənin,
Ağ saçını görəndə qaralar qanın sənin (SX-88).

Yəni əgər sən Cəmşid kimi səadətlə yaşayırsansa, onda ağaran saçlarını görəndə sənin qanın qaralar. Səadətlə yaşamayanların gənclikdə saçlarının ağarması isə təbii haldır, sizi kədərləndirməsin.

İki Alim eyni vaxtda Cəmşidə bənzədilir.

İki **Cəmşid** bir yerdə dövran sürə bilərmi,
İki qılınc bir qına, söylə girə bilərmi?(SX-118).

Qızıl Arslan (bax) Cəmşidə bənzədilir.

İkinci **Cəmşiddir**, bilirəm bunu
Dedim: Həşrə qədər yaşasın onu! (XŞ-45).

Şirin (bax) metaforik şəkildə Cəmşidə bənzədilir.

Firidun təxtinə əyləşdi Sultan,
Cəmşid qibləsinə bağladı iman (XŞ-127).

Şirvanşah Axsitan Cəmşidlə müqayisə olunur.

O camdan ki, **Cəmşid** qıymaz özünə,
Bəxş edər qullardan hər gün yüzünə (LM-55).

Dünyanı özündə əks etdirən camı Cəmşid özünə qıymadığı halda, Şirvanşah Axsitan o cür camları öz qullarına hədiyyə verir.

Bəhram Gur (bax) Cəmşidə, onun tacı isə Günəşə bənzədilir.

Aldı **Cəmşid** kimi qızıl cam ələ,
Tacı **günəş** kimi nur saçdı elə (YG-163).

Şair metaforik şəkildə İskəndəri (bax) Cəmşidə bənzədir.

Göy soyuq, Günəşin xeyməsi ocaq,
Yer quru, **Cəmşidin** yastığı yumşaq (İ-222).

Yəni havanın soyuqluğundan yer buz bağlamışdı, quru idi. Lakin İskəndərin səxavəti və Cəmşid kimi ucalığı ilə o soyuq qışda çadır isti, yastıq yumşaq olmuşdu.

Cəmşid camı (məc. ktem.) – Əsatirə görə, şərabı Cəmşid (bax) icad etmişdir. Onun qızıldan bir camı da var imiş və heç vaxt ondan şərab əskik olmazmış. O, bu camın vasitəsilə bütün dünyanı görürmüş. Əfsanəyə görə, Zöhhakla apardığı müharibədə məğlub olacağını camda görəndən sonra qaçıb gizlənmiş, bu hadisədən yüz il keçəndən sonra Zöhhak onu tapıb mişarla doğramışdır. Cəmşid hind əsatirində Günəş məbududur. Zərdüşt Hind əsatirindən istifadə edərək "Avesta" (bax) əsərində ondan kökmdar kimi bəhs etmişdir. Şərq ədəbiyyatında Cəmşid camı "Cami cahannümay" (dünyanı göstərən cam), "Cami-Keyxosrov", "Cami cəm", "Cami Cəmşid" və s. adlar da poetik adlar kimi işlədilir. Görkəmli Azərbaycan şairi Marağalı Əvhədi "Cami-Cəm" adlı poema yazmışdır.

Cəmşid camını al, qəm vaxtı deyil,
Olmasın Bağdadda bir köhnə zənbil (XŞ-218).

Şair eyni zamanda Məryəmi metaforik şəkildə köhnə zənbilə bənzətmişdir.

Cəmşid, Firidun (qoşa xat. an.) – Klassik ədəbiyyatda bu ata və oğul adları çox vaxt qoşa işlədilir. Şair bu iki qüdrətli hökmdar rəmzi olan adları xatırlamaqla Sasanilər sülaləsinə son qoyulmasina işarə edir.

Cəmşid, Firiduna bir qələm çəkən
Böyük peyğəmbərə əhsən, yüz əhsən! (XŞ-356).

İskəndərin Daraya yazdığı cavab məktubunda Cəmşid və Firidunin adları xatırlanır.

Cəmşid tarixini oxu bır daha,
O ayı gör necə uddu əjdaha.

Haman əjdahaya sonra **Firidun**
Əjdaha gücüylə açdı nə oyun (İ-136-137).

Burada əjdaha – Zöhhak (bax), Ay isə Cəmşiddir. İkinci beytdə isə Cəmşidin nəvəsi (bəzi mənbələrdə oğlu) Firidun böyük bir qüvvətlə hücuma keçib, Zöhhaki məğlub etdi. İskəndər ölüm ayağında öz keçmiş igidliklərini xatırlayarkən bu adları da yada salır.

Cəmşidtək təxtlərə çıxdım – ucaldım,
Firidun xəzinə yığdı, mən aldım (İ-584).

Cəmşid, Günəş (qoşa məc. on.) – Xosrov Pərviz Cəmşidə, hər ikisi də Günəşə bənzədilir.

Zamanın **Cəmşidi –** dünya **günəşi**
Örtüb çadırıyla Bənatünnəşi (XŞ-216).

Yəni Günəş (Xosrov) çıxdı, Bənatünnəşi (Böyük Ayı bürcündə olan yeddi ulduz) görünməz oldu.

Şair Taysız gözəlin dili ilə İskəndəri Cəmşidlə, Taysız gözəlin özünü isə Günəşlə müqayisə edir.

İskəndər **Cəmşiddən** olmuşsa yüksək,
Gül üzüm **günəşə** üstündür görcək (İ-368).

Cəmşid taxti (məc. ktem.) – Şirvanşah Axsitanın taxtı Cəmşidin taxtı ilə müqayisə olunur.

Günəşin taxtından tacın ucadır,
Cəmşidin taxtından taxtın qocadır **(**LM-56).

Cəmşid, Keyqubad, Keyxosrov (qrup məc. an.) – Şair eyni vaxtda Şirvanşah Axsitanı Cəmşidə, Keyqubada və Keyxosrova bənzədir.

İkinci **Cəmşidsən** taxt almaqda sən,
Birinci günəşsən misilsizlikdən.
Keyqubad görkəmli Şahi- Şirvansan, . .
İkinci **Keyxosrov**, ey şah Axsitan ! (LM-284) **.**

Cəmşid, Zöhhak (qoşa məc. an.) – Əbu Cəfər Məhəmməd Eldəgiz eyni zamanda Cəmşid və Zöhhakla müqayisə olunur.

Cəmşidi öldürmüş **Zöhhak** ilanı ,
Sənə göy əjdəri vermişdir canı (XŞ-39).

Klassik ədəbiyyatda bu adlar çox vaxt qoşa işlədilmişdir.

Qoca pəhləvan Fəribərz İskəndərin sualına cavab verərkən Cəmşid və Zöhhakın düşdüyü vəziyyəti xatırlayır və qoca Daranı metaforik şəkildə Cəmşidlə müqayisə edir.

Qocalıq çağında çərxin inadı
Cəmşidə, Zöhhaka nələr qurmadı? (İ-165).

Həm Cəmşid, həm də Keyxosrov İran mifologiyasında qüdrətli hökmdar rəmzi hesab olunurlar. Elə buna görə də şair Fəxrəddin Bəhram Şahı (bax) eyni vaxtda bu hökmdarlarla müqayisə edir.

Camın bənzər **Cəmşidin, Keyxosrovun** camına (SX-42).

Cəmşidin xələti (məc. ktem.) – Doğan Günəş Cəmşidin xələtinə, dünya isə bu xələtə bürünən insana bənzədilir.

Əlbürzün başında **günəş** göründü,
Cəmşid xələtinə dünya büründü (XŞ-70).

Cənd (top.) – Nizaminin təsvirlərindən ehtimal etmək olar ki, bu şəhər Orta Asiya ərazisində olmuşdur. Şairin fikrincə, bu şəhəri Makedoniyalı İskəndər tikdirmişdir.

Səmərqənd şəhərinə o verdi zivər,
Cəndi də tikdirmiş böyük İskəndər (I – 56).

Cənnət (mif.) – Ərəb sözüdür və Behişt deməkdir. Dini əfsanələrə görə, guya dini qayda-qanunları və şəriətin tələblərini həyata keçirən şəxslər öləndən sonra Cənnətə, bunlara əməl etməyənlər isə Cəhənnəmə (bax) gedəcəklər.

Cənnət də ətirlənər gülzarının şehindən (SX – 35).

Yəni Məhəmməd peyğəmbərin gülzarının şehindən Cənnət də ətirlənər.

Cənnət (xat. mif.) – Adəmin buğda yeyib Cənnətdən çıxmasına işarə olunur.

Uçub qondu fələklərin quşları,
Səcdəsindən nə qədər ləngidi uçuşları.
Səxavəti ucundan mənimsədi bir dəni,
Atdı gözəl **cənnəti**, dünya oldu məskəni (SX-69).

Fələyin quşları - mələklər deməkdir. Adəmə ona görə səcdə ediblər ki, Adəm mərhəmət və kəramət naminə buğda yeyib, Cənnətdən dünyaya gələndən sonra Tanrının ona öyrətdiklərini mələklərə də öyrədib.

Cənnət beytləri (məc. mif.) – Ən gözəl, ahəngdar və dərin məzmunlu şeirlər Cənnət beytlərinə bənzədilir.

Turaclar əkində ötüb gedirdi.
Cənnət beytləri təqti edirdi (YG-274).

Burada təqti etmək - ahənglə oxumaq deməkdir.

Cənnət eyvanı (məc. mif) – Yeddi günbəd sarayının eyvanı Cənnət eyvanına bənzədilir.

Cənnət eyvanına o gələn kimi... (YG-275).

Burada söhbət Çin ordusunun İrana hücumu haqqında xəbər gətirən qasiddən gedir.

Cənnət meyvəsi (məc. mif.) – Xacənin bağında yetişən meyvələr Cənnət meyvəsinə bənzədilir.

Ətrilə yoğrulub sanki hər yeri,
Cənnət meyvəsinə oxşar bəhəri (YG-256).

Cənnət, Cəhənnəm (məc. mif.) – Şair Bəhram Gurun vəziri Rastü – Rövşənin vəzirlik dövrünü, firavan həyatını, özbaşınalığını Cənnətə, zindana salınmasını, əvvəlki cahü -cəlaldan məhrum olmasını isə eyni vaxtda Cəhənnəmə bənzətməklə qüvvətli təzad yaratmışdır.

Sonra bir cəllada dedi: "Onu al,
Cənnətdən sürüyüb **cəhənnəmə** sal!" (YG-285).

Cənub (top.) – Cənub qütbü. Lakin şeirin təsvirlərindən elə nəticəyə gəlmək olur ki, burada Cənub dedikdə Hindistan və Çinin cənubundan söhbət gedir.

Sonrasa **Cənuba** dönüb yenə də,
Çoxlu ov etdilər yol gedə-gedə (İ-555).

Cərəm (an.) – Əsli Dağıstandan olan rus pəhləvanlarından birinin əsl adı.

Cərəm adlı bir dağ Ləzgi dağından,
Əlindən zinhara gəlmiş bu cahan (İ-335).

Cəzirə (top.) – Ərəbcə ada mənasında olan Cəzirə İskəndər ilə Dara qoşunlarının üz-üzə gəldiyi Musil vilayətinin yerləşdiyi ərazidir.

Cəzirə ki, Musil adlı ölkədir,
Səfalı bir yerdir, xoş düşərgədir (İ-140).

Cəzirə - Şam ilə İraq və Kürdüstan arasında bir ölkədir. Fərat ilə Dəclə buradan axdığı üçün qədim yunan coğrafiyaşünasları buraya Mesopotamiya, yəni çaylararası adını vermişlər.

Cin (mif.) – Ərəb sözüdür və Şeytan mifoniminin sinonimidir. Onlar müsəlman əsatirlərində oddan yaradılmış ruhlardır. İstənilən sifətə, o cümlədən insan sifətinə girə bilirlər. Cinlər xeyirxah (Allaha etiqad bəsləyən) və bədxah olur. Bədxah cinlər İblisə tabedirlər və adamlara zərər vurmaqda ona kömək edirlər (İslam. B.,1985).

Cin – şeytan yuvasna döndərdilər dünyanı,
Qoy zalımın, namərdin yerdə çürüsün canı (SX-37).

Codrə (an.) – Rus pəhləvanlarından birinin əsl adı.

Codrə adlı bir rus oxudu meydan,
Südəmər ceyrandı ona hər aslan (İ-336).

Covza (kos.) – Bax: Cövza.

Ütarid və **Covza** qonmuş bir yerə,
Sovrda məskən etmiş Ay ilə Zöhrə (İ-64).

Cörrum (top.) – Bərdə ətrafında hər hansı bir dağın, zirvə və ya təpənin yerli xalq tərəfindən işlənən adıdır. Bu, Bərdənin köhnə adı olan Hərum (bax) adı ilə də fonetik cəhətcə səsləşir.

Cörrum dağlarından Buğra çölünə
Hər tərəf batmışdı bahar gülünə (XŞ-68).

Cövza (kos.) – On iki bürcün üçüncüsüdür. Yunan əsatirində Dioskurlar (Poludevk və Kastor), Şərq əsatirində isə Ekizlər adı ilə məşhurdur. Əsatirə görə bu "Ekizlər" Zevsin oğullarıdır. Mehriban qardaşlar olduqlarına görə Zevs əbədi həyat vermək məqsədi ilə onları gecə və sübh ulduzlarına döndərmişdir. Qədim nücum elmində Ekizlər əl-ələ tutuşub, qol-boyun dayanmış iki uşaq şəklində təsvir edilmişdir.

Kəmər bağlamışdı **Cövza** iki qat,
Qoşa payalıydı əyləşdiyi taxt (LM-184).

Köhnə astrologiyaya görə, Cövza bürcü külək bürcü hesab edilirdi. Buna görə də, soyuqdəymənin səbəbi sayılırdı. Yəni nə qədər ki, sən yox idin, Cövza sənə soyuq verib sonra da sağaltmaq üçün səndən qan aldırmışdı.

Taleyinə pörtməkdən uzaqdı hələ **Cövza,**
Damarını çərtməkdən uzaqdı hələ **Cövza** (SX – 101).

Cövza (məc. kos.) – Cövza bürcündə yerləşən ulduzlar səmada kəmərə bənzəyir. Məhəmməd peyğəmbərin merac zamanı Cövza və Xərçəng Bürclərində olması , onun Cövzadan kəmər, Xərçəngdən tac alması fikrilə ifadə olunur.

Bu səfərdə göylərdən töhfə aldı, bac aldı,
Cövzadan kəmər aldı, Xərçəngdən də tac aldı (SX-30).

Burada Məhəmməd peyğəmbərin kəmərinin qaşında olan parlaqlıq da kəmərə bənzəyən Cövza ulduzunun işığı ilə müqayisə olunur.

Şeir göyə qaldırar şöhrətini ölkədə
Kəmərinin qaşında Cövza qalar kölgədə (SX-50).

Cudi (top.) – Dünya tufanı zamanı Nuhun gəmisi Cudi dağının başında sahilə çıxmışdı. İndiki Ararat dağı hesab olunur. "Xəmsə"nin "İzahlar"inda Dəclə çayının (Mesopotamiyada) şərqində də eyni adlı bir dağın olması qeyd olunur.

Qılınc – Hindistanı, keyim – Davudi,
Səxa gəmisində yer oldu **Cudi** (YG-124).

Beytin mənası: Bəhramın səxavət gəmisi adları mətndə çəkilən (müşk-ənbəri, hindi qılıncları, paltarları və s.) Nemanın Cudi dağı kimi yüksək olan vücuduna tərəf apardı.

Cudi (məc. top.) – Şair İskəndərin tabutundan qalxan ətrin qoxusunun Cudi dağı qədər yüksəkliyə qalxdığını bildirir.

O qədər yayıldı ətrin səfası
Çatdı **Cudi** dağa səxa dalğası (İ-594).

Cudi dağları (məc. top.) – Bax: Cudi.

Ondan əta umsa göyün tağları,
Səxasında batar **Cudi dağları** (XŞ-37).

Burada söhbət Atabəy Əbu Cəfər Məhəmməd Eldəgizin səxasının Cudi dağı ilə müqayisə olunmasından gedir.

Cuhud (məc. et.) – Cuhud xalqının adı. Şirin burada Xosrovu cuhuda bənzədir.

Həddindən artıq sən aciz olsan, bil,
Cuhuda dönərsən, bu lazım deyil (XŞ-275).

- Ç -

Çaç (top.) – Özbəkistan Respublikasının paytaxtı Daşkəndin qədim adıdır. Bəziləri bunun Kaşqar şəhərinin köhnə adı olduğunu da söyləyirlər.

Şüştər zinətini bağlasın **Çaça** (XŞ-34).

Çaçi kamanlar (növ.) – Çaçda hazırlanan kaman növü.

Çaçi kamanlarla çini ipəklər,
Bir neçə qılınc da ona bərabər (İ-305).

Çaçlar (et.) – Çaç şəhərində yaşayanlar. Şair Rum pəhləvanını çaçların qayırdığı yaya bənzədir.

Kəməndi tamğaclı qaşına bənzər,
Çaçların qurduğu yay kimi çənbər (İ-86).

Çaçlılar yaxşı kaman qayırmaqda məşhur olmuşlar.

Çarxın əqrəbi (məc. kos.) – Əqrəb bürcü (bax) nəzərdə tutulur. Demək, Əqrəb bürcü çərxin (kainatın) əqrəbinə bənzədilmişdir.

Süsənbərin iyi göylərə qalxdı,
Çarxın əqrəbini yandırdı, yaxdı (YG-274).

Çəng-Məryəm (məc. fit.) – Bitki adıdır, doğuşu çətin keçirən hamiləlilərə verərmişlər. Burada şair metaforik şəkildə Xosrovu Məryəm çiçəyinin köməyi ilə xilas olan zahıya bənzətmişdir.

Necə **çənk-Məryəmdən** qurtarar zahı,
Məryəmdən qurtardı dünyalar şahı (XŞ-215).

Çillə (məc. xron.) – Qış fəslinin qırx gününü əhatə edən bir hissəsinin adı. Adətən, qırx günlük Çillə xalq arasında "Böyük Çillə", iyirmi gününü bildirən Çillə isə "Kiçik Çillə" adlanır.

Hər **çillə** qırx gündür, xəlvəti mindir,
Bu yerdən məclisə girmək çətindir (İ-39).

Burada isə "Çillə" zahidlərin cəmiyyətdən uzaqda keçirdikləri qırx gün deməkdir. Buna "Dərviş Çilləsi" də deyilir. Yəni qırx Çillədən və min cürə pəhriz, qənaət, ibadət işləri ilə məşqul olandan sonra, daha şahların məclislərində iştirak etmək yaramaz. Demək, ömrünü azad, öz aləmində keçirdikdən sonra daha saraya girmək, saray şairi olmaq məndən uzaq olan işdir.

Çin (top.) – Asiyada ən böyük dövlətlərdən biri. Çinlilər özlərini "adamlar" mənasında, "Çjunqo jon" və ya sadəcə olaraq

“çin” adlandırırlar. Ruslar və bir sıra slavyan xalqları bu ölkəyə “Kitay” deyirlər. Bu ad keçmişdə ölkədə yaşayan Kidan(“Ki – od, ”dan” isə dan yeri mənasındadır.) xalqının adının dəyişdirilmiş formasıdır. ”Çin” sözü eramızın III əsrində burada yaşayan Tsin sülaləsinin adından götürülmüşdür.

Göndərsin xaqanlar xəracı **Çindən**,
Qeysərlər cizyəni Rum ellərindən (XŞ-34).

“Xərac” – məğlub edilmiş ölkədən alınan vergi, cizyə - başqa dinlərə mənsub olanlardan xilafətə ödənilən vergiyə deyilirdi. Yəni Çin xaqanları sənin (Toğrul şahın) itaətində olub, xərac göndərsinlər. Rum qeysəri(xaçpərəst olub müqəddəs kitaba – “İncil”ə inandıqlarına görə) cizyə versin.

N.Gəncəvinin əsərlərində “Çin” dedikdə, müasir Çini yox, o dövrdə Çin hüdudlarında, Şərqi Türküstanda yaşayan türk xalqlarının dövlətini nəzərdə tutmaq lazımdır. ”Xəmsə”nin müxtəlif əsərlərində Çinin türk xalqlarının dövləti olmasına aid zəngin nümunələr vardır.

Son tədqiqatlarda göstərilir ki, XVI əsr görkəmli Azərbaycan şairi və ictimai dövlət xadimi Şah İsmayıl Xətainin təxəllüsü Xatay tayfasının adı ilə bağlıdır. Mənbələrdə xatayların adı xutan və qutan kim də göstərilir. Bu isə türk xalqlarından birinin onqonu olan xatay – qutan quş adından törəmişdir. Çin mənbələrində isə “xi” adlanan bu tayfa ta qədim zamanlardan Çin hüdudlarında öz müstəqilliklərini qoruyub saxlamaq uğrunda çinlilərlə daima vuruşmuşlar. Bunu XIII yüzilliyin Tibet yazıları da təsdiq edir. Xatay ulusu X əsrdən başlayaraq Yapon dənizindən tutmuş Baykal gölünə , Orta Çindən İssık-kula (İsti göl) qədər imperiya yaratmağa başlamışlar. Artıq onlar X yüzilliyin sonlarına yaxın Şərqi Çinin hakimləri olublar. Həmin əsrdə xataylar Buluci Apu Akanın başçılığı altında Monqolustanı və Çinin bir hissəsini tutmuşlar. XII yüzillikdən sonra müsəlmanlığı qəbul etmiş və yerli türk tayfaları ilə qaynayıb- qarışmışlar (“Elm və həyat”, № 2, 1987. səh.14 – 15).

Demək, Xatay, Kitay müasir Çinin ən qədim adı olub və türk tayfalarının adı ilə bağlıdır. Şah İsmayıl Xətai də bu tayfalardan olduğu üçün öz təxəllüsünü Xətai götürmüşdür.

Çin biharı (məc. top.) – Qızıl, bürünc büt və əlvan naxış və rəsmlərlə bəzənmiş Çin bütxanələri, gözəllik rəmzi. Bihar hind sözü vihardan əxz edilmiş və məbəd deməkdir. Şair Xəvərnəq sarayını Çin biharına bənzədir.

Göy dedi: "Qiblədir bu xoş imarət",
"Yox, **Çin biharıdır**" – dedi təbiət (YG-62).

Çin çinisi (məc. növ.) – Şair metaforik şəkildə Keydin İskəndərə bağışladığı qızını Çin çinisinə bənzədir.

Örtülü sərvətə növbət gəlincə,
Hinddə **Çin çinisi** göründü incə (İ-267).

Örtülü sərvət – Keydin qizi deməkdir. Yəni əsmər gözəllər ölkəsi olan Hindistandan Çinin ağ gözəli göründü.

Çin dənizi (top.) – Çinin şərqində yerləşən dənizin adı.

Yoxsa ki, düşərəm bu kin izinə,
Çini tökdürərəm **Çin dənizinə** (İ-281).
Sürdü gəmisini **Çin dənizinə,**
Kim görüb ki, dəniz gəmiyə minə! (İ-557).

Sonuncu misrada İskəndər dənizə bənzədilmişdir.

Çin gəlini (an.) – Çin şahzadəsi Yağmanazın (bax) ləqəbi.

Başladı sözünü o **Çin gəlini**,
İlkin tacidarın öpdü əlini (YG-235).

Çin gözəli (məc. an) – Günəş metaforik şəkildə Çin gözəlinə bənzədilir.

Ay kimi gözəlləşdi qənirsiz **Çin gözəli** (SX-74).

Çin gözəli (an.) – Çin şahzadəsi Yağmanazın (bax) ləqəbi.

Şah o xumar gözlü **Çin gözəlinə**
Söylədi: "Könlümdən tozu silsənə!"(YG-234).

Çin gözəli, İfritə, Div (mif.) – "Mahanın hekayəsi"ndə Mahanı öz kef məclislərinə aparan, onunla əylənən bir gözəl metaforik şəkildə Çin gözəlinə bənzədilir.

Aldı qucağına **Çin gözəlini,**
Öpdü gümüş rəngli sərvin əlini (YG-229).

Lakin çox çəkmir ki, Mahan onun qorxunc və qart bir ifritə olduğunu görür.

Timsahı andırır açıq dodağı,
Basıb qucağına yazıq qonağı... (YG-229).

Mahanı pəncəsindən buraxmayan ifritə deyir:

Görməsəm adıma layiq işləri,
Olaram əvvəlki nazənin pəri (YG-230).

İfritə demək istəyir ki, əgər o, Mahanın başına min cür oyun, fəlakət gətirməsə, qoy o, Mahanın əvvəl gördüyü kimi gözəl pəri simasına mübtəla olsun. İfritə üçün gözəl kimi qalmaq böyük əziyyət və eybəcərlikdir.

Çin gözəlləri (məc. an.) – Şirinin rəfiqələri metaforik şəkildə Çin gözəllərinə bənzədilir.

Qulluğunda durdu **Çin gözəlləri**,
Sərvtək ayaq üstə, bağlı kəməri (XŞ-83).

Çin, Həbəş (qoşa məc. top.) – Ağ kağız metaforik şəkildə Çinə, kağız üzərində yazılan qara xətlər isə Həbəşə bənzədilir.

Vuruşur önümdə **Çin** ilə **Həbəş**,
Şaha edəcəyəm onları peşkəş (İ-417).

Çin hökmdarı (an.) – Çin xaqanına işarədir.

Şövkətlə tərpəndi Rum şəhriyarı
Yanınca gedirdi **Çin hökmdarı** (İ-310).

Çin xaqanı (an.) – Çin dövlətinin xaqanı olan şəxsin ləqəbi, "Yeddi gözəl"də obraz adı. Bəhram Gurun ölkəsini zəbt etmək istəyən padşah.

Çinin xaqanının qizi Yağmanaz...(YG-74).
Məğlub eyləməyə bu hökmüranı
Çindən yola düşdü **Çinin xaqanı** (YG-114).

Çin xaqanı (an.) – "İskəndərnamə" əsərində obraz adı.

Mənəm **Çin xaqanı**, qoşun sərvəri,
Sənin xidmətində öpürəm yeri (İ-290).

Çin xaqanı (məc. an.) – Şirin Çin xaqanını Xosrovun quluna bənzədir.

Qulun yalnız o **Çin xaqanı** deyil,
Neçəsi qul olur hökmünə hər il (XŞ-258).

Çin xəznədarı (məc. an) – Günəş metaforik şəkildə Çin xəznədarina bənzədilmişdir.

Elə ki, bir səhər **Çin xəznədarı**
Zər qıfılla örtdü göy qapıları (XŞ-83).

Çin ipəyi (növ.) – Şair ulduzlu səmanı metaforik şəkildə öz əlvanlığı ilə məşhur olan Çin ipəyinə, ulduzları isə dürrə, gövhərə bənzətmişdir.

O yeddi fələyə o yeddi ülkər
Çin ipəklərinə düzmüş dürr, gövhər (İ-24).

Yəni Məhəmməd peyğəmbər göyləri ulduzlarla bəzəmişdir.

Şair "Şərəfnamə" əsərini metaforik şəkildə Çin ipəyinə bənzədir.

Bu **Çin ipəyinin** naxış evində
Maninin fırçası düşmüşdür bəndə (İ-54).

Yəni "Şərəfnamə" elə sənətkarlıqla işlənmişdir ki, məşhur sənətkar Mani bunun qarşısında heyran qalmışdır.

Şair Günəşin işığını da metaforik şəkildə Çin ipəyinə bənzətmişdir.

Bəzədi göyləri ağ **Çin ipəyi**,
Yer açdı üzündən qara örpəyi (İ-557).

Burada qara örpək – gecənin zülməti mənasında işlədilmişdir.

Beytin mənası: Günəş çıxdı, Yerin üstündən qaranlıq çəkildi.

Çin kasası (məc. ktem.) – Qasidin gözləri Çin kasasına bənzədilir.

Çin kasası kimi kirpiyi nəmdi,
Zənci tükü kimi qaməti xəmdi (XŞ-109).

Çin qızı (an.) – Altıncı iqlim padşahı qızının (Çin şahzadəsi Yağmanazın) ləqəbi. "Yeddi gözəl" poemasında obraz adı. Bax: Yağmanaz.

Çin qızı söylədi: --İki növcavan
Başqa bir şəhərə oldular rəvan (YG-235).

Çin qumaşı (növ.) – Çin ölkəsində hazırlanmış qumaşın hazırlandığı ölkənin adı ilə adlanması.

Sərhəng ipəklərin kəsib başından,
Rum parçalarından, **Çin qumaşından**
Döşədi atının keçdiyi yerə (YG-108).

Çin naxışı (məc. ktem.) – Şair "Şərəfnamə" əsərini Çin naxışlı bir əsərə bənzədir.

Coşdu **Çin naxışlı** şeirim, sənətim,
Gör hara qalxacaq mənim şöhrətim! (İ-418).

Çin nəqqaşı (məc. an.) – Şapur metaforik şəkildə öz əsərləri ilə dünyada məşhur olan Çin nəqqaşına bənzədilir.

O **Çin nəqqaşını** Şirin görərək
Şirin arzusuna yetmişdi birdən (XŞ-108).

Çin nəqşi (məc. ktem.) – Şirin metaforik şəkildə Çin nəqşinə, Şirinin otağı isə sandığa bənzədilmişdir.

O **Çin nəqşi** çıxdı sandıqdan çölə,
Yola hazırlaşdı, şad, gülə - gülə (XŞ-83).

Çin nigarıstanı (məc. top.) – Çindəki budda və maniəvi məbədləri. Nigarıstan – bütxanə deməkdir, bu sözün kökü nigaştən – "al-əlvan cizgilərlə" bəzəmək, şəkil çəkmək felindən əmələ gəlmişdir. Nigar – al-əlvan cizgilərlə bəzənmiş deməkdir. Şair Xəvərnəq sarayında yeddi qızın şəkli çəkilmiş otağı Çin nigarıstanına bənzədir.

Nə çəkmiş divarda, gör ki, ustanı,
Çinin o yüz gözəl **nigarıstanı** (YG-74).

Çin papağı (növ.) – Bəhram Gurun taxta çıxandan sonra geydiyi papaq növü. Papağın istehsal olunduğu yerin və ya o yerdə tikilən papaqların formasının adı.

Başda **Çin papağı,** tərlan döşütək
Rumi paltar verdi əyninə bəzək (YG-96).

Çin poladı (növ.) – Şair İskəndərin geyimini təsvir edərkən, onun dəbilqəsinin Çin poladından olmasına işarə edir.

Başında dəbilqə **Çin poladından**,
Gövhərlər ondakı gövhərə heyran (İ-93).

Çin, Rum (qoşa top.) – Adları xatırlanmaqla bu ölkələrin Körpə Arslana (bax) tabe olması qeyd olunur.

Çin və **Rum** şahları ona verdi bac (YG-307).

Çin, Rum, Qədrxan, Qeysər (qrup. on) – "Çindən Ruma qədər" dedikdə, bu dövlətlər arasında olan bütün ölkələrin Xosrova tabe olmasına işarə olunur. Eyni zamanda Qədrxan (bax) Xosrovun qulu, Qeysər isə onun qulamına bənzədilir.

Çindən Ruma qədər deyilir namın,
Qədrxan qulundur, **Qeysər** qulamin (XŞ-258).

Çin sövdəgəri (an.) – "Kəniz satan padşahın hekayəsi"ndə obraz adı. Çindən kəniz gətirən və satan sövdəgərin ləqəbi.

Açdı öz dilini **Çin sövdəgəri**... (YG-167).

Çin şahı (an.) – Çin xaqanı deməkdir. Şair bir beytdə iki "xaqan" sözü olmasın deyə "şah" sözündən istifadə etmişdir.

Çin şahı qorxurdu gecə basqından,
O gecə sübhədək yatmadı xaqan (İ-286).

Çin şahı (məc. an.) – Şair Günəşi metaforik şəkildə Çin şahına bənzətmişdir.

Çin şahı atına qoyarkən yəhər
Zəncinin nalına od vurdu göylər (İ-76).

Yəni səhər açılmağa başlayanda gecə atını sürətlə sürüb getdi. Burada gecə də metaforik şəkildə Zəncinin nalına bənzədilmişdir.

Çin, Şirin (ep. an.) – Çin toponim, Şirin antroponimdir. Onların son səsləri fonetik cəhətcə eyni səslənir.

O **Çin** nəqqaşını **Şirin** görərkən
Şirin arzusuna yetmişdi birdən (XŞ-108).

Çin tacidarı (an.) – "İskəndərnamə" əsərində Çin xaqanına işarədir.

Xütən şəhriyarı, **Çin tacidarı**
Tədbirlə geyindi elçi paltarı (İ-288).

Çin, Təraz (qoşa məc. top.) – Türkünaz (bax) eyni zamanda Çin və Təraz(bax) gözəlinə bənzədilir.

Arzularım gecə tez gəlsin ələ,
Çin, Təraz şuxuyla vuraq piyalə (YG-156).

Çin-zənci (qoşa məc. et.) – Qasidin gətirdiyi kağızın ağ hissəsi, ağlıq rəmzi olan Çinə, yazısı isə qaralıq rəmzi olan zənciyə bənzədilir.

Çin-zənci xətli bir məktub gətirdi (XŞ-109).

Çin-Zəngibar (top.) – Şair bu toponimləri yanaşı işlətməklə Çindən Zəngibara qədər olan ölkələrin Hürmüzün itaətində olmasına işarə edir. Eyni zamanda İran taxtı-tacı Çin-Zəngibar təxtinə bənzədilir.

Çin-Zəngibar təxti şahı itirdi (XŞ-109).

Çini libas (növ.) – Çində hazırlanmış, Çin parçasından, yaxud Çin üslubunda tikilmiş paltar.

Çini libaslı şah qoydu qızıl tac (YG-307).

Söhbət Körpə Arslan şahdan gedir.

Çinin aynası (məc. ktem.) – Şair Günəşi metaforik şəkildə Çinin aynasına bənzədir.

Bax, **Çinin aynası** parladı Çindən,
Həbəşin qaşları çatıldı birdən (LM-140).

Yəni, Günəş parladı, qaranlıq (həbəş) çəkildi.

Çinli (et.) – Çin dövlətinin ərazisində yaşayan xalqların ümumi adı.

Qulu olsun Çində gəzən gözəllər,
Çinlidən gəlməsin ona qəm, kədər (XŞ-45).

Burada söhbət Qızıl Arslandan gedir.

Rəyi bir güzgüdür **çinlilər** üçün (İ-55).

Burada isə Makedoniyalı İskəndər nəzərdə tutulur.

Çinli, Həbəş (məc. ant. et.) – Şair ağlıq rəmzi olan Çin xaqanını qaralıq rəmzi olan Həbəşə bənzədir. Antonim mənalı bu məcazi etnonimlər şair tərəfindən ən uğurlu təşbeh kimi işlədilmişdir.

Özümə **çinliyəm, həbəşəm** sənə (YG-298).

Yəni, mən özüm ağlığın və gözəlliyin rəmzi olan türk olsam da, sənin qarşında üzü qarayam, həbəşəm.

Çinli, türk, hindu (qrup məc. et.) – Şair İskəndərin Arşimidesə bağışladığı gözəli çinli türkə, Arşimidesin qəm və kədərini isə hinduya bənzədir.

Sevdi **çinli türkü**, könlü şad oldu,
Qəmlər **hindusunda** o, azad oldu (İ-444).

Türk sözü gözəl mənasında da işlənir. Hindu sözü qaralıq, qəm, kədər rəmzi kimi alınır.

Beytin mənası: Arşimed o ağ çinli türk gözəli ilə o qədər zövqə dalmışdır ki, qəmin, kədərin qaranlığı onun qəlbini tərk etmişdi.

Çipal (an.) – Hindistanda Lahur padşahına verilən addır. Lahur – Hindistanda əla şal toxunması ilə məşhur olan bir şəhərdir.

Mən o qatil Furun boynunu vurdum,
Çipalın yerində Çində oturdum (İ-584).

Yəqin ki, Lahur padşahlığı o dövrdə Çinə (Türküstana) tabe imiş.

Çoban (ap. an.) – "İqbalnamə" əsərində epizodik obraz adı.

Çoban söylədi ki: "Ey tacidar, sən
Özünsən aləmi abad eyləyən... (İ-440).

Çoban (ap. an.) – "Əflatunun keçmişdən hekayə söyləməsi"ndə obraz adı.

Çoban cavab verdi: "Mən peyğəmbərəm,
İman gətir, səni xoşbəxt edərəm" (İ-474).

Çöllərin hayili (mif.) – "Mahanın hekayəsi"ndə obraz adı. Mahana insan sifətində görünən bu divin adı bir mifik obrazın səciyyəsinə uyğun gəlir. "Hayil" sözü ərəbcə qorxunc, nəhəng deməkdir və "Çöllərin nəhəngi" mənasında işlənmişdir. O, Mahanı səhrada azdırmışdır ki, bu da divlərə xas olan əsas xüsusiyyətlərdən biridir.

O, divmiş, insantək görünmüş sana,
"Çöllərin hayili" deyilir ona (YG-213).

Çörəkçi (ap.) – "Fağır çörəkçinin hekayəsi və onun varlanması"nda obraz adı.

Çörəkçi gördü ki, qəzəblənib şah,
Bildi ki, düzlüyə qalıbdır pənah (İ-458).

Çuğul, Çuğulçu (ap. an.) – "Zalım şahla düz danışan qocanın hekayəti"ndə obraz adı.

Şah yanına bir **çuğul** səhər tezdən qaçardı...
Çuğulçunun sözündən qəzəblənib şah dindi (SX-126).

- D -

Dara (an.) – "İskəndərnamə" əsərində obraz adı. "Dara" ərəb sözüdür və "sahib, malik, malik olan" deməkdir. Bu ad Dara obrazının əsərdəki oynadığı rola tam uyğun gəlir.

Sildi şurişləri köhnə dünyadan,
Taxt aldı, tac aldı qoca **Daradan** (İ-55).

Dara – İranın qədim padşahlarından Kəyan sülaləsinin son hökmdarı olmuşdur. O, e.ə. 342-ci ildən 330-cu ilə qədər şahlıq etmişdir. İskəndər İrana hücum etdiyi zaman qaçarkən öldürülmüşdür.

Ən qədim İranda hökmdarı "xşatradara" adlandırırdılar (A.Qafurov. "Lev i Kiparis". M., 1971. səh. 58). Tədqiqatlarda bu titulun etimologiyası haqqında ətraflı məlumat verilməsə də, bizə elə gəlir ki, bu söz iki hissədən ibarətdir: ərəbcə "xşatra" ("şah" titulu da bu sözdən əmələ gəlmişdir) və "Dara". Çünki bu tituldan ilk dəfə I Dara istifadə etmişdir (Yenə orada, səh.148). Burada isə söhbət Makedoniyalı İskəndərin müasiri olan III Daradan gedir.

Nizami bu addan məcazi ad kimi də geniş istifadə etmişdir.

Rövşənəyin anası öz qızına öyüd-nəsihət verərkən İskəndəri Daraya bənzədir.

Rəftar et ki, odur bu gündə **Dara**,
Daratək bizimlə edər müdara (İ-183).

Dara, Bəhmən (qoşa məc. an.) – Şair Bəhram Guru Dara və Bəhməndən qalan tuma bənzədir.

Daradan, Bəhməndən tum sən qalmısan (YG-87).

Dara,Cəmşid (qoşa xat. an.) – Şirin Xosrovu yaxşı ad çıxarmağa, ədalətli olmağa təhrik etdikdə, Dara və Cəmşidin adlarını çəkir.

Daranı, Cəmşidi yadına salsan,
Görərsən nə etmiş bu qoca dövran...
Xosrov gördü Şirin belə yollarla
İstəyir ki, ondan yaxşı ad qala (XŞ-320).

Dara, Fur (qoşa xat. an.) – İskəndər bu adları xatırlamaqla Hindistanı, İranı fəth etməsini nəzərə çarpdırır.

Söndürdüm **Darada** olan qüruru,
Nə qədər kiçiltdim, bax, coşqun **Furu** (İ-278).

Dara, Həbəş, Rey, Buxara (xat. on.) – Hindistan şahı Keyd İskəndər haqqında düşünərkən onun Daranı necə məğlub etməsini, Həbəş, Rey və Buxaranı necə dağıtmasını xatırlayır.

Düşmənlik neylədi, bax, o **Daraya**,
Nə etdi **Həbəşə, Rey, Buxaraya** (İ-262).

Dara mişkusu (er.) - "Mişku" – hərəmxana, "Dara mişkusu" isə Dara hərəmxanası deməkdir.

İki gün nəşəyə daldı İskəndər,
Dara mişkusundan tutunca xəbər (İ-178).

Darülxilafət (top.) – Xilafət mərkəzi, paytaxt deməkdir. Yəqin ki, xilafətin paytaxtı Bağdad nəzərdə tutulur.

Darülxilafətə yaydı bir xəbər
Ki, gəlib bir nəfər usta kimyagər (İ-452).

Davud (an.) – Ərzincan hakimi Fəxrəddin Bəhram şahın atasının adı. Bax: Davud oğlu Məlik Fəxrəddin Bəhram şah.

Əzəldən xoşbəxtdir ki, **Davud** atası olub (SX-41).

Davud (məc. ag.) – Dinlər tarixinə görə, Süleyman peyğəmbərin atası olmuşdur. Guya Davudun o qədər gözəl səsi varmış ki, oxuyanda heyvanlar və quşlar da onu dunlərmişlər. Bu səs Şərq şairlərinin əsərlərində "ləhni-Davudi" adlanıb, tərif edilir. Lakin Davud peyğəmbərə yaraşmayan bəzi hərəkətlər etmiş və nəticədə peşman olmuşdur ki, bu da Şərq ədəbiyyatında öz əksini tapmışdır. Guya Allah tərəfindən göndərilən "Zəbur"u gözəl səslə oxuyarmış. Onun möcüzələrindən biri bu imiş ki, dəmir onun əlində mum kimi yumşalarmış. Guya dünyada ən əvvəl zireh toxuyan Davud olmuşdur. Gündə bir zireh toxuyub satar və bununla da dolanarmış.

Davudtək könlümü təzələ hər an,
Qalsın Zəburumun şöhrəti haman (XŞ-21).

Şair Davud dedikdə özünü, "Zəbur" dedikdə isə "Xosrov və Şirin" poemasını nəzərdə tutmuşdur. Nizami bu addan məcazi ad kimi də istifadə etmişdir.

Davudun boğulanda, tutulanda nəfəsi,
Zilə qalxa bilmədi, inlədi bəmdə səsi (SX-39).

Burada Məhəmməd peyğəmbər Davudla müqayisə olunmuş, üstünlük Məhəmmədə verilmişdir. Çünki əsatirə görə, nəğməni icad edən Davud Uryaya evlənəndən sonra biabır olub səsini itirdi. Peyğəmbərlik topunu aparmaq üçün o, gərək bəm səslə Alaha yalvaraydı, lakin o, səsini itirdiyinə görə zilə keçdi və duası qəbul olunmadı.

Hophopun nəğməsi ilə Davudun naləsi muqayisə olunur.

Süleymanın ətrinə aşiq hophopdu bağda,
Sinəsində **Davudun** naləsi qopdu bağda (SX-60).

Quşların cəh-cəhi Davudun nəğməsi ilə müqayisə olunur.

Davuddan daha artıq quşlar cəh-cəhli idi (SX-61).

Aşağıdakı misrada isə nəğmənin Davud peyğəmbər tərəfindən icad olunması xatırlanır.

Davudun nəğmələri dildən-dilə car oldu (SX-66).

Davud, Məhəmməd (müq. ag.) – Davud peyğəmbərlə Məhəmməd peyğəmbər müqayisə olunur.

Davuddan yadigar tək bir zireh var,
Məhəmməd yüz zireh qoyub yadigar (İ-414).

Yəni: Davud peyğəmbər öləndən sonra ondan insanlara yadigar kimi zireh qayırmaq bacarığı qalmışdır. Məhəmmədin təlimi isə yüz zirehə bərabərdir.

Davud nəğməsi (məc. id.) – Barbədin udda çaldığı və oxuduğu nəğmə Davud nəğməsinə bənzədilmişdir.

Qalxıb ucaldıqca udunun səsi
Hər teli çalırdı **Davud nəğməsi** (XŞ-286).

Davud oğlu Məlik Fəxrəddin Bəhram şah (an. birləşmə) – Ərzincan vilayətinin hakimi. Nizami Gəncəvi "Sirlər xəzinəsi" əsərini ona ithaf etmişdir.

O, Süleyman üzüklü, günəş taclı hökmdar,
Məlik Fəxrəddin adı – dünyamıza iftixar (SX-41).

Bu antroponimik birləşmədə Davud – ata adı, Məlik – titul (ərəbcə padşah, hökmdar deməkdir), Fəxrəddin – dini fəxri ad (fəxr və din sözlərindən düzəlmiş, "dinin fəxri" deməkdir). Bəhram – əsl ad, şah da tituldur. Orta əsrlərdə titul və dini fəxri adlar çox vaxt əsl ad yerində işləndiyi üçün Nizami də "Məlik Fəxrəddin" antroponimik birləşməsini "ad" kimi göstərmişdir.

Davud, Süleyman (qoşa məc. ag.) – Süleyman peyğəmbərin də, Fəxrəddin Bəhram şahın da atasının adı Davud olmuşdur. Elə buna görə də şair Fəxrəddin Bəhram şahın atası Davudu Süleyman peyğəmbərin atası Davuda, onun özünü isə Süleyman peyğəmbərə bənzətmişdir.

Əzəldən xoşbəxtdir ki, **Davud** atası olub,
Süleyman şöhrətinə gəlib çatası olub (SX-163).

Davudi geyim (ktem.) – Zirehi ilk dəfə Davud peyğəmbər icad etdiyinə görə şair bu növ zirehi "Davudi geyim" adlandır-

mışdır. Bəhram Gurun Nemana verdiyi hədiyyələr içərisində bu cür zirehlər də var idi.

Qılınc – Hindustani, **geyim – Davudi** (YG-124).

Dehistan (top.) – Cərcan ilə Xarəzm arasında bir şəhər olmuşdur; indi ona Astrabad da deyilir.

Reydən Cənd, **Dehistan**, Xarəzmə qədər
Yoxdur sel izindən başqa bir əsər (İ-44).

Dehqan (an.) – Zərdüşt dininin ruhanisi, muğ mənasındadır.

Diniylə atəşə çöküncə **dehqan**
Həm atəş söndü, həm ona inanan (İ-171).

"Dehqan" iki sözdən – deh(kənd) və xan sözlərindən ibarət olub, "kənd xanı" deməkdir. Lakin "dehqan" lüğətlərdə fars sözü kimi izah olunur: 1) əkinci, kəndli; 2) orta əsrlərdə: kənd, bağ və əkinəcək sahibi, mülkədar; 3) bağban kimi mənaları olduğu göstərilir. XIX əsrdə isə "dehqan" sadəcə olaraq "əkinci" (S.Ə.Şirvaninin "Xan və dehqan" əsərində olduğu kimi) mənasını ifadə etmişdir.

"Dehqan" sözündə əmələ gələn bu məna dəyişikliyi, bizə elə gəlir ki, atəşpərəstlik dininin islam dini ilə əvəz olunmasıyla bağlıdır. Atəşpərəstlik ruhanilərinin çoxlu torpaq sahələri olduğu üçün onlar "dehqan" (kənd xanı), sonralar isə mülkədar adlanmışlar.

Nizaminin təsvirlərində bəzən "dehqan" şairin müraciət etdiyi tarixi mənbələrin müəllifi kimi göstərilir.

Ən qoca bir **dehqan** vermişdir xəbər;
Tiflisi ilk abad etmiş İskəndər (İ-202).
Sözə yağ, bal qatan o **dehqan** yenə
Belə yağ, bal qatır işin məğzinə (İ-259).

Göründüyü kimi, şairin istifadə etdiyi tarixi mənbələr Zərdüşt dininə aid olmuşdur. Bu mənbələr isə sonralar xristianlar tərəfindən kilsə salnamələri şəklində davam etdirilən atəşgah salnamələri olmuşdur. Atəşgah salnamələrini isə ancaq muğlar – dehqanlar yaza bilərdilər.

Dey ayı (xron.) – Şəmsi (Günəş) təqviminin onuncu ayı, dekabrın 22 – dən yanvarın 22 – nə müvafiq gəlir. Bu ayda günlər çox qısa olur.

Dey ayında günlər gödəkdir, gödək,
Bir gün çox qısaydı Tir gecəsitək (YG-341).

Deyləm (top.) – İranın şimal-qərb tərəfində və Xəzər dənizinin cənub-qərb sahilində bir əraziyə verilən addır. Bədii ədəbiyyatda hərbculuqda onları misal çəkmişlər. Deyləmdə ən qədim türk qəbilələri yaşamışlar. Cod saçlı qul mənasında da işlənilir.

Bayraq qotazıtək əyib papağı
Deyləmilər kəsdi tez solu, sağı (XŞ-285).

Şair mərzənkuşun saçaqlarını deyləmilərin hörüklərinə bənzədir.

Siçan qulağı da saçını aldı,
Hörüb **deyləmlitək** çiyninə saldı (YG-273).

Siçan qulağı – mərzənkuş(mayoran) – nanə cinsindən ətirli, təbabətdə geniş surətdə işlənən, ağ balaca gülü və gülün nisbətən uzun saçaqları olan bir illik, ya çoxillik göy bitki.

Dəbis (an.) – İskəndərin Mədaindən olan pəhləvanının adı.

Dəbis Mədayindən,Vəlid Yəməndən... (İ-323).

Dəccalın təbili (məc. mif. ktem.) – Şair İskəndərin ordusunda çalınan təbilləri Dəccalın təbilinə bənzədir.

Səsdən bütün şəhər cuşə gələrək,
Dəydi bir- birinə məhşər günütək.
Axışdı buraya həm pir, həm cavan,
Dəccalın təbliydi sanki çalınan (İ-566).

Dəccal dinə görə, yalançı, ziyankar, taygöz bir adam imiş. İsa və Məhəmməd peyğəmbərin düşməni olmuşdur. Güya o da dünyanın axırında zühur edib, özünü Mehdi adlandıracaq, lakin Mehdi Sahib-əz-zaman tərəfindən öldürüləcəkdir. "Dəccal" xristianlarda "antixrist " sözünə uyğun gəlir (10- 78).

Dəclə (məc. top.) – Türkiyə və İranda çay. Fərat çayı ilə qovuşandan sonra Şəttülərəb adı ilə İran körfəzinə tökülür. " Dəclə" sözü qədim fars dilində "ox" deməkdir. Bu da çayın iti və düz axması ilə əlaqədardır(19-76).

Şair Qızıl Arslanın qılıncının rəngini Dəclə çayının rəngi ilə müqayisə etmişdir.

Qılıncının rəngi bir nilufərdir,
O, Nildən, **Dəclədən** təzədir, tərdir (XŞ-44).

İskəndər və Dara qoşunlarının vuruşduqları vaxt tökülən qan metaforik şəkildə Dəclə çayına, su üzərindəki qan isə qayığa bənzədilmişdir.

O qan **Dəcləsini** günəş almışdı,
Suya neylufərtək qayıq salmışdı (İ-152).

Dəqyanus (xat. an.) – Roma imperatoru Hay Messi Tvint Troyan (200-251). Rəvayətə görə, o, çox zülmkar bir hökmdar olmuşdur. Hətta belə bir dini əfsanə də mövcuddur ki, onun zülmündən altı nəfər vəzir qaçaraq yolda rast gəldikləri bir çoban və onun iti ilə birlikdə bir mağarada daldalanmışlar. Büdpərəst hökmdarın dinini qəbul etməyib Bəncavüs adlı dağın mağarasında onlar guya Allahın əmri ilə üç yüz doqquz il yuxuya dalmışlar. Bir gün bir çoban həmin mağaraya yaxınlaşmış, lakin oraya yol tapa bilməmiş, Əshabi-kəhf, yəni mağara sakinləri onunla salamlaşmamış və belə güman etmişlər ki, onlar bircə gün yatıblarmış. Ölkənin padşahı və adamlar onların tamaşasına gələrək görmüşlər ki, libasları cır-cındır, özləri vəhşi halda və üstlərində Dəqyanusun möhürü olan pullar vardır. Onlar ciblərində olan pulları xərcləmək istəmişlər. Lakin əhali bu pulun heç bir qiyməti olmadığını demişlər. Onlar elə güman etmişlər ki, dinindən boyun qaçırdıqları hökmdarla görüşürlər. Ona əhəmiyyət verməyib, yenidən yuxuya gedirlər. Padşah əbədi yuxuya gedənləri dəfn etdirərək həmin mağaranın üstündə məbəd tikdirir.

Bədii ədəbiyyatda "Dəqyanus zamanı" ən qədim zaman mənasında işlədilir. Zənnimizcə, "Dəqyanus" adı "dağ" və "Yunis" sözlərindən düzəlmişdir. Yerli əhalinin dediklərinə görə , Naxçıvanda da eyni adlı dağ vardır.

Deyirəm ki, dövran dəyişəndə bəs
Dəqyanus pulu bir arpaya dəyməz (XŞ-362).

Dəllək (ap. an.) – "Harun ər-Rəşid ilə dəlləyin hekayəti"ndə obraz adı.

Dəllək onun başını kəliməyə başladı,
Kəlidiyi tük qədər ləliməyə başladı (SX-147).

"İqbalnamə" əsərində də Dəllək obrazına təsadüf olunur.

Şah gördü ki, **dəllək** doğru söz dedi,
O düzlük istədi, bu da düz dedi (İ-438).

Dəlv (kos.) – On iki bürcdən biri. Dol da adlanır. İran Şəmsi ilinin 11-ci ayı – 22 fevral – 22 mart.

Həməl pərgarından günəş baxaraq,
Etdi **Dəlv** bürcündən Zühəli parlaq (XŞ-150).

Bəlkə də, Xosrovun Dəlv ayında taxta çıxmasına işarədir.

"Leyli və Məcnun " poemasında isə hadisələrin inkişafı ilə əlaqədar olaraq Dəlv parlamırdı. O, ağzına su alıb susmuşdu.

Dəlv də günəşin gileylərindən
Ağzına su alıb susmuşdu birdən (LM-185).

Dəlv, Hut (qoşa məc. kos.) – Dəlv (Dolça), Hut (Balıq) bürclərinin adları çox vaxt Yusif və Yunis adları ilə yanaşı işlədilir. Bu da Yusifin dolça ilə quyudan çıxmasına, Yunisin isə dəryada bir müddət balinanın qarnında yaşamasına işarədir.

Yusiftək **Dəlvdən** bir şərbət içdi,
Yunis kimi **Hutda** duracaq seçdi (XŞ-357).

Dəmavənd dağı (məc. top.) – İranın şimalında Xəzər dənizi sahilində Rey ilə Təbəristan arasında sönmüş bir vulkan adıdır. İndi yerində eyni adlı dağ qalmışdır. İranın ən yüksək nöqtəsi sayılır. Zirvəsi həmişə qarla örtülü olur. Sırsıra bağlamış yalçın qayaları, buzlanmış dərələri vardır. Bu dərələrdən biri "Buz dənizi" adlanır. Orada həmin adda bir qəsəbə də vardır .

"Dəmavənd" fars dilində "Demonlar qalası" deməkdir. "Demon" sözünün mənası "püskürən", "tüstüləyən" deməkdir (19-75).

O yerdə Fərhadın qırdığı qaya
Heç bir tərəziylə gəlməz araya.
Yarırdı külünglə daşı, torpağı,
Özünün qəmi bir **Dəmavənd dağı** (XŞ-204).

Şair Fərhadın qəmini Dəmavənd dağına bənzətmişdir.

Dəməşq (top.) – Keçmişdə Şam (bax) adlanan şəhərin müasir adı.

Dəməşq daşı məhəkdir qızılına Rum kimi,
Altun eşqi canını əritməsin mum kimi (SX-121).

Kiçik Asiyada Bizans imperatorlarının qızıl pulları öz saflığı ilə məşhur olub, məhək daşını isə Dəməşqdən gətirərmişlər.

Dəniz (məc. ap.) – Makedoniyalı İskəndər dənizə bənzədilir.

Kim görüb ki, **dəniz** gəmiyə minə! (İ-557).

Burada dəniz sözü gəmiyə minib gedən İskəndərə işarədir.

Dəniz, çeşmə (qoşa məc. ap.) – Şair metaforik şəkildə Qızıl Arslanı dənizə, özünü isə çeşməyə bənzədir.

Qapıçı girərək, dedi: "Cahangir,

Dəniz sahilinə **çeşmə** gəlmişdir" (XŞ-367).

Dərbənd (top.) – Dərbənd şəhərinin tarixi və etimologiyası haqqında bu vaxta qədər müxtəlif fikirlər söylənmişdir. Məsələn, N.Nəbiyev yazır ki, Dərbənd Azərbaycanın ən qədim şəhərlərindən biridir. Hal-hazırda Dağıstan Respublikasının tərkibindədir. V əsrdən məlumdur. Qədim hissəsi hündür qala ilə mühasirəyə alınmışdır. Buna görə fars dilində "bənd qapısı" mənasında olan Dərbənd adını alıb. Oğuz türkləri bu şəhəri "Kiçik Asiyanın dəmir darvazası" adlandırırdılar. Güman edilir ki, "Dərbənd" sözü qıpçaq dilində Dəmirkənd, Debrkənd adının dəyişdirilmiş formasıdır (19-55).

Başqa bir mənbədə isə oxuyuruq: "Dərbənd Qafqaz Albaniyasının ən qədim şəhərlərindən biri olmuşdur. Dərbənddə arxeoloji qazıntılar nəticəsində e.ə. 7-6 – cı əsrlərə aid yaşayış məskəni aşkar edilmişdir. Hələ e.ə. I əsrdə Dərbənddəki üzümlüklər və meyvə bağları dənizə qədər uzanırdı. V əsrdə Dərbənd iqtisadi və siyasi cəhətdən Qafqaz Albaniyasının mühüm şəhərlərindən biri, həm də Sasani canişinlərinin iqamətgahı idi..." (ASE-III c.).

Digər tədqiqatlarda isə Dərbənd qalasının Sasani hökmdarı I Xosrov Nuşirəvan (531-579) tərəfindən tikildiyi haqqında məlumatlar verilir. Nizami məlumatına görə isə Dərbəndi İskəndər yenidən qurmuş və ona səd çəkmişdir.

Dərbəndi deyirlər İskəndər qurdu,

Əqliylə o şəhrə böyük səd vurdu (İ-56).

Demək, Dərbəndin e.ə. VII-VI əsrlərdə yaşayış məskəni kimi mövcud olması fikri daha düzgündür.

A.A.Kudryavtsev də “Dərbənd” sözünü fars sözü kimi (uzel, svyaz, zapor, vorot) izah etmişdir (Drevniy Derbent. M., 1982. səh.3). Bizə elə gəlir ki, “Dərbənd” sözü dar və kənd sözlərindən yaranmışdır. Darkənd adı şəhərin coğrafi cəhətcə yerləşməsinə daha uyğundur. Yerli dərbəndlilər də bu fikirdədirlər. Şəhərin Dəmirkənd və Dəmirqapı Dərbənd adlanması isə daha sonrakı dövrlərin məhsuludur. Darkənd adlanan bu şəhərdə istehkamlar qurulduqdan sonra Dərbənd adlanmış və farslar tərəfindən sonralar Dərbənd şəklinə salınmışdır.

Ovlağı Abxazda və **Dərbənddədir** (XŞ-38).

Burada söhbət Atabəy Əbu Cəfər Məhəmməd Eldəgizdən gedir.

Məhərrəm Qasımov “Dəmirqapı Dərbənd” adlı məqaləsində yazır: “Bənddən bayırdakı böyük düzənliyin adı qovğalı zamanların olub – olmuşlarından, yadların, yağıların qərəzli, qara niyyətli gəlişindən soraq verən bir nişanədi: “Kafər çölü”. Həmin adla manşırlanan düzəngah indinin indisində də öz əvvəlki adıyla çağırılır. Həmin keçid, dar keçid olduğundan yör – yöndəminə baxıb bu yerə “Dar bənd” deyiblər.

“Dar bənd” – Dərbənd kimi torpağın yaddaşına biryolluq yazılıb. Yurdun adını təşbehləndirən “Dəmirqapı” deyimi də möhkəmlik, keçilməzlik mənasını qabartmaq qəsdiylə dilə gətirilib” (“Azərbaycan” jur. N.5. 1989. səh.134).

Dərbənd dənizi (top.) – Xəzər dənizinə verilmiş çoxsaylı adlardan biridir.

Dərbənd dənizinin bir sahmanında
Bir gözəl ölkə var dağlar yanında (XŞ-62).

Dərbənd, Səmərqənd (ep. top.) – Əbu Cəfər Məhəmməd Eldəgizin ovlağı olan yerlərdən ikisinin son hissəsi fonetik cəhətcə uyğun gəlir.

Ovlağı Abxazda və **Dərbənddədir**,
Şəbxunu Xarəzmdə, **Səmərqənddədir** (XŞ-38).

Yəni Qafqaz və Orta Asiya ona tabedir.

Dərbənd şahı (an.) – Dərbənd hakimi Dara Müzəffərəddin ibn Mühəmməd ibn Xəlifəyə işarədir. Afaqı Nizamiyə töhfə göndərən də o olmuşdur.

O, **Dərbənd şahının** bir töhfəsiydi,
Saf, ağıllı, gözəl gül qönçəsiydi (XŞ-348).

Dərc (kos.) – Ərəb sözü olan "Dərc" Məhəmməd peyğəmbərin guya merac gecəsində keçdiyi göy pillələrindən birinin adıdır. Yəni Məhəmməd göyün təbəqələrini, o cümlədən Dərc pilləsini keçib, yeddinci qata yüksəldi.

Dərcin də yolunu bir anda biçdi (İ-26).

Dərd əhli (an.) – Əvvəllər sevgilisinə qovuşa bilməyən və Məcnun kimi çöllərə düşən Bağdadlı Salamın ləqəbi.

"**Dərd əhli**" deyirdi ona insanlar,
Onun pak təbinə heyran olanlar... (LM-225).

Dəri dürləri (məc. id.) – "Dəri" klassik fars dilidir. Ərəb istilasından sonra Şərqi İran və Əfqanıstanda yaranmışdır. Ümumiyyətlə, dəri dili fars dilinin sinonimidir. "Dəri dürləri" dedikdə isə şair istifadə etdiyi dəricə olan mənbələri nəzərdə tutur.

Dəri dürlərini deşdiyi zaman
Belə nəql etmişdir bilici insan (XŞ-69).

Beytin mənası: bilici insan, fars (dəri) dilində incə rəvayətlər söylədi.

Ərəbcə, **dəricə**, yeri düşərkən ...(YG-31).

Yəni "Yeddi gözəl" əsərini yazarkən ərəb və dəri dillərində olan mənbələrdən istifadə etmişəm.

Dəvalı (an.) – "İskəndərnamə"də obraz adı. Abxaz hökmdarı.

Abxaz hökmdarı olan **Dəvalı**
Ucalmış, padşaha yaxın olalı (İ-312).

"Dəvalı" adı, zənnimizcə, "dava" və -lı sözdüzəldici şəkilçisindən düzəlmiş, davakar, vuruşqan mənalarını bildirir.

Mənbələrdə "davalı" adlı etnonimə də təsadüf olunur: "Rzaqulu xan Hidayət öz "Rövzət üs-Səfayi-Nasiri" əsərində (9-cu cild) Mirzə Məhəmməd Mehdi adlı bir şair haqqında xəbər verir. Lakin o, Dəvəllü tayfasına mənsub olmuşdur" ("Ulduz" jur., N.1, 1989. səh. 92).

Dəvali (an.) – Bax: Dəvalı.

Adı **Dəvalidir**, hər bağrı yarır,
Aslan dərisindən yosun qoparır (İ-200).

Dirəfşi (ktem.) – Bax: Gavə bayrağı.

Firidun padşahdan yadigar qalan
O uca **Dirəfşi** tanırdı çoxdan (İ-121).

Dirəfşi-Gavə (məc. ktem.) – Bax: Gavə bayrağı. Şair İskəndərin ordu toplayıb Dara qoşunlarına qarşı çıxarkən onun bayrağını "Dirəfşi-Gavə" ilə müqayisə edir.

Bayrağı "**Dirəfşi-Gavə**"dən yüksək
Çəkdi mahlıcına göy rəngli ipək (İ-121).

Dirilik suyu, Zülmat (məc. on.) – Şair Zülmatı zənciyə, Dirilik suyunu isə Zülmatda olan işığa bənzədir.

Zənci dəmir kimi qara, parlaqdır,
Üzü qaradırsa, ürəyi ağdır!
Dirilik suyunu Zülmatda sanan
Alimlər o hökmü çıxarıb burdan (İ-482).

Əsatirə görə, Dirilik suyu Zülmatda, yəni qaranlıq dünyadadır. Nizami demək istəyir ki, qara zəncidə işıqlı, fərəhli ruh olduğunu görən alimlər Dirilik suyunu qaranlıqda, Zülmatda olduğunu düşünmüşlər. Bundan o zamankı fəlsəfi əqidəyə görə: "Həqiqət qaranlıqdadır" nəticəsini də çıxarmaq olar.

Div (məc. mif.) – Əsatiri obraz kimi Div müxtəlif şəkildə təsvir olunur. Bəzən nəhəng gövdəli insan, bəzən də heybətli heyvan kimi göstərilir. Qədim Şərq əsatirində çox zaman insanlardan daha hünərli, daha cəsur verilir. Qədim İran əsatirində Təhmurəsə yazmağı divlər öyrədir. Cəmşidin əmrilə divlər saraylar qurur, evlər tikir. Əsatirdə divlər insan şəklinə mənsub olmasalar da, insana xas bəzi sifətlərdən məhrum deyillər. Onlar bir-birinə havadar durur, özlərinə başçılar seçir, düşmənlərini tanıyır, vuruşmaq üsullarını, danışmağı, yazıb-oxumağı bacarırlar. Hətta bunları insanlara da örədirlər. İnsanlardan fərqli olaraq onlar qaban dişli, fil başlı, təpəgöz, qaradodaq, qara dərili, uzun tüklü və s. sifətlərlə daha qorxunc görünürlər. Vəhşi halda yaşayır, heyvanların dərisini geyir və insanlara daha heybətli

görünürlər. Kahalarda, mağaralarda yaşayırlar. Təsadüfi deyildir ki, bir sıra Şərq ölkələrində "Divlər kahası" adlanan qədim mağaralar mövcuddur. Div adı "kin-qəzəb divi", "sərxoşluq divi", "həsəd divi" və s. kimi mənfi sifətləri özlərində əks etdirir.

Nizami də "div" dedikdə, məhz bu mənfi xüsusiyyətləri nəzərdə tutmuşdur.

Div əlinə keçməmiş yaxa, sinə cahanda,
Sığın könül mülkünə, məsləkinə cahanda (SX-145).

Div, Harut (qoşa məc. mif.) – Şair eyni zamanda Məcnunu div və Haruta (bax) bənzədir.

O aşkar gəzən **div**, o gizli cadu,
Şeyda aşiqlərin şeyda **Harutu** (LM-83).

Dol (məc. kos.) – Dolça bürcü. Bax: Dəlv.

Günəş camallı Yusif **Dol** içində oturdu,
Qəlbi Yunis qəlbitək Balıq qarnında vurdu (SX-30).

Günəş Dolça bürcündə yerləşir. Balıq (Hut) bürcü isə yağmurluq və su bürcü sayılır. Balıq bürcünün başı Dolça bürcünə əyilmişdir. Yusif gözəllik simvolu olduğu üçün Günəşə bənzədilir və onun qardaşları tərəfindən su quyusuna atılması Günəşin Dolça bürcündə yerləşməsi ilə müqayisə olunur. Yunis dənizdə batarkən onu balina udmuş və bir müddət onun qarnında yaşayıb sonra xilas olmuşdur. Beytin ümumi mənası belədir: "Yusif su dolunda quyuya atıldığı kimi Məhəmməd də Dolça bürcünün Günəşi və başını Dolça bürcünə qoymuş Balıq bürcünün – Balinanın Yunisi oldu.

Dördüncü məzlum (ap. an.) – "Yeddi gözəl" poemasında obraz adı. Rastü -Rövşən tərəfindən sevgilisi əlindən alınan və haqsız olaraq zindana salınan məhbuslardan biri.

Dördüncü şəxs çəkib, qorxusundan ah,
Dedi: "Ey tərifə layiq olan şah" (YG-289).

Dörd xəlifə (qrup an.) – Xəlifə ərəb sözüdür və canişin, müavin deməkdir. İslamiyyətdə Peyğəmbərin yerində oturan şəxs xəlifə adlanır.

"Dörd xəlifə" dedikdə isə Məhəmməd peyğəmbərdən sonra onun yerinə keçən, yolunu davam etdirən birinci dörd xəlifə nəzərdə tutulur ki, onlara çox zaman Xülafayi-Raşidin deyirlər.

Dörd xəlifə bunlardır: 1) Əbubəkr (632-634); 2) Ömər (634-644); 3) Osman (644-656); 4) Əli (656-661) (10-79).

Bu evə yeddi səqf yaratdın yenə,
Tapşırdın onu da **dörd xəlifənə** (LM-35).

Dörd şah (qrup an.) – Şair dörd böyük şah dedikdə İskəndər, Nuşirəvan, Xosrov Pərviz, Malik şahı nəzərdə tutur. Dörd böyük nemət isə həmin hökmdarların məşhur həmsöhbətləri olan Ərəstu (İskəndərin müəllimi və vəziri), Büzürgümehr (Nuşirəvanın vəziri), Barbəd (Xosrovun musiqiçisi), Xacə Nizamülmülkə (Məlik şahın tərbiyəçisi və vəziri) işarədir.

Dörd şah əldə etdi **dörd bahalı şey,**
Beşincisən, ömrün uzun olsun hey...
Şahım, onlardan da ucadır yerin,
Çünki Nizamidir sənin şairin (YG-40).

Nizami Körpə Arslan şahı bu adları çəkilən hökmdarlarla, özünü isə onların həmsöhbətləri ilə müqayisə edir və üstünlüyü Körpə Arslana verir. Çünki onun şairi Nizamidir.

Dövlət quşu (məc. mif.) – Bax: Huma (Humay). Keçmişdə şah seçərkən Dövlət quşunu uçurardılar. Quş kimin çiyninə, başına qonsaydı, onu şah seçərdilər. Folklorda buna aid nümunələr çoxdur. Burada Atabəy Əbu Cəfər Məhəmməd Eldəgiz Dövlət quşuna bənzədilir.

Dövlət quşu kimi bəyənsən kimi,-
Olar bu dünyanın döyük hakimi (XŞ-41).

Yəni əgər sən mənim töhfəmi (“Xosrov və Şirin” əsərini) bəyənsən, mən səadət sahibi olaram.

Dövlət quşu, Humay (sin. mif.) – Bunlar eyni mifozoonim olsa da, şair birincini ikincinin təyinedicisi kimi işlətmişdir.

Dövlət quşu Humaysan, qayən səadət olsun (SX-97).
Dövlət quşu Humay da, bir mələk də özündün (SX-105).

Dünya (məc. an.) – Makedoniyalı İskəndər dünyaya bənzədilir.

Dəniz dünyasında bir **dünya** getdi (İ-557).

Dürri – yetim (an.) – Məhəmməd peyğəmbərin ləqəbi.

Böyük Məhəmmədə yüz min afərin!
Xilqət torpağıdır, buna ol əmin...

Nə qədər yetimi sevdi, saxladı,
"**Dürri – yetim**" qaldı odur ki, adı (XŞ-29).

Dürsəti (an.) – "Yeddi gözəl" poemasında obraz adı. O, Xəvərnəq sarayında şəkli çəkilən gözəllərdən biridir. O, Keykavus nəslindəndir. "Dürsəti" – inciüzlü deməkdir.

Keykavus nəslindən dilli, diləkli,
Kəsranın **Dürsəti** tavus bəzəkli (YG-75).

- E -

Eys (an.) – Dinlər tarixinə görə, İshaq peyğəmbərin Yaqubla ekiz doğulmuş oğludur. İskəndərin atası Feyləqusun ulu babasıdır.

Ulu babasıydı **Eys** ibn-İshaq (İ-61).

Eysu (top.) – Qədim türk vilayətlərindən birinin adı.

Eysudan bir məğrur susadı qana,
Atını od kimi çapdı meydana (İ-334).

Elbrus (top.) – Böyük Qafqazda, Yan silsilədə ən hündür zirvə. Sönmüş vulkanın iki zirvəli konusudur. Qərbindəki zirvənin hündürlüyü 5642 m., şərqindəki 5595 metrdir. Zirvələrində ümumi sahəsi 138,5 kvadrat kilometr olan təqribən 50 buzlaq var... Elbrus yaxınlığından Kuban çayı başlanır. Qafqazda alpinizmin və turizm mərkəzlərindən biridir(ASE-3).

Gürzlü çomağını endirən zaman
Elbrus dağı da uçardı, inan (LM-132).

Burada söhbət Nofəldən gedir.

Elburus dağı (məc. top.) – Şair metaforik şəkildə İskəndər tərəfindən öldürülən Zəngibar pəhləvanı Zarəcəni Elburus dağına bənzətmişdir.

Toppuzu vurdu şah elə qüvvətlə,
Elburus dağına düşdü zəlzələ (İ-87).

Elburus – İranın şimalında Xəzər dənizinin cənub sahilləri boyunca şimal-qərbdən cənub-şərqə doğru uzanan böyük bir silsilədir. İran mifologiyasında Elburus xüsusi yer tutur. Rüstəmin atası Zalı, babası Samı və böyük babası Nərimanı guya himayə edən Simurğ quşu bu dağda məskən salıbmış. Qafqaz

dağları silsiləsinin ən yüksək zirvəsinə də Elbrus deyilir ki, bunun ikinci adı Qaf dağıdır.

Elbrus və Elburus dağlarının adları türk dillərində geniş yayılmış "Alp", "Alb" sözləri ilə əlaqədardır. "Alp"ın igid, qəhrəman, qoçaq və yüksəklik mənalarından başqa, parlaq, ağ və işıltı və s. kimi də mənaları vardır. Mirzə Bala "Azərbaycan tarixində türk Albaniya" adlı əsərində bu münasibətlə yazır: "Albanus və Albana kəlmələrindən başqa, Elbrus zirvəsinin parlaq, ağ və işıldayan mənasını verən "Elb" kökü ilə uyğurlarda yüksəklik və bütün türklərdə qəhrəmanlıq mənasını ifadə edən Alb və Alp kökünü Avropada da görürük" ("Azərbaycan", № 10. 1999. səh. 119). Bax: Alp Arslan.

Ermənistan (top.) – "Xosrov və Şirin" poemasında çox vaxt Ərmən(bax) adlanan və Azərbaycan xalqının tarixi torpaqları olan bu ölkədə hazırda ermənilər yaşayır. Bu adın ermənilərin əfsanəvi qəhrəmanı Haykın oğlu Arminakın adını daşıması güman edilir. Başqa bir fikrə görə isə "ar"(dağ) və "minni"(qəbilə adı) sözlərindən yaranmış, "dağ adamı" deməkdir.

Ermənilər özlərini hay, vətənlərini isə "Hayastan" adlandırırlar. Lakin "Ermənistan" toponimi "er", "mən" və " –stan" komponentlərindən ibarətdir. "Er" Arcak və Xəzər sözlərində olduğu kimi "igid", "qoçaq" mənasında işlənmişdir. "Mən" isə türk və fars dillərində şəxs əvəzliyi olmaqla bərabər, bir çox Avropa dillərində də "kişi", "adam" mənasında şəxs bildirir. Fars dilində "əyalət" mənasında "ostan" Azərbaycan dilində məkan anlayışlı isim düzəldir. Bu faktlar bir daha göstərir ki, Ermənistan ərazisi türk xalqlarının, o cümlədən azərbaycanlıların ən qədim torpaqlarıdır.

Dara ordu çəkdi **Ermənistana,**
Sanki bir qiyamət çökdü hər yana (İ-118).

- Ə -

Əbbasi (et.) – Bax: Abbasilər, Əbbasilər.

Əbbasi çətritək örtərək qara,
Bərtasın tasını vurdu daşlara (İ-358).

Əbbasilər (et.) – Bax: Abbasilər.

Xalını qaraldır **Əbbasilərin,**

Gözünə nur saçır şəmmasilərin (İ-23).

Abbasi xəlifələrinin paltarları və bayraqları qara idi. Xalını qaraltmaq ifadəsi burada Abbasilərin səltənət və əzəmətlərinə işarədir. Şəmmas – atəşpərəst, həm də gözdə ağ – titə deməkdir. İnad göstərmək mənasında işlənir. Yəni atəşpərəst şəmmasilərin gözündən ağlığı, korluğu alıb, nur saçdı, onları müsəlman etdi. Şeirdə söhbət Məhəmməd peyğəmbərdən gedir.

Əbu Cəfər (an.) – Atabəy Əbu Cəfər Məhəmməd Eldəgiz. "Cəfərin atası" deməkdir. Ərəb ad sistemində şəxsin bu cür adlanması rəsmi xarakter daşıyırdı. Hökmdarın (və ya hər hansı bir şəxsin) çox oğlu ola bilərdi. Lakin onlardan yalnız biri – taxt-taca varis ola biləcək oğlu atanın rəyinə görə(əsasən böyük oğlu) şəxsin adı ilə işlənə bilərdi. Ərəb ad sistemində şəxsin oğul adı ilə adlanmasına "künyə" deyilir.

Bir **Əbu Cəfərin** səxasına bax (XŞ-36).

Əbu Məşər (an.) **–** Adı Ömər, atasının adı Məhəmməd Bəlxidir. Ən məşhur münəccimlərdən olmuşdur. Riyaziyyat və astronomiya sahəsində əsrinin ən böyük alimi sayılır. 886-cı ildə ölmüşdür. Astronomiyaya aid "Mədxəl", "Zic", "Müzakirələr", "Üluf" kimi bir neçə əsəri vardır. Nizami onun bu axırıncı əsərindən bəhs etmişdir.

Dünya filosofu **Əbu Məşər** də

"Üluf" ad qoyduğu məşhur əsərdə... (İ-435).

"Əbu Məşər" – ərəb ad sisteminə görə künyədir və şəxsin övlad adı ilə adlanmasıdır. Demək, "Əbu Məşər – Məşərin atası deməkdir. "Əbu" ərəbcə atası, "məşər" isə camaat, cəmiyyət mənasını bildirir.

Əbu Talib (xat. an.) – Məhəmməd peyğəmbərin əmisi, dördüncü xəlifə Əlinin atası.

Qiymətli cəvahir doğan bir evdən

Əbutalibi də çıxaran sənsən (İ-17).

Burada "qiymətli cəvahir" dedikdə Məhəmməd peyğəmbər və dördüncü xəlifə həzrət Əli nəzərdə tutulur. Məhəmməd peyğəm-

bərin atası öldükdən sonra əmisi Əbu Talib yetim qalmış Məhəmmədi oğulluğa götürmüşdü. Nizami burada demək istəyir ki, Əbu Talibin böyüklüyünə, yəni peyğəmbərin atalığı və Əlinin atası olduğuna baxmayaraq, yenə də onu qapıdan qovdu. Çünki Əbu Talib, sünnilərin əqidəsinə görə, islamı qəbul etməmişdi.

Cəhənnəmin atəşi yaxarmı suçsuz kəsi?

Əmisini qorudu peyğəmbərin nəfəsi (SX-98).

İslamı qəbul etmədiyi üçün Əbu Talib Cəhənnəmə getməli idi. Lakin Məhəmməd peyğəmbərə qohumluğu onu şəhnə kimi Cəhənnəm odundan qoruyur. Çünki Allah tərəfindən qəbul olunmuş xoşbəxt peyğəmbərin həqiqəti görən nəzəri saf və xeyirxah adamları qoruyub əzabdan xilas edir. Əbu Talib islamı qəbul etmədiyinə baxmayaraq, alicənab və xeyirxah adam olmuşdur. O, ərəblər arasında hörmətli olduğu üçün həmişə peyğəmbəri müdafiə və himayə etmişdir. Lakin ata-babasının dini olan bütpərəstliyi dəyişməyi özü üçün ar bilib, müsəlman olmamışdır. Ölərkən can verən zaman Əbu Talibin dodaqları tərpəndiyini qardaşı Abbas görüb diqqət etdikdə Əbu Talibin guya şəhadət kəlməsini dediyini eşitmişdir və bunu peyğəmbərə xəbər vermişdir: “Ey əmi, səni haqq yola hidayət edən Allaha çox şükür olsun!”

“Əbu Talib” – “Talibin atası” deməkdir.

Əbubəkr (an.) – Əbdüllah ibn Osman (572 və ya 573 – 634). Məhəmməd peyğəmbərin arvadı Ayişənin atası. O, Məhəmməd peyğəmbərdən sonra 632-634-cü illərdə xəlifəlik etmiş və məşhur dörd xəlifədən(bax) birincisidir. Əbubəkr Məkkədə varlı bir tacir olmuş 622-ci ildə Məhəmməd peyğəmbərlə birlikdə Məkkədən Mədinəyə gəlmişdir.

Hər iki nur ilə nurlanir dimaq:

Əbubəkr bir şamdır, Osman bir çıraq (İ-28).

Şair eyni zamanda burada Əbubəkri şama, Osmanı isə çırağa bənzətmişdir.

Əbubəkr (an.) – Məhəmməd Cahan Pəhləvanın oğlu. Onun atabəyi əmisi Müzəffərəddin Qızıl Arslan(Cahan Pəhləvanın kiçik qardaşı) olmuşdur.

Əbubəkr, Məhəmməd göstərərək dad,
Ondan Əbubəkrü Məhəmməddir şad (XŞ-374).

İkinci misradakı "Əbubəkrü Məhəmməd" antroponimik birləşməsindəki Məhəmməd isə Əbubəkrin atasının adıdır.

Əbüləhəb (xat. an.) – Əbdülmütəllib oğlu Əbdül-üzza. O, Haşimi qəbiləsinə mənsub olan bir şəxsdir. Məhəmməd peyğəmbərin əmisi idi. İslam dinini qəbul etmədiyi kimi bütün ömrü boyu Məhəmməd peyğəmbərə qarşı mübarizə aparmışdır.

Əhməd ki rəhbəri oldu ərəbin,
Gördü cəfasını **Əbdüləhəbin** (LM-63).

Əbülqasım Məhəmməd (ag.) – Məhəmməd peyğəmbərə işarədir. Çünki Məhəmməd peyğəmbərin Qasım adlı oğlu olmuş, lakin o, uşaq ikən ölmüşdür.

Öz adın oğluyun adıyla birdir
Aləm "**Əbülqasım Məhəmməd**" deyir (LM-34).

Əbülmüzəffər (an.) – Hərfi mənası "Qalibiyyət atası" deməkdir. Şirvanşah Axsitanın fəxri adlarından biridir. Onun "Cəlaləddin" fəxri adı da vardır.

Şahların tacısan, **Əbülmüzəffər,**
Yeddi məmləkətə sən oldun zivər (LM-51).

Əcəbnuş (an.) – "Xosrov və Şirin" poemasında obraz adı. "Əcəbnuş" əcəb (ərəbcə təəccüb, heyrət, qəribə deməkdir) və nuş (farsca dadlı içki, kef deməkdir) sözlərindən düzəlmişdir.

Şəkər **Əcəbnuş** da belə dil açdı...(XŞ-129).

Əcəm (an.) – Leylinin atasının ləqəbi.

Qorxaraq ərəbin tənələrindən
Əcəm ləqəbini gəzdirirəm mən (LM-134).

Əcəm torpağı (top.) – Ərəblərin ərəb olmayan xalqlara (qəbilələrə), xüsusən iranlılara verdikləri addır. Əcəmi sözü İranda hakimiyyət sürmüş Acamyan – Pişdadyan sülaləsi adından alınmışdır. Bu ad sonralar ancaq iranlılara aid oldu.

Əcəm torpağına at salsın yenə,
Oradan yol salsın İstəxr mülkünə (İ-312).

Burada söhbət İskəndərdən gedir.

Əcəm çahı (məc. an.) – Atabəy Əbu Cəfər Məhəmməd Eldəgiz nəzərdə tutulur .

Ərəb səmasında biri qəmərdir,
Biri **Əcəm şahı –** bir tacivərdir (XŞ-36).

Burada Məhəmməd peyğəmbər və Şəmsəddin Atabəy Məhəmmədin adları qarşılaşdırılır. Aşağıdakı beytdə isə göstərilir ki, şir ilə guru bir oxla öldürən Bəhram şahı ərəblər "Əcəm şahı" adlandırırlar.

Hünərli vuruşu görən ərəblər:
Əcəm şahı, sənə əhsən – dedılər (YG-69).

Əcinnə (mif.) – "Cin"in(bax) cəmi.

Ondan əvvəl pəriydi, **əcinnəydi** həyatda (SX-69).

Dini rəvayətlərə görə, Adəmdən əvvəl pəri, cin və mələklər yarandığı üçün Adəm pərilərin axırıncı uşağı hesab olunur. Bu misranın məzmunu "Quran"ın "Əl-hicr"(15) surəsinin 27-ci ayəsindən alınmışdır: "Cinləri biz əvvəl səmum atəşindən xəlq etdik".

Ədən (məc. top.) – Böyük bir vilayətin adıdır. Ədən körfəzinin sahilində, Ərəbistan yarımadasının cənub-qərbində, Hind okeanının Qırmızı dənizə keçən yerində yerləşmişdir. Ədən körfəzi öz dürləri ilə məşhurdur. Ərəb sözü olan "Ədən" Cənnət kimi gözəl yer deməkdir.

Nələr danışıram, bax ey, könül, mən,
Suyum buluddandır, dürrüm **Ədəndən** (YG-32).

Şair özünü və yazdıqları əsərləri Ədən dürrünə bənzədir.

Çin şahı səhərə nəfəs verərkən
Ulduzu günəşə dəyişdi **Ədən** (İ-141).

Yəni səhər açılıb Günəş çıxınca Ədən dənizinə bənzəyən göy ulduzlarını verib, onun əvəzinə, Günəşi aldı. Yaxud Çin şahı – Günəş qaranlığı qovduqca Ədən dənizində əks olunan ulduzlar Günəşlə əvəz olundu.

Belə bir vaxtda İskəndər və Dara qoşunları üz-üzə dayandı.

Əflatun (an.) – " İskəndərnamə" əsərində obraz adı. İskəndərin səkkiz yaşı olanda Əflatun ölsə də, şair öz məqsədindən asılı olaraq onu İskəndərin sarayında yaşayan alimlərdən biri kimi təsvir etmişdir.

Ərəstu qədəhə, **Əflatun** cama
Təzə mey tökürdü qan dam- dama (İ-103).

Əflatun (və ya Platon; e.ə. 428-348) məşhur yunan filosofu, antik dünyada idealizmin banisi, Sokratın şagirdi olmuşdur. Dialektikaya dair bir sıra fəlsəfi əsərləri ilə yanaşı, "Dövlət", "Qanunlar" adlı kitabları da vardır. Əflatun bu kitablarda "aristokrat sosializmi" ideyalarını inkişaf etdirir və mülkiyyət ümumiliyinin hakim aristokrat sinfi üçün olduğunu təbliğ edir.

Əfrasiyab (məc. an.) – Əfsanəvi bir şəxsiyyətdir. İranlıların qədim tarixinə görə, Firidunun üç oğlundan biri olan Turun nəvəsidir. Həmin Turun adı ilə bağlı olan Turanın ən böyük hökmdarlarından sayılır. Bir zamanlar İranı zəbt edərək on iki il orada hakimiyyət sürmüşdür. Sonralar iranlıların üsyanı nəticəsində bu ölkədən çıxarılmışdır. Firdovsinin "Şahnamə"sində Keykavusun oğlu Səyavuş İrandan Turana qaçaraq Əfrasiyabın yanına getmişdir. Əfrasiyab Səyavuşa öz qızı Firəngizi vermiş və ondan Keyxosrov dünyaya gəlmiş, nəhayət, Əfrasiyab onun əlində ölmüşdür. Orta əsr Şərq ədəbiyyatında Əfrasiyab qüdrətli hökmdar rəmzi kimi işlədilmişdir.

O, Keyxosrov, bizsə **Əfrasiyabıq** (XŞ-119).

Burada Məhin Banu Xosrovu Keyxosrova, öz nəslini və özünü isə Əfrasiyaba bənzətmişdir.

Şair Şirvanşah Axsitanı da metaforik şəkildə Əfrasiyaba bənzətmişdir.

Düşmən qarşısında **Əfrasiyabdır**,
Təkbətək döyüşdə günəşə babdır (LM-54).

Mirzə Bala Məmmədzadə Əfrasiyab haqqında göstərir ki, Mahmud Kaşğariyə görə, türklərin böyük hökmdarı olub iranlılar tərəfindən Əfrasiyab adı verilən qəhrəmanın əsl adı Tuna Alp Ər (Tunqa Alp Ər) idi. Türk dastanlarında Tunqa Alp Ər, İran dastanlarında Əfrasiyab adı ilə tanınan qəhrəmanı böyük Saka dövlətinin ən şövkətli dövrünü və süqut çağını yaşayan böyük qəhrəman kimi qəbul edirik. Bu dastanın türk rəvayətlərində Tunqa Alp adı ilə türk hökmdar sülalələrinin böyük atası, onun qohum-əqrəba və övladı, onun kultu nəzərə çatdırılır. İran rəva-

yətlərində də Əfrasiyabın iranlılarla olan macəraları, İran hökmdarı Keyxosrov (Midiya hökmdarı Kiyeksares) tərəfindən yenildikdən sonra, onun tərəfindən də Tyanşanda Koqkarbaşı və Kuməklər ölkəsinə, yəni Altaya qədər təqib edilməsi, nəhayət, Keyxosrovun əlinə keçərək miladdan öncə 625-ci ildə öldürülməsi və özündən sonrakı oğullarının dövrü təsvir edilir ("Azərbaycan" jur. №10. 1989. səh.128).

Əfrasiyab mülkü (məc. top.) – Şair "Əfrasiyab mülkü" dedikdə İranı nəzərdə tutmuşdur.

Əfrasiyab mülkünün varisi erkən
Başını günəştək ucaltdı Çindən (İ-282).

Burada Ərasiyab mülkünün varisi İskəndərdir. Əfrasiyab mülkü ifadəsi – bir zaman Əfrasiyabın İranı zəbt edərək ona hakim olmasına işarədir.

Əfrəncə (top.) – Ərəbcə "firəng, avropalı" deməkdir. Misirdə bir şəhərin adıdır.

Qarətə gedəcək o zəngin diyar,
Misir, Rum, **Əfrəncə** olar tarimar (İ-74).

Əfrəncə dənizi (top.) – Misirin ətrafında bu adda dəniz yoxdur. Ola bilsin ki, Əfrəncə Avropa dənizlərindən birinin qədim adıdır. Yaxud da Xəzər dənizi onun sahilində yerləşən şəhərlərin adı ilə Dərbənd dənizi, Mazandaran dənizi və s. adlandığı kimi Əfrənc şəhərinin yerləşdiyi sahədə olan dəniz də bu şəhərin adı ilə adlansın.

Əfrəncə dənizi, Nil sahilləri
Köç təbli səsindən oldu sərsəri (İ-98).

Şair burada Əfrəncə dənizi və Nil sahillərini metaforik şəkildə İskəndər ordusunun köç təbilinin səsindən sərsəri olan insana bənzətmişdir.

Əhli-Xorasan, Bağdad (xat. məc. an.) – Əhli-Xorasan dedikdə Xorasan hakimləri, Bağdad dedikdə isə Abbasilər nəzərdə tutulur.

Hamıya məlumdur, **əhli-Xorasan**
Bağdadda fənd ilə yaşayır asan (İ-452).

Abbasilər dövründə VIII əsrdə Xorasan hakimlərinin (Əbu Müslüm Xorasaninin, Bəni-Tahir dövlətinin banisi Tahirin və s.)

Bağdad xəlifələri ilə diplomatik əlaqələrinə və xəlifələri aldatmalarına işarədir.

Şair bu xatırlamadan sonra bir rəvayət nəql edir, həmin rəvayətdə xorasanlı kimyagər və hiyləgər bir obraz kimi təsvir olunur. O, öz yalançı kimyagərliyi ilə bütün bağdadlıları, hətta xəlifənin özünü də aldadıb, onların qızıllarını da götürüb qaçır.

Hekayənin əvvəlində adı çəkilən xatırlamada bu hekayənin əsas ideyası öz əksini tapmışdır. Eyni zamanda bu hekayənin məzmunu ilə M.F.Axundovun "Molla İbrahimxəlil kimyagər" komediyasının süjeti arasında bir eynilik də vardır. Birincidə bağdadlıların, hətta xəlifənin, ikincidə isə nuxulların avamlığı və tamahkarlığı tənqid olunmuşdur.

Əhməd (ag.) – Məhəmməd peyğəmbərin adlarından biri.

Varlığın lövhəsinə ilk söz yazanda qələm,-
Əhmədin "əlif"ini yazıbdır onda qələm.
"Əlif" "hey"i mülkünə hakim edəndən bəri,
"Dal" onun boyunbağı, "mim" də ki bir kəməri (SX-28).

Lövhi-məhfuzda yazdığı (Allahın) birinci hərf "əlif" olmuşdur. Əhməd və Məhəmməd eyni kökdən (Həmədə) olub eyni məna kəsb edir (Bax: Məhəmməd). Odur ki, peyğəmbər bu adla da çağırılmışdır. "Əhməd" adı isə əlif, hey, mim və dal hərflərinin birləşməsindən yaranmışdır.

Əhməd (məc. an.) – Ünvanı qeyri-müəyyən şəxsə aid olan əsl şəxs adı. Hər hansı bir şəxs Əhmədə bənzədilir, məsəldir.

Üzdən çox gözəldi bizim **Əhmədtək**,
Üstəlik də vurub çıxartdı çiçək (YG-54).

Əhməd, Məhəmməd (qoşa an.) – Marağa hakimi Əlaəddin Körpə Arslanın oğlanlarının əsl adları.

Nüsrətəddin Məlik **Məhəmməd** şahdır...
Fəlakəddin **Əhməd** adlansın gərək (YG-37).

Əhməd və Məhəmməd adları Məhəmməd peyğəmbərə məxsus olduğu üçün şair onların peyğəmbərə sadiq olduqlarını qeyd etmək istəyir.

Əhməd türbəti (on. birləşmə.) – Məhəmməd peyğəmbərin məzarı. Türbət (və ya türbə) ərəb sözüdür, məzar, qəbir; qəbirlər

üzərində tikilən bina, mavzoley; dini rəvayətlərə görə müqəddəs sayılan yerlərdən götürülən torpaq deməkdir.

Bir dərdli başına lütf et, şəfa ver!
Əhməd türbətindən mənə dəva ver! (XŞ-29).

Əhmədi-Mürsəl (ag.) – Məhəmməd peyğəmbərin ləqəbi, titulu. "Əhməd" – şərəfli, şanlı, "Mürsəl" isə göndərilmiş elçi, "Əhmədi-Mürsəl" isə şərəfli, şanlı elçi deməkdir.

Əhmədi-Mürsəldən başqası məgər
Varmıdır, tanrıya ola peyğəmbər (YG-22).

Əhrimən (mif.) – Zərdüşt dininə görə, xeyir və işıq allahı Hürmüzə qarşı daim mübarizə aparan şər və zülmət allahıdır. Guya xeyirin şər ilə, işığın zülmətlə barışmaz mübarizəsi Əhrimənin məğlubiyyəti ilə nəticələnəcək, yer üzündən bədxahlıq silinəcək, bəşəriyyət xoşbəxt həyat sürəcəkdir. Əsatirə görə, Əhrimən eyni zamanda ölüm allahıdır, Cəhənnəmdə yalanı və şər işləri törədən divlərin başçısıdır. O, allahların düşmənidir, insanlara bədbəxtlik və bəla gətirir.

Nizami Əhrimən adını Əjdər adı ilə sinonim şəkildə işlədir:

Kəsdi **Əhrimənin** başını xəncər,
İnsana düşməni əzmək dad verər.
Dərhal **əjdahanın** qarnını yardı
Orada bir gurun balası vardı (YG-72).

Söhbət Bəhram Gurun ov zamanı Əhrimənə rast gəlməsindən, onu öldürməsindən və mağaradan xəzinə tapmasından gedir.

Əhrimən (məc. teon.) – İskəndər özü ilə Daranı müqayisə edərkən, onu zərdüştilərin şər allahı olan Əhrimənə bənzdir.

O bir kin bəsləyir, sən din bəslərsən
Sən bir firiştəsən, o bir **Əhrimən** (İ-107).

Əhrimən, Zərdüşt (ant. on.) – Burada teonimlə agionim antonim mənalıdır.

And olsun yəzdana, uca behiştə,
Əhrimən düşməni olan **Zərdüştə** (İ-132).

Əxbiyə (kos.) – İyirmi səkkiz Ay mənzillərindən biridir.

Asimanın alnından gecənin tozunu al,
Ucalmağa tapmasın Cəbhə, **Əxbiyə** macal (SX-25).

Əjdaha (məc. mif.) – Şərq ölkələrində nəhəng ilana oxşayan, lakin dörd ayağı və qanadları olan, ağzından od püskürən bir heyvandır. "Avesta"da Əjdaha üç ağızlı, üç başlı və altı gözlü heybətli bir heyvan kimi, Əhrimənə mənsub bir qüvvə kimi təsvir edilmişdir. Folklorda mifik-zoomorfik surət olan Əjdaha müxtəlif əsatirlər və dini etiqadlarla bağlı olaraq bir sıra rəmzlərə çevrilmişdir. Müxtəlif təbiət hadisələri ilə əlaqədar xüsusiyyətlərə görə o, zülmət, quraqlıq, istilik, ölüm və fəlakət simvolu, hakimiyyət timsalı, su məbudu və s. kimi təsvir olunur. Əjdaha həmişə zərərli bir qüvvə kimi deyil, eyni zamanda suları hərəkətə gətirən, faydalı yağışlar yağdıran xeyirxah qüvvə kimi də göstərilir.

Şair su verməyən səhəri Əjdahaya bənzədir.

Əjdahatək vermədi bircə qurtum su səhər (SX-67).

Əjdaha keşikçiyə bənzədilir.

Dünya bir xəzinədir, keşikçisi - **əjdaha** (SX-93).

Ölüm Əjdahaya bənzədilir.

Əjdahanın ağzından həyat tapmaq olarmı? (SX-134).

Sərxoş adamlar Əjdahaya bənzədilir.

Üzüm qara vaxtında tutiyaya dönəndir,
İlan qoca vaxtında **əjdahaya** dönəndir (SX-129).

Üzümün qarasından keçmişdə tutiya deyilən göz dərmanı hazirlayırdılar. Köhnə şərab tünd olduğu üçün ilana bənzər bədcins adamları daha da zəhərli edib Əjdahaya döndərir. Aşağıda Körpə Arslan şah Əjdahaya bənzədilir.

"Sərxoşdur" deməyin, şir boğan şaha,
Boğur, çünki odur qorxmaz **əjdaha** (YG-35).

"Yeddi gözəl" poemasında Mahanın gözünə əvvəl Çin gözəli kimi qəşəng görünən qız onunla əylənəndə ifritəyə çevrilir. Mahan onun üfunət qoxuyan öpüşlərindən xilas olmağa çalışanda gözü Aya sataşır. Şair həmin anda Ayı da Əjdahaya bənzədir.

Tabdan düşdü Mahan baxantək aya,
Gördü ki, ay dönüb bir **əjdahaya** (YG-230).

Şair Bəlinasin dili ilə Azər Humayunu Əjdahaya bənzədir.

Dedi: "**Əjdahanı,** böyük tacidar,
Yalnız bir əfsunçu edər aşikar (İ-175).

“Yeddi gözəl” poemasında “Əjdər” Əjdahanın sinonimi kimi işlədilmişdir. Mahanın mindiyi at sonradan Əjdərə çevrilir.

Gördü altındakı dərddir, xətərdir,
Mindiyi at deyil, qızğın **əjdərdir.**
Dörd ayağı vardı, iki qanadı,
Yeddi başı görcək ağlı oynadı.
Halqa kimi bizi bürüyən fələk
Yeddi baş **əjdərdir,** heyrət nə demək? (YG-216).

Əjdər deyərkən şair cismani həyatı, təbiəti nəzərdə tutur. Bizim dövrəmizi kəmər kimi qurşaqlamış göyün yeddi baş Əjdaha(Əjdər) olması heç də təəccüblü deyil. Onun iki qanadı – gecə və gündüz, dörd ayağı – dörd ünsür və yeddi başı – yeddi qatdan ibarət olan göydür.

Əkinçi (an.) – “İqbalnamə” əsərində obraz adı.

Ağıllı **əkinçi** eyləyib xitab,
Verdi padşaha ədəblə cavab (İ-548).

Əklil (kos.) – İyirmi səkkiz Ay mənzillərindən biridir.

Əklil bağışlamış Qəlbəyə bir tac (LM-185).

Əqrəb (kos.) – On iki bürcdən səkkizincisi. Guya Məhəmməd peyğəmbər merac zamanı qədim astrologiyada nəhs hesab edilən Əqrəb bürcünü pisləmişdir.

Fələk **Əqrəbinin** bağrını sökdü (XŞ-357).

Nizami Əqrəbdən məcazi ad kimi də geniş istifadə etmişdir.

Zanbaqtək quyruğuna zəhər dolub **Əqrəbin,**
Süsənbər zəhərini kəsən olub **Əqrəbin** (SX-30).

Burada Əqrəb həm də zoonim əqrəbi – Əqrəb kosmoniminin apelyativ, ilkin mənasını ifadə edir.

Süsənbər çiçəyinin şirəsi qədim təbabətdə əqrəb zəhərini məhv edən padzəhr kimi işlənərdi. Yəni Məhəmməd peyğəmbərin süsənbəri – nəfəsi Əqrəb bürcünün quyruğuna padzəhr töküb onu xətərsiz etdi.

Şair Əqrəb bürcünü metaforik şəkildə əqrəbə bənzədir.

Günəşi göylərdə dolanan zaman
Sancıb saraltmadı **əqrəbtək** xəzan (İ-568).

Əqrəb sözü burada Əqrəb bürcü mənasındadır. Astrologiyaya görə, Günəş Əqrəb bürcünə girəndə havalar soyumağa, qış yaxınlaşmağa başlayır. "Sancıb saraltmadı əqrəbtək xəzan" – yəni hələ payız girməmişdi.

Əqrəb, Qövs (ant. məc. kos.) – Şair eyni zamanda Sultan Mahmud Qəznəvini(bax) Əqrəbə, Firdovsini(bax) isə Qövsə bənzədir. Astrologiya elminə görə Əqrəb və Qövs(göy qurşağı) bürcləri həmişə bir-biri ilə vuruşurlar.

Soltan Mahmud ilə şair Firdovsi
Andırır nisbətdə **Əqrəblə Qövsi** (YG-32).

Əqsa məscidi (mif. top.) – Məhəmməd peyğəmbərin merac zamanı yüksəldiyi əfsanəvi yer. Guya göyün yeddinci qatındadır və Allahın taxtı da burada yerləşir. "Əqsa" ərəbcə uzaqda olan, iraq, ucqar deməkdir.

Mədinədən quştək uçdu peyğəmbər
Əqsa məscidinin sonuna qədər (XŞ-357).

Əlaəddin (an.) – Körpə Arslan şahın(bax) dini fəxri adı.

O şahın ləqəbi **Əlaəddindir** (YG-34).

Ərəb ad sistemində titul(fəxri ad) termini olmadığından, fəxri ad, fəxri ləqəb, ləqəb, titul kimi köməkçi adlar təkcə bir "ləqəb" termini ilə ifadə olunurdu. Çox vaxt şah, xan, bəy kimi titullar və hətta şairlərin ədəbi-bədii təxəllüsləri də(Buna indi də təsadüf olunmaqdadır) ləqəb hesab edilirdi. Nizami də "Əlaəddin" dini fəxri adını ləqəb hesab etmişdir.

Əlbürz (top.) – Bax: Elbrus.

Könlünü qırma, sal **Əlbürzə** lərzə (İ-166).
O qoca **Əlbürzə** kəsmə yol açmaq (İ-228).

Şair metaforik şəkildə İskəndəri Elbrusa bənzədir.

Meydanda başlasam qılınc oyunu,
Bağlaram **Əlbürzün** uca qolunu (İ-324).

Əlbürz, Cəmşid (qoşa on.) – Elburus dağ, Cəmşid isə əfsanəvi İran padşahıdır. Bu adların yanaşı işlənməsinin əsas səbəbi Cəmşidin bu dağın başında taxta çıxması, onun qızıl taxt-tacı və paltarı Günəş altında parlaması, Cəmşidin yeni Gün kimi adlan-

ması ilə əlaqədardır. Şair "Cəmşid xələti" dedikdə Günəşli dünya nəzərdə tutulur.

Əlbürzün başında günəş göründü,
Cəmşid xələtinə dünya büründü (XŞ-70).

Əli (ag.) – "Raşidi xəlifələri"n dördüncüsü və axırıncısı. Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni, onun qızı Fatimənin əridir. Əli ibn Əbu Talib(bax) 656-cı ildə Osman(bax) öldürüldükdən sonra xəlifə elan edilmişdir. Osmanın yıxılmasında mühüm rol oynayan Misir nümayəndələri əvvəlcə onun tərəfini saxlamış, az sonra iki müqəddəs şəhər – Məkkə və Mədinə, onlarla birlikdə İraq Əlinin tərəfinə keçmişdir. Lakin həlak olmuş Osmanın əmisi oğlu, Suriya hakimi Müaviyə, Məhəmmədin bir çox silahdaşları, hörmətli və nüfuzlu Ayişə və başqaları Əlinin namizədliyinə tərəfdar çıxmadılar. Hakimiyyət uğrunda gedən şiddətli mübarizə müsəlmanların Əli tərəfdarları olan şiələrə və onun əleyhidarları olan sünnilərə parçalanmasının təməlini qoydu.

661-ci ildə Müaviyəyə qarşı silahlı mübarizədə təşəbbüsü əldən vermiş Əli Kufə məscidinə daxil olarkən bir xarici tərəfindən ölümcül yaralandı və tezliklə vəfat etdi(İslam. Bakı, 1985).

Ya meydana **Əlini** - ər oğlu əri göndər (SX-37).

Əli, Ömər (xat. ag.) – Şair ilk ərəb xəlifələrinə münasibətini bildirmək üçün onların adlarını xatırlayır.

Əlinin eşqində sabitqədəməm,
Ömər sevgisindən uzaq deyiləm (İ-28).

Əmr (məc. an.) – Əmr ilə Zeyd haqqında olan əfsanənin qəhrəmanlarından biri. Şair Məcnunu Əmrə bənzədir.

Məcnunun qəlbində ayrılıq dərdi,
Əmrtək Zeyd ilə ömür sürərdi (LM-247).

Əmr, Zeyd (qoşa məc. an.) – Şair "Leyli və Məcnun" poemasında obraz olan Zeydi eyni vaxtda Əmr ilə Zeydə bənzədir.

Öz adı Zeyd idi, sevda gəzərdi,
Xisləti **Əmr** ilə **Zeydə** bənzərdi (LM-233).

Əsərdə Əmr və Zeyd (Burada obraz olan Zeyd yox, bənzətmə ad olan hər hansı başqa bir Zeyd nəzərdə tutulur) haqqında əlavə

məlumat verilməsə də, məlum olur ki, şairin dövründə bu gənclərin adları ilə əlaqədar olan müəyyən rəvayət də mövcud imiş. Məcnun Zeydi məzəmmət edəndə bu əfsanəyə işarə olunur.

Uzun danışanın pis olur səsi,
Danışma **Zeyd** ilə **Əmr** əfsanəsi (LM-236).

Əmr-As (məc. an.) – Əmr ibn As böyük xəlifələr dövründə dördüncü xəlifə Əlinin əleyhinə olub, Müaviyəni xəlifəliyə layiq bilən hiyləgər diplomat olmuşdur. O, Əlinin on iki minlik qoşunu ilə vuruşan Müaviyəyə kömək edərək, Əlinin dinc yolla məğlub edilməsini təşkil etmişdi. Yəqin ki, Azərbaycan dilində "asi olmaq" ifadəsindəki "asi" bu "As" xüsusi adından yaranmışdır.

Şair Məcnun ilə Leylini görüşdürən və onların yanında oturan Zeydi Əmr-Asa bənzətsə də, ondan fərqləndirir.

Zeyd məhrəm kişiydi, həm də mehriban,
Əmr-As olmağı atıb ortadan,
Qapının ağzında o da halqatək,
Haman vəhşilərlə əyləşmişdi tək (LM-252).

Əmrə (ap.) – "Fərhadın dağ çaparaq ağlaması" hissəsində Fərhadın dilindən deyilən bu beytdə "Həcc" (bax) Şirinin Fərhadın görüşünə gəlməsinə işarədir. "Əmrə" sözü isə xüsusi yox, ümumi sözdür və "əmr" deməkdir, Şirinin Fərhada arx çəkmək haqqında verdiyi əmrə işarədir.

Ey ayım, gəlmirəm mən xatirinə
Həccdən, Əmrədən sonra da yenə (XŞ-197).

Əndülüs (top.) – İspaniyanın cənubunda böyük bir yerdir. Ərəblər VIII əsrdə İspaniya və Portəgizi fəth edərkən, bütün bu yerləri Əndülüs adlandırmışlar. Aşağıdakı beytdə isə söhbət İskəndərdən gedir.

Çəkdi Əfrəncəyə qoşunu ordan,
Sonra **Əndülüsə** oldu o rəvan (İ-528).

Ənqa (məc. mif.) – Şair Əflatunu əfsanəvi Ənqa quşuna bənzədir. Ənqa isə ərəb sözüdür və Qaf dağında yaşayan əfsanəvi bir quşdur.

Əflatun onlardan üz döndərərək
Yox oldu saraydan **Ənqa** quşutək (İ-467).

Ərdəşir Babəkan (an.) – Sasanın oğlu və Sasanilər sülalə-sinin müəssisi (226-240) sayılır. "Ərdəşir" sözü qədim türk dillərində işlənən "ər" və "şir" sözlərindən düzəlmiş, qüvvətli və şücaətli şir deməkdir.

Ərdəşir Babəkan adlı şah vardı,
Müdrik adamlara o şəhriyardı (XŞ-350).

Ərəb (top.) – Ərəbistan nəzərdə tutulur.

İstədi büsatı İranda qursun,
Ərəb də bu yolda ona baş vursun (İ-199).

Yəni şahlığını İranda etsin, eyni zamanda Ərəbistan da ona tabe olsun.

Ərəb (məc. et.) – Ərəb xalqının adı.

Tərazlıtək gözəldin, saçın həbəş saçıydı,
Hüsnün türkə, **ərəbə** bir elin xəracıydı (SX-88).

Yəni sənin həbəşlər kimi qara saçının ölkəsindən tutmuş tərazlılar kimi ağ üzünün üstündəki qara saqqal və bığa türklər kimi ağ, ərəblər kimi qara tüklər basqın ediblər.

Bu beytdən belə məlum olur ki, şair 30 yaşlarında ikən saçına və saqqalına dən düşüb, çallaşmağa başlayıb.

Ərəb atları (zo.) – Ərəbistanda yetişdirilən xüsusi at cin-sinin ümumi adı. Şair Ərəb atlarını tovuz quşuna bənzədir.

Yüklənmiş fillərdi – qaya gövdəli,
Cins **ərəb atları** – tovuz cilvəli (İ-96).

Ərəbi (zo.) – Bax: Ərəb atları.

Atlardan "**ərəbi**", "bəxti", "təkavər"... (LM-151).

Ərəstu (an.) – Rəstu, Aristotel də adlandırılan Ərəstu (e.ə.384-322) qədim dünyanın ən böyük filosofu, Marksin xa-rakteristikasına görə, "Antik dünyanın Hegelidir". Bir zamanlar İskəndərin tərbiyəçisi olmuşdur. Ölümünə az qalmış allahsız-lıqda ittiham edildiyindən Evbeya adasına qaçmağa məcbur ol-muş, orada da ölmüşdür. Ərəstu əsrinin bütün elmlərini sistem-ləşdirmişdir. Fəlsəfədə ən çox xidməti məntiq sahəsində olmuş-dur. Engelsin fikrincə, Ərəstu dialektik təfəkkürün bir sıra mü-hüm formalarını tədqiq etmişdir. Təsadüfi deyildir ki, Nizami "İskəndərnamə" əsərində onun obrazını yaratmışdı:

Ərəstu vəzirdi uca dərgaha
Hər yaxşı – yamanda mərhəmdi şaha (İ-71).

"**Ərjəng**" (id.) – Bu əsər haqında müxtəlif fikirlər mövcuddur. Guya məşhur rəssam Mani (bax) tərəfindən gözəl rəsmlərlə bəzədilmiş bir kitabdır. Bu kitabda o qədər gözəl şəkillər varmış ki, Mani onun Allah tərəfindən göydən göndərildiyinə xalqı inandırmışdı. Bir rəvayətə görə, guya Maninin rəsmləri, incəsənət əsərləri toplanan qalereyadır. Belə bir fikir də vardır ki, guya vaxtilə Çində mövcud olmuş bir bütxananın adıdır. Luşa, yaxud Təngluşa adlı bir Rum aliminin Maninin həmin kitabı müqabilində hazırlamış olduğu rəsmlər kitabıdır. Lakin Nizami isə həmin kitabın adını müəllifin adı ilə yanaşı işlətmişdir.

Qələmə mən naxış çəkən zamanda
Mani "**Ərjəng**"ini pozar bir anda (XŞ-68).

Burada Şapur özünü Mani ilə müqayisə edir.

Nizami Rum və Çin nəqqaşlarının yarış zamanı çəkdikləri rəsmləri metaforik şəkildə "Ərjəng"ə bənzədir.

Hər iki **"Ərjəng"**in birdi peykəri,
Vurduğu naxışı, rəngi, ziməri (İ-299).

Ərk (top.) – Rusların tərəfində İskəndərə qarşı vuruşan vilayətlərdən birinin adı. Ərk vulayəti Təbrizin mərkəzində yerləşən məşhur Ərk qalası ilə eyni adlara malikdir.

Alan, **Ərk** rusları edərək axın
Yağmurtək ölkəyə etmişdir basqın (İ-312).

Ərmən (top.) – Bax: Ermənistan. İran padşahı birinci Dariyuş Bisütun, Təxti-Cəmşid və Nəqşi-Rüstəmdə Ermənistan adını Ərmina şəklində yazdıraraq onu dövlətinin bir hissəsi kimi qələmə vermişdir.

Verib dünya mülkünü öz xalqının əlinə,
Həm **Ərmənə** hakimdir, həm də ki Rum elinə (SX-41).

Burada söhbət Ərzincan hakimi Bəhram şahdan gedir. Çünki Ermənistan, Rum – Bizans və Abxaziyanın bir hissəsi XII əsrdə Bəhram şahın hökmranlıq etdiyi Ərzincan vilayətinə tabe idi.

Ərmən dağları (top.) – Kiçik Qafqaz dağlarına işarədir.

Çox səhradan aşdı, çöllərdən keçdı,
Ərmən dağlarına gəlib yetişdi (XŞ-68).

Ərmənistan (top.) – Bax: Ermənistan və Ərmən.

Xosrov yetişməkçün o şux canana
Göndərdi Şapuru **Ərmənistana** (XŞ-87).

Ərş (mif. kos.) – Ərəb sözüdür, köhnə heyət elmində 9-cu göyün adıdır; qübbə, taxt, taxt-tac, ən uca göy və səma mənalarında da işlənir.

Ərş divangahını sürətlə keçdi (İ-26).

Burada Məhəmməd peyğəmbərin meraca getməsindən söhbət gedir. Əgər Ərş 9-cu göy mənasında işlənsə, mifoktematonim(mifik tarixi mədəniyyət nümunəsi) olur. Nizami isə "Ərş" sözünü hər iki mənada işlətmişdir.

Ərş – taxtını qurmağa cəlalına alçalar (SX-36).

Yəni 9-cu və ən uca göy merac zamanı Məhəmməd peyğəmbərə taxt qurmaq üçün onun cəlalına səcdə edər.

Ərşi-əla (mif. ktem.) – Dini etiqada görə, Allahın göyün 9-cu qatında təsəvvür olunan taxtı.

Məkkədən ucaldı **ərşi-əlayə** (İ-24).

"Ərtəng" (məc. id.) – "Ərjəng"(bax) adının fonetik cəhətcə dəyişdirilmiş forması.

Saray ki yurduydu o yeddi yarın,
Sanki **Ərtəngiydi** yeddi diyarın (YG-125).

Xəvərnəq sarayında şəkilləri çəkilmiş yeddi ölkənin gözəlləri "Ərtəng"ə bənzədilir.

Əsəd (kos.) – Əsəd bürcü. Ərəb sözüdür, şir və aslan deməkdir. Eyni zamanda qədim astrologiyada 12 bürcdən beşincisinin adıdır.

Əsədin pəncəsinə qolazlandı Sünbülə (SX-30).

Sünbülə bürcü Əsəd bürcündən sonra yerləşdiyi üçün şair bunları ardıcıl işlətmiş və Sünbüləni Əsədin pəncəsində təsvir etmişdir. Guya Məhəmməd peyğəmbər merac zamanı qədim astrologiyada xoşbəxtlik əlaməti olan Şir bürcünü tərifləmişdir.

Əsədin üzünə əlini çəkdi (XŞ-357).

Əsəd bürcü Bəhram Gurun taxta çıxdığı yerə bənzədilir.

Əsəddə qurmuşdu taleyi, taxtı,
Sabitdi, möhkəmdi olduqca baxtı (YG-94).

Yəni Bəhramın taleyi öz taxtını Əsəd – Şir bürcündə qurmuşdu, bu isə qüdrət rəmzidir.

Əsədi (an.) – Əbu Nəsr Əli ibn Əhməd Tusi(XI əsr) məşhur fars-tacik şairi olmuşdur. Ömrünün mühüm hissəsini Azərbaycanda (Naxçıvan və Gəncədə) keçirmişdir.

Əsədi, Budüləf bəxtiyar oldu (YG-32).

Əshabi-fil (xat. an.) – Ərəblər tərəfindən həbəşlərə verilən kollektiv ləqəb. Dini rəvayətə görə, müsəlmanların peyğəmbəri Məhəmmədin anadan olduğu 569-cu ildə Həbəş padşahı Ərəbistana gələrək, Kəbəni dağıtmaq məqsədilə Məkkəni mühasirəyə alır. Onun ordusunda müsəlləh hərbi fillər də var imiş. Lakin Allah onun üzərinə Əbabil quşlarını(dağ qaranquşları) göndərir. Bu quşlar dimdiklərində xırda daşlar gətirib, Həbəş qoşununun üstünə salırlar. Kimin başına bu daşdan düşürsə, o, yara çıxarıb ölür. Bu hadisə həbəşləri geri qayıtmağa məcbur edir. Hərbi fillər ərəblərə dərin təsir bağışladığı üçün o ili fil ili, onların sahiblərini isə əshabi(ərəbcə cahib deməkdir)-fil (fil sahibləri) adlandırırlar.

İstəsən əzilsin düşmənin beli,
Quşlarla qırarsan **əshabi-fili** (İ-12).

Əttar (an.) – "İqbalnamə" əsərində epizodik obraz adı.

Əttar soruşdu ki, bunlar nədir bəs?
Dedi: "Təbərrikdir, bilməsin heç kəs!" (İ-452).

Əvva (kos.) – İyirmi səkkiz Ay mənzillərindən biridir.

Əvva güvənərək beş qılıncına... (LM-185).

Əyyuq (kos.) – Kəhkəşanda ən yüksək nöqtədə dayanan bir ulduzun adıdır. Ona ulduzlar padşahı da deyirlər.

Əyyuqun zoruna, gücünə bax bir,
Tay-tuşdan tac alıb, bir baş yüksəlir (LM-185).

Əzəl (kos.) – Ulduz adı.

Simak ulduzları cərgəylə köçür,
Ramehdən **Əzəl**ə karvanla keçir (LM-186).

Əzra (məc. an.) – Bir çox şairlər tərəfindən təkrarən yazılmış "Vamiq və Əzra" dastanında Vamiqin sevgilisi, əfsanəvi bir

gözəlin adıdır. “ Əzra” ərəb sözüdür, bakirə (qız) və məşuqə kimi mənaları vardır. Şair çox vaxt onların adlarını yanaşı işlətmişdir.

O toy, gəlin otağı indi hardadır, harda?
Vamiq, **Əzra** hardadır? Məzardadır, məzarda! (SX-79).

Şair metaforik şəkildə Leylini Əzraya, Məcnunu isə Vamiqə (bax) bənzədir.

Əzraçün Vamiqtək düşmüşdü dərdə,
Gah dağda yaşardı, gah da çöllərdə (LM-91).

Əzra (kos.) – Sünbülə bürcünün adıdır və Əzra antroponimi ilə omonimdir.

Əzra kənar durmaz gözəl Sərfədən (LM-185).

- F -

Faruq (an.) – İslam ordusunun məşhur sərkərdəsi, ikinci islam xəlifəsi Ömərin ləqəbidir. O, haqqı batildən fərqləndirməmişdir.

Siddiq sədaqətə olmuşdur rəhbər,
Faruqi fərqdən azad bildilər (LM-35).

Feyləqus (an.) – Yunan ölkəsinin padşahı, İskəndərin atasıdır. Yunancası Filipusdur, lakin ərəblər onu Filiqus, Feyləqus şəklində işlətmişlər.

Yunan ölkəsinin padşahlarından
Vardı bir gənc dövlət, böyük hökmüran,
Şöhrətli şah idi, adı **Feyləqus,**
İtaət edərdi ona rum və rus (İ-61).

Feyləqus qəsri (top.) – Feyləqusun yaşadığı qəsr.

Feyləqus qəsrində bir gözəl varmış,
Bəzəkli gəlintək azad yaşarmış (İ-63).

Feyləqus oğlu İskəndər (an.) – Bax: İskəndər. Bu antroponimik birləşmənin birinci komponenti ata adı, ikincisi qohumluq bildirən termin, sonuncusu isə əsl şəxs adıdır.

Məclisdə **Feyləqus oğlu İskəndər**
O pəri qızlara salmadı nəzər (İ-222).

Fəğfur (an.) – Hərfən “Tanrı oğlu” deməkdir. Çin hüdudlarında yaşayan türk şahzadələrinin və Çin imperatorlarının titulu. “Ərəb və fars sözləri lüğəti”ndə isə “fəğfur” fars sözü hesab edilir və “çini, farfor; Çin imperatorlarının titulu, boqdıxan” kimi izah olunur.

Əgər “fəğfur” sözü rus dilinə “farfor” kimi keçmişsə, gör bu söz hansı dəyişikliyə məruz qalmışdır. Bizə elə gəlir ki, “fəğfur” türk sözüdür və iki kökdən ibarətdir: fəğ və fur. “Fəğfur” hərfən “Tanrı oğlu” və “boqdıxan” kimi izah olunursa, demək, bu sözün birinci komponenti olan “fəğ” – Tanrı və ya Bağ, Boq deməkdir. Tanrı və Bağ türk dillərində, Boq isə ruslarda Allah deməkdir.

Son vaxtlarda “boq” sözünün türk dillərində olan “bay”, “bəy”, “bek”, “bik” sözlərindən düzəlməsi haqqında geniş tədqiqatlar aparılmaqdadır. “Bəy” isə böyük, başçı, rəhbər, idarə edən və s. kimi mənalar bildirir. Demək, “Bağ” sözündən düzələn “Boq” ilə “Tanrı” sinonim teonimlərdir. “Fəğ” isə “Boq” (daha doğrusu, “Bağ”) adının Çin, sonra isə ərəb və fars dillərində fonetik cəhətcə dəyişdirilmiş formasıdır. B – p – f və y – ğ – q səslərinin bir dildən başqa(hətta türk dillərində də) dilə keçərkən dəyişilməsi təbii haldır.

Türk dillərində “sarı” sözü rəng bildirməkdən əlavə, sar (şahinlər sinfinə mənsub olub, quruda və suda yaşayan quşdur. Qədim türklərdə totem olmuşdur), sar (qağayı), qızıl, Günəş, parlaq, parıltı, parıldamaq, parlamaq və s. mənalarını da bildirir. Bizə elə gəlir ki, parlaq, parıltı, parlamaq və s. kimi sözlərin əsasında “par” sözü durur. Rus dilində buxar mənasında olan bu söz öz formasını qoruyub saxlamışdır. Əgər “parlamaq” felini sözaçımı baxımından izah etsək, “par” Azərbaycan dilində əvvəlki mənasına uyğun mənasız səs toplusunu andırır. Hazırda dilimizdə parlamaq, parıldamaq felləri, parlaq, parıltı, par-par (parıldamaq) sözləri varsa və onlar işıqlı, işıq saçmaq, işıltı və s. mənalarını ifadə edirsə, demək, vaxtilə dilimizdə müstəqil mənaya malik “par” sözü də olmuşdur. Və o, şüa mənasında işlənmişdir. Şüa isə ərəb sözüdür, Günəşdən və işıq mənbəyindən gələn işıq tellərindən hər biri kimi izah olunur.

Nücum elmində və Şərq poeziyasında “sarı” eyni zamanda yeddi planetdən (bax: Yeddi qardaş) biri olan Günəşin adıdır. “Yeddi qardaş”ın digər planetlərinin hərəsi bir rəngin(qırmızı, qara, ağ və s.) rəmzi məna daşısalar da, sarı rəngdədirlər və onları da Günəş işıqlandırır və sarı edir.

Demək, “par”(parlaq, parıltı, parlamaq) sözü sarı rəng yox, onun bir hissəsini, yəni şüasını əhatə edir.

“Par” sözünün fonetik dəyişikliyə uğramış forması olan “fur”, ərəb və fars dillərində olan “fər” və ya “fərr” lüğətlərdə elə “parlaqlıq, işıq, nur, aydınlıq – gözün işığı, bəzək, zinət (Dünyanın bəzəyi isə Günəşdir) və s. kimi izah olunur. Eyni zamanda “fər”(və ya fərr) ərəb və fars sözləri kimi göstərilir. Məlumdur ki, “fər”in ərəb dilində budaq, qol-budaq, şöbə, əsas olmayan və s. kimi mənaları da vardır. Bunların hamısı şüa mənasında olan “par” sözü ilə uyğun gəlir. Rus dilindəki “par” (buxar) sözü də “əsas olmayan” kimi izah olunmuşdur.

Fars dilində pəri, qanad mənasında olan pər(əsas olmayan, şüa kimi əsasdan ayrılan mənasındadır), kəpənək mənasında olan pərvanə, gözəllər yurdu mənasında olan Fərxar, Allah mənasında olan pərvərdigar, Firidun(fər və od sözlərindən düzəlmiş və odun şüası deməkdir), Fərhad(fər və od sözlərindən düzəlmiş və odun şüası deməkdir), yunan dilindəki fara və başqa sözlərdəki pər və fər də par sözündən düzəlmiş, bu və ya digər cəhətcə “parıltı” sözü ilə əlaqədardır.

Fars dilində “für”ü “fər”in cəmi(budaqlar, şöbələr) hesab edirlər. İşıq, nur, ziya, şölə mənalarını bildirən “füruğ” sözünü də ərəb sözü kimi aydınlaşdırmışlar. Bizə elə gəlir ki, tərkibində pər, fər, fir və s. ərəb və fars sözlərinin hamısı türk dillərinə mənsub olan “par”dan əmələ gəlmişdir. Lakin bunlar bir-biri ilə o qədər qaynayıb-qarışmışdır ki, onların mənşəyinin izahı ziddiyyətli görünə bilər.

Zərdüştilərin dini təliminə görə, şahın başının ətrafında Ahuramazdanın (atəşpərəstlərin allahı) haləsi olmalı idi və həmin haləyə fərr deyərdilər. “Halə” ərəb sözüdür və Ayın ətrafında görünən parlaq dairə deməkdir. Əgər “fər” Ay və Günəş

şüasını andıran halə(dairə) şəklində olurdusa, demək, şahın tacı da Günəş və ya Ay formasında olmalı idi.

Beləliklə, “Fəğfur” adı “Tanrı oğlu” mənasında olan “Günəş parıltısı” (şüası) deməkdir. Günəş – Tanrı, parıltı – şüa isə onun oğludur.

Yəqin ki, qədim Misir hökmdarlarının adı olan Firon (Faraon, Firovn) adındakı “fir”(far) sözü “fur”la bağlıdır, “on” hissəciyi isə cəmlik bildirən ünsürdür, Firon – Furlar(bax) deməkdir. Bax: Zərdüşt, Qeycər.

“Xəmsə”də Çin dedikdə, Çin hüdudlarında yaşayan türklər, Fəğfur (şifahi xalq ədəbiyyatında isə Fəxfur, Pəxpur və s.), Çin xaqanı dedikdə isə onların hökmdarları nəzərdə tutulur.

Verdiyi peymana edib xəyanət,
Fəğfur göstərmədi əhdə sədaqət (YG-275).

“Xəmsə”nin “İzahlar”ında və digər mənbələrdə “fəğfur” gah qədim türk şahzadələrinin, gah da Çin imperatorlarına verilən titul kumi izah olunsa da, bu, xalis türk mənşəli sözdür, Çin, ərəb, fars və digər dillərə də fonetik dəyişikliyə uğrayaraq keçmişdir.

Fəğfur (məc. an.) – Fəğfur Atabəy Məhəmmədin quluna bənzədilir.

O elə bir şahdır, onun hər zaman
Qapısını öpür **Fəğfurla** Xaqan (XŞ-35).

Fəlatus (top.) – Bir şəhərin və ya yaşayış yerinin adıdır ki, oranın xalqı bacarıqsızlıq və acizliklə məşhur imiş.

Əflatun, **Fəlatus** xalqıtək nadan
O yerdə əskikdi bir aciz rusdan (İ-328).

Fələkəddin Əhməd (an.) – Marağa hakimi Körpə Arslan şahın kiçik oğlu. Atasının ölümündən sonra cəmi bir ay (IV-1208) Marağa və Ruyindiz qalasına hökmranlıq edib.

Bu antroponimik birləşmədə birinci komponent dini fəxri ad (“fələk” - ərəbcə göy, asiman; qədim münəccimlərin etiqadına görə, hər bir səyyarəyə məxsus olan göy təbəqəsi deməkdir. “Fələkəddin” isə “dinin səması” mənasında işlənir), ikinci komponenti isə əsl addır. Görünür ki, Körpə Arslanın ikinci oğlu, dini fəxri adı Fələkəddin olan Əhməd astrologiya ilə məşğul olurmuş.

Rasidlər deyir ki, qeyd etmiş fələk,
Fələkəddin Əhməd adlansın gərək (YG-37).

Fələknaz (an.) – "Xosrov və Şirin" poemasında obraz adı. Fələk (göy, asiman; bəxt, tale deməkdir) və azərbaycanca naz sözlərindən düzəlmişdir.

Fələknaz dedi bir gözəl əfsanə... (XŞ-129).

Fələstin (top.) – Qərbi Asiyada tarixi vilayət. E.ə. XI əsrdə Fələstinin müəyyən hissəsini təşkil edən yəhudi tayfaları İsrail – Yəhudi padşahlığının əsasını qoymuşdur. E.ə. 928-ci ildə İsrail padşahlığına və Yəhudi padşahlığına parçalanmışdır. Fələstin e.ə. VI əsrdən Əhmənilər dövlətinin, e.ə. III-II əsrlərdə Ptolomeylər və Suriya Selevkilərinin, e.ə. 63-cü ildən Romanın, 395-ci ildən Bizansın, VII əsrdən ərəblərin, XI əsrdən səlibçilərin, XII əsrdən Misir sultanlığının, XVI əsrdən Osmanlı imperiyasının tərkibində idi. 1917-ci ilə qədər İngilislərin əsarətində olmuşdur. 1948-49-cu illərdə Fələstinin böyük hissəsini İsrail hərbçiləri zəbt etdi, qalan hissəsi isə Misir, İordaniya, Suriya və b. dövlətlər arasında bölüşdürülmüşdür.

Firənglə **Fələstin**, Rum keşişləri
Verdiyi buyruqdan durmazlar geri (İ-296).

Fələyin Cövzası (kos.) – Cövza bürcü. Bax: Cövza.

Bağlayaraq **fələyin Cövzasına** baxtını,
Qoz sındırıb cevizdə, qozda sına baxtını (SX-133).

Qədim astroloji təsəvvürə görə, Cövza bürcü taleyində (22 may – 22 iyun) anadan olmuş adamlar xoşbəxt olurlar. Cövz – qoz səs və tələffüzə görə cövza sözünə həmahəng olduğuna görə qədim zamanlarda çoxuşaqlı şahlar qozla fala baxarmışlar. Bundan ötrü bir kisə qoz yığıb hər şahzadəyə eyni ədəd qoz verərmişlər, kimin qozlarının hamısı saf çıxsa, onu varis və vəliəhd edərmişlər.

Beytin məzmunu: xoşbəxt və bəxtəvər adamlarla dur, otur ki, xoşbəxt olasan(SX-189).

Fəramərz (xat. an.) – "Şahnamə" qəhrəmanlarından biri. Qədim İran şahlarından Bəhmən(bax) tərəfindən günahsız yerə öldürülmüşdür.

Zal oğlu söyləmiş mərd **Fəramərzə:**
"Könlünü qırma, sal Əlbürzə lərzə (İ-166).

Fəramərz, Bəhmən (qoşa xat. an.) – İskəndərin Fəribərzə (bax) verdiyi suallarda Bəhmənin(bax) Fəramərzi öldürməsini xatırladır.

Bu sirri aç mənə, qoca pəhləvan,
Neçin **Fəramərzi** öldürdü **Bəhmən**? (İ-167).

Fərat (məc. top.) – Qərbi Asiyanın ən böyük və mühüm çaylarından biridir. Türkiyə dağlarından axıb Mesopotamiyanı keçir, burada Dəclə ilə birləşərək Bəsrə(Fars) körfəzinə tökülür.

N.Nəbiyevin fikrincə, Fərat Aramey dilində "şirin su", "möhtəşəm çay", "çaylar atası" kimi izah olunsa da, onun "sel" mənasında olması haqqında fikirlər də söylənilir. Zənnimizcə, "Fərat" – "fər" və "od"(Bax: Fəğfur) sözlərindən düzəlmiş və Fərhad adı ilə əlaqədardır, hər ikisi eyni mənaya malikdir.

Məhşərdə oxunanda guya cəza fərmanı,
Sorğu-sual etməyə gətirirlər səhranı.
Deyirlər: - Sən qanını içmisən heyvanların,
Təşnəsisən tökülən, axan nahaq qanların.
Yoxsa, dirilik suyu həyat verməz quşuna,
Səhrasan, **Fərat** nəhri axıb-gəlməz şumuna (SX-81).

Qiyamət günü səhranı ortaya çıxarıb ondan hesabat tələb edərək soruşacaqlar: "Ay cani, sən sinəndə çağlayan çeşmələr ürəyi yaralı biçarələrin ciyər qanını sormusan, yoxsa bu qumlu səhra hara və dirilik suyuna bənzər bulaqlar hara?

Ərzincan hakimi Bəhram şahın tökdüyü qanlar Fərat çayına bənzədilir.

Fərat nəhri yaratdı qanlar tökən qılıncın (SX-42).

Xosrov metaforik şəkildə Şirini Fərat çayına bənzədir.

Bahar tapdım, bir bar dərmədi əlim,
Fərat gördüm, suya dəymədi dilim (XŞ-93).

Şirvanşah Axsitan Fərat çayına bənzədilir.

Şahımız dənizdir, **Fərat**dır, lakin
Dəryası axandır, **Fərat**ı sakin (LM-55).

Şair "Fərat" adını təkrar etməklə onu müxtəlif vəziyyətdə göstərmişdir.

Fərat, Nil (qoşa məc. top.) – Şair eyni vaxtda Nüsrətəddin Əbubəkrin səmimiyyət və dostluğunu Fərat, kinini, qəzəbini isə Nil çaylarına bənzədir. Burada Fərat və Nil toponimləri ifadə etdikləri mənalara görə antonim qütblər yaradır.

Fərattək səmimi bir dostluğu var,
Nil kimi düşməni gizlində boğar (İ-48).

Yəni Nüsrətəddinin dostluğu Fərat çayının suyu kimi şirin və aşkardır. Düşmənini də, guya tanrı düşmənlərini boğub gizlədən Nil çayı kimi xəbərsiz məhv edəndir.

Fərd (kos.) – Yalqızaq ulduzunun ərəbcə adı. Hərfi mənası "cüt olmayan; tək, yalqız" deməkdir.

Yalqız adam kimi **Fərd** adlı ulduz
Cənubun üstündə parlayır yalqız (LM-186).

"**Fərəs", "Rüx", "Fil"** (məc. on.) – Şahmat fiqurlarının adları.

"Fərəsi" "Rüx" ilə ayaqdan salır,
"Fərəs"lə "**Fil!"**i də cəbhədən alır (İ-306).

Yəni (şahmat oyununda olan kimi) düşmənin atını (ərəbcə Fərəs) topla vurur, Filini də atla aradan çıxarır.

Fərfuryus (an.) – Obraz adı. İskəndərlə xəlvətə çəkilən yeddi alimdən biri.

Alim **Fərfuryus** da təzim eylədi,
Torpağı öpərək belə söylədi... (İ-497).

Fərfuryus, yaxud Porfir (233-304) məşhur alim və filosofdur. Suriyalıdır. Əsl adı Məlikdir. Təhsilini yunanca almış, əsərlərini də yunanca yazmışdır. Ərəstunun "Məntiq"inə yazdığı "Mədxəl" məşhurdur. Bu əsər məntiq haqqında ən mühüm kitab kimi orta əsrlərdə çox öyrənilirdi. 1937-ci ildə ruscaya da tərcümə edilmişdir. Onun "Xristianlar əleyhinə on beş kitab"ı da məşhurdur.

"Porfir" və ya "Fərfuryus" – "Fərfur" adının fonetik dəyişikliyə uğramış, yunanlaşdırılmış variantıdır. "Fərfur" isə "fər" (Azərbaycan dilindəki parlaq, parıltı, parlamaq və s. sözlərindəki "par" olub, işıqla, odla, əlaqədardır), "fur" ("par"ın cəmidir) sözlərindən düzəlmişdir(Bax: Fəğfur).

Fərhad (an.) – "Xosrov və Şirin" poemasında obraz adı.

Dedi: **Fərhad** adlı bir cavan vardır,
Usta mühəndisdir, bir sənətkardır (XŞ-183)

Fərhad İran əsarətindən qurtarmaq üçün üsyan qaldırmış 9 böyük ölkənin padşahlarından biri olmuşdur. İran padşahı Dariyuş Fərhadın ordusuna qalib gəldikdən sonra onu tutub, burnunu, qulaqlarını, dilini kəsir, gözlərini çıxartdırır və sarayının qarşısında buxovlanmış halda saxlayır. Sonra Ekbatanda Fərhadı və onun tərəfdarlarını payaya keçirtdirir.

Dariyuş (Dara) Bisütun (Baqestan – Allahlar məkanı) dağında 9 üsyançı padşahın şəklini çəkdirir və onlarla əlaqədar hadisələrin mətnini həkk etdirir.

Daha sonralar "Baqestan" (Zənnimizcə, bu addakı "baq" sözü türk dillərindəki "bağ, bəy, bek, bik, boq" və s. sözlərlə əlaqədardır. Bax: Fəğfur) sözünün özü anlaşılmaz formada Bisütun şəklinə düşdüyü kimi, Fərhad da əfsanələşmiş, başqa əfsanələrlə birləşmiş, bu yerlərdə daha qədimdən məşhur olan Şammuramata – Şəmira (bax) və Şirin (bax) ilə əlaqələnmiş, yeni bir əfsanəyə çevrilmişdir. Azərbaycan ədəbiyyatı tarixi. I c. Bakı, 1960. səh.33-35).

Nizami bu xalq qəhrəmanının adını əbədiləşdirmək məqsədi ilə "Xosrov və Şirin" poemasında onun ölməz obrazını yaratmışdır. "Fərhad" adının Fravart – Fraort adının fonetik cəhətdən dəyişilmiş forması hesab edirlər .Lakin bizə elə gəlir ki, bu ad da "fər, par, od, işıq , od işığı" və s. sözlərlə əlaqədardır.

Fərhad (məc. an.) – Xosrov Şirini Fərhada bənzədir.

Xosrovun başına tökmə daşları,
Fərhad kimi çəkmə daşlığa sarı (XŞ-271).

İkinci misranın mənası:Fərhad kimi tərslik etmə.

Fərhad, Şirin (qoşa məc. an.) – Klassik Şərq ədəbiyyatında bu adlar Leyli və Məcnun, Vis və Ramin, Vərqa və Gülşa adları kimi həmişə yanaşı işlədilmişdir. Nizami də "Xəmsə"də yeri gəldikcə bu aşiq və məşuqun adlarını böyük məhəbbətlə xatırlamış, onların obrazını yaratmaqla yanaşı, bu adlardan bənzətmə adlar kimi də istifadə etmişdir. Şair Fərhadı sarı gülə, Şirini isə nəsrinə bənzətmişdir.

Fərhad öldü getdi, sağ olsun Şirin,
Sarı gül soldusa, var olsun nəsrin (XŞ- 214).

Rus şahzadəsi darvazanın üstündəki Qala gözəlinin (bax) şəklinə baxarkən məhəbbət cəfakeşləri olan Fərhad və Şirini xatırlayır.

Baxdıqca surətə hey dərin-dərin,
Yadına düşərdi **Fərhadla Şirin** (YG – 199).

Fərxar (məc. top.) – Şərqi Türküstanda yerləşən bir vilayətdir. Qənirsiz gözəlləri ilə şöhrətlənən bir ölkə kimi məşhurdur. Fərxar eyni zamanda Tibetdə bütpərəstlərin ibadətgahı olmuş bir bütxana adıdır. Qədim səyyahlar bu əzəmətli bütxanə və qəsrin qarşısında heyran qalmışlar.

Şair Mədaində olan Şah qəsrini Fərxar qəsrinə bənzədir.

Orda şahın **Fərxar kimi** qəsri var,
Orda yaşayırlar cariyə qizlar (XŞ-81).

Lügətlərdə "Fərxar" – gözəllər yurdu; bəzək, zinət mənalarında olan fars sözü kimi izah olunmuşdur. Lakin əslində, "fər" və "xar" sözlərindən ibarət olan Fərxar – Xar gözəlləri deməkdir. Çünki "fər" (par sözündən olub, ağ üz, gözəl mənasında işlənmişdir) və ya "fərlər"(fur) işıqla, Günəşlə əlaqədardır(Bax: Fəğfur). Xar (bax) isə toponimdir, yurd, yer, məkan mənasında işlənmişdir.

Fərxar Cənnətə bənzədilir.

Fərxarə bənzəyən istək evindən
Tez hazır olurdu hər istənilən (I-305).

Yəni məclisdə Fərxar şəhərində olan kimi, hər kəs öz istədiyinə o saat nail olurdu. Cənnətdə həmişə hər şey arzu edilən dəqiqədə hazır olan kimi, orda da hər şey hazır idi.

Fərxar, Fəğfur (qoşa məc. on.) – Xosrov Fəğfur dedikdə özünü, Fərxar dedikdə isə Şəkəri nəzərdə tutur. Metaforik bənzətmədən aydın olur ki, Xosrov artıq Şəkərin ona layiq olmadığına işarə edir.

Fərxari, Fəğfura bağladın, yetər!
Mülyan körpüsünü qırdın, nə səmər? (XŞ-263).

Fəribərz (an.) – Obraz adı. "İskəndərnamə"də Daranın məşhur, ağsaqqal pəhləvanlarından biri.

Həsəbi, nəsəbi, Zəngə - Şaviran.
Adı **Fəribərzdi**, gövdəsi bir dağ,
Bücudu poladdı, qolu bir çomaq (İ-124).

Fərincə (an.) – Alanlı pəhləvanlarından birinin əsl adı. Fikrimizcə, bu ad da "fər"(Bax:Fəğfur) və incə sözlərindən yaranmışdır.

Qılıncda, qədəhdə, şöhrətli, şanlı,
Fərincə adında, özü alanlı (İ-334).

Fərqanə (top.) – Orta Asiyada bir ölkədir. Hazırda Özbəkistan ərazisinə daxildir.

Fərqanə, Pəncabı qoruyan, güdən
Hüdudun sınanmış igidlərindən (İ-274).

Tədqiqatlarda Fərqanə vadisi və eyni adlı silsilə və şəhər adı tacik dilindəki "parğana" (dağ arası çökəklik) sözündən yarandığını qeyd edirlər(19 – 252). Lakin bizə elə gəlir ki, "Fərqanə" adı "fər" (Bax: Fəğfur) və "qan" (xan) sözlərindən düzəlmişdir.

Fərqəd(kos.) – Şimal qütbünə yaxın olan iki kiçik və parlaq ulduzdan biri.

Fərqəd öz atını çapırdı yenə (LM-183).

Fərruxbehişt (top.) – Şəhər adı. Bu ad "fər" (Bax: Fəxfur), "rux"(üz) və Behişt sözlərindən düzəlmişdir. Səfər zamanı İskəndərin keçdiyi şəhərlərdən biridir.

Yaşıllıq içində gördü bir şəhər,
Ona **Fərruxbehişt** deyirlər türklər (İ-552).

"Fərrux-ruz" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"Fərrux-ruz" nəğməsi oxunan dəmdə
Zaman qalib çıxar, qalmazdı qəmdə (XŞ-168).

Fil, Hindistan (qoşa məc. ap. və top.) – Fil apelyativ zoonim, Hindistan isə toponimdir. Fillərin vətəni Hindistan olduğu üçün onların adları çox vaxt yanaşı işlədilir. Buna görə də şair Xosrovu filə, İranı isə fillərin məskəni olan Hindistana bənzətmişdir.

Bir qasid tələsik gəlib yanaşdı,
Filə Hindistandan hekayət açdı (XŞ-109).

Yəni qasid Xosrova (filə) İrandan (Hindistandan) məlumat verdi.

Guya fillər ölüm təhlükəsini hiss etdikdə, ölmək üçün öz vətənləri olan Hindistana gedirlər.

Bilmədilər, edib vida bostana,
Yönəlib gedibdir **fil Hindistana** (YG-300).

Burada isə Bəhram Gur metaforik şəkildə filə, onun yox olduğu mağara da Hindistana bənzədilir.

Firdovsi (an.) – Məşhur "Şahnamə" əsərinin müəllifi Əbülqasım (Bu, şairin əsl adı deyil, künyəsidir, "Qasımın atası" deməkdir) Firdovsi (Onun təxəllüsüdür). Xorasanın Tus şəhəri yaxınlığındakı Baj kəndində 934-cü ildə anadan olmuş, 1020-ci ildə orada vəfat etmişdir. Şair atasının peşəsinə(Yəqin ki, atası bağban imiş) hörmət əlaməti olaraq bağ, cənnət, behişt mənası verən "Firdovs" sözünü özünə təxəllüs götürmüşdür.

O, Sultan Mahmud Qəznəvinin (bax) sifarişi ilə "Şahnamə" əsərini 30-35 ilə yazmışdır. Şah bu əsərin hər beytinə bir qızıl vəd etmişdi, lakin əsər qurtarandan sonra Sultan Mahmud şairə qızıl əvəzinə, gümüş verdikdə şair hiddətlənir və ona bir həcv yazır və öz doğma vətəninə qaçır.

Sultan Mahmud öz hərəkətindən peşman olub, qızılları dəvələrə yüklədib Firdovsiyə göndərir. Lakin dəvələr Tus şəhərinin bir darvazasından şəhərə daxil olanda, Firdovsinin tabutunu o biri darvazadan qəbiristanlığa aparırdılar. Bu qızıllar sonralar Firdovsinin vətəni Baj kəndini basan çaya bənd vurulması işinə xərclənir.

Soltan Mahmud ilə şair **Firdovsi**
Andırır nisbətdə Əqrəblə Qövsi (YG-32).

N.Gəncəvi "Xəmsə"nin bir çox yerində bu böyük şairi hörmətlə yad etmiş və onu yüksək qiymətləndirmişdir.

Firdovsi (məc. an.) – Şair hökmdarın dilindən özünü Firdovsiyə bənzədir.

Çəkdiyin əməyə verməsək dəyər,
Səni **Firdovsi**tək incitsək əgər (XŞ-32).

Firəng (top.) – Şərq ölkələrində Fransa və digər Avropa ölkələrinə verilən ad.

Firənglə Fələstin, Rum keşişləri
Verdiyi buyruqdan durmazlar geri (İ-395).

Firəngiz (an.) – "Xosrov və Şirin" əsərində obraz adı. Farsca "işıq saçan, nur səpən" deməkdir. Göründüyü kimi bu ad da "fir" – "par"(od, işıq) ilə əlaqədardır(Bax: Fəğfur).

Birinci **Firəngiz** dedi: "Bir zaman... (XŞ-129).

Firidun (an.) – "Firidunla ceyranın hekayəti"ndə obraz adı. "Firidun" adı "fir"(Bax: Fəğfur), "id"(od) sözlərindən və ikinci şəxsin təkinin mənsubiyyət şəkilçisindən düzəlmiş, "sənin Allahının – Günəşinin, odunun işığı" deməkdir.

İki-üç dostu ilə səhər çağı **Firidun**,
Seyrə çıxıb dolaşdı gen ovlağı **Firidun** (SX-98).

Firidun("Xəmsə"də bu ad gah Firidun, gah da Firudin şəklində yazılmışdır. Lakin bu adın "Firudin" formasında yazılışı daha məqsədə uyğundur) – İranın qədim əfsanəvi şaharından biri, Cəmşidin nəvəsidir. Pişdadyan sülaləsinin YI hökmdarı hesab olunur. Atibinin oğludur. Atasını Zöhhak öldürdükdən sonra anası onu bir kəndliyə vermiş, o da Firidunu "Gavpürmayə" adlı bir inəyin südü ilə bəsləmişdir. Firidun 16 yaşına çatdıqda guya Gavə üsyanına qoşulmuş(Çox maraqlıdır ki, inək və şəxs adları da bir-biri ilə əlaqələndirilmişdir), Zöhhak öldürüldükdən sonra isə şahlığa keçmişdir. O, özünü ikinci Zərdüşt (bax) adlandırmış(Bu, onun "odun – Günəşin işığı" mənasında olan adına da uyğun gəlir) adlandırıb, qədim atəşpərəstlik dinini zəmanəsinin tələblərinə tamamilə uyğunlaşdırmışdır. "Şahnamə"nin qəhrəmanlarındandır.

Gəlsə sənlə işrət **Firudinin** arına,
Başı, beyni yem olsun Zöhhak ilanlarına (SX-43).

Qarğış mənalı bu beytdə şair Firudini Ərzincan hakimi Bəhram şahın məclisində olan əyanlara bənzədir. Müqayisədə üstünlük Bəhram şaha verilir. Aşağıdakı beytdə isə bütün dünya hökmdarları Firudinlə müqayisə olunur.

Firudinə bərabər sultan hanı cahanda?
Min ətiri duymağa imkan hanı cahanda? (SX-140).

Şair Məlik İzzəddini Kəsra – Key taxtında oturan Firudinə bənzədir.

Kəsra-Key bəzmində o tutub qərar,
Olub **Firiduntək** xoşbəxt hökmüdar (İ-608).

Firidun, Cəm (qoşa məc. an.) – Ayaqlar altında can verən Daranı şair Firidun və Cəmə(bax) bənzədir. Cəmşid ata, Firidun isə onun oğludur.

Firidun baharı, **Cəmin** bağçası
Xəzana uğramış, başlamış yası (İ-153).

Firidun, Cəmşid (qoşa məc. an.) – Atabəy Əbu Cəfər Məhəmməd Eldəgiz eyni vaxtda Firidun və Cəmşidlə müqayisə olunur.

İkinci **Firidun,** yeni **Cəmşidsən,**
Yanlış bənzətmədir, səhv elədim mən.
Firiduna südü vermişdir inək,
Sənsə bəxtiyarsan, igidsən şirtək.
Cəmşidi öldürmüş Zöhhak ilanı,
Sənə göy əjdəri vermişdir canı (XŞ-39).

Sonuncu beytin mənası: Özünə qürrələnən Cəmşidi Zöhhak məhv etdi. Lakin göylər sənə can bəxş etdiyi üçün əbədi yaşayacaqsan.

Şair aşağıdakı beytdə Firidun taxtı və Cəmşid tacı dedikdə, bütün İran səltənətini nəzərdə tutmuşdur.

Firidun taxtından, **Cəmşid** tacından
Görülməmiş daim bəhrələr alan (YG-88).

Firidun, Gavə bayrağı (qoşa məc. on.) – Taysız gözəl(bax) özünü Gavə bayrağına, İskəndəri isə Firiduna bənzədir.

Şah qızıl çəkməli **Firidunsa,** mən
“Gavə bayrağıyam”, onu fəth edən (İ-368).

Firidun, Keyxosrov (qoşa məc. an.) – Şair eyni zamanda Körpə Arslan şahın oğlanları olan Məlik Məhəmməd və Fələkəddin Əhmədi Firidun və Keyxosrova bənzədir.

Biri **Firiduntək** bilikdə dərin,
Biri **Keyxosrovtək** at çapar yeyin (YG-37).

Firidun, Keyqubad (qoşa məc. an.) – Girdibadın(tufan, qasırğa deməkdir) gətirdiyi zərrə Firidun və Keyqubada bənzədilir.

Bir zərrə gətirsə əgər girdibad,
O, bir **Firidundur,** ya da **Keyqubad** (XŞ-209).

Firidun, Sultan, Cəmşid (qrup məc. an.) – Eyni zamanda Məhin Banunun təxti Firidun təxtinə, Xosrov Sultana, Şirin isə Cəmşidə bənzədilir.

Firidun təxtinə əyləşdi **Sultan**.
Cəmşid qəbiləsinə bağladı iman (XŞ-127).

Firidun, Zöhhak (qoşa an.) – Zöhhak adı "Xəmsə"də ən çox Cəmşid və Firidun adları yanaşı işlədilir. Çünki Firidun Cəmşidin oğludur. Zöhhak Cəmşidi öldürmüş, onun yerində şah olmuş, Firidun isə Gavənin köməyi ilə Zöhhaka qalib gəlmiş və taxta çıxmışdır.

Gəlsə sənlə işrət **Firudinin** arına,
Başı, beyni yem olsun **Zöhhak** ilanlarına (SX-43).

Firidun, Zöhhak, Cəmşid(qrup xat. an.) – Şair bu hökmdarları xatırlamaqla bütün insanların ölümə məhkum olduqlarına işarə etmişdir.

Nə oldu **Firidun, Zöhhak** və **Cəmşid?**
Hamı torpaqdadır, ey aqil, eşit! (XŞ-347).

Firiduni-Fərhəng (xat. an.) – Firiduna işarədir. Görünür, "Fərhəng" Firidunun ləqəbi olmuşdur. "Fərhəng" adı iki sözdən ibarətdir: "Fər" – sarı, sar sözü ilə bağlı olan "par"(bax: Fəğfur) deməkdir. "Həng" isə fars sözü olub qədr, qədr-qiymət; miqdar; zor, güc, qüvvət; ağıl, dərrakə kimi mənaları vardır. "Fərhəng" – "ağıllı, qüvvətli hökmdar" mənasını verir.

Hanı Rüstəmi-Zal, Simürğ ilə Sam,
Firiduni-Fərhəng, o Cəmşid və cam? (İ-168).

Şair burada Rüstəmi-Zal, Simurq, Sam, Firidun, Cəmşid adlarını xatırlamaqla dünyanın faniliyinə işarə edir.

Firon (an.) – Qədim Misir padşahlarına verilən ümumi addır. Bəzən bu ad yəhudi peyğəmbərlərini təqib edən və allahlıq iddiasına düşən qədim Misir hökmdarlarına verilir. Mənbələrdə Firon, Firovn, Faraon kimi qeyd olunan bu ad, adətən, ərəb sözü

kimi izah olunur. Bizcə, bu ad da "fir"(Bax: Fəğfur) sözündən və çoxluq və cəmlik mənası bildirən "an, on" hissəciyindən ibarət olub, Furlar deməkdir.

Endi fil belindən, durdu Nil kimi,
Çağladı **Firona** döğru Nil kimi (İ-297).

Şair burada İskəndəri(bax) Firona, Çin xaqanını (bax) isə Nilə bənzətmişdir.

Firuzə rəngli günbəd (top.) – Qədim astroloji anlayışa əsasən Firuzə rəngli və çərşənbə gününü ifadə edən Ütarid (Merkuri) planetinin adı ilə əlaqədar belə adlandırılmışdır. Bu günbəddə beşinci iqlim padşahının qızı yaşayırdı.

Ona ki Ütarid vermişdi nemət,
Firuzə rəngindən yetmişdi zinət (YG-133).

Fitnə (an.) – "Yeddi gözəl" poemasında obraz adı. Fitnəkar, hiyləgər, bic mənasında olan bu adın poetik yükü ilə həmin obrazın fəaliyyət və səciyyəsi bir-birinə uyğun gəlir. Şair bu adın mənasını belə açır:

Soruşsanız onun siz: nədir adı?
Bu şən fitnəkarın **Fitnədir** adı (YG-102).
Dövlət sarayında o bir fitnədir (YG-104).

Fitnə milliyyətcə türkdür. Şair onu "çinli kəniz" də adlandırır. "Xəmsə"də isə Çin türk xalqlarının dövləti kimi təsvir olunmuşdur.

Fövr (an.) – Bax: Fur. Bizə elə gəlir ki, bu ad "Fur" sözünün fonetik cəhətdən dəyişikliyə uğramış formasıdır.

Ordumu çəkərəm uzaq səfərə,
Bir qılınc vuraram **Fövrə** bir kərə (İ-260).

Fum (an.) – İskəndərin(bax) pəhləvanlarından birinin adı.

Sipənd Xorasandan, **Fum** da İraqdan... (İ-324).

Fur (an.) – Hindistan(bax) vilayətlərindən biri olan Qənnuc(bax) padşahının adıdır.

İskəndər azacıq dincəlib durdu,
Furun torpağında xeyməni qurdu (İ-269).

Zənnimizcə, "Fur" adı "Fəğfur"(bax) adındakı "fur"la əlaqədardır.

Furək (an.) – "Yeddi gözəl" poemasında Xəvərnəq sarayında şəkli çəkilən gözəllərdən biri. Hind şahının qızı. "Furək" adı Hindistanda (bax) Qənnuc (bax) padşahlarının titulu olan fur(furlar, furan) ilə əlaqədardır. Bax: Fur.

Hind şahının qızı sevimli **Furək,**
On dördlük ay kimi dilbər bir mələk (YG-74).

Furlar (məc. an.) – Şair burada "Furlar" dedikdə bir çox hökmdarları nəzərdə tutmuşdur. Bax: Fur.

Söylə döyüşlərdə böyük İskəndər
Furların başına gətirdi nələr? (İ-270).

- G -

Gavə bayrağı (məc. ktem.) – Gavə İranın qədim tarixində əfsanəvi bir dəmirçinin adıdır. Gavəyi-Ahəngər – Dəmirçi Gavə adı ilə məşhurdur. "Şahnamə"nin "Gavə və Zöhhak" dastanına görə, əfsanəvi padşah Cəmşiddən sonra taxta əyləşən Zöhhak son dərəcə qəddar və qaniçən olduğuna, ölkəni böyük qorxu və iztirab içində saxladığı üşün, inək südü ilə böyüyən Gavə bu zülmə dözməyib öz inək dərisindən olan döşlüyünü bayraq edərək(Bu da böyük bir rəmzi məna kəsb edir) xalqı zalım ərəb Zöhhakın əleyhinə qaldırmış, onu taxtdan salaraq, Cəmşidin nəvəsi olan Firidunu onun yerinə oturtmuşdur. Gavənin bayrağı qurtuluş rəmzi kimi məşhur olub, iranlılar tərəfindən müqəddəs sayılır.

Hanı o dünyagir, ağzı qan qılınc?
Gavə bayrağına qan saçan qılınc? (XŞ-164).

Şair burada "Gavə bayrağı" dedikdə İran taxt-tacını, "dünyagir və ağzı qan qilinc" dedikdə isə Bəhram Çubini nəzərdə tutur.

Gaviyan bayrağı (ktem.) – "Dərəfşi-Gaviyan"ın Azərbaycan dilində səsləndirilməsi. Bax: Gavə bayrağı.

Gaviyan bayrağı çox ucalmışdı,
Şahın ay üzünə kölgə salmışdı (XŞ-239).

Yəni Xosrovun bayrağı ucalaraq, onun üzünə kölgə saldı.

Gecə şahı (məc. ap.) – Şair metaforik şəkildə Ayı Gecə şahına, qaranlıq göy qübbəsini isə çadıra bənzətmişdir.

Gecə şahı çadır qurana qədər
Mahan kölgəsindən duydu yüz xətər (YG-212).

Gənc (ap. an.) – "Leyli və Məcnun" poemasındakı "Hekayət"də obraz adı.

Gənc dedi: "Əvvəlcə çəkinib səndən
Tikələr atmışdım o itlərə mən (LM-182).

Gəncə (top) – Azərbaycanın ən qədim şəhərlərindən biri. XII-XIII əsrlərdə Azərbaycanın ticarət, peşəkarlıq və mədəniyyət mərkəzi olmuşdur. Dünya ədəbiyyatında "Xəmsə" ustadı kimi tanınan dahi Nizami Gəncəvi məhz burada anadan olmuş, yaşamış və ölməz əsərlərini yaratmışdır.

Gəncə - Harut sehirli Babil deyil, bəs nədir? (SX-52).

Şair Gəncəni böyük əfsanəvi-tarixi keçmişə malik olan Babilə bənzədir.

Tarixi mənbələrdə Qanzdak (Gəncək) adlanan bu şəhər eyni adlı tayfa adından yaranmışdır. Elə buna görə də Gəncə adlı toponimlərə daha çox təsadüf olunur. Vaxtilə Qarabağda da Gəncə adlı oykonim olmuşdur. Keçmiş İrəvan quberniyasının Sürməli uyezdində Aşağı Gənzək və Yuxarı Gənzək adlı iki oba var idi. Hazırda Ordubad və İsmayıllı rayonlarında Gəncə adlı çay və kəndlər mövcuddur. Cənubi Azərbaycanda da eyni adlı oykonimə təsadüf olunur. Yuxarı Qafqazda, Dağıstanda və Qazağıstanda da Gəncə adlı çay, göl və aul mövcuddur. XX əsrə qədər Gürcüstanda da Gəncə adlı oykonimlər var idi.

Gəncə şəhərinin yaranma tarixi haqqında müxtəlif fikirlər söylənmişdir. Onu Sasani hökmdarı I Qubadın adı ilə bağlayanlar da, bünövrəsinin YII əsrdə qoyulduğunu söyləyənlər də, Makedoniyalı İskəndərin vaxtında salındığını deyənlər də vardır, lakin bu, həqiqətdir ki, Strabon Gəncənin eradan əvvəl I yüzillikdə mövcud olduğunu söyləmişdir("Elm və həyat", № 8, 1986. səh. 17-18).

S.Rüstəmxanlı Zərdüştün vətəni haqqında bəhs edərkən yazır: "Urmiyənin azərbaycanlıların qədim beşiklərindən olduğunu

göstərən yüzlərlə misallardan biri də Zərdüştün vətəni sayılan Şiz şəhərinin adı ilə bağlıdır. Ərəb alimi Yaqut Həməvi bu sözü Gis – Ges kimi yazır və göstərir ki, Marağa əhlinə və ətrafda yaşayanlara gəzək deyilir. Bu sözün Gənzək – Qanza – Gəncə ilə, eləcə də Gəzərilər – Gəzərlər – Xəzərlər ilə bağlılığı da həqiqətə çox yaxındır" (Azərbaycan", № 8, 1986. səh. 154).

Gəncə, Gəncə (təkrar top.) – Şair bu adı təkrar etməklə doğma şəhərinə olan məhəbbətini ifadə etmişdir.

Şairliyim saxlayıb dustaq kimi **Gəncədə,**
Mənəm indi dünyanın söz hakimi **Gəncədə** (SX-153).

Nizami birinci misrada özünü dustağa, ikinci misrada isə hakimə bənzətmişdir.

Gəncə, Rum (müq. top.) – Şair zəlzələdən sonra bərpa olunan Gəncə şəhərini Rum ilə müqayisə edir.

Az zaman içində bu viran ölkə
Keçdi abadlıqda **Rumu** da, bəlkə (İ-427).

"**Gənci-badavərd"** (id.) – Hərfi mənası "Yellə gələn xəzinə" deməkdir. Burada təsnif adı kimi işlədilmişdir.

Taxt önündə Şapur dayanmışdı tək,
"Gənci-badavərd"in xəznədarıtək (XŞ-128).

Rəvayətə görə, Rum qeysəri Xosrov Pərvizin qorxusundan xəzinəsinin ən qiymətli sərvətini gəmilərə yükləyib Həbəşistana göndərmək istəmiş, lakin təsadüfən dənizdə güclü fırtına qopmuş və gəmilər öz istiqamətini dəyişib Xosrovun hərbi qərargahına yol almışdır. Xosrov həmin sərvəti öz xəzinəsinə daxil etmişdir. Barbəd bu münasibətlə "Gənci-badavərd" – "Külək gətirən xəzinə" adlı bir hava bəstələmişdir.

"Gənci-gav" (id.) – Orta əsrlərdə Azərbaycanda musiqi ilə oxunan havalardandır. Lüğəti mənası "Öküz xəzinəsi" deməkdir.

"Gənci-gav" başladı, coşdu üfüqlər,
Yer öküzün verdi, nisar etdi zər (XŞ-167).

İkinci misrada "öküz" və "zər" sözləri də "Gənci-gav" ilə bağlıdır. Beytin mənası : "Gənci-gav" havasını şövqlə oxumağa başlarkən dünya cuşa gəldi.

"Gənci-süxtə" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

O, **“Gənci-süxtə”**ni oxuyan zaman
Min xəzinə yandı onun ahından (XŞ-167).

Gəştasib (an.) – Dini rəvayətlərə görə, atəşpərəstlik dininin banisi Zərdüştün zamanında(e.ə. YII-YI əsrlərdə) İran şahı olmuşdur. Zərdüştün möcüzələrini(odda yanmamaq, odu əldə saxlamaq) görmüş və sonra oğlu İsfəndiyarla birlikdə bu dini qəbul etmişlər.

O, oğlu İsfəndiyarın oğluna Bəhmən adını verir. Çünki Bəhmən zərdüştilikdə hirs və qəzəbi söndürən mələyin adı idi.

Gəştasib zəndini oxuyan sənsən,
Kimdir səndən qeyri Kəyan nəslindən? (YG-87).

Gəştasib “Zəndi” dedikdə, şair Bəhram Gurun Kəyanilər taxt-tacının əsil varisi olduğuna işarə edir.

Gilan (top.) – Cənubi Azərbaycanda bir vilayətin adıdır. Xəzər dənizinin cənub-qərb sahili boyunca uzanır. Ən məşhur şəhəri Rəştdir. Bu əyalətdə orta əsrlərdə eyni adlı bir şəhər də olmuşdur. Lakin şəhərin nə vaxt dağıldığı məlum deyildir. Onun xarabalığı xalq arasında Xaraba Gilan adı ilə də tanınır.

Gilanda bir qadın söyləyirdi həm... (XŞ-232).
Keçərsə körpüdən bu gilan atım,
İnanma **Gilana** bir də qayıdım (İ-35).

O zaman gözəlliyi ilə məşhur olan Gilan atı nəzərdə tutulur. Yəni ömrümün Gilan atı həyat körpüsündən keçəndən sonra bir də dünyaya qayıtmayacağam.

Gilək (et.) – Gilanlılar həm də tarixi mənbələrdə “giləklər” də adlanır. Hal-hazırda iki milyondan çox olan bu xalq İran ərazisində, Xəzər dənizinin cənub sahillərində yaşayırlar.

Buxaralı, **gilək**, kürd və xəzərli
Bir parça çörəyi tutmuş dörd əlli (İ-44).

Gilə, Gilan (ana. top.) – Fonetik cəhətcə ilk hissələri eyni olan bu toponimlərin birincisi hərəkətin başlanğıcını, ikincisi isə istiqamətini və sonunu bildirir.

Üzümə sabah bir pərdə çəkirkən
Gilədən Gilana tələsərəm mən (İ-282).

Giv (məc. an.) – Qədim İran eposu və Firdovsinin "Şahnamə"sinin qəhrəmanlarından biridir. Bəhram Gurun bəzi əmirləri özlərini Givə bənzədirlər.

Biri "Rüstəm mənəm" söyləyib durur,
Qalxıb bir başqası **Givdən** dəm vurur (YG-120).

Gövhərmülk (an.) – "Xosrov və Şirin" poemasında obraz adı. Gövhər (farsca inci, cavahir, daş-qaş deməkdir) və mülk (ərəbcə səltənət, dövlət, hökumət, ölkə, mülkiyyət və s. kimi mənaları vardır) sözlərindən düzəlmişdir.

Gövhərmülk söylədi: "Bir neçə zaman... (XŞ-130).

Göy (məc. ap.) – Şair Atabəy Nüsrətəddini göyə bənzədir.

Göylər ülviyyətdən düşməz heç zaman,
Sən də **göylər** kimi uca olasan (İ-429).

Göy qızları (məc. kos.) – Nəş qızları(Bax: Bənatünnəş) adlanan ulduzlar toplusudur. Ulduzlar qızlara bənzədilmişdir.

Rəhimini sardı o dörd qarının,
Qurtardı heyzindən **göy qızlarının** (XŞ-357).

Birinci misradakı dörd qarı dörd ünsürə - su, od,torpaq, küləyə işarədir.

Beytin mənası: Peyğəmbər dörd ünsürdən üz döndərib, Nəş qızlarını da keçdi.

Göyərçin, Şahin (məc. ap. zo.) – Şair metaforik şəkildə Şirini və onun rəfiqələrini göyərçinə, Xosrovu isə şahinə bənzədir.

Göyərçin hədsizdi, **şahin** bir nəfər (XŞ-133).

Göy öküzü (məc. kos.) – Sur bürcü metaforik şəkildə göy öküzünə bənzədilmişdir. "Göy öküzü" ifadəsi əsasən dini rəvayətlərə görə, Yer kürəsini arxasında saxlayan əfsanəvi öküzə qarşı işlədilir. Göy öküzü eyni zamanda Pərvin bürcü də adlanır.

Torpağın öküzündən dür qapdı **göy öküzü**... (SX-30).

"Sur" ərəbcə öküz, buğa deməkdir. Astrologiya elmində Öküz bürcünün adıdır. On iki bürcün ikincisidir.

Göylərin Harunu (məc. kos.) – Şair metaforik şəkildə Zühəl ulduzunu Musa peyğəmbərin qardaşı Haruna(bax) bənzətmişdir.

Göylərin Harunu keşik çəkərək,
Belinə asmışdı saysız qızıl zəng (İ-79).

Göy Harunu və ya hindusu – gecə qarovulçusu hesab edilən Zühəl ulduzudur ki, yeddinci fələkdə olur. Dinlər tarixinə görə, yəhudilərin peyğəmbəri Musa, qardaşı Haruna qarovulçuluq vəzifəsi tapşırmışdı. Qarovulçu mənasında işlənən Harun sözü buradan alınmışdır.

Gurxan (an.) – Şərqi Türküstanda yaşamış türklərin xaqanının ləqəbi olmuşdur. Bəhram Gur onlarla apardığı vuruşmalarda qalib gəldiyi üçün Gurxan ləqəbini də özünə götürmüşdü.

Gurxan hey çapırdı, guru qovurdu,
Çapan Bəhram idi, qaçan da gurdu (YG-71).

Nizami "Gurxan" adının şairanə etimologiyasını izah edərək demək istəyir ki, Bəhram Gur Gurxan yox, gurların xanı idi.

Qədim türk ad sistemi ilə əlaqədar olaraq belə bir maraqlı ənənə də var idi: İki rəqib(aşıq, pəhləvan, hökmdar, döyüşçü və s.) deyişmə, güləşmə və ya vuruş zamanı qalib gələrdisə, qalib şəxs rəqibini tamamilə məhv etmək üçün onun adını da qəbul edərdi. Bəhram Gur da, şairin təsvirinə görə, məhz bu yolla getmiş və qalib gəldiyi hökmdarin ləqəbini (həmin hökmdarin şöhrətləndiyi fəxri adını) da özünə götürmüşdü.

Gülgün (zo.) – Şirinin atının adı. Farsca gül rəngli, qızılgül rəngində olan, al deməkdir. Şirin Şəbdizi Xosrova bağışladıqdan sonra məhz bu atı minərdi.

Gülgünü verərəm ona gedirkən,
Şəbdizlə bir döldür dediyim köhlən.
Büdürək olsa da, Şəbdizə ancaq
Yerişdə, qaçışda **Gülgün** çatacaq (XŞ-107).

Gün (məc. kos.) – "Günəş" adının qısaldılmış forması. Məhəmməd peyğəmbər Günə bənzədilir.

Gövhəriylə dürr səpir, inci səpir **Gün** düzə (SX-33).

Burada gövhər – təbiət, cövhər – zat deməkdir. Günəş planeti düzə - Yer planetinə, Məhəmməd peyğəmbərin Günəşdən işıqlı təbiətinin cövhəri isə Günəşə ləl – nur verir.

Gün və Ay Məhəmməd peyğəmbərin tacına bənzədilir.

Hökmranlıq fərmanı gələn gündən adına,
Göylər tac düzəltdirib **Aydan, Gündən** adına (SX-101).

Günəş (kos.) – Günəş planeti. Qədim türk xalqları Günəşi Allah sanmış və ona inanmışlar. Mirzə Bala "Azərbaycan tarixində türk Albaniya" adlı əsərində V.Bartolddan sitat gətirərək yazır: "Çin qaynaqlarından ən əski türklərin və sonralar moğulların doğan Günəşə tapındıqları aydın şəkildə anlaşılır. Çadır qapılarının Şərqə doğru olması da eyni səbəblərdən doğur" ("Azərbaycan", № 10,1989. səh.119).

Ə.Əliyev "Tarixin dərin qatlarına doğru" adlı məqaləsində yazır: "...Bu məlumat Herodotun "Tarix"ində belədir: "(Massaketlər) tarım yapmazlar, ət ilə Aras nəhrində bol bulunan balıq yerlər, süd içərlər. Tanrıları tək tanrı Günəşdir və ona at qurban edərlər. Bunun anlamı, tanrıların ən hızlısı (sürətlisi – Ə.Ə.) olan Günəşə ən hızlı heyvanı təqdim etməkdir" ("Azərbaycan", № 10, 1989. səh. 130).

Gecə yuyub gözünü haçan danar **Günəşi**,
Səhər gözə gur işıq saçan sanar **Günəşi** (SX-130).

Günəş (məc. kos.) – Günəş metaforik şəkildə insana bənzədilir.

Günəş ağ qəba geydi, ay isə qara cübbə,
Yarandı mavi göydə dümağ, qapqara cübbə (SX-22).

Gündüzün ağ və gecənin qara ipəyindən Günəşə qəba və Aya cübbə tikdi, yəni Allah gecə və gündüzü yaratdı.

Gözəllik rəmzi olan Yusif Günəşə bənzədilir.

Günəş camallı Yusif dol içində oturdu (SX-39).

Metaforik şəkildə göstərilir ki, Günəş və Ayı da hərəkətə gətirən Məhəmməd peyğəmbərdir.

Gündüzün al **günəşi,** gecənin nurlu **ayı**
Peyk olmasa yolunda, dolanmaz ki, havayı (SX-36).

Günəş və Ay Məhəmməd peyğəmbərin minəcəyi ata bənzədilir.

Ay, Günəş köhlən olub, alsın səni belinə,
Durma ərəb mülkündə, yetiş əcəm elinə (SX-37).

Nizami özünü Günəşə bənzədir.

Sığışmazsan qaranlıq, dar zindana, Nizami!
Günəş kimi işıq saç bu cahana, Nizami! (SX-100).

Şirin, Şəkərlə evləndikdən sonra onun yanına gələn Xosrovu məzəmmət edərkən onu Günəşə bənzədir. Çünki Günəşə bir bürc (yəni bir qadın) yaraşır.

Bir ürəkdə olmaz iki sevgili,
İki ürəklinin düz olmaz dili.
Ütarid cüt bürclü olsa, yeri var,
Sən **günəşsən,** sənə bir bürc yaraşar (XŞ-248).

Nücum elminə görə: səyyarələrdən Ütarid (Merkuri) öz hərəkəti zamanı Cövza (Əkizlər) və Sünbülə bürclərindən keçdiyi halda, Günəş ancaq Əsəd(Şir) bürcündən keçir. Ütarid kiçik səyyarədir; o, Günəşə çox yaxın olduğundan həyat əlamətlərindən məhrumdur.

Şair Günəşi güldana, onun şüalarını isə güldanda boy atmış reyhana bənzətmişdir.

Günəşin çeşməsi saxsı güldanda
Reyhanlar yetirib açan zamanda...(YG-296).

İndiki kimi qədim zamanlarda da saxsı dibçəklərdə gül-çiçək əkərdilər. Burada saxsıdan yoğrulmuş kuzə deyərkən Yer kurəsi nəzərdə tutulur. Yəni Günəşin şüaları Yer üzünü gül-çiçək kimi bəzəyəndə, səhər açılanda, şah ədalət suyu üçün susuzluqdan yanaqlara dürrə bənzər ədalət yağışı yağdırdı və onları suvarılmış reyhan kimi xoş və təravətli etdi.

Günəş planeti Göyün əsərinə, bu əsər (Günəş) isə Körpə Arslan şahın kəmərinə bənzədilir.

Göy ki, **günəş** kimi əsəri vardir,
Kəməri olmağa yəqin ki, dardır (YG-39) və s.

Günəş, Ay(qoşa məc. kos.) – Məhəmməd peyğəmbər Aya nur verən Günəşə bənzədilir.

Sənintək **Günəşə** müntəzirdir **Ay** (LM-36).

Şair eyni vaxtda Şapuru Günəşə, Şirini isə Aya bənzətmişdir.

Şapur burdan inam və ümid aldı,
Tez getdi **günəştək, Ay** yalqız qaldı (XŞ-32).

Nizami insan hünərinin böyüklüyünü göstərmək üçün, onu Günəş və Aydan üstün tutur. Bu adların təkrar olunması isə fikri daha da qüvvətləndirir.

Nə **Günəşi**, nə **Ayı** hünərinlə say göydə,
Daldalansın kölgəndə **Günəş** göydə, **Ay** göydə (SX- 119).

Günəş, Cəmşid(qoşa məc. on.) – Şair eyni vaxtda Şirvanşah Axsitanın taxt – tacını Günəşin və Cəmşidin taxtı ilə müqayisə edir.

Günəşin taxtindan tacın ucadır,
Cəmşidin taxtından taxtın qocadır (LM-56).

Cəmşidin qızıl paltarı, taxt-tacı Günəşin şüasını əks etdirərkən camaat onun özünü ikinci Günəş adlandırır. Şair yəqin elə buna görə də çox vaxt Günəş və Cəmşid adlarını yanaşı işlətmişdir.

Günəşin beşiyi düşərkən yola,
Cəmşid bəzəyini geyindi dünya (XŞ-284).

Günəş, Dəlv, Hut (qrup məc. kos.) – Şair Günəş və bürclərin yerini təsvir etməklə, İskəndərin Nüşabə şərəfinə təşkil etdiyi məclisin vaxtını göstərmək istəmişdir.

Günəş Dəlv bürcündən çıxdı qırağa,
Girdi **Hut** bürcünə balıq tutmağa (İ-222).

Ulduzşünaslıqda Dəlv bürcü Günəşin "ev"lərindən biri sayılır. Günəş bu bürcə yanvar ayında girir. Hüt, yəni Balıq və ya Su bürcünə isə Günəş fevral ayında girir. Yəni bu məclis düzələn zaman il yanvardan fevrala keçirdi.

Günəş qürsəli (məc. kos.) – Qürsə - kökə, qürs – Günəşin dairəsi, Günəşin şarı deməkdir.

Əzrəq gülü ki var, göy əlbəsəli,
Bu üzdən olmuşdur **günəş qürsəli** (YG-233).

Bu omonimiyadan istifadə edərək şair söz oyunu yaradır və demək istəyir ki, göy gül(Əzrəq gülü) ona görə gözəl və ətirlidir ki, öz qidasını Günəşdən alır.

Günəş, Məşriq, Məğrib (qrup məc. on.) – İskəndər özünü və atını Məşriqdən Məğribə çapan Günəşə bənzədir.

Sizin bu şəhərdə uca **günəş** var,
Atını **Məşriqdən Məğribə** çapar.
O **günəş,** bax mənəm, gəlib çatmışam,
Ordunu **Məğribdən Şərqə** atmışam (İ-278).

Günəş, Sürəyya (qoşa məc. kos.) – Şair rus şahzadəsini Günəşə, Qala gözəlini isə Sürəyyaya bənzədir.

Elçi verdi dürrü öz dəryasına,
Yetirdi **günəşi Sürəyyasına** (YG-205).

Günəş, Ütarid (qoşa məc. kos.) – Taxta çıxan Bəhram Gur Günəşə, Ütarid isə ona yaxınlaşan şəxsə bənzədilir.

Ən uca nöqtədə o bir **günəşdi,**
Ütarid ülkəri ona bir eşdi (YG-94).

Ütarid(Merkuri) planeti Günəşə yaxınlaşmışdı, bu isə qədim astroloqların nəzəriyyəsinə görə səadətə dəlalət edir.

Günəşin evi (məc. kos.) – Astrologiyada Aslan (Əsəd) bürcü mənasında işlədilir.

Günəş öz evinə edəndə şitab
İstidən aslanlar oldular kabab (İ-567).

Beytin mənası: Günəş Aslan bürcünə girəndə - yəni ən isti vaxtı gələndə meşədəki aslanlar da istidən bişdilər.

Günəşin köynəyi (məc. ktem.) – Ağacın yarpaqları metaforik şəkildə Günəşin köynəyinə bənzədilmişdir.

Günəşin köynəyini suya çəkdi buludlar (SX-67).

Günəşin qılıncı (məc. kos.) – Bu metaforada "qılınc" şüa (Günəşin şüası) mənasında işlənmişdir.

Günəşin bir mıxlı **qılıncı** söndü
Min mıxlı zirehə gecə büründü (YG-265).

Min mıxlı zireh isə gecə ulduzlarla dolu göy qübbəsi deməkdir. Yəni Günəş batandan sonra gecə düşdü və ulduzlar göründü.

Günəşin nuru (məc. kos.) – Şair metaforik şəkildə həqiqət və doğruluğu Günəşin nuruna bənzətmişdir.

Günəşin nuruna yedəkçi ol sən,
Səni tərk etsə də düşmə ümiddən (İ-482).

Yəni: sən həmişə həqiqətdən, doğruluqdan yapış. O, səni bir müddət tərk etsə də, ümidsiz olma. Burada Nizami həqiqət və mərifət günəşini kəcavədə gedən bir gözələ bənzədir.

Günəşin sürəti (məc. kos.) – Tulanın qaçışı Günəşin sürəti ilə müqayisə olunur.

Bir tulası vardı ki, cürəti şir cürəti,

Qaçışına çatmazdı **Günəşin də sürəti** (SX-93).

Günəşin taxtı (məc. ktem.) – Şair Dara ilə İskəndəri müqayisə edərkən İran taxt-tacını metaforik şəkildə Günəşin taxtına bənzədir.

Günəşin taxtını çevirə bilməz
Cəmşidin yerini o verə bilməz (İ-126).

Günəşin yavəri (məc. kos.) – Metaforik şəkildə Günəş Cəmşidə, Ay isə onun yavərinə bənzədilir.

Sarayında Cəmşidin vardı yaxın yavəri,
Ay-**Günəşin yavəri**, o da şahın yavəri (SX-141).

Gürcü (et.) – Gürcü xalqının ümumi adı.

Hindli qılıncına kim durdu qarşı
Gürcü saçı kimi kəsildi başı (XŞ-149).

- Ğ -

Ğəzneyn (top.) – Bax: Qəznə.

Çin, Xorəzm, **Ğəzneyn**, Ğur mahallarından (İ-117).

Ğur (top.) – Bax: Qur.

Çin, Xorəzm, Ğəzneyn, **Ğur** mahallarından (İ- 117).

- H -

Habil (ag.) – Dini əfsanələrə əsasən Adəm (bax) peyğəmbərin oğludur. Guya qısqanclıq üzündən öz qardaşı Qabil (bax) tərəfindən öldürülmüşdür. Bununla da guya dünyada ilk insan qanı tökülmüşdür.

Dəryatək cənubda bir tayfa yaşar,
Qabildən törəyib qalmışdır onlar (İ-505).

Habil, Qabil (qoşa məc. ag.) – Şair Habil və Qabil dedikdə, Cənub və Şimal qütblərini nəzərdə tutmuşdur.

Keç sonra **Habildən Qabilə** sarı (İ-505).

Hacı (an.) – "Hacı və sufi hekayəti"ndə obraz adı.

Kəbə eşqi qəlbində aşıb-daşan **hacının,**
Zəvvar kimi hamıyla halallaşan **hacının** (SX-121).

“Hacı” Məkkədə(Kəbədə) “Qara daş”(“Həcəri-mübarək” və ya “Həcərül Əsvad”) saxlanan məbədi ziyarət edən mömin müsəlmanlara verilən fəxri dini addır. Ziyarətə isə ancaq “zilhiccə”(“Həcc ayı”) ayında gedirlər.

Hacib (an.) – Ərəb sözüdür və iki mənası vardır: 1) qapıçı; 2) orta əsrlərdə Şərq hökmdarlarının baş vəziri. Burada “hacib” dedikdə Nüsrətəddin Əbubəkrin (bax) vəziri Şəmsəddin Məmməd(bax) nəzərdə tutulur.

Sonra **Hacib** gəlib dedi: - Yubanma!
Ey bilik anası, tez gəl, dayanma (XŞ-369).

Haqq (teon.) – Allahın epitetlərindən biri.

Tanrının mükafatı həmdəm oldu, öyündü,
Haqq rəhimli, qılıqlı, o da ki ərköyündü (SX-33).

Harun (an.) – Harun-ər-Rəşid(763-809) – Abbasilər xəlifələrindən olub, 786-809-cu illərdə hakimiyyət sürmüşdür. Onun vaxtında sənətkarlıq, əkinçilik, ticarət və mədəniyyət xeyli inkişaf edir, xəlifəlik qüvvətlənir. O, Qərbi Avropa və Çin ilə əlaqələri genişləndirir. Buna görə də həmin ölkələrdə Harun-ər Rəşid çox məşhur olmuşdur.

“Min bir gecə” nağıllarında Harun-ər-Rəşid ədalətli və rəhmli bir hökmdar-xəlifə kimi təsvir olunur. Lakin əslində o, çox qəddar və zalım Şərq hökmdarlarından biri olmuş, Şimal-Qərbi İranda, Xorasanda, Misirdə onun əleyhinə baş vermiş üsyanları böyük vəhşiliklə yatırmışdır.

Harun-ər-Rəşid antroponimik birləşməsində Harun - əsl ad, Rəşid isə fəxri addır və ağıl-kamal həddinə çatmış; igid, qorxmaz; düzgün, sağlam, doğru kimi mənaları vardır. “Ər” isə ərəb dilində bitişdirici ünsürdür. Nizami “Harun-ər-Rəşid ilə dəlləyin hekayəti”ndə onun bədii obrazını yaratmışdır.

Tapdı **Harun** dövründə növrağını xilafət,
Uca tutdu Abbasın bayrağını xilafət (SX-147).

Şair bu addan məcazi ad kimi də istifadə etmiş və açılan səhəri Harunun üzünə bənzətmişdir.

Harun üzlü səhər bağlayanda bel
Zəng kimi səsləndi xoruz, durdu el (YG-246).

Harun adı burada həm də keşikçi mənasında işlənmişdir. Qədimdə şahların keşikçiləri kəmərlərinə zınqrov(cəlacil) bağlayarlarmış. Keşikçilər gəzdikcə zınqrovlar səslənib keşikçilərin oyaq olduqlarını bildirərmiş. Xoruzun banı həmin zınqrovların səsinə bənzədilmişdir.

Harut (mif.) – Dini əsatirdə Marut adlı mələyin yoldaşı; sehr mələikəsi. Şair Zöhrəyə və Harut sehrini açan sehrkara bənzədilir.

Memardır – sözləriylə heykəl yonan sənətkar,
Şair – adı dillərə uçub qonan sənətkar
Məncə, Zöhrə özüdür, **Harut** sehri açandır (SX-50).

Nizami Gəncə şəhərini eyni zamanda həm Haruta, həm də Babil şəhərinə bənzədir.

Gəncə - **Harut** sehrli **Babil** deyil, bəs nədir?
Ürəyim ulduzlara nur saçan bir Zöhrədir (SX-52).

Şair burada məşhur dini əsatirə işarə etmişdir. Bu əsatirə görə adları Harut və Marut(bax) olan iki mələk günaha batmış bəşər cinsinə nifrət edərlərmiş. İnsanları yoxlamaq üçün onlar insan surətində yerə enib Babilistanda(indiki İraqın ərazisində) fəaliyyətə başlamışlar. Lakin bir müddət keçəndən sonra, onların hər ikisi Zöhrə adlı bir gözələ vurulub öz ehtiraslarının təsiri altında çox günahlı işlər görürlər. Onları cəzalandırmaq üçün Allahın əmrilə hər ikisini Babildə dərin bir quyuya atırlar və qiyamətə qədər onlar orada qalacaqlar. Harut və Marut böyük cadugər və sehrbaz olduqları üçün istəyənlərə cadu və sehr öyrədirlər. Zöhrə isə göyə aparılıb ulduza çevrilir. İndi o(Venera planeti), musiqi, şeir və şənlik hamisidir.

Şair öz sənətini sehrkar Harutla müqayisə edir.

Heyrətamiz sənətim – ölməzliyə bir buta,
Sehrimlə, möcüzəmlə nicat yoxdur **Haruta** (SX-52).

Yəni şeirlərimdə o qədər əfsun qüdrəti vardır ki, Harutun sehr kitabçasının üstündən qələm çəkirlər. Onun sehrləri zəif olduğu üçün silib atırlar.

Nizami Azər Humayunun(bax) bacarıq və qabiliyyətindən söz açanda onu Haruta bənzədir(mifonimin mifonimə bənzədilməsi).

Haruttək Zöhrənin canını alar,
Yüzlərlə **Harutun** qəlbini ovlar (İ-175).

Əgər Harut(Marut ilə) təkcə Zöhrənin qəlbini ovlayıbsa, Azər Humayun isə yüzlərlə Harutun qəlbini ovlaya bilər.

Əfsunda **Harutu** vurub keçənlər,
Neçə əfsun quran, neçə cadugər (İ-432).

İskəndər öz yanında Harutdan da mahir cadugərlər aparardı.

Harut, Babil (qoşa on.) – Harut adı ən çox Babil adı ilə yanaşı işlədilir. Burada Harut mifonim(mələk adı), Babil isə real şəhər adıdır.

Harut hələ **Babilə** qanad salan deyildi (SX-101).

Harut, Zöhrə (qoşa xat. on.) – Şair yeni bir əsər yazmaq üçün düşüncələrə dalarkən Harut və Zöhrəni xatırlayır.

Başladı ürək, dil: "Şeir yaz" deyə,
Harut, Zöhrə kimi cadugərliyə (İ-30).

Yəni Harut və Zöhrə bir-biri ilə eşqbazlıqda şirin, gözəl söhbətlər və sehrbazlıqlar etdikləri kimi, mənim də qəlbim, dilim bədii söz yaradıcılığında möcüzəli sənət əsəri yaratmaqla məşğuldur.

Haruti kəslər (məc. ap.) – "Harutun ardınca gedənlər" deməkdir. Şair İranda sehrbazlıqla məşğul olanları Haruta bənzədir. Mifologiyaya görə, Zöhrə ulduzu sehr və cadu hamisi sayılır.

Zöhrətək Babildən parladı öncə,
Haruti kəsləri təmizləyincə... (İ-174).

Həbəş (et.) – Afrikanin şərqində yerləşən Həbəşistanda yaşayan əhalinin ümumi adı. Şərq ədəbiyyatında "həbəş" məcazi olaraq "qara" mənasında işlənir.

Həbəş qayıdarkən Həbəşistandan
Kafur qabı sındı yolda bu zaman (XŞ-341).

Həbəş (məc. et.) – Qara saçlar həbəşə bənzədilir.

Tərazlıtək gözəldin, saçin **həbəş** saçıydı (SX-88).

Şair gecəni metaforik şəkildə həbəşə bənzədir.

Səhər çöhrəsindən pərdə atarkən
Həbəşə bac üçün dağ çəkdi Xütən (İ-185).

Burada Xütən dedikdə Günəş nəzərdə tutulur. Yəni Günəş çıxdı, qaranlıq yox oldu.

Həbəş, Mazandaran (qoşa məc. top.) – Şair metaforik şəkildə kömürü həbəşə, ocağı Mazandarana (bax), közləri isə saf qızıla bənzətmişdir.

Həbəş müşk aparmış **Mazandarana,**
Yerinə saf qızıl vermişdir ona (İ-223).

Həbəş, rus (məc. et.) – Şair metaforik şəkildə kömürü həbəşə, közü isə rusa(bax) bənzədir.

Ya qoca insafsız, rəhmsiz məcus
Əmr etmiş **həbəşi** qarət etsin **rus** (İ-223).

Yəni od yandıran qoca atəşpərəst həbəşin qaranlığını – kömürü rusun qırmızılığına – oda qarət etdirdi (İ-642).

Həbəşistan (top.) – Afrikanın şərqində yerləşən ölkədir. Mərkəzi Əddis-Əbəbə şəhəridir.

Yoxdur onun kimi xoşbəxt doğulan,
Onun hökmündədir Çin, **Həbəşistan** (XŞ-38).

Burada söhbət Atabəy Əbu Cəfər Məhəmməd Eldəgizdən gedir.

Həcc (məc. top.) – Ərəbcə Məkkəyə getmə, Məkkədə ziyarət mərasimini yerinə yetirmə deməkdir. Fərhad Şirini Aya, onunla görüşünü isə Həccə bənzədir və xəyalən onunla danışır.

Ey ayım, gəlmişəm mən xatirinə
Həccdən, Əmrədən sonra da yenə (XŞ-197).

Həccac (məc. an.) – Həccac İbn Yusif Əs-Səqəfi (661-715) – Bəni Üməyyə (Əməvi) xəlifəsi Əbdül Məlik ibn-Mərvan tərəfindən İraqa təyin edilmiş ən qəddar və zülmkar hakim olmuşdur. O, qəddarlığı ilə zərb-məsəl olmuş və ədəbiyyatda bu adla tanınmışdır. Təsadüfi deyildir ki, şair "Zalım şahla düz danışan qocanın hekayəti"ndəki şahı zülmkarlıqda həccaca bənzədir.

Xalqa yağı şah vardı, zülmkarın biriydi,
Həccacdan da betərdi, lap qəddarın biriydi (SX-126).

Həcc vaxtı (xron.) – Kəbədə (bax) "Qara daş"ın ziyarət olunma vaxtı. Ziyarət ildə bir ay müddətində, ancaq "zilhiccə" ("Həcc ayı") ayında həyata keçirilir.

Dedilər: **"Həcc vaxtı** gələndə yenə,
Gedərik Məkkənin ziyarətinə" (LM-96).

“**Həft peykər”** (id.) – “Yeddi gözəl” poemasının orijinalda (fars dilində) olan adı.

Bitirdim dastanı, bir nəşə tapdım,
Atımı **“Həft peykər**” üstünə çapdım (İ-60).

“Həft peykər” adının “Yeddi gözəl” kimi tərcümə olunması haqqında bu vaxta bir-birinə zidd olan müxtəlif fikirlər söylənmişdir. Tağı Xalisbəyli “Yeddi gözəl”, yoxsa “Yeddi şəkil” adlı məqaləsində bununla əlaqədar olaraq yazır: “Böyük Azərbaycan şairi Nizami Gəncəvinin “Həft peykər” əsərinə bu gün “Yeddi gözəl” əvəzinə hər hansı başqa bir ad verilsə, şübhəsiz, oxucu üçün müəmmalı görünəcək. Çünki çoxdan bəri bu ada adət etdiyimizdən elə bilirik ki, belə də olmalı imiş. Əsəri diqqətlə oxuyandan, müxtəlif alimlərin söylədikləri fikirləri götür-qoy edib düşündükdən sonra “Həft peykər” ifadəsinin “Yeddi gözəl” kimi tərcümə edilməsi istər-istəməz narahatlıq doğurur...Bizcə, əsərin belə adlandırılması Nizami Gəncəvinin elmi dünyagörüşü ilə bir araya sığmır... Əsərin adının bu cür tərcüməsi zamanı ilk növbədə onun məzmunu nəzərə alınmalı, özündən əvvəlki elmi məsələlərə şairin münasibəti və başqa amillər götür-qoy edilməlidir...

Əsərdə gözəllərin təsviri, fəaliyyəti, qəhrəmanlığı və s. xüsusiyyətləri deyil, şairin müəyyən elmi əsasları olan astronomik dünyagörüşü əksini tapır. Burada peykər, ulduzlar, bürclər, iqlimlər haqqında söhbət gedir.

Əsərin məzmunu, qayəsi, ideyasi, ruhu və şairin qaldırdığı məsələlər də “peykər” sözünün “gözəl”lə əvəz olunmasına uyuşmur” (“Elm və həyat”, № 5,1987. səh.15).

Pənah Xəlilov isə “Herodot “Tarix”i və N.Gəncəvi poemaları” adlı məqaləsində yazır: ”Nizami yeddi peykəri, yoxsa hər biri göydəki peykərdən gözəl olan yer ülkərlərini ön plana çəkmişdir? Sualına biz belə cavab verərdik: Yeddi ulduz – yeddi peykər Nizami poemasının adını təşkil edə bilməzdi, çünki poemanın ideya-məzmunu yeddi ulduzdan deyil, yeddi gözəldən, onların danışdığı nağıllar dünyasından asılıdır. Yeddi ulduz yerin yeddi ülkərinin gözəlliyini, ağlını, nəcibliyini, ülfətini, onların nağıllarında cilvələnən

qızların mənəvi dünyasını, ülviyyət və ləyaqətini vəsf etmək üçün bir vasitədir...” (“ Ədəbiyyat və incəsənət” q., 4.09.1987).

Bizə elə gəlir ki, “Yeddi gözəl” haqqında P.Xəlilovun fikri daha həqiqətə uyğundur.

Həqə, Hənə (qoşa kos.) – Astronomiyada ərəbcə ulduz adlarıdır.

Həqə gəlin kimi girib duvağa
Durmuşdu **Hənəylə** qulaq-qulağa (LM-184).

Həmal (kos.) – Bax: Həməl.

Günəş yaxınlaşdı o gün **Həmalə**,
Gedirdi elmdən çatsın əmələ (İ – 64).

Həmdünyan(top). – Qızıl Arslanın Nizami Gəncəviyə bağışladığı kəndin adı.

Mənim “Həmdü sənam” xoşuna getdi,
Həmdünyan kəndini mənə bəxş etdi (XŞ-372).

Həməl (kos). – On iki bürcdən birincisi. Həməl(ərəb sözüdür) Azərbaycan dilində Qoç və ya Quzu bürcü də adlanır.

Həməl pərgarından günəş baxaraq,
Etdi Dəlv bürcündən Zühəli parlaq (XŞ-150).

Yunan əsatirində Qoyun (Oven - qızılyunlu qoyun) adı ilə məşhurdur. Həmin əsatirə görə bulud tanrısı Nefelanın oğlu Friks və onun bacısı Hella qəddar analıqları İonun onları Zevsə qurban verəcəyindən qorxaraq bu qızılyunlu qoyuna minib analığın zülmündən qaçmışlar. Hella qoyunun belindən Asiyanı Avropadan ayıran Hellespond (onun adı ilə əlaqədardır)–indiki Dardanel boğazına düşüb boğulmuş, Friks isə Qara dəniz sahilindəki Kolxidaya yetişərək həmin sehirli qoyunu Zevsə qurban kəsib, onun dərisini əfsanəvi Eyada (Kolxida ilə eyniləşdirilmişdir) Əjdaha tərəfindən qorunan sehirli çəmənə sərmişdir.

Həməl bürcü yaz ayları – mart və aprelə müvafiq olur. Sürəyya bürcünün üç hissəsi Sur (Öküz) bürcündə, bir hissəsi isə Həməl bürcündə olduğu üçün şair onu taxta bənzədir. Yəni Məhəmməd peyğəmbər Sürəyya taxtını Həməldə qurandan sonra Həməl səhra və düzəngahlarına bahar gəldi, gül-çiçək açıldı.

Həməlin sinəsində qurdu Sürəyya taxtı,
Gül-çiçəyin ordusu düzə axdı, nə axdı (SX-30).

Şair Xəvərnəq sarayını da Həməl bürcünə bənzətmişdir.

"Bəhram ömür sürür məndə" deyərək,
Bəzədi dünyanı **Həməl bürcütək** (YG-63).

Həqə, Hənə (kos). – Astronomiyada ərəbcə ulduz adıdır.

Həqə gəlin kimi girib duvağa,
Durmuşdu **Hənəylə** qulaq-qulağa (LM-184).

Həri (top.) – Əfqanıstanın şimal-qərbində yerləşən Herat şəhərinin qədim adıdır. Vaxtilə Xorasan ölkəsinin mərkəzi idi. İran, Türküstan, Hindistan və Çindən keçən yolların birləşdiyi yerdə salınmış olduğu üçün böyük ticarət əhəmiyyəti var idi. İskəndər Zülqərneyn bu şəhəri genişləndirmişdir. İslamiyyət dövründə də böyük mədəniyyət mərkəzi imiş. Bir çox elmi müəssisələri və böyük alimləri ilə məşhur olmuşdur.

Nizaminin təsvirinə görə isə Həri şəhərinin əsasını İskəndər qoymuşdur.

Düşmənin başını saldığı yerdə
Bir təpə vardı o yaşıl çöllərdə.
Müzəffər və sağlam dövlət adına
Təpənin başında saldı bir bina.
Qızıldan vurduğu şux bəzəkləri,
Ona pəhləvicə ad qoydu "**Həri**" (İ-257).

Hərum (top.) – Bərdənin (bax) qədim adı.

Hərum adlanırdı bu yurd hər yerdə,
İndisə adına deyirlər Bərdə (İ- 204).

Elmi ədəbiyyatda Hərum toponiminin mənası haqqında müxtəlif fikirlər söylənmişdir. Onu gah "qız şəhəri" adlandırmış, gah da Orxon-Yenisey abidələrindəki pərum(aparum) sözləri ilə eyniləşdirmişlər. İndiyədək bu adın mənası ermənicə "qovaq", farsca "qul yeri", dil mənsubiyyəti və mənası məlum olmayan tayfa və ya tayfa başçısı adı, türk dillərində "piyaləli, kuzəli", qədim fars dilində "qadınlıq şəhəri" və s. kimi izah olunmuşdur.

Elbrus Əzizov yazır: "Qar, ger, ar, er(her), ər(hər), or köklərinin iştirakı ilə yaranmış toxuculuq leksikası üzərindəki

müşahidələr aşağıdakı nəticələri çıxarmağa imkan verir: Hərum toponimi ya örüm(qaba paltar) sözünün fonetik dəyişikliyə uğramış şəkli, ya da er(burğu) və em – üm (şalvar) sözlərinin birləşməsi ola bilər”(“Elm və həyat”, № 6,1987. səh.17 -18).

Hicab(ap.) – Ərəbcə pərdə, örtük, utanma, utancaqlıq deməkdir.

Ətirli çiçəklər atınca **hicab**,
O güldən İraqda çəkilir gülab (İ-44).

Bizə elə gəlir ki,hicab xüsusi yox, ümumi addır.

Hilal, Bəhram (qoşa məc. kos.) – Hilalın (təzə ayın) onuncu bürcdə planet mənasında işlənən Bəhramın (Marsın) altıncı bürcdə olması həm ziyafət, şənlik, xoş güzəran, həm də müharibə əlamətidir.

Hilal onda idi, altıda **Bəhram**,
Məclisi bəzədi qılınc ilə cam (YG-94).

Hind, Çin (qoşa məc. top.) – Hind qara müşkə, Çin isə ağ yasəmənə bənzədilmişdir.

Qara müşk ağacı əkmişəm **Hinddə**,
Fikrim ağ yasəmən tikməkdir **Çində** (İ-278).

Yəni Hindistanı fəth etmişəm, indi Çini də fəth etmək istəyirəm. Burada qara müşk – hindlilərin qaralığına, ağ yasəmən isə çinlilərin (türklərin) ağlığına işarədir.

İskəndərlə söhbətində Fəribərz (bax) Daranın onun ağıllı məsləhətlərinə qulaq asmaması ilə əlaqədar olaraq deyir:

Bir qoca eşşəkdən yıxıldı **Hinddə**,
Ölənin oğluysa varlandı **Çində** (İ-165).

Hind, Çin şahı (qoşa məc. an.) – Şair eyni zamanda özünü Hind və Çin şahları ilə müqayisə edir.

Töhfəm yoxdur nə **Hind**, nə **Çin şahıtək** (XŞ-40).

Hind, Yunan (qoşa məc. et.) – Əslində etnonim olan bu adları şair toponim mənasında işlətmiş və İskəndərin (bax) fəth etdiyi ərazinin genişliyini göstərmişdir.

Hinddən başlayaraq **Yunana** qədər -
Hər yerdə tikdirdi böyük şəhərlər (İ-56).

Hind qılıncı (növ.) – Hindistanda hazırlanmış qılınc növü.

Əldə **Hind qılıncı** gəldim "Hind" deyə,
Sərxoş fil ətindən kabab yeməyə (İ-261).

Hind poladı (növ.) – Hindistanda istehsal olunan polad növü.

Saysız **Hind poladı**, bağlanmış yüklər,
Xalvarla tökülmüş ud ilə ənbər (İ-226).

Hind şahı (an.) – Hindistan şahının əsl adını əvəz edən ləqəbi. Furəkin atası.

Hind şahının qızı sevimli Furək (YG-74).

Aşağıdakı beytə isə Hind şahı dedikdə, şair Keydi nəzərdə tutmuşdur.

Hind şahı gördü ki, ağlı, anlağı,
Möhkəmdir, büdrəyən deyil ayağı (İ-263).

Hindi (an.) – İskəndərin Reydən olan pəhləvanının əsl adı.

Dəvalı Abxazdan, **Hindi** də Reydən... (İ-323).

Hindistan (top.) – Asiyada dövlət. Hind okeanı hövzəsində yerləşir. Paytaxtı Dehli şəhəridir. Ölkənin ərazisindən keçən Hind çayının adını daşıyır (19-264). Amma bizə elə gəlir ki, Hind çayı, Hind okeanı, Hindistan və s. adlar "hind" etnonimi ilə əlaqədardır.

Paltarını boyadı fələyin lil gölündə,
Hindistanda yas tutdu, gözu yaşlıydı gündə.
Fələyin lilini ki, yudu harda göz yaşı,
Kəndalaşlar bitirdi dərhal orda göz yaşı (SX-71).

Dini əsatirə görə, Adəm Hindistanda qırx il göy paltar geyib tövbə edərək o qədər göz yaşı tökdü ki, nəhayət, fələyin fəlakəti ondan uzaqlaşdı və onun ayaqları altında göy otlar bitdi.

...Adəm Cənnətdə olarkən oranın xəzinədarı güllərin, meyvə ağaclarının və başqa bitkilərin toxumunu ona vermişdi, o isə Yer üzünə gələndən sonra o toxumların hamısını çöllərə səpdi.

Hindistan (məc. top.) – Kainat öz gözəlliyinə və cazibədarlığına görə zəngin tarixi keçmişə malik olan Hindistana bənzədilir.

Qəmzəyə, qara xala hamı heyran, hamı mat,
Babilistan, **Hindistan** timsalıdı kainat (SX-65).

Şair öz könlünü tutuquşuna, eşq və gənclik dövrünü Hindistana bənzədir. Tutuquşu isə əsasən isti ölkələrdə, xüsusən

Hindistanda yaşayır. Oradan başqa ölkələrə aparılan tutuquşu daima öz vətənini arzulayar.

Tutiyə dönübsən, ey şad könül, sən,
Yadına **Hindistan** düşüb deyəsən! (İ-551).

Hindistan, Babil (qoşa məc. top.) – Şirin metaforik şəkildə Bərdəni Hindistana, İsfahanı isə Babilə bənzədir.

Atı **Hindistana** sürürdün yavaş,
Yolu azıb getdin **Babilə** birbaş (XŞ-268).

Yəni Bərdəyə mənimlə evlənmək üçün gəlib gedirdin, amma gedib İsfahanda Şəkərlə evləndin.

Hindistan, Çin (qoşa məc. top.) – Klassik ədəbiyyatda Hindistan – qara, Çin isə ağ rəmzi mənalar daşıyır. Şair Qızıl Arslanın saçını gah Hindistana, gah da Çinə bənzətməsindən başa düşmək olur ki, hökmdarın saçının çoxu ağarmışdır. Çünki Çin (bütün türk xalqlarının yaşadığı ərazi) Hindistana nisbətən ərazi cəhətdən də böyük hesab olunur.

Küləklər oxşayıb sığal verməkçün,
Saçını gah edər **Hindistan**, gah **Çin** (XŞ-45).

Hindli (məc. et.) – Lalənin ortası qara olduğu üçün o, qaranlıq rəmzi olan hindli ilə müqayisə edilmişdir.

Lalənin atəşgahı – laləzardır burada,
Hindli atəşpərəstdir, yanıb çatıb murada (SX-59).

Şair Bəhram Guru (bax) basqınçı hindliyə bənzədir.

Şah bildi Fitnədir onu danlayan,
Hindlitək üstünə atıldı haman (YG-111).

Yəni hindli qarətgərləri xəzinə üzərinə atılan kimi Bəhram Fitnənin üstünə atıldı.

Hindli həkim (an.) – "Hindli həkimin İskəndərlə söhbəti" hekayəsində obraz adı. Lakin əsərdə şair onu həmişə "hindli" kimi təqdim edir:

Hindli sənasını tamam elədi,
Sözün pərdəsini açaraq dedi:... (İ-484).

Hindli, Pəri, Utarid, Müştəri (qrup məc. onim) – Şair eyni vaxtda Şapuru hindliyə və Utaridə(bax), Şirini(bax) isə Pəriyə(bax) və Müştəriyə(bax) bənzədir.

Hindlitək eylədi səcdə **pəriyə**,
Sanki **Utariddi** o, **Müştəriyə** (XŞ-182).

Burada hindlilərin buddaya və mələk heykəllərinə səcdə etməsi ən kiçik ulduz olan Utarid(Merkuri) səyyarəsinin ən böyük səyyarə olan Müştəriyə (Yupiterə) münasibəti kimi göstərilir.

Hindu (məc. et.) – Bax: Hindli, Hindistan.

Hindu paltar güdəndir? Lüt qoyubdur hamını (SX-122).

"Hindu" dedikdə bütün hind xalqı nəzərdə tutulur.

Hindu sözünün qara, quldur, qul, keşikçi, oğru, xal kimi mənaları vardır.

Necə oğulsan ki, hörmət edirsən
Atanı öldürən bir **Hinduya** sən?(XŞ-158).

Nizami burada hindu sözünü üçüncü mənada işlədərək dünyanı can alan quldura bənzətmişdir.

Hindustani qılınc (ktem.) – Hindistanda hazırlanan və öz keyfiyyətinə görə fərqlənən qılınc növü.

Qılınc – Hindustani, geyim – Davudi (YG-124).

Bəhram Gurun(bax) Nemana(bax) verdiyi hədiyyələr içərisində bu cür çoxlu Hindustani qılınclar var idi.

"**Hoqqeyi-Kavus**" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"**Hoqqeyi -Kavus**"dan qənd versə əgər,
Onun mətaından öpərdi şəkər (XŞ-167).

Humay (an.) – "Yeddi gözəl" poemasında Xəvərnəq sarayında şəkli çəkilən yeddi gözəldən biri. O, **Rum qeysərinin** qızıdır. "Humay" adı Huma və ya Humay adlanan əfsanəvi quşun adından düzəlmişdir (mifonimlə ifadə olunan antroponimdir).

Şanlı qeysər qızı, şöhrəti **Humay**,
Humayun gözəli, surəti **Humay** (YG-75).

Şair eyni zamanda Humayı əfsanəvi Humaya bənzədir.

Humay (məc. mif.) – Ərəbcə Huma(y) Cənnət quşu, Dövlət quşu deməkdir. Əfsanəvi olan bu quş adından Azərbaycan folklorunda da geniş istifadə olunmuşdur.

At deyil, göyərçindi, kəklikdi, qızıl quşdu,
Ya **Humaydı**, qumrudu, - bəs bu necə uçuşdu, (SX-31).

Burada merac vaxtı Məhəmməd peyğəmbərin mindiyi əfsanəvi Buraq Humaya bənzədilmişdir.

Folklor və bədii ədəbiyyatda xərabəlik, bədbəxtlik simvolu olan bayquş səadət və dövlət quşu olan Humaya bənzədilir.

Bayquş – səadət quşu bir **Humay** olub indi,
Ayağının altında başlar zay olub indi (SX-43).

Sənin (Ərzincan hakimi Bəhram şahın) dövründə bayquş öz mənhus peşəsindən əl çəkib **humaylıq** edir və səadət bəxş etməyə çalışır.

Keydin qızı gülə, İskəndər Humaya, Humay isə o gülə vurulan bülbülə bənzədilir.

Yonulmamış bir dürr, açmamış bir gül,
Humay da o gülə vurğun bir bülbül (İ-268).

Humay quşu (məc. mif.) – Bax: Humay (mif.). Şair metaforik şəkildə göy səmanı tovuz quşuna, Günəşi isə Humay quşuna bənzətmişdir.

Yaşıl donlu tovuz **Humay quşundan**
Ağ parlaq sümüyü qapdığı zaman (İ-251).

Yaşıl donlu tovuz - göy, səma; Humay quşu – günəş; ağ parlaq sümük – sübh, səhər deməkdir. Yəni göy Günəşdən sübhü aldı, səhər açıldı.

Humeyla (an.) – "Xosrov və Şirin" poemasında obraz adı.

Humeyla dedi: "Bir parlaq su vardı
Yaşıl çəmənlikdə sakit axardı" (XŞ-129).

Huri (xat. mif.) – Ərəb sözüdür. Dini əfsanələrə görə, Cənnət əhlinə vəd edilən gözəl qızlar. Ümumiyyətlə, məcazi şəkildə gözəl qız mənasında da işlənir.

Hurilərin yanında qansız yağı yalandı,
Sevdalı aşiqlərin könül mülkü talandı (SX-64).

Şair metaforik şəkildə odu Huriyə bənzətmişdir.

Hurini cənnətdən atdı dışarı,
Qovdu cəhənnəmə dost olanları (İ-258).

Yəni hurilər yaşayan Cənnəti hurisiz qoyub, hurilərini dağıtdı. Cəhənnəm əhli olanları da Cəhənnəmdən qovdu. Burada Cənnət – atəşgah, huri – od, Cəhənnəmə dost olanlar – müğlərdir.

Hut (kos.) – Balıq bürcü. Ərəb sözüdür və böyük balıq deməkdir.

Bir qatar dəvəylə o Rəşa, Xatun
Kəcavə etmişdi bətnini **Hutun** (LM-185).

Hut, Müştəri (qoşa məc. kos.) – Bəhram Hut bürcündə doğulmuş, Müştəri səyyarəsinin isə Hutda olmağı Bəhramın xoşbəxt və qüdrətli olmağına dəlalət edir.

Taleyi **Hut** idi, **Müştəri** Hutda,
Zöhrə bir ləl idi sanki yaqutda (YG-56).

Burada Zöhrə ulduzu da yaqut üzərində olan lələ, Bəhram isə metaforik şəkildə Zöhrəyə bənzədilir.

Hüma, Bayquş (ant. on.) – Huma əfsanəvi, bayquş isə real zoonimdir. Huma (bax: Humay – mif.) dövlət quşu hesab olunur, bayquş isə bədbəxtlik, xarabalıq rəmzidir. Odur ki, bunların adları məna cəhətcə antonimdir.

Hüma kimi işə özün kölgə sal,
Bayquşlar əlindən bu ölkəni al (XŞ-52).

Hüma, Əjdaha (qoşa məc. mif.) – Şirinin rəfiqələri müxtəlif məqamlarda həm Huma quşuna, həm də Əjdahaya bənzədilir.

Hər biri meydanda bir **Hüma** idi,
Ov axtaran zaman **əjdaha** idi (XŞ-121).

Hümayun (an.) – "Xosrov və Şirin"də obraz adı. Hümayun fars sözüdür, uğurlu, səadətli, mübarək; padşaha məxsus kimi mənaları vardır. Azərbaycan klassik muğamlarından birinin də adı "Hümayun"dur.

Hümayun səsləndi: "Bir mədəndə ləl,
Gizlənirdi, ona gəlməsin xələl... (XŞ-130).

Hürmüz (an.) – Sasanilər sülaləsinə mənsub olan İran şahıdır. Ərəblər arasında Kəsra adı ilə şöhrətlənən Nuşirəvanın oğludur. Anası Xəzər xaqanının qızı olmuş və sarayda "türk şahzadəsi" kimi tanınan Hürmüz atasının ölümündən sonra 11 il (579-590) şahlıq etmişdir. Bəhram Çubinin üsyanı zamanı hakimiyyətdən qovulmuşdur.

Zaval gələn zaman Kəsra bəxtinə,
Hürmüz sahib oldu şahlıq təxtinə (XŞ-54).

Hürmüz Zərdüşt dinində yaxşılıq və işıq allahının adıdır. O, pisliklərə səbəb olan zülmət allahı Əhrimənə qarşı qoyulmuşdur. Elə buna görə də şair "Xosrov və Şirin" poemasında onu ədalətli şah kimi təsvir etmişdir.

Elə ki, şah **Hürmüz** ruh dərmanını,
Ürək meyvəsini, o cavanını
Gördü belə müdrik, belə zəkalı,
Bildi allahdandır onun bu xalı (XŞ-60).

Hürmüz (an.) – "İskəndərnamə" poemasında obraz adı.

Hürmüz adlı alim haqq danışmaqda
Gedərdi hamıdan daim qabaqda (İ-464).

- X -

Xacə (an.) – İran şahzadəsi Dürsətinin söylədiyi hekayədə obraz adı.

Xacə eyləyincə dəlikdən güzər,
- Ədəbsiz, - deyərək onu döydülər (YG-257).

Xacə (məc. an.) – Şair "Yeddi gözəl" poemasında Qara geyənlərin şahını öz dövründə yüksək rütbəli, adlı-sanlı əyanlara verilən fəxri ad olan Xacəyə bənzədir.

Yatdım, axşamadək yatdım bu sayaq;
Xacə yatırdısa, taleyi oyaq (YG-152).

Xacə Müqbil (xat. an.) – Nizam və ya Nizamülmülkə (1017-1092) işarədir. O, İranın Səlcuq hökmdarlarından Alp Arslanın və onun oğlu Məlikşahın vəziri olmuşdur. Tus şəhərində anadan olmuşdur. Onun ağlı və siyasəti sayəsində Məlikşahın hakimiyyət dövrü Səlcuq dövlətinin ən parlaq dövrü imiş. Bağdadda tikdirdiyi "Mədrəseyi-Nizamiyyə"də əsrin bütün elm və fənləri öyrədilirdi. Nizami onun ağıl və biliyini tərif etmişdir. XI əsrin ən böyük siyasi xadimi kimi şöhrətlənən Nizamülmülk "Siyasətnamə" adlı məşhur əsərin müəllifidir.

"Xacə Müqbil" antroponimik birləşməsinin birinci komponenti olan "xacə" keçmişdə titul olmuş, əvvəllər vəzirlərə, sonra isə alimlərə, həkimlərə, müəllimlərə və b. görkəmli şəxslərə ve-

rilmişdir. ”Müqbil” isə ərəbcə bəxtiyar, xoşbəxt mənasında olan xüsusi addır.

Təsadüfi deyildir ki, şair Sokratın İskəndərə söylədiyi hikmətləri təsvir edərkən Xacə Müqbili də xatırlayır.

Qəlbiqara kəsin dili düz deyil,
Olmaz hər zəncidən bir **Xacə Müqbil** (İ-482).

Hüseyn Cavid “Xəyyam” pyesində buna Xacə Nizam deyir. O, məşhur “Siyasətnamə” kitabının müəllifidir. Bu, bir çox dillərə, o cümlədən Azərbaycan dilinə Rəhim Sultanov tərəfindən tərcümə edilmişdir.

Xacə Nizami (xat. an.) – Bax: Xacə Müqbil.

“Xacə Nizami” antroponimik birləşməsi “xacə” fəxri adından və “Nizami” adından(“Nizamümülk” adının ixtisar edilməsi nəticəsində) yaranmışdır. ”Nizamimülk” ərəb sözüdür, nizam (nizamlı, müntəzəm; qanun və nizama aid, dövlət və hökumət qaydalarına uyğun deməkdir) və mülk(səltənət, dövlət, ölkə deməkdir) sözlərindən yaranmışdır.

Məlik şahın vardı, eşidib hamı,
Dinpərvər vəziri **Xacə Nizami** (YG-40).

Xacə Ömər (an.) – Nizami Gəncəvinin dayısının adıdır. Bu antroponimik birləşmədə “Xacə” fəxri ad,”Ömər” isə onun əsl adıdır.

Xacə Ömər dayım ölüb gedəndə
Düşdüm müsibətə, bəlaya mən də (LM-68).

Xaqan (an.). – “Yeddi gözəl” poemasında obraz adı. Qədim türklərdə ən yüksək titul olmuşdur. Onun kaqan, kaan kimi yazılmış formalarına da təsadüf olunur. ”Xaqan” dedikdə “Çin-(bax) xaqanı”(Şərqi Türküstan xaqanı) nəzərdə tutulur.

Xaqanı eylədi bir qasid agah
Ki, təxtü-tacından əl üzmüş padşah (YG-115).

Şair Çin xaqanının ordusunun türklərdən olması haqqında yazır:

O **türk** ordusunun artdı dəhşəti,
Qılıncdan küt oldu, ayaqdan iti (YG-118).

Xaqan (an.) – “İskəndərnamə” əsərində obraz adı.

Xaqana dedilər: bezdi çöl, orman
Zirehli atların polad nalından (İ-273).

Xaqan (məc. an.) – Xaqan Atabəy Məhəmmədin quluna bənzədilir.

O elə bir şahdır, onun hər zaman
Qapısını öpür Fəqfurla **Xaqan** (XŞ-35).

Xar (top.) – Şərqi Türküstanda olan qədim şəhərlərdən biri. Şairin təsvirinə görə, bu şəhər öz zənginliyi ilə məşhur olmuş və başqa ölkələr onunla müqayisə olunur. Yəqin ki, ”Xara” adlı ipək parça növü də bu şəhərin adı ilə bağlıdır.

Hər diyar zənginliyində **Xara** tay ola bilməz (SX-54).

Bəlkə də,”Xar” toponimi Xərxiz (bax) və ya Xırxız (bax) toponiminin birinci komponentini təşkil edən sözdür.

Xarabat (top.) – XII əsrdə Gəncədə bir məhəllənin adı olmuşdur. Həyat zövqündən pay almaq istəyən sənətkarlar, rəqqasə, xanəndə və şairlər bu məhəlləyə toplaşar, müşavirələr keçirər, elm və musiqi mövzularında mübahisələr edərdilər- (M.Gəncəvi. Rübailər. Şərhlər). “Xarabat” sözü məcazi mənada meyxana, işrət yeri kimi də işlədilir.

Talanmışam yolunda,mənim olub Kəbə də,
Xarabata köçəli qənim olub Kəbə də...
Xarabatı döndərib xarabaya əməlim (SX-107).
Xarabatın yolundan varmı məgər yaxşı yol?
Xarabata üz qoyam, hamı deyər: ”Yaxşı yol”(SX-115).

Xarəzm (top.) – Xəzərin şərqində Aral gölü ilə Amu-Dərya arasında yerləşən geniş bir ərazini əhatə edən bir ölkədir. Aral gölü bu ölkəyə aid olduğuna görə bəzən coğrafiyaşünaslar tərəfindən Xarəzm dənizi adlandırılmışdı.

1048-1049-cu ildə Səlcuq hökmdarlarından Qütbəddin Məhəmməd tərəfindən müstəqil dövlət elan olunmuş, Xarəzmşahlar Çingizin istilasına qədər hökmranlıq etmişdir. Hazırda bu ölkənin şimal-şərq hissəsi Xivə, qərb-şimal hissəsi Üst Yurd, cənubu isə Qaraqum adlanır. Qədim tarixə malik olan bu yerin adı yunan tarixçisi Herodotun əsərində və “Avesta”da da çəkilmişdir.

“Yeddi gözəl” poemasında təsvir olunan gözəllərdən biri olan Nazpəri Xarəzm şahının qızıdır.

Xarəzm şahzadəsi gözəl Nazpəri... (YG-74).

Aşağıdakı misrada isə söhbət Atabəy Əbu Cəfər Eldəgizdən gedir.

Şəbxunu **Xarəzmdə,** Səmərqənddədir (XŞ-38).

Xatun (an.) – Zənnimizcə, “qadın” sözünün farslaşdırılmış formasıdır. Orta əsrlərdə xaqan, xan(ümumiyyətlə, hökmdar) arvadlarına verilən titul kimi işlənmişdir. Bu titul ərəblərdə də, farslarda da, hətta Kiyev-Rus dövlətində də eyni mənada işlənmişdir.

Bir qatar dəvəylə o Rəşa, **Xatun**
Kəcavə etmişdi bətnini Hutun (LM-185).

“Leyli və Məcnun” poemasının filoloji tərcüməsində **“Rəşa xatunu”** kimi tərcümə olunmuşdur.

Xavər ölkəsi (top.) – İskəndərin pəhləvanı Niyalın vətəni.

Xavər ölkəsindən Niyal pəhləvan (İ-324).

“Xavər” fars sözüdür və şərq, günçıxan, gündoğan deməkdir. “Xəmsə”də Günəşin doğduğu yer Çin təsvir olunduğunu və həmişə Günəşin Çin xaqanına, Çin şahına bənzədildiyini nəzərə alaraq Xavər ölkəsinin Çin ölkəsi olması qənaətinə gəlmək olar.

Xeyir (an.) – “Xeyir ilə Şər hekayəsi”ndə obraz adı. Obrazın adı ilə həmin obrazın xarakter xüsusiyyətləri bir-birinə tam uyğun gəlir.

Sənin adın nədir? Dedi: **“Xeyirdir!**
Səadət bəxş etmiş mənə ülkərim.
Uyğundur adıma sözüm, işlərim.
Şah onun adını bilib yaxşı fal...
“Adın bu əməlin naxşıdır” – dedi (YG-298).

Xeyir, Şər (ant. an.) – “Xeyir ilə Şər hekayəsi”ndə obraz adları . Hər iki ad özü haqqında məlumat verən “danışan” adlardır və obrazı düzgün xarakterizə edir. Xeyir – müsbət, Şər isə mənfi çalara malikdir.

Gəncin biri **Xeyir,** birisi **Şərdi,**
Onlar adlarıtək işlər görərdi (YG-235).

Belə adlar poetik onomastikada "danışan"(yəni adlandırma xüsusiyyətlərindən başqa, şəxsin özü haqqında əlavə məlumat verən) adlar hesab edilir. Doğrudan da, əsərdə Xeyir və Şər ancaq adlarına uyğun hərəkət edirlər. Obrazların bu cür adlandırılması isə qədim türk ad sistemi ilə əlaqədardır.

Şairin ilk əsəri olan "Sirlər xəzinəsi" əsərində də Xeyir və Şərlə əlaqədar olan fikirlərə rast gəlirik.

Xeyirlə şər izləyir hər bəşəri əzəldən,
Xeyir xeyri tapandır, şər də şəri əzəldən (SX-103).

Xəlifə lüqməsi (fit.) – Dadlı və rahat həzm olunan xirniyə bənzər meyvə adı (YG-343).

"Xəlifə lüqməsi" xəlvətə saldı,
Canan dodağından üç öpüş aldı (YG-219).

Xəlifəyi-şam (məc. kos.) – Şair Ay planetini metaforik şəkildə Xəlifə şamına, səmanı isə onun paltarına bənzədir.

Yaşıl geydiyiçin **xəlifəyi-şam**
Geyinsin söylədi qırmızı, Bəhram (YG-27).

Xəlil (xat. ag.) – Bax: İbrahim. "Xəlil" ərəbcə dost, yaxın yoldaş, sevgili deməkdir. "Xəlilullah" İbrahim peyğəmbərin epitetidir. Dini ədəbiyyatda onun adı həm də "İbrahimxəlil" və sadəcə olaraq "Xəlil" kimi də xatırlanır. Dini rəvayətə görə, İbrahimxəlil peyğəmbər öz atasının dinini, yəni bütpərəstliyi atmış, bütxanəyə gedib bütləri qırmışdır. Burada Xəlil – İbrahimxəlil peyğəmbərə işarə olmaqdan əlavə, eyni zamanda, dost mənasını verir. İbrahimxəlil əvvəl bütpərəst ikən biganə idi, Allahı tanımırdı, sonra Allahı tanıdı, bütləri qırdı, biganəlikdən çıxıb dost oldu.

Gah **Xəlil** alırsan bütxanələrdən,
Gah dost yaradırsan biganələrdən (İ-17).

Xəlil, Məsih (qoşa məc. ag.) – Xəlil – İbrahim(bax) peyğəmbər, Məsih(bax) isə İsa peyğəmbərdir. Şair eyni vaxtda Məhəmməd peyğəmbəri Xəlil və Məsihlə müqayisə edir.

Xəlil – qoşununun bir əskəridir,
Məsih karvanının bir rəhbəridir (XŞ-30).

Burada İbrahimxəlil Məhəmməd peyğəmbərin qoşununun əskərinə, Məsih isə onun karvanının rəhbərinə(sarvana) bənzədilir.

Xəllux (top.) – Türküstanda vaxtı ilə qənirsiz gözəllərilə məşhur bir şəhər olmuşdur.

Onu oxuyanda ürək şadlansın,
Müşk səpildiyi yer **Xəllux** adlansın (XŞ-21).

Yəni "Xosrov və Şirin" əsərini oxuyanda qoy ürəklər şadlansin. Müşk kimi qoxuyan həmin əsərin oxunduğu yer isə qənirsiz gözəlləri ilə şöhrətlənən Xəllux adlansın.

Xəllux bütləri (məc. ap.) – Xəllux gözəlləri deməkdir. Şair Şirini Xəllux bütlərinin Günəşinə bənzədir.

Xəllux bütlərinin bütləri dildar
Yeri öpüb dedi: - Sən ey hökmdar! (XŞ-265).

Xəllux əhli, Həbəş (qoşa məc. et.) – Şair Türkütazı(bax) Xəllux əhlinə, Türkünazı(bax) isə həbəşə(Həbəşistanda yaşayanlara) bənzədir. Şərq ədəbiyyatında həbəş qaranlıq və çirkinlik rəmzi olubdur(YG-338).

Nazını çəkərəm, naz çəkmək peşəm,
Sən **Xəllux əhlisən,** mənsə **Həbəşəm** (YG-159).

Xərçəng (kos.) – Xərçəng bürcü. Bu bürcü Sərətan da adlandırırlar. Bu bürcdə yerləşən 13 ulduzun ümumi görünüşü taca bənzəyir.

Bu səfərdə göylərdən töhfə aldı, bac aldı,
Cövzadan kəmər aldı, **Xərçəngdənsə** tac aldı (SX-30).

Burada söhbət Məhəmməd peyğəmbərdən gedir. Aşağıdakı beytdə isə şair Xərçəng bürcünün adını onun apelyativ mənası ilə qarşılaşdırır.

Qayçı dırnağını uzadıb **Xərçəng,**
Vəhşi dırnağını tuturdu, gerçək (LM-184).

Xərxiz (top.) – Orta Asiyada əla növlü müşk istehsal olunan bir şəhərdir. Burada əla mallar da toxunur ki, həmin mallara da "Xərxiz" deyirlər. "Xərxiz" indiki "qırğız" sözünün arxaik formasıdır.

Xərxiz ilə Çaçdan, böyük Kaşğardan
Çağırdı hesabsız igid pəhləvan (İ-274).

Xəstə Fərhad (an.) – Antroponimik birləşmənin birinci komponenti Fərhadın(bax) ləqəbi, ikinci komponenti isə əsl addır.

Gecə sübhə kimi edirdi fəryad,
Gündüz daş çapırdı zavallı Fərhad...
"Xəstə Fərhad"adı gəzdi dünyanı,
Dillərdə dolaşdı onun dastanı (XŞ-203).

Xəta (məc. top.) – Çində vilayət adıdır. Bəzən bu ad altında Çinin özü də nəzərdə tutulur. Rus dilində Çin adının "Kitay" kimi səslənməsi də məhz bununla əlaqədardır. Kitay adı "Xəta"nın fonetik cəhətcə dəyişdirilmiş formasıdır.

Onun gətirdiyi qul yox, pəridir,
Xətanın, Xəlluxun gözəlləridir (YG-166).

Şair Çindən gələn sövdəgərin satdığı kənizləri öz gözəlləri ilə məşhur olan Xəta və Xəllux gözəllərinə bənzədir.

Xəta türkləri (et.) – Xəta ölkəsində yaşayan türk xalqları nəzərdə tutulur.

Dünyanın şahına verdilər xəbər,
Çin, **Xəta türkləri** hərbə gəldilər (İ-276).

Xətayi (növ.) – Vaxtilə Xətay(Kitay, Çin) zərxara geyimləri ən gözəl və qiymətli geyimlər sayılırdı. Demək, şair "Xətayi" dedikdə Körpə Arslan şahın(bax) Çin zərxaralarından olan paltarlarına işarə edir.

Göy sənin qapında bir quldur, əhsən,
Xətayi geyinib, xəta örtənsən (YG-319).

Şair xətapuş(xətaları, nöqsanları ört-basdır edən) və Xətayipuş(qiymətli Kitay libasları geyən) sözlərinin omonimiyasından mahiranə istifadə edib gözəl cinas düzəltmişdir (YG-353).

Xətib (məc. an.) – Ərəb sözüdür, məsciddə xütbə oxuyan deməkdir. Hökmdarların katiblərinə də Xətib deyilir.

Atəşpərəst önündə xaça dönmək yaraşmaz,
Xətib kimi qılıncla öyünməkdən kar aşmaz (SX-132).

Xətib kimi qılıncla atəşpərəstlərin önündə belini səlib kimi büküb təslim olma. Öz iti dilinə güvənib xətiblik rütbəsini istəmə(SX-189).

Xətlan atı (zo.) – Keçmişdə Mavərənnəhrdə Səmərqənd yaxınlığında Xətlan(Xətlanlı, Xətdan) adlı bir vilayət olmuşdur (İ-414). Görünür, keçmişdə Xətlanda yetişdirilən cins atları məşhur imiş.

Səkil **Xətlan atını** minib ucal fələyə,
Al qurğuşun qalanı, qələbə çal fələyə (SX-146).

Xəvərnəq (top.) – Yəmən hökmdarı Nemanın şahzadə Bəhram üçün rumlu memar Sam oğlu Simnara tikdirdiyi sarayın adı.

Bəhramın hünəri saçınca şəfəq
Döndü bir bəzəkli bağa **Xavərnəq** (YG-62).

Xəvərnəq Allahı (məc. teon.) – Xəvərnəq sarayını tikən və Neman tərəfindən onun qülləsindən atdırılan Simnara xalq tərəfindən verilən ad.

Bu yüksək binadan Nemanın adı
Göydəki ay kimi qalxıb parladı.
Cadugər çağırdı adını torpaq,
Xəvərnəq allahı saydı onu xalq (YG-62).

Xəzər (et. top.) – Xəzər dənizinin şimal-qərbində və Volqa çayının hər iki sahilində yerləşən türk dövlətinin adı.

Xəzər yoxsulları, Rum varlıları
Lütfsüz görməmiş bu hökmdarı (XŞ-43).

Burada söhbət Qızıl Arslandan gedir. Birinci misradakı Xəzər və Rum neytral toponimləri yoxsul və varlı sözləri ilə antonim məna kəsb etmişdir.

Məşhur tarixçi-türkoloq L.N.Qumilev ”Otkrıtie Xazarii” kitabında (Moskva. “Nauka”. 1986) göstərir ki, Xəzər dövləti şərqdən Xarəzmlə, daha doğrusu Manqışlaq və Çetyurdla həmsərhəd idi. Bütün Uralın cənub hissəsi onların dövlətinə tabe idi(səh.9). IV əsrin ortalarından başlayaraq qərbə irəlilədikcə Xəzər dövləti daha fəallaşdı.

S.A.Pletnevanın “Xazari” adlı kitabında (M. ”Nauka”, 1986) VIII-IX əsrlərə aid bir xəritədə Xəzər dövlətinin ərazisi daha genişdir. Qafqaz sıra dağları və Qara dənizdən şimala doğru, Volqa çayından müasir Polşaya qədər bütün ərazi Xəzərlərə tabe idi(səh.47). X əsrdə Xəzər dövlətinin xaqanı (Onlar bəzən bəy, bek, şad da adlanırdılar) olan İosif Xəzər dövlətinin tarixi haq-

qında daha geniş məlumat verir. Onun fikrincə, xəzərlərin ulu babası Yafəs(Yafət) peyğəmbərin(Yafəs isə Nuh peyğəmbərin oğlu Toqarm olmuşdur. (Qədim Yəhudi mənbələrində bütün türk xalqları Toqarm adlanırlar). Toqarmın isə on oğlu olmuşdur. Aqiyor (Abiyor və ya Uyur), Tur-e (Turis), Abar (Abaz), Uqin (Uquz), Biz-l, T-r-na, Xəzər, Znur(Yanur), Savir və s.(səh. 7).

İosif özünə qədər xaqan olan 13 hökmdarın adını çəkir. Bulan, onun oğlu Obadiya, onun oğlu Yezenukki, onun oğlu Manassiya, onun qardaşı Obadin, onun oğlu Xanukka,onun oğlu İsaak, onun oğlu Zavulon, onun oğlu Manassiya, onun oğlu Nissi, onun oğlu Manaxem, onun oğlu Veniamin, onun oğlu Laron(səh.8). Qədim türk ad sisteminin tədqiq edilməsində bu nümunələrin böyük əhəmiyyəti vardır. İosif qeyd edir ki, əgər mən rusları bir saat nəzarətsiz buraxsam, onlar Bağdada qədər bütün ölkələri yerlə-yeksan edərlər (səh. 10).

Xəzər dövlətinin ən böyük şəhərləri bunlar idi: Səməndər(Ölkənin paytaxtı olan bu şəhər bəzən Tarku da adlanır), Bersil, Biləncər, İtil, Xamlic, Bayda(VIII əsrdə xanın qalası yerləşən bu şəhər həm də Saraşen adlanır), Sabqar Xtlq, Lkn, Sur, Masmada və s. (səh. 29).

Kiyev-Rus dövlətinin knyazı Svyatoslav(Onun qadını Xəzər xaqanının qızı olmuş və “Xatun” adlanmışdır) 6473(965)-ci ildə Xəzər dövlətini işğal etdi. Bolqar, Xazaran, Util, Səməndər və digər şəhər və kəndlər yerlə-yeksan olundu. İtil şəhərinin adına ancaq XII əsr mənbələrində Saksun adı ilə təsadüf olunur(“Xazari”. səh. 71-72).

Xəzər dağı (top.) – Xəzər dənizinin qərbində yerləşən ya Qafqaz dağlarına, ya da həmin dənizin cənubunda yerləşən Elbrus dağına işarədir.

Xəzər dağından Çin suyuna qədər
Türklərlə doludur bütün bu yerlər (İ-324).

Xəzər dənizi (top.) – Qafqazla Orta Asiya arasında yerləşir. Keçmişdə dənizin qərb sahillərində yaşayan “Qas” və ya “Xas” tayfasının adını daşıyır. Ədəbiyyatda dənizin 60-dan çox adı məlumdur. Bu adlar sırasına Kaspi, Avesta, Alban, Bakı, Kirkan,

Qərb, Şimal, Xvalın, Təbəristan, Salyan, Şirvan, Dərbənd, Gilan, Türkmən, Həştərxan, Teymsan və s. daxildir. ”Xəzər” və “Kaspi” eyni mənanı ifadə edən tayfa adıdır (19- 258).

Xəzər dənizinə durdum baxım mən,
Damlalar çiləyim suya qədəhdən (İ-228).

Nümunə İskəndərin dilindən söylənmişdir.

Xəzərli (et.) – Xəzər dənizinin şimal-qərbində və Volqa çayının hər iki sahilində yerləşən türk qəbilələrindən biri olmuşdur. ”Xəzərli” isə Xəzər dövlətinin ərazisində yaşayanlardır.

Buxaralı, gilək, kürd və **xəzərli**
Bir parça çörəyi tutmuş dörd əlli (İ-44).

Xəzinə (ap.) – Şair “İqbalnamə” əsərini xəzinəyə bənzədir.

Belə **xəzinəni** bəxt verir ancaq,
Xəzinən dünyanı nurlandıracaq (İ-425).

Xəzran (top. et.) – Xəzər dövlətinin ən böyük şəhərlərindən birinin adı. Lakin bu şəhər adı kiçik hərflə yazılmışdır. ”Xəzran”ı Xəzər dövlətinin ərazisində yaşayan xalqın adı kimi də başa düşmək olar. Bəlkə də, tərcüməçilər bunu nəzərə almışlar. Əslində bütün etnonimlər də böyük hərflə yazılmalıdır.

Onda çöl xalqının axınlarından
Rahatlıq içində dincələr **xəzran** (İ-238).

Xırxız (top.) – Bax: Xərxiz.

İskəndər gözündən qovub yuxunu,
İstədi **Xırxıza** çəksin qoşunu (İ-568).

Bizə elə gəlir ki,”Xərxiz” adının bu cür yazılışı daha düzgündür.

Xızır (ag.) – “Mahanın hekayəsi”ndə obraz adı. Mahanı qorxunc səhradan, müxtəlif şəkillərə düşən cin və əjdahaların əlindən xilas edən yaşıl paltarlı Xızır olur.

Mahan – Kimsən? – dedi. – Niyyətin nədir?
Qiymətli gövhərsən, şöhrətin nədir?
– Xilaskarın **Xızram** -dedi, -mən sənin
Gəlmişəm tutmağa əlindən sənin (YG-232).

Şair “İskəndərnamə” əsərində də onun obrazını yaratmışdır. İskəndər Dirilik suyu dalınca Zülmətə gedəndə Xızırı da özü ilə aparmışdı.

Xızır iz salmışdı sanki bu yola,
Yainki gedirdi şahla qol-qola (İ-376).
Söylədi o zaman böyük İskəndər,
Ona rəhbər olsun **Xızır** peyğəmbər (İ-381).

Xızır (xat. ag.) – Yaşıl geyimli əsrarəngiz bir qeyri-rəsmi peyğəmbərdir. O, Zülmətdə yerləşən Dirilik suyunu tapıb, ondan içmiş və gözəgörünməz şəkildə əbədi yaşayır. Xızır biyabanlarda azmışları, tufana qərq olmuşları ölümdən xilas edir.

Xızır, eyni zamanda şairlərin məsləhətçisi, köməkçisi və ilham mənbəyidir.

Xızır – türkdilli sözdür; ”xız”(“xıd”) və “ır” tərkibindən yaranmışdır. Xız // xuz bir çox türk dillərində çoxmənalıdır. Onun “qızmaq”, “hərarət”, “atəş”, “qız(ğınlıq)”, “coş(ğunluq)” və eləcə də “qüvvət–qut”(Azərbaycan dilində işlənən “Ürəyində qut olsun” ifadəsindəki “qut”la müqayisə et) mənası vardır... Bir sözlə “xız” istiliklə, odla əlaqədar sözdür. Azərbaycanda “xız” sözündən yaranmış Xız+ı yer adı vardır. Xız+ı qüvvə güc yeri mənasını verir. Bizcə, ”Xəzər” sözü də “xız”la əlaqədardır və “xəz”//“xız”+ər güclü, coşqun, qüvvətli ər mənasındadır(47-106).

Qəlbindən dərya açdı buludların zöhrəsi,
Xızırın çeşməsilə güldü çəmən çöhrəsi (SX-23).

Xızır peyğəmbərin Dirilik çeşməsinə yetişməsinə işarədir.

Xızır (məc. ag.) – Şair Xızırı Məhəmməd peyğəmbərlə müqayisə edir.

Gedərgəlməz səfərə atını çapdı **Xızır,**
Ətəyini isladıb çeşməni tapdı **Xızır (**SX-39).

Şair burada başa çatdırılmayan səfəri nəzərdə tutub.

Xızır zülmətdə tapdığı dirilik suyuna aludə olub öz ətəyini yaş etdi. Ətəyini yaş etmək – islatmaq ifadəsinin məcazi mənası “günahkar”dır deməkdir. Yəni əbədi həyat naminə Xızır peyğəmbərlik topunun arxasınca getməyib dirilik suyunun dalınca qaçdı və beləliklə, Allahın qarşısında günahkar oldu.

Şair özünü Xızır peyğəmbərlə müqayisə edir.

Xızır – sənət çeşməmdə sındırar kuzəsini (SX-45).

Yəni: Xızır peyğəmbər dirilik suyu içib əbədiyyət qazansa da, mənim sənət çeşməmdən içə bilməz. Aşağıda isə şair özünü Xızıra bənzədir.

Bütün örtülmüşlər bizə sehirdir,
Xızır adını çəkdin, **Xızır** hazırdır.
Şeiri oxunanda bu Nizaminin
Özü də hər sözdə görünər yəqin (XŞ-362).

Şair Rus şahzadəsinə(bax) tilsimləri açmağın yolunu öyrədən qocanı Xızıra bənzədir.

Səadət üzündən igid, qəhrəman
Aldı bu **Xızırdan** xeylicə ürfan (YG-200).

"Xəmsə"nin bir çox yerində Xızır adı "Xızr" kimi yazılmışdır. Məsələn, şair metaforik şəkildə Körpə Arslan şahı(bax) Xızır peyğəmbərə bənzədərkən yazır:

Bu **Xızrın** payidar olsun şöhrəti,
Onun abi-həyat tapsın xisləti (YG-38).

Beytin mənası: Qoy Körpə Arslan Xızır kimi həmişə yaşasın və onun zövcəsi dirilik suyu kimi onun əbədiyyət mənbəyi olsun!

Şair "Yeddi gözəl" poemasını dirilik suyuna, Körpə Arslan şahı(bax) isə Xızır peyğəmbərə bənzədir.

Şeirimdən həyatın suyunu iç, al,
Sən də **Xızr** kimi daim diri qal (YG-311).

Şair İskəndəri Xızra, Çin(Türk) xaqanının onun şərəfinə təşkil etdiyi məclisi isə dirilik suyuna bənzədir.

İskəndər çatınca süfrə suyuna,
Elə bil çatdı **Xızr** həyat suyuna (İ-304).

Xızır, İlyas (qoşa ag.) – Guya İlyas da(bax) Xızırla birlikdə Dırılık suyu içmiş, əbədiyyətə qovuşmuşdur. Klassik ədəbiyyatda, o cümlədən "Xəmsə"də çox vaxt onların adları yanaşı çəkilir.

Xızr, İlyas kam aldı həyat suyundan
Ancaq vermədilər özgəyə nişan (İ-384).

Bəlinas ölüm ayağında Xızr və İlyas kimi əbədi yaşayacağından xəbər verir.

Səhralar, dənizlər qarşımı almaz,
Çöldə **Xızr** olaram, dənizdə **İlyas** (İ-605).

Xızır, İskəndər (qoşa məc. ag.) – Şair eyni zamanda Məcnunu Xızıra və İskəndərə bənzədir.

Günəş çeşməsindən **Xızr** kimi iç,
İskəndər kimi də üfüqləri keç (LM-217).

Şair eyni vaxtda Atabəy Nüsrətəddin Əbubəkri də Xızır və İskəndərə bənzədir.

Dünyanın **Xızrısan, İskəndərisən,**
Həm mülkün, həm həyat suyun var, əhsən.
Fəth etdin **İskəndər** kimi dünyanı,
Xızrtək doğrultdun yoldan azanı (İ-50).

Xızır, Məhəmməd (müq. ag.) – Burada Xızır və Məhəmməd müqayisə olunur və üstünlük Məhəmməd peyğəmbərə verilir.

Xızra abi- həyat oldusa qismət,
Həyat çeşməsindən içdi **Məhəmməd** (İ-414).

Əgər Xızr Zülmata gedib Dirilik suyuna çatdısa, Məhəmməd peyğəmbər merac gecəsi daha yüksək məqama çatdı (İ-653).

Xızır, Musa (qoşa məc. ag.) – Əbədiyyət yolunun yolçuları Xızıra və Musaya(bax) bənzədilir.

Əbədiyyət yoluna kim yolçusa cahanda,
Odur **Xızrın** yoldaşı, odur **Musa** cahanda (SX-138).

Qəza və qədərin fəlakətli yoluna yalnız möhkəm iradəli, sabitqədəm adamlar dözə bilərlər. Çətin, təhlükəli yollarda fəlakətə düçar olmuş insanları xilas etmək üçün Xızır kimi çalışqan bir adama Musa peyğəmbər kimi mətin və möhkəm bir insan yoldaşlıq edə bilər (SX-190).

Xızır, Musa, İsa (qrup məc. ag.) – Şair eyni vaxtda Xızır və Musanı Məhəmməd peyğəmbərin qasidinə, İsa peyğəmbəri isə onun mehtərinə bənzədir.

Yanında qasiddi **Xızr** ilə **Musa,**
Atının önündə gedirdi **İsa** (İ-26).

Xızır, Nuh (qoşa ag.) – Şair həm Xızırı, həm də Nuhu namərdlərə qarşı mübarizədə köməyə çağırmaq məqsədi ilə cə-

miyyətdə mövcud olan haqsızlığa qarşı kin və nifrətini ifadə etməyə çalışmışdır.

Sən ey **Xızrın** bayrağı, ucal, cihad eylə sən,
Nuhun qeyzi, namərdi batır, bərbad eylə sən (SX-150).

Xızırın bayrağı (məc. ktem.) – Əsatirə görə, İskəndərlə Zülmətə dirilik suyu axtarmağa gedəndə Xızır İskəndərin qoşunun bayraqdarı olmuşdur (SX -193).

Sən, ey **Xızrın bayrağı,** ucal, cihad eylə sən (SX-150).

Xızırın suyu (məc. on.) – Şair Leylinin dilindən Məcnunu Xızır suyuna bənzədir.

Ey zülmətdə qalan **Xızrın suyu,** sən
İlk səhər şəminin pərvanəsisən (LM-195).

Xoca (məc. an.) – Lüğətlərdə fars sözü kimi izah olunan "xoca" türk dilli xalqlarda müxtəlif mənalarda işlənmişdir: müəllim, molla(köhnə məktəblərdə), ruhani şəxs, ağa, həkim, fəxri ad, tacir və s. Azərbaycan dilində "xacə"(bax) şəklində də yazılan bu söz, zənnimizcə, türk dillərində işlənən və müdriklik mənasında olan "qoca" sözündən yaranmışdır. Yəqin ki, "Siyasətnamə" əsərinin müəllifi Xacə Nizam vəzirlik etdiyi zaman öz müdrikliyinə görə bu ada layiq görülmüş və ilk dəfə olaraq "xacə" fəxri adını almışdır. Bundan sonra "xacə, xoca" adı bütün Şərq ölkələrində işlənən ən aktiv sözlərdən birinə çevrilmiş, hətta müxtəlif hökmdarların tapşırıqlarını yerinə yetirən və saray hərəmxanalarını idarə edən axtalara da fəxri ad kimi verilmişdir. Bu adın tacirlərə verilməsi də onların kəşfiyyatçılığı ilə əlaqədardır.

Nizami Şirinin gəlinlik otağında Xosrovu Xocaya bənzədir.

Xuzistana gəldi fərəhli **Xoca,**
Nabat, qənd sındırdı orda çoxluca (XŞ-315).

"Xuzistan" dedikdə isə Şirinin otağı nəzərdə tutulmuşdur.

Xorasan (top.) – Orta əsrlərə qədər Orta Asiyanın ən böyük ölkələrindən biri olmuşdur. XX əsrə qədər tamamilə İrana daxil idi. Hazırda qərb hissəsi(əsas hissəsi) İrana, şərq hissəsi Əfqanıstana, şimal hissəsi isə Tacikistana daxildir. Xorasanın hüdudları haqqında coğrafiyaşünasların rəyləri müxtəlif olmuşdur. Guya buna səbəb odur ki, müxtəlif dövrlərdə Xorasanın ərazisi genişlənmiş və

kiçilmişdir. Qədim İran dövlətləri, yəni Pişdadyan və Kəyanyan zamanında əsil İran Xorasan və onun ətrafından ibarət olmuş və Bəlx şəhəri İranın paytaxtı olmuşdur. Xorasan adı bu ölkəyə Sasanilər zamanında verilmişdir. Mənası fars dilində (pəhləvi dilində) Günəş yurdu, yəni Şərq deməkdir. Şiələrin 8-ci imamı olan Rzanın qəbri bu vilayətin mərkəzi olan Məşhəd şəhərində olduğundan bura ziyarətgah hesab olunur (SX-118).

Xorasanda Səncərin zülmü elə car oldu,
Eşitmədi bunları, bəlaya düçar oldu (SX-87).

Burada Səncərin ədalətsizliyinə və bunun nəticəsində əsir alınıb, taxt-tacının əlindən çıxmasına və ölümünə işarə olunur.

Zəfəri çox asan sanıb dururdu,
Xorasan mülkündən xərac umurdu (İ-103).

Burada isə söhbət İskəndərdən gedir.

Xorəzm (top.) – Bax: Xarəzm.

Çin, **Xorəzm**, Qəzneyn, Qur mahalından,
Yer dəmir kəsildi heyvan nalından (İ-117).

Xoruz (məc. ap. mif.) – Nizami özünü guya göydə yaşayan və hər səhər ilk banlayan xoruza, o biri şairləri isə onu təqlid edərək, yerdə banlayan xoruzlara bənzədir.

Deyirlər: göylərdə bir ağ **xoruz** var,
O, ərşin altında tutubdur qərar.
Deyirlər: o **xoruz** banlar hər səhər,
Yerdəki xoruzlar ona səs verər.
Bilin ki, göylərin o quşu mənəm (İ-425).

Xosrov (an.) – Xosrov Pərvizin(bax) əsl adı.

Bu söhbətdən keçdi bir neçə zaman,
Xosrov hər hünərdə oldu qəhrəman (XŞ-55).

Bu, Pərvizin əsl adı olsa da, ümumiyyətlə İran şahlarına verilən ümumi tituldur. Məsələn, şair "Xosrov" dedikdə, Xosrov Pərvizi yox, Bəhram Guru nəzərdə tutur.

Şahın yanındaydı sərhəngin özü,
Xosrovdan eşidib belə bir sözü (YG-107).

“Xosrov qaydası” isə şahlıq, hökmranlıq qaydası deməkdir. Yəni Neman qoy Bəhrama hökmranlıq qayda-qanunlarını – Şahlıq fənnini öyrətsin.

Xosrov qaydasını ona öyrətsin,
Şahlıq ədəbini qoy təlim etsin (YG-57).

Atəşpərəstlik dinini ləğv edən İskəndər, camaatdan tələb edirdi ki, köhnə ayinə, Xosrov dininə itaət etsinlər.

Üz çevirsinlər qoy köhnə ayinə,
Pərəstiş etsinlər **Xosrov dininə** (İ-171).
İbrahim dinini doğru yol bildi,
Atəş tüstüsünü dillərdən sildi (İ-174).

İbrahim(bax) dini isə tək Allaha itaət etməyi təbliğ edirdi. Xosrov dedikdə, şair Keyxosrovu nəzərdə tutmuşdur.

Bu taxt ki, **Xosrovdan** qalmış yadigar,
Şahın ölümündən açarmı əsrar? (İ-243).

Xosrov (məc. an.) – Şirin Xosrova bənzədilir.

Gəlmiş kimi hamı şah hüzuruna
Hörmət eylədilər **Xosrovtək** ona (XŞ-96).

Yəni Mədainə gələndən sonra Xosrovun hüzurunda duran kimi Şirinə qulluq edirdilər.

Günəş planeti Xosrova(hökmdar, padşah deməkdir) bənzədilir.

Tezdən duran **Xosrov** səhər vaxtında
Sevinclə əyləşdi şahlıq taxtında (LM-248).

Xosrov, Barbət (məc. xat. an.) – Şair “İqbalnamə” əsərinin “Nizaminin rüzgarının sonu” hissəsində Xosrov və Barbəti (bax) də xatırlayır. Eyni zamanda burada müğənnini Xosrov məclisində çalan Barbətə, şair özünü isə Xosrova bənzətmişdir.

Müğənni, çal görək bir “Ramişi-can”,
Açılsın ürəyim o xoş havadan!
Xosrov məclisində **Barbət** çalantək
Çal bir-bir nəğməni, birdən yüzədək! (İ-607).

Xosrov, Fərhad (qoşa an.) – Şair onların adını hadisələrin təsviri zamanı bir-birinin əksini təşkil edən obraz adı kimi yanaşı işlətmişdir.

Xosrov əvvəl sordu: “Hardansan, cavan?”
Fərhad cavab verdi: “Dost diyarından”... (XŞ-193).

Xosrov, Keyxosrov (ep. an.) – Xosrov adı və Keyxosrov adının ikinci komponenti fonetik cəhətcə eynidir.

Xosrov yox, **Keyxosrov** olsa da bişəkk,
Ayla vuruşmağa çıxmasın gərək (XŞ-176).

Şirin özünü həm də Ay adlandırır və onlarla müqayisə edir. Aşağıdakı beytdə isə Xosrov Keyxosrovla müqayisə olunur.

Xosrovun taxtına hər kim baxanda
Min **Keyxosrov** camı görərdi onda (XŞ-221).

Xosrov, Keyqubad, Cəmşid (qrup məc. an.) – Şair Leylinin ölümünü təsvir edərkən Şərq ədəbiyyatında qüdrətli hökmdar rəmzi olan bu şəxsləri xatırladır.

O **Xosrov, Keyqubad,** o **Cəmşid** hanı?
Onlar gedən yolu gedəcək hamı (LM-266).

Yəni, hamı onlar gedən yolu gedəcəkdir – öləcəkdir.

Xosrov Pərviz (an.) – İranın qədim padşahlarından Sasanilər sülaləsinin 22-ci hökmdarı olmuşdur. Hörmüzün oğlu, Nuşirəvan Adilin nəvəsidir. 38 il(590-628-ci illərdə) hakimiyyət sürmüş, sonra səfahətə qapılmışdır. 628-ci ildə taxtdan salınıb həbs edilmiş, yerinə oğlu Şiruyə keçmişdir.

Şair öz məqsədinə uyğun olaraq bu hadisəni müəyyən dərəcədə dəyişdirmiş və onun yadda qalan obrazını yaratmışdır. Xosrov(Farsca hökmdar, padşah deməkdir. Bu adın “Kəsra” və yaxud “Qeysər” adından yaranması haqqında fikirlər vardır) onun əsl adı, Pərviz isə(Farsca “pərvaz” sözündən olub, uçma, uçuş; uçmağa yeni başlamış quş deməkdir. “Pərvaz” sözündəki “pər”, bəlkə də, türk dillərindəki “par”, “parlamaq” və s. ilə əlaqədardır) onun ləqəbidir.

Atası görəndə istedadını,
Xosrov Pərviz qoydu onun adını.
Kimi görsə sarılırdı boynuna,
Bu səbəbdən **Pərviz** dedilər ona (XŞ-54).

Xosrov, Şirin (qoşa an.) – "Xosrov və Şirin" poemasının qəhrəmanlarının adları çox vaxt Leyli və Məcnun, Vis və Ramin və başqa aşiq və məşuqələrin adları kimi yanaşı işlədilir.

Xosrovdan, Şirindən qalan yadigar... (XŞ-48).

Xosrov, Şirin (qoşa məc. an.) – İskəndərin Nüşabənin şərəfinə təşkil etdiyi şənlik məclisi Xosrovla Şirinin məclisləri ilə müqayisə olunur və üstünlük birincilərə verilir.

Gülab kimi axan bu arxı, yəqin
Yuxuda nə **Xosrov** görmüş, nə **Şirin** (İ-220).

"Xosrov – Şirin" (id.) – "Xosrov və Şirin" poeması.

Mətləb gəlib çatdı "**Xosrov – Şirin"**ə...
Çox tərif elədi **"Xosrov – Şirin"i** (XŞ-370).

Adətən, məhəbbət dastanlarının adları belə yazılır.

"Xosrov və Şirin"(id.) – Şairin 1180-ci ildə tamamladığı əsərinin adı. N.Gəncəvi bu əsəri Atabəy Məhəmməd Cahan Pəhləvana ithaf etmiş, lakin o, səlib müharibələrində öldürüldüyü üçün hakimiyyət başına keçən qardaşı Qızıl Arslan 1187-ci ildə şairlə görüşmüş və əsəri qiymətləndirmişdir. Nizami Qızıl Arslanla görüşünü sonralar nəzmə çəkmiş və əsərin sonuna artırmışdır. Şairdən sonra müxtəlif sənətkarlar tərəfindən bu əsərə 50-dən çox bənzətmə yazılmışdır.

Məlum hekayətdir **"Xosrov və Şirin"**
Dastan yoxdur əsla bu qədər şirin (XŞ-48).

Şair digər əsərlərində də "Xosrov və Şirin" poemasının adını çəkmişdir.

"Xosrov və Şirin"i yazıb yaratdım,
Hər duyan könüldə bir zövq oyatdım (LM-48).
İncəlik, şirinlik yağaraq ondan,
"Xosrov və Şirin"çin düzdüm bir dastan (İ60)..

"**Xosrovnamə"** (məc. id.) – Şair "Xosrovnamə" dedikdə "İqbalnamə" (yaxud "Xiridnamə) əsərini nəzərdə tutur. Xosrov – böyük şah deməkdir. Əsər İskəndərə həsr edildiyi üçün onu "Xosrovnamə" də adlandırmaq olar.

Mən **"Xosrovnamə**"ni yazmaqçün rəvan (İ-524).

Xosrovun camı (ktem.) – Şair Xosrovun camı dedikdə, Cəmşidin camı (bax) və ya Keyxosrov camını nəzərdə tutmuşdur.

Əmr etdi: bir qızıl kürsü qoyulsun,
Xosrovun camı da yanında olsun.
Kürsüyə oturdu adlı tacidar,
Keyxosrov camını ələ aldılar (İ-245).

Burada isə söhbət Sərir qalasında olan İskəndərdən gedir.

Xoylu İmad (xat. an.) – Xoy Cənubi Azərbaycanın şəhərlərindən biridir. İmad isə İmadəddin və ya İmadəddövlə fəxri adı olan bir şəxsdir. Dövrünün məşhur simalarından və Nizaminin dostlarından olmuşdur.

Mötəbər bir şəxsdir o **Xoylu İmad**;
Qalxmaq istəyənə o edər imdad (İ-417).

Bu antroponimik birləşmədə birinci komponent nisbə finksiyasını oynayır və İmadın vətənini bildirən toponimdir. İkinci komponent isə onun əsl adı yox, dini fəxri adının qısaldılmış formasıdır.

Xozan (top.) – Şirvanşah dövləti ərazisində olan və şairin dövründə tanınmış toponim. Bəlkə də, Xozan Xorasan əyalətində olan Xuzan (bax) toponiminin özüdür.

Şirvan bəzənmişdir əzəmətinlə,
Xozan abadlaşmış ədalətinlə (LM-59).

Burada söhbət Şirvanşah Axsitandan gedir.

Xötən (məc. top.) – Bax: Xütən.

Zəncilər **Xötənə** qoşun çəkmədən
Şənlik meydanını şah etmişdi gen (YG-254).

Xuda (teon.) – Fars sözüdür və Allah, Tanrı deməkdir.

Xudaya! Gilimiz mayələnərkən
Bir vəsiqə yazdın o gün bizə sən (XŞ-26).

Xurma ağacı (məc. fit.) – Xurma ağacı dedikdə, Məryəm ağacı (bax) nəzərdə tutulur. Şair öz şeir və poemalarını müqəddəs hesab edilən Məryəm ağacının barına bənzədir.

Xurma ağacındır vermisən çox bar,
Hər zaman görəydim səni bəxtiyar (YG-33).

Xurşid (kos.) – Farsca Günəş deməkdir.

Şükr üçün kukəni **Xurşidə** verdi (İ-26).
Söhbət Məhəmməd peğəmbərdən gedir.

Xurşid, Cəmşid (ep. on.) – Sinonim mənalı bu onimlərin son hecaları fonetik cəhətcə eynidir.

Xurşid adlı biri ayağa durdu,
Cəmşid camı ilə taxta oturdu (XŞ-31).

Cəmin qızıldan paltar geyməsinə və qızıl taxtda Günəş altında oturduğu zaman ikinci Günəş kimi parıldamasına və bundan sonra Cəmşid adlanmasına işarə olunur. Burada Xurşid dedikdə isə Cəmşid (bax) nəzərdə tutlur.

Xuzan (top.) – Mərv ilə Həmədan arasında çeşmələri və gözəl havası olan bir yaylaq yeridir. İsfahanın Marbin adlı yerində də Xuzan deyilən yerin mövcud olduğunu söyləyirlər. Heratda, Pəncdehdə, Nərirud çayı üzərində yerləşən Xocəstanda da Xuzan adlı kəndlərin mövcud olması göstərir ki, vaxtilə Xorasanda Xuz tayfası yaşamış və həmin bu tayfanın adını daşımışdı. "Xuz" isə yəqin ki, "oğuz" sözünün fonetik cəhətdən dəyişilmiş formasıdır.

Zindərur nəhrindən **Xuzanə** qədər
Çalğının səsindən canlandı yerlər (İ-182).

Xuzistan (məc. top.) – İranın cənub-qərbində bir vilayətdir. Bu vilayət neft ilə zəngindir. Burada ildə təxminən 100 milyon ton neft çıxarılır. Şərq ədəbiyyatında isə şəkəri ilə məşhurdur. Elə buna görə də şair Şirinin ağzını qarışqa gözündə əks olunan Xuzistana bənzətmişdir.

Qarışqa gözündə bir **Xuzistanı**
Xatırladır nazik, kiçik dəhanı (XŞ-104).

Bizə elə gəlir ki, Xuzistan toponimi də "xuz // oğuz" etnonimi ilə əlaqədardır.

Şəkər qamışı ilə məşhur olan Xuzistan metaforik şəkildə Şirinin şirin danışığına həsəd aparan insana (kişiyə) bənzədilir.

Şəkər töküləndə dodaqlarından
Həsəd aparırdı ona **Xuzistan** (XŞ-184).

Şair Qara geyənlərin şahının səmada gördüyü bağda gəzən gözəllərin dodağını şəkər və qəndi ilə məşhur olan Xuzistanla müqayisə edir.

Gözəldi dodağı hər bir nigarın,
Dəyər **Xuzistana** ləli onların (YG-146).

Yəni onların al lələ bənzər dodaqları o qədər şirin idi ki, Xuzistanı utandırırdı (YG-338).

Xülləx (top.) – Bax: Xəllux.

Gurultu qopunca şahın təblindən,
Yəğmaya, **Xülləxə** yayıldı şivən (İ-273).

Xütən (məc. top.) – Şair metaforik şəkildə Günəşi Xütənə bənzədir. Xütən isə Çində (Şərqi Türküstanda) bir şəhərdir; gözəl qadınları, əla müşkü və yaxşı ipəyi ilə məşhur olmuşdur.

Səhər çöhrəsindən pərdə atarkən
Həbəşə bac üçün dağ çəkdi **Xütən** (İ-185).

Xütənxatun (an.) – "Xosrov və Şirin" poemasında obraz adı. Xütən və xatun (qadın) sözlərindən düzəlmiş, Xütəndən olan qadın (xatun) mənasında işlənmişdir.

Xütənxatun dedi: "Bilin, həzərat, (XŞ-130).
Yalqızdı bir zərbəf geyinmiş şümşad... (XŞ-130).

Xütən şahı (an.) – Xütən şahının ləqəbi. Şahın hökmdarı olduğu ölkənin adı ilə adlanması.

Orda **Xütən şahı**, burda Zəngibar
Xosrovun adına qədəh tutdular (XŞ-224).

Xütən şəhriyarı, Çin tacidarı (qoşa an.) – Hər ikisi "Çin Xaqanı" mənasında işlənmişdir, sinonim antroponimlərdir.

Xütən şəhriyarı, Çin tacidarı
Tədbirlə geyindi elçi paltarı (İ-288).

- İ -

İblis (mif.) – Əvvəlcə oddan yaradılmış mələklərdən birinin adıdır. Lakin sonradan o, Allahın torpaqdan yaratdığı Adəmə sitayiş etməkdən boyun qaçırmış və bunun üstündə səmadan yerə endirilmişdir. Qisas almaq üçün o, Şeytanın köməyi ilə Adəmi və

Həvvanı tovlayıb Cənnət ağacının meyvəsi üçün qoyulan qadağanı pozmağa sövq etmiş və bu, onların Cənnətdən qovulmasına səbəb olmuşdur. O vaxtdan bəri müxtəlif şər ruhların – şeytanların köməyi ilə İblis hər yerdə adamlara ziyan vurmağa və onları günaha məcbur etməyə çalışır (İslam.Bakı, 1985. səh.65).

Güllər səpdi üstünə cənnətin səkkiz bağı,
Hamıya qızılgüldü, **İblisə** bir göz dağı (SX-70).

Burada metaforik şəkildə İblisin Adəm peyğəmbərə tabe olmamasına işarə olunur.

Şair bu addan məcazi ad kimi də istifadə etmişdir. O, İblisə qul olanlarla məsləkinə qul olanları müqayisə etmişdir.

Öz nəfsini mələdən, ləlidən oğul ol sən,
İblisə qul olunca, məsləkinə qul ol sən (SX-98).

İblis, Şeytan (sin. mif.) – Şair bu mifonimləri sinonim şəkildə işlətmişdir.

Qul olmusan **iblisə,** qəlbə girən **şeytana** (SX-84).

İbn-Səlam (an.) – "Leyli və Məcnun" poemasında obraz adı. "İbn" ərəbcə oğlu, "Səlam" isə sülh, əsayiş mənasında olan əsl addır və "Səlamın oğlu" deməkdir. Demək, "Səlam" bu obrazın əsl adı yox, atasının adıdır. İslama qədər ərəblər sadə adlardan (Məhəmməd, Əhməd, Ömər, Talib və b.) istifadə edirdilər. İslamı qəbul etdikdən sonra isə ərəblər türk ad sistemindən istifadə edərək, ərəb dilində öz ad sistemlərini yaratdılar. Şəxsin övlad adı, ata adı və s. ilə adlanması hakim dairələr içərisində dəb düşdü. Çünki onlar geniş xalq kütlələrindən fərqlənmək üçün belə edirdilər. Əməkçi adamlar arasında isə nisbə, künyə dini fəxri adlar işlənmirdi.

İslamın qəbulundan sonra Azərbaycanda və digər türk xalqlarında hakim dairələr içərisində ərəb ad sisteminə məxsus ərəb ad komponentləri işlənsə də, xalq arasında asl ad, ləqəb və əsl ad, asl ad və ata adı, əsl ad və qəbilə adı kimi antroponimik birləşmələrdən geniş istifadə olunurdu.

Adından göründüyü kimi, İbn-Səlam hakim təbəqənin nümayəndəsidir.

Çoxdu qəbiləsi və qohumları,
Hörmətlə keçərdi bütün ruzgarı.

Xalq da baş əyərdi o gəncə müdam,
Ona ad vermişdi bəxt – **İbn-Səlam** (LM-117).

İbrahim (ag.) – Klassik ədəbiyyatda İbrahimxəlil də adlanan bu şəxs, dini əfsanələrə görə, yəhudi peyğəmbərlərdən sayılır. Bütpərəstlik əleyhinə təbliğat apardığı və bütxanalardakı bütləri sındırdığı üçün Babil hökmdarı I Nəmrud İbrahimi oda atdırmışdısa da, od onu yandırmamış və əksinə, od qalağı çiçəkli bir bağa dönmüşdür.

İbrahimin sehriylə od dönüb gülüstana... (SX-65).
İbrahimin dinini doğru yol bildi,
Atəş tüstüsünü dillərdən sildi (İ-174).

Sonuncu beytdə Makedoniyalı İskəndərin İbrahim dinini qəbul etməsinə işarə olunur. Aşağıdakı misrada isə şair özünü İbrahim peyğəmbərə bənzədir.

Bütü **İbrahimtək** oxşa, əzizlə,
Ancaq bütxanəni ondan təmizlə (XŞ-25).

Beytdə İbrahimin bütlərə sitayiş edənləri ağılsız adlandırıb, bütləri sındırmasına işarə olunur. Eyni zamanda şair "bütxanə" dedikdə şeiriyyəti, "büt" dedikdə isə pis şairlərin əsərlərini nəzərdə tutmuşdur.

İbrahim bağı (mif.) – Bax: İbrahim.

İsanın bəzmidir, **İbrahim bağı** (YG-127).

İbrahim, İsmayıl (qoşa məc. ag.) – İbrahim ata, İsmayil isə onun oğludur. Dini əfsanələrdə onlarla bağlı hadisələrə görə bu adlar yanaşı işlədilmişdir.

Saçı, odlu çöhrəsi – **İbrahim** möcüzəsi,
Xəncər kirpiklərində **İsmayıl** göz süzəsi (SX-65).

"İbrahim möcüzəsi" dedikdə şair İbrahimin atıldığı ocağın yerində əmələ gələn bağa işarə olunur. Beytdə isə bu adların yeri o qədər möhkəmdir ki, onların yerini dəyişmək və ya başqa adlarla əvəz etmək qeyri-mümkündür. Əgər belə olsa, ifadə olunan fikir tamamilə yalan olar. Çünki dini rəvayətlərə görə, guya İbrahim Allah yolunda öz oğlu İsmayılı qurban kəsməli imiş. Ata xəncərlə oğlunun başını kəsmək istəyəndə xəncər kəsmir. İbrahim xəncəri daşa vurub yoxlayanda daş parçalanır. Guya bu zaman Allah tərə-

findən göndərilən qoç İsmayılın əvəzinə kəsilir. İnsanlar da o vaxtdan bu günü Qurban bayramı adı ilə hər il qeyd edirlər. Bu bayram çox vaxt "İsmayıl qurbanı" da adlanır.

İbrahim, Məhəmməd (müq. ag.) – Şair bu peyğəmbərləri müqayisə edərək üstünlüyü Məhəmməd peyğəmbərə vermişdir.

İbrahim kəcavədə xəcalətdən sıxıldı,
Yarı yolda üç dəfə kəcavədən yıxıldı (SX-39).

İbrahim peyğəmbərlik topunu öz çövkanı ilə götürmək istədi, lakin onun vücudunun beşiyi atdan iki-üç dəfə dyşdü. Beytin məzmunu Məhəmməd peyğəmbərin hədislərinin birindən götürülmüşdür. Həmin hədisdə İbrahim peyğəmbərin həyatda üç dəfə yalan danışmasından söhbət gedir. İbrahimin iki-üç dəfə atdan yıxılması həmin yalanlara işarədir. Həmin yalanlar bunlardır: 1. Guya İbrahim bütxanaya girib, oradakı bütlərin hamısını sındırıb, baltanı böyük bütün çiyninə qoymuşdur. Bütpərəstlər bunu bilib İbrahimə hücum edib soruşduqda İbrahim: - Bunu böyük büt etmişdir, - demişdir; 2. İbrahim ulduzlara diqqətlə baxıb inandığı məzhəbdən peşman olaraq demişdir: "Mən azmışam" və ya "Bunlar mənim allahımdır"; 3. İbrahim Babilistanda aclıq olduğu üçün öz arvadı Sara ılə Misrə qaçmışdır. Misrin hökmdarı Saranı görcək ona gözü düşmüşdür. İbrahimdən bu arvadın kim olduğunu soruşduqda, - Mənim bacımdır, - demişdir. Buna görə də hökmdar Saranı almışdır. Lakin nədənsə vüsalına nail ola bilməmişdir.

Şair göstərmək istəyir ki, Məhəmməd peyğəmbər isə heç vaxt yalan danışmamışdır.

İbrahim möcüzəsi (id.) – Bax : İbrahim.

Saçı, odlu çöhrəsi – **İbrahim möcüzəsi** (SX-65).

Burada I Nəmrudun İbrahimi tonqala atdırdığı vaxt tonqalın yerində Cənnət kimi bir bağın əmələ gəlməsinə işarə olunur.

İki dürr (məc. ap.) – Şair "iki dürr" dedikdə "İqbalnamə" poeması ilə oğlu Məhəmmədi nəzərdə tutmuşdur.

Dəryamdan **iki dürr** olubdur əyan
Onlardır üzümü mənim ağardan (İ-610).

İki xəzinə (məc ap.) – Burada "iki xəzinə" dedikdə Sultan Mahmudun xəzinəsi ilə Firdovsinin "Şahnamə" əsəri nəzərdə

tutulur. Nizami "İqbalnamə" əsərini ithaf etdiyi Mosul atabəyi İzzəddin Məsuda deyir ki, "Şahnamə" şairinin varisi mənəm, Mahmud xəzinəsinin varisi sən. Məndən böyük əsər yazmaq, səndən böyük səxavət göstərmək.

İki xəzinənin varisi, hökmən,
Səxavətdə sənsən, söz deməkdə mən (İ-428).

İki qərn sahibi (an.) – Makedoniyalı İskəndərin ləqəbi. Şair müxtəlif rəvayətləri xatırlayır və bu ləqəbin verilmə səbəbini izah etməyə çalışır. Bax: Zülqərneyn.

Gözəl söz nəqqaşı məharət ilə
İskəndər adını nəqş etmiş belə:
İki qərn sahibi qoymuş namını,
Çünki Şərqdən, Qərbdən almış namını (İ-435).

Ərəb dilində "qərn" sözü Şərq və Qərb mənasında da işlənir. İskəndər Zülqərneynə "İki qərn sahibi" ləqəbini ona görə vermişlər ki, o, Şərqi də, Qərbi də fəth etmişdi. Lakin "Qərn" sözü saç mənasında da işlənir.

Deyirlər ki, qoşa hörüyü varmış,
Onu kürəyinə daim atarmış (İ-435).

Guya İskəndər saçını başının dalında dəstədə hörüb bururmuş, buna görə ona Zülqərneyn – iki hörüklü deyirmişlər.

Deyirlər görübmüş bir belə röya,
Gündən iki qərni alıbmış guya (İ-435).

İskəndər yuxuda görübmüş ki, Şərqi və Qərbi Günəşin əlindən almış, iki qərn sahibi olmuş, buna görə də Zülqərneyn adını almışdır.

Başqa rəvayətdə deyirlər yenə:
İskəndər yaşamış iki qərinə (İ-435).

"Qərinə" sözü həm əsr, həm də əsrin üçdə biri mənasında işlənir. İskəndərin yeni eradan qabaq 356-cı ilin payızında doğulduğu və 13 iyun 323-cü ildə, yəni otuz üç yaşında öldüyü məlumdur. Demək, bu rəvayət uydurmadır.

İkicə çörək (məc. ap.) – Şair Ay və Günəşi metaforik şəkildə iki çörəyə bənzətmişdir.

Şahadır hər zaman göyün xidməti,
İkicə çörəkdir onun ücrəti (YG-307).

Göy Körpə Arslan şaha xidmət etmək üçün ayağı üstə durubdur və öz xidmətinə görə də iki girdə çörək (Ay və Günəş) sahibi olubdur. Ücrət – zəhmət haqqı deməkdir.

İkinci məzlum (ap. an.) – "Yeddi Gözəl" poemasında obraz adı. Rastü-Rövşən tərəfindən haqsız olaraq zindana salınmış məhbuslardan biri.

İkinci dayandı, əl üstündə əl,
Şaha dua etdi hər şeydən əvvəl (YG-286).

"**İqbalnamə"** (id.) – Nizami Gəncəvinin "İskəndərnamə" əsərinin ikinci kitabının adıdır. Bu, şairin sonuncu kitabıdır.

Çoxları istədi **"İqbalnamə"**ni,
Tək ona həsr etdim mən bu naməni (İ-424).

Burada "namə" sözü "İqbalnamə"yə, "ona" sözü isə bu əsərin ithaf olunduğu İzzəddin Məsuda(bax) işarədir.

İqlidis (məc. an.) – Eramızdan əvvəl IY əsrdə yaşamış yunan alimidir. Riyaziyyatçıların başçısı sayılır. İskəndər Zülqərneyn onun şagirdlirindən olmuşdur. Onun riyaziyyata, həndəsəyə dair bir çox əsərləri ərəb və Avropa dillərinə tərcümə və şərh edilmişdir.

Rəsmində **İqlidis** qüdrəti vardır (XŞ-62).

Burada şair Şapuru İqlidisə bənzətmişdir.

İlahi (teon.) – "Allah" (Tanrı) adının sinonimidir və ərəbcə "Allaha aid", "Allaha dair" deməkdir.

İlahi! Məni sən canana yetir!
Oduna yandığım o şəmi gətir! (LM-248).

İlyas (an.) – Dünya ədəbiyyatında "Xəmsə" ustadı kimi tanınan XII əsr Azərbaycan şairi Nizami Gəncəvinin əsl adı.

Baxsan Nizaminin cizgisinə sən,
Min bir ad sayını orda görərsən.
İlyasın "əlf"ini "lam"ından kəssən,
Yenə doxsan doqquz tamı görərsən (LM-62).

Yəni: İlyas adının "əlif" hərflərini atsan və onun "l" hərfindən də "əlif", yəni bir rəqəmini çıxsan, iyirmi doqquz rəqəmi

alınar. Xüsusi say sistemi olan əbcəd hesabına görə, “l” hərfi 30-dur, birini çıxanda 29 qalar, “y” hərfi 10 və “e” hərfi 60-dır. Cəmi 29+10+60=99.

Birinci beytdə “min bir ad” ifadəsi isə Allahın “min bir adı var” dini ehkamına işarədir.

İlyas (ag.) – “İskəndərnamə” əsərində epizodik obraz adı. Bax: Xızır.

Bu yolda **İlyasa** Xızır yoldaşdı,
Çeşməyə gedərkən dostlar yanaşdı (İ-383).

İlyas, dini rəvayətlərə görə, peyğəmbərlərdən biridir. Yəhudilərə bütpərəstlikdən əl çəkməyi təbliğ etmiş, bunun üçün təqib olunaraq qaçıb mağaralarda yaşamış, möcüzələr göstərmiş, sonra isə “qeyb olmuşdur”. Başqa bir rəvayətə görə, İlyas da Xızır ilə Zülmətə getmiş, Dirilik suyundan içmişdir. Guya indi də Xızır quruda, İlyas isə suda yaşayır.

Xıdır və ya Xızır həmişə İlyasla xatırlanmışmı? Əlbəttə, yox. Vaxtilə Xıdır – Xızır göy-göyərti, yaşıllıq məbudu, İlyas isə su məbudu olmuşdur. İlyas haqqında bir çox türk dilli xalqlar arasında bəzi əfsanələr vardır. Bu əfsanələr müəyyən dərəcədə onu türkdilli xalqların əski əsatiri təfəkkürləri ilə bağlayır. Türk əfsanəsində deyilir: “İlyas qəbiləsinin yolunu təkrar azdığını görür və şəhərdən çıxır. Allaha dua edir. Allah “Filan şəhərə get, filan gündə nə görürsən, qorxma, onun üstünə min” – deyə əmr edir. İlyas əmr olunan yerə gedir. Atəşdən bir at görür. Ona minir və gözdən qeyb olur. Allah onu mələklər məqamına yüksəldir. Qiyamətə qədər ömür verərək, dənizlər üstündə ağa, hakim edir”. Bu parçadan görünür ki, islam dini İlyas əsatirinə təsir edərək həm İlyasın, həm də türkdilli xalqin əsatirinin donunu dəyişmişdir (47 – 58-59).

İnhiraq (top.) – Qaya adı.

Gözəl **İnhiraq**ın ətəyində tək,
Qart daşdan tikilmiş bir kilsə vardır.
İnhiraq adlanan daş qayadan sən
Ayaqlara düşmüş bir baş görərsən (XŞ-69).

İnsan (an.) – Şair “insan” dedikdə özünü nəzərdə tutur.

Qapını döydüm, dedi: "Gələn kimdir bu zaman?!"
Dedim: "Görüşə gəlib pak niyyətli bir **İnsan".**
Könül mülkünün şahı – məhəbbət adlı pəri
Söyləyərək dedi ki: "Nizami, gəl içəri" (SX-56).

Aşağıdakı beytdə isə "insan" dedikdə, ümumiyyətlə insanlar nəzərdə tutulur.

Gördü ki, tərbiyəsiz, təlimsiz bir naşıyam,
Təlim-ədəb verdi ki, **İnsan** adı daşıyam (SX-57).

Şairin təsvir etdiyi İnsan mələklərdən də, fələklərdən də üstün tutulur. Eyni zamanda şairin "mən"i bütün insanları təmsil edir.

İntiyaxis (an. və id.) – İskəndərdən sonra İranda hakimiyyət sürmüş sultanlar nəslindən birinin adıdır. Bu söz eyni zamanda həmin hökmdarların adına yazılmış bir kitabdır ki, Nizami burada "yadigar qalıb" dedikdə, onu nəzərdə tutmuşdur.

O gövhər kanını yox edib ruzgar,
Bircə "**İntiyaxis"** qalıb yadigar (İ-430).

İradəli Bəhram (an. birləşmə) – Bax: Bəhram Çubin.

İradəli Bəhram aldı bir xəbər
Ki, olmuş Xosrova qul çox ölkələr (XŞ-114).

İraq (top.) – İranla Ərəbistan və Bəsrə körfəzi arasında geniş bir ölkədir. Qədimdə bu ad Babilistana və ya Mesopotamiyaya məxsus olmuş, sonralar İranın bir hissəsinə də bu ad verildiyindən bunları qarışdırmamaq üçün birincisi İraqi- Ərəb, ikincisi isə İraqi-Əcəm adlandırılmışdır.

Gümüş küp, ya qızıl bir teşt istəsən,
İraq torpağından uzaq getmə sən (İ-44).

Əgər sənətin gümüş küpünü, şeirin qızıl teştini istəyirsənsə, bunu İraqda axtar.

İraq xəznəsi (məc. top.) – "İraq xəzinəsi" dedikdə şair İraq Atabəylər dövləti və İraq-Ərəb xilafətinin xəzinələri nəzərdə tutulur.

Boğazımı gör necə düyünləyibdi Gəncə,
Yoxsa, **İraq xəznəsi** mənim olardı, məncə.

Aləm deyir: "Övladsan sən dünyaya, Nizami,
Sığışmazsan Gəncədə gen dünyaya, Nizami" (SX-153).

Yəni mən İraqa atabəylər yanına və İraqi-Ərəbə xəlifənin yanina getsəm, mənə xəzinələr bağışlarlar. Lakin vətənim olan Gəncənin məhəbbəti məni buraxmır. Hamı mənə deyir ki, sən Gəncədə ömr etməməlisən. Onsuz da sən dünyanın övladısan, şöhrətin Gəncənin dünyasına sığmayacaq, yəni səni bütün dünya tanıyacaqdır.

İraq, Xorasan (qoşa məc. top.) – Bir-birinə əks olan toponim mənasında işlənmişdir.

Gizli çox yalvardım, dinmədi mehman,
Mən **İraqdan** oldum, o, **Xorasandan** (YG-138).

Yəni mən ərəb oldum, o, fars. O, məni başa düşmədi. Yaxud "Mən bir şey soruşdum, o, başqa şey danışdı" kimi də başa düşülə bilər.

İraq nəğməsi (id.) – İraq xalq mahnısı mənasında işlənmişdir.

İraqlılar kimi yüksəldi səsi,
Axıtdı tellərdən **İraq nəğməsi** (XŞ-294).

Beytdə İraq sözü iki dəfə işlənmişdir. Birincidə məcazi, ikincidə isə həqiqi mənada işlənmişdir. "İraqlılar" sözü etnonimdir. Barbəd İraqlılara bənzədilmişdir.

İraq sikkəsi (məc. ktem.) – Şairin dostu "İraq sikkəsi" dedikdə Nizaminin şairlik qüdrətini nəzərdə tutur və onun əsərlərinin xilafət dövründə hər yerdə işlənən qiymətli İraq sikkəsinə bənzədir. O, eyni zamanda şairə məsləhət görür ki, İraqa get, sən orada daha çox şöhrətlənərsən.

Bu **İraq sikkəsi** əlində vardır;
Ayaqlarındakı o nə çidardır?
Gəncə şəhərindən atını çıxar!
Sən şir pəncəlisən, səndədir vüqar (XŞ-52).

İran (top.) – Asiyanın qərbində yerləşən İran Şərqin ən qədim ölkələrindən biridir. Müxtəlif dövrlərdə onun ərazisi müxtəlif olmuşdur. Paytaxtı Tehran şəhəridir. Qədim fars dilində "arya", "araya" və "arxiya" sözlərinin dəyişdirilmiş forması olub, "nəcib",

"əsil nəcabətli" deməkdir. Əvvəllər yüksək təbəqəyə verilmiş bu ad sonralar bütün ölkəyə şamil edilmişdir (19-93).

Bir də ki, Şirvanşah – o baş hökmüdar
Şirvana, **İrana** olmuş şəhriyar (LM-43).
Xoş baxdı **İranın** igidlərinə,
Hazırlıq başladı **İran** fəthinə (İ-103).

Birinci beytdə Şirvanşah Axsitandan, ikinci beytdə isə Makedoniyalı İskəndərdən söhbət gedir.

Nizami "İran" adından məcazi ad kimi də geniş istifadə etmişdir.

Çünki ürəyidir bu yerin **İran,**
Ürək yaxşı olar bədəndən, inan!
Bir sənədir dəxli dediyin sözün,
Ölkələr ürəyi yurdundur: özün... (YG-39,40).

Burada İran Yerin, Körpə Arslan şahın vətəni isə ölkələrin ürəyinə bənzədilmişdir. Aşağıdakı beytdə isə şair "İran" sözünü həm şəxsləndirmiş, həm də "bütün İran xalqı" mənasında işlətmişdir.

İrana əmr etdi böyük İskəndər:
Atəşpərəstlikdən etsinlər həzər (İ-171).

İran, Ərəbistan (ep. top.) – İran Bəhram Gurun vətəni, Ərəbistan isə (Burada Yəmən nəzərdə tutulur) onun tərbiyə olunduğu ölkədir.

Dedilər: - Şahzadə gərək **İrana**
Vida edib getsin **Ərəbistana** (YG-67).
Xəznələr mənimkən mülki-**İranda,**
Ailəm qalmışdır **Ərəbistanda** (YG-88).

İran, Turan (ep. top.) – Son hecaları eyni səslənən toponimlərdən istifadə etməklə şair beyti daha da axıcı etmişdir.

Dənizdən dənizə atıldın: sənin
İrana, Turana uzandı əlin (İ-264).

İrəc (məc. an.) – Qədim İran şahlarından Firidunun üç oğlundan birinin adıdır. Atasının vəsiyyətinə görə, ölkənin ən yaxşı ərazisi İrəcə çatdığı üçün qardaşları Tur və Səlm birləşərək onu öldürürlər. Bundan sonra İrəcin qanını almaq məsələsi mey-

dana çıxır və beləliklə arasıkəsilməz İran – Turan müharibələri baş vermişdir.

Bəhram Gurun əmirlərinin bəzisi özünü İrəc nəsəbli adlandırır.

"İrəc nəsəbliyəm" söyləyir biri,.. (YG-120).

İrəm (məc. mif.) – Rəvayətə görə, İrəm Yəməndə qədim Ad qəbiləsinin paytaxtı olmuş bir şəhərdir. Şərq əsatirində isə əfsanəvi gözəlliyə malik olan bir bağ kimi təsvir edilir. Bəzən məcazi olaraq Behişt mənasında da işlədilir. Şərq poeziyasında füsunkarlıq və təbiət gözəlliyinin rəmzi kimi tərənnüm olunur.

Dini rəvayətlərə görə, Babil hökmdarlarından Şəddad saldırdığı gözəl bağı Cənnətə oxşatmaq istəmiş, lakin bağı gəzməyə gələrkən özü də bağda yoxa çıxmışdır (10-85).

İrəmə açardır sənin camalın,
İrəmtək görünmür, odur vüsalın (XŞ-256).

Xosrov Şirinin camalını İrəm bağının açarına, onun vüsalını isə gözə görünməyən İrəmə bənzətmişdir. Aşağıdakı misrada isə İrəm bağı metaforik şəkildə insana bənzədilmişdir.

İrəm "Arami-dil" söyləyir ona (YG-145).

O bağ o qədər gözəl idi ki, hətta əfsanəvi Cənnət bağı – İrəm ona "Arami-dil", yəni "ürək rahatlığı" deyirdi. Yəqin ki, "Arami-dil" o dövrdə məşhur mahnı adı olmuşdur.

İrəm bağçası (mif.) – Memar Simnarın Bəhram üçün tikdiyi saray – Xəvərnəq əfsanəvi İrəm bağçasına bənzədilir.

Xəvərnəqlə Yəmən şöhrətli oldu,
İrəm bağçasıtək əziz tutuldu (YG-62).

İrəm bağı (məc. mif.) – Bax: İrəm.

Gül-çiçəyə can verər dərgahının torpağı,
Gülzarının yanında yalandır **İrəm bağı** (SX-24).

Təbiətdəki gül-çiçək, gülzar əfsanəvi İrəm bağı ilə müqayisə olunur. Şair həyatı, təbiət gözəlliklərini İrəmdən üstün tutur.

Ey bəşər! Şadlanmadı, büsat qurmadı sənsiz,
Qəlbi **İrəm bağında** bir an vurmadı sənsiz (SX-70)

Yəni Adəm peyğəmbər bu həyata görə İrəm bağında (Burada Cənnət mənasında işlənmişdir) qala bilmədi, qəlbi sevinmədi...

Xacənin bağı əfsanəvi İrəm bağına bənzədilir.

İrəm bağı kimi vardı bir bağı,
Bağ deyil, bağların nurlu çırağı (YG-256).

İrəm bazarı (məc. mif.) – Füsunkarlıq və təbiət gözəlliyi meydanı mənasında işlədilmişdir.

O məst gözlərinə həsrət qalanlar,
İrəm bazarında reyhan satanlar... (XŞ-65).

"İrhəm-türhəm" (id.) – Ərəbcə "Rəhm et, sənə də rəhm etsinlər" məsəlinin adıdır.

Nədir mənə qarşı mərhəmətsizsən?
Bəs **"İrhəm-türhəm"**i oxumadın sən? (LM-94).

Yəni sən aciz insanların əlindən yapış ki, çətin gündə başqaları da sənə əl tutsunlar.

İsa (ag.) – Xristian dininin banisi hesab olunur. Guya o, yeni eranın birinci ilində yanvar ayının 1-də anadan olmuşdur. Dini əfsanələrə görə, anası Mariya (Məryəm) ərə getmədən hamilə olmuş və İsanı doğmuşdur. Cəbrail Allahın ruhunu Məryəmin bətninə daxil edərkən onun oğlan doğacağını da bildirir və tapşırır ki, uşağın adını da İsa qoysunlar. Məryəmlə həyat quran Davuda da yuxuda bəyan olunur ki, Məryəmə toxunmasın, çünki o artıq Allahın ruhundan uşağa qalmışdır. Saleh bir adam olan Davud bu vəziyyətlə barışır, İsa anadan anadan oluncaya qədər Məryəmə toxunmayır... Bütpərəst yəhudilər isə İsanı "Göylər oğlu", "Allahın oğlu" kimi yox, "Davudun oğlu" kimi tanıyardılar. Peyğəmbərlik iddiasında olan İsanı yəhudilər "Musanın qanunlarını təhrif edir", - deyə dövrünün ən dəhşətli cəza üsulu ilə çarmıxa çəkmişlər. "İncil"ə və xristianların etiqadına görə, İsa ölməmiş və guya ölümündən üç gün sonra dirilərək dördüncü göyə qalxmışdır.

"İncil" adlı müqəddəs kitab guya Allah tərəfindən ona göndərilmişdir. Əslinə qalsa isə "İncil"("Bibliya" – Müqəddəs Yazılar külliyyatı və ya sadəcə olaraq "Kitab" iki kitabdan ibarətdir. Onlardan birincisi Musa peyğəmbərin Qanunlar kitabı olan "Tövrat", ikincisi isə İsa peyğəmbərə aid edilən "İncil"dir. Dini ədəbiyyatda birinci "Əhdi Ətiq", ikincisi isə "Əhdi Cədid" adlanır. "Əhdi Ətiq" miladdan əvvəl, "Əhdi Cədid" isə Miladın bi-

rinci əsri ərzində Müqəddəs Ruhdan ilham almış 40-dan artıq müəllif tərəfindən yazılmışdır (46-5).

Dini əfsanələrə görə, İsa peyğəmbərin möcüzələrindən biri ölüyə nəfəsi ilə can verməsidir. Şərq şeirində İsa nəfəsi insana ruh verən söz mənasında işlənir.

Guya "Qara qüvvələr" üzərində qələbə çalmaq və ölüləri diriltmək üçün İsa peyğəmbər bir zaman yenidən Yerə enəcəkdir...

Yer üzünə elçidir, **İsatək** qulu vardır,
Müjdəçi müjdəçidir, çapar da ki çapardır (SX-28).

Burada İsa peyğəmbər Məhəmməd peyğəmbərin quluna bənzədilmişdir.

Nizami "İsanın hekayəti"ndə onun bədii obrazını da yaratmışdır.

İz qoyaraq dünyanın torpağında, daşında,
İsa ayaq saxladı bir bazarın başında.
İsa necə söz açdı indi görək eyibdən... (SX-111).

Şair İsa adından məcazi ad kimi də çox geniş istifadə etmiş və yeri gəldikcə onunla bağlı hadisə və rəvayətləri də xatırlamışdır. Nizami İsa peyğəmbəri əsasən Məhəmməd peyğəmbərlə müqayisə etmişdir.

Niyyət bais deyildi tələşına **İsanın,**
Atasızlıq qaxıncdı öz başına **İsanın** (SX-39).

Yəni İsa peyğəmbər qəbul təamını (qidasını) arzulamadı. Çünki atası məlum olmadığı üçün xalq tərəfindən ləkələnmişdi.

Məşuqənin öpüşü ölüləri dirildən İsanın dodağına bənzədilir.

Dodağı **İsa kimi** cansız cana can verər (SX-65).

Zəmanənin hökmdarları ilə İsa peyğəmbər müqayisə olunur.

İsatək bu çırağı söndür öz nəfəsinlə,
Onsuz yanan çıraqsan eşqinlə, həvəsinlə...
Dördüncü asimanı **İsatək** yarsan özün,
Günəşə yüksələrək günəş olarsan özün,
Bu dünyanın nəbzini kim tutsa **İsa kimi,**
İnsafı, mürvətiylə olar dünya hakimi (SX-76).

Dini əsatirə görə, İsa peyğəmbər Günəş çırağını öz nəfəsi ilə üfürüb keçirmək və insanları atəşpərəstlikdən xilas etmək üçün

göyün dördüncü qatına qalxmışdır. Aşağıdakı beytdə isə İsa peyğəmbər boyaqçıya bənzədilmişdir.

Fələk – boyaq küpüdür, sanma boyası azdır,
İsa bir boyaqçıdır, Günəş də ki rəngsazdır.
İsaya boyadıbdır libasını asiman (SX-89).

Günəş öz hərarəti və şüaları ilə bütün rəngləri ağardır. Günəş kimi göyün dördüncü qatında qərar tutan İsa peyğəmbər isə boyaqçıdır. Dini əsatirə görə, İsa peyğəmbərin möcüzələrindən biri də küpəyə bir rəng töküb ondan istədiyi əlvan rəngləri çıxara bilmək imiş. Beytin məzmunu: İnsanın saçları istər qara, istər ağ olsun, ikisi də bir şeydir. Biri cavanlığın hesabına qara, biri isə zəmanənin sel-sularında yuyularaq ağ olmuşdur.

Bütün insanlar zirəklikdə İsaya bənzədilir.

Daim könül mülkünə sən də can at **İsatək**,
Ulaqsızca, yüksüzcə mənzilə çat **İsatək** (SX-136).

Xosrov İsa peyğəmbərə bənzədilir.

Yaxşısı budur ki, Məryəmi unut,
İsaya dönsən də, qayıtmaz vücud (XŞ-217).

Birinci misrada adı çəkilən Məryəm Xosrovun vəfat etmiş arvadıdır. Yəni Məryəm ölmüşdür. Əgər ölüləri dirildə bilən İsa da olsan, onu bir də geri qaytara (dirildə) bilməyəcəksən. Aşağıdakı beytdə isə şair oğlu Məhəmmədə İsa mərifətli həkim olmağı məsləhət görür.

İsa mərifətli həkim ol, amma
İnsanı öldürən bir həkim olma (LM-65).

Məhəmməd peyğəmbərin dodağı İsanın nəfəsinə bənzədilir.

Dodağın **İsadan** daha möcüzkar,
Zülmətin suyutək geyinmiş paltar (İ-23).

Yəni Məhəmməd peyğəmbərin nəfəsi ölüləri dirildən İsanın nəfəsindən daha möcüzəlidir. İkinci misranın mənası isə belədir: Dirilik suyu Zülmətdə, qaranlıqda ikən, Məhəmməd peyğəmbərin də vücudu qara paltarla örtülü idi. Aşağıdakı beytdə isə şair özünü İsa peyğəmbərə bənzədir.

Bu lacivərd küpdən mən də **İsatək**
İplər çıxarıram hər an rəngbərəng (İ-416).

Dini əfsanəyə görə, İsanın peyğəmbərliyinə inanan ilk dəfə on iki boyaqçı olmuşdur. Bunlar İsadan möcüzə istəmişlər. İsa da guya boyaqçılara boyamaq üçün verilmiş bütün ipləri bir küpə tökmüş və bunları eyni küpdən hər kəsin istədiyi rəngdə çıxarmışdır. Bu beytdə lacivərd küp – göy, səma; rəngbərəng iplər isə müxtəlif surətlər və müxtəlif mənalar ifadə edən misralar, beytlər deməkdir. Aşağıdakı beytdə şair alim Bəlinası İsa peyğəmbərə bənzətmişdir.

O **İsa nəfəsli** ustalardan da
Bircə Bəlinasdı onun yanında (İ-557).

İsa, Məhəmməd (müq. ag.) – İsa peyğəmbərlə Məhəmməd peyğəmbər müqayisə olunur.

İsanın beşiyi göyə qovuşdu,
Məhəmmədsə özü göylərə uçdu (İ-414).

Dini əfsanəyə görə, guya İsa hələ beşikdə ikən peyğəmbərliyə çatmışdır. Bəni-İsrailin adamları ərsiz uşaq doğduğu üçün İsanın anası Məryəmə qəsd etmək istərkən təzəcə doğulmuş İsa guya beşikdən dilə gəlib onlara demişdir ki, mən Allahın əmrı ilə doğulmuşam.

Yenə dini əfsanəyə görə, guya İsa peyğəmbər göyün yalnız dördüncü təbəqəsnə qədər çıxmış, Məhəmməd peyğəmbər isə göyün doqquzuncu təbəqəsinə qalxmışdır. Lakin yeddinci təbəqədən(fələkdən) yuxarı heç bir cismani varlıq çıxa bilmədiyi üçün Nizami demək istəyir ki, Məhəmməd peyğəmbər meraca beşiksiz, yəni cisimsiz, ruhən çıxmışdır. “Beşik” burda maddi aləm mənasındadır.

İsa, Musa (ep. məc. ag.) – Şair eyni zamanda özünü həm İsaya, həm də Musaya bənzədir.

Ruhlara dərs öyrət sən **İsa kimi,**
Eşqdən şam yandır bir **Musa kimi** (XŞ-32).

Şair bu epiforik agionimləri işlətməklə göstərmək istəyir ki, İsa peyğəmbərin ölü diriltmək məharəti həyatda olmayan Musaya təsir etməz.

İsa ki **Musaya** eləməz əsər (XŞ-52).

Burada İsa adının yeri sabitdir, onu başqa adla əvəz etmək olmaz. Musa adının yeri isə çox sərbəstdir. Çünki onu Süleyman, İskəndər və başqa adlarla da əvəz etmək olar. Bu da ölü diriltməklə əlaqədar olan dini rəvayətin ancaq İsa peyğəmbərin adı ilə yaranmasından irəli gəlir.

İsa nəfəsi (məc. on. birləşmə) – Torpağın məlhəmə dönməsi İsanın nəfəsinə bənzədilir.

Gecə - dəli-divanə, aman vermir qəm ona,
Hazırladı torpaqdan dayəsi məlhəm ona.
İsanın nəfəsitək torpaq məlhəmə döndü,
Dəliliyin atəşi onun suyuyla söndü (SX-52).

Yəni gecənin cağasını qarasövda (qaranlıq) xəstəliyindən qorumaq üçün torpaqdan bir şəfa bəxş edən məcun düzəltdi, sonra torpaq öz məsihvari nəfəsindən gecənin qarasövdalı atəşinə su çilədi və xəstə ilə şərbət bir-biri ilə düz gəlib qarasövdanın evini tərk etdi.

Könül İsanın nəfəsinə bənzədilir.

İsanın nəfəsitək bağışlayır can könül,
Dirilik suyu çilər torpaq ağzından könül (SX-65).

Tanrının həyatda hər şeyin, hətta İsa nəfəsinin də özü olmasına, həyata özünün baxmasına işarə olunur.

Sənsən könül quşu da, **İsanın nəfəsi** də,
Bəşərin öz hüsnü də, eşqi də, həvəsi də (SX-74).

İsa, Yusif (qoşa məc. ag.) – Şair "Hekayə"də("Yeddi gözəl") Xacəni ağılda İsaya, gözəllikdə isə Yusifə bənzədir.

İsaya bənzərdi əqli, kamalı,
Yusifli məclisdə yalnız misalı (YG-255).

İsadilli (məc. ag.) – Dini rəvayətə görə, İsa peyğəmbər anadan olan kimi birinci gün dil açıbdır.

İsadilli, birgünlük süsən necə nəşəli (SX-59).

Süsən gülü bircə gün yaşayır. Burada süsən anadan olan kimi danışan birgünlük İsaya bənzədilir.

İsanın bəzmi (on. birləşmə) – Dini rəvayətə görə, İsa peyğəmbərə qonaq gələndə heç nəyi olmadığı üçün onlara yalnız çırağının işığını təklif edərmiş. "Bəzm" fars sözüdür və məclis,

yığıncaq, eyş-işrət, kef məclisi deməkdir. “İsanın bəzmi” isə “İsanın qonaqlığı” mənasında işlənir.

İsanın bəzmidir, İbrahim bağı (YG-127).

İsanın eşşəyi (məc. zo.) – Dini rəvayətlərə görə, İsa peyğəmbər həmişə eşşək üstündə səyahət edərmiş. Odur ki, Şərq ədəbiyyatında “İsa eşşəyi” ifadəsinə tez-tez təsadüf olunur.

Hər bir eşşək **İsanın eşşəyinə** taydımı?
Hər başa kölgə salan bəxt quşu humaydımı? (SX-83).

Burada İsanın eşşəyi bütün eşşəklərdən fərqləndirilir və üstün tutulur.

Şair minnətli çörək yeyənləri İsanın eşşəyi ilə müqayisə edir.

Minnətli çörək ilə kef, damaqmı yaxşıdır?
İsanın eşşəyitək otlamaqmı yaxşıdır? (SX-89).

İsəvi (et.) – İsa peyğəmbərin yaratdığı xristian dininə mənsub olan.

İsəvi sevindi bundan o qədər,
Verdi ona qızı Məryəmi Qeysər (XŞ-146).

Burada “İsəvi” dedikdə, Rum qeysəri nəzərdə tutulur.

İsfahan (top.) – İranın ən qədim şəhərlərindəndir. Bəsrə körfəzinin şimalında Zindərud çayı üzərində yerləşir. “İsfahan” sözünün mənası ordugah – hərbi düşərgə deməkdir. Çünki qədimdə İranın ən böyük hərbi düşərgəsi olmuşdur. Rəvayətə görə, Zöhhaka qarşı üsyan edən Dəmirçi Gavə orada yaşamışdır. İranın muzey şəhəri sayılır.

Sasanilər dövründən başlayaraq şəhər Yaxın və Orta Şərqin ən böyük sənaye, ticarət və mədəniyyət mərkəzlərindən biri olmuşdur. 1598-ci ildən Səfəvilərin paytaxtı olmuş və daha da böyüyərək əhalisi 600 mindən çox olmuşdur. 1722-ci ildə şəhərin əfqanlar tərəfindən işğal olunması, XYIII əsrin sonunda isə paytaxtın Tehrana köçürülməsi nəticəsində İsfahan öz əvvəlki mövqeyini itirir. Hazırda şəhərin 300 min əhalisi vardır(10).

Şahzadə qadındı orda hökmüran,
Yayılmış qoşunu **İsfahanacan** (XŞ-63).

Burada söhbət Məhin Banunun dövlətindən gedir. Şair "İsfahan" adından məcazi ad kimi də istifadə etmişdir. O, Qəsri-Şirini Şəkərin yaşadığı İsfahana bənzətmişdir.

Şəkər məhləsinə yetişən zaman
Yenə Qəsri-Şirin oldu **İsfahan** (XŞ-220).

Yəni Şəkər məsələsi meydana gələndə yenə Şirin yaddan çıxdı. Əvvəllər Qəsri-Şirinə tez-tez getdiyi kimi indi İsfahana gedirdi.

İsfahan alması (fit.) – İsfahanda yetişən alma növü. Görünür, bu alma növü şairin dövründə Quba alması kimi məşhur olmuşdur.

İsfahan alması, Rey üzümü tər...(YG-255).

Şirin metaforik şəkildə Şəkəri İsfahan almasına, öz yanağını isə almaya bənzədir.

Alma yanağımı şaha versəm mən,
İsfahan alması çıxmaz səbətdən (XŞ-254).

İsfahan gülləri (fit.) – İsfahanda bitən xüsusi gül növləri.

İsfahan gülləri ətir saçardı (İ-182).

İsfahan, Zəngibar (qoşa məc. top.) – Şair Xosrovun sarayını İsfahana, qulları isə Zəngibara bənzədir.

Dəhlizdə durmuşdu qapqara qullar,
İsfahana bağlı sanki **Zəngibar** (XŞ-285).

İsfəndiyar (məc. an.) – İranın qədim Kəyan sülaləsi şahlarından Kəştasbın oğludur. Müxtəlif iftiralara düşmüş, atası tərəfindən həbsxanaya atılmışdır. Nəhayət, Rüstəmin haça oxu ilə öldürülmüşdür(10). O, Firdovsinin "Şahnamə" əsərində hünərli bir pəhləvan kimi təsvir olunmuşdur. İsfəndiyar Ruyintən – yəni silahbatmaz hesab edilirdi. O da yenilməz pəhləvan Rüstəmi-Zal kimi yeddi tilsim sındırmış və misilsiz qəhrəmanlıqlar göstərmişdir.

İsfəndiyar köçmüş dünyadan əgər,
Nəsəbin yetişər Bəhmənə qədər (İ-134).

İsfəndiyar, Bəhmən (qoşa məc. an.) – Dara İskəndərə yazdığı məktubda özünü eyni zamanda həm İsfəndiyara, həm də Bəhmənə bənzədir.

Məndədir **Bəhmənin** aslan ürəyi,
Həm **İsfəndiyarın** polad biləyi.
Onlardan yadigar bu gün mənəm, mən!
Zorda **İsfəndiyar,** ürəkdə **Bəhmən**! (İ-134).

İsfəndiyar, Rüstəmi-Zal (qoşa məc. an.) – İsfəndiyar qüdrətli hökmdar, Rüstəm-Zal isə yenilməz pəhləvan rəmzidir. Buna görə də şair Şirinin rəfiqələrini cürətdə İsfəndiyara, ox atmaqda isə Rüstəmi-Zala bənzədir.

Cürətdə hər biri bir **İsfəndiyar,**
Rüstəmi-Zal kimi ox atandılar (XŞ-120).

İshaq (an.) – Ərzincan hakimi Fəxrəddin Bəhram şahın babası.

Göylərə ucaltdığı **İshaqın** bayrağıdır (SX-41).

İshaq (ag.) – Dinlər tarixinə görə, peyğəmbər sayılır. İbrahim peyğəmbərin oğlu və Eysin atasıdır. Ərəb tarixinə görə, guya İskəndər Zülqərneyn Eysin nəslindəndir. Nizami də buna işarə edir.

Ulu babasıydı Eys ibn-**İshaq** (İ-61).

Şair bu addan məcazi ad kimi də istifadə etmiş, Şirini İshaqa bənzətmişdir.

Rəngi şəvə kimi, Şəbdizdir adı,
Şirin **İshaq kimi** sevir o atı (XŞ-66).

İshaq-Mushaq (məc. zo.) – Fərhad İshaq-Mushaq quşunu insana bənzədir.

Bir sakit qalayam, dörd yanım gecə,
İshaq-Mushaqlardır yoldaşım təkcə (XŞ-199).

İshaq-Mushaq gecələr uçan quş adıdır. Onunla əlaqədar belə bir əfsanə də yaradılmışdır ki, guya iki qardaş quş cildinə girərək, itmiş öküzü axtarır, lakin tapa bilmirlər. Sakit gecədə onların yanıqlı səsi belə bir dialoqu andırır:

– İshaq!
– Mushaq!
– Tapdın?
– Yox.

İskəndər (an.) – Qədim Makedoniya sərkərdəsi və dövlət xadimi Aleksandr(e.ə. 356-323). Makedoniya imperatoru ikinci

Filippin oğlu və Ərəstunun şagirdidir. O, çoxlu atlı, piyada qoşunu, güclü hərbi donanması ilə bir sıra yürüşlər edib böyük qələbələr qazanmış, Yunanıstanı, Bizansı, Suriyanı, Orta Asiyanı, Əfqanıstanı, Hindistanı və İranı zəbt etmişdir. Müsəlman Şərqində İskəndər Zülqərneyn, Makedoniyalı İskəndər, İskəndəri Kəbir, İskəndər Rumi adları ilə məşhurdur. Firdovsi, Nizami, Əlişir Nəvai, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami və onlarca başqa şairlər onun qəhrəmanlığına və apardığı müharibələrə əsərlər həsr edərək onu ideal hökmdar kimi qələmə vermişlər. O, Şərqdə həm adil hökmdar, yenilməz sərkərdə, müharibə apardığı ölkələrdə dağıdıcı işlər apardığına və Zərdüştün müqəddəs "Avesta"sını yandırdığına görə İskəndəri-məlun (lənətə gəlmiş İskəndər) kimi yad edilmişdir. Nil çayının deltasında saldırdığı İskəndəriyyə şəhəri onun adını daşıyır. Onun böyük işğalçiliği sayəsində yaratdığı dövlət antik dövrün ən qüdrətli dövləti olmuşdur. Qədim yunan və Şərq tarixinin bir çox səhifəsi İskəndərin adı ilə bağlıdır.

Bütün bu xüsusiyyətlərinə görə, N.Gəncəvi "İskəndərnamə" əsərində onun bədii obrazını yaratmışdır. Xalq dastanlarımızda olduğu kimi, şair İskəndəri lap körpəliyindən təsvir etmişdir.

Təqvimdən bəxtini təyin etdilər,
Qoyuldu uşağın adı **İskəndər** (İ-64).

"İskəndər" adı Aleksandr adının fonetik cəhətcə dəyişdirilmiş formasıdır: Aleksandr – əl-Eksandr – Eksandr – Eskandr – İskandr – İskəndər.

Nizaminin təsvirində İskəndər beş olkə fəth etmişdir. Buna görə də şair bu ölkələri onun adında olan hərflərin sayı ilə əlaqələndirir. "İskəndər" adı ərəb əlifbası ilə beş hərflə yazılır ki, bu da "s","k","n","d","r" hərflərindən ibarətdir. Nizami İskəndərin Misir, İran, Hindistan, Rus və Çin səfərlərinə işarə edir.

İskəndər sözünü yazanda katib
Yalnız beşcə hərflə ifadə edib.
Beş hərfə müvafiq etdin beş səfər (İ-578).

Nizami həm "İskəndərnamə"də, həm də "Xəmsə"nin digər əsərlərində "İskəndər" adından xatırlama və məcazi ad kimi də

geniş istifadə etmişdir. Şair "Xosrov və Şirin" əsərini yazarkən, gələcəkdə qələmə alacağı İskəndəri yada salır. O, Şəmsəddin Məhəmməd Cahan Pəhləvanın düşmən yarasından tez ölməsini təsvir edəndə həyatdan çox cavan getmiş İskəndəri də xatırlayır.

Cavanlıq bağından yemədi bəhər,
İçmədi Dirilik suyu **İskəndər.**
Düşmən yarasından getdi dünyadan,
Düşmənlərə cəza versin yaradan (XŞ-374).

"Yeddi gözəl" əsərində də şair gələcək qəhrəmanını unutmayır. Türkütaz Cənnət qızlarından kam almayıb Yerə qayıtdıqdan sonra Dirilik suyu üçün Zülmata gedən İskəndəri xatırlayır.

Yetmək məqsədilə abi-həyata
İskəndərlə birgə getdim zülmata (YG-163).

Nizami İskəndər haqqında yazdığı əsəri ithaf edəcəyi Nüsrətəddin Əbubəkri metaforik şəkildə Makedoniyalı İskəndərə bənzədir.

Gövhər qaz **İskəndər** mədənlərindən,
Gövhəri **İskəndər** alacaq səndən (İ-45).

Burada ikinci misradakı "İskəndər" dedikdə Nüsrətəddin Əbubəkr nəzərdə tutulur.

İskəndər, Dara, Günəş, Cəmşid (qrup məc. on.) – Şapur Xosrov Pərvizi Şirinə təqdim edərkən onu eyni vaxtda qüdrətli şah rəmzi hesab edilən İskəndər, Dara, Cəmşidə və kainatı işıqlandıran Günəşə bənzədir.

İskəndər cəlallı**, Dara** vüqardır,
İskəndər, Daradan bir yadigardır.
Hüsndə göy ona **"Günəşim"** deyir,
Bu torpaq üstündə **Cəmşid** nəslidir.
O, şahlar şahıdır, Xosrov Pərvizdir,
Şahənşahlıq ondan qüvvət kəsb edir (XŞ-78).

İskəndər dövrü (xron.) – Makedoniyalı İskəndərin şahlıq etdiyi dövr. Cəmi 33 il yaşayan İskəndər 20 yaşında şah, 27 yaşında isə peyğəmbər olmuşdur.

Qapıda üç növbət təbil vurdurma
İskəndər dövründən qalmışdır ancaq (İ-55).

İskəndər, Xızır (qoşa məc. ag.) – Müsəlman aləmində İskəndər peyğəmbər hesab edilsə də, Nizami onu ən çox hökmdar kimi idealizə etmişdir. Xızır peyğəmbər isə Dirilik suyu üçün Zülmətə səfərdə İskəndərə yoldaşlıq etmişdir. Buna görə də Şərq ədəbiyyatında onların adları çox zaman yanaşı işlədilir. Təsadüfi deyildir ki, Nizami Məlik Fəxrəddin Bəhram şahın zəkasını eyni zamanda onlarla müqayisə etmişdir.

İskəndər, şanlı **Xızır** zəkası işıq saçar (SX-41).

Şair eyni zamanda Körpə Arslan şahı da İskəndər və Xızır ilə müqayisə etmişdir.

Dəmirdən **İskəndər** ayna tapdısa,
Dirilik suyuna **Xızır** çapdısa,
Gövhərdən qayrılma aynadır sinən,
Şüşənə doldurdun həyat suyu sən (YG-40).

İskəndər, İskəndər (təkrar an.) – Şair birinci "İskəndər" dedikdə Atabəy Nüsrətəddin Əbubəkri, ikinci "İskəndər" dedikdə isə Makedoniyalı İskəndəri nəzərdə tutmuşdur.

Verdim bu gövhərin üzüyünü mən
Yeni **İskəndərə** o **İskəndərdən** (İ-397).

Burada birinci "İskəndər" məcazi, ikincisi isə həqiqi mənada işlənmişdir.

İskəndər, İskəndərus (ana. an.) – Şair ata və oğulun adlarını türk xalqlarında olduğu kimi fonetik cəhətdən bir-birinə uyğunlaşdırmışdır.

İskəndərdən sonra **İskəndərus** da
Qovğa eləmədi taxtü-tac üstə (İ-598).

Məlumdur ki, qədim adət və ənənələrə görə, İskəndərdən sonra taxt və taca onun oğlu İskəndərus sahib olmalı idi. Lakin şairin təsvirinə görə, İskəndərus taxt-tacdan imtina etdi və ibadətlə məşğul olmağı üstün tutdu. Nizami bununla da orta əsrlərdə hökm sürməkdə olan irsiyyət nəzəriyyəsinə qarşı çıxmış olur.

İskəndər, Keyxosrov (müq. an.) – Şair sərirlinin dili ilə İskəndərlə Keyxosrovu müqayisə etmişdir. Əgər Keyxosrov dünyada öz camı ilə şöhrətlənmişsə, İskəndər də qayırdığı güzgü vasitəsi ilə ucalmışdır.

Fərq budur, dünyada qazandı ad-san
İskəndər güzgüdən, **Keyxosrov** camdan (İ-242).

İskəndər mədənləri(top.) – Şair İskəndər haqqında deyəcəyi fikirləri metaforik şəkildə İskəndərin mədənlərinə bənzədir.

Gövhər qaz **İskəndər mədənlərindən,**
Gövhəri İskəndər alacaq səndən (İ-45).

İskəndər səddi (top.) – Əfsanəyə görə, Babildə(bax) ilahi cəzaya məruz qalaraq bir quyuda başıaşağı asılmış Harut və Marut(bax) adlı iki mələkin hamilik etdiyi Yəcuc və Məcuc(bax) adlı vəhşi tayfaları "dünyanın o başına" - Qaf dağına qovmuş və onların hücumundan qorunmaq üçün Makedoniyalı İskəndər tərəfindən tikilmiş böyük və keçilməz bir səddir. Bu, islam tarixçiləri tərəfindən Böyük Çin səddi və Dərbənd səddi ilə eyniləşdirilmişdir.

Ona uca bəxti köməklik etdi,
Tikilib qurtardı **İskəndər cəddi** (İ-572).

Şair bu addan məcazi ad kimi də istifadə etmişdir. O, Çin xaqanının İskəndərin qarşısına çıxardığı ordunu metaforik şəkildə İskəndər səddinə bənzətmişdir.

Neçin yol ağzına toplanmış ordun?
Yolumda **İskəndər səddini** qurdun? (İ-279).

İskəndər öz yenilməz və dönməzliyini İskəndər səddinə bənzədir.

İskəndər **İskəndər səddi**tək inan,
Tərpənməz o polad əzən Yəcucdan (İ-296).

İskəndər şah (an.) – Bax: Makedoniyalı İskəndər.

Gedirsən **İskəndər şahın** yanına (İ-182).

İskəndərabad (top.) – İskəndərin adını daşıyan kənd adı (antropotoponim).

Ədli bərpa etdi, kənd oldu abad,
Qoydu adını da: **İskəndərabad** (İ-550).

"İskəndərin qeydləri"(id.) – İskəndərin adı ilə əlaqələndirilən əsərin adı.

Bir də "**İskəndərin qeydləri"**dir,
Mum kimi yumşalar bununla dəmir (İ-430).

İskəndəriyyə (top.) – Zəngibar şaha qalib gəldikdən sonra İskəndərin Misirdə saldırdığı şəhərin adı (antropoastionim).

Şəhəri İskəndər tikibdir deyə
Adını qoydular **"İskəndəriyyə" (**İ-99).

İskəndəriyyə Misirdə Nil çayının qərb sahilində böyük bir şəhərdir. Qahirədən sonra Misirin və bütün Afrikanın ən böyük şəhəri idi. Eramızdan 331 il qabaq İskəndər tərəfindən tikilib genişləndirilmişdir.

İskəndərus (an.) – İskəndər Zülqərneynin Rövşənəkdən olan oğlunun adı.

Beşiyi öpərək oldular dilşad,
Uşağa qoydular **İskəndərus** ad (İ-196).

İsmaili (id.) – Məzhəb adı. İsmaili məzhəbi. YIII əsrdən başlayaraq müsəlman Şərqində geniş surətdə yayılmış İsmaili təriqətinə mənsub olanlara deyilirdi. Sonralar İsmaililərin "Əsasiyyun", "Fatimiyyun" adlanan qolları əmələ gəlmiş, bir sıra suiqəsd qruplar təşkil edib İran-Səlcuq hökmdarlarına qarşı mübarizə aparmışlar. Başçıları iflas etmiş zadəganlardan ibarət olan bu təriqət yoxsul kəndli və sənətkar kütlələrindən öz məqsədləri üçün geniş istifadə etmiş və bərabərlik şüarını öz siyasi görüşlərində irəli sürmüşlər.

Göylərə ucaltdığı İshaqın bayrağıdır,
İsmaili – kafiri ona qəti yağıdır (SX-41).

İsmayıl (məc. ag.) – İbrahim(bax) peyğəmbərin oğlunun adı.

Xəncər kirpiklərində **İsmayıl** göz süzəsi (SX-65).

Burada məşuqun kirpikləri metaforik şəkildə İsmayılın başını kəsməyə hazırlaşan İbrahimin xəncərinə, aşiq isə qurban kəsilərkən atasının xəncərinə baxan İsmayıla bənzədilmişdir.

İsmayıl, İsmayılməzhəb (qoşa məc. on.) – Məcnun eyni zamanda özünü həm İsmayıla, həm də İsmayılməzhəbə oxşadır.

Mən **İsmayıl kimi** saxlaram ədəb,
İncisəm, qoy olum **İsmayılməzhəb** (LM-148).

Yəni sən mənim başımı kəssən də(İbrahim oğlu İsmayılın başını kəsmək istədiyi kimi), ədəb gözləyib etiraz etmərəm. Əgər belə etməyib səndən incisəm, İsmayılməzhəb olum.

İsrafil (mif.) – Dini əfsanələrə görə, dörd mələkdən(Cəbrail, Əzrail, Mikayıl və İsrafil) biridir. Onun vəzifəsi, guya kainatda həyatın yaranması və məhv olması barədəki böyük şeypuru çalmaqla dünyanı xəbərdar etməkdən ibarətdir. "İsrafilin suru" ifadəsi də onunla əlaqədardır. Birinci peyğəmbər sayılan Adəmə iki dəfə səcdə edən İsrafil olmuşdur.

Beş yüz əlli doqquz il yuxuya dalmısan sən,
Dünyanın axırıdır, bəs harda qalmısan sən?
Qalx! Qoy sənin hökmünlə **İsrafil** adlı mələk
Qəndilləri söndürsün, işıqsız qalsın fələk (SX-37).

Məhəmməd peyğəmbər hicri tarixi ilə 11-ci ildə vəfat etmişdir. Şair Məhəmməd peyğəmbərə müraciət edərək deyir ki, 559 ildir yatırsan, bəsdir, dur gəl, dünyanı zülm və sitəmdən xilas et.

Qəndilləri deyərkən şair Günəş, Ay və səyyarələri nəzərdə tutmuşdur. Son beytin mənası isə belədir: İsrafilə buyur ki, Günəş, Ay və ulduzları fitnə, fəsad və zülmə məruz qalmış dünyanı zülmətə bürüsün.

Nizami bu addan məcazi və xatırlama ad kimi də geniş istifadə etmişdir.

İsrafil, Sur (xat. mif.) – İskəndər Dirilik suyuna nail olmadan Zülmətdən qayıdarkən, şair İsrafil və Suru xatırladır.

İsrafildən, Surdan bir bəhs açaraq,
Demədim, məqsəddən düşməyim uzaq (İ-385).

Şairin əlinin yelpiyi İsrafilin qanadına bənzədilir.

Cəbrayıl qanadlıdır şairin ilham atı,
Əlinin yelpiyidir **İsrafilin qanadı** (SX-51).

İstəxr (top.) – İranın fars əyalətində Şirazın 60 km. şimal-şərqində böyük bir şəhər olmuşdur. Cəmşidin, Daranın və bir sıra başqa İran padşahlarının paytaxtı idi. İskəndər İranı fəth edərkən İstəxri qismən yandırıb dagıtmışdı. İslamiyyətin zühurunda ərəblər bu şəhəri tamamilə dağıtmışdılar, çünki atəşpərəstlər İstəxri müqəddəs sayırdılar. İndi bu şəhərin bəzi xarabalıqları qalmışdır.

Tac qoymaq üçün o, **İstəxrə** köçdü,
Kəyumərs, Keyqubad yerinə keçdi (İ-321).

Burada söhbət İskəndərdən gedir.

İsu (top.) – Qədim türk vilayətlərindən birinin adı.

İsudan Qıpçağın çölünə qədər
Hər yeri doldurdu ox, geyim, xəncər (İ-321).

İt, eşşək (qoşa məc. ap. zo.) – Şirin metaforik şəkildə Xosrovu itə, Məryəmi isə eşşəyə bənzədir.

Lahurlutək söylə tusluya sən də:
"**İtin** bayramıdır **eşşək** ölində" (XŞ-216).

Yəni eşşək ölində itlərin bayramı olduğu kimi, Məryəm də ölüb, indi Xosrovun bayramıdır.

İyşu (məc. ag.) – İsa peyğəmbərə işarədir. Guya onun taxtı Günəş kimi göyün dördüncü taxtında yerləşmişdir. Şair Körpə Arslanın cah-cəlalının yüksəkliyini İsanın taxtına bənzətmişdir.

Üsul, firu ilə oldu aşina
Bəxtiyşu rəyinə, **iyşu** baxtına (YG-307).

- K -

Kax (top.) – Farsca köşk, qəsr və saray deməkdir. Bağdad şəhərində olan məşhur saraylardan biri nəzərdə tutulur. Şair metaforik şəkildə İranı Bağdada, ölüm ayağında olan Daranı isə Bağdadın ən məşhur sarayına bənzədir.

Gecənin gözündə qaranlıq axdı,
Bağdadı **Kaxsız** və Kərsiz buraxdı (İ-157).

Kaman (məc. kos.) – Oxatan bürcü. Ox(Tir) bürcü – Merkuri planeti ərəb dilində Ütarid də adlanır. Kaman eyni zamanda on iki səma bürcünün 9-cusu sayılır. Günəşin ətrafında dolanan, Günəşə ən yaxın olub, axşam gün batınca, sabah isə gün çıxmazdan əvvəl göy üzündə axan kimi görünən od parçası – səyyarə.

Əqrəb də **Kamana** vermişdi xərac (LM-185).

Burada Kaman Əqrəbdən xərac alan hökmdara bənzədilir.

Kaman, Oğlaq (qoşa məc. kos.) – Bu kosmonimlər həm həqiqi – bürc mənasında, həm də onların ilkin leksik(apelyativ) mənalarında işlənmişdir; Kaman(Oxatan bürcü) – kaman, ox; Oğlaq(Çəpiş bürcü) – çəpiş. Guya Məhəmməd peyğəmbər Ka-

man bürcündən Oğlaq bürcünə ox atdı və oğlaq bürcündə fitnə, fəsad və bədbəxtlik rəmzi olan Zühəl (Saturn) planetini vurub, onu zərərsiz etdi.

Kamandan oxu süzüb yayındı başqa yana
Dönmədi otlağında **Oğlağın** bağrı qana (SX-157).

Kaşğar (top.) – Çinə daxil olan Şərqi Türküstanın siyasi və iqtisadi mərkəzi olmuş bir şəhərdir. XI əsrin ən məşhur alimi, filoloq və folklorçusu, "Divani-luğat it-türk" əsərinin müəllifi Mahmud ibn əl-Hüseyn ibn Məhəmməd əl-Kaşğari bu şəhərdə doğulmuşdur.

Xərxiz ilə Çaçdan, böyük **Kaşğardan**
Çağırdı hesabsız igid pəhləvan (İ-274).

Kavus (an.) – Şərq ədəbiyyatında həm də Keykavus adlanır. O, Keylər sülaləsinin ikinci padşahı sayılır. Firdovsinin "Şah-namə"sinə görə, Səyavuşun atası və Keyxosrovun babasıdır.

Mənimlə munisdir şahların baxtı,
Cəmşidin əklili, **Kavusun** taxtı (İ-134).

Burada söhbət Daradan gedir.

Kavus taxtı (ktem.) – Bax: Keyxosrov taxtı.

Çünki mən **Kavusun taxtına** keçdim,
Cəmşidin camından gülgün mey içdim (İ-242).

Key (an.) – Bir neçə mənası vardır. Burada qədim İran pad-şahlarının ikinci sülaləsinin ümumi ləqəbidir. Keylər çox vaxt Kəyan, Kəyanyan da adlanır. Həmin sülalədən bir neçə padşah olmuşdur: Keyqubad, Keykavus(Bax: Kavus), Keyxosrov və b. Bax: Kəyan.

Xərac göndərəndir Kəsra ilə **Key** (İ-23).

Burada söhbət Məhəmməd peyğəmbərdən gedir. Guya Kəsra və Key ona xərac göndərirlər. Əslində isə İranın Bağdada xərac verməsindən söhbət gedir.

Key (top.) – İskəndərin pəhləvanı Nəsəbinin vətəninin adı.

Qubad İstəxrdən, Nəsəbi **Keydən**... (İ-323).

Bizə elə gəlir ki, "Key" toponim yox, sülalə mənasında olan antroponimdir. Bax: Nəsəbi.

Keyd (an.) – "İskəndərnamə"də obraz adı.

Keyd ilə gəlincə qasid üz-üzə
Tor kimi sözünü caladı sözə (İ-261).

Keyd – eramızdan əvvəl IY əsrdə Hindistanda Qənnuc padşahının adıdır. İskəndər Zülqərneyn Hindistanı fəth edəndə Keydin qızını almışdı (10).

Keyxosrov (məc. an.) – Kəyan şahlarına verilən ümumi ad olmaqla bərabər, "Şahnamə"də Səyavuşun Turan hökmdarı Əfrasiyabın qızı Firəngizdən olan oğlunun adıdır. İran pəhləvanlarından Giv Keyxosrovu Turan padşahı Əfrasiyabdan oğurlayaraq Rüstəmə çatdırır və sonra İran taxtına oturub, atası Səyavuşun qanını almaq üçün Əfrasiyaba müharibə elan edir. Əfrasiyab onun əlində qətlə yetirilir. Kəyan sülaləsinin III padşahı hesab olunur.

Onun adı "Avesta"da şücaətli pəhləvan və din hamisi kimi çəkilmişdi. Qərbi Avropa və rus mənbələrində Kir adı ilə məşhurdur. O, ana babası Midiya hökmdarı Astiyaqı öldürərək hakimiyyəti ələ almış, sonra da Neynəva, Babil, Suriya və Turanı işğal edib ölkələr fəth edən fateh kimi şöhrətlənmişdi.

Rəvayətə görə, Midiyanı işğal etdikdən sonra Şimali Azərbaycanı ələ keçirməyə çalışır. Yerli hökmdar Tomirisin oğlu əsir alınır və köləliyə dözməyərək özünü öldürür. Tomiris oğlunun intiqamını almaq üçün Keyxosrovun qoşunu ilə vuruşur. Keyxosrov bu vuruşda öldürülür. Tomiris onun kəsilmiş başini qan dolu bir tuluğa saldıraraq rişxəndlə demişdi: "Sən mənim oğlumu xəyanətlə məhv etdin, mən də öz andıma əməl edirəm. Sağlığında qandan doymadın, indi doyunca iç".

Sən kimi **Keyxosrov**, piyalədən az,
Elə bir qulama şey bağışlamaz (XŞ-35).

Burada Atabəy Məhəmməd Keyxosrova bənzədilir.

Ərzincan hakimi Bəhram şahın şahlıq qüdrəti Şərq ədəbiyyatında qüdrətli şah rəmzi sayılan Keyxosrova bənzədilir.

Camın bənzər Cəmşidin**, Keyxosrovun** camına,
Günəş bir pərvanədir camalının şamına (SX-43).

Beytin mənası: Sənin(Bəhramın) dünyanı özündə əks etdirən camın Cəmşid huşlu bir Keyxosrovdur ki, sən şərab içdikcə

sənin huşun, sayıqlığın daha da artır. Üzün isə elə işıqlı bir şamdır ki, Günəşi pərvanə kimi yandırıb öldürür.

Şirinin var-dövləti Keyxosrovun var-dövlətinə bənzədilir.

Bu şahlıq könlünə yatmırdı hərgiz,
Varkən **Keyxosrovtək** dövləti, varı (XŞ-160).

Məcnun metaforik şəkildə taxtı-tacı olmayan Keyxosrova bənzədilir.

Bir **Keyxosrov** olan o tacsız-taxtsız,
O yüz min bədbəxti düşünən baxtsız (LM-83).

Xəvərnəq sarayını tikən Simnarı ədalətsizlik edib qüllədən atdıran Neman, sonralar ağıllı vəzirinin təsiri ilə öz günahını başa düşür və taxt-tacdan əl çəkib çöllərə düşür və bir daha qayıtmayır. Şair bu vaxt Nemanı Keyxosrova bənzədir.

Bir də qayıtmadı öz xanəsinə,
Keyxosrov kəsildi zəmanəsinə (YG-64).

Firdovsinin "Şahnamə"sinin əsas qəhrəmanlarından biri olan İranın qüdrətli və əzəmətli şahı Keyxosrov öz şahlığının çiçəkləndiyi bir vaxtda hakimiyyətdən imtina edib, qarda, çovğunda, boranda dağlarda yox olur.

Keyxosrov (xat. an.) – Şair bu addan xatırlama ad kimi də istifadə etmişdir. Belə ki, Daranın sərkərdəsi Fəribərz(bax) Daranı İskəndərlə vuruşmadan çəkindirmək məqsədi ilə Keyxosrovu və onun İskəndər haqqında dediklərini xatırladır.

Keyxosrov dünyadan edərkən səfər
Cavahir camından vermişdi xəbər (İ-124).

İran mifologiyasında Keyxosrovun gövhər bir camı varmış ki, dünyanın bütün hadisələri, həm keçmiş və həm də gələcək onda əks edilirmiş. Yəni Keyxosrov ölərkən Daranın əhvalını öz camında görüb, əvvəlcədən xəbər vermişdi.

Keyxosrov camı (məc. ktem.) – Şair Xosrovun qızılla bəzədilmiş taxtını qızıldan olan minlərlə Keyxosrov camına bənzədir.

Xosrovun taxtına hər kim baxanda
Min **Keyxosrov camı** görərdi onda (XŞ-221).

Keyxosrov, Əfrasiyab (qoşa məc. an.) – Birinci qədim İranda, ikinci qədim Turanda qüdrətli hökmdar olmuşlar. Hər ikisi

klassik ədəbiyyatda qüdrətli hökmdar rəmzidirlər. Elə buna görə də Məhin Banu Xosrovu Keyxosrova, özünü və nəslini isə Əfrasiyaba bənzədir.

O, **Keyxosrov,** bizsə **Əfrasiyabıq** (XŞ-119).

Keyxosrov xəzinəsi (məc. top.) – Burada "xəzinə" sözü məcazi mənada işlənmişdir və Keyxosrovun şahlıqdan əl çəkib, çöllərə düşməsi və qarlı, boranlı bir gündə dağda yox olmasına işarə edilmişdir. Bəhram Gurun gur dalınca girdiyi, yox olduğu mağara Keyxosrovun girdiyi və yox olduğu mağaraya bənzədilmişdir.

Sürdü öz atını bir baş oraya,
Keyxosrov xəznəsi bir mağaraya (YG-300).

Keyxosrov, Xosrov (qoşa an.) – Keyxosrov həqiqi, Xosrov isə məcazi mənada işlənmişdir. Çünki Xosrov dedikdə şair İskəndəri nəzərdə tutmuşdur.

Keyxosrov taxtından **Xosrov** dönüncə
Ordunun içinə getdi ilk öncə (İ-253).

Burada Keyxosrov və Xosrov adları eyni zamanda epiforik adlardır.

Keyxosrov, İskəndər (qoşa xat. an.) – Şair İskəndərin Keyxosrovun məqbərəsinə getməsini təsvir edərkən bu təsvirə öz dövründən baxmış və həm də İskəndəri xatırlamışdır.

Keyxosrov qurduğu məclislər hanı?
Taxtında oturan **İskəndər** hanı? (İ-247).

Nizami İskəndərin Keyxosrovun məqbərəsinə getməsini təsvir edərkən "Şərəfnamə" əsərini ithaf etdiyi Atabəy Nüsrətəddin Əbubəkri eyni vaxtda Keyxosrova və İskəndərə bənzədir.

Bu yeddi kişvərdə **Keyxosrov** sənsən,
İskəndər mülkünə fərman verənsən (İ-247).

Keyxosrov, Keyqubad (məc. ana. an.) – Şair eyni vaxtda Atabəy Nüsrətəddin Əbubəkri Keyxosrov və Keyqubada bənzədir.

Adı **Keyxosrovla** olmuş bərabər,
Nəsəbi ucadır **Keyqubad** qədər (İ-50).

Şair sərirlinin dili ilə İskəndəri də Keyxosrov və Keyqubada bənzədir.

İncə bir dil açdı başqa bir nəfər:
“Keyxosrov, Keyqubad nə vaxta qədər,
Qolun ki bu taxtla gücləndi artıq,
Edərsən **Keyxosrov** və **Keyqubadlıq** (İ-245).

Keyxosrov, Keyqubad (xat. ana. an.) – Qoca pəhləvan Fəribərz İskəndərin suallarına cavab verərkən Keyxosrov və Keyqubadın qoca vaxtlarında şahlıqdan imtina etmələrini xatırladır.

Alət olmaq üçün istəklərinə
Gənc bir şah qoyarlar onun yerinə.
Onunçun **Keyxosrov,** həm də **Keyqubad**
Şahlığı etmədi qocalıqda yad (İ-165).

Keyxosrov taxtı (ktem.) – Şairin təsvirinə görə, Sərir (bax) qalasında saxlanılan və Keyxosrova məxsus olan taxt.

Keyxosrov taxtına əyləşdirsinlər,
Töksünlər başına inci və gövhər (İ-243).

Şair İskəndərin şahlığını metaforik şəkildə Keyxosrovun şahlığı ilə müqayisə edir və üstünlüyü İskəndərə verir.

Rəyi bir güzgüdür çinlilər üçün,
Odur **Keyxosrovun taxtında** üstün (İ-55).

Keykavus, Mahmud, “Şahnamə” (məc. on.) – Şair Atabəy Nüsrətəddini Keykavusa bənzədir və Sultan Mahmud Qəznəvi ilə müqayisə edir. “İqbalnamə” əsərini isə “Şahnamə”yə bənzədir.

Bir qədəh mey verir sənə Nizami,
Gərək nuş edəsən **Keykavus** kimi.
Bu tusi qədəhlə **Mahmuda** bildir
“Şahnamə”nin qədri , qiyməti nədir! (İ-428).

Bir qədəh mey dedikdə “İqbalnamə” nəzərdə tutulur. Şair əsərini ithaf etdiyi İzzəddin Məsuda deyir ki, gərək bu qədəhdəki meyi nuş edib, ona qiymət verəsən. Başqa sözlə, bu tusi qədəhlə, yəni Firdovsi Tusinin “Şahnamə”si qiymətində olan bu əsərə layiqli qiymət verməklə, Sultan Mahmuda bildirəsən ki, şairin qədrini necə bilərlər.

Keykavus taxtı (xat. ktem.) – “Şahnamə”də Keykavusla əlaqədar olan bir hadisəyə işarə olunur. Guya din və pərilərin vəsvəsəsi nəticəsində Keykavus göylərə qalxmaq ehtirasına mübtəla

olur. Onun əmri ilə xüsusi kəcavə düzəldib, hər küncünə bir ac şahin bağlayırlar. Onların başının üstündə uzun nizələrin ucunda ət asırlar. Şahinlər əti qapmaq niyyətilə qanad çalaraq kəcavəni göyə qaldırırlar və bir müddət sonra qüvvətdən düşərək kəcavəni uzaq meşələrdən birinin üstünə atirlar.

Qəşəng ayaqları hilal vururdu,
Başında **Keykavus taxtı** qururdu (YG-26).

Şair burada Məhəmməd peyğəmbəri səmaya qaldıran Buraqa işarə edir. Guya onun başı üstündə Keykavus taxtı(Keykavusun göylərə qalxdığı kəcavə) dayanmışdır.

Keyqubad (məc. an.) – Kəyan(bax) sülaləsinin birinci şahı və bu sülalənin banisi sayılır. Rəvayətə görə, 41 il hakimiyyət sürmüşdür. Rüstəm(bax) onun xidmətində olmuş və turanlılarla apardığı müharibələrdə böyük qələbələr əldə etmişdir. Şair özünü Keyqubada bənzədir.

Bir gün nəşəliydim, aləm şad kimi,
Dəmlər içindəydim **Keyqubad** kimi (LM-45).

Şair səma cisimlərinin insan taleyi ilə heç bir əlaqəsi olmamasını təsvir edəndə Keyqubadı xatırladır.

Əgər eyləsəydi ulduz ömrü şad,
Onda hər münəccim olub **Keyqubad,**
Səadət içində dövran sürərdi (YG-21).

Keyqubad, Cəmşid taxtı (qoşa məc. on.) – Şair Qızıl Arslanı Keyqubada, onun oturduğu taxtı isə Cəmşidin taxtına(bax) bənzədir.

Günəştək parlayıb şah öz vaxtında,
Oturdu **Keyqubad Cəmşid taxtına** (XŞ-367).

Keyqubad, Keyxosrov (ana. məc. an.) – Şair eyni vaxtda Şirvanşah Axsitanı və Bəhram Guru Keyqubad və Keyxosrova bənzətmişdir.

Kölgən bir günəşdir, sən alov kimi,
Keyqubad rütbəli, **Keyxosrov** kimi (LM-51).
Nə zaman **Keyqubad** taclı, cəsur şah
Keyxosrovluq tacı qaldırdı nagah (YG-132).

Keyumərs (an.) – Qədim İran şahlarının ilk sülaləsi olan Pişdadiyan sülaləsinin birinci padşahıdır. Əfsanəvi bir şəxsiyyətdir.

Şah olmuş əcdadın **Keyumərs**ədək (YG-87).

Burada söhbət Bəhram Gurdan gedir.

Keyvan (məc. kos.) – Zühəl(Saturn) planetinin farsca adı. Məcazi mənası "yüksəklik" deməkdir. Bax: Zühəl.

Onun qılıncını itilər **Keyvan**,
Belindən bir bülöv asmışdı əlan (LM-184).

Keyvan Mərrix(bax) planetinin qılıncını itiləyən şəxsə bənzədilir.

Şair Keyvan ulduzunu Xosrovun taxtının zinətlərinə bənzətmişdir.

Aydan və Zöhrədən **Keyvana** qədər
O taxt üzərinə düzülmüşdülər (XŞ-221).

Keyzadə (an.) – "Key oğlu" mənasında işlənmişdir, şahzadə, xanzadə titulları kimi hökmdarların övladlarına verilir. Bəhram Gur Kəyan taxt-tacına varis olduğu üçün özünü Keyzadə adlandırır.

Key mənəm, düşməndən Kəyan tac alar!
Keyzadədən qeyri kim xərac alar?
Kəyana layiqdir Kəyanın yeri (YG-89).

Kəbə (ag. top.) – Ərəbcə Kub deməkdir. İslamın əsas ziyarətgahıdır. Əl-Məscid, əl-Həramın həyətinin ortasında yerləşir. Binanın cənub-qərb bucağında divara guya Allahın göydən göndərdiyi "Qara daş" hörülmüşdür. Bütün dünyanın müsəlmanları namaz qılarkən üzlərini Kəbəyə tərəf çevirirlər. Kəbə Həccin başlıca obyektidir. Ziyarətçilər yeddi dəfə Kəbənin dövrəsində dolanır və "Qara daş"ı öpürlər. Kəbənin üstü kisvə ilə - üzərində qızılı saplarla Quran ayələri yazılmış qara örtüklə örtülür. Həcc dövründə bu kisvə ağ kisvə ilə əvəz edilir.

Rəvayətə görə, Kəbəni Adəm Allahın əli ilə tikmiş, lakin Nuhun tufanı onu dağıtmışdır. Sonra İbrahim və onun oğlu İsmayıl Kəbəni yenidən tikmişlər. İslamdan əvvəl Kəbə Məkkə sakinlərinin əsas ziyarətgahı idi. Kəbənin ətrafına ərəb Allah-

larının əksəriyyətinin bütləri qoyulmuşdu ki, bu da onu bütün ərəblərin ziyarətgahına çevirir.

Məhəmməd peyğəmbər Kəbəbnin ətrafında olan bütləri məhv etdikdən sonra, buyurmuşdu ki, müsəlmanlar namaz qılarkən üzlərini Kəbəyə tərəf çevirsinlər.

Məkkəyə gedib Kəbəni ziyarət edən möminlərə "Hacı" deyilir.

"Ulu tanrı!" dediyin doğma məkandı Kəbə,
Gülabına təşnədi, eşqinlə yandı **Kəbə** (SX-35).

Nizaminin təsvirinə görə, İskəndər Ərəbistana gedərkən Kəbəni də ziyarət etmişdir.

Yanaşdı **Kəbəyə** şən bir üz ilə,
Həccin əmalını öyrəndi belə (İ-199).

Kəbə (məc. ag. top.) – İnsan ruhu metaforik şəkildə Kəbəyə bənzədilmişdir.

Kim varlıq cövhərini bu gildən yaradıbdır,
Ruhunun **Kəbəsini** könüldən yaradıbdır (SX-92).

Məcnun Leylinin camalını Kəbəyə bənzədir.

Sən, ey astanası mehrabım sənəm,
Camalın olmuşdur cahanda **Kəbəm** (LM-199).

Ruyindiz (bax) qalası Kəbəyə bənzədilir.

Qələ yox, **Kəbədir**, anlayır hər kəs,
Ruhani gözündə odur müqəddəs (YG-310).

Burada Ruyindiz qalasını qiymətləndirməyi bacaran şəxs də metaforik şəkildə ruhaniyə bənzədilmişdir.

Kəbə, Əhməd (qoşa məc. om.) – Şair Qızıl Arslanı Kəbəyə, özünü isə Əhmədə (Məhəmməd peyğəmbərin ikinci adı) bənzədir.

Getdim, **Kəbəyə** mən həccaq kimi san,
Gəldim, sanki **Əhməd** döndü meracdan (XŞ-372).

Həccaq – Həccac sözündən olub, Məkkəyə (Kəbəyə) ziyarətə gedənlər deməkdir.

Kəbə, Kəbə (təkrar ag. top.) – Müxtəlif məqsədlər üçün şair bu adları təkrar etmişdir. Birinci "Kəbə" ona nail olmağa, ikincisi isə onun qənim olmasına işarədir.

Talanmışam yolunda, mənim olub **Kəbə** də,
Xarabata keçəli qənim olub **Kəbə** də (SX-107).

“**Kəlilə-Dimnə**” (id.) – Tədqiqatçıların fikrincə, bu əsər III-IV əsrlərdə şifahi hekayələr şəklində Hindistanda meydana gəlmişdir. Sonra Hind brəhmənləri onu yazıya köçürmüşlər. I Xosrov Nuşirəvan zamanında pəhləvi dilinə tərcümə olunmuşdur. Kitab VIII əsrdə ərəb, X-XI əsrlərdən başlayaraq yunan, yəhudi, latın dillərinə tərcümə olunmuşdur.

Rəhim Sultanovun tərcüməsi ilə “Kəlilə və Dimnə” 1962-ci ildə Azərbaycan dilində Bakıda nəşr olunmuşdur.

Büzürgümid Xosrovun tələbinə görə “Kəlilə və Dimnə”dən 40 hekayə söyləyir.

“**Kəlilə-Dimnə**”dən nəql elə bir-bir (XŞ-395).

Kəlim çırağı (ktem.) – “Kəlim” Musa peyğəmbərin ləqəbidir və “Kəlimullah” agioniminin qısaldılmış formasıdır. “Kəlimullah” – Allahın dostu deməkdir.

Kəlim (Musa peyğəmbər) guya Sina dağında tonqal yananda göylərə qalxmış və Allah tərəfindən qəbul edilmişdir. Şair “Kəlim çırağı” dedikdə, məhz həmin tonqalı nəzərdə tutmuşdur.

Yunisin məşəli, **kəlim çırağı** (YG-127).

Kəng, Zəng (ep. top.) – Şairin təsvirindən başa düşmək olur ki, Kəng Nilin mənsəbində yerləşən bir yer adıdır. Kəng və Zəng (bax) eyni zamanda epiforik adlardır.

Nilin mənsəbindən ta **Kəngə** qədər,
Çin dənizlərindən ta **Zəngə** qədər (İ-187).

Kərx (top.) – Mesopotamiyada bu adla bir neçə yer var: Bəsrə Kərxi, Bağdad Kərxi, Səyan Kərxi və s. Nizamidə Bağdad Kərxindən bəhs edilir. Bağdad Kərxi Bağdad hasarı xaricində sənətkarlara məxsus geniş bir yerdir. Bağdad tikilib genişləndikcə Kərx də şəhərin ortasında qalmışdır. Sonralar Bağdadla birlikdə Kərx də dağılıb xarabaya dönmüşdür.

Gecənin gözünə qaranlıq axdı,
Bağdadı Kaxsız və **Kərxsiz** buraxdı (İ-157).

Yəni çərxi-fələyin gözü, üzü qara oldu ki, İranın Bağdadını saraysız, qalasız və Kərxsiz qoydu.

Burada Daranın ölümünə işarə olunur.

Kəsra (an.) – Sasani şahlarından iyirmincisi olan Nuşirəvan (Ənuşürəvan, Nuşin Rəvan, Nuşərvan) ərəblər arasında Kəsra, rumlular arasına isə Xosrov adı ilə məşhur olmuşdur. Xosrov Pərviz onun nəvəsidir. Nuşirəvandan sonra gələn İrak padşahları da bu ümumi antroponimlə adlanmışlar. Bax: Nuşirəvan.

Zaval gələn zaman **Kəsra** bəxtinə,
Hürmüz sahib oldu şahlıq təxtinə (XŞ-54).

Kəsra, Hürmüz (qoşa an.) – Şair bu adları onların hökmdarlıq etmə ardıcıllıqlarına görə işlətmişdir.

Zaval gələn zaman **Kəsra** bəxtinə,
Hürmüz sahib oldu şahlıq təxtinə (XŞ-54).

Kəsra, İsa (qoşa məc. an.) – Şair eyni vaxtda Xosrovu Kəsraya və İsaya bənzədir.

Bir büt əskik oldu, **Kəsra** sağ olsun,
Məryəmçün qəm yemə, **İsa** sağ olsun (XŞ-218).

Kəsra, Keykavus (qoşa məc. an.) – Şahın qızı Kəsranın tacına, Vəzirin qızı isə Keykavusun taxtına bənzədilir.

Ona qismət oldu üç gözəl tavus,
Kəsranın tacıyla təxti-Keykavus (YG-251).

Burada söhbət Xeyirdən gedir. Bu tavuslardan birincisi Kürd qızı, ikincisi Kəsranın tacına bənzər tac, üçüncüsü isə Keykavusun təxtinə bənzər təxtdir.

Kəşmir (top.) – Hindistanın şimalında və Himalay dağları silsiləsi ilə Tibet dağları arasında yerləşən geniş bir ölkədir. Mənası "çay qovuşan", "su qovuşan" deməkdir.

Biri dedi: "**Kəşmir**" marallarından
Tapan olmamışdır hələ bir nöqsan (XŞ-224).

Burada Kəşmir gözəlləri metaforik şəkildə marala bənzədilir.

Kəşmirli (et.) – Kəşmirdə yaşayanlar nəzərdə tutulur.

Rəqs edən **kəşmirli** gözəllər durur,
Oynarkən yel kimi mayallaq vurur (İ-305).

Kəyan (məc. an.) – Qədim əfsanəvi İran şahlarına verilən addır. Kəyan (Key) sülaləsindən olan şahlara Keylər (Kəyan və ya Kəyanyan) deyirlər. Firdovsinin "Şahnamə"sində Keyumərs,

Keyqubad, Keykavus, Keyxosrov kimi şahlar bu sülalədəndirlər. Bax: Key.

Kəyan hökmdarları adlarının əvvəlinə artırılan "kay", yaxud "key" sözü kahin, padşah, hökmdar mənasında işlənmişdir. Kahinlər guya allahlar və ruhlar aləmi ilə insanlar arasında vasitəçi sayılan din xadimləridir. İbtidai icma cəmiyyətinin dağılması, sosial təbəqələşmə ilə peşəkar kahinlər meydana çıxdılar (ASE-5).

Kəyan çadırının dörd yanı bu gün
Alan keçəsiylə əlvandı bütün (XŞ-101).

Burada Kəyan dedikdə Xosrov Pərviz nəzərdə tutulur.

Şair Daranı metaforik şəkildə Kəyana bənzədir.

Kəyanın külahı **Kəyana** yarar,
Bu xəzin içinə sığarmı rumlar? (İ-127).

Burada "Kəyan" adı iki dəfə təkrar olunmuşdur. Lakin birincisi həqiqi, ikincisi isə məcazi mənada işlənmişdir. "Külah" fars sözüdür və papaq deməkdir. Yəni Kəyan papağını ancaq Kəyan nəslindən olan şəxs qoya bilər. "Kəyan papağı" dedikdə isə İran taxtı nəzərdə tutulmuşdur.

Kəyan, Alan (ep. on.) – Kəyan – antroponim, Alan – toponimdir, lakin onların son səsləri fonetik cəhətcə eyni səslənir.

Kəyan çadırının dörd yanı bu gün
Alan keçəsiylə əlvandı bütün (XŞ-101).

Burada Xosrov Pərvizin sarayının Alan keçəsiylə bəzədilməsinə işarə olunur.

Kəyan padşahları (məc. an.) – İranın əfsanəvi Kəyanilər sülaləsinə mənsub olan şahlar, onların ən məşhur pəhləvan və cəngavərləri nəzərdə tutulur. Şair Körpə Arslanı onlarla müqayisə edir.

Kəyan padşahları xoş tale ilə
Almış on iki rux, həftxan ələ.
Yeddi göy, on iki bürc ilə ancaq,
Sənin həftxanın, ruxun olacaq (YG-39).

Həftxan – yeddi igidlik, şücaət, qəhrəmanlıq deməkdir. Kəyanilərə qulluq etmiş məşhur Rüstəm Zalın və İsfəndiyarın Firdovsi "Şahnamə"sində təsvir olunmuş yeddi qəhrəmanlıqları nəzərdə tutulur. Keykavus əsarətdə olarkən Rüstəm onu azad

etmək üçün Mazandarana yollanır və şahın yolunda yeddi dəh-şətli vuruşmada qalib gəlir. İsfəndiyar da Turana hücum edib öz bacılarını Əcəsbdən azad edərkən yeddi qəhrəmanlıq göstərir.

On iki cəngavər – "Şahnamə"də geniş yer tutan fəsillərdən biridir. Həmin fəsildə Firdovsi on iki iranlı və turanlı pəhləvanın bir-biri ilə təklikdə vuruşmasını təsvir edir.

Beytlərin mənası: Qədim İranın şahlarının yeddi pəhləvan və on iki cəngavəri var idisə, sənin də yeddi pəhləvanın – yeddi səyyarə və on iki cəngavərin – bürcün var. Odur ki, nəinki yerə, hətta göyə də hakimsən.

Kəyanın tacı (ktem.) – Qədim İran şahlarının əfsanəvi ikinci sülaləsinə işarədir. "Kəyanın tacı" həm Kəyan sülaləsinə, həm də Bəhram Gurun atası Yəzdigirdin tacına işarədir.

Kəyanın tacını tələb etməkçin
Bağladı belini ürəyində kin (YG-80).

Kəyanlar (məc. an.) – Bir çox hökmdarlar nəzərdə tutulur.

Kəyanlar köçüblər indi dünyadan (İ-428).

Kəyumərs, Keyqubad (qoşa məc. an.) – Şair metaforik şəkildə eyni vaxtda Daranın taxtını (yerini) Kəyumərs və Key-qubadın taxtına bənzədir. Bax: Keyumərs.

Tac qoymaq üçün o, İstəxrə köçdü,
Kəyumərs, Keyqubad yerinə keçdi (İ-187).

Burada söhbət İskəndərdən kedir. Kəyumərs və Keyqubad isə anaforik antroponimlərdir.

Kila (mif.) – "Mahanın hekayəsi"ndə obraz adı. Mahanı səhrada azdıran cinlərdən birinin adı.

Dişisi Niladır, kişisi **Kila** (YG-215).

"**Kini-İrəc**" (id.) – Bir musiqi ahənginin adıdır. "Şahnamə" surətlərindən İrəcin adı ilə bağlıdır. Dəmirçi Gavə Zöhhakı taxt-dan salıb, Cəmşid nəslindən Firidunu taxtda oturtdu. Firidunun üç oğlu: İrəc, Tur və Səlm olmuşdur. Firidundan sonra Tur Səlm ilə birləşib şahlığın yaxşı hissəsinə varis olmuş qardaşları İrəci öldürmüşdülər. Sonra İrəcin oğlanları atalarının qanını almaq üçün "Kini-İrəc" deyə əmiləri ilə müharibələr aparmışdılar.

“**Kini-İrəc**”inə açanda meydan
Qisasa başlardı təzədən cavan (XŞ-169).

Xosrov və Şirinin musiqi məclisinin təsvirindən bəhs dən bu beytin mənası: “Kini-İrəc” havası o qədər gözəl çalınırdı ki, eşidənlər qisas almaq üçün cuşa gəlirdilər.

“**Kini-Səyavuş**” (id.) – Bir musiqi ahənginin adıdır. “Şahnamə” surətlərindən biri olan Səyavuşun adı ilə bağlıdır. İran padşahı Keykavusun oğlu Səyavuşun başı Turan padşahı Əfrasiyab tərəfindən kəsildiyindən Keykavus və əfsanəvi pəhləvan Rüstəmi-Zal onun qisasını almaq üçün “Kini-Səyavuş” deyə böyük müharibələrə girişmiş, beləliklə də, İran – Turan müharibələri bir az da qızışmışdı.

Xosrov və Şirinin musiqi məclisində çalınan bu hava aşiq və məşuqun hisslərini coşdurmağa xidmət edir.

“**Kini-Səyavuşa**” vuranda barmaq
Səyavuş qanıyla dolurdu qulaq (XŞ-169).

Beytin mənası: “Kini-Səyavuş” havası çalındıqca onlar böyük həvəslə qulaq asır və cuşa gəlirdilər.

Kirman (top.) – İranın cənub-şərqində bir vilayətdir. Vilayətin mərkəzi də eyni adlı şəhərdir.

Kirmanı, Qəzneyni, Quru cahangir
Atların nalıyla ölçürdü bir- bir (İ-258).
Yerin o başından **Kirmana** yetdi (İ-579).

Kirman şəhərini Sasanilər sülaləsinin banisi I Ərdəşirin (226-241) saldığı güman edilir. XI-XIII əsrlərdə iri yaşayış məntəqəsinə çevrilmiş Kirman, Kirman səlcuqilərinin mərkəzi olmuş, Müzəffərilər dövründə (XIV əsr) tərəqqi etmişdi. 1794-cü ildə Ağa Məhəmməd şah Qacar Kirmanı dağıtmışdı. XIX əsrin II yarısından yenidən inkişafa başlamışdı... (ASE-5).

Kirmanşah (top.) – İranın qərbində Kürdüstanın mərkəzi şəhərlərindəndir.

Kirmanşahdan kənar on ağac qədər,
Nə **Kirmanşah**, uzaq, ən ucqar bir yer! (XŞ-98).

Kişmir biharı (məc. top.) – Hind şahzadəsi Furəkə işarədir. “Kəşmir gözəli” mənasında işlənmişdir. “Bihar” Hind sözü olan

vihardan əxz edilmiş və qızıl, bürünc və əlvan naxış, rəsmlərlə bəzənmiş məbəd deməkdir. Bax: Kəşmir.

Kişmir biharından, Bəhram Gur – o şir...(YG-134).

O türk gözlü, hindu nəsilli ceyran...(YG-135).

Körpə Arslan şah (an.) – Nizami Gəncəvinin "Yeddi gözəl" poemasını ittihaf etdiyi Marağa hakimidir. O, 1174-1208-ci illərdə hökmdar olmuşdur. Ağsunqurlar nəslindən Arslan Abanın oğludur. Məşhur Ruyindiz qalası ona məxsus imiş.

Bu antroponimik birləşmənin birinci komponenti onun ləqəbi, ikincisi əsl adı, üçüncüsü isə tituludur.

Ölkələr fatehi **Körpə Arslan şah**

Alp Arslandan yüksək, olduqca gümrah (YG-34).

Körpə Arslan şahın və onun atasının da əsl adı "Arslan" olduğuna görə, onları fərqləndirmək üçün oğul Arslanın adına "Körpə" ləqəbi artırılmışdır. "Arslan" isə şir, aslan deməkdir. Şair bu adı mənalandıraraq yazır:

O, göylə yoldaşdır, buludla birdir,

Qüvvətdə şir kimi, adı da şirdir (YG-34).

Yəni o bulud kimi səxavətlidir və hər tərəfə qızıl yağdırır; ikinci sətirdə şair Arslan (Aslan) sözünün həm fars dilində tərcüməsini (şir) verir, həm də həmin sözün lüğəvi mənasından Arslan şahın təsviri üçün şairanə istifadə etmişdir.

Kupal (an.) – Rus pəhləvanlarından birinin adı.

Zərivənd nəhayət bir qılınc çaldı,

Kupal pəhləvanın canını aldı (İ-332).

Ola bilsin ki, şair bu adı slavyanlarda xristianlığın qəbuluna qədər, büdpərəstlik dini ilə əlaqədar olan Günəşin yaza dönməsi günü olan Kupala bayramının adından götürmüşdür.

Kürbasar (top.) – Bərdə şəhərinin şimalında Kür sahilində yerləşən müəyyən ərazinin adı.

Bəzən ovlaqları oldu **Kürbasar**,

Çox quş ovladılar, balıq tutdular (XŞ-133).

Burada söhbət Xosrov və Şirindən gedir.

Kürd (et.) – Kürdüstanda yaşayan xalqın ümumi adı. Onlar özlərini "kurmanc" da adlandırırlar. Kürdlər Ön Asiyanın ən qə-

dim xalqlarindandır. Hal – hazırda on milyondan çox olan kürdlər İran, İraq, Türkiyə, Suriya, Azərbaycan, Ermənistan, Orta Asiya və Qazaxıstanda yaşayırlar. Azərbaycan Respublikasında əsasən Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı və Naxçıvanda yerləşmişlər.

Kürd köçəndə deyir: "Qoy axur tikim... (XŞ-178).

Kürd (an.) – "Xeyir ilə Şər hekayəsi"ndə obraz adı.

Kürd gördü xəstə kor sayır özünü,
Qəlbi parçalanıb, yumur gözünü (YG-241).

Kürd qızı (an.) – "Xeyir ilə Şər hekayəsi"ndə obraz adı. Şair bu obrazı – qızı atasının adı ilə, sadəcə olaraq "Kürd qızı" adlandırmışdır.

Ürəkdən xoşladı, sevdi yalqızı
Kürdün gül camallı mehriban **qızı** (YG-242).

Kürd qızı (an.) – Nizami Gəncəvinin anası Rəisənin ləqəbi. Son tədqiqatlarda Nizami Gəncəvinin anasının kürd yox, türk qızı olması sübut olunmuşdur. Nizamişünas alim Əskər Sərkaroğlu göstərir ki, Nizaminin anası Rəisə bəzi tərcüməçi və ya tədqiqatçıların dediyi kimi, kürd və ya talış yox, "qurd" totemi ilə məşhur olan türk tayfa başçılarından birinin qızı olmuşdur.

Kürd qızı anam da bizi tərk etdi,
Bir ana qəlbiylə dünyadan getdi (LM-67).
Qurd qızı anam da bizi tərk etdi,
Bir ana qəlbiylə dünyadan getdi (49).

- Q -

Qabil (ag.) – Dini əfsanələrə əsasən Adəm peyğəmbərin oğlu sayılır. Guya qısqanclıq və paxıllıq nəticəsində öz qardaşı Habili (bax) öldürmüş, sonra peşman olmuşdur. Əfsanəyə görə, Qabilin cinayəti dünyada insanın ilk cinayəti hesab edilir.

Şimalda bir tayfa salmışdır məskən,
Mütilik onlara qalmış **Qabildən** (İ-505).

Qabil, Habil, Nasik, Mənsək (qrup xat. ag. və et.) – İskəndər ölüm ayağında öz keçmiş igidliklərini xatırladarkən bu adları

da yada salır. Burada bu adlar həm də Şərq, Qərb, Şimal və Cənub (yəni bütün dünya) mənalarını ifadə edir.

Qabildən, Habildən alıb intiqam,
Nasikdən Mənsəkə yollar açmışam (İ-584).

Nasik və Mənsək (bax) etnonimləri eyni zamanda toponim, Qabil və Habil isə İskəndərin müasirləri kimi təsvir olunmuşdur.

Qaf dağı (məc. top.) – Əsatirə görə, dünyanın ən uca zirvəli, bir sıra dağ silsiləsini əhatə edən və Simurğ quşunun məskən saldığı bir dağdır. Toponimik adın mənşəyinə görə Qafqaz dağlarından biri olduğu ehtimal olunur.

Külək zirək olmasa dolanarmı çəməni?
Qaf dağından ağırsan, ətalət basıb səni (SX-72).

Burada insan Qaf dağına bənzədilir. Külək yüngül ruhlu olduğu üçün həmişə hərəkətdə, sən isə Qaf – Qafqaz dağından ağır olduğun üçün yerindən tərpənib ülvi amallara xidmət edə bilmirsən.

Dara istehza ilə İskəndəri, müəyyən şərtlə Qaf dağına bənzədir.

Qaf dağı olsa da, gözünü silsin,
O kimdir mənimlə çarpışa bilsin? (İ-115).

Şair Daranın İskəndərə qarşı qoşun toplamasını təsvir edərkən, bu ordunu Qaf dağına bənzədir.

Bir ordu düzəltdi **Qaf dağı** qədər,
Hamısı daş, dəmir çeynəyən əjdər (İ-117).

Qafdan – Qafa (top.) – Qaf dağının həm başlanğıc, həm də son mərkəz kimi işlənməsi "bütün dünya" deməkdir.

Qafdan – Qafa qədər keçirmiş ələ,
Dağların canına salmış vəlvələ (YG-310).

Yəni Ruyindiz öz əzəmət və vüqarı ilə bütün dağları lərzəyə salmış və onları ələ keçirmişdir.

Poemanın "Şaha səna və kitabın xətmi" hissəsində "Ruyindiz" dedikdə, təsəvvürdə Körpə Arslan özü canlanır.

İskəndərin fatehlik qüdrətindən bəhs edən şair göstərir ki, o, dünyanı Qafdan – Qafa qədər fəth etdi. Burada həm də dünyanın kürə şəklində olmasına işarə edilir.

Şüurla, hünərlə işlətdi qafa,
Dünyanı fəth etdi o **Qafdan – Qafa** (İ-62).

Qala gözəli (an.) – "Yeddi gözəl" poemasında slavyan qızının söylədiyi nağılda təsvir olunan gözəlin adı.

Bu uca qalaya tənha köçəli,
Adını qoydular: **qala gözəli** (İ-194).

"Yeddi gözəl" poemasının filoloji tərcüməsində "Qala gözəli" əsl ad yox, ləqəb kimi göstərilir.

Onun xəzinəsinin yeri möhkəmlənəndən sonra
Onun ləqəbi "**Qala xanımı**" oldu (səh.182).

Onomastik cəhətdən obrazın bu cür adlanması daha düzgündür.

Qara (məc. ktem.) – Mətndə "Qeyruvan" (Mənə qır və Qeyruvandan xəbər ver) kimi getmişdir. Qeyruvan – Afrikanın qədim şəhərlərindən biridir. VII əsrdə salınmışdır, indiki Tunisdə yerləşir.

Qaranın sirriylə məni et tanış (YG-337).

Lakin burada sözün lüğəvi mənasında işlədilmişdir – Qır ölkəsi deməkdir. "Qır və qır ölkəsindən xəbər ver" zərbülməsəldir, əsil mətləbə keç deməkdir. Mətndə çox yerdə işlədilib, qara geyinənlər və qaralar ölkəsi nəzərdə tutulur.

Qara geyənlərin şahı (an.) – "Yeddi gözəl" poemasında obraz adı.

Fələk taleyini görüb də bərbad,
Qara geyənlərin şahı vermiş ad (YG-136).

Bu ad Azərbaycan folklorunda olan Kor padşah, Dərdli padşah, Qız padşah, Dəryayi Cahangir, Gecə ulduz taniyan və s. adlara uyğun gəlir və obrazı düzgün xarakterizə edir.

Qara günbəd (top.) – "Yeddi gözəl" poemasında təsvir olunan günbədlərdən biri. Qədim astroloji anlayışa əsasən qara məzmunu və şənbə gününü ifadə edən Keyvan (Zühəl, Saturn) planetinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bu günbəddə birinci iqlim padşahının qızı yaşayırdı.

Keyvan taleyində günbəd ki, vardı,
Qaraya bürünmüş müşkə oxşardı (YG-133).

Qara xan (məc. an.) – Əfsanəyə görə, İskəndərin müasiri olan Hind padşahının adıdır. M.Ə.Rəsulzadə isə Qara xanın tarixi şəxsiyyət olması haqqında yazır: "Türklərdən Budda dinində olanlar özlərinin Budda anasından olduqlarını söyləyirlər. Müsəlman olan türklər də Yafəsin yeddi oğlundan biri olan Türkün nəslindən gəldiklərini iddia edirlər. Türkün beşinci əsrdə Moğol və Tatar adı ilə iki oğlu varmış. Moğol xanın 4 oğlundan birisi də Qara xan imiş"("Azadlıq" qəz. 14.02.1991).

Sözün Tuğan şahı girib meydana,
Qılınc verdi qələm **Qaraxanına** (XŞ-31).

"Qara" sözü qədim türklərdə rəng adı bildirməkdən əlavə, igid, qoçaq, cəsarətli, ulu, böyük kimi məcazi mənalar da ifadə etmişdir.

Yəni sözün qızılquşü meydana girib, qələmin ulu xanına qılınc verdi.

"İskəndərnamə" əsərində isə şair metaforik şəkildə gecəni Qara xana, gündüzü isə atəşpərəstə bənzətmişdir.

Sabah öz möhrünü göstərən zaman
Atəşpərəst oldu hindli **Qaraxan** (İ-554).

Qarı (an.) – "Qarı və Sultan Səncər dastanı"nda obraz adı.

Haqsızlığın odunda bir **qarı** yandı oda,
Səncərin ətəyindən yapışdı bir gün o da... (SX-85).

Şair bu addan "Cəmşidlə yavərin hekayəti"ndə və "Yeddi gözəl" poemasında da obraz adı kimi istifadə etmişdir.

Qarı dedi: "Gətirmə şah adını dilinə,
Həmdəmini, sirrini, muradını dilinə (SX-142).
Şah alsaydı satın bir saçı sünbül,
Aldadardı **qarı** töküb yağlı dil (YG-165).

Qarı (kos.) – Ulduz adı.

Atını Nəş ilə çapırdı **Qarı**,
Qarının Nəşsiz gəlməz qərarı (LM-186).

Qarının təndiri (məc. ktem.) – Əsatirə görə, Nuh tufanı bir qarının təndirindən başlayıb. Ona görə də Şərq poeziyasında bu ifadədən çox istifadə olunmuşdur.

Duydu səbəb nədir belə tufana,

Qarının təndiri baisdir buna (YG-174).

Beytin mənası: Kəniz öz-özünə fikirləşdi ki, Nuh tufanı qarının təndirindən başladığı kimi, onun başına gələn müsibətin səbəbi də onların evinə gəlib-gedən qarıdadır.

Qartal – Kəklik, Göyərçin – Tərlan, Maral – Şir (qrup məc. ap. zo.) – Şair eyni vaxtda metaforik şəkildə Şirini kəklik, göyərçin və marala, Xosrovu isə qartala, tərlana və şirə bənzətmişdir.

Əlindən çıxırdı bəzən o **qartal**,
Döşünə qonurdu **kəkliyin** dərhal.
Bəzən çırpınaraq qalxırdı, yenə
Göyərçin qonurdu **tərlan** döşünə.
Dişi **marala** bax, **şirlə** güləşir,
Qalib gəldi ona axır nərrə **şir** (XŞ-315).

Qarun (məc. an.) – Dini rəvayətlərə görə, mal və dövlətinin çoxluğu, eyni zamanda xəsisliyi ilə məşhur bir adam imiş. Musa peyğəmbərin (bax) müasiri və bir rəvayətə görə, düşməni olmuşdur. Əvvəl yoxsul olmuş, sonra Musanın yardımı ilə kimyanı öyrənmiş, bununla da hədsiz sərvət əldə etmiş, lakin Musanın təklif etdiyi hissəni xalqa vermək istəmədiyindən onun bəd duasına tutularaq, dövləti ilə bərabər diri-diri yerin dibinə batmışdır. Şərq ədəbiyyatında dövlətlilik və xəsislik rəmzi kimi işlənir.

Mən **Qarunun** yığdığı xəzinəyə tay deyiləm,
Hər kəsin sərvətiyəm, hər kəsə pay deyiləm (SX-56).

Burada söhbət könüldən gedir. Könül ilə Qarunun xəzinəsi müqayisə olunur.

Bütün insanları haqqa - ədalətə çağıran, onları sərvət toplamaq həvəsindən çəkindirmək istəyən Nizami "Xəmsə"də dəfələrlə var-dövləti ilə torpağa batan Qarunu xatırlayır.

Bağlanma torpağa, gəl həzər eylə,
Qarunu udmuş öz xəzinəsiylə (İ-259).

Şair bir beytdə iki dəfə Qarunun adını çəkməklə onun müxtəlif vəziyyətdə portretini yaratmışdır.

Çox güvənən gördülər qızıl taca **Qarunu**,
Öz günahı batırdı torpağaca **Qarunu** (SX-120).

Yəni zülmkar şah və hökmdarlar gərək yaddan çıxarmasınlar ki, qızıldan özünə papaq, tac düzəldən xəsis Qarun həmin qızıl yolunda da yerin quyusuna düşüb həlak oldu.

Birinci misrada öz var-dövlətinə və tacına güvənən, ikinci misrada isə öz var-dövləti və qızıl tacı ilə torpağa batan Qarundan söhbət gedir.

Şair bir beytdə "Qarun" adından iki dəfə istifadə etməklə iki müxtəlif məcaz yaratmışdır.

Bir **Qarun xəznəsi** edib sadağa,
Qarun kimi niyə saldın torpağa (XŞ-250).

Burada "Qarun xəzinəsi" dedikdə Şirinin Xosrov yolunda çəkdiyi əzab - əziyyətlər, "Qarun kimi" dedikdə isə Şirinin özü nəzərdə tutulmuşdur.

Yəni Qarun öz xəzinəsini itirdiyi kimi, sən də mənim əzab-əziyyətlərimi qiymətləndirmədin və məni torpaqlara endirdin.

Qarun xəzinəsi (məc. top.) – Dostu, şairin istedadını, bacarığını torpaq altda qalan Qarun xəzinəsinə bənzədir.

Qarun xəznəsitək torpaqda qalma,
Ustadsan, özünü ayağa salma (XŞ-51).

Səxavət göstərəndə Xosrovun payladığı qızıl-gümüş Qarun xəzinəsi ilə müqayisə olunur.

O gecə ki, Xosrov səxavət eylər,
Qarun xəznəsini aparar yellər (XŞ-80).

"Kəniz satan padşahın hekayəsi"ndə Şahın aldığı kənizlər özlərini xanım adlandırıb dövlət istəyəndə Qarun xəzinəsi xatırlanır.

-Mən xanımam, xanım, - deyib söylədi,
Qarun xəznəsini tələb eylədi (YG-165).

Çin xaqanının xəzinəsi metaforik şəkildə Qarun xəzinəsinə bənzədilir.

Xəzinə ağzını açınca xaqan,
Qarun xəzinəsində yer oldu pünhan (İ-305).

Yəni Çin xaqanı xəzinə qapısını açıb, Qarun xəzinəsindən hər tərəfə hədiyyələr saçırdı.

Qarun sərvəti (müq. on.) – Şair Atabəy Nüsrətəddinin topladığı sərvəti Qarun xəzinəsi ilə müqayisə edir.

Hər şəhrə hünərlə qələbə çaldı,
Qarun sərvətini əlinə aldı (İ-49).

Qasid (an.) – "Xosrov və Şirin" poemasında Fərhada Şirinin yalandan ölüm xəbərini gətirən obrazın adı.

Qasid "Hayıf o xal, o saç!" deyərkən,
Əfsus, lal olmadı dili bu sözdən (XŞ-208).

"Qasid" ərəb sözüdür, məktub və ya xəbər aparıb gətirən, elçi deməkdir.

Qayışbaldır (məc. mif.) – Ayaqları qayış və tismədə olan qulyabanı. Qayışbaldırlar özləri ayaqları üstə durub yol gedə bilmirlər. Buna görə də yoldan keçəni azdırıb-aldadıb onun boynuna minirlər, qayış ayaqlarını onun belinə dolayıb yolçunu ölənə qədər sürürlər. Qoca Mahana "Bu gecə sən də qayışbaldırlıq et" dyərkən həm qayış nərdivanla yuxarı külafirəngiyə çıxmağı təklif edir, həm də bir növ orada qayışbaldırların yaşadığına işarə edir.

Pir dedi: Qayışa cila çəkincə,
Qayışbaldırlıq et, gəl, sən bu gecə.
Qaldır nərdivanı, yerdə qoyma, çək,
Başına açmasın bir nəfər kələk (YG-225).

Mətndə yazılmışdır: "Heç kəs sənlə qayışbaldırlıq edə bilməsin" – yəni heç bir qayışbaldır qulyabanı səni aldadıb yoldan çıxara bilməsin.

Qeyrəvan (top.) – Afrikada Tunis şəhərindən 167 km. cənubda qədim şəhərdir. Dünyanın dairəsi və Məğrib (qərb) mənasında da işlədilir.

Tacının zinəti tutub cahanı,
Qara qıra salıb o, **Qeyrəvanı** (XŞ-367).

Söhbət Qızıl Arslanın tacından gedir.

Qeyruvan (top.) – Bax: Qeyrəvan.

Çindən **Qeyruvana** yol var nə qədər
Uca dərgahına axdı qasidlər (İ-198).
Məğribdə mərdliklə hökmü rəvandır,
Məşriqdə hünərlə o **qədərxandır** (İ-48).

Qeys (an.) – "Leyli və Məcnun" poemasında əsas qəhrəmanlardan birinin əsl adı.

Boy atıb, ikicə həftəyə doldu,
Lap on dörd gecəlik ay kimi oldu.
Bilindi ondakı hünərlə vüqar,
Adını hünərli **Qeys** qoydular (LM-78).

Qeysin nəzir-niyazla dünyaya gəlməsi və ona ad qoyulması Azərbaycan folklorunda və Azərbaycanda mövcud olan ad sistemini əks etdirir.

Qeysər (an.) – "Xosrov və Şirin" poemasında obraz adı. Rum qeysəri. Tədqiqatçıların fikrincə, "Qeysər" titulu məşhur Roma dövlət və siyasi xadimi, sərkərdə, yazıçı Sezarın (Yuli) adından yaranmışdır. Sezar (e.ə. 102-100 – 44) qüdrətli Roma dövlətini yaratdığı və bir çox müharibələrdə çaldığı qələbələrə görə, ölümündən sonra bir çox qərb ölkələrində hökmdarlara "Sezar" deyilməyə başlandı. Nəticədə müxtəlif xalqlarda eyni addan törəyən müxtəlif formada olan keyzer, qeysər, çar, kəsra, xosrov və s. kimi titullar yarandı.

Qeysər gördü gəlmiş qapıya baxtı,
Təslim etdi ona tez tacı-taxtı (XŞ-146).

Lakin titullar üzərində aparılan araşdırmalar göstərir ki, bu titulların əmələ gəldiyi "Sezar" adının özü də qədim və müasir türk dillərində işlənən "sarı" sözündən yaranmışdır. "Sarı"nın rəng bildirməkdən əlavə, işıqlı, parlaq kimi mənaları vardır. "Sarı" həm də qızıl, var-dövlət deməkdir. Onun mənalarından biri də sar, yəni qağayı (fırtına quşu – burivestnik) bildirməsidir (Turetsko - russkiy slovar. Moskva, 1977. səh.752).

"Sar" və "qağayı" adları eyni mənalı sözlər olsa da, sar sözü daha qədim tarixə malikdir və qədim türklərdə totem olmuşdur. Toğrul (qartal) zirvələrdə yaşadığı halda, sarlar həm zirvələrdə, həm də dəniz və okeanlarda yaşaya bilir.

Qaynaqlarda "sar" etnonimi haqqında ayrıca danışılmasa da, "sar" komponentli sarmatlar, sar kalmaklar, sartlar, sarı qıpçaqlar, sarı oğuzlar və s. haqqında məlumatlar çoxdur. Mənbələrdə "satrap", "sarapi" ("çar bağı", "ov qoruğu", "bağ", "cənnət"),

“**sarapi**” (yunanca: **sarapis**, farsca **serapa**, türkcə **sarapa**, qədim rusca “**sarapanq**”) və s. sözlər də Midiyaya məxsus sözlər kimi izah olunmuşdur.

“Sar” və “sarı” komponentli toponim və antroponimlər “Bibliya”da da vardır. Keçmiş Sovetlər İttifaqında yaşayan türk xalqlarının ərazilərindən başqa, Pribaltika, Ukrayna, Moldaviya, Belorusiya, Rusiya və s. respublikaların ərazilərində də çoxlu toponimlər (rayon, çay, dağ: şəhər, qəsəbə, kənd və s. adları) “sar” və “sarı” komponentlidir. Bunlardan əlavə, Yuqoslaviya, Fransa, İspaniya, Çin, Monqolustan, Hindistan, Afqanıstan, Pakistan, Türkiyə, İran, İraq və s. ölkələrdə, Sakit okeanda, Aralıq dənizində və s. dəniz və okeanlarda da belə toponimlər çoxdur.

Keçmiş SSRİ-də yaşayan müxtəlif xalqlarda, o cümlədən türk xalqlarında “sar” və “sarı” komponentli antroponim, fitonim, zoonim, kosmonim və s. xüsusi və ümumi adlar mövcuddur. Bütün bunların hamısı “sarı” ilə əlaqədar olub, dünyanın bir çox torpaq və sularına səpələnmişdir (bunlar xüsusi tədqiqat tələb edir).

“Sar” və “sarı” totemli türk qəbilələri ən qədim dövrlərdən başlayaraq digər qəbilələrə nisbətən təbiət və cəmiyyət hadisələrinə qarşı daha həssas olmuş, bir növ, həyatda kahinlik etmiş, gələcək haqqında əvvəlcədən xəbər verməyi bacarmışlar. Elə buna görə də bütün ölkələrdə saray qapıları onların üzünə açıq olarmış. Hökmdarlar öz yanlarında sarlar saxlayar və onların məsləhətlərinə möhtac imişlər. Şahzadələr öz ağıl və bacarıqları ilə fərqlənən sarların qızları ilə evlənməyi fəxr hesab edərmişlər. Sarlar çox vaxt taxt-taca da sahib olarmışlar. Elə buna görə də e.ə. 2300-cü illərdən başlayaraq Misir fironları, Babilistan, Assuriya, İran və s. hökmdarları sırasında “sar” və “sarı” komponentli hökmdar adlarına da təsadüf olunmaqdadır.

Bizə elə gəlir ki, sarların yaşadıqları binalar saray (yəqin ki, farsların baş, başçı və s. mənalarda olan “sər”, saray mənasında olan “səra”, qızıl mənasında olan “zər”, od mənasında olan “azər”, sarı mənasında olan “zərd” və s. “sar” və “sarı” ilə əlaqədardır) adlanmışdır.

Eyni sözləri antroponimlər haqqında da söyləmək olar. Məsələn, “Sərxan” adının “sər” (farsca baş deməkdir) və “xan” sözlərindən düzəldiyini söyləyir və “baş xan, xanların başı” kimi izah edirlər (Osman Mirzəyev. Adlarımız. Bakı. 1986. səh.205). Halbuki ərəb, fars və türk xalqlarında belə bir titul olmamışdır. Bu mənada türk xalqlarında “xanlar xanı” titulu işlənmişdir. “Sərxan” adı isə türk dillərində olan “Sarxan” adının farslaşdırılmış formasıdır. “Sarxan” (Bu adda Azərbaycan ərazisində toponimlər də vardır ki, sarı rəngi ilə əlaqədardır) “Sarlardan olan xan”, “Sar qəbiləsinin xanı” deməkdir. “Dədə Qorqud” dastanlarında da “Bayındır xan” adı “Bayındır qəbiləsinin xanı” mənasında işlənmişdir.

“Sarı” sözünün mənalarından biri də Günəş (Odun da rəngi sarıdır) olmuşdur. Ta qədim zamanlardan dini əfsanələrdə və bütün Şərq ədəbiyyatında “sarı” Günəşin simvolu hesab edilmişdir. Səma cisimlərinin hamısının rəngi sarıdır. Lakin bütün planetlərə enerji verən və onları öz ətrafında fırlanmağa “məcbur” edən Günəş “sarı” adlanmışdır. Elə buna görə də, cəsarətlə demək olar ki, Zərdüşt (bax), onun müxtəlif formaları olan Zərdəşt, Zərtəşt, Zaroastr, Zoroastr, Zaratuştra və b. adlarda olan zər, zor, zar sözləri də elə “sar” və “sarı” sözlərindən düzəlmişdir.

Demək, türk dillərinə məxsus olan “sar” və “sarı” sözləri çox geniş mənaya malik olub, xüsusi tədqiqat tələb edir. Bu sahədə tədqiqatlar genişlənsə, çox sirlər açılar və eyni zamanda qeysər, çar, xosrov, Sezar və başqa söz və adların “sar” və “sarı” adlarından düzəlməsi sübut olunar.

Qeysər (an.) – Şair “Qeysər” dedikdə, Makedoniyalı İskəndəri nəzərdə tutur.

İskəndər dövründə Ərəstu vardı,
Qeysər o alimdən bilik alardı (YG-40).
Çox qılınc endirdi girincə hərbə,
Qeysərə bir əsər etmədi zərbə (İ-94).

Qeysər, Fəğfur (qoşa məc. an.) – Şair eyni vaxtda Qeysəri (Rum hökmdarı) Axsitanın mehtərinə, Fəğfuru isə (bax) onun qapısına gələn dilənçiyə bənzədir. Bu adların qoşa işlədilmə-

sinin əsas səbəbi Şirvanşah Axsitanın qüdrət və əzəmətini göstərmək üçündür.

Onun qapısında mehtərdir Qeysər,
Fəğfur o qapıda gəlib dilənər (LM-53).

Qeysərin qızı (an.) – Xosrovun arvadı Məryəm nəzərdə tutulur. Qədim türk xalqlarında olduğu kimi Məryəm burada atasının titulu ilə adlanmışdır ("Dədə Qorqud" dastanlarındakı "Xan qızı" adı kimi).

Şapur deyil, gəlsə **Qeysərin qızı**,
Qovlayaram burdan o həyasızı (XŞ-176).

Qeysin nigarı (an.) – Leylinin öz sevgilisi Qeysin adı ilə adlanması.

Bir qəlb ovçusuydu **Qeysin nigarı** (LM-81).

Qeysur (top.) – Qədim Həbəşistan və ya Sudanda əla kafuru ilə məşhur olan bir şəhərin adı.

Birisi söylədi: "Gözəldi **Qeysur**",
Bu yerdən çıxar hər səndəl və kafur (İ-375).
O yanda **Qeysura** gedən bir yol var,
Ordan Çinə sarı uzanır yollar (İ-559).

Qeysur şəhərinin Hindistanda olması haqqında da məlumatlara rast gəlmək olur.

Qədər xan (an.) – "İskəndərnamə" əsərində obraz adı. İskəndərin Xətadan olan pəhləvanının adı.

Qədər xan Xətadan, Qur xan Xütəndən (İ-323).

Qədər xan – Sultan Mahmud Qəznəvi zamanında Türküstan hakimi olmuşdur. Rəvayətə görə, musiqi sənətini yaxşı bilirmiş və şairlərə çox bəxşişlər verərmiş.

Şair bu addan məcazi ad kimi də istifadə etmiş və Nüsrətəddin Əbubəkri Qədər xana bənzətmişdir.

Qədrxanlar (an.) – Şair bunu bir çox hökmdar mənasında işlətmişdir. Bax: Qədər xan.

Rüsxətsiz buraxmaz **qədərxanları** (XŞ-368).

Burada söhbət Qızıl Arslandan gedir.

Qədr gecəsi (xron.) – Orucluq ayı olan Ramazanın 21, 22 və 27-ci gecələri duaların Allah dərgahında müstəcab (qəbul) olacağı gecədir. Bunlar eyni zamanda Əhya (dirilmə) gecələri də adlanır.

Qədr gecəsidir bu gecə, tələs,
Onun qədrini bil, gecikmə əbəs (LM-36).

Qədrxan (məc. an.) – Bax: Qədər xan. Şirin Qədər xanı Xosrovun quluna bənzədir.

Çindən Ruma qədər deyilir namın,
Qədərxan qulundur, Qeysər qulamın (XŞ-258).

Şair Qədr xan və Qeysər adlarını məcaz kimi işlətməklə Xosrovun qüdrət və əzəmətini göstərmək istəmişdir.

Qəlbə (kos.) – İyirmi səkkiz Ay mənzillərindən birinin adı.

Əklil bağışlamış **Qəlbəyə** bir tac (LM-185).

Qəlbüləsəd (koc.) – Əsəd bürcünün mərkəzində yerləşən bir ulduzun adıdır.

Qəlbüləsəd belə Əsəd bürcündən
Ud alovu kimi yanırdı, bilsən (LM-185).

Qəmər (məc. kos.) – Ərəbcə Ay deməkdir. Şair bulaqda çimən Şirini Qəmərə bənzədir.

Gördü o yerdə var təzə bir **qəmər,**
Dedi: "Ayin yeri olmalı ülkər" (XŞ-90).

Qəməri ud (fit.) – Qəmər yer, ud isə orada bitən ağac növünün adıdır. Qəmər yerinə məxsus ud ağacı deməkdir. Yəqin ki, qədim Şərq musiqi aləti olan ud həmin ağacdan hazırlandığı üçün belə adlanmışdır.

Qəməri ud yanır, ağac qovrulur,
Elə bil yağırdı havadan kafur (XŞ-241).

Kafur – kamfora – xoş ətirə işarədir. Beytdə təbiətin ruh oxşayan bir zamanı olduğu qeyd edilir.

Qəndəhar (top.) – Əfqanıstanda İranla Hindistan arasında böyük yolun üzərində bir şəhərdir. Uzun zaman (Kabildən qabaq) Əfqanıstanın paytaxtı olmuşdur. Bu şəhər vaxtilə müqəddəs təsvirlər hazırlamaqla məşhur idi. Budda dininə məxsus bütlər, təsvirlər, əsasən, burada qayırılırdı. Eramızın ilk əsrlə-

rində daha çox inkişaf etmiş, sənətşünaslıqda "Qəndəhar sənəti" adı ilə məşhurdur.

Gördü orda gözəl bir bütxana var,
Qoymuşlar adını onun **Qəndəhar** (İ-552).

Burada söhbət İskəndərdən gedir.

Tarixçilərin verdiyi məlumata görə, eramızdan əvvəl 320-ci illərdə İskəndər tərəfindən təsis edilmişdir. İranla Hindistan arasında yerləşdiyinə görə, ticarət mərkəzi olmuşdur. XI-XII əsrlərdə Yaxın və Orta Şərqin ən böyük şəhərlərindən sayılırdı. XIII əsrdə Çingiz xan tərəfindən işğal olunmuş, XII əsrdə isə Teymurun ixtiyarına keçmişdi. XV-XVII əsrlərdə ən mühüm ticarət mərkəzi sayılan bu şəhər Monqol imperiyasının və Səfəvilərin hücumlarına məruz qalmışdır. 1747-ci ildə Dürrani dövləti yarandıqdan sonra həmin dövlətin paytaxtı olmuş, Dürrani dövlətinin süqutundan sonra Qəndəhar knyazlığının mərkəzinə çevrilmişdir. 1839, 1842 və 1880-ci illərdə ingilis-əfqan müharibəsində İngiltərənin işğal zonası olmuşdur. Hazırda Əfqanıstanın əyalət mərkəzlərindən biridir. Qazi Qəndəhari, Vahab Qəndəhari, Həsən Qəndəhari, İşrət Qəndəhari kimi şairlərin vətənidir.

Qənnuc şahı (müq. an.) – Şair Atabəy Nüsrətəddin Əbubəkri Qənnuc şahı ilə müqayisə edərək üstünlüyü Nüsrətəddinə verir. "Qənnuc şahı" əsl ad yox, onun ləqəbidir.

Fillərlə döyüşdə atınca kəmənd,
Qənnucun şahını edərsən filbənd (İ-50).

Qənnuc – Hindistanın ən qədim şəhərlərindən biridir. Sultan Mahmud Qəznəvi tərəfindən məhv edilmiş bir dövlətin paytaxtı idi. Vaxtilə çox böyük olmuş, indi isə bir qəsəbə halındadır. "Filbənd etmək" – şahmatda fil və piyada ilə şahı mat etmək deməkdir.

"**Qənvuc**" (top.) – Bax: Qənnuc şahı.

"**Qənvuc**"a gedirəm "Fur" üstə elan
Bu yolda köməkdir ulu yaradan (İ-269).

Burada söhbət İskəndərdən gedir.

Qərb, Şərq (qoşa məc. top.) – Qərb və Şərq sözlərinin qoşa işlənməsi Nizami əsərlərində çox zaman "Günbatan" və "Günçıxan" mənasında işlənmişdir.

Tacı Aydan yüksək o Qızıl Arslan
Qərbin pənahıdır, **Şərqə** hökmüran (XŞ-42).

Yəni Qızıl Arslan bütün dünyada ən qüdrətli hökmdardır.

Qəsri-Şirin (xat. top.) – İranda Girmanşahdan qərbdə, İran ilə İraq sərhədində yerləşən qədim və kiçik bir şəhərin adı. "Xosrov və Şirin" poemasında isə Şirinin yaşadığı qəsrin adı.

Gendən baxan zaman **qəsri-Şirinə**
Canını didərdi paltar yerinə (XŞ-189).

Şair "Xosrov və Şirin" poemasını yazarkən Xosrov və Şirindən yadigar qalan tarixi abidələri sadalayarkən, Qəsri-Şirinin də adını çəkir.

O **qəsri-Şirinə** gedən süd çayı,
Xosrovun ovlağı, zəngin sarayı (XŞ-48).

Şair bu addan məcazi ad kimi də istifadə etmiş və İsfahanı Qəsri-Şirinə bənzətmişdir.

Şəkər məhləsinə yetişən zaman
Yenə **Qəsri-Şirin** oldu İsfahan (XŞ-226).

Qəssab (an.) – "Yeddi gözəl" poemasında epizodik obraz adı.

Rast gəldim axırda mən bir **qəssaba** (YG-139).

Birinci iqlim padşahı qızının söylədiyi nağılda Qara geyənlərin şahı bu qəssabın köməyi ilə Bihuşlar şəhərində yaşayanların qara geyinmələrinin səbəbini öyrənir və o özü də hadisələrin iştirakçısı olur, nəticədə özü də qara geyir.

Qəssasə (mif.) – Bir cins mifik, dəhşətli dəniz nəhəngi.

Vardır civə rəngli bu qorxunc suda
Qəssasə deyilən bir əjdaha da (İ-531).

Qəznə (top.) – Əfqanıstanda Kabuldan 130 km. cənubda bir şəhər olmuşdur. Sultan Mahmud Səbuktəkinin qəbri oradadır. Əsil adı Ğəzneyndir (bax), xalq arasında Qəznə adlanır.

O, **Qəznədə** ucaltdı sözün mülkündə bayraq,
Mənsə Rum sikkəsilə verdim sənətə növraq (SX-45).

Şair özünü burada şair Sənai, "Sirlər xəzinəsi" əsərini isə onun "Hədiqətül – həqayiq" əsəri ilə müqayisə etmişdir. Yəni Sənainin "Hədiqətül-həqayiq" əsəri Qəznə hakiminə təqdim olu-

nub orada qiymətləndirilib, öz şöhrət bayrağını qaldırdı. “Sirlər xəzinəsi” isə öz sikkəsini Rum-Bizans sultanı Bəhram şahın adına vurdu.

Qıntal (an.) – “İskəndərnamə” əsərində obraz adı.

Eşitdi rusların sərdarı **Qıntal**
Ki, dövran doğurmuş başqa bir əhval (İ-321).

Qıntal, Kupal (ep. an.) – Kupal (bax) pəhləvan Qıntalın qohumu olduğu üçün şair onların adlarını da fonetik cəhətdən uyğunlaşdırmışdır. Qohum (ata-oğul, ana-qız, bacı-qardaş, qardaş-qardaş və s.) adlarının eyni səsləndirilməsi bir-birinə uyğunlaşdırılması ənənəsi isə türk xalqlarına mənsubdur.

Qıntala qohumdu, adı da **Kupal**,
Fil canlı pəhləvan yanaşdı, dərhal (İ-332).

Qıpçaq (et.) – Qıpçaq çöllərində yaşayan türk tayfalarının adı.

Qıpçaqda qaynaşan boz çöllər gördü,
Baldırı ağappaq gözəllər gördü (İ-315).

Qıpçaq çölləri hazırki Rusiyanın cənub-şərqində Ural dağları ilə Volqa çayı arasında yerləşən əraziyə deyilir.

Qıpçaq bütü (məc. ktem.) – Şair öz həyat yoldaşı və əslən qıpçaq xalqından olan Afaqı metaforik şəkildə Qıpçaq bütünə, Şirini isə Afaqa bənzətmişdir.

Qıpçaq bütüm təki ox kimi süzdü... (XŞ-348).

Qırmızı günbəd (er.) – Qədim astroloji anlayışa əsasən qırmızı rəng və seşənbə gününü ifadə edən Mərrix (Mars) planetinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bu günbəddə dördüncü iqlim şahının qızı yaşayırdı.

O günbəd ki, **Mərrix** adını aldı,
İncə naxışlıydı, sərasər aldı (YG-133).

Qız, Qardaş (məc. ap.) – Şair metaforik şəkildə “İqbalnamə” əsərini gəlin köçməyə hazırlanan qıza, əsəri şaha aparan oğlu Məhəmmədi isə onun qardaşına bənzətmişdir.

Qızını möhrlə köçürər ana,
Qardaş duvaq salar onun başına (İ-610).

Yəni: ana qızını təmiz, bakirə olaraq köçürür və belə qızın da duvağını özgələr yox, məhz qardaşı başına saldığı kimi, mən də əsərimi başqası ilə yox, öz oğlumla yollayıram.

Qızıl (məc. an.) – Şair metaforik şəkildə "İqbalnamə" əsərini qızıla bənzədir.

Vurubsan **qızıla** şah sikkəsini (İ-660).

Yəni: qızıl pulun üstünə şahın adı həkk edilən kimi sən də bu qızıl kimi əsərin ("İqbalnamə"nin) üstünə şahın adını yazmısan, əsəri ona ithaf etmisən.

Qızıl Arslan (an.) – Səlcuqilər dövləti zamanında Azərbaycanda hökmdar olmuş atabəylərin üçüncüsüdür. Şəmsəddin Atabəy Eldəgizin ikinci oğlu, Məhəmməd Cahan Pəhləvanın kiçik qardaşıdır. 1186-cı ildən 1191-ci ilə qədər Azərbaycanda hakimiyyətdə olmuşdur. Nizami "Xosrov və Şirin" poemasını ithaf etdiyi üç hökmdarın biri Qızıl Arslandır. Onun Nizami ilə görüşməsi nizamişünaslıqda təsdiq edilmiş faktdır.

Tacı Aydan yüksək o **Qızıl Arslan**... (XŞ-42).

Qızıl bayraq (məc. ktem.) – Şair metaforik şəkildə Günəşi qızıl bayrağa bənzətmişdir.

Qızıl bayrağını açanda aləm,
Dağılmış qoşuntək qaçıb getdi qəm (XŞ-239).

Beytin mənası: Səhər Günəş doğan zaman ulduzlar yoxa çıxdığı kimi, Xosrovun da qəmi dağılıb getdi.

Qızılquş (zo.) – "Bülbül ilə qızılquşun hekayəti"ndə alleqorik obraz adı.

Cavab verdi qızılquş: "Dinlə, bacar susmağı... (SX-151).

Şair Qızılquş dedikdə bütün hökmdarları nəzərdə tutmuşdur.

Qibtli (et.) – Qibt qədim Misirin adı, Qibtli isə "Qibt əhalisindən olan" deməkdir.

Mariyə adlı bir **qibtli** vardı,
Bir əmir qızıydı, Şamda yaşardı (İ-448).

"**Qifli-Rum**" (id.) – Orta əsr Şərq musiqi havalarından birinin adı.

"**Qifli-Rumu**" əgər oxusa bollu,
Rum, Zəng xəznəsinə açardı yolu (XŞ-168).

Qiyrəvan (top.) – Bax: Qeyrəvan.

Qünnücdən Qülzümə oldum hökmüran,
Şimşək qılıncımı gördü **Qiyrəvan** (İ-583).

Beytin mənası: Şərqdən qərbə qədər bütün ölkələri fəth etmişdim.

Burada söhbət İskəndərdən gedir.

Qoca (an.) – "Süleyman və qoca əkinçi" hekayəsində obraz adı.

Qoca dedi: "İncimə, qoy deyim sözümü mən,
Nə suya, nə torpağa dikmişəm gözümü mən (SX-82).

Qoca (an.) – "Kərpickəsən qocanın bir cavanla hekayəti"ndə obraz adı.

Qoca dedi: "Nadanlıq havası var başında... (SX-90).

Qoca (an.) – "Zalım şahla düz danışan qocanın hekayəti"ndə obraz adı.

Yuyunaraq boynuna kəfən saldı o **qoca**,
Getdi şahın yanına, əhli-haldı o **qoca** (SX-127).

Qoca (an.) – Məhəmməd peyğəmbərin canişinlərindən olan üçüncü xəlifə Osman ibn-Əffan nəzərdə tutulur.

O, allahdan qorxan həyalı **qoca** (LM-35).

Qoca çoban (an.) – "Yeddi gözəl" poemasında obraz adı.

Qonağı görüncə, hər şeydən əvvəl,
Qoca təzim etdi, əl üstündə əl (YG-280).
O zamandan bəri bağrı qan oldum,
Ağaydım, çevrildim bir **çoban** oldum (YG-281).

Qoca Zühəl (məc. kos.) – Saturn planeti.

Qoca Zühəl hirslənib dərhal enər yer üstə,
Sapdan qopan gil muncuq səpələnər yer üstə (SX-108).

Qocaman ağac (məc. ap. fit.) – Şair "qocaman ağac" dedikdə Pişdadiyan sülaləsinin guya 700 il padşahlıq etmiş dördüncü şahı Cəmşidi nəzərdə tutmuşdur.

Qocaman ağaca mişar çəkmə sən,
Zöhhak bunun üçün düşdü taxtından (İ-424).

Qovs (kos.) – Bax: Qövs.

Zöhrə Surə keçdi, Müştəri **Qovsə**... (YG-94).

“**Qönçeyi-kəbki-dəri”** (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

Başlarkən “**Qönçeyi- kəbki-dəri**”dən
Kəklik qaqqıltısı gələrdi həmən (XŞ-168).

Qövs (kos.) – On iki bürcdən Günəşin noyabr ayında daxil olduğu bürc. Guya Məhəmməd peyğəmbər merac zamanı onu Göy qurşağı ilə tilsimə salıb.

Qövsü başdan-başa tilsimə saldı (XŞ-357).

Qövs, Müştəri (qoşa məc. kos.) – Qövs həm bürcün adı, həm də kaman deməkdir. Müştəri planetinə xoşbəxtlik gətirən Qövs bürcüdür. Yəni Müştəri kimi əzəmətli olan Bəhram öz kamanının (qövsünün) oxunu Müştəri planetinə tərəf atdı ki, Qövslə Müştəri yaxınlaşıb ona səadət gətirsin.

Qövsdə yerləşir parlaq **Müştəri**,
Müştəridir onun qövsünün yeri (YG-101).

Qubad (an.) – İskəndərin İstəxrdən olan pəhləvanlarından birinin adı.

Qubad İstəxrdən, Nəsəbi Keydən (İ-323).

Qur (top.) – Əfqanıstanda Herat ilə Qəznə arasında qışı sərt keçən dağlıq bir yerdir.

İsfahandan Reyə, Çindən **Quracan**,
Toplanmışdı bura şahlar bu zaman (XŞ-224).

Qur xan (an.) – İskəndərin Xütəndən olan pəhləvanının adı. O, yəqin ki, Xütən ölkəsinin hökmdarıdır.

Qədər xan Xətadan, **Qur xan** Xütəndən... (İ-323).

“**Quran**” (agionim id.) – Müsəlmanların müqəddəs dini kitabıdır. Allah tərəfindən Məhəmməd peyğəmbərə nazil olan ilahi vəhylərin məcmusudur. “Quran” ərəb sözüdür və “oxumaq, tələffüz etmək” deməkdir.

“Quran” surə adlanan 114 fəslə bölünür. Surələr bir-birindən “bismillah”la ayrılır. Yalnız 9-cu və 12-ci surələrin əvvəlində “bismillah” yoxdur. Ən uzun surə olan 2-ci surədə 286 ayə, ən qısa surə olan 112-ci surədə isə 3 ayə vardır. Ayələrdə 1-dən 68-dək söz vardır. “Quran”ın müxtəlif variantlarında 6204-dən 6236-dək ayə, 77934 söz vardır. Məhəmməd peyğəmbər ilk vəh-

yini Ramazan ayında almışdır ki, sonralar Ramazan ayı Orucluq ayı kimi təyin edilmişdir.

Məhəmməd peyğəmbərin sağlığında "Quran" şifahi formada idi. Məhəmmədin tərəfdarlarının bəziləri "Quran"ın ayrı-ayrı fraqmentlərini yazıb götürürdülər, bəziləri isə onu əzbər bilirdilər. Məhəmmədin vəfatından sonra Xəlifə Əbubəkrin dövründə Zeyd ibn Sabit əldə olan yazılı mətnləri və şifahi formada qalan mətnləri topladı. "Quran"ın bir neçə varinatı yaranmışdı...

"Quran" bütün müsəlmanlar üçün başlıca dini təlim mənbəyidir. "Quran"da dini, etik, hüquqi, təsərrüfat xarakterli təlimatlar, qaydalar, qadağalar, göstərişlər və s. vardır.

Quranı, qılıncını bir kənara atmısan,
Əlində cam, sürahi nəşəylə baş qatmısan (SX-84).

Qurd (məc. kos.) – Səhərlər görünən ulduz adıdır.

Səhər çağının da **Qurd** nəfəsi var,
Yusiftək quyunun dibində parlar (LM-186).

Qurd ulduzu eyni zamanda Yusifin parlayan gözünə bənzədilmişdir.

Qurlu (et.) – Qur (bax) əyalətində yaşayan xalqın ümumi adı. Onlar uzunboy, qüvvətli və mübariz olduqları üçün qədim şahların şəxsi mühafizəsində xidmət edirdilər.

Bir **qurlu** qulam da haman bu gecə
Gedib qora dərdi bağdan gizlicə (XŞ-58).

Söhbət Xosrov Pərvizin qulamından gedir.

Kinli bir **qurluya** verdi işarət,
Etdilər evimi talan və qarət (YG-286).

Burada isə söhbət Bəhram Gurun vəziri Rastü-Rövşənin qulamından gedir.

Qüds (top.) – Bax: Məqdəs. "Qüds şəhərini ərəblər əl – Qüds adlandırmaqla yanaşı, müqəddəs saydıqları üçün, həm də əl – Beyt əl – Müqəddəs və ya Beyt əl – Məqdəs adlandırırdılar" (17-43).

Onu zalim görüb, qanını tökdü,
Qüdsün qapısında çarmıxa çəkdi (İ-528).

Qüfr (kos.) – İyirmi səkkiz Ay mənzillərindən birinin adıdır.

"Yetim süfrəsinə" xeyirxahlartək
Qüfr tullamışdı altı pay çörək (LM-185).

Yəni: Qüfr səxavətli adamlar kimi "Yetimlər süfrəsi"nə altı çörək salmışdı.

Qülzüm (top.) – Qırmızı dənizin şimal-qərb cəhətində, indiki Süveyş kanalının yaxınlığında qədim qəsəbə və liman imiş ki, bunun adı ilə Qırmızı dənizə "Qülzüm dənizi" də deyilir.

Qünnücdən **Qülzümə** oldum hökmüran,
Şimşək qılıncımı gördü Qiyrəvan (İ-583).

Qünnüc (top.) – Bax: Qənnuc şahı.

Qünnücdən Qülzümə oldum hökmüran (İ-583).

Qüstəntəniyyə (top.) – İstambulun köhnə adıdır. Mərmərə dənizinin sahilində yerləşən bu şəhərin yarısı Asiya, yarısı Avropa qitəsində yerləşir. Eramızdan əvvəl 668-ci ildən məlumdur. Ən qədim adı Bizansdır, 330-cu ildə imperator Konstantinin burada tikdirdiyi yeni şəhərə Konstantinopol, yəni "Konstantin şəhəri" adı verilir. Şəhər 1453-cü ildən türklər tərəfindən alınır. Şəhər XV əsrdən İstambul ("istin polis", yəni "şəhərə gedirəm" və ya "islambol" sözlərindən yarandığı söylənilir) adlanır. "Qüstəntəniyyə" – Konstantinopol adının fonetik cəhətcə dəyişdirilmiş formasıdır.

Yolda nə dayandı, nə də dincəldi,
Qüstəntəniyyəyə birbaşa gəldi (XŞ-146).

- L -

Lahövl (id.) – La hövlə dəhşətli və qorxunc bir hadisə görəndə oxunulan məşhur ərəb duasıdır: "La haulə və la qüvvətə illa billah il – Azim (Əzəmətli Allahdan başqa , heç kimsədə qüdrət və qüvvət yoxdur).

Dedi: - **Lahövl** oxu, özünə bir an
Ölümdən, dəhşətdən ey nicat tapan! (YG-215).

Lahur (top.) – Pakistanda Karaçidən sonra ən böyük şəhərdir. Eramızın əvvəlindən mövcuddur, hazırda şəhərin 1,5 milyona qədər əhalisi vardır.

Şapur adlı ona yaxın bir adam
Məğribdən **Lahura** gəzmişdi tamam (XŞ-62).

Laləyi-Nemani (məc. fit.) – Hərfi mənası qızıl lalə, əsmə gülü deməkdir. Lakin eyni zamanda lalə dedikdə Bəhram Gur nəzərdə tutulur. Neman adı isə həqiqi mənada işlənmişdir.

Şah xəbər yolladı dərhal Nemana,
Laləni tapşırdı bağa, bostana.
Neman güllər səpsin, daim keyfi çağ,
Laləyi-Nemani olsun o yarpaq (YG-57).

Lat (ag. ktem.) – İslamdan qabaq ərəblər Kəbədə bütlərə sitayiş edirdilər. Bu bütlərin hərəsinə bir ad verilmişdi ki, onlardan biri də Lat idi. Bax: Allah.

Sözü bəzən qiblə, bəzən də **Latdır**,
Xəznəsi gah Kəbə, gah xərabatdır (XŞ-50).

Leyli (an.) – "Leyli və Məcnun" poemasında əsas qəhrəmanlardan birinin əsl adı.

Bir ona düşmüşdü hamının meyli,
Zülfü də "leyl" idi, adı da **Leyli** (LM-79).

"Leyl" ərəbcə gecə (qara) mənası verir. Yəni: zülfü gecə kimi qara, adı da Leyli idi. Ad obrazı düzgün səciyyələndirir. Leylinin gələcək taleyini onun adından da müəyyənləşdirmək mümkündür.

Son illərdə aparılan tədqiqatlardan aydınlaşır ki, Leyli türk qızı olmuş və Ərəbistanda yaşayan türk qəbiləsinə mənsub idi (Seyidağa Onullahinin "Varlığ"ın səhifələrində" məqaləsi. "Azərbaycan müəllimi". 27 noyabr 1991).

Leyli (məc. an.) – Məcnun öz adını bu adın tərkibində olan hərflərin xarici görünüşünə bənzədir.

Qatlandı dizlərim qoşa "lam" kimi,
"Yey" kimi bükmüşəm öz əllərimi.
Ah, adın məni də adıntək edir,
O da, bax, iki "lam", iki də "yey"dir (LM-95).

Ərəb əlifbasında "l" çəngəl şəklində yazılır və "lam" adlanır, "y" hərfi isə qarmaq şəklində yazılır, "yey" adlanır. Məcnun deyir ki, mən dərd əlindən dizlərimi "lam" kimi qatlamışam,

qollarımı isə “yey” kimi bükmüşəm və bunların birləşməsindən sevgilimin adı, yəni “Leyli” əmələ gəlmişdir.

“**Leyli**” (xat. id.) – “Leyli və Məcnun” poemasına işarədir. Şair Arşimidesin sevgilisinin ölümünü təsvir edərkən öz həyatını xatırlayır.

“**Leyli**” xəznəsinə çəkərkən hasar,
Orda da bir govhər eylədim nisar.
Bu toyu çatdırıb mən nəhayətə,
Təzə bir gəlin də verdim cənnətə (İ-448).

“Leyli və Məcnun” əsərinin “İzahlar”inda göstərilir ki, bu nümunədə adı çəkilən Gövhər, Nizaminin ikinci qadınının adıdır. Guya şair “İqbalnamə”ni qurtaranda onun üçüncü qadını da ölmüşdür.

Bizcə, ikinci misradakı “gövhər” xüsusi ad yox, gözəl mənasında işlənən ümumi addır. Şairin üçüncü qadını isə “İqbalnamə”ni qurtaranda yox, bu əsərin “Arşimides ilə çinli kənizin hekayəsi” hissəsini yazarkən vəfat etmişdir. Təsadüfi deyildir ki, şair Arşimidesin sevgilisinin ölümünü təsvir edərkən ən çox sevdiyi Afaqın və ondan sonra olan qadınlarının ölməsi haqqında birgə məlumat verir.

Leyli, Leyli (təkrar an.) – Məcnun tərəfindən Leyli adının təkrar olunması, onun ah-naləsi, keçirdiyi iztirablarla əlaqədardır.

Dəlitək hər evə yaxın gedərdi,
“**Leyli! Leyli**!” deyib xitab edərdi (LM-91).

Sonuncu beytdə “Leyli və Məcnun” poeması şair tərəfindən tikilən saraya bənzədilir.

Leyli, Məcnun (təkrar qoşa məc. an.) – Şair eyni vaxtda Leylini ulduza, cəngə, səhərə, bağa, Aya, gülə, pəriyə, yasəmənə, sübhün qızına və s., Məcnunu isə fələkə, rübaba, şama, dağa, qara ipəyə, oda, çəmənə, dan ulduzuna, bülbülə və s. bənzətməklə onları müqayisə edir.

Leyli ulduz kimi çadırda təkdi,
Məcnun sanki pərdə tutan fələkdi...
Leyli cəng tutmuşdu bağrı başında,
Məcnun rübab kimi əli qaşında.
Leyli səhər kimi işıqlanırdı,

Məcnun da şam kimi qəmdən yanırdı.
Leyli bağ içində gözəl bir bağdı,
Məcnun dağ üstündə böyük bir dağdı.
Leyli yaranmışdı Ay kimi parlaq,
Məcnun ipək kimi qaraydı ancaq.
Leyli gül səpirdi ağaclara, bax,
Məcnun dürr səpirdi şabaş olaraq.
Leylini sormayın, pəriydi o can,
Məcnun bir od idi, nə deyim ondan?... (LM-86 – 87).

Leyli – Məcnun (qoşa an.) – Bu adlar Şərqdə o qədər məşhur olmuşdur ki, şair bu nakam aşiq və məşuqənin adlarını da bir ad kimi göstərmişdir.

Leyli – Məcnundan da yarat bir əsər (LM-48).
Mən **Leyli – Məcnunu** incəliyilə... (LM-49).

"**Leyli və Məcnun**" (id.) – Nizami Gəncəvinin 1188-ci ildə qələmə aldığı və Şirvanşah I Axsitana ithaf etdiyi əsərinin adı. Nizamidən sonra müxtəlif şairlər tərəfindən bu əsərə 40-a qədər bənzətmə yazılmışdır.

Dərd yazan şairlər qanad salmışdır,
"**Leyli və Məcnun**"sa sözsüz qalmışdır (LM-49).
Sonra başqa yerdə çadırı vurdum,
"**Leyli və Məcnun**"un eşqini qurdum (İ-60).

Sonuncu beytdə "Leyli və Məcnun" poeması şair tərəfindən tikilən saraya bənzədilir.

Leylinin atası (an.) – "Leyli və Məcnun" poemasında obraz adı. O, qızı Leylinin adı ilə adlanmışdır.

Leylinin atası ürəyi qəmli,
Torpağa üz qoydu gözləri nəmli (LM-133).

Leylinin əri (an.) – Ərin arvad adı ilə adlanması. "Elmi ədəbiyyatda bu, "kinekonim" termini ilə ifadə olunur. İbn-Səlama işarədir.

O qədər vüsalsız keçdi günləri,
Qəmdən xəstə düşdü **Leylinin əri** (LM-241).

Ləzgi (et.) – Ləzgi xalqının ümumi adı. Bax: Ləzgi dağı.

Ləzgi dağı (top.) – Qafqaz dağlarına işarədir.

Cərəm adlı bir dağ **Ləzgi dağından**... (İ-335).

Burada eyni zamanda Cərəm dağa bənzədilmişdir.

Loğman (məc. an.) – "Quran"da adı çəkilmişdir. Loğmanı peyğəmbərlərdən biri hesab edənlər də vardı. Guya o, Davud peyğəmbərlə bir əsrdə yaşamışdır. Loğman hikmətli, təbabət aləmini gözəl bilməyilə məşhur olmuş bir həkimin adıdır. Bəzi rəvayətlərdə onun məşhur yunan təbibi Hippokrat olması güman edilir. Loğman adı ilə tarixdə müxtəlif zamanlarda və müxtəlif xalqlarda bir neçə şəxs göstərilir. Rəvayətə görə, uzun ömür sürmüşdür. Şərq ədəbiyyatında Loğman bilici və xüsusi məharəti olan həkim kimi tərənnüm olunmuşdur.

Nizami Məcnunu Loğmana bənzətmişdir.

Məcnunu sərsəri zənn etmə ki, sən,
Deyildi gördüyün divanələrdən...
Oruclu, namazlı, nurlu bir çıraq,
Əqli yad deyildi, ədəbdən uzaq.
Vaxtının ən böyük bir alimiydi,
Aləmi şərh edən **Loğman** kimiydi (LM-231).

Şair "Leyli və Məcnun" əfsanəsini yaradan xalq sənətkarlarını da Loğmana bənzədir.

Məşhur söz ustası, o söz **Loğmanı**
Belə tamamlayir bizim dastanı (LM-275).

- M -

Maçin (top.) – Keçmişdə Şərq ədəbiyyatında Mancuriya ərazisinə deyilərdi. Bu, Hindçin də adlanır.

Bu yerlər, ölkələr, Çindən **Maçinə**
Böyük tacidarın keçsin əmrinə (İ-289).

Çinə tabe olan Türküstanda yaşayan türk dilli tayfaların məskən saldıqları əraziyə Maçin deyilirdi. Səhralıqlardan və dağlıqlardan ibarət olan bu yerlərin əhalisi çığatay dilində danışırlar. Sünni təriqətinə mənsubdurlar. Türk alimi Şəmsəddin Sami yazır ki, kişilər tənbəl və eyş-işrətə aludə olduğuna görə əkinçilik və bir sıra təsərrüfat işləri qadınların üzərinə düşür. Özlərinə məxsus bir sıra köhnə adət və ənənələri vardır.

Mahan (an.) – "Mahanın hekayəsi"ndə obraz adı. "Mahan" adı mah (farsca dolğun Ay) və an (farsca gözəl, ürəyəyatan, gözəşirin) sözlərindən əmələ gəlmiş və "gözəl Ay" mənasında işlənmişdir ki, bu da obrazın əsərdə təsvir olunan gözəlliyinə uyğyn gəlir.

Misrin Yusifinə bənzər camalı,
Min qarət eylərdi hər gözəl xalı.
Mahandı şöhrəti, əziz dostları...(YG-209 – 210).

"**Mah- bər-kuhan**" (id.) – Orta əsr Şərq musiqi havasının adı.

"**Mah-bər-kuhan**"ı çalanda əli
Ayı dağ üstünə qoyardı dili (XŞ-168).

Mahmud (məc. an.) – Sultan Mahmud Qəznəvi (998 – 1030) Qəznəvilər sülaləsinin ən görkəmli hökmdarlarından biri, döyüşkən sərkərdə və siyasi xadim, eyni zamanda Şərqin zülmkar despodlarından biri olmuşdur. Qəznəvilər dövlətinin möhkəmlənməsində də nüfuz dairəsinin genişlənməsində müstəsna xidmətlər göstərmiş, 1000 – 1027-ci illərdə Şimali Hindistana 17 dəfə yürüş etmiş və Orta Asiya ərazisində hökmranlıq edən Qaraxanilər dövlətinin hökmdarı üzərində qələbə çalmışdır. Şərqi İranı, Türküstanı və Hindistanın şimal hissəsini zəbt edib böyük bir dövlət yaratmışdır. Sultan Mahmud dövründə onun paytaxtı Qəznə şəhərində bir sıra görkəmli şairlər meydana gəlmişdir. Firdovsi ölməz "Şahnamə" əsərini onun sifarişi ilə yaratmışdı.

O bütün xaslardan xas bir Ayazdır,
Məsuddan **Mahmuda** çatmış bir xasdır (XŞ-30).

Burada söhbət Məhəmməd peyğəmbərdən gedir.

Atabəy Əbu Cəfər Məhəmməd Eldəgizin məşhur səlcuq hökmdarı Sultan Mahmud Qəznəviyə bənzədilir.

Bu Əbu Cəfərin səxasına bax,
Mahmudtək Xorasan tutan olacaq (XŞ-36).

Şair Atabəy Nüsrətəddin və Məlik İzzəddini də Sultan Mahmuda bənzətmişdir.

Bu tusi qədəhlə **Mahmuda** bildir
"Şahnamə"nin qədri, qiyməti nədir! (İ-428).
Şahın adı kimi o, Məsud olsun,
Şah da bu dastanla qoy **Mahmud** olsun (İ-614).

Sonuncu beytdə Nizami "İqbalnamə"ni Firdovsinin "Şahnamə"si ilə İzzəddin Məsudu da Sultan Mahmud ilə müqayisə etmişdir.

Mahmud (xat. an.) – Şair İskəndərin vəzir Ərəstu tərəfindən ucaldığını təsvir edərkən, Sultan Mahmud Qəznəvinin də adını xatırlayır.

Məlikşah da, **Mahmud** da Nuşirəvan,
Dünya şahlarından bac- xərac alan,
Öz vəzirlərindən öyüd aldılar,
Onunla dünyaya zəfər çaldılar (İ-72).

"**Mahmud-Ayaz**" (xat. id.) – Məşhur Səlcuq hökmdarı Sultan Mahmudla onun sevimli qulu Ayaz (bax) arasında mövcud olan rəvayətlərə işarə olunur.

"**Mahmud-Ayaz**" dastanı eldən-elə car oldu (SX-66).

Mahmud, Davud (məc. ep. an.) – Şair Məlik Nüsrətəddini eyni vaxtda Mahmuda və Davuda bənzədir.

Şövkətdə, zəkada **Mahmud** kimidir,
Polad yumşaltmaqda **Davud** kimidir (İ-436).

Burada Mahmud dedikdə Sultan Mahmud Qəznəvi, Davud dedikdə isə əsərin "İzahlar"ında deyildiyi kimi, Səlcuq hökmdarlarından Qızıl Arslanın böyük qardaşı Davud yox, dinlər tarixinə görə, dəmiri əli ilə yumşaldan və ilk dəfə dəmir məftildən zireh hazırlayan Davud peyğəmbər nəzərdə tutulur.

Almış fərmanını **Mahmudilərdən**,
Həsəbi, nəsəbi **Davudilərdən** (İ-436).

Doğrudan da, Eldəgizlər Atabəylik fərmanını ilk dəfə Səlcuq hökmdarlarından almışlar. Buna görə də "Mahmudilər" dedikdə, "Səlcuqilər" nəzərdə tutulur. "Davudilər" də Davud peyğəmbərlə əlaqədardır.

Eyni zamanda Mahmud və Davud adları epiforik adlardır.

Mahmud təbili (məc. ktem.) – Şair oğlu Məhəmmədin adı Məhəmməd peyğəmbərin adı ilə eyni olduğu üçün, onu Mahmud təbilinə bənzədir.

Şöhrətin Məhəmməd, taleyin xoşdur,
Mahmud təbilitək gurla gurhagur (YG-52).

Sultan Mahmud Qəznəvinin təbili öz böyüklüyü ilə məşhur olub.

Mahmudun fili (məc. zo.) – Sultan Mahmud Qəznəvinin fili də öz böyüklüyü və gücü ilə Şərq əfsanələrində məşhur olmuşdur.

Milçəyi doydursa bizim hökmüdar,
Mahmudun filindən qüvvətli olar (LM-55).

Yəni: Şirvanşah Axsitanın ehsanı milçəyi Mahmudun filindən qüvvətli edər.

Şair "Şərəfnamə" əsərini filə bənzədir və bu fili də öz böyüklüyü ilə məşhur olan Mahmudun fili ilə müqayisə edir.

Qəsdim fil tiynətli zər almaq deyil,
Mahmudun filinə bənzəməz bu fil (İ-397).

Makedoniya (top.) – Balkan yarımadasında bir vilayətdir. Bəzi mənbələrdə Məqduniyyə də adlanır. Qədim Makedoniyada çoxlu yunanlar yaşayırdı. Eramızdan əvvəl VI əsrin axırı – V əsrin əvvəllərində Makedoniya iranlılar tərəfindən zəbt edilmişdi. Sonra Makedoniya padşahları istiqlaliyyət qazanaraq güclü bir hökumət yaratdılar. Makedoniya hökmranlığının ən parlaq dövrü İskəndər Zülqərneyn zamanında olmuşdur. İskəndər oralı olduğu üçün ona Makedoniyalı İskəndər də deyirlər. İskəndərin ölümündən sonra Makedoniya yenidən süqut etmişdir. İndi Makedoniyanın çox hissəsi Yunanıstana aiddir.

Yunanıstan idi onun məskəni
Makedoniyaydı doğma vətəni (İ-61).

Malik (mif.) – Dini rəvayətlərə görə, Cəhənnəmi qoruyan mələkin adı.

Sözlər ki, Rizvana çox xoş gələrdi,
Cəhənnəm **Maliki** ona gülərdi (XŞ-369).

Şair burada Qızıl Arslanın məclisindəki söhbəti nəzərdə tutur.

Mani (an.) – Mani (216-276) Mani dininin banisidir. Babilin yaxınlığında olan bir kənddə, yaxud Həmədanda anadan olmuşdur. Kiçik yaşlarında bir qul kimi dul bir arvad tərəfindən satın alınmışdı. Sonralar Mani mahir bir rəssam olub, özünü peyğəmbər elan edərək, zərdüştiliklə xristianlığın sintezindən yeni bir din yaradan dualist filosof kimi iki Allahın varlığını sübut et-

məyə çalışaraq kainatda iki qüvvənin – işığın və zülmətin, ruhun bə maddi aləmin hakim olduğunu iddia edirdi. Onun təbliğinə görə işıq səltənətində Tanrı mələklərlə, zülmət səltənətində isə İblis şeytanlarla hökmrandır. Az zamanda çox tərəfdarlar toplamış, öz dinini Hindistan və Çin hüdudlarına qədər yaymışdır. Bu din Yaxın Şərqdə, Roma imperiyasının şərq əyalətlərində, Orta Asiyada da yayılmışdı. Maninin dini III əsrdə demokratik xarakter daşıyaraq ictimai bərabərsizliyə qarşı çıxırdı. III və IV əsrlərdə Suriyada, İranda və s. bu dinin tərəfdarları kilsəyə və feodalizm ağalığına qarşı çıxışlar edirdilər.

Mani mahir bir rəssam idi. O, yeni dinini yaymaq üçün öz əsərlərindən möcüzə kimi isifadə etməyə çalışmışdır. "Ərjəng" (və ya "Ərtəng") adlı əsərini özü şəkillərlə bəzəyərək, müqəddəs dini kitab adlandırmışdır.

Mani eyni zamanda təbib kimi də məşhurdur. Rəvayətə görə, Sasani hökmdarı birinci Şapurun həkimi olub, onun vasitəsi ilə öz dinini ölkə daxilində və xaricində yaymağa nail olmuşdur. 276-cı ildə Zərdüşt dininin tərəfdarları(Şapurun nəvəsi Bəhram) tərəfindən dərisi soyularaq öldürülmüşdür. Şərq ədəbiyyatında Mani əsasən mahir rəssam rəmzi kimi xatırlanmaqdadır. Nizami də Maniyə məhz bu nöqteyi-nəzərdən yanaşmış və "İskəndərnamə" əsərində bu qüdrətli sənətkarın bədii obrazını yaratmışdır.

Eşitdim, olmaqçın Çinə peyğəmbər,
Reydən Çinə getdi **Mani** surətkər (İ-300).

Mani (məc. an.) – Nizami Şapurun sənətkarlığı ilə Manini müqayisə etmişdir.

Nəqşində **Maninin** şöhrəti vardır (XŞ-62).

Mani, "Ərjəng" (qoşa məc. on.) – Şair eyni vaxtda Fərhadı Maniyə, onun Bisütunda həkk etdiyi Şirinin şəklini isə Maninin məşhur əsəri olan "Ərjəng"ə bənzətmişdir.

Şirinin şəklini yaratdı qəşəng,
Elə bil ki, çəkdi **Mani** bir **Ərjəng** (XŞ-196).

Daranın adından İskəndərə məktub yazan katib Maniyə, onun yazdığı məktub isə "Ərjəng"ə bənzədilir.

O, şəvə qələmi oynatdı şən-şən,
Manini, "Ərjəng"i saldı qiymətdən (İ-131).

Mani, İqlidis (qoşa məc. an.) – Şapur eyni vaxtda Mani və İqlidis(bax) ilə müqayisə olunur.

Nəqşində **Maninin** şöhrəti vardı,
Rəsmində **İqlidis** qüdrəti vardı (XŞ-62).

Maninin fırçası (məc. ktem.) – Şair "Şərəfnamə" əsərinin gözəlliyini təsvir etmək üçün öz qələmini Maninin fırçası ilə müqayisə edir.

Bu Çin ipəyinin naxış evində
Maninin fırçası düşmüşdür bəndə (İ-54).

Yəni: "Şərəfnamə" elə sənətkarlıqla işlənmişdir ki, məşhur sənətkar Mani bunun qarşısında heyran qalmışdır.

Maral, şir (məc. ap. zo.) – Xosrov Şirini marala, özünü isə şirə bənzədir.

O **maral** Şirindir, mən də həmən **şir**,
Salmışdır saçından boynuma zəncir (XŞ-131).

Maral, şir, turac, qaraquş (qrup məc. zo.) – Şair metaforik şəkildə Şirini maral və turaca, Xosrovu isə şir və qaraquşa bənzıtmişdir.

Meydanda **maralla** oynayırdı **şir,**
Turac qaraquşu alırdı əsir (XŞ-121).

Mariyə (an.) – "İqbalnamə" əsərində obraz adı.

Mariyə adlı bir qibtli vardı,
Bir əmir qızıydı, Şamda yaşardı (İ-448).

Mavəraünnəhr (top.) – Orta Asiyada Ceyhun (Amu-dərya) çayının şimalındakı yerlərə ərəblər tərəfindən verilən addır. Köhnə Buxara xanlığı ilə Türküstanın bir sıra şəhər və qəsəbələrini əhatə edir.

Mavəraünnəhri görüncə guya,
Bir şəhər demirəm, gördü bir dünya (İ-310).

"**Ma-zaqə**" (id.) – "Quran"ın "Ən-Nəcm" (XXI) surəsinin 17-ci ayəsinə işarədir; tərcüməsi: "O, yana baxmadı". Məhəmməd peyğəmbər öz meracı zamanı göylərdəki gülüstandan keçərkən Allahdan əmr gəldi: "Sən ətrafa baxma ki, diqqətin dağılmasın".

Məhəmməd bu kəlamı gözləri üstə qoydu və o kəlam sürmə kimi onun gözlərinə dərman oldu... İkinci sətirdə bağ yer üzündəki dünyanın, gülüstan isə göylərdə yerləşmiş müqəddəs Sidr ağacının rəmzi kimi işlənmişdir. Həmin Sidr ağacı "Quran"ın "Ən-Nəcm" surəsində sidrət əl – müntəha - ən axırıncı Sidr adı ilə təsvir olunmuş, Ərşin – Allah taxtının yanında yerləşmiş ilahi ağac. Bu ağaca Mələklər belə baxa bilmirlər. Məhəmməd öz meracı zamanı Sidri yaxından müşahidə etmişdir.

Gözlərini tutan "**möhrü – mazağ**"dır
Bağlanıb durduğu sanma bu bağdır (YG-23).

Mazandaran (top.) – İranın ən böyük əyalətlərindən biridir. IX-XII əsr mənbələrində adı Təbəristan kimi qeyd olunur. Sasanilər dövründə müstəqil dövlət olmuş, Nizaminin dövründən başlayaraq Mazandaran adlanmışdır. Xilafət dövründə yerli sülalələr tərəfindən idarə olunan Mazandaran XVI əsrin sonunda I Şah Abbas tərəfindən İrana qatılmışdır. 1723-cü ildə Rusiya – İran müqaviləsinə əsasən Rusiyaya verilmiş, 1732-ci ildə isə geri alınmışdır. Hal – hazırda İranda ən böyük ostanlardan biridir.

Tək iki şey çıxar **Mazandarandan**:
Biri div, o biri divqılıq insan (İ-44).
Gilanlı Zərivənd **Mazandarandan**...(İ-324).

Mehdi (ag.) – İslam dinində (şiələrdə) on ikinci imamın adıdır. Guya o qeyb olmuşdur və dünya tamam xarabaya çevriləndə o zühur edəcək və dünyanı Cənnətə döndərəcəkdir. Ona "Sahibzaman" da deyilir.

Mehdini quyudan aparmış göyə,
Divləri döndərmiş: -İnsan ol, -deyə (XŞ-30).

Mehdi (məc. ag.) – Qızıl Arslan Mehdi Sahibzamana bənzədilir.

Mehditək bu dövrün vur - harayından
Onun köməyilə xilas olarsan (XŞ-44).

Şair mədh etdiyi Atabəy Nüsrətəddini Mehdiyə bənzətmişdir.

Ey dövlət, hardasan, məni sevindir,
Mehdi qapısında taxtını endir (İ-160).

Mehdi, Günəş (qoşa məc. on.) – Körpə Arslan şah eyni zamanda həm Mehdiyə, həm də Günəşə bənzədilir.

Mehdidir, günəşdir şah bu dünyada,
Dövləti qalacaq eldə, obada (YG-34).

Mehri-İsa (ag.) – İsa mehri (məhəbbəti) deməkdir.

Zülmət, nur pərdəsi altda heş zaman
Uzaq olmaz eşşək **mehri-İsadan** (YG-306).

Bu qaranlıq gecə və işıqlı gündüzdən ibarət olan zəmanədə bəzən eşşəyin də möhrəsi (belinin fəqərələri) İsanın mehrindən, məhəbbətindən xali olmur, yəni eşşək də yüksək rütbəyə çatır. Burada İsanın suvar olub Beytül-Müqəddəsə getdiyi eşşək nəzərdə tutulur.

"**Mehrigan**" (id.) – Qədim İranın musiqi havasının adı. "Mehr" İran Günəş ilinin yeddinci ayıdır (23 sentyabr – 22 oktyabr). Günəş sentyabr ayının 22-də yeddinci bürcə - Mizan bürcünə daxil olur. Mehr ayının 21-də xalq payız bayramını qeyd edir. Bu bayram 6 gün davam edir. Mehrigan bayramının yaranması haqqında bir sıra maraqlı rəvayətlər mövcuddur. Rəvayətə görə, dəmirçi Gavə mələklərin köməyilə zülmkar Zöhhaka qalib gələrkən, onu Dəmavənd dağında əsir edib, Firidunun taxta çıxdığı gün İran məmləkətlərinin Zöhhakın zülmündən azad edildiyi Mehrigan ayına təsadüf edildiyinə görə xalqın bayrmına çevrilmişdir. Bu gündə şahlar geniş xalq kütlələrinə mehribanlıq və səxavət göstərdiklərinə görə el arasında "Mehrigan" bayramı kimi məşhur olmuşdu. Belə bir rəvayət də vardır ki, guya Ariya tayfalarının əzazil bir hökmdarı Mehr ayında öldüyünə görə zalım şahın zülmündən qurtarmış xalq həmin günü bayram etmişdi. Başqa bir rəvayətə görə, Ərdəşir Babəkin başına Günəş şəkilli tac qoyaraq xalqa xeyirxahlıq göstərdiyi gün olduğu üçün xalq həmin günü ənənəvi bayram etməyə başlamışdı.

Həvayi -"**Mehrigan**" çalanda, o dəm
Hüt başdan çıxırdı, gülürdü aləm (XŞ-168).

Merac gecəsi (xron.) – Dini rəvayətlərə görə, Məhəmməd peyğəmbərin əfsanəvi Büraq (bax) atı ilə göylərə qalxdığı və Allahla görüşdüyü gecə.

Ağ günün gündüzüydü, Zülmət gecə deyildi,
Merac gecəsiydi ki, ona gecə deyildi (SX-67).

Mey (məc. ap.) – Şair mey dedikdə "İqbalnamə"ni nəzərdə tutur.

Bir qədəh **mey** verir sənə Nizami,
Gərək nuş edəsən Keykavus kimi (İ-428).

Məbsutə (kos.) – İşıqlı bir ulduz adıdır.

Məbsutə çıraqtək yaxmış özünü,
Məqbuzə çıxarmış qarğa gözünü (LM-186).

Məbud (teon.) – Ərəb sözü olan "Məbud"un Allah, ibadət olunan, büdpərəstlərin ibadət etdikləri büt, ulduz, Günəş, Ay və s. kimi mənaları vardır.

Məbudun ziyarəti savabdır, savab, bəli,
Camalı görməlidir, görməlidir, görməli! (SX-32).

Burada Məbud dedikdə Allah nəzərdə tutulur. Məhəmməd peyğəmbərin merac zamanı Allahı ziyarət etməsinə işarə olunur.

"**Məcəsti**" (id.) – II əsrin əvvəllərində İskəndəriyyə şəhərində yaşamış böyük yunan riyaziyyatçısı, coğrafiyaşünası, ulduzşünası Bətlimusun (Ptolomey) dünyanın quruluşu haqqında yazdığı əsərinin adı. Məşhur Calinusun şagirdi olan bu alim 167-ci ildə İskəndəriyyə yaxınlığında vəfat etmişdir.

Dedi: Fərhad adlı bir cavan vardır,
Usta mühəndisdir, bir sənətkardır.
Həndəsə elmində xariqə saçar,
"**Məcəsti**", İqlidis sirrini açar (XŞ-183).

Şair Yəmən hakimi Mənzərin həndəsə və münəccimlik elminə dərindən bələd olmasını belə ifadə edir.

Həndəsə xəttinə əməl edərdi,
Minlərlə **Məcəsti** o həll edərdi (YG-65).

Yəni, Mənzər "Məcəsti"yə aid çoxlu məsələ və misal həll edərdi.

Məcnun (an.) – Qeysin (bax) ləqəbi. Ərəb sözüdür, dəli, divanə, məcazi mənası isə eşqə tutulmuş, vurğun deməkdir. Qeys Leylinin eşqindən coşaraq şeirlər oxuyub, onun çadırı ətrafında

gəzişərkən ərəblər onu "Məcnun" adlandırırdılar. Nizami qəhrəmanına verilən bu adın ona layiq olmadığını açıq söyləmişdir.

Eşqdən xəbərsiz adamlar ki var,
Onu "**Məcnun**" deyə cağırardılar.
Biçarə Qeys də əlacsız qaldı,
Bu "**Məcnun**" sözünü üstünə aldı (LM-81).

Məcnun (məc. an.) – Leyli özünü Məcnuna bənzədir.

Bir zaman Leyliydim, indisə nakam,
Məcnundan min dəfə artıq Məcnunam (LM-191).

Şair Qara geyənlərin şahını (bax) Məcnuna bənzədir.

Siyah zülfün ki, var aşiqə bağdır,
Sənin **Məcnununam**, könül dustaqdır (YG-194).

Məcnun, Leyli (qoşa məc. an.) – Şair "Leyli və Məcnun" poemasının qəhrəmanlarının adlarını digər poemalarında da həmişə yanaşı işlətmişdir. Şirinin gözəlliyindən bəhs edərkən, şair bi iki nakam aşiqi xatırlayır, Şirini gözəllikdə eyni vaxtda Məcnun və Leyli ilə müqayisə edir.

Məcnun heyran qalmış xoş xəyalına,
Leyli təslim olmuş gül camalına (XŞ-65).

Eyni vaxtda bülbül Məcnuna, gül isə Leyliyə bənzədilir.

Ağacda bülbül də qan-yaş tökərdi,
O da **Məcnun** kimi nalə çəkərdi.
Gül də **Leylidəki** o vüqar kimi,
Çadırdan çıxmışdı tacidar kimi (LM-114).

Məcnun, Məcnun (təkrar an.) – Adın bu cür təkrar olunması Qeysin "Məcnun" cağırılması hadisəsinin çox təkrar olunmasına işarədir.

Gəzəndə, ardınca bağırardılar,
-**Məcnun! Məcnun!** – deyə çağırardılar (LM-82).

Məcnunun atası (an.) - Əsl adı bilinməyən bu şəxsin oğlu Məcnunun adı ilə adlanması.

Tədqiqatçılar şəxsin övlad adı ilə adlanması ənənəsini ərəb ad sistemi ilə əlaqələndirirlər. Əslində bu ənənə qədim türk xalqları ilə bağlı olub, "Orxon – Yenisey abidələri"ndə, "Dədə Qorqud" dastanlarında və digər folklor nümunələrində, hətta ya-

zılı ədəbiyyatda buna aid zəngin faktlar vardır. Azərbaycan xalqı indi də Ağbığ Məmmədin oğlu, Asiyanın nəvəsi, Təyyarın qızı, Sənanın bacısı, Tahirin qardaşı, Uşaqların anası (və ya atası) və s. kimi köməkçi adları əsl ad yerinə işlədirlər.

Məcnunun atası bu xoş diləklə
Aclar doyurardı min bir köməklə (LM-76).

Çox maraqlıdır ki, Məcnun (Qeys) anadan olmamış və bu ləqəbi almamış şair onu bu adla adlandırmışdır.

Məcuc (mif.) – Bax: Yəcuc.

Mədain (top.) – Tisfun (Ktesifon) şəhərinin qədim adıdır. Bağdadın 26 km. cənub-şərqində və Dəclə çayının hər iki sahilində yerləşən köhnə bir şəhər olmuşdur. İran padşahlarından Əşkanilər və Sasanilər zamanında İran dövlətinin qışlaq paytaxtı idi. Hər padşah bu şəhərə bir məhəllə tikdirib əlavə etdiyi üçün ərəblər bunu cəm formasında Mədain (mədinələr – şəhərlər) adlandırmışlar. Nuşirəvanın hakimiyyəti zamanında Babilin ətraf hissələri və Həmədan da oraya daxil imiş. Xosrov Pərviz Sasani şahlarının qışlaq mərkəzi sayılan bu şəhəri şahlıq paytaxtına çevirmişdir. Hazırda Dəclə çayının hər iki sahilini əhatə edən böyük bir ərazidə Mədainin xərabələri qalır. Xüsusilə Taqi-Kəsra adlanan yarımdairə şəklində böyük bir tağı və onun daxilində Nuşirəvan sarayının viranələri görünür.

Gəlib **Mədainə** çatdığı zaman
Xəznələr üstündə xəznə taparsan (XŞ-81).

Mədinə (top.) – Ərəbcədir. Mədinət ən-Nəbi, yəni peyğəmbərin şəhəri sözünün müxtəsər formasıdır. Hicazda vahə şəhəri olan Yəsribə müsəlmanlar bu adı vermişlər. 622-ci ildə islam dininin banisi Məhəmməd Mədinəyə köçmüşdür. Həmin hicrət ili müsəlman tarixinin başlanğıcı olmuşdur. Məhəmməd peyğəmbər bütün qalan ömrünü Mədinədə yaşamışdır. O, Mədinədə ilk məscidi tikdirmiş və “Quran”ın xeyli hissəsini bəyan etmişdir. Müsəlman dövlətinin ilk paytaxtı da Mədinə olmuşdur.

Məhəmməd peyğəmbər Mədinədə özünün tikdirdiyi məsciddə (Məscid ən-Nəbi) dəfn edilmişdir. Onun evi də həmin məscidə bi-

tişik olmuşdur. Zəvvarlar, rəsmən həcc mərasiminə daxil olmasalar da, həmişə Peyğəmbərin məzarını ziyarət edirlər (İslam.B., 1985).

Oldu Məkkən, **Mədinən** çiçəklənən gülzarın,
Gözünə işıq gəldi hər bir qərib zəvvarın (SX-36).

Məğrib (top.) – Ərəb sözüdür, günbatan, qərb deməkdir. Şimali Afrikanın qərbində yerləşmiş tarixi ölkə, indiki Mərakeşdir. O, tarixi Məğribin bir hissəsini təşkil edir. Vaxtilə Tunis və Əlcəzair də Məğribə daxil imiş. Bu ölkələr Liviyadan qərbdə yerləşdiyi üçün Məğrib adlanırmış (Bax: Məşriq).

Məşriq doğub səxavət günəşini dünyanın,
Məğrib boğub səxavət günəşini dünyanın.
Məşriq səhər borc verir çoxdur deyə altunu,
Məğrib axşam borc alır yoxdur deyə altunu (SX-121).

Məğrib padşahı (an.) – Məğrub ölkələrinin hökmdarlarının ləqəbi. O, "Yeddi gözəl" poemasında təsvir olunan gözəllərdən biri Azəryunun atasıdır.

Məğrib padşahının Azəryun qızı (YG-75).

Məhəmməd (ag.) – İslam dininin banisi olan Məhəmməd // Mühəmməd (569 – 632) Rəsulullah (Allahın elçisi), Xatəmun-Nəbiyin (Peyğəmbərin möhürü, yəni sonuncu peyğəmbər) adları ilə də məşhurdur. "Məhəmməd" ərəbcə şərəfli, şanlı, bəyənilmiş, mədh edilmiş deməkdir.

Məhəmmədin atası o, anadan olmamış, anası Aminə isə o, altı yaşında olarkən vəfat etmişdir. Ona əvvəl babası Əbdül Mütəllib (cəmi iki il onu saxlamışdır), onun vəfatından sonra isə əmisi Əbu Talib qayğı göstərmişdir. 12 yaşından ticarətlə məşğul olan Məhəmməd 595-ci ildə özündən iki dəfə böyük olan varlı dul qadın Xədicə ilə evlənir və ondan iki oğlu (Qasim və ya Əbül-Qasim və Abdulla), dörd qızı (Zeynəb, Ruqiyyə, Ümgülsüm və Fatimə) olmuşdur.

Məhəmməd gənc yaşlarından dini düşüncələrlə, 610-620-ci illərdə isə yeni din yaratmaqla məşğul olmuş və 622-ci ildə bu işi başa çatdırmışdır. İslam dininin yaranma tarixi onun 622-ci ilin iyun ayının 26-da Məkkədən Yəsrib (sonralar bu şəhər

Mədinə, yəni Peyğəmbərin şəhəri adlanmışdır) şəhərinə hicrət etməsi tarixi ilə başlanır... (A.Masse. İslam. B. 1985).

Peyğəmbərlik bayrağı göylərə qalxan vədə
Sonuncu peyğəmbərlik verildi **Məhəmmədə** (SX-28).

Məhəmməd (an.) – Atabəy Əbu Cəfər Eldəgizin əsl adı.

Şamil olan zaman hər kəsə rəhmət
İki sahib adı oldu **Məhəmməd**.
Məhəmməddən biri son peyğəmbərdir,
Biri də son şahdır, bu gün əmr edir (XŞ-36).

Burada Atabəy Əbu Cəfərin və son peyğəmbərin adlarının adaş ad olmasına işarə edilir.

Məhəmməd (məc. ag.) – Şair Şirvanşah Axsitanı Məhəmməd peyğəmbərə bənzətmişdir.

Məhəmməd sifətli o şah həzrəti
Versin xəyalımda olan neməti (LM-55).

Məhəmməd, Məhəmməd (adaş ag. an.) – Nizami Gəncəvinin oğlunun əsl adı. Şair bu adın Məhəmməd peyğəmbərin adı ilə eyni olduğu üçün, onun şöhrətinin də Məhəmməd peyğəmbərin şöhrətinə bənzədir.

Adı xoş gülüdür əbədiyyətin,
Məhəmməd isminin möhrüsən mətin,
Şöhrətin **Məhəmməd**, taleyin xoşdur... (YG-52).

Məhəmməd nəsli (et.) – Məhəmməd nəsli dedikdə, şair Körpə Arslan şahın hərəminə işarə edir. Yəqin ki, onun qadını milliyyətcə ərəb və Məhəmməd peyğəmbərin nəslindən olub. Bəlkə, elə buna görə də oğlanlarının adı Əhməd və Məhəmməddir.

Məhəmməd nəslindən dilbər hərəmi
Olsun həyatının gözəl həmdəmi (YG-37).

Məhəmməd Nizami (an.) – Nizami Gəncəvinin oğlunun adı. Bu antroponimik birləşmənin birinci komponenti əsl ad, ikinci komponenti isə şairin əsl adını əvəz edən təxəllüsüdür.

Qəlbimdə can kimi əzizim olan
Məhəmməd Nizami oğlum bu zaman ... (LM-48).

Məhin Banu (an.) – Bərdə hökmdarı Şəmiranın ləqəbi. Məhin Banu – Böyük xanım deməkdir. "Xosrov və Şirin" poemasında obraz adı.

Şəmira adlanır o göyçək qadın,
Böyükdür mənası bu gözəl adın.
Cürətdə kişidən heç geri durmur,
Böyük olduğundan **Məhin Banudur** (XŞ-63).

Məhsəti (an.) – XII əsr Azərbaycan şairəsi Mənicə Gəncəvi. Bu ad əsl ad yox, sarayda yaşayarkən Sultan Səncər tərəfindən verilən ləqəbdir və "Ay üzlü" deməkdir. Şairə ondan təxəllüs kimi istifadə etmişdir.

Gecə **Məhsətinin** bir qəzəlinə
Sən ki, bəxş edirsən yüz- yüz xəzinə (XŞ-34).

Həyatı haqqında məlumat çox azdır. Son tədqiqatlar onun XI əsrin axırlarında Gəncədə doğulduğunu, mükəmməl təhsil aldığını, Şərq ədəbiyyatı və musiqisinə yaxından bələd olduğunu göstərir. Yaradıcılığının ən məhsuldar dövrünü Sultan Mahmud Səlcuqinin və onun əmisi Sultan Səncər Səlcuqinin saraylarında keçirmişdir. Məhsəti fars dilində, əsasən, rübai janrında yazmışdır. Ədəbi irsi dövrümüzədək tam halda gəlib çatmamışdır (ACE, 6).

Məhşər (mif.) – Dini əqidəyə görə - axırzamanda bütün ölülərin dirilib qalxdığı gün. Qiyamət günü. Məhşər – dini etiqada görə, ölülərin dirilib yığılacağı yer (mifoloji toponim) mənasında da işlənir. Məcazi mənası isə çox qələbəlik, basırıq izdihamlı deməkdir.

Məhşər odu püskürər biyabanda yanan kəs,
Utanar əməlindən, əməlini danan kəs (SX-144).

Bu biyabanın, yəni dünyanın ilğımı olan var, dövlət, hakimiyyət və ad – sandan ötrü qaynayıb coşursan. Lakin o dünyaya gedərkən ört-basdır elədiyi bütün günahların üstünü açıb Qiyamət günü səndən hesab alacaqlar.

Məhşər (məc. mif.) – İskəndər və Zəngibar şahın qoşunları vuruşa hazırlaşarkən yaranan çaxnaşmanı şair Məhşərə bənzədir.

Uzağa səs salır naylar, elə bil
Məhşərdir, çalınır suri-İsrafil (İ-89).

“**Məxzənul əsrar**” (id.) – “Xəmsə”nin birinci əsəri olan “Sirlər xəzinəsi” əsərinin orijinalda (fars dilində) olan adı.

Yorulmaq bilmədən gündüz və gecə
“**Məxzənül əsrar**”ı yazdım əvvəlcə (İ-60).

Şair “Məxzənül əsrar”ı xəzinəyə bənzədir.

Mənim xəzinəm var “**Məxzənül - əsrar**”,
Boş zəhmət çəkməyin nə mənası var? (XŞ-47).

Məkkə (top.) – Ərəbistanın ən qədim və müqəddəs müsəlman şəhərlərindən biridir. Məhəmməd peyğəmbər bu şəhərdə anadan olmuş, yaşamış və öz dini təbliğinə burada başlamışdır. Lakin həmvətənlərinin təqibindən xilas olmaq üçün bir dəstə tərəfdarları ilə birlikdə Mədinəyə (bax) köçmüş və oradan da məkkəlilərə qarşı mübarizə aparmış və nəhayət, onları özünə tabe etmişdir. Nizami aşağıda məhz buna işarə edir.

Məkkədən xərac alıb, bac alıb qürbətdə də (SX-29).

Burada “Məkkə” dedikdə bütün məkkəlilər nəzərdə tutulur.

Məkkə, Mədinə (ana. top.) – Hər iki şəhər müsəlman aləmində müqəddəs hesab olunduğu üçün, çox vaxt bu şəhərlərin adı yanaşı işlədilir.

Oldu **Məkkən, Mədinən** çiçəklənən gülzarın (SX-35).
Ey **Məkkə, Mədinənin** pərdələnən günəşi... (SX-36).

Sonuncu misrada Məhəmməd peyğəmbər metaforik şəkildə Məkkə və Mədinənin Günəşinə bənzədilir.

Məkkənin yolu (top.) – Məkkəyə gedən yol nəzərdə tutulur.

Məkkənin yolunda uddu biri zər,
Oğrular yüz qarın yırtdı sərasər (YG-52).

Məqbuzə (kos.) – Ay işıqlı kiçik bir ulduz adıdır.

Məbsutə çıraqtək yaxmış özünü,
Məqbuzə çıxarmış qarğa gözünü (LM-86).

Məqdəs (top.) – Fələstin ölkəsinin (Aralıq dənizinin şərq sahilində) mərkəzi olan məşhur şəhərdir. Müqəddəs, Beytülmüqəddəs (bax), Qüds (bax) də adlanır. Beynəlxalq adı Yerusəlimdir (“İncil”də isə bu ad Yeruşəlim kimi yazılmışdır).

Orda qoymamaqçün fitnədən əsər
Rumdan düz **Məqdəsə** gəldi İskəndər (İ-528).

Məqduniyyə (top.) – İskəndərin vətəni olan Makedoniyanın (bax) qədim adı. Yəqin ki, "Makedoniya" Məqduniyyə adının fonetik cəhətcə dəyişdirilmiş formasıdır.

O **Məqduniyyədən** yola düşərək
İskəndəriyyəyə gəlib çatantək... (İ-526).

Mələk (kollektiv xat. mif.) – Dini əsatirə görə, insan çiyinlərində həmişə iki mələyin olmasına işarə olunur.

Bizimlədir həmişə iki **mələk** əzəldən,
Qurub insan oğluna iblis kələk əzəldən (SX-149).

Burada Qiyamət günü insanlar mühakimə edilərkən sağ və sol çiynində oturan Rəqib və Ətid adlı mələklər nəzərdə tutulur. Bu mələklərdən biri insanların həyatda gördüyü xeyir, savab işləri, o birisi isə günahlarını, bəd əməllərini sayacaqdır (SX-193).

Məlixa (an.) – "Bişrin hekayəsi və onun aşiq olması" hekayəsində obraz adı.

Bişr! İnsanların eybisən, nə qəm,
Mən də **Məlixayam**, imami-aləm (YG-180).

Məlik İzzəddin (an.) – Nurəddin Arslan şahın oğlu, Mosul atabəylərinin yeddinci hökmdarı İzzəddin Məsud. O, 1210-1218-ci illərdə hakimiyyətdə olmuşdur.

Şairin təsvirlərindən elə aydın olur ki, "İqbalnamə" əsəri ona ithaf olunmuş və oğlu Məhəmməd vasitəsilə əsəri Mosula göndərmişdir. Əlbəttə, "İqbalnamə" əsərinin kimə ithaf olunması məsələsi nizamişünaslıqda hələ öz həllini gözləyən problemlərdəndir. Biz bu problemi həll etməyi qarşımıza məqsəd qoymamışıq.

Məlik İzzəddinə bu çərxi-dövran
Qüdrət kəməndini bəxş etmiş çoxdan (İ-608).

"Məlik İzzəddin" antroponimik birləşməsindəki birinci komponent Məsudun titulu, ikinci isə onun dini fəxri adıdır.

Məlik Mənuçöhr (an.) – Şirvanşah III Mənuçöhr İbn Faridun 18-ci şirvanşah olmuşdur. Onun hakimiyyəti (1120-1160) illərində Şirvan dövləti xeyli güclənmiş, onun müdafiə qabiliyyəti artmış, ölkə istiqlaliyyət uğrunda mübarizənin mərkəzinə çevrilmişdir.

Gürcü basqınları zamanı dağıdılmış qala, kənd və şəhərlər bərpa edilmişdir. 1111-ci ildə Gürcü çarı IV Davidin qızı Tamarla

evlənməsinə baxmayaraq, Şirvan IV Davidin basqınlarına məruz qalırdı. 1125-ci ildə IV Davidin ölümündən sonra taxta çıxan onun oğlu Demetrenin çarlığı vaxtında bu basqınlar dayandı.

Qıpçaq-türk tayfalarının basqınlarından xilas olmaqla Şirvan Gürcüstan üçün ən etibarlı qonşu ola bilərdi. Gürcülərlə dostluq münasibətləri yaransa da, Mənuçöhrün hakimiyyətinin son illərində Şirvanda vəziyyət yenə də pisləşirdi.

Mənuçöhrün sarayında şeirə, sənətə yüksək qiymət verilirdi. Əbülüla, Fələki, Xaqani və başqaları onun sarayında yazıb yaradırdılar.

Bu Bəhram nəsəbli, ülkər üzlü sən
Məlik Mənuçöhrün sədəf dürrüsən (LM-51).

Bu antroponimik birləşmədə birinci komponent titul ("məlik" ərəbcə padşah, hökmdar deməkdir), ikinci isə əsl addır. Mənuçöhrün bütövlükdə ad və titulu isə "Əbuxoca Fəxrəddin Məlik Mənuçöhr ibn Faridun" kimi göstərilir. Onun Böyük Xaqan, Kəbir və ya Əkbər kimi ləqəbləri də olmuşdur (11 – 147-154; 4 – 127-135).

Məlik Nüsrətəddin (an.) – Məhəmməd Cahan Pəhləvanın oğlu Nüsrətəddin Əbubəkr. O, Azərbaycanda hakimiyyət sürmüş Atabəylərin dördüncüsüdür. 1191-ci ildə əmisi Qızıl Arslanın ölümündən sonra onun yerini tutmuşdur. 1207-ci ildə Ağ sonqur dövlətinin dağılması ilə Marağanı da zəbt etmişdir. 1210-cu ildə ölmüşdür. Nizami "Şərəfnamə" əsərini ona ithaf etmişdir.

Ucadır, igiddir hər hökmdardan
Məlik Nüsrətəddin, o şanlı sultan (İ-425).

Məlumdur ki, nizamişünaslıqda "İqbalnamə" əsərinin kimə ithaf olunması hələ də mübahisəlidir. Çünki şair əsərin əvvəlində Məlik Nüsrətəddini, əsərin sonunda isə İzzəddin Məsudu mədh etmişdir. Doğrudan da, bunun elmi izahı çox maraqlı və vacib problemlərdən biridir.

"İskəndərnamə" əsərinin "İzahlar"ında "İqbalnamə"nin "Padşahın tərifi" hissəsində mədh olunan hökmdarın İzzəddin Məsud olması göstərilir. Halbuki bu hissədə onun adına təsadüf olunmayır. Burada Məlik Nüsrətəddin və onun Bişgin ləqəbi haqqında məlumat verilir. Oxucu da hiss edir ki, burada Məlik

Nüsrətəddindən söhbət gedir. Bizcə, "İqbalnamə"nin "Padşahın tərifi" hissəsində mədh olunan şəxs Məlik Nüsrətəddinin özüdür. "Kitabın yazılmasının səbəbi" hissəsində də şair Şah Arslanı xatırlayır. O isə Məlik Nüsrətəddinin əmisi olmuş, Məlik Nüsrətəddin də onun ölümündən sonra hakimiyyəti ələ almışdır.

Şah Arslan torpaqda, qəbirdə ikən,
Necə söz söyləyim, şeir yazım mən (İ-416).

"İqbalnamə" əsərinin "Padşahın tərifi" hissəsində Gəncənin zəlzələ nəticəsində dağılmasından da bəhs olunur. Eyni zamanda göstərilir ki, dağılmış şəhər hökmdarın səyi nəticəsində yenidən bərpa olundu.

Görün ki, nə sayaq qadir hökmüdar
Pozulmuş cəlalı etdi bərqərar!
Palçıq barıları tamam sökdürdü,
Yerində qızıldan divar hördürdü... (İ-427).

İndi sual oluna bilər: Azərbaycan Atabəyi Nüsrətəddin Əbubəkr ola-ola Mosul hökmdarı İzzəddin Məsud gəlib Gəncəni bərpa edərmi? Bu məntiqi cəhətdən də həqiqətə uyğun gəlmir.

Məlik şah (an.) – Məlik şah Əbülfəth Cəlaləddin (1055-1092) İranda hakimiyyətdə olan Səlcuq padşahlarının üçüncüsü və ən böyüyüdür. Atası Alp Arslanın ölümündən sonra 1072-ci ildə, 18 yaşında ikən taxta çıxmış, vəziri məşhur Nizamülmülkün yardımı və siyasəti ilə Xarəzm, Şam, Misir və başqa yerləri fəth edib, məmləkətini Ceyhun çayından Aralıq dənizinə qədər genişləndirmişdir. 20 il hakimiyyətdə olduqdan sonra 1092-ci ildə ölmüşdür. Cəsur şəxsiyyət, müdrik alim və ağıllı padşah sayılır. Çox səxavətli imiş. Nizami də onun bu cəhətinə işarə etmişdir. Saysız körpülər, qəsəbələr, qalalar, məktəblər, su yolları tikdirmişdir. Məşhur şair və filosof Ömər Xəyyam bu zaman Məlik şahın himayəsində yaşamışdır.

Təsadüfi deyildir ki, Nizami İskəndərin vəzir Ərəstu tərəfindən ucaldığını təsvir edərkən Məlik şahı və onun vəziri Xacə Nizamı da yada salır.

Məlik şahın vardır, eşidib hamı,
Dinpərvər vəziri Xacə Nizamı (YG-40).

Şair ondan məcazi ad kimi də istifadə etmiş və Məlik İzzəddini Məlik şaha bənzətmişdir.

Şah – **Məlik şah** kimi səxavətlidir,
Vəziri nizamtək ləyaqətlidir (İ-608).

Burada ikinci misradakı "nizam" isə Məlik şahın vəziri Nizamülmülkə işarədir. Demək, Məlik İzzəddin həm Məlik şaha, həm də onun vəziri Nizamülmülkə bənzədilmişdir. Lakin "Nizam" adı kiçik hərflə yazılmışdır.

Məlik şah, Mahmud, Nuşirəvan (qrup xat. an.) – Şair İskəndərin vəziri Ərəstu sayəsində yüksəldiyini təsvir edərkən Məlik şah, Mahmud və Nuşirəvanın da adlarını xatırlayır. Çünki onlar da məhz İskəndər kimi vəzirləri sayəsində yüksəlmiş, ad-san qazanmışlar.

Dünyanı fəth etdi bacarıq, hikmət,
Vəzirin rəyindən qazandı şövkət.
Məlikşah da, **Mahmud** da, **Nuşirəvan**,
Dünya şahlarından bac-xərac alan,
Öz vəzirlərindən öyüd aldılar,
Onunla dünyaya zəfər çaldılar (İ-72).

Məndəl xətti (mif.) – Sehrbazların və cadugərlərin öz dövrələrinə çəkdirdikləri tilsimli xəttə deyilir.

Birinci havanı çalanda yenə
Baş qoyub yatdılar **Məndəl** xəttinə (İ-470).

Yəni musiqi o qədər təsirli idi ki, dinləyənlər sehirlənmiş kimi bihuş olmuşdular.

Mənsək (mif.) – Ümumi mənada ibadət yeri, dini ayinlərin icra olunduğu yer. Burada isə ibadət və pərəstiş olunmağa layiq, mələk xislətli tayfa mənasında işlənmişdir.

Şərqdə bir tayfa var, xislətdə mələk,
Onlara layiqdir **Mənsək** ad vermək (İ-505).

Məntur (top.) – Bərdə şəhərinin ətrafında yerləşən ov üçün əlverişli olan müəyyən ərazinin adı.

Gah **Məntur** çölünə at sürürdülər
Ceyrandan, maraldan öldürürdülər (XŞ-133).

Mənzər (an.) – Yəmən hakimi Nemanın oğlu. "Yeddi gözəl" poemasında obraz adı. Əsərdə o həm Mənzər, həm də Münzir adlanır.

Dedi ürəyini Neman bir kərə,
Sevib xoşladığı oğlu **Mənzərə**... (YG-57).

Mərrix (kos.) – Ərəbcə Mars planetinin adı. Qan kimi qırmızı görünən Mərrix qədim zamanlarda "Müharibə ilahəsi" mənasında işlədilmişdir. Şair də Mərrix adını məhz bu mənada işlətmişdir. Bax: Bəhram.

Mərrixə buraxdı qəzəb və acıq,
Acıq burda getməz irəli artıq (İ-26).

Söhbət Məhəmməd peyğəmbərdən gedir.

Mərrix, Zöhrə (qoşa kos.) – Şirvanşah Axsitanın Mərrix və Zöhrə ilə eyni vaxtda müqayisə olunması onun həm igid, qoçaq, qəhrəman, həm də şənlik sevən bir şəxs olması ilə əlaqələndirilmişdir.

Mərrixdə bir qılınc, **Zöhrədə** bir cam,
Sağında, solunda durmuşlar müdam.
Zöhrə şərab verir cam ilə ona,
Mərrix silah alıb düşür ardına (LM-52).

Mərv (top.) – Orta Asiyanın (Türkmənistan Respublikasının Bayraməli şəhəri yaxınlığında) ən qədim şəhərlərindən biri. III əsrdən Sasanilər dövlətinin tərkibinə daxil idi. YII əsrdə ərəblər tərəfindən işğal olundu. XI əsr – XII əsrin birinci yarısında Səlcuqilərin paytaxtı olan Mərv daha da tərəqqi etdi. XII əsrin sonu – XIII əsrin əvvəllərində Xarəzmşahların əsas şəhərlərindən olmuşdu. 1222-ci ildə Mərvi monqollar dağıtdı. Sonralar nisbətən bərpa olunsa da, XIX əsrdə tamamilə süqut etdi. Mərvin xarabalıqları Mari şəhərinin 30 kilometrliyindədir (ASE. YI).

Kəkliyi saldırdı qırqovullara,
Mərvə tərpənərək düşdü yollara (İ-258).

Burada söhbət İskəndərin Mərvə yola düşməsindən gedir.

"Mərv" sözü hazırda "Mari" şəklində işlənir və muxtar respublikanın adıdır. "Mərv" mari dilindəki "mərts", "maru"(mərd) sözlərindən yaranmışdır. Mənası "kişi" deməkdir (19-148). "Mari" sö-

zünün “mar” (ilan) adı ilə əlaqədar olduğu haqqında da məlumatlar vardır. Doğrudan da, Maridə indi də çoxlu müxtəlif ilanlar yaşayır.

“Mərvayi-nik” (id.) – Orta əsr Şərq musiqi havalarından birinin adı.

O, **“Mərvayi-nik”**dən desə bir qədər,
Xoş olardı bir il gələcək günlər (XŞ-168).

Məryəm (ag.) – Xristian dininin banisi İsa peyğəmbərin anasının əsl adı. Real varlığı isbat edilmirsə də, dinə görə yəhudilərin peyğəmbəri və padşahı əfsanəvi Davudun nəslindən olan İmran adlı birisinin qızı imiş. Dini etiqada görə, İsanı doğarkən də bakirə imiş. Guya Cəbrayılın nəfəsi ilə hamilə olub, İsanı doğmuşdur. Belə bir rəvayət də var ki, o, bakirə qız olduğu halda, Beytül-Müqəddəsdən qaçarkən yolda İsanı doğmalı olur. Məryəm burada bir xurma ağacına söykənir, ağacın dibindən bulaq çıxır. İsa doğulur. Guya mələklər bu bulağın suyu ilə onu yuyurlar. Sonra Məryəm yenə quru xurma ağacına söykənir, ağac tərpənəndə ağacdan təzə xurmalar tökülür və o, bunlardan yeyir. Yəhudilər İsanı bic(atasız) doğduğu üçün Məryəmi incitmiş və təqib etmişlər. Bu zaman yeni doğulmuş İsa, guya dilə gəlib, anasının günahsız və təmiz olduğunu təsdiq etmişdir (10-91).

Məryəm qənd ağacı olubsa, bilməm,
Mənim də xurmamı bəsləmiş **Məryəm** (XŞ-177).

Burada birinci Məryəm Xosrovun arvadı, ikincisi isə İsa peyğəmbərin anasıdır. İkinci misradakı xurma sözü isə qışda quru ağacdan düşən xurma ilə əlaqədardır.

Məryəm (an.) – “Xosrov və Şirin” poemasında obraz adı. Rum qeysərinin qızı, Xosrovun birinci arvadı. “Məryəm” qədim yəhudi dilində ismətli, namuslu, yunan dilində isə dəniz (morya) deməkdir.

İsəvi sevindi bundan o qədər,
Verdi ona qizı **Məryəmi** Qeysər (XŞ-146).

Məryəm (məc. ag.) – Şair özünü İsa peyğəmbərin anası Məryəmə bənzədir.

Qəlbim qadın deyil, çaxmaqdır, çaxmaq,
Məryəmtək boyludur, bakirdir ancaq.

Kişiyə getməyə nə ehtiyac var,
Onun öz daşından öz odu çıxar (İ-41).

Yəni təbimin kimsəyə ehtiyacı yoxdur. O, Məryəm kimi ərsiz də doğmağa qadirdir. Onun poladı da, çaxmağı da özündəndir. Yazdıqlarım, yaratdıqlarım öz qəlbimin orijinal məhsuludur, kimsənin onda haqqı yoxdur.

Məryəm ağacı (məc. fit.) – Xosrov Məryəm ağacına bənzədilir. "Məryəm ağacı" isə Məryəmin İsanı doğarkən söykəndiyi və xurmasını yediyi xurma ağacına işarədir.

Məryəmin vücudu köçdü aləmdən,
Məryəm ağacıtək şah çıxdı qəmdən (XŞ-215).

Birinci misradakı Məryəm Xosrovun arvadı, ikinci misradakı Məryəm isə İsanın anasıdır. Şair öz düşüncə və hisslərini də Məryəm ağacına, özünü isə İsa peyğəmbərə bənzədir.

Nizami, İsandır sənin nəfəsin,
Məryəm ağacındır düşüncən, hissin (YG-33).

"Məryəm bəzmi"(məc. an.) – "Bəzm" farsca kef məclisi deməkdir. Şair Məryəmin ölümündən sonra Xosrovun əhval-ruhiyyəsini Məryəmin ölümündən qabaqkı kef məclislərinə bənzədir.

Elə ki bəzmdən əl üzdü Məryəm,
"Məryəm bəzmi" kimi şah oldu xürrəm (XŞ-219).

Məryəm, Məryəm(adaş ad; ag. və an.) – Bunlara omonim antroponimlər də demək olar. Şair Xosrov Pərvizin arvadı Məryəmi İsa peyğəmbərin anası Məryəmlə müqayisə edir. Məryəmin oruc tutması, Məryəm ağacı İsanın anası Məryəmlə əlaqədardır.

Məryəmtək o Məryəm oruc tutaraq
Şahın şəkərindən düşdü çox iraq.
Necə **cəng-Məryəmdən** qurtarar zahı,
Məryəmdən qurtardı dünyalar şahı.
Məryəmin vücudu köçdü aləmdən,
Məryəm ağacıtək şah çıxdı qəmdən (XŞ-215).

Yəni arvadı Məryəm vəfat etdikdə Xosrov sevindi və azad nəfəs almağa başladı (XŞ-389).

Məryəm, İsa(qoşa məc. ag.) – "Xəmsə"də bu qoşa adlardan çox istifadə olunmuşdur.

Qorxuram **Məryəmin** səbri qurtara,
İsa kimi çəkə özünü dara (XŞ-171).

Burada Xosrovun arvadı Məryəmdən söhbət gedir və o, İsaya bənzədilir. Aşağıdakı beytdə də Məryəm Xosrovun arvadıdır. Xosrov isə İsaya bənzədilir.

Yaxşısı budur ki, **Məryəmi** unut,
İsaya dönsən də, qayıtmaz vücud (XŞ-217).

Şair "İqbalnamə" əsərini və oğlu Məhəmmədi də Məryəm və İsaya bənzədir.

Biri **Məryəm kimi** ismətli pəri,
İsanın nurilə parlar o biri (İ-610).

Yəqin ki, Məryəm kimi ismətli olan "İqbalnamə", İsanın nuru ilə parlayan isə oğlu Məhəmməddir.

Məsih (ag.) – Xristianların peyğəmbəri olan İsanın (bax) adlarından biri. Məsih və məsihi ərəb sözüdür. Xristianlar təzə doğulan uşaqların alnına ətirli yağlı maddə sürtdüklərindən ərəbcə xristianlara "məsihi" və ya "məsih" (Bunun da sürtülmüş, çəkilmiş, yağlanmış kimi mənaları vardır) deyilir. "Məsihi" sözünün xristian, xristianlıq kimi mənaları da vardır.

Təfsirçilər yazırlar ki, İsa çox səyahət etdiyi üçün "Məsih" (səyahət edən) ləqəbini aldı. Başqa təfsirçilər yazır ki, onun ayağının üzəngisi yox idi, ayağının altı hamar idi, ona görə də belə ləqəb almışdı.

Dünyaya dərs almamış natiq kimi gəlibdir,
Dərsi – **Məsihin** "mimi", Adəmdəki "əlif"dir (SX-28).

Ərəbcə ümmi – xalq arasından çıxmış savadsız deməkdir. Həmin söz iki hərflə - "əlif" (ə) və "mim" (m) birləşməsi ilə yazılır. Adəmin adı "əlif" və "mim" ilə bitir. Məsih, yəni İsa peyğəmbrin adı isə "mim" hərfi ilə başlayır. Burada şair adların alleqorik şərhini verərək isbat etmək istəyir ki, Məhəmməd peyğəmbər həm Adəm, həm də İsadan üstündür. Adəm və İsa isə islamda peyğəmbər kimi qəbul olunmuşdur.

Məsih (məc. ag.) – Məsih Məhəmməd peyğəmbərin karvanbaşısına bənzədilir.

Məsih – karvanının bir rəhbəridir (XŞ-30).

Məsih (xat. ag.) – İsa peyğəmbərin dara çəkilməsinə işarə olunur.

Dara getmək diri, əgər həvəsdir,
Bir **Məsih** yürüdü bu yolda, bəsdir (YG-306).

Məsud (an.) – Qəznəvilər dövlətinin banisi Sultan Mahmud Qəznəvinin oğludur. Xorasan, İraq və Xarəzm ölkələrində 4 il hökmranlıq etmişdir. 1037-ci ildə Xorasanda Sultan Toğrul ilə apardığı müharibədə məğlubiyyətə uğramışdı. "Məsud" ərəbcə xoşbəxt deməkdir.

O bütün xaslardan xas bir Ayazdır,
Məsuddan Mahmuda çatmış bir xasdır (XŞ-30).

Burada Məhəmməd peyğəmbər Məsuddan Mahmuda çatmış Ayaza bənzədilmişdir.

Məsud (məc. an.) – Məlik İzzəddinə(bax) işarədir. Şair "İqbalnamə" əsərini Məsud kimi xoşbəxt görmək istəyir.

Şahın adı kimi o, **Məsud** olsun (İ-614).

Məsud, Mahmud (qoşa məc. an.) – Şair özünü həm Məsuda, həm də onun atası məşhur səlcuq sultanı Mahmud Qəznəviyə bənzədir.

Şah yanına getdim **Məsud** baxtıyla,
Yanından qayıtdım **Mahmud** taxtıyla (XŞ-372).

Şair "şah" dedikdə Qızıl Arslanı nəzərdə tutur. Yəni mən onun yanına kiçik ümidlərlə getmişdim, lakin Mahmud kimi taxt sahibi oldum. "Məsud" və "Mahmud" eyni zamanda epiforik adlardır.

Məşriq (top.) – Ərəb sözüdür və Günəşin doğulduğu yer, Şərq və ya Şərq ölkələri deməkdir.

Məşriq səpib əzəldən kainata qızılı,
Məğrib etsin dünyaya neçin əta qızılı (SX-121).

Qədimdə belə bir təsəvvür var idi ki, qızıl yalnız Şərqdə hasil olur. Lakin şərqlilər səxavətli olduqları üçün onu qərblilərə verirlər. Xalis qərblilər isə qızılı yığıb saxladıqları üçün onu "Qərbli qızıl" adlandırıblar. Şərqlilərin səxavətli, qərblilərin xəsis və qızılpərəst olmağını sübut edən dəlillərdən biri də odur ki, səhər çağı Günəş öz qızıl şüalarını saçarkən qərbli olan Ay onları tezcə yığışdırır. Yığdığı həmin qızıl şüaların hesabına axşam nur saçır.

Məşriq (məc. top.) – Şair metaforik şəkildə saçları ağaran başını Məşriqə bənzətmişdir.

Məşriqdən ağardı daha dan yeri (İ-35).

Şair demək istəyir ki, saçlarım ağarmış, artıq qocalmışam.

Məşriq, Məğrib (təkrar ana. top.) – Şair bu cəhətləri toponim mənasında olan antonim adlar kimi yanaşı işlətmiş və bir neçə beytdə təkrar etmişdir. Hər beytdə bu toponimlərdən əlavə, digər antonim mənalı sözlərdən də geniş istifadə olunmuşdur.

Məşriq səpib əzəldən kainata qızılı,
Məğrib etsin dünyaya neçin əta qızılı?
Məşriq doğub səxavət günəşini dünyanın,
Məğrib boğub səxavət günəşini dünyanın.
Məşriq səhər borc verir çoxdur deyə altunu,
Məğrib axşam borc alır yoxdur deyə altunu (SX-121).

Şair bu adları yanaşı işlətməklə Məşriqdən Məğribə qədər olan bütün ölkələri nəzərdə tutur. Eyni zamanda yeri gəldikcə bu adların sinonimi olan Şərq və Qərb adlarından da paralel şəkildə istifadə etmişdir.

Şahın da sarayı günəş kimidir,
Məşriqdən Məğribə uzatmış kəndir...
Ehsanı **Şərq** ilə **Qərbə** kök salmış,
Hər ev süfrəsindən bir nemət almış (İ-50).

Burada söhbət Məlik Nüsrətəddindən, aşağıdakı beytdə isə Makedoniyalı İskəndərdən gedir.

Məşriqdən məğribə hücum çəkərək
Xalqları yuxudan oyadam gərək (İ-504).

Məşriqin tovuzu (məc. zo.) – Şair Günəşi Məşriqin tovuzuna bənzədir.

Məşriqin tovuzu o səhər erkən
Başını ucaltdı firuzə göydən (İ-309).

Mikail (mif.) – Dini rəvayətə görə, Allahın dörd yaxın mələyindən biridir. O, Allahın bəndələrinə ruzi paylayır. Buna görə də ona Ruzi mələyi də deyilir.

Arxada qoyaraq Cəbraili də
At sürüb keçmişdi **Mikaili** də (XŞ-358).

Yəni Merac zamanı Məhəmməd peyğəmbər səmanın yüksəkliyinə o qədər qalxmışdı ki, Cəbrail və Mikaili də keçmişdi. Bu mifonimlər eyni zamanda epiforik adlardır.

Minu (məc. mif.) – Cənnət (Behişt) deməkdir. Şair Qara geyənlərin şahının səmada gördüyü əfsanəvi bağı Cənnətə bənzədir.

Mina göylər dəxi **"Minu"** qoymuş ad (YG-145).

Misir (məc. top.) – Hazırda Afrikanın şimalında yerləşən Misir Ərəb Respublikası. Afrika qitəsinin hələ eramızdan neçə min il əvvəl antik mədəniyyətə malik olan və 26 sülalədən ibarət qədim fironların məskəni olmuş böyük bir ölkədir. Antik mədəniyyətin beşiyi olmuş Misir ehramlar ölkəsi kimi məşhurdur. Paytaxtı Qahirə şəhəridir. Ərəb dilində mənası "şəhər" deməkdir. Bəzi xalqlar Misirə "Yeqipet" deyirlər. Bu, finikiyalılardan yunanlara keçmiş "xi-ku-pta" və ya "qa-ka-pta" (Allah Ptanın məbədi) fonetik cəhətdən dəyişdirilmiş formasıdır.

Şair Xosrovun vətənini Misirə bənzədir.

Xosrovun ürəyi olduqca şaddı,
Ölkəsi **Misirtək** şəndi, abaddı (XŞ-241).

Misir metaforik şəkildə Günəşə bənzədilir.

Züleyxanın eşqindən **Misirtək** yandı aləm (SX-57).

"Misir" dedikdə misirlilər(etnonim) nəzərdə tutulur.

Kömək istəyirlər Rum sultanından,
Deyirlər: – **Misrə** çox dar oldu cahan (İ-75).

"Ruslar" etnonimi Misirə bənzədilir.

Ruslar **Misir** olsa da, tökərəm Nilə,
Şüuru azdıqca əzdirrəm filə (İ-314).

Misir, Həbəşistan (qoşa xat. top.) – Şair İskəndərin ölkələri ələ keçirməsindən və onun ədalətindən söz açanda bu ölkələri xatırlayır.

Əlinə keçirdi bütün dünyanı,
Ətri tutdu **Misri, Həbəşistanı** (İ-71).

Misir, Nil (qoşa məc. top.) – Ulduzlu göy Misir bazarına, göy Misrinin bazarı isə Nil çayına bənzədilir.

Ulduzlar içində o parladı tək,
Göy **Misri Nil kimi** coşmuşdu, gerçək (LM-143).

Yəni: Ay ulduzların içində parlayarkən göy Misrinin Nil çayı kimi coşdu. Yəni misirlilər Yusifin camalından vəcdə gəlib onu almağa cəhd etdiyi kimi, ulduzlar da Ayı araya almaq üçün Nil çayı kimi coşub həyəcana gəldi.

Misir qızılı (növ adı) – Misirdə qızıldan kəsilmiş pul nəzərdə tutulur.

Nə görsə yaxşıdır, köhnə pullardı,
Kisədə min **Misir qızılı** vardı (YG-186).

Misir nazəninləri (məc. an.) – Şair göydə olan mələkləri Misir nazəninlərinə bənzədir.

Göylərin o **misri nazəninləri**
Yusifin aşiqi o dilbər pəri... (YG-25).

Misri paltar (növ adı) – Misir ölkəsində və ya Misirdə mövcud olan modda tikilmiş paltar.

Misri paltarlarını bu yanda gördü (YG-186).

Misrin tanrısı (teon.) – Yusifin Misirdə uğurlar qazanmasına işarə olunur. Əgər Yusif quyuya salınmasaydı, o, bu müvəffəqiyyətə daha tez nail olardı. Çünki Misrin tanrısı onun tərəfində idi.

Quyuya düşməmişdən nicat vardı Yusifə,
Çünki **Misrin tanrısı** havadardı Yusifə (SX-102).

Misrin Yusifi (məc. an.) – Mahan öz gözəlliyi ilə Misrin Yusifinə bənzədilir.

Misrin Yusifinə bənzər camalı (YG-289).

Mizan (məc. kos.) – Ərəbcə Tərəzi (bürcü), ölçü deməkdir. Qədim nücum elmində sentyabr ayının 22-də payızın əvvəlində Günəşin daxil olduğu yeddinci bürcün adıdır. Azərbaycan dilində Tərəzi bürcü adlanır.

Çəkməyə daşı yoxdu, necə çəkəydi **Mizan?!**
Siqlətinə mat qalıb ona baş əydi **Mizan** (SX-30).

Məhəmmədin "daşı", yəni vəzni, qədr və əzəməti o qədər ağır və böyük imiş ki, Tərəzinin onu çəkməyə qabiliyyəti olmamış və başını onun qabağında yerə əyib səcdə etmişdir. Burada "Mizan" adının təkrar olunması , onun onomastik və apelyativ mənalarının qarşılaşdırılması ilə əlaqədardır.

Mosul hökmdarı, Qədərxan (qoşa məc. an.) – Şair Məlik Nüsrətəddini zəkada Mosul hökmdarına, mərdlikdə isə şahların Qədərxanına bənzədir. Demək, Nüsrətəddin mərdlikdə təkcə mərdliyi ilə dünyada məşhur olan Qədərxana yox, "şahların Qədərxanı"na bənzədilmişdir.

Zəkada o, **Mosul hökmdarıdır,**
Mərdlikdə şahların **Qədərxanıdır** (İ-425).

"Mosul hökmdarı" antroponimik birləşməsi həmin şəxsin əsl adı yox, ləqəbidir.

Mosul Dəclə çayının sahilində Bağdadın şimal-qərbində vilayət mərkəzidir. Zaman-zaman Şam, Misir, Xorasan, Bağdad və Bəsrə karvanlarının keçdiyi bu şəhərin əhalisi müsəlmanlardan, xristianlardan və yəhudilərdən ibarətdir. Burada ümumi danışıq dili ərəb dili olsa da, kürd və türk dillərində də danışılır. Bu şəhər vaxtilə İraq səlcuqlarının paytaxtı olmuş, Cəmaləddin Məlik şah Səlcuqinin hakimiyyəti zamanında islam mədəniyyətinin ən görkəmli mərkəzinə çevrilmişdi. Səlcuqlardan sonra buranı İraq atabəyləri paytaxt seçmiş, onlar tərəfindən xeyli abadlaşdırılmışdı. Sonralar isə Hülaki xanın və Teymurləngin qarətçi orduları tərəfindən dağıdılaraq əvvəlki növrağını itirmişdi.

Möbid (an.) – "Müdrik möbidin hekayəti"ndə obraz adı.

Atəşpərəst bir **möbid** Hindistanı dolaşdı,
Bahar çağı ətirli gülüstanı dolaşdı.
Qoca **mobid** tərk etdi cənnət təki bu bağı (SX-114).

Mörvənguş (top.) – Bahar çağı Xosrovla Şirinin Bərdə ətrafında gəzməyə çıxdıqları düzənin adı.

Yer paltar geymişdi novruzgülündən,
Çiçəklərə olmuş **Mərvənguş** məskən (XŞ-123).

Muğan (top.) – Qədim Azərbaycanın abad şəhərlərindən olmuşdur. Hazırda Muğan düzü həmin şəhərin adını daşıyır. Azərbaycanın Muğan düzənliyini və Talış dağlarını əhatə edən, eramızdan əvvəl tunc və dəmir dövrünə aid qədim mədəniyyət nümunələri aşkara çıxarılmış bu yerin əhalisi vaxtilə qəbilə icmaları halında yaşamış, maldarlıq, əkinçilik, ovçuluq və balıqçılıqla məşğul olmuşdur.

“Muğan” muğ(atəşpərəst) və məkan anlayışı bildirən “an” ünsüründən düzəlmişdir. Atəşpərəstlik dövründə Atəşkədələrdə mərasimlərin icrası zamanı dini nəğmələri oxuyanlara da “muğ” deyilir. Onların oxuduqları nəğmə isə “Muğlar nəğməsi” adlanır (Nədir işlətdiyin “Muğlar nəğməsi”?; XŞ-51).

Gül fəsli yamyaşıl **Muğan** yatağı,
Yay zamanı yeri Ərmən torpağı (XŞ-63).

Mirzə Bala “Azərbaycan tarixində türk Albaniya” adlı əsərində yazır: “Əvvəllər Albaniyanı (Ağbaniyanı) “Muğan” adlandırırdılar ki, Muğ – Muğan atəşpərəst mənasını ifadə edirdi. Və Muğan əski Paytakaranı tamamilə içinə alırdı” (“Azərbaycan”, № 10, 1989. səh. 120).

Muğan, Bazərxan (ep. top.) - Bu toponimlərin son səsləri fonetik cəhətcə eyni səslənir.

Ordan birbaş gedib çıxdı **Muğana**,
Muğandan da keçdi düz **Bazərxana** (XŞ-99).

Muğan qocası (an.) – Muğan ölkəsindən olan qoca deməkdir. Bu cür adlar ölkələr miqyasında işlənəndə xüsusi ad funksiyasında olur. Lakin bu xüsusiliyin içərisində ümumilik də vardır. Çünki Muğanda yüzlərlə, minlərlə qocalar vardır. Muğan ölkəsinin daxilində isə onlara heç vaxt “Muğan qocası” deyilmir, sadəcə olaraq “qoca” adlanırlar. Bu fikir “Muğan cavanı”na da aiddir.

Muğan qocasından qalan piyalə
Muğan cavanına gərək verilə(YG-89).

Bu antroponimlər eyni zamanda antonim səciyyə daşıyır.

Muğan şərabı (növ adı) – Muğanda hazırlanan xüsusi şərab növü. Şərq ədəbiyyatında Muğan şərabı tez-tez xatırlanır.

Muğan şərabının küpündən dehqan
İçib sərxoş olar, düşər ayaqdan (LM-261).

Musa (ag.) – Yəhudilərin peyğəmbəri, İmranın oğludur. Dinə görə, uzun illər Misir hökmdarı Firon ilə xalqının azadlığı uğrunda mübarizələrdən sonra peyğəmbərliyə yetişmişdir. Musanın kitabı olan “Tövrat” yəhudilərin müqəddəs kitabı sayılır. Musa Kəlimullah (Kəlimullah – Musa peyğəmbərin ləqəbidir və “Allah ilə danışan” deməkdir) zamanı hökmranlıq sürən Firon o

qədər məğrur olmuşdu ki, özünü Allah elan etmiş, Musa isə öz möcüzələri ilə onu heyran qoyub, xalqın gözündə ifşa etmişdi. Musanın bədii ədəbiyyatda ifadə olunan möcüzələri əsasən bunlardan ibarətdir: 1. Əlini qoltuğuna salıb çıxardıqda işıq verərmiş; 2. Əsasını yerə atdıqda ilan(əjdaha) olarmış; 3. Tur dağında Allah ilə danışarkən dağı bir nur(işıq) bürüyərmiş. Guya Allah ona işıq şəklində görünərmiş.

Camı boşdu həqiqət sorağında **Musanın,**
Sındı ümid şüşəsi Tur dağında **Musanın** (SX-163).

Musa qəbul camını götürmək istədi, lakin buna müyəssər olmayıb ümıd şüşəsini Tur dağında daşa çırpıb Allaha yalvardı: "Özünü mənə göstər", lakin Allahdan cavab gəldi: "Lən tərani" – yəni "Sən məni heç bir vaxt görə bilməzsən".

Şair burada Məhəmməd peyğəmbəri Musa ilə müqayisə etmişdir.

Musa, İsa (ep. ag.) – Şair bu peyğəmbərləri Məhəmməd peyğəmbərin xidmətçisinə bənzədir.

Yanında qasiddi Xızr ilə **Musa**,
Atının önündə gedirdi **İsa** (İ-26).

Xristianlıq dininin müqəddəs kitabı olan "Bibliya" iki – Musanın "Tövrat", İsanın "İncil" kitablarından ibarətdir.

Musa, Qarun (qoşa xat. on.) – "Leyli və Məcnun" poemasında şair "Hikmət və moizə haqqında" fikir yürüdərkən Musa peyğəmbərə Allah tərəfindən ilk müqəddəs kitab olan "Tövrat"ın nazil olması və Qarunun isə öz xəzinəsi ilə torpağa batmasını və onların arasında olan ziddiyyətləri xatırlayır.

Musa gövhər tapdı xəzinələrdə,
Qarun da boğuldu ləli-gövhərdə.
Arada ixtilaflar, dava oldusa,
Yenə **Qarun** öldü, qazandı **Musa** (LM-42).

Musa, Məhəmməd (müq. ag.) – Musa və Məhəmməd peyğəmbərlər müqayisə olunur.

Tur dağı **Musaya** oldusa eyvan,
Məhəmmədin qəsri yarandı nurdan (İ-414).

Musa peyğəmbər Allahdan vəhy almaq üçün "Turi-Sina" dağına çıxmışsa, Məhəmməd peyğəmbər nurdan yaranmış qəsrdə Allahla söhbət edirdi.

Musa, Musa (təkrar ag.) – Şair Məhəmməd peyğəmbəri Musa peyğəmbərlə müqayisə edərkən onun adını iki dəfə çəkir.

Camı boşdu həqiqət sorağında **Musanın**,
Sındı ümıd şüşəsi Tur dağında **Musanın** (SX-39).

Burada Musa peyğəmbərlə əlaqədar iki hadisəyə işarə olunur. Musa peyğəmbərin camının Məhəmməd peyğəmbərə nisbətən boş olması və onun Tur dağında Allahla danışa bilməməsi göstərilir.

Musanın danası (məc. zo.) – "Tövrat"dakı "Qızıl dana". Musa peyğəmbər öz icmasını – yəhudiləri Misirdən xilas edib Fələstinə gətirdikdən sonra onun ümmətinin bir hissəsi tövhidi(monetizmi, tək ilahiliyi) unudub, qızıldan bir dana düzəldib ona bir büt kimi sitayiş edirmişlər. Musa o bütü məhv edir. Şair "Musanın danası" dedikdə qızıldan hazırlanmış o sarı dananı nəzərdə tutmuşdur.

Sarıydı **Musanın danası**, əlbət,
Çox verdilər ona odur ki, qiymət (YG-176).

Musanın əli (məc. on.) – Burada şair Musa peyğəmbərin qoltuğunun altına salıb-çıxararkən işıq saçan əlini süsən ilə müqayisə etmişdir.

İsadilli, birgünlük süsən necə nəşəli,
Musanın əli kimi olub sübhün məşəli (SX-59).

Beytin mənası: İsa kimi birinci gün dil açmış süsən səhərsəhər Musanın əli kimi ağarır və parlayır. Aşağıdakı beytdə isə Günəşin doğması Musanın əlinə bənzədilmişdir.

Sular şölə saçırdı **Musanın əlləritək** (SX-60).

Yəni: Sularda əks olan Günəş şüası Musanın əli kimi parlayırdı. Burada Günəş haqqında qədim təsəvvürə də işarə vardır. Bu təsəvvürə görə, Günəş sudan çıxır və suya da batır.

Musil (top.) – İskəndər və Dara qoşunlarının üz-üzə gəldiyi ölkənin adı (Bax: Cəzirə).

Cəzirə ki, **Musil** adlı ölkədir,
Səfalı bir yerdir, xoş düşərgədir (İ-140).

Mustafa(xat. ag.) – Ərəbcə "müstəfa" sözündən olub, "seçilmiş, bəyənilmiş" deməkdir və Məhəmməd peyğəmbərin adlarından biridir.

Xosrov **Mustafanı** yuxuda gördü(XŞ-349).
Nizami bu uca dərgahda ancaq
Ulu **Mustafanı** şəfi tutacaq (İ-22).

Mübəşşir (an.) – Ərəb sözüdür, "muştuluqçu, muştuluq gətirən; şadxəbər" deməkdir. Bu, Şərin yalançı adıdır. O, Xeyir tanımasın deyə, özünü yalandan müsbət mənalı "Mübəşşir" adı ilə təqdim edir.

Xeyir ona dedi: "Adını söylə!
Başın salacaqdır səni əngələ".
Səyyah: **"Mübəşşirdir** – dedi, - şöhrətim,
Görünür hər işdə gücüm, qüdrətim" (YG-251).

Mühit (top.) – Ərəb sözüdür və mənalarından biri də "okean" deməkdir.

Axırdı **Mühitə** dəniz bu yerdən (İ-557).

Mühit dənizi (top.) – Atlantik okeanının qədim adı(13-81).

Mühit dənizində pakdırsa sular,
İtin seliyindən nə qorxusu var (LM-61).
Baxsaq **Mühit** adlı böyük dənizə,
Suları müəlləq görünər bizə (İ-530).

Müqbil, İqbal(qoşa məc. an.) – İqbal "İqbalnamə" əsərinə, Müqbil isə Nizaminin oğlu Məhəmmədə işarədir. Eyni zamanda İqbal "bəxt", Müqbil isə "xoşbəxt" deməkdir. Lakin "Müqbil" sözü həm də qul mənasında işlənir. Beləliklə, burada "İqbalnamə"nin Məhəmməd vasitəsilə şaha göndərilməsi ifadə olunur.

Müqbil, İqbal adlı iki hindli qul
Göndərdim hüzura, olaydı məqbul (İ-610).

Müqənnə (məc. an.) – Dəmirdən "Nəxşəb" (bax) adlı ay düzəldən alimin adı.

Səhərlər çeşmədə necə gedərdi,
Ayı **Müqənnə**tək necə göstərdi (XŞ-104).

Söhbət Şapurun Xosrovun şəklini çəkib Şirinə göstərməsindən gedir.

Mülki-Süleyman (məc. top.) – Süleyman(bax: Süleyman - ag.) mülkü – Süleyman sarayı deməkdir. Süleyman şaha(bax) işarədir. Süleyman şah isə Kiçik Asiya sultanı Qılıc Arslanın oğlu Süleyman şah əvvəlcə Qara dənizin Kiçik Asiya sahillərindəki torpaqların hökmdarı idi, atasının qardaşı Məlik şahın 1196-cı ildə ölümündən sonra isə bütün sultanlığın hökmdarı olmuş və 1204-cü ilədək səltənətə başçılıq etmişdir. Süleyman şah poeziya vurğunu idi, özü də fars dilində şeirlər yazırdı (Onun bir neçə şeiri bizə gəlib çatmışdır), şairlərə, yazıçılara, alimlərə himayədarlıq eləyirdi.

N.Gəncəvinin "Sirlər xəzinəsi" əsərini ithaf etdiyi Bəhram şah və bu vilayətlərin hakimləri Süleyman şaha tabe idilər və onunla birlikdə Ermənistana yürüş eləyib, 1200-cü ildə bu ölkəni zəbt etmişdilər...1202-ci ildə isə Gürcüstan üzərinə getmiş, lakin əsir düşmüşdü. Böyük məbləğdə pul verəndən sonra xilas olmuşdu. Çox keçmir ki, Süleyman şah bütün Kiçik Asiyanın hökmdarı olmuşdur. Tədqiqatçılar güman edirlər ki, N.Gəncəvi "Yeddi gözəl" poemasını Süleyman şahın sifarişi ilə yazmışdır.

Döndüm qanadları gərilmiş quşa,
Mülki-Süleymana uçum bir başa (YG-29).

Mülyan körpüsü (məc. top.) – Xosrov Mülyan körpüsü dedikdə Şirinlə öz arasında olan məhəbbət körpüsünü nəzərdə tutur.

Fərxari Fəxfura bağladım, yetər!
Mülyan körpüsünü qırdın, nə səmər? (XŞ-268).

Münzir (an.) – Bax: Mənzər.

Münzir hey çalışdı, hey etdi xitab,
Bəxtinin hatifi vermədi cavab (YG-64).

Münzir, Neman (qoşa məc. an.) – Yəmən hakimi Münzir Bəhramın atasına, onun oğlu Neman isə Bəhramın həm qardaşına, həm də quluna bənzədilir.

Yəməndə **Nemanı**, bir də **Münziri**
Ata-qardaş etdi ona hünəri...
Atalıq-qardaşlıq qalsın bir yana,
Biri rəhbər idi, biri qul ona (YG-66).

Mürid (an.) – Ərəb sözüdür, şagird, tərəfdar, ardıcıl; bir təriqətdə şeyx və ya mürşidin ardınca gedən tərəfdar deməkdir. "Mürşidlə müridin hekayəti"ndə obraz adı.

Mürid dedi: "Heç səni ataramm, haşa, mən?
Ayağının tozunu tac sanmışam başa mən (SX-138).

Mürşid (an.) – "Mürşidlə müridin hekayəti"ndə obraz adı. Ərəb sözüdür, rəhbər, nəsihətçi; bələdçi; müridlərə rəhbərlik edən təriqət başçısı deməkdir.

Mürşid dedi: "Müridlər atdılar məni birdən,
Bəs sən niyə getmədin, baş açmadım bu sirdən?" (SX-138).

"Müşguyə" (id.) – Orta əsr Şərq musiqi havalarından birinin adı.

"Müşguyə" nəğməsi müşk tökərdi,
Müşkün xoş qoxusu qəsrə çökərdi (XŞ-168).

"Müşk danə" (id.) – Orta əsr Şərq musiqi havalarından birinin adı.

"Müşk danə"sini səsləndirərkən
Ev müşkün ətrindən olurdu xütən (XŞ-168).

Xütən Şimal-qərbi Çində (Türküstanda) şəhər olsa da, Şərq ədəbiyyatında qadınlarının gözəlliyi və əla ipəyi, qiymətli müşkü olan şəhər kimi tez-tez xatırlansa da, mətndə kiçik hərflə yazılmışdır.

Müştəri (kos.) – Bax: Bürcis.

Müştəri ulduza kibri buraxdı,
Üzüyə ən parlaq yeni qaş taxdı (İ-26).

Söhbət Məhəmməd peyğəmbərin meraca getməsindən gedir. İslam rəvayətinə görə, o, merac gecəsi Müştəri planetinə səndəl rəngini çəkmişdir. Keçmişdə isə səndəl başağrısı dərmanı kimi işlənirdi. Həm də səndəl rəngi Müştəri planetinin rəmzi hesab olunurdu.

Müştəri xəstədir gördü, əlbəəl
Çəkdi bədəninə naxoşun səndəl (YG-27).

Müştəri (məc. kos.) – Nizami şairləri Müştəriyə bənzətmişdir.

Memardır sözləriylə heykəl yonan sənətkar,
Şair – adı dillərə uçub qonan sənətkar.

Məncə, Zöhrə özüdür, Harut sehri açandır,
Sehrkar **Müştəridir**, sözü gövhər saçandır (SX-50).

Körpə Arslan şahın atı Müştəri ulduzuna bənzədilmişdir.

Müştəritək atı ucalar, qazar
Keyvana dırnaqla bir dərin məzar (YG-35).

Nizami Pəncşənbə gününün xoşbəxtliyini Müştərininkinə bənzədir.

Pəncşənbə - günlərdə yaxşı bir gündür,
Xoşbəxt **Müştəritək** bəxti üstündür (YG-234).

Müştəri, Ay (qoşa məc. kos.) – Şair İskəndərin Zəngibar şaha qalib gəlməsini təsvir edərkən Müştəri və Ayı metaforik şəkildə insana bənzətmişdir.

Bərbərdən, nobidən gözəl əsirlər
Önündə **Müştəri** və **Ay** diz çökər (İ-96).

Müştəri, Ütarid (qoşa məc. kos.) – Nizami özünü Ütarid – katibə, Xoylu İmadı (bax) isə xoşbəxtlik gətirən Müştəri ulduzuna bənzədir. Münəccimlərin fikrincə, Müştəri xoş tale göstərən ulduzların ən böyüyüdür. Ütarid isə göylərin katibi hesab olunur.

Onda **Müştərini** görərək hər an,
Vurar üzüyünə **Ytarid** nişan (İ-417).

Beytin mənası: Müştəri Ütaridə xoşbəxtlik nəzərini salan kimi Ytarid bu səadəti möhürləmək üçün katiblik üzüyünü barmağına keçirir. Keçmişdə şahların katibi onların möhürünü saxlardı ki, yazıları möhürləsin.

Müştəri, Zöhrə (qoşa məc. kos.) – Şair eyni vaxtda Xosrovu Müştəriyə, Şirini isə Zöhrəyə bənzətmişdir.

Xoşbəxtlik iqbalın əlini açdı,
Müştəri Zöhrəyə gəlib yanaşdı (XŞ-130).

Nizami Xosrovun Şirinə yanaşmasını Müştəri(Yupiter) səyyarəsinin Zöhrəyə(Veneraya) yanaşması ilə müqayisə edir. Nücum elmində Müştəri(Bürcis) oğlan, Zöhrə isə qız kimi təsvir edilir (XŞ-384).

Müştəri, Zühəl (qoşa kos.) – Müştəri və Zühəl təslisdə - üçbucaqda olanda səyyarə və ulduzların şahı olan Günəş Hut bürcündən (22 fevral – 22 mart) Həməl bürcünə (22 mart – 22

aprel) yollandı, yəni bahar fəsli gəldi, ot və bitkilər dirilik suyu içmiş həmişə cavan, yaşıl paltarda gəzən ölməz Xızır kimi yaşıllaşıb cavanlaşdılar.

Müştəriylə Zühəl qovuşan zaman
Günəş daxil oldu Həmələ Hutdan (YG-272).

- N -

Nahid (kos.) – Ərəbcə Zöhrə (bax) ulduzu, Venera; məcazi mənası həddi-büluğa çatmış qız deməkdir.

Cismani şəhvəti **Nahidə** verdi (İ-26).

Burada söhbət Məhəmməd peyğəmbərdən gedir və eyni zamanda Nahid metaforik şəkildə insana bənzədilmişdir.

Nahid, Günəş (qoşa məc. kos.) – Şair tabutda uyuyan Şirinin üstünə çəkilən parçanı Nahidə, əynindəki qırmızı ipəyi Günəşə bənzətmişdir.

Bir örtüyü vardı sarı **nahidtək**,
Əynində **Günəştək** qırmızı ipək (XŞ-342).

Təəssüf ki, "Nahid" kiçik hərflə yazılmlşdır.

Naib (an.) – Orta əsr titullarından biridir. Burada Bəhram Gurun naibindən söhbət gedir. "Naib" ərəbcə canişin, canişin isə farsca hökmdarı əvəz edən deməkdir. Onlar əyalətlərə gedib şahın adından göstərişlər verir və ya görülən işləri yoxlayır. Azərbaycan dilində (əsasən folklorda) naib yerinə, ən çox "vəkil" sözündən istifadə edilmişdir.

Naibi məst etdi qürur, mükəmməl,
Vəzirlə o dəxi atdı zülmə əl (YG-277).

"Naqusi" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"Naqusi" və "Övrəng" çalınan zaman
Zəng səsi qalxırdı övrəng taxtından (XŞ-167).

Nasik (mif.) – Ümumi mənasında abid, vahid Allaha ibadət edən, xüsusi mənada isə mifik tayfanın adıdır ki, guya Qərbdə heç bir dinə bağlanmayaraq və heç bir ibadətgaha malik olmayaraq çöllərdə yaşamışlar.

Qərbdə bir tayfa var özü köçəri,
Nasikdir adları, yoxdur dinləri (İ-505).

"Nasik" adının ümumi(apelyativ) mənası ilə xüsusi (onumik) mənaları arasında da antonimlik vardır.

Nasik, Mənsək (ant. mif.) – Nasik və Mənsək mifoetnonimləri öz inam və xasiyyətlərinə görə bir-birinin əksini təşkil edir.

Qərbdə bir tayfa var, özü köçəri,
Nasikdir adları, yoxdur dinləri.
Şərqdə bir tayfa var, xislətdə mələk
Onlara layiqdir **Mənsək** ad vermək (İ-505).

Burada bu mifik tayfaların yaşadıqları yer adları da (Qərb və Şərq) antonim mənalı toponimlərdir.

Nasik, Mənsək (qoşa məc. mif.) – Şair Nasik və Mənsək adlarını Qərb və Şərq mənalarında işlətmişdir.

Nasikdən Mənsəkə çək qoşunları (İ-505).

Nazpəri (an.) – "Yeddi gözəl" poemasında Xəvərnəq sarayında şəkli çəkilən yeddi gözəldən birinin əsl adı. O, Xarəzm padşahının qızıdır. Bu ad naz və pəri sözlərindən yaranmışdır.

Bir kəklik yürüşlü, şux, solmaz pəri,
Xarəzm şahzadəsi gözəl **Nazpəri**... (YG-74).

Neman (an.) – Yəmən hakimi, Yəzdigirdin (bax), sonra isə Bəhram Gurun vassalı. Münzirin atası. "Yeddi gözəl" poemasında obraz adı.

Şah xəbər yolladı dərhal **Nemana**,
Laləni tapşırdı bağa, bostana (YG-57).

Burada eyni zamanda Bəhram laləyə, Neman isə bağa, bostana bənzədilib.

Neman (an.) – Yəmən hakimi Nemanın nəvəsi, Münzirin oğlunun əsl adı. Demək, baba və nəvə adları adaş adlardır.

Onun **Neman** adlı bir oğlu vardı,
Şahzadə Bəhramla yaşıd olardı.
Bəhrama, Münzirin oğlu **Nemana**
Bir dayə süd verib, olmuşdu ana (YG-64).

Neman ibn Münzir Orta əsrlərdə Ərəb İraqının mərkəzi şəhəri Hiyrənin 18 hökmdarından bırı olmuşdur. Hiyrə uzun

zaman Sasanilərin təsiri altında olmuş, onun məlikləri də Sasani hökmdarları tərəfindən təyin edilmişdir. Neman 22 il Hiyrədə Xosrov Pərvizin vassalı vəziyyətində hakimiyyət sürdükdən sonra Mədainin Qəsri-Kəsra sarayında yaşayan ərəb rəislərindən Zeyd ibn Ədinin fitnəsilə öldürülmüşdür.

Nə, nələr (məc. ap.) – Şair "Şərəfnamə" və "İqbalnamə" əsərlərini metaforik şəkildə əkilən və biçilən taxıla bənzətmişdir.

Gör əvvəl **nə** əkdim, gör bitdi **nələr**,
Sınığı bu sayaq bitişdirərlər (İ-418).

Nizami "İqbalnamə"ni yazmaqla və onu "Şərəfnamə" ilə bitişdirməklə, "İskəndərnamə" kimi bütöv bir əsərin meydana çıxdığını göstərir. Bu beytdə "sınıq" sözü "Şərəfnamə"nin mövzuca yarımçılığına işarədir ki, "İqbalnamə" bunu tamamlayır.

Nəayim (kos.) – Ay mənzillərindən biridir. Onun dairəsində səkkiz ulduz vardır ki, hər birinin bir quş şəklində təsvir etmişlər.

Nəayim xərcini öyrənsin deyə
Bəldə çalışırdı iki-üç əllə (LM-185).

Nəcaşi (məc. an.) – Həbəş padşahı. Şair Məhəmməd peyğəmbəri metaforik şəkildə Nəcaşiyə bənzədir.

Nəcaşi nəqşinə bir gün son verdi,
Sonra da Xosrova məktub göndərdi (XŞ-353).

Nəcd dağı (top.) – Ərəbistan yarımadasının mərkəzində Hicaz və Yəmən dağları ilə əhatə olunan Nəcd vilayətinin cənubunda kiçik bir dağdır.

Gedib Leyligilin qəbiləsinə
Yurd olan **Nəcd adlı dağ** sinəsinə (LM-84).

Nəcd küləyi (on. birləşmə) – Nəcd dağından Leyligilin yaşadığı tərəfə əsən küləyin adı.

Arabir əsdikcə **Nəcdin küləyi,**
Bir vəfa duyurdu qızın ürəyi (LM-111).

Nəffat (məc. ktem.) – Neft püskürən; Keçmiş müharibələrdə yanğın törətmək üçün işlədilən alət. Şair Fərhada yalandan Şirinin ölüm xəbərini çatdıran şəxsin ağzını Nəffata bənzədir.

Üzü qəssab kimi"qan-qan" deyirdi,
Ağzı **Nəffat** kimi "yan-yan" deyirdi (XŞ-207).

“Nəxçirigan” (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

Sazı başlayarkən **“Nəxçirigan”**a
Salar zöhrələri tora, zindana (XŞ-168).

Nəxşəb Ayı (məc. kos.) – Əfsanəyə görə, Müqənnə adlı bir sehrkar Nəxşəb şəhərində guya bir Ay düzəldir. Gecələr bu Ay guya quyudan çıxıb ətrafı işıqlandırarmış. Şair bulaqda çimən Şirini civədən tökülmüş Nəxşəb Ayına bənzədir.

Ay deyil, cilvəli bir ayna-gümüş,
Civədən bir **Nəxşəb ayı** tökülmüş (XŞ-90).

Nəmrud (xat. an.) – Dini rəvayətlərə görə, Nəmrud allahlıq iddiası edərkən bir çibin onun burnundan beyninə getmiş, onu öldürmüşdü. Mifologiyaya görə, Nəmrud Babili tikdirmiş və orada hökmranlıq etmişdir. Özü bütpərəst olmuşdur . İbrahim bütpərəstliyin əleyhinə getdiyindən və Nəmrudu da buna dəvət etdiyindən, Nəmrud onu yandırmaq üçün oda atmış, lakin od İbrahimi yandırmamışdır. Bununla belə, Nəmrud imana gəlmə-diyindən guya vücuduna milçəklər daraşaraq onu tələf etmişdir. Misir hökmdarlarına Firon deyildiyi kimi, Nəmrud adının da, ümumiyyətlə, Babil hökmdarlarına və ya bir sülalədə olan bütün hökmdarlara verilən bir titul olduğu da zənn edilir.

Yollardan tüstünü qaldırsan əgər
Bir çibin **Nəmrudun** beynini yeyər (İ-17).

Burada imana gəlmədiyi üçün Nəmrudun çibin vasitəsilə ölməsi xatırlanır.

Məhəmməd peyğəmbər Xosrova yazdığı məktubda (“Xosrov və Şirin”) onu islamı qəbul etməyə çağırır. Yoxsa onun da aqi-bəti Nəmrud kimi olacağını xəbər verir.

Atəşpərəst olma, orda tüstü var,
Oda arxalanan **Nəmrud** sayılar (XŞ-354).

Nəmrud (məc. an.) – Şair Qızıl Arslanla(bax) Nəmrudu müqayisə edir. Guya Qızıl Arslanın qarşısına çıxan bir milçək Nəmrudun başına layiqdir. Burada eyni zamanda Nəmrudun burnundan beyninə gedən çibin vasitəsilə ölməsinə işarə olunur.

Yolunun üstündə uçan bir milçək
Nəmrudun başına layiqdir, gerçək (XŞ-43).

Nərsi (an.) – "Yeddi gözəl" poemasında Bəhram Gurun Rast-Rövşəndən əvvəlki vəzirinin əsl adı. Lakin o, tarixi şəxsiyyət olan Bəhram şahın qardaşı Nərsi də deyildir. Bəhram hakimiyyəti ələ alandan sonra qardaşı Nərsini Xorasana hakim təyin etmişdi (M.Kazimov. Obraz Baxrama v poeme "Sem krasavits" Nizami. Azərbaycan SSR EA xəbərləri. Ədəbiyyat. Dil. İncəsənət. №2. 1980, səh.55). Şair özü də bu fikri təsdiq edir.

Nərsi adlı qoca hamıya başdı,
Şahın qardaşıyla o bir adaşdı (YG-113).

Şair Nərsinin əsli-nəcabəti haqqında da məlumat verir.

Daranın nəslinə nisbəti vardı,
Əsli, nəcabəti çox aşikardı.
Şah daim onunla olur gəzirdi,
O, şaha yoldaşdı, həm də vəzirdi (YG-113).

M.Kazımov mənbələrə əsaslanaraq Bəhramın birinci vəziri Mehr-Nərsinin də məşhur nəslə mənsub olmasını qeyd edir (Yenə orada, səh.54).

"Nərsi" adı, ola bilsin ki, fars dilində "erkək" və "erkək dəvə" mənasında işlənən "nər" sözünün məcazi mənası "igid, cəsur və qəhrəman" sözləri ilə əlaqədardır.

Nərsi (müq. an.) – Şair Rastü-Rövşənlə ondan əvvəl vəzir olan Nərsini müqayisə edir.

Nə qədər ölkəyə **Nərsi** vəzirdi,
Allahın xovfunu yaxşı sezirdi (YG-276).

Nəsara dini (id.) – Allahı üç ünsürdən(Ata, Oğul, Ruhülqüds) ibarət edən xristianlıq. Bax: Nəsrani.

Nəsara dininindən etmiş tərtəmiz (İ-396).

Nəsəbi (an.) - İskəndərin Keydən olan pəhləvanının adı.

Qubad İstəxrdən, **Nəsəbi** Keydən... (İ-323).

"Nəsəbi" ərəb sözüdür və soy, nəsil deməkdir. Bizə elə gəlir ki, "Nəsəbi" əsl ad yox, Qubadın Key nəslindən olmasına işarədir. Bu misra "Nəsəbi Keydən olan Qubad İstəxrdən" kimi başa düşülməlidir. "Şərəfnamə"nin əvvəlki nəşrində bu söz kiçik hərflə yazılmışdır və bu daha düzgündür.

Nəsrani (kollektiv an.) – Ərəb sözü olan "nəsrani"nin əsli qədim yəhudicə "İsa dininə mənsub olan, xaçpərəst, isəvi, xristian" deməkdir. Nizami isə bu sözü işlədərkən nəsrani mənbələrini nəzərdə tutmuşdur.

Ən qədim tarixi əsərlərdən mən,
Yəhudi, **nəsrani,** pəhləvilərdən
Ən incə sözləri əlimə aldım (İ-54).

Nəsrə (kos.) – Ay mənzillərindən biridir.

Nəsrə bir tərəfdə səpirdi gövhər (LM-184).

Nəsri-Tair (kos.) – Səmada iki yanaşı işıqlı ulduzun biridir. O birisi isə Nəsri-Vaqe adlanır.

Sən gül bağçasından pərvaz edən quş,
Nəsri-Tayiri sənə vurulmuş (XŞ-213).

Nəsri-Tair, Nəsri Vaqe (ana. kos.) – Bu ulduzlara islamdan qabaq ərəblər sitayiş etmişlər. Bəlkə, elə buna görə də "Xəmsə"də bu ulduz adları çox vaxt yanaşı işlənmişdir.

Altda **Nəsri-Tair** qanad çalırdı,
Bir **Nəsri-Vaqetək** geri qalırdı (XŞ-358).

Nümunələrdə Nəsri-Tair ulduzu metaforik şəkildə quşa bənzədilmişdir. Göründüyü kimi onların yazılışında da müxtəlifliyə yol verilmişdir.

Nəsrin (kos.) – Ulduz adı. Bəlkə də, Nəsri-Tair və Nəsri-Vaqe ulduzlarına işarədir.

Qoşa qanad açmış uçucu **Nəsrin**,
Uçurdu üstündə göy adlı qəsrin (LM-186).

Nəsrinnuş (an.) – "Yeddi gözəl" poemasında Xəvərnəq sarayında şəkli çəkilən yeddi gözəldən birinin əsl adı. O, Slavyan şahının qızıdır. "Nəsrinnuş" iki sözdən – nəsrin (farsca ağ rəngli çiçək, nəstərən çiçəyi; itburnu deməkdir) və nuş (farsca dadlı içki deməkdir) sözlərindən düzəlmişdir.

Slavyan şahının rumi geyimli
Gözəl **Nəsrinnuşu**, türktək sevimli (YG-75).

Nəş (kos.) – Ulduz adı.

Atını **Nəş** ilə çapırdı Qarı
Qarının **Nəşsiz** gəlməz qərarı (LM-186).

Nikisa (an.) – Sasanilər dövründə cənk adlı musiqi alətinin ustalıqla çalan müğənni olmuşdur. ”Xosrov və Şirin” poemasında obraz adı. ”Nikisa” adı nik(farsca yaxşı, xoş deməkdir) və İsa sözlərindən düzəlmişdir. Obrazın səciyyəsi də bu ada uyğundur.

Nikisa adlı bir çalğıçı vardı,
Qoçaq, munis nədim, çox pürvüqardı.
Zöhrədən özünü üstün tutardı,
Barbədə bir ancaq o barabardı (XŞ-286).

Niqumaş (an.) – Məşhur filosof Ərəstunun atasıdır. Təbabət alimi kimi tanınmışdır. Makedoniya hökmdarlarından Amintasın, sonra İskəndərin atası Filipin xidmətində olmuşdur. Təbabətə aid bir neçə kitab yazmış, ancaq bu kitablar qalmamışdır.

Niqumaş alimdi biliklə dolu,
Alimin oğluydu həkim Ərəstu (İ-66).

Nil (top.) – Afrika qitəsinin şərqində çaydır. Missisipidən (Şimali Amerika) sonra dünyanın ən uzun çayıdır.

Padşah əmr etdi, **Nil** sahilindən
Keçərək, çöllərdə tutsunlar məskən (İ-74).

Qədim misirlilər bu çaya “Yetər” (böyük çay” mənasında) deyərdilər. ”Nil” hidronimi semist tayfasının dilindəki “nahal” sözünün dəyişdirilmiş forması olub “çay” deməkdir (19-168).

Nil (məc. top.) – Qızıl Arslanın qılıncının rəngi Nil çayının rəngi ilə müqayisə olunur.

Qılıncının rəngi bir nilufərdir,
O, **Nildən**, Dəclədən təzədir, tərdir (XŞ-44).

Xosrovun fil üstündəki sürəti Nilin sürətinə bənzədilir.

Xosrov fil üstündə hərəkət etdi,
Bəhramın üstünə **Nil** kimi getdi (XŞ-148).

Çeşmələrin axarı mübaliğəli şəkildə Nil çayına bənzədilir.

Çeşmələr göbəyi oldu axar **Nil** (YG-272).

Zəngibar pəhləvanı Zəracə metaforik şəkildə Nili atlı pəhləvana bənzədilir.

Coşarsam,atından salaram **Nili**,
Bu rüxüm piyada buraxar fili (İ-85).

Şair rus pəhləvanının gözünü Nilə bənzədir.

Ruslardan at çapdı bir gövdəsi fil,
Üzü qıpqırmızı, gözləri bir **Nil** (İ-331).

Nila(mif.) – "Mahanın hekayəsi"ndə mifik obraz adı. Mahanı səhrada azdıran cinlərdən biri.

Dişisi **Niladır**, kişisi Gila (YG-215).

Mahanı səhranın dərinliklərində azdıran, xoruz banında isə yoxa çıxan cinlərin adları da fonetik cəhətcə bir-birinə uyğundur.

Nil, Dəclə (qoşa məc. hid.) – Qızıl Arslanın qılıncının rəngi eyni vaxtda Nil və Dəclə ilə müqayisə olunur.

Qılıncının rəngi bir nilufərdir,
O, **Nildən, Dəclədən** təzədir, tərdir (XŞ-44).

Gecə göy (səma) Dəcləyə, göyün rəngi isə Nilə bənzədilir.

Gecə səyyarəsi alışıb yandı,
Nil rəngli **Dəcləyə** tərəf yollandı (LM-151).

Yəni, Ay doğdu və göyə qalxdı.

Nil dənizi (məc. hid.) – Şair metaforik şəkildə Günəşi gözə, göy qübbəsini Nilə, Nili isə dənizə bənzətmişdir.

Sürmədən günəş mil çəkdi gözünə
Batdı bir al gövhər **Nil dənizinə** (İ-234).

Yəni göyün gözü olan Günəş gecənin sürməsindən gözünə çəkdi, özünü onun qaranlığı ilə gizlətdi, göyün mavi dənizinə batıb getdi – Günəş batdı, gecə düşdü.

Nil, fil (məc. ep. hid. ap.) – Keydin dili ilə İskəndər metaforik şəkildə Nil çayına və filə bənzədilir.

Ataram o coşqun **Nil** ayağına,
Ataram canımı **fil** ayağına (İ-262).

Nil küpü (məc. ktem.) – Şair sürmeyi boyaq küpünü metaforik şəkildə Nil küpünə bənzətmişdir.

Fil kəskin qolumdan bir qılınc yesə,
Filban **Nil güpünə** atar əlbəsə (İ-87).

Yəni filə bir zərbə vursam, filin sahibi matəm paltarı geyər. Nil küpü-sürmeyi boyaq küpü deməkdir.

"**Nimruz**" (id.) – Orta əsr Şərq musiqi havalarından birinin adı.

"**Nimruz**" nəğməsini başlasa, bütün

Özündən gedərdi ağıl yarım gün (XŞ-168).

Nişabur (top.) – İranda Xorasan vilayətində bir şəhərdir. Əsl adı Nəşaburdur. Qədim fars dilində "şəhər" deməkdir. Bir sıra alimlərin, o cümlədən dünya poeziyasının ölməz simalarından sayılan Ömər Xəyyamın vətənidir.

Bəlx ilə **Nişabur** boyu hər yerdə
İştirak edirlər bu şurişlərdə (İ-254).

Niyal (an.) – İskəndərin pəhləvanlarından birinin adı. Ehtimal etmək olar ki, "**Niyal**" həmin pəhləvanın asl adı deyil, onun yaşadığı yerin adı ilə adlanmasıdır. Əldə olan son məlumata görə, **Niyal** dağı Böyük qafqaz sıra dağlarının ətəklərində yerləşən dağın adıdır. Yazıçı Manaf Süleymanovun anadan olduğu Lahıc qəsəbəsi bu dağın ətəklərində yerləşir ("Ədəbiyyat və incəsənət" qəz. 29 iyun 1990-cı il). Yəqin ki, həmin pəhləvan **Niyal** dağın ətəklərində yerləşən kəndlərdən olduğu üçün "Niyal pəhləvan" adlanmışdır. Bu, dağ adından düzəlmiş əsl ad da ola bilər.

Xavər ölkəsindən **Niyal** pəhləvan... (İ-324).

Niyatus (an.) – Ehtimal etmək olar ki, bu, Rum qeysərinin(bax) sərkərdəsinin əsl adıdır.

Niyatusla qoşun düzəltməsindən
Ordu nizamından danışmıram mən (XŞ-146).

Nizam (məc. an.) – Bax: Xacə Müqbil. Şair Məlik İzzəddinin vəzirini Nizama bənzədir.

Şah – Məlik şah kimi səxavətlidir,
Vəziri **Nizamtək** ləyaqətlidir.
O, hökmran şahdır indi dövrana,
Vəzir də ikinci **Nizamdır** ona (İ-608).

Nizami (an.) – Dünya ədəbiyyatında "Xəmsə" ustadı kimi tanınan XII əsr Azərbaycan şairi İlyas Yusif oğlunun təxəllüsü. Mənbələrdə o, "Nizaməddin İlyas Yusif oğlu..." kimi də adı çəkilir. "Nizaməddin" isə, göründüyü kimi, şairin dini fəxri adıdır. Ehtimal etmək olar ki, "Nizami" təxəllüsü "Nizaməddin" dini fəxri adının ixtisarı nəticəsində yaranmışdır. Şair ən çox bu adla şöhrətlənmişdir.

Aciz yeri bağlayıb yəhərinin qaşına,
Nizami göz yaşını tökər yerin daşına.

Qüdrətinə sübutdur **Nizaminin** varlığı
Canı – vəhdət tarlası, könlü gülüzarlığı (SX-24).

"Nizami" ərəb sözüdür və nizamlı, müntəzəm, qayda-qanunlu və s. kimi mənaları vardır. Təsadüfi deyildir ki, şair öz adında (yəni təxəllüsündə) Allahın adı olması haqqında yazır:

Nizaminin adında şərəfli adın vardır,
Qulluğuna layiqcə, - cəlallı hökmdardır (SX-28).

Nizami (məc. an.) – Şair özünü qızılgül və bülbülə bənzədir.

İlhamlı nəfəsilə qızıl güldü **Nizami**,
Güllərin nəğməkarı bir bülbüldü **Nizami** (CX-34).

Nizami özünü Məhəmməd peyğəmbərin quluna bənzədir.

Torpağını gözünə tutiya sanar **Nizami**,
Qapında qolubağlı qul dayanar **Nizami** (CX-40).

Aşağıdakı beytdə isə şair özünü dikər şairlərlə müqayisə edir və ozünə bərabər şair olmadığını göstərir.

Nizaminin yanında özünü öyən olmaz,
Nizami olan yerdə "şairəm" deyən olmaz (CX-46).

Şair özünü cismani cəhətcə xəyala, mənəvi cəhətcə əbədi yaşayan bir şəxsə bənzədir.

Nizamiyəm, xəyala dönənin biriyəm mən,
Həyəcanlı sözümlə əbədi diriyəm mən (CX-52).

Güllərin qəhqəhələri şairin özü ilə müqayisə olunur.

Nizamidən daha çox güllər qəhqəhəliydi (CX-61).

Şair özünü Atabəy Hüsrətəddinin quluna bənzədir.

Nizami ki, quldur, bəndədir sana,
Yazdı bu naməni sənin adına (İ-397).

Şair xəlvətə çəkilib ibadətlə məşğul olan, dünya ləzzətindən uzaqlaşan Sokratı böyük ustalıqla həm Nizamiyə, həm də Nizaminin ustadına bənzədir.

Əql ilə dost olub **Nizami** təkin
Ondan dərs alıbdır **Nizami** yəqin (İ-477).

Nizami, Gəncə (xat. on.) – Şair Məhəmməd peyğəmbərin meracını təsvir etdikdən sonra öz adını və doğma vətəni olan Gəncənin adını çəkir.

Nizami tutmuşdur **Gəncədə** məkan,
O məhrum olmasın salamlarından (İ-28).

Nizami, Nizami (tək. an.) – Şair öz adını iki dəfə işlətməklə fikrin daha aydın, daha emosional olmasına nail olur.

Eşqini hopdurub ki, iliyinə **Nizami**,
Həyat tapsın ruhunun gül iyinə **Nizami** (SX-38).

"Xəmsə"nin bütün əsərlərində çox yerdə şair öz adını (təxəllüsünü) beytlərdə bu cür iki dəfə təkrar etmişdir.

Nizami xəzinəsi (məc. on.) – Burada "Nizami xəzinəsi" dedikdə, şair öz əsərlərini nəzərdə tutur.

Baxarsa **Nizami xəzinəsinə**,
Düşsə söz bəzminin şən nəşəsinə... (İ-282).

Nofəl (an.) – "Leyli və Məcnun" poemasında obraz adı.

Nofəl adlanılan bir igid vardı,
Ərəblər önündə boyun burardı (LM-119).

Yəqin ki, "Nofəl" adı farsca "nov" (yeni, təzə) və ərəbcə "fəlah" (səadət, müvəffəqiyyət, xoşbəxtlik və s.) sözlərindən düzəlmişdir. Şairin təsvirlərində olduğu kimi, obrazın səciyyəsi "Nofəl" adının mənasına tam uyğun gəlir.

Novruz (xron.) – İlk baharın başlanğıcı olub, əsasən martın 22-nə təsadüf edən yeni il bayramı. Farsca "nov" – yeni və "ruz" – gün sözlərindən düzəlmişdir. İran rəvayətlərinə görə, Novruz əfsanəvi qüdrətli şah olan Cəmşid (bax) zamanından qeyd olunur və Zərdüşt dini ilə əlaqədardır.

Novruzun nəsimi yeni əhd ilə
Qatdı öz canını çiçəyə, gülə (YG-273).

Novruz ilə Səddə bayramlarında
Ayinlər yenidən olurdu bərpa (İ-172).

Novruz bayramı (xron.) – Bax: Novruz.

Gözlərə nur verək bu işıqlı gün
Novruz bayramından xoş idi o gün (LM-249).

Nuh (məc. ag.) – Dinlər tarixinə görə, peyğəmbərlərdən biri hesab edilir. Ona bəzən ikinci Adəm də deyirlər. Sənəti nəccarlıq(dülgərlik) olmuşdur. 50 yaşına çatanda özünü peyğəmbər elan etmişdir. Əfsanəyə görə, xalq ona inanmadığı üçün guya 500

yaşında ikən Allahın əmri ilə ailəsini və hər heyvandan bir cüt götürərək özü qayırdığı gəmiyə minmişdir. Sonra 40 gün, 40 gecə yağan yağış seli dünyanı basır. Dünya suya qərq olur. İnsanlar və digər bütün canlılar su altında qalıb məhv olur. Suyun səviyyəsi aşağı düşdükdə Nuhun gəmisi bir dağın silsiləsində zirvəyə oturur. Nuhun uşaqları guya dünyada əsas qəbilələrin yaradıcılarıdır.

Nuhun gəmisinin oturduğu dağın hansı dağ olması haqqında müxtəlif fikirlər vardır. Bu dağın Naxçıvan dağları və ya Ararat dağları olmasını söyləyirlər. S.Rüstəmxanlı bununla əlaqədar olaraq qeyd edir ki, dünyanın ən qəribə, ən qədim yerlərindən olan Naxçıvan torpağına çox vaxt Nuh vətəni, Nuh diyarı da deyirlər. Biz bu sözü Naxçıvanın qədimliyinin ürəkdə doğurduğu iftixarla deyirik. Hələ ki, tarix Nuhun "milliyyətini", yaxud dini mənsubiyyətini müəyyənləşdirməyib və hər hansı yozumda Nuhla bağlılıq Azərbaycan xalqını, mifik düşüncə ilə də olsa, bir daha bəşər nəslinin ən qədim kökünə bağlayır. "Naxçıvan" sözünün yüzlərlə etimoloji yozumu arasında bir el mülahizəsi də var...: Naxçıvan – Nuh çıxan...

Tarixi mənbələrdə Naxçıvan(bax) şəhərinin yaşı bir neçə cür göstərilir. Bəzi tarixi mənbələr şəhərin eramızdan təxminən iki min əvvəl – 1937-ci ildə yarandığını göstərir. Bu tarixə əsaslanaraq biz 1988-ci ildə şəhərin 3925 illiyini qeyd etməliyik (Sabir Rüstəmxanlı. Ömür kitabı. "Azərbaycan", № 8, 1986. səh.172-173).

Adəmin də, **Nuhun** da kələfləri dolaşdı,
O dolaşıq düyünü sənin əllərin açdı (SX-38).

Yəni tufan zamanı Nuha kömək edən Məhəmməd peyğəmbər olmuşdur. Aşağıdakı beytdə də Məhəmməd peyğəmbər Nuhla müqayisə olunmuşdur.

Nuh susayıb dirilik çeşməsinə can atdı,
Çeşmənin sorağında gəmisi suya batdı (SX-39).

Beytin məzmunu "Quran"ın "Nuh (71) surəsi"ndən iqtibas edilmişdir. Bu surənin məzmunu belədir: Nuh peyğəmbər öz ümmətini bütpərəstlikdən əl çəkib bir Allaha itaətə dəvət edərkən ona qulaq asmayan kafirlər günah və asiliyə davam edirlər. Onda Nuh Allahdan rica etdi: "Xudavənda, yer üzündə evlərdə yaşayan heç bir kafiri saxlama". Bu duadan sonra yer üzünü sel-

su basdı və Nuh gəmidə xilas oldu. Həmin bəd dua Nuhun səhvi sayılır. Məhəmməd peyğəmbərdə isə belə dua olmamışdır.

Nuh Ərzincan hakimi Bəhram şahla müqayisə olunur.

Kim ki şirin yatıbdı fırtınanın selində,
Nuh olsa da, batıbdı fırtınanın selində (SX-42).

Yəni həyat fırtınasinda şirin yatanlar, Nuh olsa belə, qərq olmalıdır. Bəlkə də, bu fikirlər o dövrdə Bəhram şahın yeritdiyi hansısa siyasətlə əlaqədar olmuşdur.

Nizami sənət aləmində özünü Nuh peyğəmbərlə müqayisə edir.

Nuh – sənət aləmində batar, kəsər səsini (SX-45).

Nuhun qeyzi (məc. on.) – "Nuhun tufanı" ilə sinonim işlənir.

S.Rüstəmxanlı Azərbaycan xalqının mifik təfəkkürünün qədimliyi və "Nuhun tufanı" ilə əlaqədar olaraq yazır: "Azərbaycanlıların mifik təfəkküründə isə bir sıra Yaxın Şərq xalqlarında olduğu kimi, tarixin 12-13 min ili yaşayır. Çünki onların fikrincə, Xeyirlə Şərin yer üzərindəki mübarizəsi məhz o vaxtdan başlanır. Onlar öz ocaqlarının yaşını da bu qədər sayırlar.

Bu tarix qədim dünya mənbələrində dərin kök salmış "Nuhun tufanı" tarixi ilə qəribə şəkildə səslənir. Çünki Nuhun tufanını da bizim günlərdən ayıran məsafə, təxminən, 13 min il hesab edilir" (Yenə orada. səh.157).

Nizami də öz rəqiblərinin Nuhu dananlar kimi məhv olmasını arzulayır.

Sən, ey Xızrın bayrağı, ucal, cihad eylə sən,
Nuhun qeyzi, namərdi batır, bərbad eylə sən (SX-150).

Beytin mənası: Ey Xızrın bayrağı, məni əbədiyyətə qovuşmağa qoymaq istəməyənləri məhv etmək üçün ucal. Ey Nuh, məni görməyə gözü olmayan kafirlərə bir bəd dua eylə ki, tufanda məhv olsunlar.

Nuhun nəsli (məc. et.) – Dinə görə, Nuhun tayfası onun dinini qəbul etmirmiş. Dövrün padşahları da onu çox incitmişlər. Buna görə də Allah həmin tayfanı doğub-törəmək qabiliyyətindən məhrum etmişdir. Nizami onun şairliyini dananları Nuhu inkar edənlərə bənzətmişdir.

Təravətli söz bağım – ruhun əsli kimicə,
Onu danan qərq olsun **Nuhun nəsli** kimicə (SX-153).

Onlar mənim şeirlərimi Nuh peyğəmbəri inkar edən kafirlər kimi inkar edirlər. Onların hamısı axırda zəmanə selinin altında məhv olacaqlar, mən isə Nuh kimi sağ qalıb öz əqidəmi dünyaya yayacağam.

Nuşafərin (top.) – Səyahət zamanı İskəndərin (ordusu ilə birgə) keçdiyi yerlərdən birinin adı.

Keçsin **Nuşafərin** mülkündən bir də,
Yaxşını, yamanı görsün o yerdə (İ-312).

"Nuşin badə" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"Nuşin badə" silsə könüldən qübar,
Keçərdi gecədən qalmış o xumar (XŞ-168).

Nuşirəvan (an.) – Sasani şahlarından iyirmincisi olub, ərəblər arasında Kəsra, rumlular arasında isə Xosrov (Yəqin ki, "Xosrov" adı "Kəsra" adının fonetik cəhətcə dəyişdirilməsindən düzəlmişdir) adı ilə məşhurdur. Nuşirəvan miladi 531-ci ildə taxta çıxmışdır. Bədii ədəbiyyatda "Adil" ləqəbi ilə də şöhrət qazanmışdır. Nuşirəvan tarixdə mütərəqqi Məzdək hərəkatını boğan və xristianlara divan tutan zalım padşah kimi də xatırlanmışdır.

"Nuşirəvan" sözünün mənası "ölməz ruh" deməkdir və I Xosrovun ləqəbidir. Sasani şahı Qubadın oğludur. Sasani dövlətinin şöhrətini və qüdrətini möhkəmləndirmişdir. Bizans imperiyası ilə müharibədə qələbə çalaraq hər il Bizans imperatorunu 30 min qızıl pul verməyə məcbur etmişdi. O, Fələstini, Suriyanı, Anadolunu, hətta İberiyanı, Ermənistanı öz hakimiyyətinə tabe olmağa müvəffəq olmuşdu. Bizans imperiyası Xəzər dövləti ilə müqavilə bağlayaraq sasanilərin hücumundan qorunmağa çalışmışdır. 40 il hökmranlıq etdikdən sonra 579-cu ildə Bizans imperiyası ilə apardığı müharibələrin birində öldürülmüşdür.

Nizami "Nuşirəvanla vəziri və bayquşların söhbəti" hekayəsində onun bədii obrazını yaratmışdır.

Nuşirəvan qoşunla çıxmışdı bir gün ova,
Ayrıldı dəstəsindən atla ov qova-qova (SX-76).

Nuşirəvan (məc. an.) – Xosrovun ədalətindən, köməksizlərə etdiyi xidmətdən bəhs edəndə şair Şərq ədəbiyyatında "Adil" kimi tez-tez adı çəkilən Nuşirəvanla müqayisə edir.

O qədər zəlilə oldu pasiban
Çıxdı **Nuşirəvan** xalqın yadından (XŞ-112).

Nüsrətəddin (an.) – Məhəmməd Cahan Pəhləvanın dini fəxri adıdır. Nizamidə və digər tədqiqatlarda Məhəmməd Cahan Pəhləvanın dini fəxri adı həm Şəmsəddin, həm də Nüsrətəddin kimi qeyd olunur. Demək, Şəmsəddin həm onun atası Şəmsəddin Eldəgizin, həm də özünün dini fəxri adı hesab edilməlidir. "Nüsrətəddin" isə ərəb sözüdür, nüsrət (yardım, kömək, zəfər, qələbə deməkdir) və din sözlərindən düzəlmişdir.

Böyük **Nüsrətəddin** – onun adından
Yaradılış almış nurunu, inan (XŞ-374).

Nüsrətəddin eyni zamanda "Şərəfnamə" əsərinin ithaf olunduğu Məhəmməd Cahan Pəhləvanın oğlu Nüsrətəddin Əbubəkrin dini fəxri adıdır. Şair bu şəxsin qüdrət və əzəmətini təsvir etmək üçün Şərq ədəbiyyatında müxtəlif simvolik mənalar kəsb edən altı hökmdarın adını çəkir və Nüsrətəddini onların varisi kimi göstərir.

Kəyumərs padşahdan tacıdır nişan,
Cəmşiddən bir qılınc, taxt **Firidundan**.
Camı **Keyxosrovdan** qalmış yadigar,
Ulduzlar sirrini edər aşikar.
Ən parlaq bir güzgü, şəffaf bir gövhər
Quraraq, yadıgar qoymuş **İskəndər**.
Ləldən düzələn o parlaq üzük,
Süleyman möhürüylə çil-çıraq üzük,
Saydığım altı şey məxsusdur sana.
Adında altı hərf şahiddir buna (İ-51).

"Nüsrətəddin" adı ərəb əlifbası ilə yazılan altı samit hərfdən ibarətdir: n, s, r, d, n. Sonra şair bu hərfləri də aşağıdakı kimi mənalandırır.

Səndə bundan başqa altı xislət var,
Bunlarla olarsan daim bəxtiyar:
Birinci – açıqdır xəzinən hər an,

İstəməsələr də, edərsən ehsan.
İkinci – kərəmin hesaba gəlməz,
Haqqını bıləndən almazsan əvəz.
Üçüncü – şəfqətlə alarsan ürək,
Hər zaman məzluma edərsən kömək.
Dördüncü – taxmısan göylərə bayraq,
Bir ordu yenərsən təklikdə ancaq.
Beşinci – günahkar olsa peşiman,
Suçundan keçərsən onun hər zaman.
Altıncı – mətindir verdiyim qərar,
Unudan deyilsən, gözəl vəfan var.
Bəzəyindir sənin bu altı cəhət,
Səndən ayrılmasın bu altı xislət (İ-51).

Nüsrətəddin, Fələkəddin (qoşa an.) – Şair Körpə Arslan şahın oğlanlarının dini fəxri adlarının lüğəvi mənalarını söz oyunu ilə canlandırır.

Birinin açarı **nüsrətdən** çatdı,
Birini zəfərdən **fələk** yaratdı.
Birinə tərbiyə **nüsrət** veribdir,
Fələk o birinə qüdrət veribdir
Biri xoşbəxt oldu **nüsrətdən**, gerçək,
Birinə dörd payə taxt oldu **fələk** (YG-37).

Orijinalda Nüsrətəddinə üç ayaq bəxt verıildiyinə işarə olunur. Üçayaq bəxt – yəni döyüşdə Nüsrətəddin üç dəfə qalib gəlib. Fələkəddin isə dördayaqlı – dördcəhətli(şimal, cənub, şərq, qərb) fələyi (göyü) özünə taxt verib.

Nüsrətəddin Məlik Məhəmməd şah, Fələkəddin Əhməd (qoşa ep. an.) – Marağa hakimi Əlaəddin Körpə Arslan şahın oğlanları. Onların həm dini fəxri adları, həm də adları epiforik səciyyə daşıyır. Birinci antroponimik birləşmənin birinci komponenti dini fəxri ad, ikincisi titul, üçüncüsü əsl ad, sonuncusu isə tituldur.

Taxtından adına ellər agahdır,
Nüsrətəddin Məlik Məhəmməd şahdır...
Fələkəddin Əhməd adlansin gərək (YG-37).

Nüşabə (an.) – "Şərəfnamə" əsərində obraz adı. Şairin təsvirinə görə, Nüşabə Bərdə hökmdarıdır. Lakin Nüşabənin tarixi sima olması şübhə altındadır. Ola bilsin ki, Nüşabə adı Nizami təxəyyülünün məhsulu deyil, belə ad məişətimizdə "İskəndərnamə"yə qədər də olub. Bu halda o, fars dilindən tərcümədə "içməli su", bir az da geniş götürsək, "dadlı su, dirilik suyu" mənasını verir (O.Mirzəyev, səh.175). Şair bu obrazı böyük sənətkarlıqla qələmə almış və dünya fatehi İskəndəri mənəvi cəhətdən onun vasitəsilə məğlub etmişdir.

Hakim qadın varmış, adı **Nüşabə,**
Uymuş il uzunu keyfə, şərabə (İ-204).

Hazırda Bərdə şəhərində Nüşabə sarayının yerləşdiyi qalanın xarabalıqlarına təsadüf olunur. "Bu qaladan indi bircə məqbərəsindən və uçuq divarlardan başqa, heç nə qalmayıb. Bu məqbərə də qalanın ərazisində xeyli sonra tikilib. Görünür, Bərdənin məşhur əfsanəvi hökmdarı, Nizami Gəncəvinin böyük məhəbbətlə təsvir etdiyi Nüşabənin paytaxtı təkcə bu qaladan ibarət ola bilməzdi..." ("Azərbaycan", № 8. 1986, səh.164).

Bərdə şəhərində Nüşabə carayının xarabalıqlarının mövcudluğu vaxtilə bu sarayda hökmdarlıq edən Nüşabənin tarixi şəxsiyyət olması ilə əlaqədardır. Lakin onun hansı dövrdə yaşaması haqqında müəyyən fikir söyləmək çətindir. Naxçıvanın qədim adlarından olan Nəşavə adı ilə Nüşabə adının fonetik cəhətdən oxşar olması da çox maraqlıdır.

- O -

Oğlaq (məc. kos.) – Oğlaq bürcü. Farsca Cüdəy və ya Cədy adlanan bu ulduza Azərbaycan dilində Qütb ulduzu da deyilir. Məlum olduğu üzrə ibtidai insanlar təbiət hadisələrinin sirlərini bilmədiklərinə görə təbiəti ilahiləşdirdilər. Əkinçilik, dənizçilik, maldarlıq və s. ilə əlaqədar olaraq bir sıra ulduzlara, planetlərə müxtəlif heyvan adları qoydular. Məsələn, bürclərdən Həməl – Quzu bürcü, Səvr – Öküz bürcü, Sərətan – Xərçəng bürcü, Əsəd

– Şir bürcü, Hut – Balıq bürcü və Cədy – Oğlaq bürcü və s. Oğlaq bürcü on iki bürcün onuncusudur.

Kamanın oxu süzüb yayındı başqa yana,
Dönmədi otlağında **Oğlağın** bağrı qana (SX-30).

Beyt çox mürəkkəb şairanə məcazlardan ibarətdir. Mətnin hərfi mənası belədir: "O, (Məhəmməd peyğəmbər) kamandan şikar yıxan bir ox atdı və zəhər onun evinin çəpişindən qaçdı". Kaman – Oxatan bürcü, Ox(Tir) – Ütarid planeti, Çəpiş – Cüdəy bürcü deməkdir. Ütarid Oxatan bürcündə yerləşəndə bədbəxtlik törədir. Cüdəy – Çəpiş bürcündə isə Zühəl (Saturn) planeti yerləşir. Zühəlin işi isə fitnə, fəsad və bədbəxtlik törətməkdir. Beləliklə, beytin mənası budur: "Məhəmməd Oxatan bürcündən şikar yıxan bir ox atıb Cüdəy – Çəpiş bürcündən bədbəxtlik doğuran Zühəl planetini qovdu və beləliklə də Cüdəy – Çəpiş bürcünü onun zəhərindən azad etdi". Bundan əlavə, yəhudi Harisin qızı Zeynəbin Məhəmmədin çəpişini zəhərləməsinə də işarə edilmişdir.

Oğru (an.) – "Oğru və tülkü hekayəti"ndə obraz adı.

Bir **oğru** hər kələyə əl atmağa başladı,
Hiyləsiylə tülkünü aldatmağa başladı (SX-103).

Adətən, apelyativlər obraz adı kimi işləndikdə böyük hərflə yazılmalıdır.

Ox (ap.) – "Firidunla ceyranın hekayəti"ndə alleqorik obraz adı.

Ox dedi: "Yağın deyil bu bağrı qanlı sənin,
Gözlərini oxşayır bu dilsiz canlı sənin... (SX-99).

Okyanos (top.) – Şairin təsvirlərinə əsasən ehtimal etmək olar ki, Okyanos – Atlantik okeanıdır. Nizami Okyanos sözünü bilavasitə yunancadan götürmüşdür.

Çöllər qurtaranda, gördü uzaqdan
İskəndər önündə əngin bir ümman.
Yunanlar **Okyanos** deyərdi ona... (İ-529).

Osman (an.) – Dörd xəlifədən(bax) üçüncüsü. O, 12 il(644-656) xəlifə olmuşdur. Bəni-Üməyyə nəslindəndir. Onun vaxtında ərəb orduları Şərqi İranı, Ermənistanı, Şərqi Gürcüstanı, Kiçik Asiyanın və Şimali Afrikanın bir hissəsini işğal etdilər. Onun göstərişi ilə "Quran" rəsmi şəklə salınmış və tərtib olunmuşdur. Osmanın

məkkəliləri, xususilə Bəni-Üməyyə nəslindən olanları mühüm dövlət vəzifələrində yerləşdirməsi başqa ərəb qəbilələri və ordu içərisində narazılığa səbəb olmuş və xəlifəlik uğrunda mübarizə aparanlar onu xəyanətdə təqsirləndirərək öz evində öldürmüşlər .

Hər iki nur ilə nurlanır dimaq:
Əbubəkr bir şamdır, **Osman** bir çıraq (İ-28).

Ov (ap.) – "İqbalnamə" əsəri nəzərdə tutulur. Demək, əsər ova bənzədilmişdir.

Bir **ov** vurubsansa, çıxar meydana (İ-425).

Ovçu (an.) – "Ovçu ilə tülkünün hekayəti"ndə obraz adı.

Ovçu dedi: "Məsəldir, hər gecə hamilədir,
Nə doğacaq bilinmir, gör necə hamilədir?! (SX-94).

- Ö -

Öküz (məc. kos.) – Şair metaforik şəkildə eyni adlı bürc adını adi öküzə bənzətmişdir. Bax: Öküz bürcü.

O öküzquyruğu şeypurlar ötdü,
Göydəki **Öküzün** partladı ödü (İ-83).

Öküz bürcü (kos.) – Öküz sözü üç məfhum ifadə edir: I.Öküz bürcü (ərəbcə Sovr) 12 bürcdən ikincisi; 2. Dini rəvayətə görə, kürreyi-ərz öküz üzərində qərar tutmuşdur; 3. Zöhrə(Venera) ulduzu kimi nə qədər gözəl olsan da, məkanın öküz üzərindədir. Zöhrə ulduzu öz hərəkəti zamanı səmada həmişə Öküz bürcünə daxil olur.

Öküz bürcünə bax sən bir diqqətlə,
Yükünü yer kimi öküzə yüklə,
Mənzilin **öküz**dür, olsan da Zöhrə,
Öküz üstündəsən getsən hər yerə (XŞ-345).

Beytlərin ümumi mənası: Sən nə qədər çalışsan da, yenə dünyada çətinlikdən yaxa qurtara bilməyəcəksən.

Ölümlər çölü (top.) – "İskəndər ilə Çoban dastanı"nda Çobanın danışdığı hekayədə bir çölün adı.

Nə bir ot, nə yarpaq – hər tərəf ölü,
Xalq ona deyirdi: "**Ölümlər çölü**" (İ-441).

Ömər (xat. an.) – 634-cü ildə Əbubəkrin vəfatından sonra müsəlman icmasına başçılıq edən sayca ikinci "raşidi xəlifəsi", islam dininin erkən çağlarının ən böyük xadimlərindən biridir. İslam dinini Ərəbistanın hüdudlarından kənarda bərqərar etmək üçün hələ Əbubəkrin başladığı işi ciddiyətlə davam etdirmişdir. Ömərin hakimiyyətinin on illik dövrü ərzində (634-644-cü illər) islam dini İraqa, Suriyaya, Misirə və Kirenaikaya (Liviyanın tarixi vilayəti olan Benqazi) yayılmışdı...Müsəlman icmasının sürətlə qüdrətli dövlətə çevrilməsi öz formal ifadəsi Ömərin xəlifə adına əlavə olaraq həm də Əmir əl-möminin(möminlərin başçısı) titulunu qəbul etməsində tapmışdır.

Ya da şeytan üstünə cəsur **Öməri** göndər (SX-37).

Dini əsatirə görə, o, hansı yerdən keçsəydi, o yerə üç gün şeytan ayaq basa bilməzdi.

"**Övrəng**"(id.) – Orta əsr Şərq musiqi havalarından birinin adı.

"Naqusi və "**Övrəng**" çalınan zaman
Zəng səsi qalxırdı övrəng taxtından (XŞ-167).

İkinci misradakı "övrəng" həm də şah taxtına işarədir.

- P -

Padşah, şah(an.) – "Xeyir ilə Şər hekayəsi"ndə obraz adı. Orta əsrlərdə titul əsl şəxs adını əvəz edib, onun yerində işlənərdi. İndi bizim üçün qeyri-müəyyən olan şahlar onun müasirləri üçün müəyyən idi. Çünki hansı hökmdar olduğu ərazidə şah dedikdə, söhbətin kimdən getdiyi danışan və dinləyən şəxsə bəlli olurdu. Bədii ədəbiyyatda və folklorda isə padşah, şah və s. titullar, ümumiyyətlə əsl ad kimi işlənirdi.

Padşah əmr eylədi, kəsildi başı...
Şah dedi: Ey yaxşı adam, söylə bir... (YG-248).

Titullar (şah, padşah, xan, bəy, vəzir, paşa, sultan, və s.) əgər əsl adsız işlənirsə, onlar ümumi sözlərdən başqa bir şey deyildir. Əgər onlar əsl adlarla(istər addan əvvəl və istər sonra) işlənəndən sonra xüsusiləşir və xüsusi ad olur: Arslan şah, Sultan Mah-

mud, Şah İsmayıl, Şah Abbas, Nadir şah, Fətəli xan, Səfər bəy, Axund Əli və s.

Titullar obraz adı kimi işlənəndə isə onlar ümumilik məfhumundan məhrum olur. Çünki müəyyən əsərdə (hekayə, nağıl, dastan, povest, roman və s.) təsvir olunan padşah, şah, bəy və s. titulları adı altında ümumiləşdirilmiş bir obrazdan söhbət gedir. Odur ki, əsərdə belə obraz adlarının xüsusi ad kimi böyük hərflə yazılması vacibdir. ”Padşah” və onun qısaldılmış forması olan “şah” (bax) fars sözüdür, hökmdar, imperator, xan, sultan deməkdir. Vəzifə bildirən titullar irsi xarakter daşıyır.

Padşah (an.) – “Ümidsiz şahın günahının bağışlanması”nda obraz adı.

Röya aləmindəydi bir ədalətli **padşah**,
Gözlərinə göründü bir ədavətli **padşah**...
Zalım **padşah** danışdı: ”Göz yumanda həyata...(SX-72).

Padşah (məc. an.) – Tanrı dünyanın padşahına bənzədilir.

Ey tanrı, dünyaya sənsən **padşah**,
Biz kiçik bəndəyik, sən böyük allah (İ-15).

Peyğəmbər (an.) – Məhəmməd peyğəmbərə işarədir. Fars dilində “peyğam”(xəbər deməkdir) və “bər” sözlərindən düzəlmiş və xəbər gətirən (Allahdan), xəbərçi mənalarında işlənir. Ən yüksək dini tituldur.

Peyğəmbər əmindir, Cəbrayıl əmin,
Onları qorxutmaz nə şeytan, nə kin (LM-26).

Əmin - əmanəti saxlayan, mühafizə edən deməkdir. Şair burada Cəbrail ilə Məhəmməd peyğəmbəri Allahın əmini adlandırır, çünki o, öz kəlamı olan “Quran”ı onlara əmanət vermişdi. Dini rəvayətə görə, “Quran”ı Allah tərəfindən Məhəmmədə Cəbrail gətirmişdi.

Pəhləvilər (et.) – Pəhləvi orta fars dilidir. Sasanilər dövründə İranın rəsmi və ədəbi dili olmuşdur. Şair “pəhləvilər” dedikdə bu dildə danışan xalqı nəzərdə tutmuşdur.

Ən qədim tarixi əsərlərdən mən,
Yəhudi, nəsrani, **pəhləvilərdən**
Ən incə sözləri əlimə saldım (İ-54).

İslam mədəniyyətinin təsirilə pəhləvi dili və əlifbası tədricən unudulmuş, iranlılar ərəb əlifbasını qəbul edərək bu əlifba ilə yazıb-yaratmışlar. Müasir fars dili ilə pəhləvi dili arasında xeyli yaxınlıq vardır. Pəhləvi dilində siryani dilinin, müasir fars dilində isə ərəbizmin təsiri güclüdür.

Pələngər şah(an.) – Zəngibar şahın (bax) əsl adı və titulu. "Pələngər" sözü Azərbaycan dilində "pələng" sözündən və farsca "gər" şəkilçisindən düzəlmiş, obrazın xarakterini düzgün səciyyələndirir.

Bu dünya **Pələngər şaha** oldu təng,
Düşündü: "Dənizdən çıxmış bu nəhəng (İ-91).
Zənci padşahı **Pələngər**, şəksiz,
Güclü pəhləvandı, coşqun bir dəniz (İ-108).

"Zənci padşahı" da adlanan Pələngər burada dənizə bənzədilmişdir.

Pəncab (top.) – Hindistanın şimal-qərbində bir ölkədir. Sind nəhrini təşkil edən beş çay Pəncabdan axdığı üçün belə adlanır. "Pəncab" farsca "pənc" (beş) və "ab" (su) sözlərindən düzəlmiş və "beş su" (Burada "su" çay mənasında işlənmişdir) deməkdir.

Fərğanə, **Pəncabı** qoruyan, güdən
Hüdudun sınanmış igidlərindən (İ-274).

Pəri (mif.) – Fars sözü olan Pəri, dini əsatirə görə, gözəl bir qadın surətində olan sehirbaz və cadugərdir. Pəri məcazi mənada çox gözəl qadın və ya qız mənasında da işlənir.

O müqəddəs **pərilər**, mələklər artıq hanı?
Tənha qalan özüydü, bir də təxti-rəvanı (SX-31).

Şair bu addan məcazi ad kimi də geniş istifadə etmişdir. Nizami şair təbiətli insanı metaforik şəkildə pəriyə bənzətmişdir.

Könüllə qanadlanıb ərş evinə hər **pəri** (SX-53).

Burada pəri gözəl qız mənasında işlənmişdir.

Pərinin hörükləri zəncirdir divanəyə (SX-64).

"Kərpickəsən qocanın bir cavanla hekayəti"ndə Qoca obrazı Pəriyə bənzədilmişdir.

Deyirlər Şam tərəfdə bir qoca kişi vardı,
Pəri kimi xalq ilə onun nə işi vardı (SX-90).

Aşağıda isə Şirin metaforik şəkildə Pəriyə bənzədilmişdir.

O, **pəri** üzlüyə min tərif dedi,
Pəri də Şapura "əyləş" söylədi (XŞ-77).

Pəri, Ay (qoşa məc. on.) – Şirin eyni vaxtda həm Pəriyə, həm də Aya bənzədilir.

Sanki bir **pəridir**, pəri yox, bir **Ay**!...
Gecəni qərq edir **Aytək** nurlara (XŞ-63).

Pərisuz (er.) – Kilsə adı.

O yerdən **Pərisuz** kilsəsinədək
O pəriüzlülər getdi yüyürək(XŞ-74).

Pərizad (an.) – "Xosrov və Şirin" poemasında obraz adı. Pəri və zad (farsca "doğulmuş" deməkdir) sözlərindən düzəlmişdir, hərfən "Pəri qızı" deməkdir.

Belə söhbət açdı gözəl **Pərizad** (XŞ-130).

Pərvərdigar (teon.) – Fars dilində Allah(bax), Tanrı (bax) deməkdir.

Al dərdli canımı, ya **pərvərdigar**! (LM-276).
Çıl-çılpaq gəlmişəm, ey **pərvərdigar**,
Hər şeyim sənindir, mənim nəyim var? (İ20).
Sənsən, **pərvərdigar,** hər bir muradım,
Səndən hasil olar hər bir muradım (İ-412).

Pərvin (kos.) – Bax: Ülkər və Sürəyya. Bir-birinə yaxın olan kiçik ulduzlar toplusu. Guya Öküz bürcünün bel hissəsini, bir ehtimala görə, Həmə̇lin (bax) – Qoyun bürcünün quyruq hissəsini təşkil edir. El arasında Yeddi qardaş adı ilə də məşhurdur. Münəccimlərin müşahidəsinə görə, üzüm salxımı kimi bir-birinə yapışmış vəziyyətdədir. Pərvin bir pleyada, ulduzlar dəstəsi şəklində olduğuna görə ədəbiyyatda məcazi mənada cəmiyyət və birlik mənasında işlədilir.

Bənatinnəş ikən oldular **Pərvin** (XŞ-82).

Şair bu addan məcazi ad kimi də geniş istifadə etmişdir. Aşağıdakı beytdə Pərvin boyunbağıya bənzədiyi üçün şəxsləndirilmişdir.

Pərvin al və sarı ipək tutaraq,
Qızıl sancağına çəkirdi bayraq (LM-184).

Nizami İskəndərin bəxşiş verdiyi don, zər, gövhəri Pərvinə bənzədir.

İpəkdən don verdi, üstü zər, gövhər,
Sanki bir **pərvindir,** cəvahir çəkər (İ-251).

Pərviz (an.) – Sasani hökmdarı Xosrovun(bax) ləqəbi.

Pərvizin önündə öpərək yeri,
Söylədi dostuna bu xoş sözləri (XŞ-62).

Pərviz (məc. an.) – Şair Şirvanşah Axsitanın atının ayağının altından qopan tozla Pərvizin hüsnü və camalını müqayisə edir.

Deyirlər, **Pərvizin** hüsnü, camalı,
Baxdıqca oxşarmış qəlbi, xəyalı.
Atının tozuyla tutuşsa **Pərviz**,
Qalmaz camalından zərrə qədər iz (LM-53).

Pərviz, Şəbdiz (ep. on.) – Pərviz antroponim, Şəbdiz isə zoonimdir. Lakin bu adların son səsləri fonetik cəhətdən eyni səslənir.

Hər gün soraqlayıb Xosrov **Pərvizi**
Mədain qəsrinə sürdü **Şəbdizi** (XŞ-95).

Pərviz, Şirin, Fərhad (qrup müq. an.) – Nizami bu adları tərkiblərində olan hərflərin miqdarına görə müqayisə edir.

Pərviz, Şirin, Fərhad – bu sözlərin, bax,
Hərəsinin vardır beş hərfi ancaq.
Hər üç adın hərfi bərabər ikən
Pərvizin pəncəsi gətirir nədən? (XŞ-200).

Ərəb dilində sait səslər yazılmadığı üçün bu adların hər birisi beş hərflə yazılır. Beytlərin mənası: Nə üçün adlarda hərflərin miqdarı eyni olduğu halda, biri bədbəxt, digəri xoşbəxtdir?

Pərviz sarayı (er.) – Qədim Mədain (bax) şəhərində Sasani şahları tərəfindən tikilmiş və Taği-Kəsra adlanan, lakin ərəblər tərəfindən tarimar edilən sarayın xarabalarına işarədir.

Şəbdiz atın şəkli, Bisütun dağı
Pərviz sarayının eyvanı, tağı... (XŞ-48).

Pir (ap.) – “Mahanın hekayəsi”ndə obraz adı. “Pir” farsca “qoca” kimi izah olunsa da, son tədqiqatlara əsasən onun türk mənşəli olması qənaətinə gəlmişik.

Pir dedi: “Ağaca dırman, olsan ac,
Yeməyə, içməyə duysan ehtiyac... (YG-224).

Pişdad (an.) – “Pişdadyan” sülalə adının qısaldılmış forması. Pişdadyan isə qədim İran şahlarının ən köhnə sülaləsi hesab olunur: Kəyumərs (bax), Huşəng, Təhmurəs, Cəmşid (bax) və başqaları həmin sülalədən sayılırlar. Bu sülalə haqqında “Şahnamə”də və “Zənd-Avesta”da (bax) rəvayətlər vardır.

Çatmaz ədalətdə sənə **Pişdad** (İ-428).

Pişdad, Keyxosrov, Keykavus, Keyqubad (qrup müq. an.) – Şair eyni vaxtda Atabəy Nüsrətəddin Əbubəkri Pişdadyan sülaləsinin hökmdarları ilə müqayisə edir və Nüsrətəddini onlardan üstün tutur. Burada Pişdad və Keyqubad adları epiforik, “Key” komponentli adlar isə anaforik adlardır.

Çatmaz ədalətdə sənə **Pişdad**,
Keyxosrov, Keykavus, nə də **Keyqubad** (İ-428).

- R -

Rabiyə (xat. an.) – Əsl adı Ümmülxeyirdir. YIII əsrdə yaşamış, ruhən təmizliyi , pəhrizkarlığı və faydalı işləri ilə məşhur, həm də alim və şair bir fars qadını olmuşdur. Müsbət sifətlərinə görə ona “Kişilərin tacı” ləqəbini vermişlər.

Rabiyə olmasaydı xilaskarı, köməyi,
Susuzluq təşnə düzdə öldürərdi köpəyi (SX-84).

“Quran”ın “Əl-kəhf (18)” surəsinin 21-ci ayəsinə işarədir. Bu surədə dini təqiblərdən qaçıb mağarada gizlənmiş yeddi gənc və onların iti nəzərdə tutulur. Həmin itə öz sahiblərinə göstərdiyi sədaqətə görə dil açıb danışmaq qabiliyyəti verilib.

Rabiyə Bəsrəli bir gün səhrada bir itin susuzluqdan can verdiyini görüb hörüklərini kəsib paltarını da ona bağlayıb quyuya salır. Sonra o, yaş paltarlarını sıxaraq itə su verir və onu ölümdən xilas edir. Bu hərəkətlərinə görə bu mömin qadın övliya zümrəsinə daxil edilir.

Ramazan ayı (xron.) – Müsəlman təqviminin doqquzuncu ayı, Orucluq ayıdır. N.Gəncəvi "Yddi gözəl" poemasını bu ayın 14-də yazıb-qurtarmışdır.

Ramazan ayının on dördü vardı,
Gün dörd saat qalxıb batmış olardı (YG-310).

Rameh (kos.) – Ulduz adı.

Simak ulduzları cərgəylə köçür,
Ramehdən Əzələ karvanla keçir(LM-186).

"Ramiş" havası (id.) – Orta əsr Şərq musiqi havalarından biri. "Ramiş" farsca musiqi, çalğı deməkdir.

Müğənni, o **"Ramiş" havası**nı çal,
Şadlıq məqamıdır, qurtardı məlal! (İ-608).

"Ramişi-can" (id.) – Orta əsr Şərq havalarından birı.

"Ramişi-can"ını oxuyan zaman
Zəmanə edərdi özünü qurban (XŞ-168).
Müğənni, çal görək bir **"Ramişi-can**" (İ-607**).**

Rastü-Rövşən (an.) – "Yeddi gözəl" poemasında obraz adı. Bəhram Gurun Nərsidən sonrakı vəziri. Fars sözlərindən düzələn bu antroponimik birləşməsində "rast" – doğru, düz, "rövşən" isə aydın, işıqlı deməkdir. Lakin bu obrazın adı və xarakteri arasında ziddiyyət mövcuddur. Ad obrazı düzgün səciyyələndirmir.

Eşitmişəm şahın, üzlərdən iraq,
Bir vəziri vardı allahdan uzaq.
Rastü-Rövşən qoymuş adını, düzü,
Bu addan uzaqdı olduqca özü.
Düzlükdən yuxaydı, nazikdi qat-qat,
Düzlüyü əyrilik, işığı zülmat (YG-276).

Bəhram Gur vəzirin xəyanətini başa düşəndən sonra onun adının mənası ilə əlaqədar olaraq deyir:

Nə **rast**, nə **rövşənsən**, aydınlıq itdi,
Getdi **işıqlıq** da, **düzlük** də getdi (YG-284).

Rey (top.) – İranın ən məşhur şəhərlərindən olmuşdur. Tehranın yaxınlığında yerləşən bu şəhər qədim İran padşahları zamanında çox abad olmuşdur. Səlcuqilərin vaxtında paytaxt idi. Monqolların işğalı zamanı dağıdılmış və əhalisi o zaman kiçik

bir yer olan Tehrana köçməyə məcbur olmuşdur. İskəndər İranı fəth edərkən beş gün Reydə qalmışdır. İndi Reyin xarabalıqları Tehranın 5 km. cənubundadır. Hazırda qəsəbə halındadır.

İsfahandan **Reyə**, Çindən Quracan
Toplanmışdı bura şahlar bu zaman (XŞ-224).

Rey, Key (ep. on.) – Rey toponim, Key (bax) isə antroponimdir.

Ona bac verəndir bütün Rum və **Rey**,
Xərac göndərəndir Kəsra ilə **Key** (İ-23).

Burada söhbət Məhəmməd peyğəmbərdən gedir.

Rey üzümü (fit.) – Reydə yetişdirilən xüsusi üzüm növü. Görünür, şairin dövründə bu üzüm növü məşhur olmuşdur.

İsfahan alması, **Rey üzümü** tər (YG-255).

Reyhan (məc. fit.) – Şair "İqbalnamə" əsərini metaforik şəkildə reyhana bənzətmişdir.

Bağımda **reyhandır** mənim bu əsər (İ-429).

Rəbbi (teon.) – Ərəbcə "rəbb" sözündən olub Allah deməkdir.

Qapının sirdaşı olan bir qəlbi
Qoyma hər qapıda dilənsin, **rəbbi** (İ-22).

Rəfrəf (mif. zo.) – Məhəmməd peyğəmbərin merac zamanı Büraqdan sonra mindiyi ikinci xəyali atın adıdır. Bəziləri onu bulud, nur saçağı və s. təsəvvür edirlər. Ona bəzən Nur atı da deyilir.

İsrafil qanadı üstünə aldı,
Rəfrəf xanəsinə tərəf ucaldı (XŞ-358).

Rəhmət dağı (məc. top.) –Məkkənin yaxınlığında Cəbəl ər-Rəhmə dağıdır. Şair Rəhmət dağını Ruyindiz qalasının qapısına bənzədir.

Onun qapısıdır, bil, **Rəhmət dağı**,
Bağlar Buqubeysdən kəmər papağı (YG-310).

Rəxş (zo.) – "Şahnamə" qəhrəmanı məşhur pəhləvan Rüstəm-Zalın atının adıdır. Fars sözüdür, "ağ ilə qırmızı" və ya "qara ilə qırmızı qarışıq rəngli" at deməkdir. Əsərdə isə şair Məcnunun dılından Leyliyə deyir:" Sənin atın məndən qabaqda gedir, sən tez öldün, vüsal mənzilinə məndən tez çatdın".

Gedir sənin **Rəxşin** məndən irəli (LM-27).

Rəmgilə (top.) – Düzənlik adı.

Rəmgilə çölündə - o uzaq yoldan
Döl tutmağa gəlir ora bir madyan (XŞ-69).

Burada söhbət Şəbdiz və Gülgün adlı atların doğulmasından gedir.

Rəs (kos.) – Ulduz adı.

Salmışdı Mərrixi Zənəb kəməndə,
Zühəlin gözüylə **Rəs** düşdü bəndə (XŞ-150).

Rəsul (ag.) – Məhəmməd peyğəmbərin ləqəblərindən biri. Ərəb sözüdür və elçi, səfir, peyğəmbər, nəbi kimi mənaları vardır.

Şah dedi: - **Rəsuldan** mənə söhbət et (XŞ-325).

Rəşa (kos.) – İyirmi səkkiz Ay mənzillərindən sonuncusudur.

Bir qatar dəvəylə o **Rəşa**, Xatun
Kəcavə etmişdi bətnini Hutun (LM-185).

Rizvan (mif.) – İslam əsatirində Cənnətin gözətçisi və qapıçısı olan mələyin adıdır.

Sözlər ki, **Rizvana** çox xoş gələrdi,
Cəhənnəm Maliki ona gülərdi (XŞ-369).

Şair iştirak etdiyi Qızıl Arslanın məclisindəki söhbəti nəzərdə tutur.

Rövşənək (an.) – İran şahı Daranın qızının əsl adı. Daranın vəsiyyətinə əsasən, İskəndər onunla evlənmişdi. Ona bəzən Roxşan da deyilir. "Rövşənək" farsca aydın, işıq mənasında olan "rövşən" sözündəndir.

Könlünü çevirmə **Rövşənəy**imdən,
Təbii işıqla günəş olur şən (İ-137).

Yəni qızım Rövşənəkdən məhəbbətini əsirgəmə, həyat məhəbbətlə gözəlləşir.

Rövşənək xanım (an.) – "Xanım" Azərbaycan sözüdür, "xan" titulu və -ım (birinci şəxsin təkinin mənsubiyyət) şəkilçisindən düzəlmişdir.

Rövşənək xanımı alsın bərabər,
Götürsün xəzinə, kitab və dəftər (İ-196).

Rövşənək xatun (an.) – "Rövşənək" əsl adının "xatun" titulu ilə birləşməsindən yaranan antroponimik birləşmə.

Rövşənək xatunu götür bərabər,
Onunla ölkənin işi düzələr (İ-193).

Zənnimizcə, Azərbaycan dilinə məxsus "qadın" sözü vaxtilə fars dilinə "xatun" formasında keçmiş və hökmdarların, hakim dairələrin qadınlarına verilən titul kimi işlənmişdir. Sonralar yenidən həmin şəkildə Azərbaycan dilinə keçmiş və fars dilində olduğu kimi titulluq funksiyasını saxlamışdır.

Rum (top.) – Bu ad Roma (Rim) şəhəri ilə romalıların adından yaranmışdır. Şərq qövmləri tərəfindən əvvəl romalılara və onların dövlətinə çevrilmişdir. Bu dövlət Qərb və Şərq dövlətlərinə bölündükdə isə Rum adı Şərq dövlətlərinə verilmişdir. Sonralar şərq imperatorlarının hakim qövmü olan romalılar yunanlarla və onların hakimiyyəti altında olan başqa qövmlərlə birləşib, qədim yunan dilindən əmələ gəlmiş bir dildə danişmağa başladığından Rum adı bu ümumi qövmə və dilə verilmişdir. İskəndər Zülqərneynə bəzən İskəndər Rumi deyilməsi də məhz buradan doğur. Eyni zamanda Şərqi Rum imperatorluğunun idarəsi altında olan bütün məmləkətlər də bu adla adlanır. Həmin məmləkətlərdən biri olan və hazırda Anadolu adlanan yarımada da Rum adlanirdı. Məşhur şair Mövlanə Cəlaləddinə Rumi deyilməsi, qərb səlcuqlarının Rum səlcuqları da adlanması və s. buna görədir.

Verib dünya mülkünü öz xalqının əlinə,
Həm Ərmənə hakimdir, həm də ki **Rum** elinə (SX-41).
Xilafət taxtı kimi şahlıq taxtı ucaldı,
Abxazda, **Rum** elində şanlı qələbə çaldı (SX-41).

Rum-Bizans və Abxaziyanın bir hissəsi XII əsrdə Bəhram şahın(bax) hökmranlıq etdiyi Ərzincan vilayətinə tabe idi. Sonuncu beytdə isə Bəhram şahın Rum elində qələbə çalmasına işarə olunur.

Rum, Çin (qoşa məc. top.) – Burada Rum və Çin dedikdə İskəndər və Çin xaqanı nəzərdə tutulur.

Rum və **Çin** xidmətə bel bağlayaraq,
Bəzədi Rumdan və Çindən bir bayraq (İ-305).

Rum, Xarəzm ipəkləri (növ.) – Rum və Xarəzmdə hazırlanan xüsusi ipək növləri.

Rum ilə **Xarəzm ipəkləri**ylə,
Ölkələr bəzənsin bəzəkləriylə (İ-181).

Rum, Xütən (qoşa məc. top.) – Şirinin öz nazı ilə Rumu fəth etməsi və müşkü ilə şöhrətlənən Xütənin Şirinin ətrindən məst olması ən qüvvətli mübaliğədir.

Rumu fəth edərəm bu nazımla mən,
Uzaqdan məst olur ətrimdən **Xütən** (XŞ-254).

Rum, Misir, Çin qumaşları (növ.) – Bu ölkələrdə hazırlanan xüsusi qumaş növləri.

Rumun, Misrin, Çinin qumaşlarından
Dəyərli zinətlər yığdı hökmüran (İ-178).

Rum, Rey (qoşa məc. top.) – Şair Rum və Rey toponimlərini Məhəmməd peyğəmbərə bac verən hökmdara bənzədir.

Ona bac verəndir bütün **Rum** və **Rey** (23).

Rum, Zəngibar (qoşa məc. top.) – Şair Rum qoşunları və Zəngibar qoşunları əvəzinə, sadəcə olaraq həmin qoşunların mənsub olduqları ölkələrin adını çəkir.

Qaranlıq çöküncə **Rum** və **Zəngibar**
Vuruşdan yorulub axşamladılar (İ-75).

Rum dənizi (top.) – Yəqin şair Aralıq dənizini nəzərdə tutur.

Oradan qayıtdı **Rum dənizinə**,
Yelkənlərlə çıxdı öz ölkəsinə (İ-392).

Rum gözəli (an.) – "Yeddi gözəl" poemasında Rum qeysərinin qızı Humayın(bax) ləqəbi.

Dil açdı söhbəti, sözü məzəli,
Dedi Çin bəzəkli o **Rum gözəli** (YG-164).

Rum xanımı, Təraz gözəli (qoşa məc. an.) – "Kəniz satan padşahın hekayəsi"ndə Qarı satdığı kənizləri Rum xanımları və Təraz gözəllərinə bənzədərək tərifləyirdi.

O: - **Rumun xanımı, Təraz gözəli**, -
Deyə tərifləndi hər incə beli (YG-165).

Rum ipəyi (növ.) – İskəndərin qoşununda olan bayraqların hazırlandığı ipəyin adı.

Bayraqlar qaldırdı **rum ipəyindən**,
Al, xara geyindi sanki çöl-çəmən! (İ-577).

Rum qeysəri (an.) – Rum dövləti hökmdarının ləqəbi. Bax: Qeysər.

Rum qeysərinə çatınca xəbər,
Dedi: "Xoşbəxtlikdir Rumçun bu səfər" (XŞ-146).

Rum qəlbi (məc. on.) – Taysız gözəl(bax) "Rum qəlbi" dedikdə İskəndəri nəzərdə tutur.

Bu müşkin xalımla çinli bağrıyam,
Falca **Rum qəlbi**nin şən çırağıyam (İ-370).

Burada müşkin xal – qara, çinli bağrı – ağ vücuda, ağ sifətə yaraşıq deməkdir. Yəni fala baxdırmışam, bəxtimə Rum qəlbi, yəni İskəndər düşmüşdür. Rum qəlbinin şən çırağıyam – yəni məhəbbətim İskəndərin ürəyindədir. İskəndərin xoşuna gəlmişəm.

Rum papağı (növ.) – Rumda hazırlanan xüsusi papaq növü. Şair İskəndəri Rum papaqlı türkə bənzədir.

Yoxsa **rum papaqlı** bir türk nə sayaq
Çinə, Hindistana basardı ayaq (İ-432).

Şair burada "türk" sözünü igid, qoçaq, qorxmaz mənasında işlətmişdir.

Rum parçası (növ.) – Rum ölkəsində hazırlanmış parçanın hazırlandığı ölkənin adı ilə adlanması.

Rum parçalarından, Çin qumaşından... (YG-108).

Rum sultanı (an.) – Şair Rum sultanı dedikdə İskəndəri nəzərdə tutmuşdur. İskəndərin dövründə "sultan" titulu mövcud deyildi. Ərəb dilində hökmdar, padşah mənasında olan "sultan" islam dini meydana gələndən sonra – xilafət dövründə yaranmışdır. Demək, şair təkrara yol verməmək üçün hətta İskəndər dövründə mövcud olmayan titullardan da geniş istifadə etmişdir.

Kömək istəyirlər **Rum sultanı**ndan.
Deyirlər: "Misrə çox dar oldu cahan" (İ-73).

Rum şahı (an.) – Rum şahı dedikdə şair Rum qeysərini nəzərdə tutmuşdur.

Gah gedib fəğfurdan Bəhram bac alar,
Gah da **Rum şahı**ndan bol xərac alar (YG-122).

Rum şahı (an.) – Rum şahı dedikdə Feyləqus nəzərdə tutulur.

Rum şahı oldu bu bəxşişdən çox şən,
Mumunu qorudu yanar atəşdən (İ-62).

"İskəndərnamə" kitabının "İzahlar"ında (İ-627) oxuyuruq: "Yəni İskəndər (Bertelsdə Dara) bu peşkəşdən sevindi və özünü Daranın qəhrindən hifz etdi". Bizcə, əsərin bu yerinə qədər İskəndərdən yox, Feyləqusdan, onun əsəb-nəsəbindən və ədalətlə yaratdığı gənc dövlətindən söhbət gedir. Odur ki, "Rum şahı" dedikdə Dara və İskəndər yox, Feyləqus nəzərdə tutulmalıdır. Zənnimizcə, bu dolaşıqlığın meydana gəlməsinin əsas səbəbi həm "Xosrov və Şirin" poemasında Rum qeysərinin, həm də Feyləqus və İskəndərin "Rum şahı" adlanmasıdır.

Rum şahı (an.) – Rum şahı dedikdə İskəndər nəzərdə tutulur.

Elə ki, **Rum şahı** taxta oturdu,
Dünyaya mum kimi bir naxış vurdu (İ-70).
Sənə bu **Rum şahı** layiqdir ancaq (İ-183).

Rum şəhriyarı (an.) – Makedoniyalı İskəndərə işarədir.

Şövkətlə tərpəndi **Rum şəhriyarı**,
Yanınca gedirdi Çin hökmdarı (İ-310).

Rumi çeşnisi (məc. on.) – Vizantiya imperialı kimi yüksək əyarlı qızıl pul. Şair Rumi çeşnisi və əks-əyarlı nəqdi dedikdə "Yeddi gözəl" əsərini nəzərdə tutur.

Tam əks-əyarlı nəqdi Gəncədən
Rumi çeşnisiylə parladıqca mən... (YG-307).

Əks-əyarlı – ən təmiz qızıldan düzəldilmiş və üzərində məşhur və qüdrətli şahın əksi həkk edilmiş puldur. Yəni mən Gəncə şəhərində öz yüksək əyarlı qızıla bənzər poemamı yaradıb, onu şaha ithaf etdim.

Rumi paltar (növ.) – Bəhram Gurun taxta çıxandan sonra geydiyi paltarın növü. Rumi paltar – Rumda tikilən paltar, Rumda tikilən paltar forması, rum parçasından İranda tikilən paltar növü mənalarında başa düşülə bilər.

Başda Çin papağı, tərlan döşütək
Rumi paltar verdi əyninə bəzək (YG-96).

İndi də bu cür parça və paltar adlarından geniş istifadə olunur: Buxara papaq, Qaragül (Karakul) papaq, Şəki ipəyi, Gəncə kəlağayısı, Kəşmir parçası, Qabardin parça və s. Lakin bunların çoxu rus dilinin təsiri ilə kiçik hərflə yazılmaqdadır.

Rumlar (et.) – Rum ölkəsində yaşayan xalqların ümumi adı. Bax: Rumlu. Şair "rumlar" dedikdə rumlu alimləri nəzərdə tutmuşdur.

Belə nəql edir bu vəqəni **rumlar** (İ-62).

Rumlu (məc. et.) – Rum Kiçik Asiya türklərinin yaşadığı hesab olunur. Rumlu dedikdə burada "türk" etnonimi nəzərdə tutulmalıdır. "Türk" dedikdə isə ağlıq mənası başa düşülməlidir.

Ağ **rumlu** sərdarı: - Kənar ol, - deyə,
Qovsan dərgahından dönər zənciyə (YG-38).

Yəni əgər sən – Körpə Arslan şah (bax) zamanın alay başçısı olan gündüzü zabitlikdən azad etsən, o (gündüz) zənci kimi üzü qara olar, gecəyə çevrilər. Başqa sözlə, Körpə Arslan şah zaman və məkana mütləq hakimdir.

Şair gündüzün işığını rumluya bənzətmişdir.

Gündüz kimi ağappaq, gecə kimi qapqara,
Ağ **rumlu**, qara zənci olmaq hara, sən hara? (SX-89).

Nə qədər ki, zənciyə bənzər gecə və rumluya bənzər ağ gündüz kimi ikiüzlüsən, cəhalət və zülmətdən çıxa bilməyəcəksən.

Rumlu, Zəngi (qoşa məc. ant. et.) – Klassik poeziyada rumlu – ağ rəng, zəngi – qara rəng mənasında işlənmişdir. Burada dünyanın ikiüzlü olmasına işarə edilir. Buna görə də rumlu – zəngi etnonimləri antonim mənaya malikdir.

Bu dünyanın vardır ikicə rəngi:
Bəzən **rumlu** olur, bəzən də **zəngi** (XŞ-217).

Rumpərəst (məc. an.) – Şair "rumpərəst" dedikdə İskəndərə pərəstiş edən hindli həkimi nəzərdə tutur.

Rumpərəst hindli doymaq bilmədi,
Öz hind qılıncını çəkərək dedi (İ-490).

Rumpərəst – yəni Yunandan, Rumdan(burada isə rumlu İskəndərdən) xoşu gələn deməkdir. Hind qılıncını çəkərək – yəni qılınc kimi kəskin dili ilə danışmağa başlayaraq...

Rum-rus dastanı (id.) – "İskəndərnamə"yə işarədir.

Neçə gözəl dərdi sinəmdə ikən
Rum-rus dastanını necə yazım mən? (İ-448).

Rum dastanı – İskəndər Ruminin dastanını, Rus dastanı isə İskəndərin ruslarla müharibələrini bildirir ki, bunlar "Şərəfnamə"də geniş təsvir edilmişdir.

Rum-zənci oyunu (məc. id.) – Şair gecə və gündüzün bir-birini əvəz etməsini Rum-zənci oyununa bənzədir. Burada eyni zamanda metaforik şəkildə gündüz "Rum"a, gecə isə "zənci"yə bənzədilmişdir.

Üç gün gəlib keçdi, yenə asiman
Rum-zənci oyunu oynayan zaman
İskəndər buyurdu qoca Sokrata
Vursun üzüyündən muma möhr o da (İ-519).

Rum-zənci oyunu – burada rum(rumlu) – ağ, zənci – qara mənasında işlənmişdir. Asimanın Rum-zənci oyunu oynaması səhərlə axşamın, gündüzlə gecənin bir-birini izləməsini bildirir.

Mənası: üçüncü gün səhər olanda İskəndər əmr etdi ki, Sokrat öz bilik üzüyünün möhürünü onun mum kimi hər naxışı qəbul edən istedadlı ağlına vursun, onun üçün nəsihətnamə düzəltsin.

Rus (et.) – Şair "rus" dedikdə Qara dəniz, Qafqaz dağları və Xəzər dənizindən şimalda, Dnepr çayından şərqdə yaşayan türk xalqlarını nəzərdə tutmuşdur. "İskəndərnamə" əsərində isə "Rus" toponimi və etnonimi şərti xüsusiyyətlərə malikdir. Məsələn, Dara İskəndərə qarşı ordu çıxaranda şair "Rus"u İskəndərə tabe olan bir ölkə kimi göstərir. Çünki Daraya qarşı ordu toplayarkən İskəndər Rusdan da ordu alır.

Rumdan, Əfrəncədən, Misirdən, **Rusdan**
Bir ordu topladı gəlindən rəqsan (İ-119).

İskəndər rusların Azərbaycana hücumunu eşidəndə çox əsəbiləşir və deyir:

Qoymaram Bərtasdan, **ruslardan** nişan,
Başları qurtarmaz ayaq altından (İ-314).

İskəndərə qarşı vuruş təşkil ediləndə ruslar da Bərtas və Alandan olan pəhləvanlar kimi orduda xüsusi qrup təşkil edirlər:

O yanda **rus** ilə Bərtas və Alan
Harın atlar kimi coşurdu hər an (İ-345).

Şair rusların döyüşə hazırlığını təsvir edərkən elə hiss olunur ki, bu döyüşdə ruslar adı ilə türklər iştirak edirlər:

Zorba **türk ordusu** etdikcə şiddət
Türklərin qoluna gəlirdi qüvvət (İ-327).

Demək, şair "rus" dedikdə ancaq Dağıstanda, Xəzəristanda, Dnepr çayının şərqində və Volqaboyunda yaşayan türk xalqlarını nəzərdə tutmuşdur.

"Rus" toponim və etnonimi haqqında şairin özü tərəfindən verilən və "İzahlar"da olan müxtəlif məlumatları başa düşmək üçün bu barədə bir az da ətraflı məlumat vermək lazımdır. Bunu iki cür mülahizə ilə izah etmək olar:

1. N.Gəncəvinin işlətdiyi "Rus" toponim və etnonimi həm İskəndərin dövründə, həm də şairin öz dövründəki və "İzahlar"dakı reallığı düzgün əks etdirməyir. Şairin əsərlərində adı çəkilən "Çin" (bax) toponim və etnonimi Çin hüdudlarında yaşayan türk xalqlarını bildirdiyi kimi, "Rus" toponim və etnonimi də məşhur Türk imperiyasının qərbində yerləşən türk xalqları mənasında işlənmişdir.

Nizami ensiklopedik biliyə malik bir dahi idi. Onun əsərlərində müxtəlif elm sahələrinə aid zəngin materiallar mövcuddur. Təsadüfi deyildir ki, son illərdə Nizami əsərlərini təkcə ədəbiyyatşünaslar və şərqşünaslar deyil, riyaziyyatçılar, kimyaçılar, bioloqlar da tədqiq etməyə başlamışlar.

Nizami hər şeydən əvvəl qüdrətli söz ustası idi. Onun əsərlərində zamanın ayrı-ayrı kəsimləri arasında sərhəd yoxdur. O, keçmişdə olanları şahidi olduğu hadisələr kimi, öz dövründə baş verən hadisələri, dövr haqqında olan fikirlərini tarixi və ya əfsanəvi hadisə kimi qələmə alırdı. Bir sözlə, o istədiyi fikir və ideyaları inandırıcı şəkildə tərənnüm etməyi bacarırdı.

"İskəndərnamə" əsərində müxtəlif dövrlərdə yaşayan və müxtəlif millətlərin nümayəndələri olan alimləri və digər tarixi şəxsiyyətləri İskəndərin müasiri etmiş, istədiyi İskəndər obrazını yaratmışdır. Şair elmi fikirləri şeirlə ifadə etməyi bacardığı kimi, öz təxəyyülünün məhsulu olanları da elmi fikir kimi, tarixi hadisə kimi

qələmə verirdi. Bu mənada, "İskəndərnamə"də "Rus" toponim və etnonimi haqqında şairin söylədiyi fikirləri də tarixi fakt kimi qəbul etib, Alan və ya Xəzranı "qədim Rusun yeddi vilayətlərindən birinin adı" kimi izah etmək tarixi həqiqətdən çox-çox uzaqdır.

"İskəndərnamə" əsərində Qıntal Rus şahı kimi təsvir olunmuşdur. İskəndərin dövründə Rus dövləti var idimi?

"SSRİ tarixi" kitabında ən qədim dövrdən başlayaraq YIII-IX əsrə qədər olan materiallarda heç "rus" sözünə rast gəlinmir. Burada söhbət, ümumiyyətlə, slavyanlardan və müxtəlif tayfalardan gedir. "YI-IX əsrlərin daha sonrakı mənbələrində qeyd edilir ki, qədimdə slavyanları venedlər adlandırırlarmış. Səciyyəvidir ki, slavyanları elə indi də, o vaxtkı kimi, yəni almanlar vened, estonlar və finlər venye, veneyya adlandırırlar" (SSRİ tarixi. I c. Bakı, 1985. səh.41). "Bir sıra mənbələrdə şərq slavyanları antlar adlandırırdılar. İordan antların cənub-qərbində yaşadıqlarını qeyd edir. Onların torpaqları Lukomorya (Uqol) yaxınlığında Qara dəniz sahillərindən Dneprədək uzanır" (Yenə orada. səh. 56).

Şərq slavyanları tarix səhnəsinə Kiyev Rus dövlətinin yaranması ilə daxil olmuşlar. "Kiyev Rus dövləti şərqi slavyanlarda ibtidai icma quruluşunun dağılması və feodalizm cəmiyyəti yaranması prosesində meydana gəlmişdir. Şərqi slavyanlarda ibtidai icma quruluşu eramızın birinci minilliyinin ortalarında dağılmağa başladı. Həmin dövrdə iri tayfa ittifaqları(antlar, sklavinlər) yarandı. YI-YIII əsrlərdə ərazi-siyasi birləşmələr meydana gəldi... IX əsrin ikinci yarısında Kiyev və Novqorodun siyasi cəhətdən birləşməsi ilə Kiyev Rus dövlətinin təşkilinin başlanğıcını qoydu" (ASE. Y).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu nümunədə işlənən "sklavinlər" sözü Şərq elmində və Nizamidə adı çəkilən "Səqlab"("slavyan" mənasında) sözünün fonetik cəhətdən dəyişdirilmiş formasıdır. Əbül Qazi xana görə isə, türk xalqlarının ulu babası Yafəsin səkkiz oğlu olmuşdur: Türk, Xəzər, Səqlab, Rus, Minq, Çin, Qəməri, Tarix(A.N.Kononov. Rodovslovnaya Turkmen. Soçinenie Abu-l-Qazi xana Xivinskoqo. M.-L., 1958. səh. 39). Yəqin ki, sonralar etnonimə çevrilən bu qohum adlar və ya

tayfalar haqqında məhəbbətlə söz açan şair onlara məhz bu baxımdan yanaşmışdır.

Demək, İskəndər dövründə rus tayfalarının heç bir siyasi ittifaqı olmamışdır. "İskəndərnamə"də olduğu kimi onların nə şahlığı, nə də Qıntal adlı şahları var idi. Şair rus şahı və ruslar dedikdə Qara dənizin şimalında yaşayan müxtəlif türk tayfalarını nəzərdə tutmuşdur.

2. Slavyanların ilk tayfa ittifaqları YI əsrin sonu, YII əsrin əvvəllərində yaranmış, Kiyev Rus dövlətinin əsası isə IX əsrin ikinci yarısında qoyulmuşdur. Bu, məşhur türk imperiyasının süqutundan sonrakı dövrlərə təsadüf edir. Y əsrin birinci rübündə Aşino Şono (Aşina əsl ad, Şono isə totemdir və hər ikisi "şono" sözündən olub, qədim türk xalqlarının totemi olan "qurd" deməkdir) tərəfindən əsası qoyulan və müasir Çinin müəyyən hissəsini təçkil edən Şərqi Türküstandan başlayaraq Qara dənizə qədər olan bir ərazidə yerləşən Türk imperiyası IX əsrin birinci rübündə ərəb və Çin ordularının zərbələri altında darmadağın ediləndən sonra (L.N.Qumilev. Drevnie tyurki. M.,1967) slavyanların qüdrətli və müstəqil bir dövlət qurmaları üçün tarixi şərait yaranmışdı. Doğrudan da, IX əsrin ikinci yarısında bu dövlətin – Kiyev Rus dövlətinin əsası qoyuldu.

Bəlkə də, Nizaminin təsvir etdiyi Səqlab ("Yeddi gözəl"də) və Rus ("İskəndərnamə"də) dövlətləri elə şairin dövründə mövcud olan Rus dövləti olmuşdur. Lakin şairin dövründə Kiyev Rus dövləti 10-a qədər müstəqil knyazlıqlardan ibarət idi. Bəlkə də, şairin yeddi(Bu rəqəm bütün türk xalqlarında, o cümlədən Azərbaycan folklorunda ən çox işlənən uğurlu rəqəmlərdən biridir) rus soyunu təsvir etməsi də bu müstəqil knyazlıqlarla bağlıdır. Həm də rus vilayətlərinin Alan, Xəzran, Bərtas, Qıpçaq və s. türk xalqlarının adı ilə adlandırılması həmin xalqlar haqqında şairin geniş təsəvvürə malik olması ilə də əlaqələnə bilər.

IX əsrdən XII əsrə qədər Kiyev Rus dövlətinin tarixi inkişafının gedişi şairə imkan verə bilərdi ki, o, böyük uzaqgörənliklə bu nəticəyə gəlsin. Çünki Çin kimi nəhəng bir imperiyaya meydan oxuyan, slavyanları daim qorxu altında saxlayan Türk

imperiyası dağılmışdı. Səlcuqilər isə öz ərazilərini Şərq ölkələrinin hüdudlarında yayırdılar. IX əsrin ikinci yarısından türk tayfalarından olan peçenqlərin ərazisinin yarısı yenicə yaranmış Kiyev Rus dövlətinin tərkibinə qatılmışdı. Volqaboyu və Dneprdən şərq tərəfdə yaşayan türk tayfaları müstəqil əraziyə malik olsalar da, faktik şəkildə daxilən Kiyev Rus dövlətindən asılı vəziyyətə düşürdü. Məşhur Xəzər xaqanlığı da Rus dövlətindən xərac ala bilmirdi. Türk xalqlarında yaşayan ruslardan yüksək vəzifədə işləyənlər və yüksək maaşla türk ordularında xidmət edənlərin sayı isə getdikcə çoxalırdı.

YI-XII əsrlərdə rus ordusunun dəfələrlə Bizans imperiyasına çox uğurlu basqını və rusların xeyrinə bağlanan müqavilələr, onların böyük donanma ilə Bakıya hücumları, müxtəlif türk xalqlarının nümayəndələrinin rus knyazlıqlarına daxil olmaları (Onlara "qara papaqlılar" – "qaraqalpaqlar" deyirdilər; qalpaq – papaq deməkdir. Onların ailələri Kiyev Rus dövlətinin şərqində elə sərhəd qəsəbə və şəhərlərində yerləşdirilirdi ki, digər türk tayfalarının basqını zamanı ilk zərbəyə onlar məruz qalsınlar. Rus dövlətinin sərhədləri genişləndikcə qaraqalpaqların da yaşayış məskənləri sərhəd xətlərinə yaxınlaşdırılırdı. Vaxtilə Qara dənizin şimal sahillərində yerləçən qaraqalpaqların Xəzər dənizinin şərqinə qədər irəliləməsi, yəqin ki, bununla əlaqədardır. Hazırda onlar Özbəkistan Respublikasının Qaraqalpaq MR-də yaşayırlar) və türk tayfalarının ələ keçirilməsində onlardan geniş istifadə edilməsi və s. Nizamiyə tarixin nəbzini tutmağa, ayrı-ayrı xalqların, xüsusilə rus xalqının gələcək taleyi haqqında müəyyən nəticə çıxarmağa geniş imkanlar verirdi. Şairin dövründə Alan, Qıpçaq, Xəzəristan və b. türk xalqları müstəqil olsalar da, Nizami başa düşürdü ki, bu xalqlar sürətlə genişlənən Rus dövlətinin təsirı altındadır, onlar gec-tez öz müstəqilliyini itirəcəkdir. Tarix şairin uzaqgörənliyini, gələcəyi peyğəmbəranə şəkildə duyma qabiliyyətini real faktlarla sübut etdi.

Tarix, dilçilik, xüsusən onomastikaya aid aparılan son tədqiqatlar bir daha sübut edir ki, türk xalqları müasir rus xalqının, onun dövlətinin, dövlətçiliyinin, mədəniyyətinin formalaşmasında müs-

təsna rol oynamışdır. Kiyev Rus dövlətini yaradanlar da, onu 200 ilə qədər idarə edən də və tədricən bu dövlətin idarəsini öz slavyan nəvə və nəticələrinə güzəştə gedən, I Pyotra qədər Rusiyanın daxili və xarici siyasətində mühüm rol oynayan da məhz türklər olmuşlar... IX-X əsrdən başlanan bu proses, görünür, Nizami Gəncəvinin dövründə tədricən sürətlənmiş və diqqəti daha çox cəlb etmişdir. Elə buna görə də şair müxtəlif türk əyalətlərini mahiyyətcə türk olan qədim Rusun vilayətləri kimi göstərmişdir.

Rus, Zənci (qoşa məc. et.) – Rus Rusiya, zənci isə Afrika və b. ölkələrdə yaşayan xalqların ümumi adıdır.

Dünyada nə qədər **rus** var, **zənci** var,
Bundan daha yaxşı toy etməz onlar (XŞ-343).

Beytdə rus – ağlıq əlaməti kimi gündüzə, zənci – qaranlıq əlaməti kimi gecəyə işarədir. Beytin mənası: Dünya durduqca bundan yaxşı toy edilməz.

Rus dənizi (xat. top.) – Ölüm ayağında olan İskəndər keçmiş qəhrəmanlıqlarını xatırlarkən Rus dənizinin də adını çəkir. Yəqin ki, şair Rus dənizi dedikdə, Volqa çayını (Qədim adı İtildir) nəzərdə tutur.

Yudum məcucluğu dünya üzündən,
Rus dənizində də od qaladım mən (İ-584).

Rus eli (top.) – Slavyan və türk xalqlarının yaşadığı yerlər nəzərdə tutulur.

Dedi: - **Rus eli**ndə vardı qabaqlar... (YG-192).

Rus nəhri (məc. top.) – Volqa çayına işarədir. “Nəhr” ərəbcə çay, axar su deməkdir.

Gül rəng qılıncıyla, istəsə, həmən
Rus nəhri axıdar zəng çeşməsindən (XŞ-42).

Yəni Qızıl Arslan qılıncıyla Zəng çeşməsindən (Bizə elə gəlir ki, Zəng çeşməsi dedikdə şair zəncilərin çayı olan Nil çayını nəzərdə tutur) Volqa çayını axıda bilər (Bu, ən qüvvətli mübaliğədir).

Rus şahı, Rum şahı (ana. və ep. an.) – Bu antroponimik birləşmələr ancaq tərkiblərindəki “s” və “m” hərflərinə görə bir-birindən fərqlənir.

Rus şahı Qıntal bir yumşaq mum oldu,
Rum şahı İskəndər nəşəyə doldu (İ-349).

Burada "Rus şahı" adı "Rum şahı" ilə, Qıntal adı isə İskəndər adı ilə antonim qütblər təşkil edir.

Rusların Rüstəmi (məc. an.) – Rus pəhləvanı Tartusun köməkçi adı .

Mənə Tartus adı vermişdir anam,
Rusların Rüstəmi sayilir bu nam (İ-338).

Ruyin qələsi (top.) – Körpə Arslanın Ruyindiz (bax) qalasina işarədir.

Ruyin qələsinin varı boldur, bol (YG-310).

Ruyindiz (məc. top.) – İran Azərbaycanında Marağa şəhəri yaxınlığında bir qalanın adıdır. Lüğəti mənası "möhkəm qala" deməkdir. İndi Rəvəndüz adlanır. Həmin qədim və alınmaz qala Marağa hakimi Körpə Arslanın qərargahı idi. Şair "Yeddi gözəl" poemasında Qala gözəlinin (bax) qalasının hər bir daşını Ruyindizə bənzədir.

Orda işləməzdi oğrunun başı,
Çünki **Ruyindiz**di onun hər daşı (YG-194).

Nizami Ruyindiz dedikdə Körpə Arslan şahı nəzərdə tutur.

Bəxşiş qızılını vermişdi, yenə
Yaman borclu qaldı **Ruyindiz** mənə (YG-309).

Şair eyni zamanda metaforik şəkildə Ruyindiz qalasını Yerin mərkəzinə, qızıl məhvərə bənzədir.

Yerin mərkəzidir, qızıl məhvərdir,
Ruyindizdir, demək, çox mötəbərdir (YG-310).

Ruyintən İsfəndiyar (məc. an.) – "Ruyintən" İsfəndiyarın ləqəbidir və farsca iki sözdən düzəlmişdir. "Ruyin" – sinkdən, tuncdan düzəldilmiş, "tən" isə bədən deməkdir. "Tuncdan tökülmüş bədən" mənasında işlənir.

Bir babam **Ruyintən İsfəndiyar**dır,
Bu taxt ondan mənə bir yadigardır (İ-127).

Burada söhbət Daradan gedir. Dara metaforik şəkildə Ruyintən İsfəndiyara bənzədilmişdir.

Rühulqüdüs (məc. mif.) – Ərəbcə "ruhülqüds" – "müqəddəs ruh" deməkdir və iki mənası vardır: 1. İsa peyğəmbərin ləqəblərindən biri; 2. Cəbrayılın(bax) ləqəblərindən biri. Şair "Rühulqüdüs" dedikdə İskəndəri nəzərdə tutur.

Valislə Əflatun, bir də Fərfuryus
Heyrandı bunlara o **rühulqüdüs** (İ-492).

Əslində bu, "Ruhülqüds" şəklində yazılsa, daha düzgün olar. Eyni zamanda bu söz İsanın və ya Cəbrayılın ləqəbləri olduğu üçün böyük fərflə yazılmalı idi.

Rüstəm (məc. an.) – İranlıların ən məşhur əfsanəvi pəhləvanıdır. Bir sıra xariqüladə hünərlər göstərmiş, Keyqubad, Keykavus, Keyxosrov zamanlarında bir çox müharıbələrdə iştirak etmiş və qələbələr qazanmışdır. Sistan və Zabilistan hökmdarı olan Zalın oğludur. Herakl yunanların əsatiri qəhrəmanı olduğu kimi, Rüstəm də iranlıların əfsanəvi qəhrəmanıdır. Atası Zalın adı ilə əlaqədar olaraq Şərq ədəbiyyatında Rüstəm-Zal kimi də poetik obraza çevrilmişdir. "Şahnamə"də Rüstəmin bir çox qəhrəmanlıqları geniş təsvir olunmuşdur. Klassik ədəbiyyatda Rüstəm adı qəhrəmanlıq, pəhləvanlıq və yenilməzlik simvolu kimi işlədilmişdir.

Xosrov Pərviz Rüstəmə bənzədilir.

Atı yəhərlədi – **Rüstəm kimidir** (XŞ-80).

Nizami Şirvanşah Axsitanı yenilməz pəhləvan olan Rüstəmin yüzünə bərabər tutur.

Onun rikabında yüz **Rüstəm** durar,
Yenər qarşısında böyük ordular (LM-54).

Rüstəm, İsfəndiyar (qoşa müq. an.) – Şair eyni vaxtda Nüsrətəddin Əbubəkri (bax) həm Rüstəm, həm də İsfəndiyarla(bax) müqayisə edir.

Meydanda açdığı hünərlər ki, var,
Nə **Rüstəm** göstərmiş, nə **İsfəndiyar** (İ-49).

Rüstəm, Keyxosrov (qoşa xat. an.) – İskəndər vəsiyyət edərkən öz keçmiş igidliklərini xatırlayanda bu adları da yada salır.

Rüstəmin bəxtindən mən soraq verdim,
Keyxosrov təxtindən xəbər gətirdim (İ-584).

Rüstəm, Keyqubad (qoşa məc. an.) – Rüstəm ən güclü pəhləvan, Keyqubad isə ən qüdrətli hökmdar rəmzidir. Xosrovun Rüstəm və Keyqubad ilə müqayisə olunması onun daha da güclü və qüdrətli hökmdar olmasını nəzərə çarpdırmaq məqsədi güdür.

Atı yəhərlədi – **Rüstəm** kimidir,
İçərkən görənlər **Keyqubad** bilir (XŞ80).

Rüstəm, Rəxş (qoşa məc. on.) – Körpə Arslan şah (bax) əfsanəvi Rüstəm pəhləvana, həm də onun atı metaforik şəkildə Rüstəmin atı olan Rəxşə(bax), Fələk isə bu ata bənzədilir.

Rüstəmdir, mindiyi **Rəxşi** fələkdir
Böyükdür, böyüklük verməkdə təkdir(YG-34).

Rüstəmi-Zal (an.) – Bax: Rüstəm.

Hanı **Rüstəmi-Zal**, Simürğ ilə Sam...(İ-168).

Rüstəmi-Zal, Simürğ, Sam, Firiduni-Fərhəng, Cəmşid (qrup xat. on.) – Fəribərz(bax) pəhləvan İskəndərin suallarına cavab verərkən bu adları xatırlayır. Ağıllı qoca bu fikirlə İskəndərə başa salmaq istəyir ki, bütün canlılar ölümə məhkumdurlar. Odur ki, şahlar ədalətli olmalı nahaq qan tökməməlidirlər.

Hanı **Rüstəmi-Zal, Simürğ** ilə **Sam,**
Firiduni-Fərhəng, o **Cəmşid** və cam?
Yer yedi, keçmədi çox zaman belə,
Yeməkdən qarnı, bax, doymamış hələ (İ-168).

Rüstəmlər (məc. an.) – Şair Nüsrətəddin Əbubəkrin(bax) gücünü, qüdrət və əzəmətini göstərmək üçün sinekdoxadan istifadə etmişdir. Məlumdur ki, "Rüstəm" adı Şərq ədəbiyyatında ecazkar qüvvəyə malik olan pəhləvan kimi simvolik məna daşıyır. "Rüstəmlər" ifadəsi isə bu simvolik mənanın təsir qüvvəsini qat-qat artırır.

Atını **Rüstəmlər** üstünə sürər,
Hər taxtı bəzəyər, həm də tac verər (İ-48).

- S -

Sacayaq (kos.) – Ulduz adı.

Sacayaq adlanan ulduz da bu an
Göyün qazanına pay verir haman (LM-185).

Saqi (an.) – Ərəb sözüdür, su verən, su paylayan və satan; içki məclisində şərab paylayan deməkdir. Klassik ədəbiyyatda isə "Saqi" ilham pərisi mənasında işlənmişdir.

Saqi! Şərab ver ki, mənzil uzaqdır
Xəyalım bu yolda yorulacaqdır (LM-67).

Qara geyənlərin şahı səmadakı bağda olarkən Cənnət gözəllərinin təşkil etdiyi məclisdə Saqi şərab paylayan şəxsdir.

Saqi şərab verdi, köpürdü, daşdı,
Həya keşikçisi durmadı, qaçdı (YG-149).

Saleh (məc. ag.) – Peyğəmbərlərdən birinin adı və ərəbcə xeyirxah mənasındadır. Əfsanələrə görə, Salehin bir dəvəsi var imiş ki, peyğəmbərin bütün gücü də onda imiş. Düşmənləri bu dəvəni öldürdükdən sonra Salehin tərəfdarları qara geyinib matəm saxlamışlar. Şair qarğanı xeyirxahlıqda Salehə, sakitlikdə onun dəvəsinə və qaralıqda matəm libası geymiş salehilərə oxşadır.

Saleh bir quş idi o yazıq qarğa,
Salehilər kimi geymişdi qara (LM-144).

Sam (an.) – Məşhur əfsanəvi İran pəhləvanı Rüstəmin(bax) babası hesab olunur. Zal Samın(Sam ərəbcə zəhərli, ağıllı deməkdir) oğlu, Rüstəmin atasıdır. Rəvayətə görə, Zal anadan olanda saçı ağappaq imiş və atası Sam bunu bədbəxtlik əlaməti hesab edərək, uşağı bir dağ döşünə atdırmışdı. Guya əfsanəvi Simurğ quşu onu götürüb, Qaf dağına aparmış və öz yuvasında bəsləmişdir.

Saysız xəznə yığmışdı qılıncının zoruna,
Ondan **Samla** Firidun nə apardı goruna? (SX-78).

Şair dünyanı Sama bənzətmişdir.

Dünya – **Samdır**, qocalmaz, Zaltək qocaldı bəşər (SX-80).

Sam, Firidun (qoşa xat. an.) – Sam pəhləvanlığı, Firidun isə hökmdarlığı ilə zəngin xəzinələr toplasalar da, öləndə özləri ilə heç nə aparmadılar. Nuşirəvan bu şəxsləri xatırlamaqla dünyanın faniliyini, ölüm ayağında var-dövlətin gərəksizliyini başa düşür.

Saysız xəznə yığmışdı qılıncının zoruna,
Ondan **Samla Firidun** nə apardı goruna? (SX-78).

Sam oğlu Simnar (an.) – "Yeddi gözəl" poemasında obraz adı. Nemanın sifarişi ilə Bəhram üçün Xəvərnəq sarayını tikən məşhur Rum memarı.

Sənin axtardığın qadir sənətkar
Olsa, ola bilər **Sam oğlu Simnar** (YG-58).

Sam oğlu Zal (məc. an.) – Birinci misrada bir şəxsə aid olan bu antroponimik birləşmə ikinci misrada müstəqil adlar(Sam və Zal) kimi işlədilir.

Zümrüd quşu bəsləyən **Sam oğlu Zaldı** bəşər,
Dünya – **Samdır**, qocalmaz, **Zaltək** qocaldı bəşər (SX-80).

Birinci misrada bəşər Sam oğlu Zala, ikinci misrada isə dünya Sama, bəşər isə yenə Zala bənzədilir. Zal anadan olanda ağ tüklü idi. Bəşərin Zal kimi qocalması ifadəsində buna işarə olunur.

Samani (an.) – Samanilər Orta Asiyada, Xopasanda və İranın bir hissəsində hökmranlıq etmiş (874-999) hökmdarlar sülaləsidir. Onlarin saraylarındakı xalça və gəbələr öz naxış və qeyri-adi gözəllikləri ilə məşhur idi. Şair bağdakı gülzarı Samanilərin həmin məşhur xalçalarına bənzədir.

Nazənin yerişli sərvi-xuraman
Samani xalıda yasəməndi san (YG-266).

Samiri (məc. an.) – İslam əsatirinə görə, Musa peyğəmbər zamanında yaşamış məşhur bir zərgər olub, qızıldan qayırdığı gövsalə (biryaşar dana) ilə Musanın ümmətini yoldan azdırmış adamın adı. Şair Məcnunun dayısı Səlim Amirini Samiriyə bənzədir.

Ona deyirdilər Səlim Amiri,
Samiri kimiydi ağlı, tədbiri (LM-205).

Sarı günbəd (er.) – Qədim astroloji anlayışa əsasən sarı rəng və yekşənbə gününü ifadə edən Günəş planetinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdir. Bu günbəddə ikinci iqlim padşahının qızı yaşayır.

O bürc ki, **günəşdən** verirdi xəbər,
Saraltmışdı onu üstündəki **zər** (YG-133).

"Sazi-novruz" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"Sazi-novruz"unu çalanda tamam
Tale də edərdi o günü bayram (XŞ-168).

Seçilən (ag.) – Mustafa(bax) sözünün hərfi tərcüməsidir. Mustafa isə Məhəmməd peyğəmbərin məşhur adlarından biridir.

Məhəmməd **seçilən**, Allah seçəndir (YG-24).

Seçilən Məhəmməd – Məhəmməd əl-Müstəfa deməkdir.

Seqseyn (top.) – Şairin dövründə məşhur olan, indi isə ancaq tarixi mənbələrdə xatırlanan yaşayış məskəni. Bizcə, Seqseyn toponimi mənbələrdə adı çəkilən Sakasen və ya Sekasen adlarının eynidir. E.Əlibəyzadə, K.Vəliyevin "Kökümüz haradandır?" məqaləsində yazırlar: "İndiki Kür-Araz düzənliyinin qədim adı kimi xatırlanan Sakasen – Sekasena (Sən saksan, saka torpağısan) toponimləri bu ərazilərin qədim sakinləri türkdilli sakların, bizim əcdadlarımızın dilinin və ruhunun canlı yadigarıdır" ("Azərbaycan kommunisti", № 3, 1989. səh. 61-62).

Ə. Fərzəli yazır: "Yadıma "tarixin atası" yunan alimi Herodot və onun xəritəsi düşür. 2500 il əvvəlki çağlardan xəbər verən həmin xəritədə Ağdamın və indiki bütün dağlıq və aran Qarabağın yerləşdiyi ərazi həmin xəritədə "Sakasena" adlandırılıb. Bu da saklar, yəni oğuzlar yaşayan torpaq deməkdir. Sakasena – sakanadır" ("Azərbaycan gəncləri", 14 avqust 1990).

Strabona görə, Şaki (indiki Şəki) Sakasenin qısaldılmış formasıdır. Mirzə Bala "Azərbaycan tarixində türk Albaniya" əsərində bu ad haqqında daha ətraflı məlumat vermişdir: "Son zamanlar Şimali Azərbaycanda aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş dəlillər Sakaların tamamilə adı çəkilməyib, bəlkə də, Albaniya daxilində böyük kütlələr halında yerləşmiş olduqlarını göstərmişdir. Belə ki, "Su", "Susakan", "Sukasen", "Şaki" və s. coğrafi adlar bu yerləşmənin bir əlaməti idi. Zəki Vələdi Toğana görə (Ümumi Türk tarixinə giriş. I. səh. 159-160), "Sakalar miladdan öncə 665-ci ildə Assur kitabələrində adı "Qoqu" və ya "Qoq" şəklində çəkilən hökmdarların rəhbərliyi altında, Kür çayını keçərək Gəncənin qərbində "Qoqaren", şərqində isə "Sakasen" adını verdikləri yerdə yerləşdilər. "Sakasen" adı "Saka" kəlməsinin şəhər və türbə mənasını verən türkcə "sin" sözü ilə birləşdirilməsindən ibarət olub aşağı İdildəki "Saksin" şəhərinin adı ilə birdir. Uzaq

Şərqdə “Xatun Sin” və Monqolustandakı “Bolqasin” də bu sıradandır” (“Azərbaycan”, № 10, 1989. səh.124).

Demək, birinci nümunədə “Sakasen”dəki “sen” II şəxsin təkinin xəbər şəkilçisi, ikinci nümunədə isə şəhər, türbə mənasını verən söz kimi izah olunmuşdur. Bizcə, ikinci nümunə daha inandırıcıdır.

Səmərqənddən tutmuş **Seqseynə** qədər
Qulları durmuşdu belində kəmər (XŞ-367).

Burada söhbət Qızıl Arslandan gedir.

“Səbz dər səbz” (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

“Səbz dər səbz” nəğməsi başlasa əgər,
Saralmış bağlarda açardı güllər (XŞ-168).

Səd (kos.) – İyirmi səkkiz Ay mənzillərindən biridir.

Səd cilovlamışdı Əxbiyanı, bax (LM-185).

Səddə (xron.) – Novruz(bax) bayramına əlli gün qalmış iranlıların bayram etdiyi gündür; guya od bu gün tapılmışdır. Atəşpərəstlik dininin banisi Zərdüştün iradəsi ilə keçirilən bu bayramda od yaxıb şənlik edərlər.

Muğlarda belə bir azar da vardı,
Hər ilin başında bir qız alardı.
Novruz ilə **Səddə** bayramlarında
Ayinlər yenidən olurdu bərpa (İ-172).

Xristianlıq dininə görə, “Dirilmə”(İsa peyğəmbərin dirilmə günü nəzərdə tutulur) günündə keçirilən bəzi ayinlər atəşpərəstlərin bu ayinindən götürülmüşdür.

Sədeyr (məc. mif.) – “Xəmsə”nin ayrı-ayrı kitablarında Sedir, Sidrə(bax), Sədrə kimi yazılan Sədeyr(sədd – son xətt və deyr – ibadətxana sözlərindən düzəlmişdir) göyün yeddinci qatında təsvir olunan əfsanəvi bir sarayın adıdır. Ərəbcə ona Sidrətülmüntəha(Sidrət-əl-Müntəha və ya Sidrətül-Müntəha) da deyirlər. Uca, yüksək mənasında işlənir.

Şairlər Xəvərnəq, **Sədeyr** hüsnünə
Qəzəllər yazdılar hey dönə-dönə (YG-62).

Göylərə ucalan **Sədeyrin** yanı
Abad bir kənd idi, süd-yağ meydanı (YG-63).

Nizami Xəvərnəq sarayını metaforik şəkildə Sədeyr sarayına bənzətmişdir.

Səhənd dağı (top.) – Cənubi Azərbaycanda(İranda) vulkanik dağ massivi. Zirvələri daim qarla örtülüdür (ASE.YIII).

Gəzərkən o çıxıb **Səhənd dağını**
Üzər oxla qurdun əl-ayağını (YG-35).

Səhər xəlifəsi (ap. an.) – Günəş planeti metaforik şəkildə səhər xəlifəsinə bənzədilmişdir.

Səhər xəlifəsi – günəş doğaraq,
Nurilə zülməti qovaraq iraq (XŞ-31).

Səhər quşu (məc. zo.) – Günəş planeti metaforik şəkildə səhər quşuna bənzədilmişdir.

Səhər quşu yuxudan səhərtək bəndə düşdü (SX-64).

Səqlab (et.) – Ərəblərin slavyanlara, eyni zamanda ruslara verdikləri addır. Səqlablı-slavyan (rus) deməkdir. Onlar Danub (indiki Don) çayı sahilində yaşamışlar. Bu tayfanın gözəlləri nümunə kimi göstərilmişdir.

Səqlablı atını çapmışdır Çinə (İ-224).

Səqlab banusu (məc. an.) – Bax: Səqlab. Şirin özünü Səqlab banusuna və gözəl çiçəyə bənzədir.

Səqlab banusiyəm – bir gözəl çiçək
Qalmışam şüşədə indi gülabtək (XŞ-391).

“Səqlab” gümüşü (növ.) – Səqlab ölkəsində istehsal olunan gümüş.

“Səncab” ölkəsinin başında durum,
“**Səqlab**” **gümüşünə** sikkəmi vurum(İ-228).

“Səqlab gümüşü” həqiqi mənada növ, məcazi mənada isə Səqlab ölkəsi deməkdir. İskəndərin dilindən deyilmiş bu nümunədə hər iki məna öz əksini tapmışdır.

Səqlab ölkəsi (top.) – Slavyanların(rusların) yaşadıqları ölkə.

Səqlab ölkəsinin slavyan qızı (YG-191).

Səlam(an.) – "Leyli və Məcnun" poemasında obraz adı. Bağdaddan Məcnunun(bax) görüşünə gələn gəncin əsl adı. "Səlam" ərəb sözüdür və sülh, əsayiş; salamatlıq kimi mənaları vardır.

Dünya söyləyirdi adına **Səlam**,
Bəxt isə vermişdi o gəncə səlam (LM-225).

Səlcuq (məc. an.) – Səlcuqilər sülaləsinin banisi. X əsrin əvvəlləri – XI əsrin əvvəllərində təxminən 105-107 il yaşamışdır. Dukaqın oğludur. Bir müddət oğuz türklərinin hökmdarına (yabğu) xidmət etmiş, sonralar arada yaranan ziddiyyətə görə Cənd (Sırdəryanın aşağı axarındakı) çöllərinə getmişdir. X əsrin sonlarında islamı qəbul etmiş və "kafir" türklərə qarşı vuruşmuşdur. Onun varisləri Səlcuqilər dövlətini yaratmışlar (ASE.YIII). Bu dövlətin (XI – XIY əsrlər) banisi Toğrul bəy olmuşdur. O, 1033-1036-cı illərdə Orta Asiyanın mərkəzi və Qərb hissəsini, İranı, İraqı və Azərbaycanı işğal etdi və qüdrətli dövlət yaratdı.

Şair "Səlcuq" sözünü səcdə edənlərin pənahı, pərəstişgahı mənasında işlətmişdir.

Səcdə edənlərin **Səlcuqisən** sən,
Bir də son vücudun mirası sənsən (LM-278).

Səlim (an.) – Məcnunun dayısı Səlim Amirinin əsl adı. Ərəbcə sağlam; eyibsiz, nöqsansız, doğru, dürüst deməkdir.

Dedi ki, "Ey adı qəlbimtək **Səlim**,
Hər sözü, söhbəti, salamı həlim... (LM-206).

Səlim Amiri (an.) – "Leyli və Məcnun" poemasında obraz adı. Bu antroponimik birləşmədə birinci komponent əsl ad, ikinci komponent isə onun mənsub olduğu qəbilənin adıdır (etnonimdir).

Ona deyirdilər **Səlim Amiri**,
Samiri kimiydi ağlı, tədbiri (LM-205).

Səmak (kos.) – Ulduz adı. Bax: Simak.

Yolda göstərirdi **Səmak** cədvəli
Ona gah Ramehi, gah da Əzəli (YG-27).

Söhbət merac zamanı Məhəmməd peyğəmbərdən gedir.

Səməntürk(an.) – "Xosrov və Şirin" əsərində obraz adı. Səmən (farsca yasəmən ağacı və gülü) və türk sözlərindən yaranmışdır.

Səməntürk dedi ki: “Gecə nur səpən... (XŞ-130).

Səmərqənd (top.) – Orta Asiyanın ən qədim və məşhur şəhərlərindən biridir. Əsası eramızdan əvvəl YI əsrdə(bəzi məxəzlərdə IY əsrdə) qoyulmuşdur. Onda şəhərin adı Maraqanda idi. Səmərqənd müxtəlif dövrlərdə hakimiyyət sürmüş müxtəlif sülalələrin paytaxtı olmuşdur. XIY əsrin sonu, XY əsrin əvvəllərində Teymurləngin böyük imperiyasının paytaxtı idi. Səmərqənd tarixi abidələrlə zəngindir.

Özbəkistan Respublikasının Zərəfşan çayı vadisində yerləşən Səmərqənd şəhəri eyni vilayətin mərkəzidir. ”Səmərqənd” adının mənası haqqında müxtəlif fikirlər mövcuddur. Əfsanəyə görə, Yəmən çarı Şəmar (Səmar) şəhəri zəbt edəndə onu öz adı ilə adlandırıb. ”Səmərqənd”in özbək dilində “səliskənd” sözündən yaranıb “böyük kənd” mənasında olması fikri də söylənilir. Bəzi tədqiqatçıların fikrincə, şəhər ərəb şahzadələri Səmər və Qəmərin adını daşıyır. Belə fikir də irəli sürülür ki, ”Səmərqənd”in mənası “meyvə və məhsullar şəhəri”, “bərəkətli”, ”yağlı”, ”iri şəhər” deməkdir.

Şəbxunu Xarəzmdə, **Səmərqənddədir** (XŞ-38).

Nizami bu şəhərin İskəndər tərəfindən abadlaşdırılması haqqında məlumat verir. Demək, şəhərin e.ə. YI əsrdən mövcud olması fikri həqiqətə daha uyğundur.

Səmərqənd şəhrinə o verdi zivər,
Cəndi də tikdirmiş böyük İskəndər (İ-56).

Səmərqənd çubuqları (məc. fit.) – Taysız gözəlin(bax) bu vaxta qədər heç kimin öpə bilmədiyi dodaqlarının Səmərqənd çubuqları ilə bağlı olduğunu göstərir.

Öpüşün qapısı bununla belə,
Bağlanmış **Səmərqənd çubuqlarıyla** (İ-369).

Yəni dodaqlarım gözəl, öpüşüm çox şirinsə də, lakin onların qapıları Səmərqənd ağacı ilə bərk bağlanmışdır, oradan öpüş içəri girə bilməz.

Səncab(top.) – Əfqanıstanın şimal-şərqində olan Herat şəhərinin içindən axan çaydır. Həmçinin əski Türküstanda bir vilayət

adıdır. Dərisindən qiymətli xəz əldə edilən boz dələyə də səncab deyilir.

“Səncab” ölkəsinin başında durum... (İ-228).

Burada söhbət İskəndərin arzularından gedir. Eyni zamanda “Səncab” ölkə adı olduğu üçün dırnaqda yazılmamalı idi.

Səncər (an.) – “Qarı və Sultan Səncər dastanı”nda obraz adı. O, məşhur Səlcuq sultanı Məlik şahın oğludur. Sultan Səncər 1097-1157-ci illərdə Şərqi İranı idarə etmiş və 1118-ci ildən isə Səlcuqilərin baş sultanı olmuşdur.

Haqsızlığın odunda bir qarı yandı oda,
Səncərin ətəyindən yapışdı bir gün o da... (SX-85).

Səncər (xat. an.) – Şair Sultan Səncərin öz sikkəsini yalnız qızıl pul üstünə vurdurmasını xatırladır. O, qüdrət və əzəmət rəmzi kimi tarixdə tanınmışdır. Şair də məhz buna işarə edir.

Civə kimi getmədi kim ki, qızıla sarı,
Gümüş oldu, əzmədi **Səncərin** toxmaqları (SX-50).

Şair Sultan Səncərin zülmünün nəticəsi olaraq zülmə düçar olmasına da işarə edir.

Xorasanda **Səncərin** zülmü elə car oldu,
Eşitmədi bunları, bəlaya düçar oldu (SX-87).

“Qarı və Sultan Səncərin dastanı”nda şair onun hansı bəlaya düçar olması haqqında bir fikir söyləmir. Lakin tarixi faktlar şairin bu fikrinin doğru olduğunu təsdiq edir. Çünki doğrudan da, Sultan Səncər eyş-işrətə aludə olduğundan ölkənin idarəsini öz yaxın qohumlarına tapşırmışdı. Ona vergi verən bir tayfaya ədalətsizlik edib, onlardan alınan vergini artırdığı üçün, Sultan Səncər həmin tayfa tərəfindən əsir alınır. Bunun nəticəsində şahlıq əlindən çıxır. Əsirlikdən qaçdıqdan sonra isə ölkənin qarət və talan edildiyini görərək bağrı çatlayıb ölür.

Səncər sarayı(məc. er.) – “Səncər sarayı” dedikdə, burada ümumiyyətlə, şah sarayları nəzərdə tutulmuşdur. Çünki qızıl-quşlar, adətən şah saraylarında saxlanılır.

Yerin – **Səncər sarayı**, peşən – təklik olubdur,
Sinəsini sökdüyün daim kəklik olubdur (SX-151).

Səndəl rəngli günbəd (er.) – Qədim astroloji anlayışa əsasən səndəl rəngli və pəncşənbə gününü ifadə edən Müştəri(Yupiter) planetinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Burada altıncı iqlim padşahının qızı yaşayırdı.

O ki Müştəriyə həmahəng idi,
Bəzəyi, düzəyi **səndəl** rəng idi (YG-133).

Səndərus (fit.) – Ağacdan sızan sarı qatı maye. "Səndərus" ərəb sözüdür və bəzi iynəyarpaqlı ağacların şirəsindən hazırlanır. Ondan kamança kirişinə sürtmək üçün istifadə olunur.

Fəryada gəldikcə şeypur ilə kus,
Açılır qırmızı güldən **Səndərus** (İ-337).

Səngi-əzəm (top.) – Qibtdə (Qədim Misirdə) qaya adı. "Səng" farsca "daş", "əzəm" isə ərəbcə "ən böyük" deməkdir. "Nəhəng daş qaya" mənasındadır.

Ölkədə bir guşə şux laləzardı,
"Səngi-əzəm" adlı bir qaya vardı (İ-451).

Sərəndib (top.) – Seylonun keçmiş adı. Dini rəvayətə görə, Adəm Behiştdən Sərəndibə düşmüşdür.

Həyat verdi həyatsız, növraqsız yer üzünə,
Sərəndibdə şahanə çadır qurdu özünə.
Günahkar üzüqara gəlib çatdı bu yurda,
Bədnamlıq ləkəsini yuyub atdı bu yurda (SX-71).

Biabırçılıqdan Sərəndibə qaçıb orada onun günahından solmuş ismət gülünü tövbə ilə suladı. Sərəndibə qaçarkən günahdan qaralmış üzünün qarasını orada yerə tökdü. Dini əsatirə görə, hindli və seylonluların üzləri həmin səbəbdən qaradır.

"Sərəndib" adını hindcə Seylon adasının adı kimi izah edirlər. Amma bizə elə gəlir ki, bu addakı "sərən" və ya "saran" sar, sarı adları ilə əlaqədar olub, qədim türk tayfaları olan sarların və ya sarıların yaşadığı yer mınasında işlənmişdir. "Dib" isə Azərbaycan sözü olub, ucqar mənasında işlənmişdir. Demək, Sərəndib və ya Sarandib – sarların və ya saranların yaşadığı ucqar yer kimi başa düşülə bilər.

Sərəndib, Adəm (xat. on.) – İskəndər vəsiyyət edərkən keçmiş igidliklərini xatırlayanda Sərəndib və Adəm adlarını da yada salır.

Hətta **Sərəndibə** gedib çıxaraq,
Adəmin izinə basdım mən ayaq (İ-584).

Sərfə (kos.) – İyirmi səkkiz Ay mənzilindən biridir.

Əzra kənar durmaz gözəl **Sərfədən** (LM-185).

Sərhəng (an.) – "Yeddi gözəl" poemasında obraz adı. "Sərhəng" fars sözüdür, qoşun böyüyü , polk komandiri, polkovnik deməkdir.

Sərhəng öldürməyib keçdi qanından.
Söylədi: - Amandır, bu sirri açma... (YG-105).
Bir **sərhəng** vardı ki, nəsli çox ulu,
Şir kimi acıqlı, qurdtək qorxulu (YG-104).

Bu acıqlı və qorxulu sərkərdəni Fitnə öz şirin dili ilə yumşalda bilir. Bu isə Fitnə obrazını səciyyələndirən əsas xüsusiyyətlərdən biridir. Bax: Fitnə.

Sərir (kos.) – Ulduz adı.

Sərir üç ulduzla bir məclis qurmuş,
Dördüncü fələyin altinda durmuş (LM-186).

Sərir (top.) – Dağıstanda avarların əcdadlarinin yaşadığı dağlıq ölkənin adı. "Sərir" adı yerli hökmdarın titulu olan "Sahib əs-sərir"(taxt sahibi) sözünün qısaldılmış formasıdır. Guya axırıncı Sasani şahı Yəzdəgird qızıl taxtı və xəzinəni ərəblərin əlinə keçməsin deyə, bunları bir nəfərlə Sərirə yollamışdı. Sonralar taxt və xəzinəyə sahiblənən həmin şəxs ölkədə hakimiyyəti ələ keçirmişdi. Qonşu alanlar və xəzərlərlə gah ittifaq bağlayan, gah da müharibə vəziyyətində olan Sərir o dövrdə Dağıstanda ən güclü hakimlərdən biri idi. Təqribən 851-ci ildə Şirvanşah Sərirə hücum etdi. 968-ci ildə Dərbənd əmirliyinin müttəfiqi olan sərirlilər sonralar. Şirvanşahlar tərəfə keçib 971-ci ildə Dərbənd əmirini məğlubiyyətə uğratdılar (ASE.VIII).

Nizaminin təsvirində isə Sərir bir şəhərdir və guya Keyxosrovun qeyb olduğu mağara buradadır.

Ordunu **Səririn** şəhrinə çəkdi,
Keyxosrov taxtını görmək istərdi (İ-241).

Burada söhbət İskəndərdən gedir. Şair İskəndərlə bağlı rəvayətləri zənginləşdirmək məqsədi ilə öz dövrünə yaxın əsrlərdə baş vermiş hadisələri İskəndərin dövrü ilə səsləndirmiş, Yəzdəgird adını Keyxosrovla, Sasani sülaləsini Kəyan sülaləsi ilə əvəz etmişdir.

Sərirli (et.) – Sərir ölkəsində (və ya şəhərində) yaşayan xalqın adı (Xalqın yaşadığı ölkə və ya şəhərin adı ilə adlanması).

Sərirli eşitdi İskəndər gəlir,
Keyxosrov taxtını görmək istəyir (İ-241).

Sərraf (an.) – "İskəndərnamə" əsərində olan "Hekayət"də epizodik obraz adı. "Sərraf" ərəb sözüdür və bir dövlətin pulunu müəyyən faizlə başqa bir dövlətin pulu ilə dəyişən adam; məcazi mənada isə başa düşən, hər şeyi dərindən bilən deməkdir. Şair isə bu sözü qızıl və digər qiymətli daş-qaş satan mənasında işlətmişdir. Ad obrazı düzgün xarakterizə edir.

Gülərək o **sərraf**, o azad insan,
Söz açdı qızılın qarışmasından (İ-31).

Sərvinaz (an.) – Birinci iqlim padşahının qızı tərəfindən söylənən əfsanəvi nağılda obraz adı. "Sərv"(farsca cənubda bitən həmişəyaşıl ağacın adı) və "naz" sözlərinin birləşməsindən əmələ gəlmiş və "nazlı gözəl" mənasında işlənmişdir.

Başını qaldırdı keçmədən bir az,
Kənizə üz tutub dedi: - **Sərvinaz**... (YG-147).

Sərvinaz xanımlar xanımı Türkütazın kənizidir.

"Sərvi-səhi" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"Sərvi-səhi" səsi gəlcək qulağa
Bülbül sarmaşırdı güldə budağa (XŞ-168).

"Sərvi-səhi" – "sərv"(bax: Sərvinaz) və "səhi"(farsca düz, qədd-qamətli) sözlərindən düzəlmiş və həqiqi mənada "uzun yaşıl ağac", məcazi mənada isə "ucaboy gözəl" kimi başa düşülə bilər.

"Sərvistan" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"Sərvistan" başlayıb ötəndə dil-dil
Səba sərvistana girməzdi bir il (XŞ-168).

Səyamək (məc. an.) – İran mifologiyasında birinci adam və birinci şah olmuş Kəyumərsin oğlu, "Şahnamə"nin qəhrəmanlarından biridir. Şair Bəhram Guru Səyamək**in** barına – meyvəsinə bənzədir.

Varlıq aləminə bəzək salmısan,
Səyaməkin təzə, tər bir barısan (YG-87).

Səyavuş (məc. an.) – Şair torpağa axan qanı toxuma, həmin toxumdan göyərə biləcək məhsulu isə Səyavuşa bənzətmişdir.

Bu çöl torpağında çox qan axmışdır,
Sanma bir **Səyavuş** yerdən qalxmışdır (XŞ-209).

Beytin mənası: bu çöl torpağına axan qanlardan dünyaya canlı adamın gələcəyinə ümid etmə.

Səyavuş "Şahnamə"də İran şahlarından Keykavusun (bax) oğludur. Onu pəhləvan Rüstəm-Zal tərbiyə etmişdir. Atasının zövcələrindən olan Südabə ona aşiq olaraq məqsədinə çatmadıqda Səyavuşa böhtan atmış, atası qəzəblənərək ona günahkar olmadığını sübut etmək üçün atı ilə bərabər atəşdən keçməyi əmr etmişdi. Səyavuş oddan salamat keçib, Turana qaçmış və Turan padşahı Əfrasiyab tərəfindən hörmətlə qarşılanmışdı. Əfrasiyab qızı Firəngizi ona verib, onu özünə damad etmişdisə də, sonra saray fitnələri nəticəsində ondan bədgüman olmuş və başını kəsmişdi.

"Şahnamə"də Səyavuşun intiqamını düşməndən almaq uğrunda uzun müharibələr təsvir olunduğundan "Səyavuş qanı" istilahı sonrakı şairlər tərəfindən də qələmə alınmışdır.

Qulağı çərtməkdir başın dərmanı,
Dəmüləxəveyndir **Səyavuş qanı** (XŞ-359).

Dəmüləxəveyn – qardaş qanı deməkdir.

Səyavuş, Cəmşid, Dara (qrup xat. an.) – Şair Bəhram Gurun(bax) vəziri olan Rastü-Rövşənin(bax) xainliyindən bəhs edəndə adları çəkilən bu şəxsləri də xatırlayır. Çünki dini əfsanələrə görə, müxtəlif dövrlərdə yaşayan bu şəxslər də xəyanətin qurbanı olmuşlar. Səyavuş saray ziddiyyətləri nəticəsində dayısı və qayınatası Əfrasiyab tərəfindən başı kəsilmişdi. Cəmşid (bax) xəyanət nəticəsində taxtdan salınmış, taxta Zöh-

hak (bax) çıxmışdı. Dara(bax) isə öz vəzir və sərkərdələri tərəfindən ölümcül yaralanmış və ölmüşdü.

İbrət kitabına baxanlar bilər,
Səyavuş bunlardan çəkmişdir nələr.
Cəmşid cəlalını xar etdi onlar,
Daraya dünyanı dar etdi onlar (YG-277).

Səyyaf (kos.) – Zənəbüləsəd(Şirin quyruğu) Əsəd bürcünün dal tərəfində yerləşən qılınc şəklində bir ulduzdur.

Səyyaf duman rəngli qılıncla durmuş,
Qılıncı Aslanın boynunu vurmuş (LM-186).

Səyyarə (kos.) – Ərəbcə həmişə bir yerdə durmayıb Günəş ətrafında dövr edən, ondan işıq və istilik alan göy cismi; planet adı.

Səyyarə ədəblə əl bağlayaraq,
Üfüqün fərşinə döyürdü ayaq (LM-183).

S.F.D. ili (xron.) – Ərəblərin say sistemində (əbcəd hesabı) üç nöqtəli S hərfi – 500, F hərfi – 80, L hərfi isə 4-ə bərabərdir. Nizami "SFD" hərfləri ilə "Leyli və Məcnun" poemasının yazıldığı tarixi göstərmişdir ki, bu da hicri 584-cü ilə, miladi 1188-ci ilə təsadüf edir. Bax: "Leyli və Məcnun".

S.F.D. ili idi, rəcəbin sonu,
Çox gözəl şəkildə bəzədim onu (LM-51).

Siddiq (an.) – Birinci islam xəlifəsi Əbubəkrin ləqəbidir və ərəbcə sədaqətli deməkdir.

Siddiq sədaqətə olmuşdur rəhbər (LM-35).

Sidrə (məc. mif.) – Həqiqi mənada "Ərəbistan gilası" deməkdir. Bu ağacın yarpaqlarından hazirlanan və yuyunmaq zamanı işlənən maddəyə də Sidrə deyilir. Dini əsatirə görə, Sidrə mifofitonim kimi təsvir olunmuşdur.

Sidrə qəsrin önündə baş əyib kölgə salar,
Ərş-taxtını qurmağa cəlalına alçalar (SX-36).

Dini təsəvvürə görə, göyün yeddinci qatında – Sidrətül-Müntəhada(bax) bitən Sidrə ağacı sənin (Məhəmməd peyğəmbərin) köynəyinin haşiyəsinə bənzəyir. Sidrətül-Müntəhaya bəzən əfsanəvi yer də deyirlər ki, ondan o yana guya nə mələklər,

nə də peyğəmbərlər gedə bilməmişlər. Allahın Sidrə ağacından hazırlanmış taxtı da guya Sidrətül-Müntəhada yerləşir.

Şeir səni **sidrənin** kölgəsinə göndərər (SX-50).

Yəni şeir şairi göyün ən yüksək mərtəbəsinə göndərər. Burada eyni zamanda qüdrətli şairlər göylərə ucalan Məhəmməd peyğəmbərə bənzədilir.

Rəfrəfdən Tubaya vurdu ələmi,
Ordan da **Sidrəyə** qoydu qədəmi (XŞ-358).

Burada söhbət Məhəmməd peyğəmbərin meraca getməsindən gedir və "Sidrə" məkan mənasında işlənmişdir. Demək, Sidrə - ən yüksək məkan, bu məkanda bitən ağac, Allahın Sidrədən hazırlanmış taxtı, bu taxtın yerləşdiyi yer və s. mənalarda işlənir. Aşağıdakı beytdə isə "Sidrə" dedikdə, Sidrə qoxulu Ərəbistan torpağı nəzərdə tutulur.

Sidrədən ərşin lap səqfinə qədər
İsmətdən bir kilim döşədi dilbər (İ-26).

"Sifri-əzəm" (id.) – "Tövrat"ın beş cildindən böyüyü. Sifr – kitab deməkdir.

Allah tərəfindən gəlmiş mükəmməl
O **"Sifri-əzəm"**dən başqa üç gözəl
Nəsihətnamə də keçirdi ələ (İ-507).

Üç nəsihətnamə dedikdə şair Ərəstunun, Əflatunun və Sokratın yazdıqları "Nəsihətnamə"lərini nəzərdə tutur. İskəndər "Sifri-əzəm"dən və bu nəsihətlər kitabından öz işlərində rəhbərlik göstərən əsərlər kimi istifadə edirmiş.

Simak (kos.) – Bir-birinə yaxın olan iki işıqlı ulduz (Ümumiyyətlə, işıqlı ulduz deməkdir). Simak ikidir. Onlardan biri Simaki-Ramih, o birisi isə Simaki-Əzəldir(Sünbülə bürcünün ən parlaq ulduzu, Spika) .

Simak ulduzları cərgəylə köçür,
Ramehdən Əzələ karvanla keçir (LM-186).

Simnar (an.) – Sam oğlu Simnarın (bax) əsl adıdır. Bu ad "sim"(farsca gümüş) və "nar" (ərəbcə od, atəş) sözlərindən düzəlmişdir. Şair obrazın adı ilə bu obrazın fəaliyyəti, onun tikdiyi Xəvərnəq sarayının rəngini də uyğunlaşdırmışdır.

Zirəkdir, **od kimi** iti əllidir...
O **qızıl** barmaqlı usta, nəhayət,
Tikdi daşla kəcdən **gümüş** imarət...
Simnar naxışlıydı, könül açardı (YG-58-59).

Simnar həqiqətdə qədim Babil allahı Simnamarın adı ilə bağlıdır.

Simurq (məc. mif.) – Bax: Simürğ. Şair özünü Simurqa bənzədir.

Simurqəm, tənhalıq olubdur peşəm (XŞ-40).
Simurqtək çəkilim xəlvət bucağa,
Şeirimdən nəşələr verim qulağa (İ-40).

Simurq – Quşların əfsanəvi şahı hesab olunur. Onu indiyə qədər heç kim görməmiş, guya Yer kürəsinin ən uzaq bucağında yerləşən Qaf dağlarının başında yaşayır.

İskəndər Daraya yazdığı məktubda özünü Simurqa bənzədir.

Nədir bu xoş xəyal, bu xam tərpəniş?
Simurqu toruna kim sala bilmiş? (İ-139).

Simürğ (məc. mif.) – Şair Rus şahzadəsinə tilsimləri açmağın yolunu öyrədən qocanı Simurqa bənzədir. Bax: Simurq.

O **Simürğ** eşqilə sevinci daşdı,
Qanadlı quş kimi dağları aşdı (YG-200).

Simürğ quşu (məc. mif.) – Qara geyənlərin şahı(bax) Simurqa bənzədilir.

Günlərin birində o qaçdı bizdən,
Simürğ quşu kimi yox oldu gözdən (YG-136).

Zənnimizcə, bu adın "Simurq" kimi yazılışı daha düzgündür.

Sin (on.) – Hadisələrin gedişindən və şairin təsvirlərinə əsasən güman etmək olar ki, bu, "bismillah" sözünün ixtisar formasıdır. Yəni o gün İskəndər "bismillah" deyib, yola çıxdı və Çinə gəldi. Yaxud da ola bilsin ki, "Sin" – Sind adının canlı dildə işlənmiş formasıdır. Sind isə Hindistanın şimal-şərq hissəsində yerləşən bir vilayətin adıdır. Paytaxtı əvvəllər Heydərabad, sonralar isə Kəraçi olmuşdur. Əhalisi əvvəllər sanskrit və hind dillərində danışırdı. Əhali arasında xaçpərəstlər, brəhmənlər, zərdüştilər, müsəlmanlar və s. vardır. Müsəlman mək-

təblərində ərəb və fars dilləri tədris olunur. Sind eyni zamanda Hindistanla Xorasanın cənubundan axan bir çaydir.

O gün daş atıldı **Sinin** tasına,
Gəldi bu əjdaha Çin qapısına (İ-288).

"Sinin tasına daş atılması" yəqin ki, elə İskəndərin Sind çayını keçərək sürətlə bu ölkəyə gəlməsi və oradan da tez çıxması deməkdir.

Vəzirin Çin xaqanına verdiyi bu məsləhətlərdə(yuxarıdakı nümunədə) İskəndər eyni zamanda əjdahaya bənzədilmişdir.

Sipənd (an.) – İskəndərin pəhləvanlarından birinin adı.

Sipənd Xorasandan, Fum da İraqdan... (İ-324).

Sirlər evi (an.) – Şairin Büzürgümüdə verdiyi ləqəb.

Göyün xəznələri açıqdı ona,
"Sirlər evi" desəm, haqdır, qoynuna (XŞ-56).

"Sirlər xəzinəsi" (id.) – Nizami Gəncəvinin "Məxzənüləsrar"(bax) əsərinin Azərbaycan dilində adı.

Söz incimi sanmışam hər incidən baha mən,
"Sirlər xəzinəsi"ni tamamladım daha mən (SX-153).

Siyavuş (xat. an.) – İskəndər və Dara ordusu üz-üzə gələrkən günahsız insan qanı axıdılacağını fikirləşən şair Səyavuşu(bax) xatırladır.

Hər teştin üstündə yazılmış çoxdan
Siyavuş qanıtək bir çoxlu dastan (İ-122).

Slavyan qızı (an.) – Slavyan şahzadəsi Nəsrinnuşun (bax) ləqəbi.

Səqlab ölkəsinin **slavyan qızı** (YG-191).

Slavyan şahı (an.) – Rus dövlətinin şahı mənasında işlənmişdir. Həmin şahın əsl adını əvəz edən ləqəbi, Nəsrinnuşun atası.

Slavyan şahının rumi geyimli... (YG-74).

Sokrat (an.) – Eramızdan əvvəl 470-399-cu illərdə yaşamış Yunan filosofu. Onun təlimi qədim Yunanıstanda materializmdən idealizmə dönüş xəttini yaradır. Öz görüşləri və təbliğatının ictimai mahiyyəti ilə Sokrat aristokratiyaya yaxın olmuşdur. Dövlətin qəbul etdiyi dini inkar etməkdə müqəssir bilinib, bir kasa zəhər içməyə məcbur edilmiş və ölmüşdür. "İqbalnamə"də

Sokratın İskəndərə qarşı cəsarətli hərəkətlərini və ağlının yüksəkliyini göstərir. Yəqin elə bu xüsusiyyətlərinə görə şair onu İskəndərin müasiri etmiş və obrazını yaratmışdır.

Bir də ki, xəbər ver, qoy gəlsin **Sokrat**,
Tərkibdə, ixlatda o böyük ustad (İ-476).

Tərkib və ixlat sözləri köhnə elmi istilahlardır. İxlat – qədim nəzəriyyəyə görə orqanizmdə olan dörd ünsürdür: qan, səfra, qara öd və bəlğəm. Tərkib – bu ünsürlərin birləşmə qayda və nisbətləridir. Beytdə Sokrat bu əməliyyatın böyük bilicisi kimi göstərilir.

Sovr (kos.) – Bax: Sövr və Sur.

Ütarid və Cövza qonmuş bir yerə,
Sovrda məskən etmiş Ay ilə Zöhrə (İ-64).

Sövr (kos.) – Bax: Sur.

Sövr Zöhrə ilə, Xərçəng Bürcislə
Səadət yayırdı Təslis Təsdislə(XŞ-150).

Sufi (an.) – "Hacı və sufi hekayəti"ndə obraz adı.

Düşündü ki: bir **sufi** gözütoxdur əzəldən,
Onun dünya varına gözü yoxdur əzəldən (SX-121).

Hekayədə Sufi həm də "şeyx" adlanır:

Zər aşiqi bu **şeyxə** girov qalan zər oldu (SX-121).
Şeyx dedi ki: batıbdır, yoxsa çıxıb indi o? (SX-122).

Suğdi quşu (məc. zo.) – Suğd qədimdə Səmərqəndin yaxınlığında bir şəhər olmuş ki, orada yaxşı musiqi aləti qayırarmışlar. Suğdi quşu məcazi mənada simli musiqi alətini – rübabı bildirir.

Nədənsə gecikib quşların səsi,
Çal, **suğdi quşu**nun gəlsin naləsi (İ-580).

Beytin mənası: səhər quşunun, xoruzun səsi gəlmir. Müğənni, sən suğdi quşunu – rübabı çal, kədərli nəğmə yayılsın.

Suha (kos.) – Göyün şimal tərəfində görünən kiçik bir ulduz adı.

Suha ulduzu da görərdi uzaq,
Bütün qonşuları geri qoyaraq (LM-186).

Sultan (məc. an.) – Ərəb sözüdür və hökmdar, padşah deməkdir. Lakin şair Günəşi metaforik şəkildə Sultana bənzətmişdir.

Sultanla gözəldir fələyin çətri,
Sultansız bu çətrin varmıdır qədri? (XŞ-31).

Xosrov Pərviz metaforik şəkildə Sultan adlandırılır.

Firidun təxtinə əyləşdi **Sultan** (XŞ-127).

Sultan, Ayaz (qoşa xat. an.) – Şair Leylinin ər evindəki vəziyyətini təsvir edəndə Sultan Mahmud Qəznəvi ilə onun qulu Ayazın dostluğunu xatıtlayır.

Sultan ilə **Ayaz** müttəfiq olmuş,
Keşikçi məst idi, sərkərdə bihuş (LM-191).

Burada Leyli metaforik şəkildə Ayaza və sərkərdəyə, onun əri isə Sultan Mahmud və keşikçiyə bənzədilmişdir.

Sultan Mahmud (xat. an.) – Bax: Mahmud. Bu antroponimik birləşmədə Mahmud (Ərəbcə tərifli, təriflənmiş deməkdir) əsl ad, Sultan isə tituldur.

Hindli ərlər vermədi canlarını sadağa,
Saldı **Sultan Mahmudun** sağ canını yatağa (SX- 84).

Sultan Mahmud Hindistanı fəth edəndən sonra hind kahin və yoqları öz maqnetizmi ilə Mahmudu dəhşətli xəstəliyə mübtəla edirlər. Təbiblər çox dəva və dərmandan sonra aciz qalırlar. Bu zaman Mahmuda xəbər çatır ki, onun xəstəliyinin səbəbi kahin və yoqların dua və ibadətidir. Mahmud onları məcbur edir ki, onun şəfa tapması üçün dua oxusunlar. O, bundan sonra sağalır.

Bu beytin hərfi mənası zülmkar şah və hakimləri məzlumların ah-naləsi ilə, bəd duası və qarğışı ilə qorxutmaq, qəddarlıqdan, sitəmkarlıqdan saqındırmaqdır.

Sultan Nüsrətəddin (an.) – Atabəy Nüsrətəddin (bax) Əbubəkrə işarədir. Bu antroponimik birləşmədə "sultan" titul, "Nüsrətəddin" isə onun fəxri adıdır.

Sultan Nüsrətəddin ədalətindən
Bu dünya xatırlar şərab içərkən (İ-396).

Sur (kos.) – Ərəbcə Öküz və ya Buğa(Ona Buzov da deyilir) bürcünün adı. On iki bürcdən ikincisidir.

Ay **Surda,** Cövzada Tir tutmuş qərar,
Mərrix də Əsəd də oldu aşikar (YG-56).

Sur (mif. ktem.) – Ərəb sözüdür və böyük buynuzdan qayrılmış boru və ya şeypur deməkdir. “Suri-İsrafil” (bax) – “İsrafilin şeypuru” mənasında işlənir. Dini etiqada görə, Qiyamət günündə ölüləri oyatmaq və haqq-hesab ayağına çağırmaq üçün İsrafil (bax) adlı mələk bu şeypuru çalacaqdır. Bu, Sur adlı bürclə omonimdir.

İsrafildən, **Surdan** bir bəhs açaraq,
Demədim məqsəddən düşməyim uzaq (İ-385).

Sur, Ay (qoşa məc. kos.) – Şair Fitnəni Aya, onun boynunda qaldırdığı buzovu isə Sura bənzədir.

Günəş Surda olar bahar zamanı,
Suru dolandıran **ay** varmı, hanı? (YG-106).

Bahar fəslində Günəş Öküz və Buzov bürcündə mənzil salır. Məcazi mənada: Günəş Buzovu öz çiynində aparır. Şair çox gözəl obraz yaradıb. Beytin mənası: Bahar fəslində çiynində Buzov gəzdirən Günəş görmüşdük, amma buzov gəzdirən Ay görməmişdik, eləsi varmı?

Sur, Zöhrə (qoşa məc. kos.) – Şair Bəhram Gur zamanında ölkənin firavanlığını planetlərin vəziyyəti ilə müqayisə edir.

Sur bəxti tapmışdı onda zamana;
Zöhrə sahib idi onda dövrana (YG-101).

Zöhrə (Venera) – çalğı, rəqs və şənliyin hamisidir və o, Sur (Öküz) bürcündə qərar tutanda Yer üzündə həm sabitlik, firavanlıq, həm də çalıb oynamaq, şənlik, ziyafət məclisləri, eyş-işrət bərqərar olur.

Suri-İsrafil (məc. mif.) – İskəndər və Zəngibar şahın qoşunları vuruşa hazırlaşarkən çalınan nayları şair Suri-İsrafilə bənzədir.

Uzağa səs salır naylar elə bil
Məhşərdir, çalınır **suri-İsrafil** (İ-89).

İslam rəvayətlərinə görə, merac zamanı, Məhəmməd peyğəmbər Suri-İsrafilin yerləşdiyi yerdən də yüksəyə qalxmışdır.

Suri-İsrafilin rəsədgahından
Ötdü daha əngin yüsəkliklərə (YG-27).

Sübhün şahənşahı (məc. an.) – Günəş metaforik şəkildə Sübhün şahənşahına bənzədilir.

Sübhün şahənşahı təxtinə çıxdı,
Zənci qoşununu rumlular yıxdı (XŞ-162).

Yəni: Günəş çıxdı, işıq (gündüz) gecəyə qalib gəldi, hava işıqlandı.

Süheyl (kos.) – Cənubda görünən çox parlaq bir ulduzdur. Kanon adlanan bu ulduz Yəməndə çox yaxşı göründüyü üçün Süheyli-Yəmən də adlanır. Deyilənə görə, Süheyl çıxanda dərini onun işığında dabbaqlayırlar; əqiq də guya rəngi ondan alır. Klassik ədəbiyyatda parlaqlığın, gözəlliyin rəmzi və Yəmənin hamisi kimi işlənmişdir.

Üzünə nur çiləyən könlümün **Süheylidir** (SX-55).

Burada Süheyl könülün parlaqlığına bənzədilmişdir.

Səbanın zərif gülləri hərəkətə gətirməsi Süheyl ulduzu altında dəri aşılanmasına bənzədilir.

Süheyl dabbaqlığına başladı bağda səba,
Zərif güllü dərilər aşladı bağda səba (SX-60).

Paltarını çıxaran Şirinin bədəni metaforik şəkildə Süheylə bənzədilir.

Şəkər paltarını **Süheyl** çıxartdı (XŞ-87).

Süheyl ulduzu metaforik şəkildə Yəmən ölkəsində taxta çıxan hökmdara bənzədilir.

O zaman **Süheyl ulduzu** durdu
Yəmən ölkəsində taxtını qurdu (YG-57).

Bəhram Gurun üzü Süheylə bənzədilir:

Onda ki, Bəhramın üzü nur saldı,
Yəmən dərisindən xamlığı aldı.
Könüldən şad etdi bu iş Münziri,
Necə ki, **Süheyldən** parlayar dəri (YG-66).

Əsatirə görə, Yəmən ulduzu Süheyl (Kanonus) o ərazinin nemət mənbəyidir. Dünyada şöhrət tapmış ən incə dəri olan ədim guya Süheylin şüaları sayəsində xamlığını itirib qırmızı şəffaf rəng alır. Beytin mənası: Bəhramın Süheylə bənzər parlaq üzü Yəmən torpağında işıq saçanda Münzirin üzü ədim kimi sevincdən qızarırdı.

Bəhram Gurun taxta-taca sahib olmaq üçün Yəməndən ordu ilə çıxması Yəmən səmasında Süheyl ulduzunun çıxmasına bənzədilir.

Göy yerə enməyə göstərməkdə meyl,
Başını qaldırmış Yəməndən **Süheyl** (YG-81).

Burada Göy – Bəhram, yer – İran, Süheyl – Bəhram Gura işarədir. Beytin mənası: Yəməndə yaşayıb Yəmən ulduzu Süheylə bənzəyən və göylərə ucalan Bəhram İrana yürüş edib onu cəzalandırmaq istəyir.

Şair Məhəmməd peyğəmbərin meraca gedərkən mindiyi əfsanəvi at olan Büraqı Süheyl ulduzuna bənzədir.

Ərəb səmasinda bir **Süheyl** çapdı,
Yəmən gönü ondan yeni rəng tapdı (İ-25).

Yəni Məhəmməd peyğəmbərin Büraqı Ərəb torpağının göylərində Süheyl ulduzu kimi parladı, onun nurundan Yəmənin tumacı rəng və qoxu aldı.

Süheyl (məc. kos.) – Şair Süheyl (bax) ulduzunu metaforık şəkildə Günəşə, Günəş və Ayı isə insana bənzədir.

Yəmənə **Süheyl** saçarkən atəş
Heyran qaldı buna həm ay, həm günəş (YG-62).

İskəndər metaforik şəkildə özünü Süheylə, vətənini isə Yəmənə bənzədir.

Öz mülkümdən mənə iqta göstərmə,
Süheylə baratı Yəməndən vermə (İ-138).

Burada İskəndər Daraya cavab verir ki, öz ölkəmdən mənə pay vermə. Süheyl ulduzu özü Yəməndədir, yəni Yəmənə məxsusdur, ona Yəməndən barat verilməz.

Süheyl ulduzu (məc. kos.) – İskəndərin ordusunun Yəməndə qaldırdığı tozu şair Süheyl ulduzuna bənzədir.

Parlatdı Yəməni ordunun tozu,
Gönü parladantək **Süheyl ulduzu** (İ-200).

Süleyman (an.) – Süleyman ibn Qılıc Arslana işarədir. “Yeddi gözəl” poemasının ithaf olunduğu güman edilən Kiçik Asiyanın hökmdarı.

Bu yolda cəhd elə, bu yolda səy et,
Divlərin əlindən, gəl, onu gizlət.

Süleymandan özgə olmasın gərək,
Məni onda ara zaman-zaman sən (YG-32).

Yəni: Hər şey Süleymanın buna vuracağı möhürdən asılıdır. Əgər Süleyman əsəri bəyənsə, deməli, poema uğurlu alınıb, yox, əgər rədd etsə, deməli, əsər zəifdir. Şair üzərində heç bir arının qonmadığı muma işarə etməklə göstərmək istəyir ki, poemaya hələ heç kimin əli dəyməyib, onu ilk dəfə Süleyman oxuyacaqdır (YG-8).

"Yeddi gözəl" əsərinin ithaf olunduğu hökmdarın Süleyman şah və ya Körpə Arslanın olması haqqında vaxtilə həm sovet, həm də xarici şərqşünaslar müxtəlif fikirlər söyləmişlər... Görkəmli nizamişünas Rüstəm Əliyev faktlarla göstərir ki, şair əsəri Süleyman şahın sifarişi ilə yazmışdır (YG – 5-16).

Biz isə bu problemə onomastik nöqteyi-nəzərdən yanaşmağı daha üstün tuturuq. Bizcə, bu problemin həllinə "Xəmsə"nin öz onomastik üslubu ilə yanaşmaq daha düzgün olar. Çünki hər bir sənətkar özünə məxsus üslub xüsusiyyətləri ilə bir-birindən fərqlənir. Nizami də bütün Şərq və ümumiyyətlə dünya ədəbiyyatında öz dəsti-xətti, üslubu ilə fərqlənən dahi sənətkardır. Onun onomastik üslub xüsusiyyətləri də xüsusən diqqəti cəlb edir. Obrazın təqdim üsulları, adların mənalandırılması üsulu, zəngin məcazi, xatırlama adlardan istifadə üsulu, ümumi adların xüsusiyə və əksinə bənzətmə üsulları "Xəmsə"nin onomastik üslubunu səciyyələndirir.

Şair hər hansı bir şəxsi (istər obraz, istərsə də müasiri olan hökmdarlar olsun, onun üçün fərqi yoxdur) ilk dəfə təqdim edərkən onun haqqında həmin şəxsi səciyyələndirən geniş məlumatlar verir, onun özü, ata-babası, nəsli, övladı, dini fəxri adlarını xatırlayır, onu Şərq ədəbiyyatında rəmzi məna daşıyan ən qüdrətli ad sahibləri ilə müqayisə edir və s.

Şair "Sirlər xəzinəsi" əsərinin ithaf etdiyi Davud oğlu Məlik Fəxrəddin Bəhram şahın atası, özü, dini fəxri adı haqqında tam və dəqiq məlumat verir və onu digər qüdrətli hökmdarlara bənzətməklə yanaşı, Süleyman üzüklü, Süleyman şöhrətli şah adlandırır.

“Xosrov və Şirin” poemasının ithaf olunduğu Atabəy Əbu Cəfər Məhəmməd Eldəgizin özü, atası, oğlu, dini fəxri adı (Şəmsəddin), ləqəbi (Məhəmməd Cahan Pəhləvan) və s. haqqında ətraflı məlumat vermişdir. Şair onun haqqında da “Süleymanda üzük vardır, səndə din” deyir. Əsərdə onun qardaşı və şairin şəxsən görüşdüyü Qızıl Arslan haqqında da həm kitabın əvvəlində, həm də sonunda kifayət qədər məlumat vardır.

“Leyli və Məcnun” əsərinin ithaf olunduğu Axsitanın atası (Məlik Mənuçöhr), fəxri adı (Əbülmüzəffər), oğlu haqqında da məlumat verilmişdir.

“Şərəfnamə” əsərinin həm əvvəlində, həm də sonunda Nüsrətəddin Əbubəkr padşah haqqında da ətraflı danışılmışdır. “İqbalnamə” əsərinin əvvəlində Nüsrətəddin Əbubəkr, sonunda isə Məlik İzzəddin mədh edilmişdir. “İqbalnamə” əsərində olan bu ikili xüsusiyyət xüsusilə diqqəti cəlb edir.

“Yeddi gözəl” poemasında “Kitabı yazmağımın səbəbi”ndən sonra şair əsəri ithaf etdiyi Marağa hakimi Əlaəddin Körpə Arslan şah və onun oğlanları (Əhməd və Məhəmməd) haqqında dəqiq məlumatlar verir. Kitabın “Şaha səna və kitabın xətmi” hissəsində onun adı çəkilməsə də, hadisələrin təsviri, Marağa yaxınlığında tikilən Ruyindiz qalasının və digər xüsusi adların çəkilməsi “Şahın” Körpə Arslan olmasına şübhə oyatmayır.

“Kitabı yazmağımın səbəbi”ndə isə adı çəkilən Süleyman, Mülki – Süleyman (Süleyman mülki, Süleyman sarayı) kimi adlar isə, bizə elə gəlir ki, qüdrətli hökmdar rəmzi olan Süleyman peyğəmbərlə əlaqədardır. Klassik ədəbiyyatda olduğu kimi, Nizami də bu addan bənzətmə və xatırlama ad kimi geniş istifadə etmişdir. “Xəmsə”də elə bir hökmdar yoxdur ki, Süleymana bənzədilməsin. Şair “Əlaəddin Körpə Arslan şaha səna” hissəsində də Körpə Arslanı Süleyman peyğəmbərə bənzədir, “Gülsün qoy Süleyman mülkündə bəxti” deyir. Demək, kitabın əvvəlində şair “Süleyman mülkü” dedikdə, Körpə Arslan şahın mülkünü nəzərdə tutmuşdur. Körpə Arslan şah metaforik şəkildə Süleymana, onun sarayı isə Mülki-Süleymana bənzədilmişdir.

Süleyman (an.) – "Süleyman və qoca əkinçi" hekayəsində obraz adı.

Süleyman söylədi ki: "Tamahlanma, ay qoca,
Nemətini, ruzini gəl eyləmə zay, qoca (SX-82).

Bu addan "Kəniz satan padşahın hekayəsi"ndə ("Yeddi gözəl") də obraz adı kimi istifadə olunmuşdur.

Elə ki, Cəbrayıl gəldi yanına,
Süleyman dərdini söylədi ona (YG-169).

Süleyman (məc. ag.) – Davud (Bax: Davud – ag.) peyğəmbərin oğludur. Atasının ölümündən sonra e.ə. 1016-cı ildə səltənət taxtına çıxmışdı. Rəvayətə görə, onda elə bir fitri istedad varmış ki, bütün quşların, balıqların, heyvanların dilini bilərmiş. İstədiyi vaxt onları səsləyib hüzuruna gətirərmiş. Guya yel (külək) də Süleymanın ixtiyarında imiş. Səyahət edərkən taxtını və ordusunu yelə bağlayıb gedərmiş. Süleymanın möhürü (üzüyü) varmış ki, o, bu üzüyün vasitəsilə bütün aləmə hökm edərmiş.

Beytülmüqəddəs (bax) – Qüds (Yerusəlim) şəhəri onun zamanında rövnəq tapmışdı. Süleyman Qüdsü paytaxta çevirmiş, orada bir sıra istehkamlar, gözəl saraylar tikdirmişdi. Qırmızı dəniz vasitəsilə ticarət edən tacirlərin gətirdikləri cavahirat, tikinti avadanlığı və s. ilə öz paytaxtında böyük quruculuq işləri apararaq İsrail dövlətinin maddi – mədəni inkişafında mühüm rol oynamışdı. Ona bu işdə Asəf adlı müdrik vəziri də yaxından kömək etmişdi. Süleyman öz zamanında ədalətli bir hökmdar kimi şöhrət qazanmışdı. Səba şəhərinin hakimi Bilqeys (bax) onun bu şöhrətini eşidərək Qüdsə səyahət etmiş, belə bir insanla evlənmək qərarına gəlmişdi.

Süleyman eyni zamanda "Əğani" adlı lirik şeirlər və əxlaqi fikirlər təlqin edən hikmətli sözlər kitabının müəllifidir. O, Şərq ədəbiyyatında ədalətli hökmdar kimi tərənnüm olunmuşdur.

Elə buna görə də Nizami bu addan məcazi və xatırlama ad kimi geniş istifadə etmişdir.

Süeyman (məc. ag.) – Məhəmməd peyğəmbərin məzarından əsən külək Süleyman peyğəmbərin hərəkətə gətirdiyi və ətrafa ətir saçan küləyinə bənzədilir.

Torpağın ətirlidir **Süleymanın** mehindən (SX-35).

Süleyman ("Bibliya"da – Solomon) peyğəmbərin təbiətdə bütün ünsürlərə hakim olmasına işarə olunur. Beytin mənası: Sənin (Məhəmməd peyğəmbərin) vətəninin torpağı sənin məzarının sayəsində Süleymanın küləklərindən daha ətirlidir.

Məhəmməd peyğəmbər ən qüdrətli şah hesab olunan Süleymana bənzədilir.

Hamımız cansız bədən, gəl, gəl, can ol sən bizə,
Hamımız qarışqayıq, **Süleyman** ol, sən bizə (SX-37).

Məhəmməd peyğəmbər Süleyman peyğəmbərlə müqayisə olunur.

Daim ədalətindən nəşə duydu **Süleyman**,
Peyğəmbərlik tacına sanma uydu **Süleyman** (SX-162).

Dini təsəvvürlərə görə, Süleyman peyğəmbərlik topunu udmağa qabil idi, lakin peyğəmbərlik tacı üçün şahlıqdan əl çəkə bilmədi.

Ərzincan hakimi Bəhram şah Süleyman peyğəmbərə bənzədilir.

Çarx şahlıq üzüyünü adına bəzər sənin,
Külək **Süleyman** kimi hökmünlə əsər sənin (SX-43).

Aşağıdakı beytdə də Bəhram şah Süleymanla müqayisə olunur.

Əzəldən xoşbəxtdir ki, Davud atası olub,
Süleyman şöhrətinə gəlib çatası olub (SX-41).

Dini əsatirə görə, Süleyman peyğəmbərin atası Davud peyğəmbər olmuşdur. Bəhram şahın da atasının adı Davuddur. Bu adların uyğunluğundan şairanə istifadə edərək Nizami Bəhram şahın hakimiyyətini Süleymanın qüdrətli hökmranlığına bərabər tutur. Demək, burada Bəhramın atası Davud – Davud peyğəmbərə, Bəhram şah isə Süleyman peyğəmbərə bənzədilmişdir.

Şairə xoşbəxtlik vəd edən səadət Süleymana bənzədilir.

Üzüyə firuzə qaş salanda sən,
Bizdən **Süleymantək** əta görərsən (XŞ-32).

Atabəy Məhəmməd Süleyman peyğəmbərə bənzədilir.

Süleymandır, bizim şaha baxsana,
Gah balıq söz deyir, gah da Ay ona (XŞ-35).

Süleyman peyğəmbər bütün canlıların dilini bilirmiş. “Balıq” və “Ay” (mah və mahi) isə “bütün dünya” deməkdir. Burada “Balıq” dedikdə, Yer kürəsinin altında dayanan Balıq nəzərdə tutulur. Yəni şahımız Süleyman peyğəmbər kimi qüdrətlidir.

Süleyman peyğəmbər Qızıl Arslanın (bax) qapısına gələn qarışqanın quluna bənzədilir.

Qapısına gələn qarışqa, inan,
Layiqdir qul olsun ona **Süleyman** (XŞ-43).

Süleyman peyğəmbər çəyirtkə ayağını hədiyyə gətirən qarışqaya öz bədənindən ağır yük gətirdiyi üçün üstünlük vermişdir. Beytin mənası: Şahın qapısına gələn qarışqaya Süleymanın qul olmasına mübaliğəli işarədir.

Qızıl Arslan, əmri ilə küləyi hərəkətə gətirən və əsdirdiyi küləklə xoş ətir yayan Süleyman peyğəmbərə bənzədilir.

Əgər şiddətlənsə dəhşətli tufan,
Nə qorxu, var ikən belə **Süleyman**! (XŞ-44).

Şair özünü qarışqaya, Qızıl Arslanı isə Süleyman peyğəmbərə bənzədir. Bununla da şair Süleyman peyğəmbərə özündən qat-qat böyük olan çəyirtkə budunu hədiyyə gətirməsini xatırlayır.

Qucaqladı məni xoş təmannayla
Süleyman oynadı mən qarıncayla (XŞ-369).

Vəhşilər arasında olan Məcnun bütün heyvan və quşların dilini bilən, qüdrətli padşah rəmzi olan Süleymana bənzədilir.

Aslanı, maralı, tülkünü, qurdu
Yığıb yol üstündə ordugah qurdu.
Hamsı qulluğunda durmuşdu sayıq,
O da şah olmuşdu **Süleyman** sayaq (LM-178).

Şair bütün bəşəri taxta, Məhəmməd peyğəmbəri isə Süleymana bənzədir.

Hər şeyin həyatı təkcə ondandır,
Biz təxtik hamımız, o, **Süleymandır** (YG-24).

Yəmən hakimi Nemanın taxtı Süleyman peyğəmbərin cəlallı taxtına bənzədilir.

Süleyman cəlallı taxtından belə
Əl çəkib yaşadı pərilər kimi (YG-64).

Öz sərkərdələri tərəfindən arxadan vurulan və ölüm ayağında ayaqlar altına düşən Daranı şair qarıncaya əsir olan Süleymana və bir arı tərəfindən yeyilən filə bənzədir.

Olmuş qarıncaya **Süleyman** əsir,
Tikanlı bir arı bir fili yeyir (İ-153).

Süleyman (xat. ag.) – Şair dövrünün haqsızlıqlarından şikayətlənərək, dini əsatirdə ədalətli şah rəmzi olan Süleyman peyğəmbəri xatırlayır.

Çoxdan yoxa çıxıbdı ədalətli **Süleyman**,
Haqsızlıqdan görünməz pəriyə dönüb insan (SX-81).

Süleyman peyğəmbərin ədalətli, insanpərvərlik və pak zəmanəsi gedib, indi isə zülm, əsarət, qəddarlıq dövranı hökm sürür və buna görə də əsl adam, həqiqi insan pərilər kimi gözə görünmür.

Süleyman peyğəmbərin zənbil toxuyub-satmasına işarə olunur.

Şah xələti geyinən mömin hanı dünyada,
Zənbil hörən görüblər **Süleymanı** dünyada (SX-139).

Zərxara qızıl saplardan toxunmuş qumaşdan libas geyinən sultanlar zahidlik etsələr, Süleyman kimi məşhur, möhtəşəm, adlı-sanlı olarlar. Çünki Süleyman peyğəmbər bütün dünyaya hakim və hamıdan varlı olduğuna baxmayaraq, öz əlləri ilə hördüyü zənbillərin hesabına yaşayırdı.

Nizami öz şairlik qüdrətindən və əbədiliyindən söz açanda Süleymanla bağlı hadisələri xatırladır.

Bu yolda cəhd elə, bu yolda səy et,
Divlərin əlindən, gəl onu gizlət.
Süleymandan özgə olmasın görən,
Məni onda ara zaman – zaman sən (YG-32).

Süleyman peyğəmbərin bir üzüyü var imiş. Onun bütün qüdrəti, divlərə hökm verməsi, heyvan və quşların dilini bilməsi də, gücü də o üzükdə imiş. Bir dəfə divlər o üzüyü oğurlayır. Süleyman peyğəmbər öz bacarıq və səyi ilə yenidən o üzüyə sahib olur. Şair metaforik şəkildə öz əsərlərini Süleymanın üzüyünə, onun şairlik qüdrətini qiymətləndirə bilməyənləri isə divə bənzədir. Süleymanın o üzüyü isə hamıdan gizli sax-

lanılarmış. Əgər şairin şeirlərinin qədrini (sehirli üzüyü) Süleyman kimi qiymətləndirən olsa, şair də əbədi yaşayacaqdır.

İskəndər Daraya cavab məktubu yazarkən divlərin dilini bilən və onların vasitəsilə müxtəlif çətinliklərə düşən Süleyman peyğəmbəri xatırladır.

Divlərlə oturub dursa **Süleyman**,
Qalmaz barmağında üzüyü, inan! (İ-138).

Ehtiras və tamah divi ilə dostluq etmə, yoxsa Süleyman kimi padşahlıq üzüyünü itirmiş olarsan.

Şərq mifologiyasından məlumdur ki, Süleyman Bilqeysə aşiq olmuşdu və ona sonsuz dövlət və sərvət verməyə hazır idi. Bilqeys də Süleymandan yalnız üzüyünü istəmiş (Süleymanın üzüyü – "Mehri-Süleyman" adı ilə məşhurdur: guya o, bütün aləmə həmin üzüyün vasitəsi və gücü ilə hökm edərmiş), o da üzüyü vermiş, Bilqeys isə onu alıb yanından axan arxın içinə atmışdı.

İskəndər metaforik şəkildə özünü divə, Daranı isə üzüksüz qalan Süleymana bənzədir.

Şair "Şərəfnamə" əsərini Atabəy Nüsrətəddinin adına yazdığını tərənnüm edəndə Süleyman çibin qanadını hədiyyə gətirən (Bəzi rəvayətlərdə bu hədiyyənin çəyirtkə budu olduğu qeyd olunur) qarışqanı xatırlayır. Eyni zamanda şair metaforik şəkildə Atabəy Nüsrətəddini Süleyman peyğəmbərə, özünü isə qarışqaya, "Şərəfnamə"ni də çibin qanadına bənzətmişdir.

Qarışqa, Süleyman taxtıdır, deyə,
Bir çibin qanadı verdi hədiyyə (İ-397).

Süleyman, Bilqeys (qoşa məc. an.) – Şair metaforik şəkildə Körpə Arslan şahı (bax) Süleyman peyğəmbərə, onun qadınını isə Bilqeysə bənzətmişdir.

Gülsün qoy **Süleyman** mülkündə bəxti,
Gurlansın **Bilqeysin** uğurlu təxti (YG-38).

Nizamişünas R.Əliyevin fikrincə, Körpə Arslan şahın qadınının adı Bilqeys olmuşdur. Bizcə, burada söhbət Süleyman peyğəmbərin qadını Bilqeysdən gedir.

Süleyman, İskəndər, Cəmşid (qrup məc. an.) – Atabəy Əbu Cəfər Məhəmməd Eldəgiz (bax) eyni vaxtda müxtəlif dövrlərdə yaşayan və müxtəlif sahələrdə şöhrətlənən hökmdarla müqayisə olunur.

Süleymanda üzük, səndəsə din var,
İskəndərdə ayna, səndə ayin var.
Sən görən sirləri görərmi məgər
Camda Cəm, aynada böyük İskəndər? (XŞ-39).

Dini əfsanəyə görə 124 min peyğəmbərdən biri olan Süleyman sehrli üzüyü, Cəmşidin sehrli camı və yunanlı İskəndərin isə sehrli aynası varmış. Guya bütün dünyada olan hadisələr bunlarda görünərmiş. Nizami Məhəmməd Cahan Pəhləvanı mədh edərkən onu qüdrətdə Süleyman, Cəmşid və İskəndərdən üstün tutur.

Süleyman, Leyli (qoşa məc. an.) – Taysız gözəl (bax) İskəndəri Süleymana, özünü isə bir çox Məcnunu (bax) çöllərə salan Leyliyə (bax) bənzədir.

Şah **Süleyman** kimi div salsa bəndə,
Çox **Məcnun** çöllərə salmışam mən də (İ-368).

Süleyman, Məhəmməd (müq. an.) – Süleyman və Məhəmməd peyğəmbərlər müqayisə olunur, üstünlük Məhəmməd peyğəmbərə verilir.

Süleymanın taxtı getdikcə bada,
Məhəmməd əbədi qaldı dünyada (İ-414).

Süleyman mülkü (məc. top.) – Etibarsız dünya, vəfasız dünya mənasında işlədilir. Guya Süleyman Əndəlus düzlərində susuz və otsuz bir yerdə tuncdan uca bir qala tikməyi cin və divlərə əmr etmişdir. Süleymanın zəngin xəzinə və kitabları bu qalada gizlədildi. Uzun illərdən sonra Musa ibn Nəsir qırx gecə - gündüz yol gəlib bu qalanı tapır. Hasar divarında bu şeiri görür: "Qüvvətinə və ömür uzunluğuna məğrur olan kişi, biləsiz ki, dünyada kimsə baqi qalmazmış. Əgər mal, ləşkər çoxluğu ilə və ya elm qüvvəti ilə dünyada kimsə əbədi qala idi, Süleyman ibn Davud hərgiz ölmiyə idi. Biləsiz ki, mən Davud oğlu Süleymanam, Bu qalanı yapdırdım ki, bura gəlib biləsiz ki, dünya mülkü kimsəyə qalmazmış". "Mülki-Süleyman", "Dünya Sü-

leyman mülküdür” ifadələri də bununla əlaqədardır (M.Adilov. Niyə belə deyirik. Bakı, 1974).

Eradan əvvəl X əsrə aid edilən bu qala eramızın 70-ci illərində romalılar tərəfindən dağıdılmışdır. Ərəb xəlifəsi Ömər 538-ci ildə Süleyman məbədinin xarabaları olan daşlı çöllükdə nümayişkaranə namaz qıldı. VII əsrin axırlarında əməvi xəlifəsi Əbdülməlik Ömərin namaz qıldığı yerdə Qübbət əl – səhra deyilən gümbəz (məscid) tikdirdi. Bu gümbəz sonrakı VIII əsrdə onun yanında tikilən əl-Aqsa məscidi ilə birlikdə Kəbədən sonra islam dininin ikinci müqəddəs ziyarətgahına çevrildi (İslam. Bakı, 1985).

Nəfəsilə ötüşsün qoy ömrünün hər günü,
Bir yoxsula bağışla bu **Süleyman mülkünü** (SX-38).

Şair “Süleyman mülkü” dedikdə real həyatı nəzərdə tutur.

Süleymanın mülkünü sorma hər an hardadır?
Mülkü öz yerindədir, de Süleyman hardadır? (SX-79).

Süleyman, Süleyman (təkrar ag.) – Şair həm ədalətli şah olan Süleymanı, həm də peyğəmbər Süleymanı nəzərdə tutduğu üçün bu adı təkrar etmişdir.

Daim ədalətindən nəşə duydu **Süleyman**,
Peyğəmbərlik tacına sanma uydu **Süleyman** (SX-39).

Aşağıdakı beytdə isə birinci Süleyman dedikdə ədalətli, əzəmətli şah və peyğəmbər Süleyman, ikincisi isə torpaq altda yatan Süleyman mənasında işlənmişdir.

Süleymanın mülkünü sorma hər an hardadır?
Mülkü öz yerindədir, de, **Süleyman** hardadır? (SX-79).

Süleyman taxtı (məc. ktem.) – Məcazi olaraq qüdrətli və ya mütləq hakimiyyət mənasında işlədilir.

Mülkü var ki, “**Süleyman taxtı** məndə” deyirsən?... (SX-131).

Süleyman üzüyü (məc. ktem.) – Dini əsatirə görə, Süleyman peyğəmbərin üzüyünün qaşında “Allah” sözü yazılmışdı və ona görə də Süleymana bütün cin və divlər, quşlar və heyvanlar, müxtəlif dilli qəbilələr tabe idi. Süleyman üzüklü – mütləq hakimiyyətə malik olan qüdrətli şah deməkdir.

O, **Süleyman üzüklü**, günəş taclı hökmdar,
Məlik Fəxrəddin adı – dünyamıza iftixar (SX-41).

Burada Ərzincan hakimi Məlik Fəxrəddin Süleyman peyğəmbərlə müqayisə olunur və onun hökmdarlığı Süleymanın şahlığına bərabər tutulur.

Sünbülə (məc. kos.) – Astronomiyada on iki bürcdən birinin adı, Sünbülə bürcü. Ərəb sözüdür, mənası başaq deməkdir.

Sünbül döndü ətirli, təravətli sünbülə,
Əsədin pəncəsinə qolazlandı **Sünbülə** (SX-30).

Xuşə Şir bürcündən sonra yerləşən bürcdür. Xuşə sözünün hərfi mənası başaq, kövşən deməkdir. Burada şair xuşə, sünbül, Sünbülə sözlərinin lüğəvi və omonimik mənasından geniş istifadə edərək çox incə şairanə məcazlar yaratmışdır. Beytin mənası budur: Xuşə - başaq bürcü Məhəmmədin gəlişindən feyz alıb təzə-tər sünbül kimi oldu və öz qüdrətini göstərmək üçün Sünbülə bürcünü Şir bürcünə atdı.

Sünbülə (om. kos.) – Şair bu adı iki mənada işlətmişdir. Birinci, yazdığı "Yeddi gözəl" əsərini hünər tarlasından dərdiyi sünbülə bənzədir. İkincisi, Sünbülə bürcü nəzərdə tutulur.

Qarğım hünərimin əkin yerindən
Sünbülü qaldırıb Ütaridə tən.
Nağılçı sevməsə nağıl deyəni,
Sünbülə çox sevər bu **sünbüləni** (YG-309).

Burada Körpə Arslan şah (bax) da metaforik şəkildə Ütaridə bənzədilir. Yəni Ütarid (Körpə Arslan) mənim sünbülümü ("Yeddi gözəl"imi) Sünbülə bürcünə çevirib şəxsi evi etdi.

Sünbülə, Gün (qoşa məc. kos.) – Məhəmməd peyğəmbərin sarı saçları gecə işıq saçan Sünbülə ulduzuna, həm də sarı sünbülə, Məhəmməd peyğəmbərin özü isə Günəşə bənzədilir. Gündüzlər Sünbülənin şüası görünmədiyi üçün Məhəmməd peyğəmbərin saçı və üzü Günəş kimi kainatı işıqlandırır.

Sünbül saçı – **Sünbülə**, şölə saçır gündüzə,
Gövhəriylə dürr səpir, inci səpir **Gün** düzə (SX-33).

Sürəyya (kos.) – Sürəyya bürcü. Bax: Ülkər və Pərvin.

Həmə**lin** sinəsində qurdu **Sürəyya** taxtı,
Gül-çiçəyin ordusu düzə axdı, nə axdı (SX-30).

Sürəyya bürcünün üç hissəsi Sur (Öküz) bürcündə, bir hissəsi isə Həməl bürcündə olduğu üçün şair onu taxta bənzətmişdir.

Çətir tərlanıyla tutsun ünqanı,
Qızıl tacla tutsun o, **Sürəyyanı** (XŞ-34).

Yasəmən gülü Sürəyyaya bənzədilir.

Yasəmən – türk gözəli, çadır qurub düzəndə,
Sürəyyanı andırır ay hüsnünü süzəndə (SX-59).

Burada yasəmən türk gözəlinə və metaforik şəkildə çadır quran insana da bənzədilmişdir. Aşağıda isə Türkütaz (bax) və Türkünazın (bax) yataq otağı səmada Sürəyyaya bənzədilir.

Gecəylə, arzum da yerinə gəldi,
Taxtın **Sürəyyatək** göyə yüksəldi (YG-156).

Şair Leylini Sürəyyaya bənzədir.

Leyli göy üzündə **Sürəyya** kimi
Gözündən dənizə səpirdi inci (LM-247).

Sürəyya xaltası (məc. kos.) – Sürəyya xaltası köpək xaltasına bənzədilir.

Bir üzük halqasıtək bu dünya dar deyilmi?
Başın keçsə halqaya adına ar deyilmi?
Köpək kimi **Sürəyya xaltası** salan olma,
İsanın yükü altda eşşəktək qalan olma (SX-112).

Bu üzüyə bənzər dar dünyada nə qədər əyləncəli bərbəzək varsa, hamısı sənə kölelik xaltası olub, əgər belə olmasaydı, Sürəyya pleyadası Böyük Köpək bürcünün xaltası olardımı?

Qədim münəccimlərin təsəvvürünə görə Sürəyya pleyadası Böyük Köpək bürcünün xaltasıdır.

- Ş -

"**Şadırvan mirvarid**" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"**Şadırvan mirvarid**" oxuyan zaman
Mirvari saçırdı dodaqlarından (XŞ-167).

Şah (an.) – "Zalım şahla düz danışan qocanın hekayəti"ndə obraz adı.

Xalqa yağı **şah** vardı, zülmkarın biriydi,
Həccacdan da betərdi, lap qəddarın biriydi (SX-126).

Şah (an.) – "Leyli və Məcnun" poemasındakı birinci "Hekayət"də obraz adı.

Şah əmr eylədi ki: "Dayanmaq olmaz,
O əldən getmişi tez edin xilas... (LM-182).

Şah (an.) – "Kəniz satan padşahın hekayəti"ndə obraz adı.

Şah nə qədər həlim, mehriban oldu,
Kənizlər o qədər qudurğan oldu (YG-165).

"Yeddi gözəl" əsərinin filoloji tərcüməsində bu şahın "kəniz satan" ləqəbi olması da qeyd olunmuşdur: "Şah özündən o qədər kəniz uzaqlaşdırdı ki, (axırda) "kəniz satan" (ləqəbilə) məşhur oldu.

Şah (an.) – Slavyan şahına işarədir.

Şah dedi: – Razıyam, mehriban balam (YG-204).

Şah (məc. an.) – Şair şah dedikdə şiələrin on ikinci imamı Mehdini nəzərdə tutur və Körpə Arslan şahı dünyanın şahı hesab edilən Mehdi adlandırır.

Sənsən bu dünyanın qüdrətli **şahı**
Dünyamız gözləməz özgə pənahı (YG-307).

Orijinalda şah yerinə, qaim getmişdir. Qaim (sabit, möhkəm) – Mehdinin ləqəbidir. Dünya fəsad, günah, hərc-mərclikdə boğulan zaman Qiyamət gününün ərəfəsində İmami-Qaim (Mehdi) ağ atın üstündə zühur edib dünyanı təmizləyib, ədalətli, din və imanı, rifah və xoşbəxtliyi bərpa edəcəkdir. Şair Körpə Arslanı həmin İmami-Qaimlə müqayisə edib deyir: "Sən zəmanənin Qaimisən, odur ki, fitnə-fəsadı, zülmü aradan götürdüyün üçün əsl Qaim imam Mehdi səndən çəkinib zühur etmir".

Şah (məc. an.) – Taysız gözəl "şah" dedikdə İskəndəri nəzərdə tutur. O, eyni zamanda burada İskəndəri divləri kəmənd salan Süleymana, özünü isə metaforik şəkildə çox Məcnunu çöllərə salan Leyliyə bənzədir.

Şah Süleyman kimi div salsa bəndə,
Çox Məcnun çöllərə salmışam mən də (İ-368).

Şah Arslan (xat. an.) – Nizami Qızıl Arslanı nəzərdə tutur. Qızıl Arslan Səlcuqilər dövləti zamanında Azərbaycanda hökm-

dar olmuş atabəylərin üçüncüsüdür. Şəmsəddin Atabəy Eldəgizin ikinci oğlu, Cahan Pəhləvan Məhəmmədin kiçik qardaşıdır. O, 1186-cı ildən 1191-ci ilə qədər Azərbaycanda hakimiyyətdə olmuşdur. Nizami "Xosrov və Şirin" poemasını ittihaf etdiyi üç hökmdarın biri Qızıl Arslandır. Onun Nizami ilə görüşməsi nizamişünaslıqda təsdiq edilmiş faktdır. Bu antroponimik birləşmədə birinci komponent titul (fars sözüdür və hökmdar deməkdir), ikincisi isə əsl addır və aslan sözündən yaranmışdır.

Şah Arslan torpaqda, qəbirdə ikən,
Necə söz söyləyim, şeir yazım mən? (İ-416).

Şah bürcü (məc. kos.) – Xosrovun taxta çıxdığı qala (yaxud şah sarayı) metaforik şəkildə bürcə bənzədilir.

Ay yüksələn zaman Balıq bürcündən,
Pərviz **Şah bürcündə** salmışdı məskən (XŞ-150).

Yəni Ay səmada on iki bürcdən sonuncusu olan Balıq bürcündən keçdiyi kimi Xosrov da Şah bürcündə taxta çıxdı.

Şah harutları (məc. mif.) – Şahın qulluqçuları metaforik şəkildə əfsanəvi mələklər olan Harut və Maruta (bax) bənzədilir.

Yolunda çaparam hər səhər erkən,
Şah harutlarına zəng çalıram mən (XŞ-40).

Onlara zəng çalmaq – onların yuxusunu qaçırmaq, ayıq saxlamaq deməkdir.

Şahənşah (an.) – İran hökmdarlarının titulu olub, farsca şahlar şahı, hökmdarlar hökmdarı deməkdir. Burada şahənşah dedikdə Xosrov Pərviz nəzərdə tutulur.

Şahənşah gördü ki, bəxti yatmışdır,
Xalq üz döndərmişdir, onu atmışdır (XŞ-115).

Şahənşah (məc. an.) – Atabəy Məhəmməd metaforik şəkildə şahənşah adlandırılır.

Şahənşah adına yazdım bir əsər.
O, şahlar şahıdır, şərdən uzaqdır (XŞ-36).

Aşağıdakı beytdə isə Məhəmməd peyğəmbər şahənşaha bənzədilir.

Cəbrail keçərək yeddi fələyi,
Şahənşaha bir at verdi, yel təki (XŞ-357).

Şahlar şahı Xosrov (an.) – Bax: Xosrov Pərviz və Şahənşah.

Şahlar şahı Xosrov dedi: "Necəsən?
Həmişə xürrəm ol, qəlbin olsun şən (XŞ-99).

"**Şahların Şərəfnaməsi**" (id.) – Firdovsinin "Şahnamə"si nəzərdə tutulur.

Şahanə şərabla dolmuş badəsi,
Adlanmış "**Şahların Şərəfnaməsi**" (İ-42).

"**Şahnamə**" (məc. id.) – Ə.Firdovsinin məşhur əsərinin adıdır. Lakin şair "Şahnamə" dedikdə İskəndər haqqında yazacağı "Şərəfnamə"ni nəzərdə tutmuşdur.

Yaratmaq fikriylə yeni "**Şahnamə**",
Açdım hər şivədən böyük həngamə (İ-45).

Şahrud (top.) – Böyük çaylar və nəhrlər farsca şahrud – yəni çayların şahı adlanır. İraqdakı bir çayın adıdır. Rəvayətə görə, Xosrov Pərviz bu çayın sahilində bir şəhər saldırmışdir ki, sonralar Şahrud adı ilə məşhur olmuşdur.

On telli sazını çalardı Barbəd,
Şahrudda aramgah – xoş istirahət (XŞ-48).

Şahrud (top.) – Bahar çağı Xosrovla Şirinin Bərdə ətrafına gəzməyə çıxdıqlari zaman sahilinə getdikləri çayın adı. Şair Şahrud dedikə ya Kür çayını, ya da Kürün Bərdəyə yaxın olan ən böyük qolu Tərtər çayını nəzərdə tutmuşdur.

Sərxoş üz tutdular **Şəhruda** sarı.
Bağladılar çayın yanında atı (XŞ-124).

Şahzadə (an.) – Farsca "şah oğlu" deməkdir. Şah oğlanlarına verilən tituldur və burada Xosrov Pərviz nəzərdə tutulmuşdur.

Şahzadə xəlvətdə ona yanaşdı,
Hindi qılınc kimi dilini açdı (XŞ-56).

Şahzadə (an.) – Şirvanşah Axsitanın oğlu Mənuçöhrə işarədir. Nizami Gəncəvi "Leyli və Məcnun" əsərini yazanda və oğlunu həmin şahzadəyə tapşıranda, onun 11-12, Məhəmməd Nizaminin isə 14 yaşı var idi (4-142).

Məclisi, büsatı, sevdası yeni,
Padşah Mənuçöhrün bəlkə də eyni...
Şahzadə, güldükcə şərəfin, şanın... (LM-58).

Şahzadə (an.) – Burada Bəhram Gur nəzərdə tutulur.

Dedilər: -**Şahzadə** gərək İrana
Vida edib getsin Ərəbistana (YG-57).

Şahzadə (an.) – Slavyan qızının söylədiyi nağılda obraz adı. Qala gözəlinin tilsimlərini sındıran və onunla evlənən gənc.

Vardı bir qəhrəman, igid **şahzadə**,
Nəsilli, əsilli, gözəl azada (YG-197).

Şahzadə (an.) – "İskəndər və Çoban dastanı"nda Çobanın danışdığı hekayədə obraz adı.

Şahzadə ölümlə pəncə-pəncəyə
Görəndə gözəli: - Sağalmaz, -deyə... (İ-441).

Şahzadə qadın (an.) – Bərdə hökmdarı Məhinbanuya (bax) işarədir.

Şahzadə qadındır orda hökmüran (XŞ-69).

Şam (top.) – Vaxtilə Suriya və Fələstinin tutduğu əraziyə ərəblərin verdiyi ad olmuşdur. Sonralar Şam adı şəhər adı kimi qalmış və nəhayət, həmin şəhər Dəməşq adlandırılmışdır. Hazırda Suriya Ərəb Respublikasının paytaxtıdır. Dünyanın ən qədim şəhərlərindən biri hesab olunur. Onun adına e.ə. XVI əsrdə təsadüf olunur. Əməvilərin paytaxtı olmuşdur. Sonralar müxtəlif illərdə müxtəlif hökmdarların paytaxtı və ya əyalət şəhəri olaraq inkişaf etmişdir. Hazırda Yaxın Şərqin ən gözəl şəhərlərindən biridir.

Deyirlər **Şam** tərəfdə bir qoca kişi vardı (SX-90).

Şam (məc. ap.) – Şair Sokratı (bax) xəlvətdə yanan şama bənzədir.

Şaha günəş kimi oldu aşikar,
Sokrat bir **şamdır** ki, xəlvətdə yanar (İ-476).

Şapur (an.) – "Xosrov və Şirin" poemasında mahir bir rəssam kimi təsvir olunan Şapur tarixi şəxsiyyətdir. O, Sasani hökmdarı I Yəzdəgirdin oğlu, V Bəhramın (421-438), yəni Bəhram Gurun qardaşı olmuşdur. Şapur 4 il Ermənistanda hökmdar olmuş, atası öləndən sonra, vətənə gəlmiş və hakimiyyəti ələ almaq istəmişdir, lakin öldürülmüşdür. Bundan sonra isə Bəhram Gur Münzirin (bax) verdiyi qoşunla taxt-taca sahib olmuş-

dur. Yəqin elə buna görə də, Nizami onu hökmdar kimi yox, rəssam kimi tərənnüm etmiş və onun yadda qalan obrazını yaratmışdır. "Şapur" fars sözüdür, şah və pur (oğul) sözlərindən əmələ gəlmiş, **şahzadə, şah oğlu** deməkdir.

Bizə elə gəlir ki, fars sözü hesab edilən "pur" sözü qədim türk dillərində işlənən və hal-hazırda Azərbaycan dilində geniş istifadə olunan parlaq, parıltı və s. sözlərinin kökü "par"dan yaranmışdır. Par – Günəşin şüası, pur – atanın "şüası"dır. Bax: Fəğfur.

Şapur adlı ona yaxın bir adam
Məğribdən Lahura gəzmişdi tamam (XŞ-62).

Şapur (məc. an.) – Şapur xəzinədara bənzədilir.

Taxt önündə **Şapur** dayanmışdı tək,
"Gənci – badavərd"in xəznədarıtək (XŞ-128).

Şeytan (mif.) – Cin (bax) mifoniminin sinonimi. Bax: Ömər.

Ya da **şeytan** üstünə cəsur Öməri göndər (SX-37).

Şeytan (məc. mif.) – İslam dininə görə, guya Şeytan "Quran"ın ayələrini eşitdikdə orada dura bilməz, qaçıb gedər. Nizami bu beytində demək istəyir ki, sən (yəni Allah) mənə ayələrini öyrət, yəni mənə yardım et, mən də Şeytanın gözünü bağlayım, günah işlər görməyim.

Kəsərli ayəni öyrətmək səndən,
Şeytanın gözünü tikməksə məndən (İ-18).

Şair burada Şeytan dedikdə özünün əleyhidarları olan şər qüvvələri nəzərdə tutmuşdur.

Şəbdiz (zo.) – Xosrov Pərvizin qara atının adı. Bu köhləni Xosrova Şirin bağışlamışdır. Rənginə görə Şəbdiz (şəb – gecə deməkdir, burada isə qara mənasında işlənmişdir) adlandırmışlar, yəni qara at.

Şəbdiz adlı qara atın olacaq,
Yerişi sərsərtək iti və qıvraq (XŞ-61).

Şəbdiz adi at deyildir. "Koroğlu" dastanında Qırat və Dürat əfsanəvi dərya atından törəmişlərsə, Şəbdiz də İnhiraq (bax) dağının ətəyində qart daşlardan tikilmiş kilsənin altındakı mağarada yerləşən bir qara daşdan əmələ gəlmişdir.

O döldən törəyən hər yeni daylaq
Vaxtdan yüyrək olur, yeldən qaçaraq.
O ağıllı keşiş söylədi: -Hətta
O daşın dölüdür bu **Şəbdiz** at da (XŞ-69).

Şəbdiz (məc. zo.) – İskəndər qurtarmaqda olan ömrünü çayın o tayına sıçrayan Şəbdizə bənzədir.

Şəbdizim sıçradı çaydan o taya,
Məndən salam olsun dosta, aşnaya! (İ-592).

Yəni ömrüm bitdi, dostlara əlvida!

"**Şəbdiz**" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"**Şəbdiz**" nəğməsini başlayanda, bax,
Bütün gecə dünya qalardı oyaq (XŞ-168).

Rəvayətə görə, Şəbdiz öləndən sonra Xosrov onu dəfn edərək son dərəcə kədərlənmiş və şəklini Bisütuna həkk etdirmişdir. Hər dəfə daş üzərində surətini gördükdə ağlayarmış. Ehtimal etmək olar ki, bu nəğmə də Şəbdizin tərənnümü ilə əlaqədar olaraq yaradılmışdır.

Şair aşağıdakı beytdə Şəbdizin Bisütun dağına həkk olunmuş həmin şəklinə işarə etmişdir.

Şəbdiz atın şəkli, Bisütun dağı,
Pərviz sarayının eyvanı, tağı (XŞ-48).

Şəbdiz, Gülgün (qoşa zo.) – Birinci Xosrovun, ikincisi isə Şirinin atıdır. Onların çox yerdə qoşa işlənməsi müxtəlif səciyyə daşıyır.

Harın **Şəbdiz** əgər çox qaçağandır,
Elə bilmə **Gülgün** geri qalandır (XŞ-177).

Zoonimlər burada məcazi mənada işlənmişdir. Şirin Şəbdiz dedikdə Xosrovu, Gülgün dedikdə isə özünü nəzərdə tutur.

Çox vaxt Şəbdiz Xosrovun, Gülgün Şirinin adı ilə yanaşı işləndiyi kimi, şair bəzən onların hamısını da bir beytdə işlədir, lakin onlardan ikisi (Şəbdiz və Pərviz) məcazi xarakter daşıyır.

Gülgünü Şəbdiztək tövləyə saldı,
Şirini Pərviztək eyvana aldı (XŞ-283).

Xosrov və Şirinin ölümündən sonra şair yenə bu iki atın adını yanaşı işlətmişdir.

Qaynar səmum yeli hər yeri aldı,
Axırda nə **Gülgün**, nə **Şəbdiz** qaldı (XŞ-356).

Şəbdiz, Gülgün (qoşa xat. zo.) – Eyni vaxtda Şəbdiz gecəyə, Gülgün isə gündüzə bənzədilir.

Gecə-gündüz kimi **Şəbdizlə Gülgün**
Hərlənib meydanı dolandı bütün (XŞ-121).

Şəbdizin nalı (məc. ktem.) – Şair Qara geyənlərin şahının ehtirasını metaforik şəkildə Şəbdizin nalına bənzədir.

Qız dedi: - Bu gecə qayğın azalsın,
Şəbdizin nalı qoy alovda qalsın (YG-154).

Nalı atəşdə (kürədə) qoymaq – qədimdə bir növ cadu olub ki, onun vasitəsi ilə məşuqu əfsunlamaq və ram etməyə çalışarmışlar.

"**Şəbi-fərrux**" (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

"**Şəbi-fərrux**" səsi gəlsə xəfifcə
Olmazdı heç bundan uğurlu gecə (XŞ-168).

Şəddad (xat. an.) – Mifologiyaya görə, Yəməndə Ad hökmdarlarından biri olmuşdur. Dördüncü babası Nuh imiş. Bir çox böyük binalar, şəhərlər, su yolları, xüsusilə də İrəm (bax) adı ilə məşhur olan Cənnət kimi gözəl bir bağça və ev tikdirmişdir. Hud peyğəmbərə iman gətirmədiyindən qovmu ilə bərabər məhv olmuşdur.

Qızıldan bir saray tikdirdi **Şəddad**,
Ölərkən almadı qəsrindən murad (İ-111).

Dara ilə İskəndər arasında münaqişələr kəskinləşdiyi bir vaxtda şair Şəddadı xatırlayır.

Şəhər (məc. ap. top.) – Şair "İqbalnamə" əsərini şəhərə bənzədir.

Bir **şəhər** yaratsam, baxtım olsa yar,
Kim olsun bəs ona sonra şəhriyar (İ-423).

Yəni: "İqbalnamə" əsərini müvəffəqiyyətlə yazıb qurtarsam, ona kim sahib çıxa bilər.

Şəhrud (top.) – Bax: Şahrud.

O gündən şadlığı məndən yox etdin
Ki, məni **Şəhrudda** tərk edib getdin (XŞ-268).

Şəkər (an.) – "Xosrov və Şirin"də obraz adı. Xosrovun Məryəmdən sonra aldığı arvadının əsl adı. Şəkər farsca şirin deməkdir. Şair təqdim edərkən, bu adın apelyativ mənasını da tez - tez xatırlayır.

Biri dedi: "Şahım lütf etsə əgər,
İsfahanda vardır bir nazlı **Şəkər** (XŞ-224).
Məqsədi alverdi, bazarı **şəkər**,
Şəkərdə də vardır şirindən əsər (XŞ-225).
Gülab dolu camla gəldi o nigar,
Ağzı **şəkər** dolu, gözləri xumar
Adı **Şəkər**, özü şəkər o idi,
İsfahan **nabatı** məgər o idi? (XŞ-226).

Şəkər (məc. an.) – Şirin Şəkəri iftara – qida məhsullarına bənzədir.

Şirinə min cürə söz dürrü saçdın,
Ancaq orucunu **Şəkərlə** açdın (XŞ-268).

Şəkər, Xuzistan (qoşa məc. on.) – Xuzistan (bax) şəkər qamışının vətəni kimi şöhrət qazanmışdır. Buna görə də Şərq ədəbiyyatında şəkər rəmzi kimi tez -tez adı çəkilir.

Şəkər adı çəkmə, sözü qısa et!
Şəkər söylədinsə, **Xusiztana** get! (XŞ-67).

Xosrovun dilindən söylənilən bu beytdə Şirin metaforik şəkildə şəkərə, Bərdə isə Xuzistana bənzədilmişdir.

Şəkər məhləsi (top.) – İsfahan şəhərində Şəkərin yaşadığı məhəlləni şair məhz belə adlandırmışdır. "Şəkərin yaşadığı məhəllə" mənasında işlənmişdir.

Şəkər məhləsinə yetişən zaman
Yenə Qəsri-Şirin oldu İsfahan (XŞ-226).

Şəkər, Şirin (müq. an.) – Şirin özünü Şəkərlə müqayisə edir.

Adam göndərəydin, kəsdirib kəbin,
Bunlara layiqdir **Şəkərtək Şirin**...
Sən gedib **Şəkərlə** keyf məclisi sür,
Şirinlə yox, **Şirin** ondan güclüdür.
Şəkər bəsdir sənə şabaş üçün, al,
Şirinsə bir baldır, özü də xam bal (XŞ-247 – 248).

Şair Şirin və Şəkər adları ilə yanaşı, onların leksik (apelyativ mənalarını da müqayisə edir.

Şəkər səbəbinə alçaldı **Şirin**,
Şəkər də özünü salırdı **şirin**...
Şirinin yerini **şəkər** tutarmı?
Şirinsiz şəkərin bir dadı varmı?
Çəmənlər boş qalar yəqin **nəsrinsiz**,
Şəkər acı dadar, inan, **şirinsiz**,
Şəkər, **şirin** birdir, söyləmə, dayan!
Şirin candan olur, **şəkər** qamışdan... (XŞ-230 – 231).

Şəki alması, Məkkə qumu (qoşa məc. on.) – Şair Zeynəbin (bax) çənəsini və gözəlliyini eyni vaxtda Şəki almasına (Görünür, şairin dövründə Quba yox, Şəki alması məşhur imiş) və Məkkə qumuna bənzədir.

Şəki almasıtək çənəsi vardı,
Məkkə qumundan da çox yandırardı (LM-234).

Şəmira (an.) – Bərdə hökmdarı Məhin Banunun əsl adı. Şəmira çox qədimlərdən bəri Assuriyada, Babildə, Urartuda, eləcə də Azərbaycanda dillərdə gəzən məşhur əfsanə qəhrəmanı dul hökmdar Şammuramatanın reallaşdırılmış, sadələşdirilmiş formasından başqa bir şey deyildir... Müxtəlif xalqlarda bu əfsanəvi hökmdar müxtəlif adlarla şöhrətlənmişdir ki, bunlardan məlum olanları Şammuramata, Sammuramiş, Semiramida, Şamran və Şəmiradır (Azərbaycan ədəbiyyatı tarixi. I c. B., 1960. səh. 31-32).

Yəqin elə buna görə də, şair "Xosrov və Şirin" poemasında bu qadının yadda qalan müsbət obrazını yaratmışdır.

Şəmira adlanır o göyçək qadın,
Böyükdür mənası bu gözəl adın (XŞ-63).

Şəmmas (an.) – Hərfən Günəşə qulluq edən deməkdir. Rəvayətə görə, atəşgah tikən atəşpərəst olmuşdur.

Şəmmas məbədindən çıxıb kənara,
Abbasilər kimi geyinib qara (YG-184).

Burada Bəhram Gur eyni vaxtda həm Şəmmasa, həm də Abbasilərə bənzədilmişdir.

Şəmsəddin (an.) – Atabəy Əbu Cəfər Məhəmməd Eldəgizin (bax) dini fəxri adı. "Şəmsəddin" ərəb sözüdür və "Dinin Günəşi" deməkdir.

Dünya və **din Şəmsi** adlandığından
Hamıya nur saçan günəşdir, inan! (XŞ-36).

Atabəy Məhəmməd Cahan Pəhləvanın atası Eldəgizin də "Şəmsəddin" dini fəxri adı olmuşdur və tarixi mənbələrdə o, çox vaxt "Şəmsəddin Eldəgiz" adı ilə adlandırılır.

Şəmsəddim Məmməd (an.) – İlk dəfə Qızıl Arslanın qapıçısı kimi təsvir olunan şəxs, çox güman ki, hökmdarın vəziridir. Məmməd – əsl şəxs adı, Şəmsəddin isə onun dini fəxri adıdır. Ən yüksək dini fəxri adlardan biri olan "Şəmsəddin" – vəzirlərə, atabəylərə, ümumiyyətlə hökmdarlara verilərdi.

Şəmsəddin Məmmədə dedi: "Fürsətdir,
Xoş tale zahidi hüzura gətir" (XŞ-367).

Burada şairin özü "xoş tale zahidə" bənzədilmişdir.

Şər (an.) – "Xeyir ilə Şər hekayəsi"ndə obraz adı. Bu ad obrazı çox düzgün xarakterizə edir.

Adın **Şər**, özün də xalq üçün şərsən,
Xisləti adından pis bir bəşərsən... (YG-252).

Şər Xeyri tanıdıqdan sonra, ölümdən xilas olmaq üçün şirin dilini işə salır:

Başımız üstündə dönən fələklər
Sənə **Xeyir** demiş, mənə isə **Şər**.
Nələr eylədimsə o zaman sənə,
Bütün eylədiyim halaldır mənə.
Nələr bacarırsan, mənə, durma, et,
Et, ancaq özünə, adına nisbət (YG-252).

Xeyir və Şər adları mənalarına görə antonimdir. Bədii ədəbiyyatda obrazın özü və adının eyniləşdirilməsi sırf poetik səciyyə daşıyır. Bu, eyni zamanda qədim Azərbaycan ad sistemi ilə əlaqədardır. Çünki "Dədə Qorqud" dastanlarında olduğu kimi keçmişdə əsl ad şəxsə xarakter və fəaliyyətinin, yetkinləşdiyi mərhələdə göstərdiyi igidlik və ya qəhrəmanlığı ilə əlaqədar ola-

raq verilərdi. Şəxsin bu fərdi xüsusiyyətləri, cəmiyyətdə tutduğu mövqeyi, xarakteri onun adında da əks edilərdi.

Nizami bu obrazlarını adlandırarkən, məhz həmin ad sisteminə əsaslanmışdır.

Şəra (məc. kos.) – Parlaq ulduz adı. Metaforik şəkildə insana bənzədilir.

Şəkər paltarını Şüheyl çıxartdı,
Göyün **Şərası** da fəryad qopartdı (XŞ-87).

Yəni Süheyl kimi parlayan Şirinin ağ bədənini görcək Şəra ulduzu həsəddən fəryad qopartdı.

"**Şərəfnamə**" (id.) – Nizaminin "Xəmsə"sinə daxil olan beşinci poeması "İskəndərnamə"nin birinci kitabının adı. "Şərəfnamə" iki sözdən: şərəf və fars sözü olan "namə" (məktub, əsər) sözlərindən düzəlmişdir.

Uğurla ucaltdı "**Şərəfnamə**"ni,
Köhnəni bununla eylədi eyni (İ-43).

Şairin özü "Xəmsə"nin əvvəlki əsərlərindən fərqli olaraq "İskəndərnamə"nin yazılma tarixini göstərməmişdir. Əsərin iri həcmi (iyirmi min misradan çox) və mürəkkəb quruluşu bizi şairin poema üzərində uzun müddət işləməsi qənaətinə gətirir. Hər halda "İskəndərnamə" 1197-ci ildən ("Xəmsə"nin dördüncü hissəsi olan "Yeddi gözəl" poemasının yazılmış tarixidir) sonra, son məlumata görə isə 1203-cü ildə yazılmışdır. Nizami Gəncəvidən sonra müxəlif sənətkarlar tərəfindən "İskəndərnamə" əsərinə 25 nəzirə əsər yazılmışdır.

Şəri (kos.) – Biri cənubda və o biri şimalda Böyük it və Kiçik it adı ilə məşhur iri ulduz sistemi.

Şəri yəmənlitək nədənsə, bilməm,
Şeirsiz rəqs edir yerində bu dəm (LM-186).

Şərin əsli (id.) – İslam dininin üsulu: "Quran", hədis, icma və qiyas.

Şərin əsli ilə fəri ki, vardır
Dörd xəlifə ona möhkəm divardır (YG-24).

Fər (furu) – həmin üsulun sahələridir.

Şərqin Yusifi (məc. ag.) – Yusif metaforik şəkildə Günəşə bənzədilir.

Doğardı şərqin də **Yusif** üzlüsü (LM-80).

Şərvə (an.) – İskəndərin Ermənistandan olan pəhləvanlarından birinin adı.

Acıqlı bir aslan Ermənistandan –
Vurub öldürməkdə cəsur pəhləvan.
Adı **Şərvə**, özü döyüşdə kamil... (İ-334).

Şətt (top.) – Ərəbcə "böyük çay" deməkdir.

Fərqət öz atını çapırdı yenə,
Gəmisi çatmışdı **Şətt** sahilinə (LM-183).

Şidə (an.) – "Yeddi gözəl" poemasında obraz adı. Xəvərnəq sarayını tikən Sam oğlu Simnarın şagirdi.

Gün kimi parlaqdı **Şidə** şöhrəti,
Vurardı qaraya, ağa zinəti (YG-129).

Şidə - Xurşid (farsca Günəş deməkdir) sözünün ikinci hissəsini təşkil edən Şid sözündən yaranmışdır, parlaq deməkdir.

Şimal (top.) – "İqbalnamə" əsərində təsvir olunan ideal cəmiyyətin yerləşdiyi ərazinin adı.

Bəxtinin təblini çaldırıb yenə,
Yetişdi Məşriqdən **Şimal** həddinə (İ-568).

Şimal qütbü (top.) – Cənub qütbünün əksini təşkil edən qütbün adı.

Var **Şimal qütbündə** qaranlıq bucaq,
Ağ, gümüş çeşməsi hər sudan parlaq (İ-375).

Şimal, Cənub, Məşriq, Məğrib (qrup xat. on.) – Şair qütb adlarını çəkməklə bildirmək istəyir ki, İskəndər bütün Yer kürəsinə hakim oldu.

Bir mıxı uzanmış **Şimali** qütbə,
Bir kökü uzanıb getmiş **Cənubə**,
İpinin bir ucu **Məşriqə** çatmış,
O biri **Məğribə** qol-qanad atmış (İ-56).

Şir (məc. ap. zo.) – Şair metaforik şəkildə Bəhram Guru şirə bənzədir.

Öküzü qoymadı qız üzərindən,
Şir görüb öküzü qalxdı yerindən (YG-111).

Şir (kos.) – On iki bürcdən birincisi olan Əsəd (ərəbcədir) bürcü. Şimal yarımkürəsində yerləşən 25 ulduzdan ibarət bir bürcdür.

Bir yanda Ütarid Cövza başından,
Şir yıxan Mərrixə baxırdı heyran (XŞ-150).

"**Şir ağzı**" (top.) – İskəndərin okeanda rast gəldiyi burulğanın adı. Güman etmək olar ki, şair bu burulğanı təsvir edərkən Atlantik okeanında Bermud adaları yaxınlığında olan burulğan və burada qəzaya uğrayan gəmilər haqqında mövcud olan rəvayətlərdən geniş istifadə etmişdir.

"**Şir ağzı**" deyirlər bu burulğana,
Çünki şir ağzıtək hərisdir qana (İ-559).

Adından göründüyü kimi, şair bu adı, bəlkə də, özü uydurmuşdur. Bəlkə də, hazırkı Bermut üçbucağındakı burulğanlar Nizaminin dövründə elə "Şir ağzı" adlanırmış?

Şir, maral (qoşa məc. ap. zo.) – Şair eyni vaxtda Xosrovu (bax) şirə, Şirini (bax) isə marala bənzətmişdir.

Xosrov söz başlayıb dedi: "Bir kərə
Qara şir çıxmışdı çəmənliklərə.
Şir keçdiyi yolda **maral** duraraq.
Kəmənd atıb etdi o şiri dustaq.
O **maral Şirindir, mən** də həmən **şir** (XŞ-131).

Şir, Mərrix (qoşa məc. kos.) – Şair eyni vaxtda Xosrovu Şirə (ərəbcə Əsəd bürcü), Bəhram Çubini isə Mərrixə (bax) bənzədir.

Bir yanda Ütarid Cövza başında,
Şir yıxan **Mərrixə** baxırdı heyran (XŞ-150).

Şirin (an.) – "Xosrov və Şirin" poemasının əsas qəhrəmanı. Bu vaxta qədər Şirin haqqında müxtəlif məlumatlar verilmişdir. Nizaminin Şirini, şairin özünün də bir neçə yerdə qeyd etdiyi kimi, onun öz Afaqına (Appaqına) bənzər idealıdır. Lakin Şirinin salnamələrdə, tarix kitablarında yaşayan prototipi də tam tarixi şəxsiyyət deyildir. İstər Şirin, istərsə də Bərdə hakimi Məhin Banu öz mənşəyini çox qədim əsatirdən, əfsanələrdən almış, bir sıra qonşu xalqlar arasında da şöhrətlənmiş, sonralar öz məzmun və

şəklini dəyişmiş, nəhayət, tarixi şəxsiyyət Xosrovla bağlanmış xalq yaradıcılığı inciləridir (Azərbaycan ədəbiyyatı arixi. I c.Bakı, 1960.s.31). Şair buna görə də "Xosrov və Şirin poemasında onun ölməz bədii obrazını yaratmışdır. Məhin Banunun qardaşı qızı.

Üzü nəsrin kimi, qoxusu nəsrin,
Dodağı şirindir, adı da **Şirin**.
Gözəl söz deyənlər ona can deyir,
O, Məhin Banunun canişinidir (XŞ-65).
Deyirlər şirinmiş dilinin dadı,
Şirin qoyulmuşdur odur ki, adı...
Qulağına çatsa onun bir sözü,
Tez huşdan gedərdi Əflatun özü (XŞ-184).

Şair böyük sənəkarlıqla Şirin adını mənalandırmış və bu adı obrazın bütün xarakter xüsusiyyətləri ilə əlaqələndirmişdir.

Azərbaycan dilçisi mərhum Voroşil Qukasyan "Bir qəsidənin izi ilə" adlı məqaləsində yazır: "Sasani imperiyasının son böyük şahənşahı Xosrov Pərviz hakimiyyətə gəldiyi gündən etibarən dişini Arana qıcıdır. 603-cü ildə onun imperiyasına qarşı üsyan etdilər. Musa Qalakətli "Alvan tarixi" əsərində yazır ki, həmin üsyana dövrünün görkəmli dövlət xadimi, müdrik filosofu, mahir diplomatı, Varaz Qriqorun (Cavanşirin atası) yaxın dostu Viro başçılıq edirdi. Üsyanı qəddarcasına boğan Xosrov, Aranın iki incisini girov apardı, bunlardan biri 570 il keçəndən sonra dahi Nizaminin ölməz "Xosrov və Şirin" poemasının baş qəhrəmanı olacaq İran gözəli Şirin, digəri isə özünün hikmətli hekayələri ilə məşhur olan Viro idi" ("Azərbaycan" jur. №11. 1986.səh.174).

Şair əfsanəvi Şəmira və xalq yaradıcılığında mövcud olan qadınlarımızın müsbət xüsusiyyətlərini ümumiləşdirmiş, tarixi şəxsiyyət olan Şirinlə birləşdirmiş və şərq ədəbiyyatında ilk dəfə olaraq bu cür hərtərəfli müsbət qadın obrazı yaratmışdır. Əsərin adı "Xosrov və Şirin" adlansa da, şair əsərin lap ilk səhifəsində yeni yazacağı əsərin Şirin haqqında olmasına işarə edir.

Şirin haqqındadır özü əsərin (XŞ-21).

Demək, Xosrov, Şiruyə, Məryəm, Şəkər və digər obrazlar Şirin obrazının daha canlı, daha hərtərəfli olması üçün bir vasitə rolunu oynamışdır.

Tarixi mənbələrə görə və Nizaminin "Xosrov və Şirin" poemasında şairin öz fikirlərinə əsaslanaraq Seyidağa Onullahi "Şirin türk qızıdır, müsəlmandır" adlı məqaləsində qeyd edir ki, N.Gəncəvi çox düzgün olaraq ilk qaynaqlara söykənərək Şirini türk qızı kimi təsvir etmişdir. Xosrov Pərviz də türk olduğu (Xosrov Pərvizin babası Ənuşirəvan Adil Xəzər xaqanlığı ilə əlaqələri möhkəmləndirmək məqsədilə onun qızı ilə evlənmiş və oğlu Hörmüz də "türk şahzadəsi" kimi tanınırdı. Xosrov Pərviz də türk xalqlarına böyük rəğbət və məhəbbətlə yanaşan Hörmüz şahın oğludur – A.P.) və özü də "türk şahzadəsi" – türkzadə adlandığı üçün onunla evlənir və tərcüməsiz bir-birilə danışmışlar. Şirin müsəlman, Xosrov isə atəşpərəst olduğu üçün onların kəbini atəşpərəstlərin adət və ənənələri ilə kəsilir. Şirin ömrü boyu Xosrova islamı qəbul etməyi təhrik etmişdir ("Azərbaycan müəllimi" q. 06.03.1991).

Şirin (məc. an.) – Xosrovun eşqinin şirinliyi Şirinin şirinliyinə bənzədilir.

Şahın ürəyində olduqca **Şirin**,
Eşqi **Şirin kimi** olurdu şirin (XŞ-117).

"**Şirin**" (xat. id.) – Şair bu adı "Xosrov və Şirin" poeması mənasında işlətmişdir. Arşimidesin sevgilisinin ölümünü təsvir edən şair "Xosrov və Şirin" poemasını qurtardığı vaxt vəfat edən həyat yoldaşını xatırlayır.

"Şirin"in halvasın qurtaranda mən
Bir halvaçalanım getdi əlimdən (İ-447).

Burada "halvaçalanım" sözünü isə şair "arvadım" mənasında işlətmişdir. Beytin mənası: "Xosrov və Şirin" əsərini yazıb qurtaranda, öz Şirinimi – Afaqımı itirdim.

Şirin, acı (ant. an. və ap.) – Şair Şirin adını ona antonim olan "acı" sözü ilə qarşılaşdırır.

Mənim hər oyunum **şirindir**, **şirin**,
Odur ki, adımı qoyublar **Şirin**...
Adım ki, **Şirindir**, sözlərim əgər

Acı olsa belə, bundan nə zərər? (XŞ-275).

Şirin, Gülgün (qoşa on.) – Şirin Şəbdiz adlı atı Xosrova bağışladıqdan sonra həmişə Gülgünü minərdi. Odur ki, poemada bu qoşa addan çox istifadə etmişdir.

Şirini Gülgündən düşürtdü yenə (XŞ-112).

Şirin, Pərviz (qoşa an.) – "Xosrov və Şirin" poemasında aşiq və məşuq kimi onların adları çox yerdə yanaşı işlədilir.

Nə ayrı düşürdü **Şirindən Pərviz**,
Nə gecə bilirdi Gülgündən Şəbdiz (XŞ-116).
Çünki ayrılmırdı **Xosrov Şirindən** (XŞ-116).
Xosrov Şiriniylə olurdu çox şad (XŞ-334).

Şirin, Şirin (tək. an.) – Fərhad can verərkən "Şirin" adını təkrar edir. Burada onun hissi, həyəcanı və Şirinə münasibəti öz əksini tapır.

Üzülüncə əli o dildarından
"**Şirin! Şirin**!" deyib yazıq verdi can (XŞ-208).

Şirin, Şirin... (tək. an.) – Şirin adının təkrar olunması və ona antonim mənalı təyinlərin əlavə edilməsi necə də təsirli və mənalıdır.

Alqış bu ölümə, əhsən **Şirinə**!
Öldürən **Şirinə**, ölən **Şirinə**! (XŞ-343).

Şirin dastanı (id.) – Şirinlə əlaqədar olan dastan dedikdə "Xosrov və Şirin" poeması yox, ən çox Şirinlə bağlı hadisələr nəzərdə tutulur.

Şirin dastanını eşidən kimi,
Şirin olduğundan uddum dilimi (XŞ-51).

Şirinin əfsanəsi (id.) – Şirin haqqında mövcud olan əfsanələrə işarə olunur.

O gözəl **Şirinin əfsanəsindən**,
Qulağına bir az pıçıldadım mən (XŞ-51).

Şirinin qəsri (məc. top.) – Xacənin bağında olan hovuz Şirinin qəsrində olan süd arxı ilə müqayisə olunur.

Şirinin qəsrində süd arxı ki, var,
Belə hovuzlardan yollanıb axar (YG-261).

Şiruyə (an.) – "Xosrov və Şirin"də obraz adı. Xosrovun Məryəmdən olmuş oğludur. Atasının arvadı (analığı) Şirinə aşiq olmuş və atasını öldürmüş, özü isə cəmi doqquz ay hökmdar olmuşdur. Şiruyə adı bu obrazın səciyyəsi ilə tam uyğun gəlir. "Şiruyə" adı şir və ru(farsca üz, çöhrə) sözlərindən olub, "Şir üzlü", "Şir təbiətli" deməkdir.

Məryəmdən olmuşdu bir kal övladı,
Şir kimi qorxulu, **Şiruyə** adı.
Beyni xərçəng dolu, zorba bir eşşək,
Ürək bulanırdı üzünü görcək... (XŞ-332).
Şiruyə də **şirtək** taxta əyləşdi (XŞ-334).

Şiruyə, Pərviz (xat. an.) – İstedad və bacarığı olmayan, lakin şahların gözünə girməyi bacaran şəxslərə hökmdarlar bəzən çox yüksək qiymət vermişlər. Şair filə qarışqa deməyi, milçəyə isə Cəbrayıl (bax) rütbəsi verən hökmdarları məzəmmət edərkən Şiruyə ilə Pərvizi xatırlayır.

Qoyma qoca şaha gənc üstün gələ,
Şiruyə, Pərvizi öldürdü belə.
Qocaman ağaca mişar çəkmə sən,
Zöhhak bunun üçün düşdü təxtindən (İ-424).

Qocaman ağac sözlərində Pişdadiyan sülaləsinin guya yeddi yüz il padşahlıq etmiş dördüncü şahı Cəmşid nəzərdə tutulur. Zöhhak onu taxtdan saldığı üçün öz taxt-tacını itirdi.

Şair eyni zamanda burada Xosrovu Cəmşidə, Şiruyəni isə Zöhhaka bənzətmişdir. Çünki Zöhhak hakimiyyətə zorla gəldiyi üçün, onu tez də itirdi. Şiruyə də ata qatili olduğu üçün Zöhhak kimi taxt-tacdan salındı və öldürüldü.

Şiruyə, Şirin (ana. an.) – Adlarının ilk hissələri eyni səslənən (şir, şir) bu obrazlar tamamilə bir-birinin əksini təşkil edir. Şiruyə kişi, Şirin qadın, Şiruyə mənfi, Şirin isə müsbət obrazlardır.

Şiruyə edərkən Xorsovu dustaq
Şirini qoyurdu yanına ancaq (XŞ-334).

Şirvan (top.) – Şirvanın müxtəlif dövrlərdə ərazisi müxtəlif olmuşdur. Ümumiyyətlə, Azərbaycanın təxminən cənubundakı sərhədlər daxilində olan ərazisi Şirvan adlandırılmışdır: cənub-

dan – Kür çayı, Gəncə və Şəkiyə qədər qalmış, şimaldan – Dərbəndə qədər olan yerlər.

Bu çətin yollarda heç yorulmadan
Ovçu aslan kimi keçdi **Şirvandan** (İ-233).

Söhbət İskəndər (bax) Zülqərneyndən gedir. O, burada ovçu aslana bənzədilmişdir.

Mirzəbala "Azərbaycan tarixində türk Albaniya" əsərində göstərir ki, müasir Şimali Qafqasiya ilə Şərqi Avropanın Don – Aral bölgələrini də içinə alan "Asiya Sarmatiyası" birliyindən bəhs edən müəlliflər bu birliyi təşkil edən 53 millət sırasında hun, xəzər, barslı və masaket türkləri ilə yanaşı, 44-cü millət kimi "Şirvan"lardan da bəhs edirlər... "Şirvan dövləti"nin öz adının "Şirvan" şəhərindən alması haqqında tarixi dəlillər var... "Şirvan"ı farsca "Şir" və ya "Ənuşirəvan"a bağlamaq cəhdi heç bir ciddi əsasa söykənmir. Belə ki, bir qəbilə adı kimi "Şirvan" təbirinə Ənuşirəvandan (bax) əsrlərcə əvvəl rast gəlirik ("Azərbaycan" jur., №10, 1989. səh.122).

Şirvanşah (an.) – Şirvan dövlətlərinin şahlarına verilən tituldur. Orta əsrlərdə titul, dini fəxri adlar, şəxsin əsl adını əvəz etdiyi üçün, oxucuya və sənətkara (danışan və dinləyənə) məlum olan hökmdarların adı çox vaxt onun titulu ilə əvəz edilir. Şirvanşah dedikdə burada Şirvanşah Axsitan nəzərdə tutulur.

Bir də ki, **Şirvanşah**, o baş hökmüdar
Şirvana, İrana olmuş şəhriyar (LM-48).

Burada Şirvan və İran toponimləri eyni zamanda epiforik şəkillidir.

Şüştər (top.) – Cənubi Azərbaycanda Xuzistan vilayətində yerləşmiş qədim şəhərlərdən biridir. Bizim eradan əvvəl Suzı adı ilə məşhur və qədim İranın paytaxtlarından biri olmuşdur. Orta əsrlərdə zərif ipəyi və əla növlü qumaşı ilə şöhrət qazanmışdır. Sasanilər sülaləsinin ikinci hökmdarı Şapurun Roma imperatoru ilə apardığı müharibədə təslim etdiyi əsirlər tərəfindən tikilmiş məşhur Qeysər səddi, özünün tikdirmiş olduğu su bəndi yalnız İranın deyil, eyni zamanda Azərbaycanın sasanilər dövrü mədəniyyətinin ən

qiymətli abidələrindəndir. Bu şəhər bir sıra alimləri və farsca yazmış azərbaycanlı şair Mövlanə Razi Şüştərinin vətənidir.

Bu şəhərə Şüştər, Şus, Şuş da deyirlər. "Şüştər" adlı Azərbaycan muğam havası da vardır.

Bir tac ki, gövhərdən almışdı zinət,
Şüştər gəlirindən üstün bir xələt (YG-124).

Ticarət mərkəzi olmuş bu şəhərin gəliri dillər əzbəri olmuşdur.

Şüştər ipəyi (məc. növ.) – Göy (səma) Şüştər ipəyinə bənzədilmişdir.

Toxuyur, əsərkən səhər küləyi,
Yer ruşi, göy isə **Şüştər ipəyi** (İ-367).

Görünür, şairin dövründə Şüştər öz ipəyi ilə məşhur olmuşdur.

- T -

Taci-Qeysər (ktem.) – Qeysərin tacı deməkdir.

And içdi o taxta, **taci-Qeysərə**... (XŞ-171).
Söhbət Xosrovun arvadı Məryəmdən gedir.

Taqi-Kəsra (top.) – Mədain xərabəliklərində Taqi-Kəsra adında böyük yarım dairə şəklində olan bir tağ və onun daxilində Nuşirəvan(bax) sarayının viranəlikləri görünür.

Taqi-Kəsradan ta Bisütunacan
Qızıl qotaz atla dolmuşdu hər yan (XŞ-308).

Tamğaclı (məc. et.) – Tamğaç (bax) şəhərində yaşayanlar. Şair Rum pəhləvanının kəmərini tamğaclının qaşına bənzədir.

Kəməndi **tamğaclı** qaşına bənzər (İ-86).

Tamğaç – Türküstan şəhərlərindən biri kimi də izah olunur. Onlarda qaşlarını kaman kimi düzəltmək adət idi.

Tamğaç (top.) – Qədim Çin paytaxtının adı olmuş, çinli mənasında da işlənmişdir. "Tamğaçı" isə çinli(etnonim) deməkdir.

Tamğaçı bağlasın həbəşi saça
Şüştər zinətini bağlasın Çaça (XŞ-34).

Tanrı (teon.) – Qədim türk və o cümlədən Azərbaycan dilində "Allah"ın adı.

Şəfqətli, ədalətli **tanrının** adı ki var,
Hikmət xəzinəsini açan açardır, açar.
Hər sözün, düşüncənin odur əvvəli, sonu,
Nə söyləsən, **tanrının** adıyla qurtar onu (SX-21).

M.Kaşğari "tanrı" sözünü izah edərək yazır: tengri yenə bunlar (Söhbət müsəlman olmayan türklərdən gedir) bilici kimsəyə "tengriqan" deyirlər.

"Tengriqan" və ya "tenqriqan" "tanqrı" və "qan" sözlərindən ibarət mürəkkəb sözdür. "Tanqrı" – göy, allah, "qan" – xaqan mənasındadır ("Nun səqir"in "n"-ya çevrilməsi türk dillərində xarakterik haldır). "Tanqriqan" – "ata tanrı", "xan tanqrı" deməkdir. Deməli, "tengri" sözündən olan "tengrixan" bilicilərə, ağsaqqallara, xaqanlara deyilirmiş (O zaman hər bir xaqan öz qəbiləsinin həm dünyəvi, həm də ruhani böyüyü, rəhbəri idi (47-17-18).

Tanrının şiri (məc. zo.) – Şair metaforik şəkildə dördüncü ərəb xəlifəsi Əli ibn Əbu Talibi Allahın şirinə(Ərəbcə Əsədullah sözünün tərcüməsidir) bənzədir.

O allahdan qorxan həyalı qoca
Tanrının şiriylə həmdərs olunca... (LM-35).

Burada "qoca" dedikdə üçüncü xəlifə Osman nəzərdə tutulur.

Tartus (an.) – Rus-türk pəhləvanlarından birinin adı. Tartus həm də vilayət adıdır. Əsərdə Bərtasdan olan pəhləvanın Bərtas adlandığını nəzərə alsaq, Tartus şəhərinin adı ilə adlandığını güman etmək olar.

Vardı bir pəhləvan, adı da **Tartus**,
Mərdlikdə tanırdı onu hər bir rus (İ-337).

Tatar (məc. et.) – Türk xalqının müəyyən hissəsini təşkil edən tayfaların ümumi adı. Şair metaforik şəkildə Fitnənin (bax) gözünü tatar gözünə bənzədir. "Tatar" burada qara mənasında işlənmişdir.

Şah dedi: "Söylə bir,**tatar gözlü**, sən,
Almayırsan ovu gözünə nədən? (YG-103).

Taysız gözəl (an.) – Obraz adı. Çin xaqanının İskəndərə bağışladığı gözəlin əsl adı.

Elə bil ağız yox, yaranmış yoxdan,
Ona **“Taysız gözəl”** demiş ad qoyan (İ-308).

Tazı (zo.)– “Ovçu ilə tülkünün hekayəti”ndə alleqorik obraz adı.

Ovçu belə deyəndə hər yan toza büründü,
Toz **tazının** dalınca pərdə kimi süründü...
Dedi ki, pusqudayam, gərək qəsdə girəm mən,
Tülkü yaxşı bilir ki, şikar vaxtı şirəm mən (SX-95).

Təbəri (an.) – Əbu Cəfər ibn Cərir (855-947) məşhur tarixçi alim, fəqih, hədisçi, Nizami Təbərinin “Tarixi-Təbəri” adı ilə məşhurlaşmış “Tarix ar-Rüsul və-mülk”(“Peyğəmbərlərin və şahların tarixi”) əsərinə işarə edir. Alim Təbəristanda doğulduğu üçün Təbəri nisbəsi ilə məşhur olmuşdur. Demək, nisbə alimin əsl adı kimi işlənmiş və onu əvəz etmişdir.

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ.
Ərəbcə, dəricə, yeri düşərkən,
Buxari, **Təbəri** əsərlərindən (YG-31).

Təbəristan (top.) – Hazırda həmin vilayətin qərb hissəsi Mazandarana, şərq hissəsi Xorasana daxildir.

Təbəristan qızıdı, bir innabdı dodağı,
İnnab nabat əzməyə hardan tapdı dodağı? (SX-62).

İranın şimalında yerləşən bu vilayətin hüdudları haqqında coğrafiyaşünasların fikirləri arasında ziddiyyətlər mövcuddur. Bir çox coğrafiyaşünaslar bu yerin Mazandaran olduğunu söyləsə də, Təbəristan Mazandaran ilə İraqi-Əcəm, Xorasan və Gürgan arasında yerləşən bir sahəni əhatə edir. Bəzilərinin fikrincə, Xəzər dənizinin cənub və Gilanın qərb hissələrinə daxil olan yerləri Təbəristana aid edirlər. Tehranın qərbindən Bistamın qərbinə qədər Elbrus dağının cənub və şərq ətəklərində yerləşən Təbəristan sayılır. Semnan və Damğan qəsəbələri də buraya daxildir. Sasanilər zamanında Təbəristan Mazandaran adlanırdı. Firdovsi “Şahnamə” əsərində bu fikri təsdiq edir... İranın indiki ərazi bölgüsündə Təbəristan adı işlədilmir.

Təbilçi (məc. ap. an.) – Şair metaforik şəkildə Günəşi təbilçiyə bənzədir.

Təblini çaldıqca **təbilçi** yeyin
Qızışdı havası soyuq gecənin (İ-466).

“Təxti-Taqidis” (id.) – Orta əsr Şərq musiqi havalarından biri.

“Təxti-Taqidis”ə gələndə növbət
Göydə qapısını açırdı cənnət (XŞ-167).

Təkavər (zo.) – At cinsi adı.

Atlardan “ərəbi”, “bəxti”, **“təkavər”**... (LM-151).

Bütün zoonimlər böyük hərflə yazılır, lakin göründüyü kimi burada isə onlar kiçik hərflərlə yazılmışdır.

Təngülüşa (məc. id.) – “Luşanın kitabı” deməkdir. Babil münəccimi Tevkr Babilini (I ə.) farsca Luşa adlandırıblar. Luşa Günəşin (ekliptika) və ulduzların (zodiak) hərəkəti haqqında məşhur kitabın müəllifidir. Nadir miniatür, nəqş, ulduz və bürclərin şəkilləri ilə bəzədilmiş həmin kitab Şərqdə böyük şöhrət qazanmış, əsrlər boyu gözəllik xəzinəsi sayılmışdır. Təsadüfi deyildir ki, şair memar Simnarın tikdiyi Xəvərnəq sarayını Təngülüşaya bənzətmişdir.

Gözəllik qütbüydü cənub-şimalın,
Təngülüşasıydı yüz min xəyalın (YG-60).

Təraz (top.) – Qədim Türküstanda öz gözəlləriylə məşhur olan bir şəhər və vilayət olmuşdur. Şirin özünü öyərkən deyir:

Tərazda mən kimi gözəl tapılmaz,
Kiçik kənizimdir qürur ilə naz (XŞ-254).

İskəndər səfərə hazırlaşarkən Təraza da gedəcəyini bildirir.

Oradan gedərəm **Təraza**, Çaça,
Dünyanı gəzərəm at çapa-çapa (İ-260).

Tarixi mənbələrdə Talas, Taraz, Təraz və s. adlanan bu şəhər hazırda Qırğızıstan Respublikasının ərazisindən axan eyni adlı çayın üzərində yerləşir.

Təraz, Çin, Rum (qrup top.) – Bu toponimlər Bəhram Gurun tabeliyində olan dövlət ərazisinin genişliyini bildirir.

Ey **Tərazın, Rumun, Çinin** padşahı,
Soltanlar ümidi, şahlar pənahı (YG-164).

Təraz gözəli (məc. an.) – Qala gözəli adlanan rus qızı Təraz gözəlləri ilə müqayisə olunur. Təraz isə o dövrlərdə öz gözəlləri ilə xüsusilə məşhur olmuşdur.

Təraz gözəlləri dərs almış ondan,
Oyuna başladı pərdə dalından (YG-204).

Təraz müşkü (növ.) – Tərazda hazırlanan müşk növü.

Tərazın müşkü də ağız açırdı (İ-182).

Tərazlı (məc. et.) – Təraz vilayətində (və ya şəhərində) yaşayanlar. Şair toponimdən düzələn "tərazlı" etnonimini ağ və gözəl mənasında işlətmişdir.

Tərazlıtək gözəldin, saçın həbəş saçıydı (SX-88).

Tərəzi (məc. kos.) – Tərəzi bürcü. Bax: Mizan.

Gecənin siqlətini ölçməkdəmi qərəzi?
Zöhrə onu çəkirdi əllərində **Tərəzi** (SX-30).

Tərfə (kos.) – İyirmi səkkiz Ay mənzillərindən biri.

Tərfə də bir yanda dağıdırdı zər (LM-185).

Təsdis (kos.) – Ərəb sözüdür: altıbucaq deməkdir. Görünür, Təsdislə digər ulduzların (Bax: Təslis) altıbucaq şəklində yerləşməsini bildirir. Bu da Xosrovun taxta çıxması ilə əlaqədar olaraq tərəfdarlarının onun ətrafında sıx birləşməsinə işarədir.

Sövr Zöhrə ilə, Xərçəng Bürcislə,
Səadət yayırdı Təslis **Təsdislə**(XŞ-150).

Təslis (an.) – Ərəb sözüdür:1) üçə çatdırma, üçləşdirmə; 2) üçə bölmə; 3) xristian dinində: üç üqnumaya (İsaya, Ruhulqüdsə və Məryəmə) etiqad etmə kimi mənaları vardır.

Səadət yayırdı **Təslis** Təsdisə (XŞ-150).

Tibet (top.) – Asiyanın ən yüksək ərazisi olub, Çinin cənub-qərbində geniş bir ölkədir. Hazırda Çin Xalq Respublikasına daxildir.

Tibetə tərpəndi tez Hindistandan,
Oradan tez Çinə keçdi hökmüran (İ-271).

Tibet dağı (or.) – Tibet ölkəsində olan dağın adı.

Tibet dağlarına çatınca ordu
Səbəbsiz sürəkli qəhqəhə vurdu (İ-271).

Tiflis (ast.) – Qafqazın ən qədim şəhərlərindən biri. Nizaminin təsvirinə görə, İskəndər Tiflisi ilk abad edənlərdən biri olmuşdur. Hazırda Gürcüstan R.- nın paytaxtıdır.

Ən qoca bir dehqan vermişdir xəbər:
Tiflisi ilk abad etmiş İskəndər (İ-202).

Tir (kos.) – Merkuri planetinin fars dilində adı.

Ay Surda, Cövzada **Tir** tutmuş qərar,
Mərrix də Əsəddə oldu aşikar (YG-56).

Tir gecəsi (məc. xron.) – Şəmsi (Günəş) təqviminin dördüncü ayı, iyunun 22-dən iyulun 22-nə uyğun gəlir. Bu ayda gecələr çox qısa olur. Şair Dey ayında(bax) bir günün uzunluğunu Tir gecəsinin uzunluğuna bənzədir.

Dey ayında günlər gödəkdir, gödək,
Bir gün çox qısaydı **Tir gecəsitək** (YG-191).

Toğan (zo.) – Quş və s. ovlamaq üçün xüsusi təlim görmüş iticaynaqlı quş. Çin xaqanının İskəndərə bağışladığı ov quşu.

Toğruldur quşların şahı bu **Toğan**,
O da Toğrul kimi ölkəyə sultan (İ-307).

Toğrul (məc. an.) – Apelyativ mənası Ağ Toğan (bax) deməkdir. Şair eyni zamanda Çin xaqanının İskəndərə bağışladığı Toğanı Toğrul şaha (bax) bənzətmişdir. Həm Toğan, həm də Toğrul türk mənşəli adlardır. Bax: Toğan.

Toğrul şah (an.) – Səlcuq hökmdarı Sultan Məsudun (1135 – 1152-ci illər) qardaşı, Arslan şahın (bax) atası II Toğruldur. O, 1132-1135-ci illərdə (yəni Sultan Məsuda qədər) sultan olmuşdur .

Şahların şahıdır, vüqarlı, adil,
Adi **Toğrul şahıdır**, özü rəhmdil (XŞ-33).

Tuba (mif.) – Dini rəvayətə görə, Behiştdə bitən gözəl və hündür bir ağacdır. Klassik ədəbiyyatda gözəlin boyu Tubaya bənzədilir.

Rəfrəfdən **Tubaya** vurdu əlami,
Ordan da Sidrəyə qoydu qədəmi (XŞ-358).

Burada söhbət Məhəmməd peyğəmbərdən gedir.

Tuba (məc. mif.) – Tuba Şirinin eyvanının budağına bənzədilir.

Xosrovu düşürdü elə eyvana,
Kiçik bir budaqdı **Tuba** da ona (XŞ-117).

Tuğan şah (məc. an.) – Səlcuqilərdən Məlik Müəyyədin oğludur. Məşhur şair Zəhir Farabi bir müddət Tuğan şahın xidmətində və onun məddahlarından olmuşdur.

Sözün **Tuğan şahı** girib meydana... (XŞ-31).

Yəni sözün qızılquşu meydana girib.

Tuğan şah, Qara xan (qoşa məc. an.) – Şair sözlərini (şeirini) eyni zamanda Tuğan şaha, qələmini isə Qara xana (bax) bənzətmişdir.

Sözün **Tuğan şahı** girib meydana,
Qılınc verdi qələm **Qaraxanına** (XŞ-31).

Turan (top.) – Qədim iranlılar tərəfindən Türküstan və Tatarıstana verilən addır. Bu yer guya qədimdən bəri türk qəbilələrinin məskəni olduğu üçün Turan (yəni türklər) adlandırılmışdır.

Çin, **Turan** taxtını məndən istəsən,
Boynumu çəkmərəm bu itaətdən (İ-292).

Tur dağı (top.) – Ərəbistan yarımadası ilə Misir arasında yerləşən Sina yarımadasında bir dağın adı. Dini əfsanələrə görə, Musa peyğəmbərlə Allah arasında ilk danışıq yeri həmin dağ olmuşdur.

Camı boşdu həqiqət sorağında Musanın,
Sındı ümid şüşəsi **Tur dağında** Musanın (SX-39).

Tus (top.) – Xorasanda Məşhəd şəhərinin yaxınlığında qədim bir şəhər olmuşdur. İndi xarabalıqları mövcuddur. Məşhur şair Firdovsinin və başqa görkəmli şəxslərin vətəni hesab olunur. Azərbaycanın məşhur alimi və ictimai dövlət xadimi Nəsrəddin Tusi də bu şəhərdə parlamışdır.

Bu **tusi** qədəhlə Mahmuda bildir
"Şahnamə"nin qədri – qiyməti nədir (İ-428).

Şair "tusi qədəh" dedikdə isə Firdovsi Tusinin "Şahnamə"sini nəzərdə tutmuşdur.

Tutiyanuş (an.) – "İskəndərnamə" əsərində obraz adı. Qədim türklərdə olduğu kimi bu ad şəxsin özü, peşə və məşğuliyyəti, gözəl natiqlik bacarığı ilə əlaqədar olub, obrazı düzgün xarakterizə edir. "Tutiyanuş" Azərbaycan sözü olan tutuquşu,

tutiya ilə əlaqədardır. Lakin şair ona "nuş" hissəciyini artıraraq dəyişdirmişdir.

Bir rumlu var idi olduqca insan,
Natiqdi, bir neçə dildə danışan.
Alimdi həm fikri, sözü qurmaqda,
Mahirdi ox atıb, qılınc vurmaqda.
Söhbəti tutini kəməndə salmış,
Özü **Tutiyanuş** adını almış (İ-77).

Tülkü (zo.) – "Ovçu ilə tülkünün hekayəti"ndə alleqorik obraz adı.

Bir **tülkü** yaxınlaşıb ələ saldı ovçunu,
Söylədi: "Nə yaxşı ki, bu dərd aldı ovçunu (SX-94).

Şair "Oğru və tülkü hekayəti"ndə də Tülkü obrazı yaratmışdır.

Ayıq – sayıq nəzərlə süzüb dörd yanı **tülkü**,
Qoruyardı, güdərdi hər gün dükanı **tülkü** (SX-103).

Türk (et.) – Türk xalqlarının ümumi adı. "Türk" sözünün leksik mənası igid, qoçaq, qüvvətli, döyüşkən deməkdir. "Türk" məfhumu Nizami üçün müxtəlif müsbət keyfiyyətlər (ağlıq, gözəllik, cəngavərlik, səxavətlilik, əzəmət, ürək genişliyi və s.) simvoludur.

Tərazlıtək gözəldin, saçın həbəş saçıydı,
Hüsnün **türkə**, ərəbə bir elin xəracıydı (SX-88).

Burada "türk" dedikdə, metonimik şəkildə bütün türk xalqları nəzərdə tutulmuşdur.

Türk (məc. et.) – Xosrov Bəhram Çubinlə vuruşa girəndə o, türkə bənzədilir. Burada "türk" igid, qorxmaz, cəsarətli və s. kimi mənalarda işlənmişdir.

Türk kimi bir döyüş başladı həm də
Türk kəranayları səslənən dəmdə (XŞ-148).

Türk, rumlu (qoşa məc. et.) – Odun şöləsi türk və rumlularla müqayisə olunur.

Bir **türkdü**, **rumluydu** əsil – nəsəbi,
Hindlilər göz nuru vermiş ləqəbi (YG-127).

Birinci sətirdə ocağın şöləsi ilə Rum – Kiçik Asiyada yaşayan al yanaqlı ağ türklər müqayisə edilir. İkinci sətirdə hindlilər

deyərkən VII əsrdə İrandan Hindistana qaçmış, indi də orada yaşayan zərdüştilər – atəşpərəstlər nəzərdə tutulur. Zərdüştilər isə odu göz işığı kimi sevirdilər.

Türk dili (id.) – Ən qədim dövrlərdən başlayaraq, əsrimizin 30-cu illərinə qədər "Azərbaycan dili" əvəzinə, bu termindən istifadə olunmuşdur. Bu söz altında Azərbaycan xalqına məxsus olan dil nəzərdə tutulur.

"Türk dili" geniş mənada bütün türk xalqlarının danışdığı dil mənasında da işlənir.

Türk dili yaramaz şah nəslimizə,
Əskiklik gətirər türk dili bizə (LM-47).

Türk nayı (ktem.) – İskəndər və Dara döyüşçülərini qızışdırmaq üçün çalınan musiqi aləti.

Türk nayı qopardı elə bir şivən
İgidlər coşaraq qopdu yerindən (İ-142).

Türk şahı (an.) – Türk şahının əsl adını əvəz edən ləqəbi. Nizami bu adı "Çin xaqanı" adı ilə sinonim işlətmişdir.

Türk şahı xaslarla yola çıxaraq,
Getdi İskəndəri çağırsın qonaq (İ-304).

Türklərin xaqanı (an.) – Çin hüdudlarında yaşayan türklərin xaqanının köməkçi adı. Nizami yradıcılığında "Çin" müasir Çini yox, o dövrdə Çin ərazisində yaşayan türklərin ərazisini bildirir. Şair "çinli" dedikdə də "türklər"i nəzərdə tutur.

Türklərin xaqanı dünya şahından
Daşqın bir sevinclə oldu kamiran (İ-293).

İskəndərlə dostluq əhd – peymanı bağlayan Çin (Türk) xaqanı səhərisi gün böyük bir ordu ilə İskəndərin hüzuruna gələndə o, təşvişə düşür. Elə bilir ki, xaqan hiyləyə əl atmışdır.

Dil açdı, **türklərə** eylədi qarğış:
"Fitnəsiz anadan bir **türk** doğmamış.
Çinlidən gözləmə çin qaşdan başqa...
Çinlidən umulmaz vəfa, etibar (İ-295)
Demək ki, sizlərdə məhəbbət kindir,
Çindəki türklərin qəlbi çin-çindir.

Bu **çinli türklərdə** olsaydı vəfa
Donunun çinində yaşardı dünya (İ-296).

Türkünaz (an.) – Birinci iqlim padşahı qızının söylədiyi nağılda obraz adı. Türk və naz sözlərindən düzəlmişdir.

Dedi: -bir türkəm ki, mənə tay olmaz,
Nazənin bədənəm, adım **Türkünaz** (YG-149).

Türkünaz, Türkütaz (ana., ep. an.) – Qara geyənlərin şahının ləqəbi. "Türkütaz" adı türk və taz ("taz", bəlkə də, farsca "ərəblərə mənsub" mənasında olan "tazi" sözüdür) sözlərindən düzəlmişdir. Şair bu adları fonetik cəhətdən bir -birinə uyğunlaşdırmış, həm anaforik, həm də epiforik şəklə salmışdır.

Söylədim: - Könüllər bir olsa əgər,
Qohumtək ad dəxi ada bənzəyər.
Xeyli qəribədir, qoy deyim sənə,
Türkütaz ləqəbi verilib mənə (YG-149 – 150).

Türküstan (top.) – Türk dilli xalqların yaşadıqları ərazinin ümumi adıdır. Eyni zamanda bu ad "Xuzistan" toponimi ilə epifora yaratmışdır. Türküstan sevən qəlbli insana bənzədilir.

Nazı **Türküstanın** qəlbini çalmış,
Öpüşü **Xuzistan** xəracı almış (XŞ-313).

- U -

Ulduz, Ay (qoşa məc. kos.) – Burada "ulduz" – apelyativ, "Ay" – onimdir. Şair Şirinin rəfiqələrini metaforik şəkildə ulduza, Şirinin özünü isə Aya bənzədir.

Şirin o qızları gördü gülərək,
Ulduzlara vurdu **aydan** bir bəzək (XŞ-113).

- Ü -

Üçüncü məzlum (ap.) – "Yeddi gözəl" poemasında obraz adı. Rastü- Rövşən tərəfindən var-yoxu əlindən alınan və haqsız olaraq zindana salınan məhbuslardan biri.

Üçüncü dedi ki: "Böyük tacidar,
Hər yana istəsən bəxtin yol açar (YG-288).

Üqab (kos.) – Ulduz adıdır. Ərəbcə qaraquş, qartal deməkdir.

Fəzada uçarsa əgər **üqabi**,
Ya Ayı ovlayar, ya afitabı (İ-426).

Burada söhbət Məlik Nüsrətəddindən gedir.

Ülkər (kos.) – Bax: Pərvin və Sürəyya.

Müjdəylə qanadlandı şadlıq quşu **Ülkərə**,
Yeddi lələk saldırdı bu uçuşu **Ülkərə** (SX-64).

Şadlıq quşu göylərə ucalıb Sürəyyanın yeddi lələyini sındırıb ondan da yüksəklərə qalxdı. Sürəyya yeddi xırda ulduz pleyadasıdır. Yeddi lələk həmin ulduzlara işarədir. Sur Zöhrənin mənzilidir. Zöhrə isə şadlıq, sevinc və musiqi ilahəsi sayılır.

Ülkər (məc. kos.) – Ülkər nədimə (insana) bənzədilir.

Həmsöhbət olmuşdu **ülkər** nədimtək (XŞ-127).

Ülkər, Ay (qoşa müq. kos.) – Şirin eyni vaxtda Ülkər və Ay ilə müqayisə olunur.

Çatınca Gülgünə Şirinin əli
Ülkərdən və **aydan** düşdü irəli (XŞ-109).

"**Üluf**" (id.) – Əbu Məşərin (bax) İskəndər haqqında məlumat verdiyi və Nizaminin istifadə etdiyi əsərinin adı.

Dünya filosofu Əbu Məşər də
"**Üluf**" ad qoyduğu məşhur əsərdə... (İ-435).

Ümman (top.) – Oman dənizi, Ərəb dənizi, Hind okeanının şimal-qərb qismini təşkil edib, şimal-şərqdən Hindistan, şimal tərəfdən Bülucistan və İran, şimal-qərbdən isə Ərəbistan yarımadası ilə əhatə olunur. Böyük dəniz mənasında da işlənir. Ərəbistanda Ümman adlı yer adı da vardır ki, şair bunu nəzərdə tutur.

Misir, Məğrib, **Ümman** məhsulu – nə var (YG-123).

Ümmi-Hani (an.) – Faxtə Əbu Talib qızı. Xəlifə və imam Əlinin bacısı, Məhəmməd peyğəmbərin arvadı. Guya Məhəmməd peyğəmbər Ümmi-Haninin evindən meraca getmişdir. Ümm - ərəbcə ana, Ümmi – anadangəlmə avam, heç bir elmə yiyələnməmiş, savadsız deməkdir. Məhəmməd peyğəmbərin düşmənləri ona ümmi deyib təhqir edirdilər. Onun tərəfdarları isə ümmi sözünün ümmət – xalq, kütlə kökündən olduğunu iddia edərək xalq arasından çıxmış, xalqçı kimi izah etməyə çalışmışlar.

Gecə tərk eləyib fani dünyanı,
Görməyə getmişdi **Ümmi-Hanini** (XŞ-356).

Ünqa (mif.) – Ünqə və ya Ənqa adlanan bu əfsanəvi bir quş adıdır. Guya Qaf dağlarında yaşayır.

Çətir tərlanıyla tutsun **ünqanı**,
Qızıl tacla tutsun o, sürəyyanı (XŞ-34).

Ünqa quşu (məc. mif.) – Bax: Ünqa. Şirin Ünqa quşuna bənzədilir.

Eşitdim ki, atı yeltək qaçırmış,
Ünqa quşu kimi onu qaçırmış (XŞ-106).

Ütarid (kos.) – Merkuri planeti. Ən kiçik planet sayılır. Bir tərəfi həmişə Günəşə doğru çevrilmiş olduğundan həmin hissəsi daim şiddətli isti, bir tərəfi isə soyuqdur. Yunan əsarətinə görə tacirlərin məbududur – ticarət allahıdır. Yeni eradan əvvəl V əsrin başlanğıcında Romada müqəddəs Merkuri məbədi yaradılmışdır. May ayında ənənəvi olaraq Merkuriyə və onun anası Maya qurbanlar kəsilərdi.

Gülsün üzə səhərin, ey **Ütarid**, yenə də,
Əldən düşdüm qələmtək – sənsən varid yenə də (SX-152).

Ütarid ulduzu – köhnə astroloji təsəvvürə görə, göylərin katibi sayılır. Ümmi isə savadsız deməkdir. Yəni oxuyub-yazmaq bilməyən Məhəmməd peyğəmbər (bax) öz gəlişi ilə Ütarid ulduzunu savadlandırdı, işıqlandırdı.

Ütarid ulduza verdi qələmi,
Əlinə qələmi alarmı ümmi? (İ-25).

Qədim astrologiyaya əsaslanan şair təsvir və isbat etmək istəyir ki, səyyarələrə rəngləri Məhəmməd peyğəmbər vermişdir.

Parlaq **Ütaridi** o zərgər aldı,
Gümüş kürəsinin rənginə saldı (YG-27).

Ütarid (məc. kos.) – Ütarid metaforik şəkildə rəqqasəyə bənzədilir.

Həmsöhbət olmuşdu ülkər nədimtək,
Ütarid üfüqdə rəqs edirdi tək (XŞ-127).

Ütarid, Müştəri, Zöhrə (qrup məc. kos.) – Şair metaforik şəkildə İskəndərin katibini Ütaridə, onun yazdığı məktubu Müştəriyə (bax), məktubun məzmununu isə Zöhrəyə (bax) bənzədir.

Oturdu katibi bir **Ütaridtək**,
Müştəriyə vursun **Zöhrədən** bəzək (İ-277).

Ütarid, Sünbül (qoşa məc. kos.) – Şair metaforik şəkildə Qızıl Arslanı(bax) Ütarid (Merkuri) və Sünbülə (bax) bürcü ilə müqayisə edir. Ütarid planeti Sünbülə bürcündə yerləşdiyi üçün, çox zaman onların adı yanaşı işlədilir.

Ağlından **Ütarid** sünbül topladı,
Odur **Sünbül** qaldı evinin adı (XŞ-43).

Yəni Ütarid (Merkuri) Qızıl Arslanın ağlından o qədər sünbül topladı ki, özünün yerləşdiyi bürc Sünbülə adlandı.

Ütarid Günəşə ən yaxın olan və onun ətrafında fırlanan, Günəşdən ən çox (sünbül – qızılı) şüalar alan səyyarədir. Burada Qızıl Arslan da metaforik şəkildə Günəşə bənzədilmişdir.

Ütarid, Zöhrə (qoşa məc. kos.) – Şair Xeyri (bax) Ütaridə, Kürd qızını (bax) isə Zöhrə (bax) planetinə bənzədir.

Verdi Xeyrə qızı: -Yaşayın, -deyə
Qoşdu **Ütaridi** parlaq **Zöhrəyə** (YG-246).

Üveys (məc. an.) – Şair özünü Üveysə bənzədir. Üveys isə Məhəmməd peyğəmbərin müasiri, alim bir adam olmuş, bütün qəlbilə islamiyyətə bağlanıbmış. Bir dəfə Üveys Məhəmmədin bir dişinin düşdüyünü eşidib, - o hansı dişidir, - deyərək öz dişlərinin hamısını bir- bir çıxarıbmış.

Yarəb, mən ki **Üveys** adını aldım,
Məhəmməd eşqinə mən sadiq qaldım (LM-55).

- V -

Valis (an.) – "İqbalnamə" əsərində obraz adı. İskəndərlə xəlvətə çəkilən yeddi alimdən biri.

Alim **Valis** dedi: "Padşah hər zaman
Bu qoca dünyada yaşasın cavan... (İ-495).

Valis və ya Fales Miletli eramızdan əvvəl təxminən 624 – 547-ci illərdə yaşamış yunan mütəfəkkiri, filosofu və astronomudur. Fales suyu mövcudatın birinci əsası hesab edirdi. Nizami də onu məhz bu cəhətdən göstərir.

Vamiq (məc. an.) – Məşhur "Vamiq və Əzra" dastanının qəhrəmanıdır. Eşqində səbat və sədaqətə görə adı Məcnun və Fərhadla yanaşı olaraq Şərq poeziyasında geniş yayılmışdır.

Əzraçün **Vamiqtək** düşmüşdü dərdə,
Gah dağda yaşardı, gah da çöllərdə (LM-91).

Şair metaforik şəkildə Məcnunu Vamiqə bənzədir.

"Sirlər xəzinəsi" əsərində Nizami vaxtilə bir-birini sevən bu aşiq və məşuqu xatırlamaqla insanların ölümə məhkumluğuna işarə edir və onları haqq, ədalətə çağırır.

Vamiq – toylu, büsatlı sadiq yardı cahanda,
Əzra – nazlı gəlindi, bir nigardı cahanda (SX-79).

Vamiq, Əzra (qoşa xat. an.) – Şərq ədəbiyyatında bu aşiq və məşuqun adları həmişə Leyli və Məcnun, Fərhad və Şirin adları kimi yanaşı işlədilir. Şair məqsəddən asılı olaraq bu sevgililərin məzarda olduqlarını xatırladır.

Vamiq, **Əzra** hardadır? Məzardadır, məzarda (SX-79).

Varis, **varis** (təkrar məc. ap.) – Birinci "varis" Atabəy Nüsrətəddin, ikinci "varis" isə şairin özüdür. Atabəy Nüsrətəddin Sultan Mahmud Qəznəviyə, şairin özü isə Firdovsiyə bənzədilərək onların varisləri hesab edilmişdir.

Borc əgər vaxtında ödənilməsə,
Qaydadır, **varisdən** çatar **varisə** (İ-429).

Rəvayətə görə, Sultan Mahmud Qəznəviyə "Şahnamə"ni yazdırmış, lakin vəd etdiyi mükafatı verməmişdir. Nizami şaha deyir ki, Firdovsinin (bax) varisi mənəm. Mahmud xəzinəsinin varisi sən. Qanun-qaydaya görə, ödənilməmiş borcu bu varis o varisə verməlidir.

Vəlid (an.) – İskəndərin Yəməndən olan pəhləvanının adı.

Dəbis Mədayindən, **Vəlid** Yəməndən... (İ-323).

"Vəlid" ərəbcə oğlan deməkdir.

Vəzir (an.) – "Nuşirəvanla vəzir və bayquşların söhbəti" hekayəsində obraz adı.

Vəzir cavab verdi ki, Zamana şahsan özün,
Hər hikmətdən, hər sirdən çoxdan agahsan özün (SX-77).

Vəzir – ərəb sözüdür və hökmdarın vəkili olub dövlət işlərinə baxan adam, nazir deməkdir.

"Harun ər-Rəşid ilə dəlləyin hekayəti"ndə də Vəzir obrazı vardır.

Vəzir dedi: "Dili ki, belə atır dəlləyin, –
Ayağının altında xəznə yatır dəlləyin... (SX-148).

Visə (məc. an.) – XI əsrdə yaşamış məşhur fars-tacik şairi Fəxri Gürganinin təxminən 1040 – 1063-cü illərdə yazdığı "Vis və Ramin" poemasının qəhrəmanının adıdır. Poema 1974-cü ildə Abbasəli Sarovlunun tərcüməsi ilə Bakıda nəşr olunmuşdur. Poema Şərqdə məşhur olan "Vamiq və Əzra", "Leyli və Məcnun", "Xosov və Şirin" kimi aşiqanə poemalarla yanaşı durur.

Nizami Şəkəri Visəyə (Bu ad "Xosrov və Şirin" poemasında Visə və Viysə, həmin əsərin "İzahlar"ında isə Veysə kimi yazılmışdır), yağlı dilinə görə isə onun dayəsinə bənzətmişdir.

Öpüşü **Visətək** dünya fitnəsi,
Yağlı dil tökməkdə onun dayəsi (XŞ-226).

Şirin də bədnam olan Viysə ilə özünü müqayisə edir.

Tünlükdən əl çəkib, bir az yumşalsam,
Dünyada **Viysətək** olaram bədnam (XŞ-391).

- Y -

Yağmanaz (an.) – "Yeddi gözəl" poemasında Xəvərnəq sarayında şəkli çəkilən gözəllərdən birinin əsl adı. Şair onu Çin xaqanının qızı kimi təqdim etmişdir. Lakin Nizami poeziyasındakı Çin müasir Çin demək deyildir. Çin deyərkən şair Şərqi Türküstanı nəzərdə tutur, "türk" sözü isə Nizami lüğətində gözəllik, ağlıq, nəciblik rəmzidir. Təraz (indi Təlas), Yağma, Xütən (Xotən) həmin Türküstan Çinində yerləşmiş şəhərlərdir və öz gözəlləri ilə məşhur olublar.

Çin xaqanının qızı **Yağmanaz**,
Gözəllər afəti, misli tapılmaz (YG-74).

"Yağmanaz" türk sözü olub iki sözdən – Yağma və naz sözlərindən düzəlmişdir.

Yanar çıraq, **bağ** (qoşa məc. ap.) – Şair İskəndəri yanar çırağa, onun sarayını isə bağa bənzədir.

Pərvanə zülmətdə **yanar çırağa**
Uçantək gəlmişəm mən də bu **bağa** (İ-484).

Yaşıl günbəd (top.) – Qədim astroloji anlayışa əsasən yaşıl rəng və düşənbə gününü ifadə edən Ay planetinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bu günbəddə üçüncü iqlim padşahının qızı yaşayırdı.

O günbəd ki, ona ay yol salardı,
Şahın taleyindən yaşıl çalardı (YG-133).

Yavər (ap.) – "Cəmşidlə cavan yavərinin hekayəti"ndə obraz adı.

Sarayında Cəmşidin vardı yaxın **yavəri**,
Ay – Günəşin yavəri, o da şahın **yavəri** (SX-141).

"Yavər" fars sözüdür, yardımçı, köməkçi; adyutant; keçmiş İran ordusunda və polisində mayor kimi mənaları vardır.

Yeddi alim (ap., kollektiv an.) İskəndərlə xəlvətə çəkilən alimlər nəzərdə tutulur.

Yeddi filosofu seçdi bu zaman:
Ərəstu – tədbirli bir vəzir idi,
Bəlinas – cavanmərd, **Sokrat** – pir idi.
Valislə Əflatun, bir də **Fərfuryus** –
Heyrandı bunlara o rühulqüdüs.
Yeddinci **Hürmüzdü**, bilir ki, hamı
Yeddinci göydədir onun məqamı (İ-492).

Yeddi qardaş (qrup məc. kos.) – Şair "Yeddi qardaş" dedikdə yeddi planeti nəzərdə tutur: Ay, Mars (Mərrix), Merkuri (Ütarid), Yupiter (Müştəri), Venera (Zöhrə), Saturn (Zühəl), Günəş. Bunlara "göylərin məsləhətçiləri" də deyilir. Bundan əlavə, "yeddi bacı", "yeddi əjdaha", "yeddi gözəl", "yeddi məlikə", "yeddi şam", "göy türkləri" ("türk" sözü burada "gözəl" mənə-

sında işlənmişdir), “yeddi rəng” qara – Zühəl, xaki – Müştəri, qırmızı – Mərrix, sarı – Günəş, ağ – Zöhrə, göy – Ütarid, gümüşü – Ay) və s. adlarla Şərq poeziyasında ənənəvi poetik obraz kimi də işlədilmişdir.

Qeyd etmək lazımdır ki, “Xəmsə”də ən çox adları çəkilən və məcazi kosmonim kimi işlənən planet adları da məhz bunlardır.

Belə hökm eyləmiş o **Yeddi qardaş**:
Bu dünya fatehi qaldıranda baş... (YG-55).
Yeddi iqlim gəzib bitirəcəkdir,
Özüylə yeddi qız gətirəcəkdir (YG-75).

Burada “dünya fatehi” dedikdə şair Bəhram Guru nəzərdə tutur.

Yeddi peykər (qrup məc. kos.) – Şair bu ifadəni üç – yeddi planet (bax: Yeddi qardaş), yeddi günbəd və yeddi gözəl mənalarında işlətmişdir.

Ədlin heykəlini Bəhram ki, gördü,
Ağdan və qaradan ibrət götürdü.
Padşah ədalətli süzəndən bəri
Qurban verdi ona **yeddi peykəri** (YG-298).

Şair orijinalda üç dəfə peykər sözünü işlətmişdir. Yəni şah ədalətin peykərini – simasını müşahidə edib onun mahiyyətinin gözəlliyini dərk etdikdən sonra yeddi peykəri – yeddi planeti, onların şəninə tikilmiş yeddi qəsri və orada yaşayan yeddi gözəli ədalətin peykərinə - vücuduna qurban etdi (YG-351).

Yeddinci məzlum (ap.) – “Yeddi gözəl” poemasında obraz adı. Əvvəllər Allaha ibadətlə məşğul olan, var-yoxunu yoxsul və dullara paylayan bu şəxs ona görə zindana salınmışdır ki, Rastü-Rövşən onun bəd dualarından qorxmuşdur.

Yeddinci məzlumun növbəti yetdi,
Ürəkdən o şaha dualar etdi (YG-293).

Yer (kos.) – Yer planeti.

Kərəm beldən gəlməsə, görsə köməksizdi **yer**,
Çoxdan qarnı cırıqdı, çoxdan köməksizdi **yer** (SX-25).

Yəni Kürreyi-ərz sənin (Allahın) səxavət və kəramətindən vücuda gəlməsəydi, insanların və başqa canlıların ağırlığından o, ürək-göbəkdən düşərdi.

İki balıq əzəldən **Yerə**, göyə şərəfdir,
Qulağı qılıncının gövhərinə sədəfdir (SX-42).

İki balıq – göydəki Hüt (balina) bürcü və əsatirə görə, Yeri öz belində saxlayan balina, yəni Yerin altından tutmuş fələyə qədər yerləşən bütün dürr və gövhərlər sənin qılıncının hökmündədir.

Göy qübbənin altında – **Yerdə** yerin var sənin?
Varlığına gensə də, düşüncənə dar sənin (SX-134).

Burada söhbət insandan və onun fərasətindən gedir.

Arpa, buğda sayağı sığındı **Yer** qoynuna,
Həqiqəti gizlədi, günah düşdü boynuna (SX-70).

Burada Cənnətdən qovulandan sonra, Adəm metaforik şəkildə Yer qoynuna sığınan arpa və buğdaya bənzədilmişdir.

Yetim süfrəsi (qrup məc. kos.) – Ulduzlar qrupudur ki, onda altı ulduz vardır. Bu ulduzlar metaforik şəkildə yetim (insan) süfrəsinə bənzədilmişdir.

"**Yetim süfrəsində**" xeyirxahlartək
Qüfr tullamışdı altı pay çörək (LM-185).

Şair bu ulduzları kökəyə (qoğala) da bənzətmişdir.

Yəcuc (mif.) – Bax: Məcuc. Yəcuc-Məcuc iki mifik xalqın adıdır. "Guya bu iki tayfa Asiyanın şimalında Çin sərhəddində yaşamışdır. Boyları çox kiçik, özləri qarət və talançılıqla məşğul olub, başqa xalqlara çoxlu ziyan vurarmışlar" (10-87). Rəvayətə görə, Nuhun oğlu Yafəsin nəslindəndirlər. Onlar çox döyüşkən olmuşlar. Bəzi tarixçilər onların Monqol və Sibir tatarları olduqlarını iddia edirlər.

Əfsanəyə görə, İskəndər Zülqərneyn bunların hücumuna mane olmaq üçün böyük bir sədd tikməyi əmr etmişdir. Səddi-İskəndər və ya Səddi-Yəcuc buna işarədir.

Bağlayıb dağları biri-birinə,
Yəcuc hasarını o çəkdi yenə (İ-56).

Yəcuc, Məcuc (ep. mif.) – İlk hərflərindən başqa, eyni səslənən mifonimlər. İskəndər Çin xaqanının böyük bir ordu ilə onun görüşünə gəlməsini hiylə sanır və qəzəblənərək ona deyir:

Poladdan bir dağa dönsə vücudun,
Yəcucdan, **Məcucdan** olsa da ordun,
İskəndər, İskəndər sədditək, inan,
Tərpənməz o polad əzən Yəcucdan (İ-296).

Yəcuclar səddi (mif., xat. mifotoponim) – Ölüm ayağında olan İskəndər keçmiş igidliklərini xatırlayarkən Yəcuclar səddinin də adını çəkir.

Məşriqdən Məğribə at səyirdərək
Yəcuclar səddini ucaltdım dağtək (İ-584).

Yəğma (top.) – Şərq ədəbiyyatında gözəlləri ilə məşhur olan Şərqi Türküstan şəhərlərindən biri idi. Bax: Yağmanaz.

Yəğma qulamları olmuşdu munis (XŞ-100).

Nizami bu addan məcazi ad kimi geniş istifadə etmişdir. O, səhərin açılmasını və Günəşin çıxmasını Yəğma (və Xüllək) şəhərinə bənzətmişdir.

Dünya hindu kimi tüstü yayardı,
Yəğma və **Xülləktək** cahan ağardı (İ-273).

Yəğma gözəli (məc. an.) – Şirin yaraşıqlığına görə Yəğma gözəlinə bənzədilmişdir.

Atlandı, bahartək məzəliydi o,
Yaraşıqda **Yəğma gözəliydi** o (XŞ-204).

Türkünaz (bax) metaforik şəkildə Yəğma gözəlinə bənzədilmişdir.

Gəldi içlərinə meyli-məzəli,
Aşiqə zülm edən **Yəğma gözəli** (YG-153).

Yəhudi (et.) – Qədim yəhudi mənşəli xalqların ümumi etnik adı.

Ən qədim tarixi əsərlərdən mən,
Yəhudi, nəsrani, pəhləvilərdən
Ən incə sözləri qələmə aldım (İ-54).

Yəxn (ap.) – "Xosrovun fəraqından Şirinin ah-zar etməsi" ("Xosrov və Şirin") hissəsində Məhin Banunun dilindən Şirinə deyilmiş bu beytdəki "Yəxn" sözü, bizə elə gəlir ki, xüsusi ad

deyildir. “Yəxn” farsca ət, “yəxni” isə qovurma deməkdir. “Dədə Qorqud” dastanlarında da “yəxni” sözü qovurma mənasında işlənmişdir: “Oğlu olanı ağ otağa, qızı olanı qızıl otağa qondurun. Kimin ki, oğlu-qızı yox, qara otağa qondurun, qara keçə altına döşəyin, qara qoyun yəxnisindən önünə gətirin, yeyərsə yesin, yeməsə dursun, getsin demişdi” (səh.16).

Ziyanın yox, fayda almasan da sən,
Dadmayıb ki, hələ sənin **Yəxnindən** (XŞ-155).

Məhin Banu Şirinə təsəlli verir ki, Xosrov sənə (sənin bədəninə) toxunmadığı halda, hədər yerə narahat olursan.

Yəqub (məc. ag.) – Yəhudi peyğəmbərlərindən İbrahimin (bax) nəvəsi, İshaqın (bax) oğludur. Əfsanəvi bir gözəl kimi şöhrət tapmış Yusifin (bax) atasıdır. Qardaşları Yusifi quyuya saldıqdan sonra oğlunun fərağında ağlamaqdan gözləri kor olmuşdur. Bu əfsanə Şərq ədəbiyyatında geniş yayılmış, şairlər oğul fərağı görmüş ataları Yəquba oxşatmışlar. Təsadüfi deyildir ki, Nizami də metaforik şəkildə Məcnunun atasını Yəquba, Məcnunu isə Yusifə bənzətmişdir.

Oğlunu itirmiş o **Yəqub** qoca
Gözəl Yusifindən ayrı qalınca... (LM-162).

Yəmən (top.) – Ərəbistan yarimadasının cənub-qərbində bir ölkədir. Hazırda Yəmən Ərəb Respublikasıdır. Paytaxtı Səna şəhəridir. Əhalisi 5 milyondan artıqdır. Şərq ədəbiyyatında iri, qiymətli dürrü (dürri-Yəmən) ilə çox tanınmışdır.

Yəməndə meyvəsatan kişi vardı deyirlər,
Meyvəsini bir tülkü qoruyardı deyirlər (SX-103).

Yəmən, **Ədən** (ep. top.) – Çin xaqanına qalib gələndən sonra Bəhram Gurun Nemana bağışladığı yerlər.

Baxdı bu sovqata sevindi Neman,
Yəmən, **Ədən** oldu ona ərməğan (YG-124).
Düşmənlik alışdı coşdu sərasər
Yəməndən başlamış **Ədənə** qədər (YG-80).

Yəmən ayı (məc. kos.) – Məhəmməd peyğəmbərin çöhrəsi Yəmən ayına bənzədilir.

Çöhrən – **Yəmən ayına**, saçın – gecəyə dönsün (SX-37).

Yəmən Ayına bənzəyən alnına öz gecəyə oxşar zülfünü sal. Beytdə Yəmən ayı deyərkən Məkkəyə də işarə olunur, çünki peyğəmbərin zamanında (VII əsrdə) Məkkə Yəmənin tərkibində idi.

Yəmən cübbəsi (növ adı) – Məhəmməd peyğəmbərin Yəməndə tikdirdiyi cübbəsi.

Başın Aytək qoy **Yəmən cübbəsindən** görünsün (SX-37).

...Gecə Ay kimi başını öz qara Yəmən cübbəndən çıxar. Rəvayətə görə, peyğəmbər cümə və bayram günlərində bu cübbəni geyər və tellərini isə alnına tökərmiş.

Yəmən gönü (növ adı) – Yəməndə hazırlanan xüsusi gön növü.

Tövaf işlərindən azad olaraq,
Basaraq **Yəmənin gönünə** ayaq... (İ-200).

Yəni İskəndər Kəbəni (bütxanəni) ziyarət şərtlərini yerinə yetirdikdən sonra Yəmənin məşhur qiymətli dərisini ayağı altına saldı, onlara sahib oldu.

Yəmən incisi (məc. növ.) – Burada parlaq cənub ulduzu olan Süheyl ulduzu nəzərdə tutulur.

Lalənin qara xalı, şux yasəmən incisi, -
Qara ərəb qarğası, parlaq **Yəmən incisi** (SX-59).

Yəni lalənin bağrındakı hindliyə bənzər qara qarğaya oxşayan ərəb və türkə bənzər ağ yasəmən isə Yəmənin parlaq Süheyl ulduzu idi.

Yəmən Süheyli (məc. kos.) – Bu ərəb yəmənli olub çox qara idi. Yəməndən birinci olaraq Məhəmməd peyğəmbərə iman gətirən şəxsdir.

Şair bütün elmlərə dərindən yiyələnən, ovçuluqla xüsusi igidliklər göstərən Bəhram Guru Yəmən Süheylinə bənzətmişdir.

O bəzən pələngə hücum edərdi,
Yarışıb şir üstə bəzən gedərdi.
Deyib danışanda Yəmənin əhli
Ona ad verirdi: **Yəmən Süheyli** (YG-66).

Nizaminin təsvirindəki “Yəmən Süheyli” adı Bəhram Gurun ləqəbi kimi də səslənir.

Məlumdur ki, Şərq ədəbiyyatında Süheyl ulduzu “Yəmən Süheyli” də adlanır. Çünki Süheyl ulduzu (bax) Yəməndə çox

parlaq görünür. Bunu nəzərə alaraq demək olar ki, "Yəmən Süheyli" adı Yəməndən birinci olaraq Məhəmməd peyğəmbərə iman gətirən əsl adı yox, o şəxsin metaforik şəkildə Süheyl ulduzuna bənzədildiyi ləqəbidir. Yəni Süheyl ulduzu Yəməndə ən parlaq ulduz olduğu kimi, Məhəmməd peyğəmbərə iman gətirən həmin şəxs də Yəmənin ilk parlayan müsəlmanı oldu.

Yəmən şahı (an.) – Yəmən hakimi Münzir ibn Nemana işarədir.

Sevərdi **Yəmənin şahı** Bəhramı (YG-77).

Yəzdan (teon.) – Allah, Tanrı; zərdüştilərdə xeyir allahı.

Mənə pak şərabı vəd etmiş **yəzdan** (İ-36).

Yəzdan, **Tanrı** (sin. teon.) – Eyni teonim bildirən adın təkrar olunmaması üçün şair müxtəlif teonimlərdən istifadə etmişdir.

Mənə də köməkdir o böyük **yəzdan**.
Tanrının köməyi mənə təsəlli,
Ordumsa həmrəydir, hər kəsə bəlli (İ-106).

Bu fikir İskəndərin dilindən söylənmişdir. Lakin İskəndər Zərdüştlə, atəşpərəstlərin dini və onların xeyir allahı Yəzdanla düşmən idi. Daraya yazdığı məktubundan da bu, məlumdur:

Silərəm Zərdüştün dinini yerdən
Nə atəş qoyaram, nə atəşkədə,
Odlar da şölədən yanar bu dərdə (İ-137).

İranı fəth etdikdən sonra İskəndər, doğrudan da, bütün atəşkədələri və onların içərisində olan Zərdüştilərin min illik (bəlkə də, 2-3 min illik) tarixə malik olan ən qədim və mədəni abidələrini də yandırıb məhv etdi.

Demək, İskəndər Zərdüştilərin xeyir allahı Yəzdana inana bilməzdi. Bu addan şair təkrara yol verməmək üçün istifadə etmişdir.

Yəzdigird (an.) – Sasani hökmdarı Bəhram Gurun atası. O, 339 – 420-ci illərdə şah olmuş, tarixçilərin əsərlərində dindar xaçpərəst kimi göstərilsə də, zərdüşt ruhanilərinin təsir dairəsini və imtiyazlarını məhdudlaşdırdığı üçün ona "Günahkar" ləqəbi verilmişdir. O, xalq arasında qəddarlığı və müstəbidliyi ilə tanınırdı. Elə buna görə də Nizami "Yeddi gözəl" poemasında Yəzdigirdi ədalətsiz, qaniçən bir obraz kimi təsvir etmişdir.

Gövhərlə daşdakı nisbətə misal
Olmuş **Yəzdigirdlə** Bəhramdakı hal (YG-56).

Burada şair eyni vaxtda Yəzdigirdi daşa, onun oğlu Bəhramı isə gövhərə bənzətmişdir. Yəni qiymətli gövhər göy daşdan çıxan kimi, bəzən pis adamdan da dünyaya gözəl oğul gəlir.

Münəccimlər düşdü dərin heyrətə
Baxdıqca göyləri ölçən alətə.
Qəlp gümüş yerinə qızıl gördülər,
Dənizdən dürr çıxdı, daşdan da gövhər (YG-327).

Bəhram anadan olan sübh çağı qaranlıq gecəyə bənzəyən Yəzdigirddən bədnamlığı apardı. Münəccimlər tez üstürlablarını götürüb ulduzları təftiş edərək Bəhramın taleyini axtarmağa başladılar. Onlar elə bilirdilər ki, onun taleyi yarı qızıl, yarı mis, aşağı əyarlı Yəzdigird kimi bir adamın taleyinə rast gələcəklər. Lakin gördülər ki, Bəhramın taleyi yüzdə-yüz qızıldır və gələcəyi də saf qızıl kimi parlaqdır.

Yəzdigird nəsli (et.) – Yəzdigirdin mənsub olduğu və Yəzdigirdə mənsub olan nəsil nəzərdə tutulur.

Qulluq etməməyi aldı qərara
Yəzdigird nəslinə, qara şahmara (YG-77).

Şair burada Yəzdigird nəslini qara şahmara bənzətmişdir.

Yoxsul (ap.) – "İskəndərnamə" əsərində olan "Hekayət"də işlənən epizodik obraz adı. Ad obrazı düzgün xarakterizə edir.

Eşitdim, bir **yoxsul** ciyər qaniylə
Köhnə bir əşrəfi keçirdi ələ (İ-30).

Yunan (et.) – Yunan xalqlarının ümumi etnik adı. Həqiqi mənada olan bu sözü şair toponim mənasında işlətmişdir.

Dünyada ilk dəfə o zinət qurdu,
Yunanda sikkəni qızıldan vurdu (İ-59).

Yunanıstan (top.) – Feyləqusun (bax) padşah olduğu ölkənin adı.

Yunanıstan idi onun məskəni (İ-61).

Yunanıstan yunanların adını daşıyır və mənası "qədim" deməkdir (19-102).

Yunis (ag.) – Dini rəvayətə görə, qədim yəhudilərin peyğəmbərlərindəndir. Uydurduğu möcüzə yalan çıxdığı üçün qaçıb Dəclə kənarına gəlmiş, gəmiyə minmiş, günahkar olduğundan gəmi onu aparmamışdır. Yunisi suya atmışlar. Bir böyük balıq onu udmuş, o da balığın qarnında tövbə və dua etmiş, Allah onun duasını qəbul etmiş, bir müddət sonra balıq onu kənara buraxmışdır.

Yunisi uddusa balıq bir zaman,
Ona səcdə etdi balıqla ilan (İ-414).

Burada Yunis və Məhəmməd peyğəmbər müqayisə olunur və üstünlük Məhəmməd peyğəmbərə verilir. Sonuncu misrada Nizami Məhəmmədin möcüzələrindən birinə işarə edir. Dini əfsanəyə görə, Məhəmmədin möcüzələrindən biri də guya heyvanları dilə gətirməsi olmuşdur. Guya balıq və ilan da ona ram olub dilə gəlmiş, onun peyğəmbərliyini təsdiq etmişlər.

Yunisin məşəli (mif.) – Əfsanəyə görə, Yunis peyğəmbər dəryada naqqanın qarnında olduğu vaxt əlindəki çırağın işığı ilə dəryanı görərmiş.

Yunisin məşəli, kəlim çırağı,
İsanın bəzmidir, İbrahim bağı (YG-127).

Nizami Bəhram Gurun kef məclisində yanan ocağı metaforik şəkildə Yunisin məşəli, Kəlim çırağı (bax), İnsanın bəzmi (bax), İbrahim bağına (bax) bənzətmişdir.

Yusif (ag.) – Kənanlı Yəqub peyğəmbərin oğludur. Atası Yusifi başqa oğlanlarından çox istədiyi üçün qardaşları paxıllıq edib, onu quyuya atmışlar. Tacirlər tərəfindən xilas edilən Yusif Misirə aparılmış və bazarda hökmdarın vəziri Əziz tərəfindən bir qul kimi satın alınmışdır. Əzizin arvadı Züleyxa (bax) Yusifin gözəlliyinə vurulmuş, lakin Yusif onun təkliflərini rədd etmişdir. Buna görə də Züleyxa böhtan atmış və onu 7 il həbsə almışlar. Şahın yuxusunu düzgün yozduğu üçün həbsdən qurtarmış və vəzir təyin edilmişdir. Sonra isə o, Misirin hakimi olmuş, Züleyxanın zəlalətə düşməsinə baxmayaraq, alicənablıq göstərib onunla evlənmişdir. Şərq ədəbiyyatında Yusif gözəllik rəmzi kimi işlənir və onun Züleyxa ilə olan macərası haqda çoxlu əsərlər yazılmışdır .

Yusif məşhur "Yusif və Züleyxa" dastanının baş qəhrəmanıdır. Bədii ədəbiyyatda Yusif və Züleyxa əhvalatına, "Yusif camalı", "Yusif yuxusu", "Yusif köynəyi" və s. kimi bədii ifadələrə tez-tez təsadüf edilir.

O quyudan qisməti, ah, nə oldu **Yusifin**?!
Nəsibi bir kəndirdi, bir də doldu **Yusifin** (SX-39).

Yusif ("Quran", XII surə) qəbul quyusuna düşsə də, orada kəndir və su dolçasından başqa bir şey görə bilməzdi və peyğəmbərlik topunu uda bilmədi. Lakin peyğəmbərlik topunu Məhəmməd peyğəmbər uddu.

Yusif (məc. ag.) – Günəş metaforik şəkildə Yusifin camalına bənzədilir.

Yusifin camalıyla nura boyandı aləm (SX-57).

Yasəmənin çöhrəsi Yusif kimi gözəl səhərə bənzədilir.

Səhərin **Yusifiydi** yasəmənin çöhrəsi (SX-60).

Lirik qəhrəman müxtəlif müsibətlərə düçar olunan günahsız Yusifə bənzədilir. Eyni zamanda qardaşları tərəfindən yalandan xəbər verildiyi kimi, Yusifin qurdlar tərəfindən parçalanmasına işarə olunur.

Qoca qurdlar can atır – mən sızlayım, göynəyim,
Bir günahsız **Yusifəm**, parçalanıb köynəyim (SX-129).

Xosrov özünü Yusifə bənzədir.

Yusifəm, sanma ki, yeyib yalquzaq,
Günahım böyükdür, uşağam, uşaq (XŞ-60).

Burada Yusifin guya yalquzaq tərəfindən yeyilməsinə işarə olunur.

Gecənin yolçusu yetişdi haman,
Bir **Yusif** camalı aldı quyudan (LM-42).

Beytdə ulduzlar yolçuya, Ay Yusifə, qaranlıq üfüq isə quyuya təşbih olunur. Aşağıdakı beytdə isə şair gözəllik simvolu olan Yusifi canavara bənzədir.

Bir yerdə ki, düşə hörmətdən dindar,
Zahid sərxoş olur, **Yusif** canavar (YG-46).

Divlər tərəfindən susuz səhrada azdırılan Mahan Günəşin istisindən xilas olmağa çalışarkən bir quyuya rast gəlir. Onun quyuya düşməsi Yusifin quyuya salınmasına bənzədilir.

Düşdü **Yusif kimi** quyuya dərhal,
Üzüldü qalmayıb varlığında hal... (YG-218).

Şair Rastü-Rövşən kimi araqarışdıran, satqın və xain vəzirləri daxildən canavara, üzdən isə Yusifə bənzədir.

Pisdir həm zatları, həm də özləri
İçləri canavar, **Yusif** üzləri (YG-276).

Bəhram Gur ov zamanı gur dalınca girdiyi mağarada yoxa çıxandan sonra onun anası Bəhram Guru tapmaq üçün mağaranın içində bir quyu qazdırır. Lakin oğlunu tapa bilmir. Şair quyudan tapılmayan Bəhramı Yusifə bənzədir. Bu da Yusifin quyuya salınmasına işarədir.

Qazıtdı, üzünə xəznə gülmədi,
Quyudan **Yusifi** tapa bilmədi (YG-301).

Yusif (xat. ag.) – "Ovçu ilə tülkünün hükayəti"ndə ("Sirlər xəzinəsi") tülkü ovçuya yalandan xəbər verir ki, sənin tazın ov dalınca gedəndə həlak olmuşdur. Bu zaman ovçunun yadına Yusifin başına gətirilən hadisə düşür. Bu zaman o, qardaşlarının Yusifin qurd qanına bulaşdırılmış köynəyini gətirib atalarına göstərmələri və yalandan Yusifin qurd tərəfindən parçalandığının xəbər vermələrini xatırlayır və ruhdan düşmür.

Buna qurdla **Yusifin** macərası deyərəm,
Qurd **Yusifi** yeyibsə, mən də onu yeyərəm (SX-95).

"Xosrov və Şirin", "Leyli və Məcnun" poemalarında da Yusifin qardaşları tərəfindən quyuya salınmasına işarə olunur.

Kim ki, ad qoymuşdur qoca dünyada,
Onu öz dostları vermişdir bada.
Ay üzlü **Yusifi** yad edin barı,
Ona quyu qazdı öz qardaşları (LM-63).
Quyuya düşsən də, olma pərişan,
Yusifi xatırla, təmkinlə dayan (XŞ-337).

Sonuncu beytdə isə şair oxucuya çətinliyə düşərkən Yusif kimi ümidli olmaq fikrini təlqin edir.

İnsanın hər şeyə qadir olduğunu tərənnüm ütdiyi vaxt şair Yusifin qaranlıq zindanda da şan-şərəf tapmasını xatırlayır.

İnsan oğlu qazanar zindanda da şan-şərəf,
Gətiribdir **Yusifə** qaranlıq zindan şərəf (SX-98).

Dini rəvayətlərə görə, elə ki, Yusifi karvançılar quyudan çıxarıb qul kimi Misir Fironunun vəzirinə satdılar və vəzir də onu zindana saldırdı,Yusif heç vaxt ruhdan düşmədi, həmişə ümidlə yaşadı. Bir gün vəzir yuxuda gördü ki, Nil çayından yeddi kök öküz çıxdı; sonradan həmin çaydan yeddi arıq öküz çıxıb, kök öküzləri yedi. Bu yuxunu kahinlərdən heç biri yoza bilmədi. Yusif yuxunu belə yozdu: "Yeddi kök öküz – yeddi il bolluqdur, yeddi arıq öküz – yeddi il qəhətlikdir, buna görə də yeddi il bolluq zamanı gələcək, yeddi qəhətlik ili üçün ehtiyat toplamaq lazımdır". Çox macəralardan sonra Yusif zindandan çıxdı və vəzir oldu. Vəzir öldüyü üçün Züleyxa ilə evləndi.

Yusif ibn Zəki Müəyyid (an.) – Bu antroponimik birləşmədə "Yusif" Nizami Gəncəvinin atasının, "Zəki Müəyyid" isə babasının adıdır.

Atam **Yusif ibn-Zəki Müəyyid**
Babamtək dünyanı tərk edib getdi (LM-67).

Yusif, **İsa** (qoşa məc. ag.) – Şirin Xosrovu eyni zamanda Yusif və İsaya bənzədir.

Yüz **Yusif** yuxusu əzbərin olsa,
Yenə də hamansan, eşşək və **İsa** (XŞ-274).

"Yusif və Züleyxa" dastanında Yusif həbsdə olarkən əvvəl məhbusların, sonra isə Əzizi-Misirin yuxusunu düzgün yozduğu üçün o, yuxu yozmaqda şöhrət tapır. İsa peyğəmbər isə həmişə eşşək minib gəzərmiş. Məlumdur ki, kimin minməyindən asılı olmayaraq eşşək yenə də eşşəkdir. Bu barədə Nizami kimi Sədi Şirazi də demişdir: İsanın eşşəyini Məkkəyə də aparsalar, yenə də Hacı olmayıb, eşşəkliyində qalar.

Yusif, **Məhəmməd** (müq. ag.) – Şair Yusif və Məhəmmədi müqayisə edərək üstünlüyü Məhəmməd peyğəmbərə vermişdir.

Aytək çıxdı **Yusif** quyudan əgər,
Nur saçdı quyudan o, Aya qədər (İ-414).

Yəni Yusif quyudan Ay kimi bayıra çıxmışsa, Məhəmməd peyğəmbər merac gecəsi Yerdən Ayın üstünə, Ərşə çıxdı və hər yeri öz nuruna qərq etdi.

Yusif, **Misir**, **Nil** (qrup məc. on.) – Şair metaforik şəkildə zəlzələdən viran olan Gəncəni Yusifə və Misirə, Gəncədə baş verən zəlzələni isə Misir torpağını basıb xarabalığa çevirən Nilə bənzədir.

Yusiflər gözünə sanki batdı mil,
Sanki aşıb- daşdı **Misri** basdı **Nil** (İ-427).

Yəni Yusifin gözünü mil kor və Misri Nil viran etdiyi kimi zəlzələ də Gəncəni viran etmişdir.

XII əsrdə Azərbaycanda və o cümlədən Gəncədə bir neçə zəlzələ olmuşdur. Bunların ən böyüyü 1139-cu il zəlzələsidir ki, rəvayətə görə, bu vaxt Gəncədə 230 minə qədər adam həlak olmuşdur. Kəpəz dağı zirvəsinin çökməsi nəticəsində Göygölün əmələ gəlməsinə səbəb olan bu dəhşətli zəlzələni Nizami həyəcanla təsdiq edir.

Yusif, **Yəqub** (qoşa məc. ag.) – Yusif Yəqubun oğludur. Ata-oğul münasibətlərini, bir şeyin və ya şəxsin yoxa çıxmasını, hər hansı bir haqsızlığı təsvir edəndə şair bu adlardan geniş istifadə edir.

Şair haqq və ədaləti Yusifə, divanı isə Yəquba bənzədir.

Ədalət **Yusiftək** qaçdı divandan,
Ona çəkdi **Yəqub** dağını zaman (XŞ-111).

Yəni ədalət qardaşları tərəfindən quyuya atılan Yusif kimi divanı tərk etdi. Zəmanə isə divana Yusif üçün ağlamaqdan gözləri kor olan Yəquba çəkilən dağ kimi dağ vurdu.

Bəhram Çubin Hürmüzün gözlərini çıxardandan sonra, belə bir fikir yayır ki, bunu Xosrov etmişdir. Bu zaman şair yenə də bu hadisəni xatırladır və Hürmüzü metaforik şəkildə Yəquba, Xosrovu isə Yusifə bənzədir.

“Hürmüzün gözünü kor edib” deyə
Xosrova şər atıb saldı fitnəyə.
Bilmirdi **Yusifi** düşərsə kənar
Yəqubun gözündən nuru aparar (XŞ-114).

Yusif, **Yunis** (ana. ag.) – Yusif gözəllik somvolu olduğu üçün Günəşə bənzədilir və onun quyuya atılması Günəşin Dolça bürcündə yerləşməsi, Məhəmməd peyğəmbərin Balıq bürcündə olması isə Yunisin balina qarnında olması ilə müqayisə olunur.

Günəş camallı **Yusif** Dol içində oturdu,
Qəlbi **Yunis** qəlbitək Balıq qarnında vurdu (SX-30).

Şair bu adlardan məcazi adlar kimi də isifadə etmiş, Məhəmməd peyğəmbəri eyni zamanda həm Yusifə, həm də Yunisə bənzətmişdir.

Yusiftək Dəlvdən bir şərbət içdi,
Yunis kimi hutda duracaq seçdi (XŞ-357).

Dəlv (bax) və Hüt (bax) qədim astrologiyaya görə bir-birinə yaxın olan bürclərdir. Dəlv on iki bürcdən on birincisi, Hüt isə on ikincisidir. Birinci misrada "Yusif və Züleyxa" dastanında qardaşları tərəfindən quyuya salınmış Yusifi yoldan geçən tacirlərin quyuya dol sallayıb quyudan çıxarmaları, ikinci misrada dinlər tarixindən Yunis peyğəmbərin dənizdə naqqa balıq tərəfindən udulmasına işarə olunur. Beytin mənası: Məhəmməd peyğəmbər səmada bir-birinin ardınca bürcləri keçib, sonuncu Hüt (Balıq) bürcünə çatdı.

Yusif, **Yusif** (təkrar ag.) – Şair adı təkrar etməklə Yusiflə bağlı müxtəlif hadisələrə (onun quyuya salınmasına və quyudan çıxmasına) işarə etmişdir.

O quyudan qisməti, ah nə oldu **Yusifin**?!
Nəsibi bir kəndirdi, bir də doldu **Yusifin** (SX-39).

Aşağıdakı beytdə də "Yusif" adı müxtəlif məqsədlə işlədilmişdir.

Buna qurdla **Yusifin** macərası deyərəm,
Qurd **Yusifi** yeyibsə, mən də onu yeyərəm (SX-95).

Yusif, **Zülyxa** (qoşa məc. an.) – Şərq ədəbiyyatında bu adlar Leyli və Məcnun, Fərhad və Şirin, Vis və Ramin və s. adlar kimi qoşa işlədilmişdir. Nizami də bu adlardan məcazi adlar kimi geniş istifadə etmişdir.

Göylərin o misri nazəninləri
Yusifin aşiqi o dilbər pəri,

Züleyxa kimi, bax, vurulmuş sənə (YG-25).

Gözəllərin bağda axtarıb tapdıqları Xacə Yusifə, onu tapıb gətirən qızlar isə Züleyxaya bənzədilir.

Gəzdilər **Yusifi**, çıxmışdı yoxa,
Tapıb ətəkləyib misli – **Züleyxa**... (YG-264).

Günəş əlində narınc tutan Yusifə, Ay isə Yusifi görən kimi narınc əvəzinə, barmaqlarını kəsən Züleyxaya və onun rəfiqələrinə bənzədilir.

Bir **Yusif** göründü əldə narıncı,
Sındı **Züleyxatək** ayın turuncu (XŞ-162).

Yəni Günəş çıxdı, Ayın işığı azalıb yox oldu. Burada eyni zamanda "Yusif və Züleyxa" dastanının qəhrəmanlarına da işarə olunur. Dastanda Yusifin eşqində Züleyxanı töhmətləndirən qadınlara cavab olsun deyə, Züleyxa onları narınca qonaq edir və qadınlar narıncı kəsdikləri zaman Yusif otağa daxil olur. Qadınlar Yusifin gözəlliyinə heyran qalıb narınc əvəzinə, barmaqlarını kəsirlər.

Turuncdan qaçmasan **Yusiftək** əgər,
Züleyxa narınctək səni tez kəsər (XŞ-210).

Burada şair metaforik şəkildə Şirin və Züleyxanı turunca, Fərhadı isə Yusifə bənzətmişdir.

Beytin mənası: Əgər sən Yusif (Fərhad) kimi turuncdan (Şirin və Züleyxa simasında) qadından qaçmasan, Züleyxa (qadın) narınctək səni tez kəsər. Hətta burada Xosrovun da Züleyxaya bənzədilməsinə işarə vardır.

Yusifin köynəyi (ktem.) – Yəqubun kənardan Yusifin qoxusunu onun köynəyindən duymasına işarə olunur.

Ud nəfəsi dumanı, çətri vardı hər yanda,
Yusifin köynəyinin ətri vardı hər yanda (SX-63).

Şair özünü Yusifə bənzədərkən, onun köynəyinə də işarə olunur.

Mən məhv olub getsəm, örnəyimdir bu,
Yusif kimi itsəm, köynəyimdir bu (XŞ-362).

"Yusif və Züleyxa" dastanında Yusifin köynəyi haqqında iki dəfə söhbət gedir: 1.Yusifi quyuya salan qardaşları onun qana

bulaşdırılmış köynəyini atası Yəquba gətirib, Yusifin qurd tərəfindən parçalandığını demişlər.

2.Yusif Misirdə hökmran olduğu zaman qəhətlik illərində Kənandan yardım almaq üçün gələn qardaşlarına ianə buğda verdiyi zaman öz köynəyini kisələrdən birinin içərisinə qoyur. Atası bu köynəkdən Yusifin iyini duyub, onun diri olduğunu bilir və həmin köynəyi Yusifin dərdindən ağladığı zaman kor olmuş gözlərinə sürtür və guya gözləri açılır.

Nizami sonuncu beytdə ikinci əhvalatı nəzərdə tutmuşdur.

Z

Zabeh (kos.) – İyirmi səkkiz Ay mənzillərindən biridir.

Ağzını yumuşdu **Zabeh** qorxaraq... (LM-185).

Zal (məc. an.) – İran əsatirinin ən məşhur qəhrəmanı Rüstəmin (bax) atası, Samın (bax) oğludur.

Zümrüd quşu bəsləyən Sam oğlu **Zaldı** bəşər,
Dünya – Samdır, qocalmaz, **Zaltək** qocaldı bəşər (SX-80).

Burada bəşər Zala bənzədilmişdir. Zal isə "Şahnamə"də təsvir olunan Sistan pəhləvanlarından Samın oğludur. Doğulanda tükünün ağlığına görə, atası onu ana südündən məhrum edərək qurda-quşa yem olmaq üçün Elbrus dağının ətəklərində bir dərəyə atdırmışdı. Simurq quşu onu yuvasına aparıb öz balası kimi bəsləmiş, o, nəhayət, böyüyərək qüvvətli pəhləvan kimi şöhrət qazanmışdı.

Zal oğlu (an.) – Məşhur Rüstəm (bax) pəhləvanın ata adı ilə adlanması. İskəndərlə Fəribərz (bax) pəhləvanın dialoqunda Zal oğlu Rüstəmin adı tez-tez xatırlanır. Eyni zamanda bu adlar sinonim adlar kimi diqqəti cəlb edir.

Eşitdim, **Zal oğlu** atın belində
Tək həmlə edərmiş dava çölündə (İ-166).
Doğrudur, **Rüstəmin** qurduğu tədbir
Ən igid ərləri dənlərdi bir-bir (İ-167).

Zeyd (an.) – "Leyli və Məcnun" poemasında obraz adı. Əvvəllər kasıb olduğu üçün sevgilisi Zeynəbə qovuşa bilməyən, Məcnun

kimi çöllərə düşən və sonralar dostlarının köməyi ilə sevgilisinə qovuşan bu gənc Məcnun ilə Leyli arasında qasidlik edir.

Öz adı **Zeyd** idi sevda gəzərdi (LM-233).

Zeyd (adaş məc. an.) – Şair Zeydi "Zeyd ilə Əmr əfsanəsi"nin (bax) qəhrəmanlarından biri olan Zeydə bənzədir.

Öz adı **Zeyd** idi, sevda gəzərdi,

Xisləti Əmr ilə **Zeydə** bənzərdi (LM-233).

"**Zeyd ilə Əmr əfsanəsi**" (id.) – Əsərdə Əmr və Zeyd haqqında əlavə məlumat verilməsə də, məlum olur ki, şairin dövründə bu gənclərin adı ilə əlaqədar olan əfsanə mövcud olmuşdur. Məcnun Zeydi məzəmmət edəndə bu əfsanənin adını çəkir.

Uzun danışanın pis olur səsi,

Danışma **Zeyd ilə Əmr əfsanəsi** (LM-236).

Zeyd, **Zeynəb** (ana. an.) – Bu aşiq və məşuqənin adlarının ilk səsləri də fonetik cəhətcə eynidir.

Zeynəb adlanırdı o gözəl nigar...

Zeyd axtarırdı bu dərdə dərman (LM-234).

Zeynəb (an.) – "Leyli və Məcnun" poemasında obraz adı. Zeydin əmisi qızı və sevgilisi.

Hüsnünün şövqüylə əsirdi rüzgar,

Zeynəb adlanırdı o gözəl nigar (LM-234).

"**Zəbur**" (məc. id.) – Davud peyğəmbərin nəğmələrindən ibarət kitabdır. Yəhudi dinində müqəddəs hesab olunur .

Qalxsın **Zəburumun** şöhrəti haman (XŞ-21).

Şair burada "Xosrov və Şirin" poemasını metaforik şəkildə "Zəbur"a bənzətmişdir.

Zəmzəm (məc. top.) – Məkkədə bir su quyusuna verilən addır. Əfsanələrə görə, İbrahimxəlil peyğəmbər zamanında, yəni eramızdan təqribən 2800 il qabaq qazılmışdır. Burada Məcnunun atası özünü Zəmzəmə bənzədir.

Qulağım titrədi zəmzəməsindən,

Mən də **Zəmzəm** kimi coşdum səsindən (LM-98).

Məcnunun göz yaşları Zəmzəm quyusunun suyuna bənzədilir.

Axan göz yaşları olduqca **Zəmzəm**,
Vəhşilər qurmuşdu ona bir hərəm (LM-272).

Zənci (et.) – Bir sıra ölkələrdə yaşayan xalqların ümumi adı. Zənci adı klassik Şərq ədəbiyyatında eyni zamanda "qara" rəngin rəmzidir.

Zənci dedi: "Ay ata, niyə belə gülürsən,
Qapqaradır üz-gözün, ağla, hələ gülürsən? (SX-137).
Gecənin qaranlığı zənciyə bənzədilmişdir.
Gündüz kimi ağappaq, gecə kimi qapqara,
Ağ rumlu, qara **zənci** olmaq hara, sən hara? (SX-89).

Zənci (məc. et.) – Zəngibar ölkəsinin şahı Zənci şah (bax) nəzərdə tutulmuşdur.

Bildi ki, **Zəncidə** hədsiz qoşun var...
O coşğun ordunu görüncə zənci (İ-74).

Zənci (məc. et.) – Zənci dedikdə Zəngibar və ya Zəng ölkəsi nəzərdə tutulur.

Misir də, **Zənci** də olur sənə ram (İ-74).

Zənci, **Xötən** (qoşa məc. on.) – Şair gecəni zənciyə, gündüzü isə Xötənə bənzədir.

Zəncilər Xötənə qoşun çəkmədən
Şənlik meydanını şah etmişdi gen (YG-254).

Zənciyə bənzər qara gecə Xütənin (bax) ağ, gözəl türk qızlarına bənzəyən gündüzə hücum etməyincə, yəni bütün günü gecəyə qədər şah şənlik meydanını genişləndirib şənləndi.

Zənci, **rumlu** (ant. məc. et.) – Metaforik şəkildə gecə Zənci qoşununa, gündüz isə rumlulara bənzədilir.

Sübhün şahənşahı təxtinə çıxdı,
Zənci qoşununu **rumlular** yıxdı (XŞ-162).

"İskəndərnamə" əsərində də şair zənciləri gecəyə, rumluları isə çırağa bənzədir.

Zəncilər gecəydi, **rumlular** çıraq,
Rumlular qarğanın gözüydü ancaq (İ-93).

Yəni zəncilərin qoşunu gecə kimi qara, rumluların qoşunu isə çıraq kimi ağ idi; yaxud zəncilər qarğa kimi qara, rumlular

qarğanın gözü kimi ağ idilər. Burada həmçinin zənci qoşunlarının çoxluğu və rumlu qoşunlarının azlığı da ifadə edilmişdir.

Zənci şah (an.) – Zəngibar ölkəsinin şahı nəzərdə tutulur. "İskəndərnamə" əsərində obraz adı kimi işlənmişdir. Bu, əsl ad yox, şahın köməkçi adıdır.

Qızıl teşt qan ilə dolduğu zaman
Zənci şah su kimi içdi o qandan (İ-78).

"**Zənd**" (id.) – Atəşpərəstliyin banisi olan Zərdüştün yazdığı "Avesta" adlı kitabın tərcüməsi və şərhi. Bu kitab atəşpərəstlərin müqəddəs kitabı və həyati düsturların məcmuəsidir. "Zənd-Avesta" adı ilə də məşhurdur. Kitabın yazıldığı dilə də zənd və ya avəstə dili deyilir.

Zənd oxuyan səni bilsə də diri,
Ölü deyər dünya söz bilənləri (XŞ-51).

"**Zənd-Avəst**" (məc. id.) – Şair yazmaq istədiyi "Yeddi gözəl" əsərini "Zənd-Avəst"ə bənzədir.

Mən onun deyrini "**Zənd-Avəst**" kimi
Bəzədim yeddicə dilbər gəlini (YG-31).

Deyr – monastır, məsihilərin və atəşpərəstlərin məbədi, dərviş və abidlərin, sufi və cahillərin hücrəsi, "Zənd-Avəst" isə "Avesta"ya işarədir.

Şair deyr – monastır dedikdə, Bəhram Gur haqqında tarix kitablarında mövcud olan məlumatları nəzərdə tutur. Yeddi dilbər dedikdə isə yeddi səyyarə, yeddi günbəz, yeddi gün, yeddi gözəl, yeddi nağıl və s. ilə əlaqədar olan hadisələrin bədii təsviri nəzərdə tutulur.

Zənd, **Zərdüşt** (ana. on.) – Bax: Zənd və Zərdüşt.

Zənd ilə **Zərdüştü** yaxan atəşi
Yaxmışdır dünyanın böyük günəşi (İ-224).

Zəndibaf (an.) – Atəşpərəstlərin dini kitabı olan "Avesta"nın birinci şərhi "Zənd"i avazla oxuyan muğlar. Zəndibaf adı "Zənd" adından yaranmış, onunla anaforik şəkildədir.

Zəndibaf, behiştin "**Zənd**" kitabından
Gecə bir neçə hərf oxudu pünhan (YG-274).

Zənəb (kos.) – Ərəb sözüdür və quyruq, yəni Quyruqlu ulduz (kometa) deməkdir. İndiyə qədər Günəşin ətrafında dövr edən iyirmi beş min belə ulduz müşahidə edilmişdir. Onlar Günəşə yaxın olduqları zaman "quyruqları" daha uzun olur. 1943-cü ildə müşahidə edilmiş ən böyük kometanın "quyruğu"nun uzunluğu 198 milyon km.-dir.

Salmışdı Mərrixi **Zənəb** kəməndə,
Zühəlin gözüylə Rəs düşmüş bəndə (XŞ-150).

Astrologiyaya görə, Ay Zənəb üqdəsində uğursuzluğa düçardır. Buna görə üqdəsi Ayın boğazında zəhərdir.

Zənəbin ağzından alaraq zəhər
Ayın boğazına onu tökdülər (İ-593).

Beytin mənası: Ay Zənəb nöqtəsinə çatanda artıq gözə görünmür, batır.

Zəng (top.) – Zəngibar (bax) toponiminin qısaldılmış forması.

"Qifli-Rumu" əgər oxusa bollu,
Rum, **Zəng** xəznəsinə açardı yolu (XŞ-168).

Zəngan (top.) – Mənbələrdə Zəncan kimi də göstərilən bu yaşayış məntəqəsi o dövrdə İraqla Azərbaycan (Naxçıvan) arasındakı ərazidə yerləşirdi.

Pələngə şir dedi: - Məsəldir, bişəkk,
Ya **Zəngana** gedər, ya doğar eşşək (XŞ-151).

Zəngə-Şaviran (et.) – Daranın məşhur sərkərdələrindən biri olan Fəribərzdin mənsub olduğu nəslin adı.

Məclisdə vardı bir adlı pəhləvan,
Həsəbi, nəsəbi**, Zəngə-Şaviran** (İ-124).

Bu ad iki sözdən ibarətdir: Zəngə, Şaviran. "Zəngə" sözü, bəlkə də, "qara adam" mənasında olan farsca "zəngi" və ya "qoca, cəng" mənasında olan "jəng" sözü ilə əlaqədardır. Şaviran və ya Şaburan isə Rzaqulu xan Hidayətə görə, Gəncə ilə Dərbənd arasında bir şəhər imiş. Bizə elə gəlir ki, "Zəngə-Şaviran" adı "Şaviranlı qoca pəhləvan", "Şaviran Zəngi" və ya "Şaviran pəhləvanı" (Ərəb Zəngi adında olduğu kimi) mənasında işlənmişdir.

Zəngibar (top.) – Afrikanın şərq sahilində Hind okeanında bir adadır. Həmin adanın qərb hissəsində bu adda bir şəhər də vardır. Ekvator xəttinə çox yaxın olduğu üçün havası çox istidir. Öz mixəyi ilə çox məşhurdur. Hazırda Tanzaniya respublikasına daxildir. Şair "Zəngibar" dedikdə ölkəni yox, Zəngibar ölkəsinin şahını nəzərdə tutur.

Orda Xütən şahı, burda **Zəngibar**
Xosrovun adına qədəh tutdular (XŞ-224).

Gecə Zəngibara, səhərin açılması isə Zəngibardan çıxan kafura bənzədilmişdir.

Gündüz qarğa rəngli qara gecədən
Çıxmış **Zəngibardan** kafur kimi şən (İ-240).

Burada ağlıq mənasında olan kafur Zəngibarda və Həbəşistanda istehsal edilir. Yəni səhər açılmışdır.

Zəracə (an.) – Zəngibar ordusundan çıxan nəhəng bir pəhləvanın adı.

Zəracə adlı bir qara pəhləvan
Ortaya atıldı, oxudu meydan (İ-84).

Zəravənd (an.) – Bəhram Gurun birinci vəziri Nərsinin böyük oğlu. "Zəravənd" adı "zər" (farsca qızıl, qızıl sikkə deməkdir) və qan damarı, küp, dəlil, sübut və s. mənalar bildirən "avənd" sözlərindən düzəlmişdir.

Böyük oğlu gözəl bir fərzənd idi,
El bilir adını – **Zəravənd** idi (YG-114).

Zərdüşt (məc. ag.) – Atəşpərəstlərin peyğəmbəri, atəşpərəstlik dininin banisi sayılır. Zərdüşt guya Azərbaycanın ən qədim şəhərlərindən olan Muğanda doğulmuş və əslən azərbaycanlıdır. Bəzi əfsanələrə görə, Cənubi Azərbaycanın Urmiyə şəhərində zühur etmişdir. Bəziləri onu əfsanəvi, bəziləri isə tarixi şəxsiyyət hesab edirlər.

Zərdüşt (Zərdəşt, Zartəşt, Zardəşt, Zaroastr) peyğəmbərin nə zaman yaşadığı dəqiq məlum deyildir. Ehtimala görə, eramızdan 7 əsr əvvəl, yaxud e. ə. YI əsrdə yaşamış, İran şahı I Daranın müasiri olmuşdur. Rəvayətə görə, 30 il Savalan dağında tərkidünya həyat keçirmiş, "Avesta"("Əbəs-tağ") adlı kitab yazmışdır.

Məlumdur ki, tədqiqatlar Zərdüştün e.ə. VI əsrdə yaşadığını qeyd edirlər. Zənnimizcə, Atəşpərəstlik dininin tarixi isə çox qədimdir. Ən qədim insanlar oda, Günəşə inanırdılar. Yəqin ki, onlar oda sitayiş zamanı müəyyən dualar da oxuyurdular. Demək, Zərdüştə qədər "Avesta"nın ayrı-ayrı hissələri mövcud olmuşdur. Zərdüşt isə onları ilk dəfə bütövlükdə qələmə almış və alimlərin Zərdüşt tərəfindən qələmə alınmasına şübhə edilməyən 17-ci nəğmələri də oraya əlavə etmişdir.

Zərdüşt dövrünün hökmdarı Gəştasbın yanına gələrək peyğəmbərlik iddiasında olduğunu bildirmişdir. Guya elə bir maddə düzəltmiş imiş ki, insan bədəninə sürtdükdə atəş ona təsir etmirmiş. Odu əlində saxlamaq və zəbanə çəkən atəşin içində dayanmaq onun möcüzəsi imiş. Onun belə bir möcüzəsini görüb Gəştasb və onun oğlu İsfəndiyar Zərdüştün adı ilə bağlı olan zərdüştiliyi – atəşpərəstliyi qəbul etmişlər.

Yeri gəlmişkən qeyd edək ki, odun insanı yandırmaması üçün hazırlanan maddə indi də mövcuddur. Məşhur Çili şairi Pablo Neruda bununla əlaqədar Çində gördüyü bir hadisə haqqında yazır: "1929-cu il. Gecədir. Bir izdiham görünür. Müsəlman bayramıdır. Küçənin ortasında uzun xəndək qazılıb, içi közlə dolu. Yaxınlaşıram. Xəndəkdəki gözün istisi üzümü qarsır. Gözlənilmədən qəribə bir şəxs görünür. Dörd kişi çiyinlərində üz-gözü qırmızı və ağ rənglərlə zolaqlanmış bir məxluqu ortaya gətirdilər. Sonra onu yerə qoyurlar. Və bu məxluq közün üstü ilə yeriməyə başlayır, ayaqlarını yerə döyə-döyə çağırır: - Allah! Allah! Bu səhnəni görən adamlar mat-məəttəl yerlərində donub qalırlar. Kahinsə sağ-salamat çatır xəndəyin axırına. Bu vaxt bir nəfər irəli çıxır, səndəllərini bir kənara ataraq həmin yolu ayaqyalın keçir. Ondan sonra könüllülər bir-birinin ardınca meydana çıxırlar. Bəziləri xəndəyin ortasında dayanıb "Allah! Allah!" – çığıra-çığıra, əl-qol ata-ata, gözlərini bərəldə-bərəldə dabanlarıyla közü əzir. Heç kəs yanmır. Bəlkə də, yanırlar, amma yandıqlarını kənardan heç cürə bilmək olmur" ("Azərbaycan", № 4. 1987. səh.145).

Zərdüşt Misirin, Şamın, Rumun və Hindistanın bir çox alimləri ilə təmasda olmuş və onlardan bir sıra "sehrikarlıqlar"

öyrənmişdir. Onun qələmə almış olduğu "Avesta"nı guya öz dövründə heç kəs oxuya bilməmişdir. Hətta o dövrün böyük alimi Camasb (Camat) onun əksər sözlərini başa düşməyərək "Avesta"nı "tanrı möcüzəsi olan peyğəmbər kitabı" adlandırmışdır. Zərdüşt öz kitabına iki şərh yazmışdır. Birinci şərhi "Zənd", ikinci şərhi isə "Pazənd" adı ilə məşhurdur.

"Avesta" qızıl tozlu və lacivərd rəngli yağlı boya ilə 12 min inək dərisinə yazılaraq İstəxr qalasında mühafizə olunurmuş. Eramızdan əvvəl IV əsrdə Makedoniyalı İskəndər İranı istila edərkən "Avesta"nın bir hissəsini yandırmışdır. Bu kitab müqəddəs sayıldığına görə atəşpərəst kahinlər yaddaşlarında saxladıqları ehkamları yazıya köçürmüşlər. Rəvayətə görə, bu kitab Nuşirəvanın hakimiyyəti zamanı qadağan olunmuşdur.

"İslam tarixçilərinin demək olar ki, hamısı – Bilazəri, Həmzə İsfəhani, İbn əl-Fəqih, Qəzvinli Yaqut Həməvi və başqaları (İbn Xordadbeh) Zərdüştü Muğanlı sayırdı. Zərdüştün Təbriz yaxınlığındakı Şizdə doğulduğunu tərəddüdsüz qəbul edirlər. Hamı bu fikirdədir ki, Zərdüştilik Günbatandan Gündoğana doğru yayılıb. İngilis şərqşünası Sayks da Zərdüştü azərbaycanlı sayır... Hər halda oda sitayişin, od inamının Urmiyə ətrafından yayıldığı şübhə doğurmur" (Sabir Rüstəmxanlı. Ömür kitabı. "Azərbaycan", №8, 1986. səh.155).

Bu vaxta qədər "Zərdüşt" adının etimologiyası haqqında çoxlu fikirlər söylənmiş və söylənilməkdədir. Bu mülahizələrdə "Zərdüşt" adının "zər"dən (oddan) əmələ gəlməsi və bu sözün Azərbaycan sözü olması haqqında olan fikirlər də çox inandırıcıdır, lakin bu fikir sanki hələ tamamlanmamışdır.

Ən qədim dövrlərdən başlayaraq Şərq ədəbiyyatında Sarı rəng Günəşin, odun rəmzi kimi işlənmişdir. Bizə elə gəlir ki, "Zərdüşt" adındakı "zər" Günəş və od mənasında olan "Sarı" ilə bağlıdır. Çünki insanlar hələ odu kəşf etməmişdən də qabaq sarı rəngdə olan bütün səma cisimləri və o cümlədən Günəş mövcud olmuşdur. Zərdüştilikdə Günəşin müqəddəs sayılması da məhz bununla əlaqədardır.

Zərdüşt və “Zənd” adlarının Günəşlə bağlı olması haqqında “İskəndərnamə” əsərində işarələr də vardır.

Zənd ilə **Zərdüştü** yaxan atəşi
Yaxmışdır dünyanın böyük günəşi (İ-224).

Zərdüştiliyin dini kitabı olan “Avesta” e.ə. VII-VI əsərlərdə yazıya köçürülsə də, bu dinin tarixi daha qədimdir. Belə bir nəhəng dini kitab heç də birdən-birə meydana gələ bilməzdi (“Quran” da birdən-birə yox, tədricən yaranmış və özündən əvvəlki dinlərdə mövcud olan bir çox rəvayətləri özündə əks etdirmişdir). Mənbələrdə tarixi kökləri e.ə. III minilliyə gedib çıxan Sarlar (bax: Qeysər) ta qədim zamanlardan bu dinin ayrı-ayrı müddəalarını şifahi və ya yazılı şəkildə yaratmışlar. Zərdüştün isə ən böyük dahiliyi ondan ibarətdir ki, o, özünə qədər mövcud olan bu şifahi və yazılı müddəaları bir yerə toplamış və kitab halına salmışdır.

Kömür – Hindistanlı bir atəşpərəst,
O da **Zərdüşt** kimi oxuyur “Avəst” (XŞ-102).

Burada yanan kömür Zərdüştə, onun çıxardığı səs isə Zərdüştün “Avesta”nı oxumasına bənzədilmişdir.

Zərdüşt ocağı (məc. ap. və kos.) – Bəhram Gurun qış məclisində yanan ocaq Zərdüştün müqəddəs atəşinə bənzədilir.

Alovdur nəşənin, keyfin dayağı,
Zərdüştün qırmızı kükürd **ocağı** (YG-127).

Bu və ya bundan sonrakı beytlərdə şair səndəl və uddan qalanmış ocağı zərdüştilərin atəşinə, laxtalanan qana, qana batmış al-qırmızı ipəyə, innaba; qızarmış kömür parçaları qara özəyi çıxarılmış və onun yerinə nar dənələri doldurulmuş almaya, yarı yanmış, yarı qaralmış səndəl qırla boyanmış kəhrəbaya, müşklə niqablanmış Günəşə bənzətmişdir. Kömürün alovlanmış qara hissəsi zülmətə, qızarmış hissəsi isə nura, şəfəqə təşbih edilmişdir.

Zərdüşt, “**Zənd**” (ana. müq. on.) – Nizami özü ilə Zərdüştü, “İqbalnamə” ilə “Zənd”i müqayisə edir.

Sehirli nəğmədən **Zərdüşt** xar oldu,
Söndü çox “**Zənd**”lərin alovu, odu (İ-419).

Yəni mənim sehrə - qüvvətə malik sözlərimin müqabilində Zərdüştün (yəni bir çox şairlərin) sözləri kölgədə qaldı, çox "Zənd"lər (yəni həmin şairlərin "İqbalnamə"yə tay olmayan əsərləri) rövnəqdən düşdü.

Zərdüşt "**Zənd**"**i** (məc. id., on. birləşmə) – Alovun çıxardığı çıqqıltılar Zərdüştilərin avazla "Zənd" oxumasına, ocaqdan ətrafa sıçrayan qığılcımlar isə pərvanəyə bənzədilən Muğlara oxşadılır.

Zərdüşt "**Zəndi**" ona nəğmələr saçar,
Muğlar pərvanətək xirqələr açar (YG-128).

Zərdüştilər – atəşpərəstlər atəşgahlarda öz müqəddəs "Zənd-Avesta" kitabından atəş ətrafında dini nəğmələr oxuyardılar. Xirqə - ən kobud parçadan tikilmiş yamaqlı əba, sufilərin rəsmi geyimi olmuşdur. Burada müqəddəs libas simvolu kimi işlənmişdir. Muğ isə atəşpərəstlərin kahinidir. Onlar atəşgahlarda atəş ətrafında oxuyub ritual rəqs edərkən bəzən hala (ekstaza) gəlib öz xirqələrini çıxarıb yandırarmışlar.

Zərdüştilər (qrup an.) – Zərdüşt dininə etiqad bəsləyən xalqların ümumi adı.

Zərdüştilərdə var başqa rəvayət (İ-63).

Zərdüştün "Zənd"i (məc. id., on. birləşmə) – Şair ocağın (atəşin) çıxardığı səsi sazın çıxardığı zümzüməyə və Zərdüştün "Zənd"indən oxunan nəğməyə bənzədir.

Sazının telləri edər zümzümə,
Zərdüştün Zəndindən xoşdur bu nəğmə (YG-224).

Zər-xalxal (top.) – Sərir qalasindan Gilan və Reyə qayıdan İskəndərin ordusunun keçdiyi düzlərdən biri.

Ay yeni doğmuşdu gülpic şəklində,
Getdikcə xalxaltək olunca girdə,
Halqa pərgarından çıxdı İskəndər,
O yerə indi **"Zər-xalxal"** deyirlər (İ-256).

Zərivənd (an.) – İskəndərin Mazandarandan (əsli Gilandan) olan pəhləvanının əsl adı. Bu adın etimologiyası haqqında bax: Zəravənd.

Gilanlı **Zərivənd** Mazandarandan... (İ-324).

Zərrə, Günəş (qoşa məc. ap. və kos.) – Şair metaforik şəkildə özünü zərrəyə, Qızıl Arslanı isə Günəşə bənzədir.

Zərrə gedən kimi böyük **günəşə**
Başımı, boynumu yerə əyərək
Dedim nisar edim bunları gərək (XŞ-369).

Ziqar davası (xron.) – Ərəb və İran qoşunları arasında gedən davanın adı. Ehtimal etmək olar ki, bu dava 629-cu ildə (Çünki Xosrov Pərviz 628-ci ildə öldürülmüş, yerinə Şiruyə keçmişdi. Şiruyə isə cəmi 9 ay hökmdar olmuşdur) baş vermiş və məşhur Mədain şəhəri də bu davada darmadağın edilmişdir. Sasanilər sülaləsinə də bu davada son qoyulmuşdur. Şapur isə Sasanilərin sonuncu hökmdarı olmuşdur.

Dəclədə dəmirdən bir körpü vardı
Coşğun sellər gəlib onu apardı (XŞ-356).

Məlumdur ki, bu dəmir körpü Dəclə çayının hər iki sahilində yerləşən Mədain şəhərini birləşdirirdi.

Ziqar davasında sındı qoşunu,
Göyərçinlər çaldı ovçu quşunu (XŞ-359).

Burada metaforik şəkildə Ərəb ordusu göyərçinə, İran ordusu isə ovçu quşuna bənzədilmişdir.

Zindərud (top.) – İsfahanda böyük bir çaydır. Buna Zəndərud, Zayəndərud, Rudi- Nəsim-Bahar da deyirlər.

Zindərud nəhrindən Xuzanə qədər
Çalğının səsindən canlandı yerlər (İ-182).

Zöhhak (xat. an.) – Qədim İran əfsanələrinə görə, Pişdadiyan sülaləsinin Y hökmdarı sayılır. Ərəb olduğu üçün onu Zöhhak Tazi (ərəb) adlandırırlar. Guya onun çiyinlərində iki ilan varmış. O, hər gün iki nəfər uşağı öldürtdürüb, beynini həmin ilanlara yedirdərmiş. Nəhayət, Gaveyi-Ahəngərin (bax) başçılığı ilə xalq bu zalıma qarşı üsyan etmiş, onu taxtdan salıb, Firudini (bax) şah seçmişdilər. Şərq ədəbiyyatında Zöhhak qəddarlıq, zülm rəmzi, Gavə isə üsyançı kimi işlədılır.

Gəlsə sənlə işrət Firudinin adına,
Başı, beyni yem olsun **Zöhhak** ilanlarına (SX-43).

Yəni əgər sənin (Ərzincan hakimi Bəhram şahın) işrətinə gəlmək Firudinin arına gəlsə, qoy onun beyni Zöhhak ilanlarına yem olsun.

İnsan qanı axıdılacaq səhərin açılması və Günəş Zöhhaka bənzədilir.

Elə ki, o qara ilan büküldü,
Ağ nəfəsli **Zöhhak** – günəş də güldü (LM-129).

Zəhhak, Firidun (qoşa məc. an.) – Qizil Arslanın düşmənləri Zöhhaka, onun köməkçiləri isə Firiduna bənzədilir.

Zöhhakın ilanı səni çalarsa,
Nə qəm, **Firiduntək** köməkçin varsa... (SX-44).

Zöhhak, ilan (qoşa məc. an., ap.) – Şair dünyanı Zöhhaka(Bu qaniçən dünya sənin qatilin olmaq üçün öz belindən bir ilan yaratdı), Şiruyəni isə (bax) Zöhhakın belindən çıxan ilana bənzətmişdir.

Dünya **Zöhhak** kimi qan içəndir, qan!
Sənə öz arxandan yaratdı **ilan** (XŞ-336).

Zöhhak ilanı (məc. zo.) – İki haçalı nizələr Zöhhakın çiyinlərindən çıxan iki ilana bənzədılır.

Qalxdı hər pəhləvan, hər igid əsgər,
Zöhhak ilanına döndü nizələr (LM-129).

Burada Nofəlin(bax) Leylinin atası ilə döyüşə başladığı an təsvir olunmuşdur.

Zöhrə (kos.) – Venera planeti. Ona Karvanqıran da deyilir. Zöhrə eyni zamanda eşq ilahəsinin adıdır. Qədim nücum elminə görə, Zöhrə ulduzu şənlik və çalğı ulduzu hesab olunur.

Təbəssüm qəmi qovdu, açıldı, güldü çöhrə,
Gecələri nəğməkar, müğənni oldu **Zöhrə** (SX-23).

Zöhrə ulduzu nəğməkara, müğənniyə bənzədılmişdir.

Dini rəvayətə görə, guya parlaq Zöhrə planetinə gümüşü rəngi Məhəmməd peyğəmbər vermişdir.

“Dön məhtab rəngində sən də ol” – deyə,
Gümüş pərdə çəkdi parlaq **Zöhrəyə** (YG-27).

Dini əfsanələrə görə, Zöhrə əvvəllər bir qız olmuşdur. Harut və Marut (bax) adlı mələklər ona vurulduğu, günah işlər görüb

Babildə quyuya salındıqdan sonra, Zöhrə də göyə aparılıb ulduza çevrilmişdir.

Zöhrə yerdə bədnamlıq adı alan deyildi,
Harut hələ Babilə qanad çalan deyildi (SX-101).

Sonuncu misrada Babil deyildikdə şəhərin özü yox, Harut və Marutun salındığı quyu nəzərdə tutulur.

Zöhrə planeti Mizan(Tərəzi) bürcündə yerləşdiyi üçün ona Çəkici, Tərəziçi ləqəbi verilmişdir.

Gecənin siqlətini ölçməkdəmi qərəzi?
Zöhrə onu çəkirdi əllərində tərəzi (SX-30).

Beytin mənası belədir: Məhəmməd peyğəmbərin qədr-qiymətini dərk etmək üçün Çəkici, Tərəziçi Zöhrə Tərəzi bürcündə onun vəznini ölçmüşdür.

Yerdə gilə qarışsın ayın nurlu haləsi,
Sınsın Zühəl daşıyla **Zöhrənin** piyaləsi (SX-25).

Ay mücrüsünü yerə vur və Zühəlin daşı ilə Zöhrənin eyş-işrət qədəhini sındır. Yəni cismani aləmin nizamını dağıt.

Fələk kəcavəsinə göz olmuşdu gözüylə,
Ay, **Zöhrə** məşəlini gətirirdi özüylə (SX-29).

Məhəmməd peyğəmbər meraca gedərkən, guya məşəl kimi Ay və Zöhrəni də özü ilə gəzdirirdi.

Şair döğma vətəni olan Gəncəni də Zöhrə ulduzuna bənzədir.

Zöhrə təki ucalıb Mizan bürcünə Gəncə,
Onu belə ucaldan ülvi sözümdür məncə (SX-52).

Yəni Gəncənin Zöhrəsi olan ruhum göylərdə yerləşən Tərəzidə(Mizan bürcündə) əsl sənət sözlərini ölçür.

Zöhrə metaforik şəkildə çalğıçı və xanəndəyə bənzədilmişdir.

Sehirli rübabını tez ələ aldı **Zöhrə,**
Mizrabı sınanacan oxudu, çaldı **Zöhrə** (SX-64).
Zöhrə nəğmə deyib salmışdı haray (XŞ-127).

Zöhrə ulduzu sevinclə qızıl cam qaldıran şəxsə bənzədilir.

Sevinclə qaldırdı **Zöhrə** qızıl cam
Xəvərnəq üstündə gəzəndə Bəhram (YG-63).

Zöhrə planeti kəndxudaya bənzədılır.

Dövrün kəndxudası **Zöhrə** olanda,
O zamana handa, kədər, qəm handa? (YG-101).

Zöhrə planeti metaforik şəkildə qorxudan ödünü qusan adama bənzədilir.

Qorxudan ödünü **Zöhrə** qusurdu (YG-117).

Şair Zöhrə(planet) və zöhrə(öd) omofonundan mahiranə söz oyunu düzəltmişdir. Yəni Bəhram o qədər qan tökdü ki, Zöhrənin qorxusundan bağrı yarıldı və öd qusdu. Aşağıda isə şair özünü Zöhrə planetinə bənzədir.

Zöhrətək çəkiyə qoyaram dirhəm (İ-38).

Zöhrənin evi Tərəzi bürcüdür. Yəni mən də söz dirhəmini (gümüşü) Zöhrə kimi tərəzidə çəkirəm. Şair aşağıda isə Çin xaqanının İskəndərə bağışladığı Taysız gözəli çalıb-oxumaqda Zöhrəyə bənzətmişdir.

Üçüncü, yox səsdə ona bir bədəl,
Şən, şaqraq nəğməsi **Zöhrədən** gözəl (İ-308).

Şair "Şərəfnamə"nin hər bir nəğməsini Zöhrə ulduzundan üstün tutur.

Sazına bağladım elə incə tel,
Olmuş hər nəğməsi **Zöhrədən** gözəl (İ-394).

Zöhrə, Babil (qoşa məc. on.) – İskəndər öz ordusunu İrandan çıxarmaq istəyəndə şair İskəndəri Zöhrəyə, İranı isə Babilə bənzədir.

Zöhrətək Babildən parladı öncə,
Haruti kəsləri təmizləyincə... (İ-174).

Zöhrə, Harut (qoşa məc. on.) – "Şair" eyni vaxtda Harut sehri açan sənətkara və eşq ilahəsi, şənlik, çalğı hamisi hesab edilən Zöhrəyə bənzədilir.

Şair – adı dillərə uçub qonan sənətkar
Məncə, **Zöhrə** özüdür, **Harut** sehri açandır (SX-50).

Şair Əflatunu da metaforik şəkildə Zöhrə və Haruta bənzədir.

Şahın sarayına çatdı bu xəbər
Ki, **Zöhrə Harutla** bəhsə giriblər (İ-469).

Yəni: Saraya xəbər çatdı ki, Əflatun Harut kimi Zöhrə ilə çalğı meydanında deyişməkdədir.

Zöhrə, Mərrix (qoşa məc. kos.) – Zöhrə məşuqa, Mərrix isə aşiqə bənzədilir. Birinci gözəllik, sevinc, şadlıq, parlaqlıq, ikincisi isə qırmızılığına görə işlədilmişdir.

Məşuq – şəkər dodaqlı, aşiq – badam gözlüdü,
Zöhrə, Mərrix eşqdən ixtilatlı, sözlüdü (SX-63).

Zöhrə, Mizan (qoşa məc. kos.) – Zöhrə ulduzu Mizan bürcündə yerləşdiyi üçün yanaşı işlədilir və eyni zamanda Gəncə Mizan bürcünə yüksələn Zöhrəyə bənzədilir.

Zöhrə təki ucalıb **Mizan** bürcünə Gəncə (SX-52).

Aşağıdakı beytdə isə Şirinin rəfiqələri Zöhrəyə, onların hərəkətləri isə Mizan bürcünə bənzədilir.

Açıb **Zöhrə** kimi əl-qol hər biri,
Mizana qoyurdu orda dəyəri (XŞ-108).

Zöhrə (Venera) səyyarəsi öz hərəkəti zamanı Tərəzi (Mizan) bürcündən keçdiyi üçün Nizami "Zöhrə kimi mizana qoyurdu" bədii təşbehini işlətmişdir. Digər tərəfdən Zöhrə əsatirə görə gözəllik və məhəbbət ilahəsi hesab edildiyindən Şirini əhatə edən gözəllər ona bənzədilmişdir.

Zöhrə, Müştəri (qoşa məc. kos.) – Zöhrə və Müştəri ulduzları Allahın quluna bənzədilir.

Zöhrə, Müştəritək sənin qulun var,
Adınla başlanır aləmdə adlar (LM-187).

"Yeddi gözəl" poemasında Qala gözəli Zöhrəyə, onun aşiqi isə Müştəriyə bənzədilir.

Zöhrəydi, aşiqi parlaq **Müştəri**,
Hüsnü batil etdi şamı, şəkəri (YG-192).

İskəndərin Nüşabə ilə oturduğu məclisdə musiqiçi Zöhrəyə, parıldayan şərab kuzələri isə Müştəriyə bənzədilir.

Çalanın **Zöhrətək** oynayır qəlbi,
Kuzələr parıldar **Müştəri** kimi (İ-225).

Zöhrə ulduzu Yaxın Şərqin klassik şairlərinin əsərlərində göylərin çalğıçısı sayılır. Zöhrənin dəfi buna işarədir.

Kosmoqrafiya Müştəri ulduzu üzərində qara xətlər olduğunu göstərir. Müştərinin bu xətlərini qədimdə yazı saymışlar. Şairin

əsərdə işlətdiyi "Müştərinin dəftəri" ifadəsi də məhz bununla əlaqədardır.

İkinci tərəfdən, Müştərinin Zöhrə ilə bir bürcdə qarşılaşması, qədim astroloqların fikrincə, xoşbəxtlik əlamətidir.

Taleyim açıldı, oldum bəxtəvər,
Zöhrə dəf göndərdi, **Müştəri** dəftər (İ-418).

Bu beytdə Zöhrənin dəfi - əyləncəli, zövq verən şeirlər, Müştərinin dəftəri isə xoşbəxtlik kitabı deməkdir ki, bu da "İqbalnamə"yə işarədir. Nizami demək istəyir ki, bu kitabda həm zövq, sevinc, həm də səadət yolunu tapmaq olar.

Zöhrə, Sur, Müştəri, Qövs (qrup məc. kos.) – Bəhram Gur taxta çıxarkən, bu planetlərin yer dəyişmələri gələcəkdə firavanlıq olacağı ilə əlaqələndirilir.

Zöhrə Sura keçdi, **Müştəri Qövsə**,
Bu ev ziynətlənib, döndü Firdovsə (YG-94).

Zöhrə planeti Sur (Öküz) bürcü, Müştəri (Yupiter) isə Qövs bürcünə yaxınlaşmağı şənlik, çalıb-oynamaq, nemət bolluğu, rifah əlamətidir. Firdovs isə Behişt, Cənnət deməkdir.

Zöhrə, Süheyl (qoşa məc. kos.) – Şair Qala gözəlini (bax) Zöhrəyə, Rus şahzadəsini isə Süheylə bənzədir.

Şah toy məclisində saçırdı şəkər,
Zöhrəylə Süheylə kəbin kəsdilər (YG-207).

Zöhrə, Tərəzi (qoşa məc. kos.) – Zöhrə ulduzu Tərəzi (Mizan) bürcündə yerləşdiyi üçün şair bundan istifadə edərək qüvvətli məcazlar qrupu yaratmışdır. Çəkici, tərəziçi ləqəbi daşıyan Zöhrə ulduzu, guya Mizan bürcündə dayanıb, merac zamanı Məhəmməd peyğəmbərin qədr-qiymətinin vəznini ölçür.

Gecənin siqlətini ölçməkdəmi qərəzi?
Zöhrə onu çəkirdi əllərində **Tərəzi** (SX-30).

Zöhrə, Ülkər, Ay, Ütarid (qrup məc. kos.) – Bu səma cisimləri metaforik şəkildə Xosrovla Şirinin kef məclisində iştirak edənlərə bənzədilmişdir.

Zöhrə nəğmə deyib salmışdı haray,
Yarı tutulmuşdu bir həftəlik **ay**,

Həmsöhbət olmuşdu **ülkər** nədimtək,
Ütarid üfüqdə rəqs edirdi tək (XŞ-127).

Zöhrə, "Zənd", Harut (qrup məc. on.) – Nizami öz təbini Zöhrəyə, yazdığı əsərləri "Zənd"ə, o əsərləri oxuyub məftun olanları isə Haruta bənzədir.

Zöhrəyə o "**Zənd**"i kimlər öyrətdi,
Oxuyub **Harutu** tamam bənd etdi (İ-419).

Əsatirə görə, guya Zöhrə ulduzu çox gözəl oxumağı ilə Harutu cəzb etmiş, Harut da ona qovuşmaq üçün sehrbazlığa başlamış və sehrbazlıq etdiyinə görə cəzalandırılaraq quyudan başı üstə asılmışdır.

Zöhrə, Zöhrə (tək. kos.) – Adın təkrar olunması sanki hadisənin başlanmasından qurtarmasına qədər olan zamanı ifadə edir.

Sehirli rübabını tez ələ aldı **Zöhrə**,
Mizrabı sınanacan oxudu, çaldı **Zöhrə** (CX-64).

Zur şəhəri (top.) – Babilin yaxınlığında şəhərdir.

Yolda **Zur şəhrinə** gəlib çatanda
Pozuldu səhhəti şahın bir anda (M-579).

Söhbət İskəndərdən gedir.

Zübeydə (xat. an.) – Abbasiyə xəlifələrinin beşincisi Harunərrəşidin (bax) arvadı və Abbasi xəlifələrinin altıncısı Əminin anasıdır. Zübeydə kəsgin ağlı, zəkası, gözəlliyi, fəsahətli şeirləri və səxavəti ilə məşhur olmuşdur. Görünür, ərinin ölümündən sonra o, bir müddət dul qalmışdır. Şair əsil sənətkar şairləri adi şairlərlə müqayisə etdiyi vaxt Zübeydəni də xatırlamışdır.

Hər meyvə yeyilməz əncir adına,
Zübeydə deyilməz hər dul qadına (İ-41).

Şair metaforik şəkildə Leylini Zübeydəyə, Məcnunu isə onun əri qoca xəlifəyə bənzədir.

Zeyd xəbər yetirdi o **Zübeydəyə**,
Bu qoca xəlifə yumşalmış, deyə (LM-251).

Yəni Zeyd Leyliyə xəbər gətirdi ki, Məcnun onunla görüşməyə razılıq vermişdir.

Zühəl (kos.) – Ərəb dilində Saturn planetinin adıdır. Müştəridən sonra Günəş sistemində ikinci böyük səyyarədir. Onun

doqquz peyki vardır. Günəş ətrafında 30 ilə dolanır. Yerdən 763 dəfə böyükdür. Qədim münəccimlərin əqidəsinə görə, Yeddi səyyarənin hər biri bir iqlimin himayəçisidir. Hindistan yeddinci iqlim olduğundan və Zühəl yeddinci səyyarə sayıldığından həmin məmləkətin himayəçisi hesab olunur. Zühəl "fələyin mühəndisi" adı ilə poetik obraza çevrilmişdir. Onun bir adı da Keyvandır(Bu onun farsca adıdır). Qədim Roma əsatirindən mövsüm və məhsuldarlıq tanrısıdır. Saturnun adı ilə əlaqədar Romada müqəddəs məbəd yaradılmışdır. Orada hər ilin dekabr ayında yeddi gün davam edən ənənəvi Saturnaliya adlı bayram qeyd edilərmiş. Dekabrın 19-da qullar azad olunarmış, quldarlar həmin gün öz qullarına qulluq edərmiş. Saturn antik incəsənətdə başında örtük, əlində oraq, Zevsə oxşar şəkildə təsvir edilmişdir ki, bu da onun məhsul məbudu olması ilə əlaqədardır. Qədim nücum elminə görə, Zühəl nəhs ulduzdur. Bu ulduzun altında doğulanlar bədbəxt olurlar.

Yerdə gilə qarışsın ayın nurlu haləsi,
Sınsın **Zühəl** daşıyla Zöhrənin piyaləsi (CX-25).

Şair ikinci misrada məhz buna işarə etmişdir.

Zühəl ulduzu Qızıl Arslanın quluna bənzədilir (kosmonimin antroponimə bənzədilməsi).

Zühəl onun qulu olmasa əgər,
Nə qədər qocalsa, göylərdən enər (XŞ-42).

Zühəl, Mizan (qoşa məc. kos.) – Zühəl (Saturn) planetinin Mizan bürcündə olması varlıq əlamətidir. Odur ki, Bəhramın var-dövləti sanki Yerdən Keyvana (Saturnə) qədər ucaldı.

Uzadıb əlini **Zühəl Mizana**,
Toplamışdı xəznə yerdən Keyvana (YG-94).

Züleyxa (məc. an.) – Dini rəvayətlərə görə,Yusifi satın almış Misir şahının vəzirinin arvadıdır. O, Yusifin gözəlliyinə bənd olmuş, lakin Yusif onu rədd etmişdir. Buna görə də, o, Yusifə böhtan ataraq onu həbs etdirmiş, yeddi il sonra hökmdarın yuxusunu düzgün yozduğu üçün həbsdən buraxılmışdır. Şah öldükdən sonra Yusif hakimiyyətə keçmiş və Züleyxa ilə evlənmişdir. Şərq ədəbiyyatında bu mövzuda bir sıra əsərlər yazılmışdır (10-84).

Yaxın Şərq ədəbiyyatında bir çox şairlərin müraciət etdikləri bu mövzu XY əsr tacik şairi Əbdürrəhman Cami tərəfindən daha yüksək bədii keyfiyyətdə qələmə alınmışdır. XYI əsrin böyük Azərbaycan şairi Məhəmməd Füzuli də özünün "Hədiqət-üs-süəda" adlı əsərində bu mövzunu bir rəvayət kimi əsərə daxil etmişdir. "Yusif" adı Şərq ədəbiyyatında gözəllik rəmzi kimi işlədilir.

XX əsrin məşhur türk şairi Nazim Hikmətin də bu mövzuda əsəri vardır.

Züleyxanın eşqindən Misirtək yandı aləm,
Yusifin camalıyla nura boyandı aləm (CX-57).

Yəni Züleyxa məskəni olan bədən Misrindən qəlbim Yusif kimi xilas oldu. Züleyxa burada şəhvət, ehtiras, tamah rəmzidir.

Yusif və Züleyxa adları çox vaxt yanaşı işlədilir.

Zülqərneyn (an.) – Makedoniyalı İskəndərin ləqəbi. Bax: İki qərn sahibi.

İskəndər bilmişlər o gündən bəri
Buynuzlu çəkmişlər mələkələri.
Odur ki, şübhəyə düşmüş ərəblər.
"Zülqərneyn" ləqəbi almış İskəndər (İ-436).

Əbu Məşər (bax) "Ülüf" (bax) kitabında yazır ki, İskəndər öləndən sonra yunanlar onun surətini çəkmişlər. Həmin surətin sağ və solunda iki mələk şəkli də rəsm etmişlər. Surətin üstündə iki buynuz şəkli olmuşdur. Guya İskəndər Allah tərəfindən yaradılıb yerə göndərilmiş, bu mələklər də onun sağ-solunda qarovulçusudurlar. Sonra həmin şəkil ərəblərin əlinə keçmiş, onlar buynuzlu mələyi İskəndər bilib ona "Zülqərneyn" (ikibuynuzlu) adını vermişlər.

İskəndər sikkəsi üstündə buynuzlu büt şəklinin həkk edildiyi də məlumdur.

Başqa bir bilici deyir ki,onun
Qulaqları varmış həddindən uzun.
Dürdən taca bənzər qınları varmış,
İki qulağına o qın taxarmış (İ-436).

Guya İskəndərin qulaqları çox uzun imiş, onları gizlətmək üçün o, tacının yanlarında buynuza oxşar iki balaca qın qayıtdırıbmış, tacını qoyanda qulaqlarını o qınların içinə salırmış.

Zülmat (məc. mif. top.) – Bax: Zülmət. Məhəmməd peyğəmbərin dünyada varlığı Zülmətdə olan Dirilik suyuna (Abi həyata) bənzədilir.

Parlayıb nur saçdı bu kainatda,
Bənzərdi **Zülmatda** abi-həyata (İ-413).

Yəni Məhəmməd peyğəmbər cəhalət qaranlığında olan dünyaya öz mərifəti ilə işıq saçdı (İ-653).

Zülmət (top.) – Yəni oradan əvvəl IX əsrdə Babilistanda hazırlanan coğrafiya xəritələrində "Zülmət" haqqında da məlumat vardır. Həmin xəritədə təsvir olunur ki, dünyanın quru hissəsi hər tərəfdən dairəvi şəkildə - üzük qaşı kimi su ilə əhatə olunmuşdur. Uzaqda isə adalar görünür. Şimalda – lap uzaqda yerləşən adalardan birinin yanında belə bir qeyd var: "Günəşin görünmədiyi yer".

Keçmişdə Atlantik okeanına da "Zülmət dənizi" deyilirmiş. X əsrdə Hind və Sakit okeanlarına bələd olan ərəblər Şimali Afrikanı və İspaniyanı zəbt etdikdən sonra Atlantik okeanını – Zülmət dənizini də öyrənməyə, onun içərilərinə doğru səyahətlərə çıxmağa başlamışdılar (17-8,16).

Bizcə, "Zülmət" dedikdə, o dövrdə sirri elm aləminə bəlli olmayan, ilin yarısı gecə, yarısı gündüz keçən şimal ölkələrini nəzərdə tutmaq lazımdır. Guya Əfsanəvi Dirilik suyu da Zülmətdədir.

Eşidincə bunu şah dedi: "Ancaq
Zülmətdə mümkündür işığı tapmaq" (İ-376).

Zümrüd (məc. mif.) – Bax: Zümrüd quşu. İnsan Zümrüd quşuna bənzədilir.

Dünya sirli saraydır, sirdaş da sənsən ona,
Torpaq acgöz bir quşdur, ən gözəl dənsən ona.
Xilas elə canını sinə sökən bu quşdan,
Zümrüd kimi havalan, görünməz ol uçuşda (SX-92).

Quş dəni dənləyən kimi Yer səni dənləyib udacaqdır. Odur ki, sən Zümrüd(Simurq) quşu kimi Yer üzündə mənəviyyata qulluq et və özünü təmkinli apar.

Zümrüd quşu (mif.) – Əfsanəvi Simurq quşu (bax). Bu quş Günəşlə, Ayla əlaqədar kosmik obrazdır. Həmişə xeyirxah qüvvələrin tərəfində durur və onların qələbəyə nail olmasına çalışır. Qəhrəmanları ən çətin vəziyyətdən çıxarır. Bax: Sam oğlu Zal.

Zümrüd quşu bəsləyən Sam oğlu Zaldı bəşər,
Dünya Samdır, qocalmaz, Zaltək qocaldı bəşər (SX-80).

Ədalət Zümrüd quşuna bənzədilir.

İnsan indi taparmış arasa ədaləti?
Zümrüd quşu aparıb harasa ədaləti (SX-87).

Səadət və xeyirxahlıq rəmzi olan əfsanəvi Zümrüd quşu (Simurq) gözəgörünməzdir və Elbrus dağının (bax) əlçatmaz zirvəsində yaşayır.

Beytin məzmunu: Bizim zəmanəmizdə ədalətdən əsər yoxdur, o, dağlara qaçıb, Zümrüd quşunun qanadları altında özünə yer tapmışdır.

Bakı – Masallı, 1981 – 2012-ci illər.

ƏDƏBİYYAT

1. Adilov M. Niyə belə deyirik. Bakı, 1974.
2. Adilov M. Niyə belə deyirik. Bakı,1982.
3. Axundov A. Torpağın köksündə tarixin izləri. Bakı,1983.
4. Aşurbəyli S. Qosudarstvo Şirvanşaxov. Bakı,1983.
5. Azərbaycan dilinin izahlı lüğəti. I c. "Şərq-Qərb". Bakı, 2006.
6. Azərbaycan dilinin izahlı lüğəti. II c. "Şərq- Qərb". Bakı, 2006.
7. Azərbaycan dilinin izahlı lüğəti. III c. "Şərq -Qərb". Bakı, 2006.
8. Azərbaycan dilinin izahlı lüğəti. IV c. "Şərq- Qərb". Bakı, 2006.
9. Azərbaycan ədəbiyyatı tarixi. I c. Azərbaycan SSR EA-nın Nəşriyyatı. Bakı, 2006.
10. Babayev A. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların şərhi.Bakı ,1974.
11. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı ,1988.
12. Cəfərsoylu İlhami. Türk dillərində teonim və etnonimlər. Bakı , 2010.
13. Kərəmov N. Odlar yurdunun səyyahı və coğrafiyaşünasları. Bakı ,1986.
14. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. I c."Şərq-Qərb". Bakı, 2005.
15. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. II c. "Şərq-Qərb". Bakı , 2005.
16. Qumilev L.N . Drevniye Tyurki . Moskva, 1967.
17. Mahmudov Y. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı ,1985.
18. Mirzəyev O. Adlarımız. Bakı, 1987.
19. Nəbiyev N. Coğrafi adlar. Bakı ,1982.
20. Nizami Gəncəvi. Sirlər Xəzinəsi. Bakı, 1953.
21. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı ,1962.

22. Nizami Gəncəvi. Leyli və Məcnun .Bakı ,1959.
23. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı ,1946.
24. Nizami Gəncəvi. İskəndərnamə. I c. Bakı ,1964.
25. Nizami Gəncəvi. İskəndərnamə. II c. Bakı ,1967.
26. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı, 1981.
27. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı ,1982.
28. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı ,1982.
29. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı , 1983.
30. Nizami Gəncəvi. İskəndərnamə. Bakı 1982.
31. Nizami Gəncəvi. Xosrov və Şirin (filoloji tərcümə). Bakı , 1981.
32. Nizami Gəncəvi. Leyli və Məcnun (filoloji tərcümə). Bakı , 1981.
33. Nizami Gəncəvi. Yeddi Gözəl (filoloji tərcümə) . Bakı, 1983.
34. Nizami Gəncəvi. İskəndərnamə (filoloji tərcümə). Bakı , 1983.
35. Paşayev A. Nizami Gəncəvi yaradıcılığında xüsusi adlar haqqında. “Azərbaycan dili və ədəbiyyat tədrisi”. N-3, 1982 . səh.44-51.
36. Paşayev A. Nizami Gəncəvinin poetik antroponimikası. “Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları” toplusu. “APİ” . Bakı, 1987. səh. 53-55.
37. Paşayev A. ”Xəmsə”də bəzi adların yazılışına dair(Metodik tövsiyə). “APİ”. Bakı , 1990. 50 səh.
38. Paşayev A. Nizami tükənməz mövzu mənbəyidir.”Azərbaycan gəncləri” q. 13.10.1990.
39. Paşayev A. Nizaminin məcazi adlar aləmi və şagirdlərin elmi dünyagörüşü. ”Ana sözü” j . N-1. 1991. səh.23-25.
40. Paşayev A. Nizami yaxşı ad qazanmaq haqqında. “Dan ulduzu” q. 21.05.1991.
41. Paşayev A. Yaxşı ad – əbədiyyətdır. ”Novruz” q. 25.12.1991.

42. Paşayev A. ”Xəmsə”də mifonimik obraz adları haqqında. ”Azərbaycan onomastikası problemləri” toplusu. IV. “APİ”. Bakı , 1993. səh.63-65.
43. Paşayev A. Nizami Gəncəvinin poetik adlar aləmi. Poetik antroponimika . Bakı , 2010. 208 səh.
44. Paşayev A. Nizami yaradıcılığı və Azərbaycan intibahı. ”Azərbaycan dili və ədəbiyyatı tədrisi”. № 3. Bakı, 2011. səh.6-10.
45. Paşayev A., Bəşirova A. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı, 2011. 340 səh.
46. Rəb İsa Məsihin xoş xəbəri yaxud Əhdi Cədid (“İncil”). Bibliya Tərcümə İnstitutu. 1982.
47. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. B. 1983.
48. Səfərli Ə., Yusifov X. Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı. 1982.
49. Sərkaroğlu Əsgər. Azərbaycanın peyğəmbərləşən mütəfəkkir şairi. I c. ”Elm”. Bakı, 2004.
50. Süleymenov O. Az-Ya. Bakı, 1993.
51. Şükürlü Ə. Gəncəli Nizamidə türkçülük. Bakı , 2002.
52. Tanrıverdi Ə. Qədim mənbələrdə yaşayan şəxs adları. Bakı. 2009.

Aydın Məmməd oğlu Paşayev
"Xəmsə"də işlənən xüsusi adların izahlı lüğəti
(Poetik onomastikon)

Nəşriyyat direktoru:
Prof. Nadir Məmmədli

Kompyuterdə yığdı:
Günay Bəşirova

Korrektor:
Turanə Bəşirova

Kağız formatı: 60/84 32/1

Mətbəə kağızı: ¹1

Həcmi: 422 səh

Tirajı: 200

Kitab "Nurlan" NPM-in Kompyuter Mərkəzində
yığılmış, səhifələnmiş, ofset üsulu ilə

hazır deopozitivlərdən çap olunmuşdur.

Aydın Məmməd oğlu Paşayev

22 yanvar 1939-cu ildə Masallı rayonunun Kəlbəhüseynli kəndində anadan olmuş, 1967-ci ildə ADPU-nun filologiya fakültəsinin axşam şöbəsini qurtarmış, 1987-ci ildə "Azərbaycan dilində ləqəblər" mövzusunda namizədlik, 2010-cu ildə isə "Azərbaycan antroponimiyasının leksik problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Hazırda BPKİYİ-nin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri olan A.Paşayev ömrünün 12 ilini fəhləliyə, 45 ilini isə gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir.

A.Paşayev dəfələrlə onomastikanın müxtəlif problemlərinə həsr olunmuş respublika və beynəlxalq elmi-praktik konfranslarda məruzə ilə çıxış etmişdir. Bu vaxta qədər 27 elmi, elmi-metodik tövsiyə və vəsait, monoqrafiya və lüğətin, 250-dən çox elmi-metodik məqalənin müəllifidir.

O, 1980-ci ildən Nizami Gəncəvinin yaradıcılığında işlənən xüsusi adların poetik xüsusiyyətlərinin tədqiqi ilə məşğul olmuş, bu mövzuya onlarla məqalə, "Xəmsə"də bəzi adların yazılışına dair" adlı metodik tövsiyə (1990) və "Nizami Gəncəvinin poetik adlar aləmi (Poetik antroponimika)" adlı monoqrafiya (13, ç.v. 2010) həsr etmişdir. F.e.d., professor A.Paşayev son illərdə isə türk mənşəli beynəlxalq onomastik vahidlərin tədqiqi ilə məşğuldur.